FƏZİLƏTLİ ƏMƏLLƏR

ƏMR BİL-MƏ’RUF
YAXŞI ƏMƏLLƏRƏ TƏŞVİQ ETMƏK



BAKI
III nəşr
H 1435 / M 2014

Hazırladı: R. İsbarxanlı
Tərcümə edən: Rəşad Rəhimli
İxtisas redaktoru: Elşən Şəkərov
Korrektor: Vüqar Katibli

Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin 16.09.2011-cu il tarixli № DK - 429/Q icazəsi əsasında çap edilmişdir

Kitabda olan xəta və səhvləri düzəltmək üçün bura müraciət edə bilərsiniz:
qudsihadisler@mail.ru

بسم الله الرحمن الرحيم

إنَّ الحَمْدَ للهِ ، نَحْمَدُهُ ونَسْتَعِينُهُ ونَسْتَغفِرُهُ، ونَعوذُ باللهِ مِنْ شُرورِ أنفُسنا ، ومِنْ سيِّئاتِ أعمالنا ، مَنْ يَهدِه اللهُ فلا مُضِلَّ لَهُ ، ومَنْ يُضلِلْ فَلاَ هَادِيَ لَهُ ، وأَشهدُ أنْ لاَ إلهَ إلاَّ اللهُ وَحدَهُ لاَ شَرِيكَ لَهُ ، وأَشْهَدُ أَنَّ مُحَمَّداً عَبْدُهُ ورَسُولُهُ.

﴿ يا أيُّها الَّذينَ آمَنُوا اتَّقُوا اللهَ حَقَّ تُقاتِهِ وَلاَ تَمُوتُنَّ إلاَّ وأنتُم مُسْلِمونَ ﴾ سورة آل عمران : الآية ، ١٠٢.

﴿ يا أيُّها النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذي خَلَقَكُم مِّن نَفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْها زَوجَها وَبثَّ مِنهُما رِجَالاً كَثيراً وَنِسَاءً واتَّقُوا اللهَ الَّذي تَسَاءلُونَ بِهِ وَالأَرْحامَ إنَّ اللهَ كَانَ عَلَيكُم رَقيباً ﴾ سورة النساء : الآية ، ١.

﴿ يَا أيُّها الَّذينَ آمَنُوا اتَّقُوا اللهَ وَقُولُوا قَولاً سَديداً ، يُصلِحْ لَكُمْ أعْمالَكُمْ ويَغْفِر لَكُمْ ذُنُوبكُم ومَن يُطِعِ اللهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوْزاً عَظِيماً ﴾ سورة الأحزاب : الآية ، ٧١.

أما بعد : فإنَّ أصْدَقَ الحديث كلامُ اللهِ ، وخَيرَ الهَدي هَديُ مُحَمَّدٍ – صلَّىٰ اللهُ عليه وعلىٰ آله وسلَّم – وشرَّ الأُمورِ مُحْدَثاتُها وكلَّ مُحْدَثَةٍ بِدعَةٌ ، وكلَّ بدعةٍ ضلالَةٌ ، وكلَّ ضلالةٍ في النَّارِ(*).

(*) هذه الخطبة ؛ تسمَّىٰ : « خطبة الحاجة » وهي تُشرع بين يدي كلِّ حاجة ، والتي كان رسول الله ﷺ يعلِّمها أصحابه ؛ أن يقولوها بين يدي كلامهم ، في أمور دينهم سواء كان ؛ خطبة نكاح ، أو جمعة أو محاضرة ، أو غير ذلك ، وهي في : « سنن ابن ماجه » و « سنن الترمذي » و « سنن أبي داود » و « سنن النسائي » ، وورد ذكر طرف من هذه الخطبة في : « صحيح مسلم ».

ÖN SÖZ

Həmd ancaq Allahadır, Ona həmd edir, Ondan yardım və məğfirət diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə, onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa, heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa haqq ilah (məbud) yoxdur, O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ حَقَّ تُقَاتِهِ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنْتُمْ مُسْلِمُونَ﴾

"Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün" *(Ali-İmran, 102).*

﴿يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ مِنْ نَفْسٍ وَاحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالًا كَثِيرًا وَنِسَاءً وَاتَّقُوا اللَّهَ الَّذِي تَسَاءَلُونَ بِهِ وَالْأَرْحَامَ إِنَّ اللَّهَ كَانَ عَلَيْكُمْ رَقِيبًا﴾

"Ey insanlar! Sizi tək bir şəxsdən *(Adəmdən)* ***xəlq edən, ondan da zövcəsini*** *(Həvvanı)* ***yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun.*** *(Adı ilə)* ***bir-birinizdən*** *(cürbəcür şeylər)* ***istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir"*** *(ən-Nisa, 1).*

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا. يُصْلِحْ لَكُمْ أَعْمَالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَمَنْ يُطِعِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوْزًا عَظِيمًا﴾

"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! *(Əgər belə etsəniz)* ***Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə*** *(Cənnətə)* ***nail olar"*** *(əl-Əhzab, 70-71).*

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən xeyirlisi Muhəmmədin salləllahu aleyhi və səlləm[1] yoludur. Əməllərin ən pisi sonradan uydurulanlardır. Sonradan uydurulub dinə salınan hər bir əməl bidətdir, hər bir bidət isə zəlalətdir. Zəlalət isə oddadır.[2]

---

[1] Allahın salavatı və salamı onun üzərinə olsun! Biz bu kəlməni bəzəkli ərəb şrifti ilə də yaza bilərdik. Lakin məqsəd, oxucunun bu kəlməni oxuyub savab qazanması və onu salavatı deməyə təşviq etməkdir.

[2] Bu dua "Xutbətul-Hacə" adı ilə məşhurdur. Əhməd, 1/ 392, 293, 432; Əbu Davud, 2188; ət-Tirmizi, 1105; İbn Məcə, 1892; Muslim "Şərhu Nəvəvi" 6/ 153-156; Əhməd, 3/ 319, 371; ən-Nəsəi, 3/ 188, 189. Hədis alimi Muhəmməd Nəsirəddin əl-Albani ﷺ hədisin səhiholduğunu bildirmişdir.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Hər şeyi yaradan, nizama salan, nəzarət edən, bəndələrini doğru yola yönəldən, ruzi verən, möminlərə yardım edən, zalımlara tövbə etmək üçün möhlət verən, əbədi yaşayan, hər şeydən xəbərdar olan, uca, müqəddəs, səxavətli, bu dünyada hər kəsə, Axirətdə isə yalnız möminlərə rəhmli olan Allahdan başqa həqiqi ilahın olmadığına şəhadət edirəm. Həmçinin, peyğəmbərlərin ən fəzilətlisi, bütün bəşəriyyətə göndərilən, hər kəsə nümunə olan Muhəmməd peyğəmbərin Allahın qulu və elçisi olduğuna şəhadət edirəm. Ona, ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

Möhtərəm müsəlman qardaş və bacılar! Allaha çox şükürlər olsun ki, Allah bizi cəhalət uçurumundan çıxararaq doğru yola yönəltdi və bizə Öz Peyğəmbərinin sallәllahu aleyhi və sәllәm yolunu tutub getməyi nəsib etdi.

Uca Allah Qurani-Kərimin bir çox ayələrində yaxşı işləri əmr edib pis işlərdən çəkindirməyi buyurmuşdur. Həmçinin, Məhəmməd sallәllahu aleyhi və sәllәm ümmətinin tərifəlayiq əməlləri etməsi onların ən xeyirli ümmət olmasına səbəb kimi göstərilmişdir. Bu əməllərin mühüm sayılanlarından biri də, yaxşı işləri əmr edib pis işlərdən çəkindirməkdir. Uca Allah buyurur: ***"Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz. (Onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız".*** *(Ali-İmran, 110).*

Əgər Allahın yaxşı əməllər etməyi əmr edib pis işlərdən çəkindirmək haqqında ayəsini imandan öncə qeyd etməsinə diqqət yetirsən, bu vacib əməlin nə qədər böyük əhəmiyyət daşıdığını görərsən. Allahın bu əməli önə çəkməsinə səbəb onun bütün cəmiyyətin mənafeyini əks etdirməsidir. Uca Allah buyurmuşdur: *"**Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar. Onlar** (insanlara) **yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm edəcəkdir. Allah, həqiqətən, yenilməz qüvvət və hikmət sahibidir!**" (ət-Tövbə, 71).*

Ayədə yaxşı işlər görməyi əmr edib pis işlərdən çəkindirməyin namaz qılıb zəkat verməkdən öncə qeyd olunmasına diqqət yetir. Ayə yaxşı işləri əmr edib pis işlərdən çəkindirməyin mömin kişi və qadınlara məxsus əxlaqi keyfiyyət və onların mütləq sifətlərindən olmasına dəlildir. Onlar bu işlərindən ayrılmamalı və onun icrasında səhlənkarlığa yol verməməlidirlər. Quranda belə mənalı ayələr çoxdur. Qurani-Kərimdə Allah əməlisaleh qullarına yaxşı əməllər etməyə təşviq edərək onların savablarını artıracağını vəd verir**: *"Mallarını Allah yolunda xərcləyənlərin məsəli yeddi sünbül verən bir toxumun məsəlinə bənzəyir ki, sünbüllərin hər birində yüz***

ədəd dən vardır. Allah istədiyi kimsənin mükafatını artırar. Allah *(hər şeyi)* ***Əhatəedəndir, Biləndir"*** *(əl-Bəqərə, 261).* Həmçinin, Peyğəmbərin sallәllahu aleyhi və sәlləm pak sünnəsində də mükafatı böyük olan fəzilətli əməllərə dair çoxlu hədislər vardır.[3]

Biz məhz bu mövzuya müraciət edərək Peyğəmbərimizin sallәllahu aleyhi və sәlləm hədislərini toplamaq qərarına gəldik. Mövzu ilə əlaqəli həm qəlb əməllərinə, həm də zahiri əməllərə dair böyük mükafat vəd edilən hədisləri topladıq. Kitabda olan hədisləri mötəbər hədis kitablarından seçərək mükafat baxımından daha fəzilətli olanlarını daxil etdik. Bu hədisləri toplayarkən yalnız səhih hədislərə yer verməyi qarşımıza məqsəd qoyduq. Kitabın hazırlanmasında Əlixan Musayevin Azərbaycan dilinə tərcümə olunmuş "Səhih əl-Buxari" və "Səhih Muslim və şərhi" adlı kitablardan geniş şəkildə yararlandıq. Həmçinin, hədis alimi [4] Şeyx Muhəmməd Nəsirəddin əl-Albaninin ﵀ təhqiq edib səhih adlandırdığı hədislərə üstünlük verdik.

Həmçinin, onu da qeyd etmək istəyirik ki, hədislərdə "bağışlanar" dedikdə kiçik günahların bağışlanmasından söhbət gedir. Lakin elə əməllər vardır ki, onları etdikdə insan böyüklü-kiçikli bütün günahlardan təmizlənir. "Bağışlanar" sözü o deməkdir ki, günahlarından keçilir. "Silinər" dedikdə isə günahı etməmiş kimi sayılır. Bu isə daha fəzilətlidir.

Allahdan istəyimiz budur ki, bu əməli bizdən qəbul etsin, onu oxuyub əməl edən bütün müsəlmanları xeyir ilə mükafatlandırsın. Allah bu kitabın işıq üzü görməsi üçün köməklik edən bütün müsəlmanlardan razı olsun! Amin!

Allahın peyğəmbəri Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

Redaksiya heyəti

---

[3] Hədis - lüğətdə söhbət, danışıq, yeni və s. mənaları ifadə edir. İstilahi mənası isə Peyğəmbərə ﷺ istinad edilən kəlmə və ya hərəkət, yaxud təsdiq etmə. Bu da Peyğəmbərin ﷺ səhabənin dediyi sözü, yaxud etdiyi hərəkəti bəyənib etiraz etməməsidir.

[4] Bu, hədislər rəvayət edib onları araşdırıb-anlamaqla hədis elmilə məşğul olan bir kimsədir ki, əksər rəvayətlərdən və onları rəvayət edənlərdən xəbərdardır.

ELM

ELMİN FƏZİLƏTİ

١ - عَنْ أَنَسٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «طَلَبُ الْعِلْمِ فَرِيضَةٌ عَلَى كُلِّ مُسْلِمٍ، وَإِنَّ طَالِبَ الْعِلْمِ يَسْتَغْفِرُ لَهُ كُلُّ شَيْءٍ حَتَّى الْحِيْتَانُ فِي الْبَحْرِ».

1. Ənəs[5] ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Elm öyrənmək hər bir müsəlmana fərzdir. Həqiqətən, hər şey, hətta dənizdəki balinalar belə elm tələbəsi üçün bağışlanma diləyirlər”.[6]

٢ - عَنْ أَبِي أُمَامَةَ الْبَاهِلِيِّ ﷺ قَالَ ذُكِرَ لِرَسُولِ اللَّهِ ﷺ رَجُلاَنِ أَحَدُهُمَا عَابِدٌ وَالآخَرُ عَالِمٌ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «فَضْلُ الْعَالِمِ عَلَى الْعَابِدِ كَفَضْلِي عَلَى أَدْنَاكُمْ». ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ وَمَلاَئِكَتَهُ وَأَهْلَ السَّمَوَاتِ وَالأَرْضِ حَتَّى النَّمْلَةَ فِي جُحْرِهَا وَحَتَّى الْحُوتَ لَيُصَلُّونَ عَلَى مُعَلِّمِ النَّاسِ الْخَيْرَ»

2. Əbu Umamə əl-Bəhili[7] ﷺ rəvayət edir ki, Allah Elçisinin sallәllahu aleyhi və sәllәm yanında biri abid (ibadət edən), digəri alim olan iki kişidən bəhs edildikdə, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: “Alimin abiddən olan üstünlüyü mənim sizin ən aşağı olanınızdan üstünlüyü kimidir”. Sonra Allah Elçisi sallәllahu aleyhi və sәllәm dedi: “Allah və Onun mələkləri, səma və yer əhli, hətta yuvasındakı qarışqa və hətta balina belə insanlara xeyir öyrədənə salavat[8] edirlər”.[9]

٣ - عَنْ قَيْسِ بْنِ كَثِيرٍ قَالَ قَدِمَ رَجُلٌ مِنَ الْمَدِينَةِ عَلَى أَبِي الدَّرْدَاءِ ﷺ وَهُوَ بِدِمَشْقَ فَقَالَ مَا أَقْدَمَكَ يَا أَخِي فَقَالَ حَدِيثٌ بَلَغَنِي أَنَّكَ تُحَدِّثُهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ أَمَا جِئْتَ لِحَاجَةٍ قَالَ لاَ. قَالَ أَمَا قَدِمْتَ لِتِجَارَةٍ قَالَ لاَ. قَالَ مَا جِئْتَ إِلاَّ فِي طَلَبِ هَذَا الْحَدِيثِ قَالَ فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ سَلَكَ طَرِيقًا يَبْتَغِي فِيهِ عِلْمًا سَلَكَ اللَّهُ بِهِ طَرِيقًا إِلَى الْجَنَّةِ وَإِنَّ الْمَلاَئِكَةَ لَتَضَعُ أَجْنِحَتَهَا رِضًا لِطَالِبِ الْعِلْمِ وَإِنَّ الْعَالِمَ لَيَسْتَغْفِرُ لَهُ مَنْ فِي السَّمَوَاتِ وَمَنْ فِي الأَرْضِ حَتَّى الْحِيتَانُ فِي الْمَاءِ وَفَضْلُ الْعَالِمِ عَلَى الْعَابِدِ كَفَضْلِ الْقَمَرِ عَلَى سَائِرِ الْكَوَاكِبِ إِنَّ الْعُلَمَاءَ وَرَثَةُ الأَنْبِيَاءِ إِنَّ الأَنْبِيَاءَ لَمْ يُوَرِّثُوا دِينَارًا وَلاَ دِرْهَمًا إِنَّمَا وَرَّثُوا الْعِلْمَ فَمَنْ أَخَذَ بِهِ أَخَذَ بِحَظٍّ وَافِرٍ».

---

[5] Əbu Həmzə Ənəs ibn Malik ibn ən-Nədr əl-Ənsari əl-Xəzrəci ən-Nəccari əl-Mədəni ﷺ Peyğəmbərin ﷺ həm xidmətçisi, həm qadın tərəfdən onun qohumu, həm də ən çox hədis rəvayət edən səhabələrindəndir. Hicrətdən on il əvvəl dünyaya gəlmiş, hicrətin 93-cü ilində yüz üç yaşında vəfat etmişdir.

[6] İbn Abdul-Bərr “Cəmiu Bəyənul-İlm və Fədlihi” 10; İbn Məcə 223. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 3914) səhih olduğunu bildirmişdir.

[7] Əbu Umamə Sudey ibn Əclan əl-Bəhili ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 86-cı ilində 91 yaşında vəfat etmişdir.

[8] Salavat kəlməsi dua mənasındadır. Uca Allahın bəndəsinə salavat etməsi - ona rəhm və məğfirət etməsi deməkdir. Mələklərin insana salavat etməsi - mələklərin onun üçün istğfar etmələri deməkdir.

[9] ət-Tirmizi, 2685, 2901. əl-Albani səhih olduğunu bildirmişdir.

3. Qeys ibn Kəsir rəvayət edərək demişdir: ”Mədinə şəhərindən olan bir kişi Əbud-Dərdə[10] ﷺ Dəməşqdə olarkən onun yanına gəldi. Əbud-Dərdə ﷺ ondan soruşdu: “Ey mənim qardaşım! Səni bura gətirən nədir?” O: “Sənin Allah Elçisindən sallallahu aleyhi və səlləm bir hədisi rəvayət etməyin mənə gəlib çatmışdır”- deyə cavab verdi. Əbud-Dərdə ﷺ soruşdu: “Ehtiyacını ödəməkdən ötrü gəlmədinmi?” O: “Xeyr”- dedi. Əbud-Dərdə ﷺ soruşdu: “Ticarət etmək üçün gəlməmisən?” O: “Xeyr, sadəcə bu hədisi öyrənmək üçün gəldim”- deyə cavab verdi. Əbud-Dərdə ﷺ dedi: “Allah Elçisini sallallahu aleyhi və səlləm belə buyurarkən eşidim: “Kim elm öyrənmək məqsədilə yola çıxarsa, Allah onu Cənnətin yoluna yönəldər. Həqiqətən, mələklər elm tələb edəndən məmnun olduqları üçün qanadlarını yerə sərərlər. Göylərdə və yerdə olan hər kəs, hətta sudakı balıqlar belə alim üçün istiğfar edər (bağışlanma diləyər). Alimin abid (ibadət edən) üzərindəki üstünlüyü, ayın ulduzlar üzərindəki üstünlüyü kimidir. Şübhəsiz ki, alimlər peyğəmbərlərin varisləridirlər. Peyğəmbərlər qızıl və gümüş miras qoymamışlar, onların miras qoyduqları yalnız elmdir. Kim onu (elmi) götürərsə, artıq tükənməyən bir pay götürmüş olar”.[11]

٤ - عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «فَضْلُ الْعِلْمِ أَحَبُّ إِلَيَّ مِنْ فَضْلِ الْعِبَادَةِ، وَخَيْرُ دِينِكُمْ الوَرَعُ».

4. Səd ibn Əbu Vaqqas ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Mənim üçün elm öyrənmək əlavə ibadət etməkdən daha sevimlidir.[12] Sizin ən xeyirli əməliniz isə şübhəli şeylərdən çəkinməyinizdir”.[13]

٥ - عَنْ مُعَاذِ بْنِ أَنَسٍ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَنْ عَلَّمَ عِلْمًا فَلَهُ أَجرُ مَنْ عَمِلَ بِهِ لا يَنْقُصُ مِنْ أَجْرِ الْعَامِلِ».

5. Muaz ibn Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “Kim hər hansı bir elm öyrədərsə, ona öyrətdiyi elmə əməl edənin savabı verilir və (bu elmə) əməl edənin savabından heç bir şey əskilmir”.[14]

---

[10] Əbud-Dərdə Uveymir ibn Zeyd əl-Ənsari əl-Xəzrəci ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 32-ci ilində Şamda vəfat etmişdir.

[11] ət-Tirmizi, 2682, 2898. əl-Albani səhih olduğunu bildirmişdir.

[12] Alimlər fərz ibadətlərdən sonra gələn əlavə ibadətlərdən hansının daha üstün olması barəsində ixtilaf etmişlər. Kimisi cihadı, kimisi namazı, kimisi orucu və s. ibadətləri üstün görmüşlər. Lakin əksər alimlər elm öyrənməyi bütün əlavə ibadətlərdən üstün görmüşlər.

[13] əl-Hakim, 314. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 4214) səhih olduğunu bildirmişdir.

[14] İbn Məcə, 240, 246. əl-Albani həsən olduğunu bildirmişdir.

ELM MƏCLİSİNİN FƏZİLƏTİ

٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ مَنْ نَفَّسَ عَنْ مُؤْمِنٍ كُرْبَةً مِنْ كُرَبِ الدُّنْيَا نَفَّسَ اللَّهُ عَنْهُ كُرْبَةً مِنْ كُرَبِ يَوْمِ الْقِيَامَةِ وَمَنْ يَسَّرَ عَلَى مُعْسِرٍ يَسَّرَ اللَّهُ عَلَيْهِ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَمَنْ سَتَرَ مُسْلِمًا سَتَرَهُ اللَّهُ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَاللَّهُ فِي عَوْنِ الْعَبْدِ مَا كَانَ الْعَبْدُ فِي عَوْنِ أَخِيهِ وَمَنْ سَلَكَ طَرِيقًا يَلْتَمِسُ فِيهِ عِلْمًا سَهَّلَ اللَّهُ لَهُ بِهِ طَرِيقًا إِلَى الْجَنَّةِ وَمَا اجْتَمَعَ قَوْمٌ فِي بَيْتٍ مِنْ بُيُوتِ اللَّهِ يَتْلُونَ كِتَابَ اللَّهِ وَيَتَدَارَسُونَهُ بَيْنَهُمْ إِلَّا نَزَلَتْ عَلَيْهِمْ السَّكِينَةُ وَغَشِيَتْهُمْ الرَّحْمَةُ وَحَفَّتْهُمْ الْمَلَائِكَةُ وَذَكَرَهُمْ اللَّهُ فِيمَنْ عِنْدَهُ وَمَنْ بَطَّأَ بِهِ عَمَلُهُ لَمْ يُسْرِعْ بِهِ نَسَبُهُ

6. Əbu Hureyra[15] ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kim bir mömini dünya sıxıntılarının birindən qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar. Kim çətinliyə düşənə yüngüllük göstərərsə, Allah da ona dünyada və Axirətdə asanlıq göstərər. Kim müsəlmanın eyibini (xətasını) örtərsə, Allah da dünyada və Axirətdə onun eyibini (xətasını) örtər. Qul (bəndə) öz (müsəlman) qardaşına yardım etdikcə, Allah da ona yardım etməyə davam edər. Kim elm öyrənmək üçün bir yola çıxarsa, Allah da ona Cənnətə aparan yolu asanlaşdırar. Hər hansı bir qövm Allahın evlərindən birində toplanıb, Allahın Kitabını oxuyar və öyrənərlərsə, şübhəsiz onların üzərlərinə sükunət enər və onları rəhmət bürüyər. Mələklər onları əhatə edərlər və Allah onları Öz dərgahında olanların yanında yad edər. Kim əməl etməkdə geri qalarsa, nəsəbi onu irəli sala bilməz".[16]

٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ لِلَّهِ مَلاَئِكَةً يَطُوفُونَ فِى الطُّرُقِ، يَلْتَمِسُونَ أَهْلَ الذِّكْرِ، فَإِذَا وَجَدُوا قَوْمًا يَذْكُرُونَ اللَّهَ تَنَادَوْا هَلُمُّوا إِلَى حَاجَتِكُمْ. قَالَ فَيَحُفُّونَهُمْ بِأَجْنِحَتِهِمْ إِلَى السَّمَاءِ الدُّنْيَا. قَالَ فَيَسْأَلُهُمْ رَبُّهُمْ وَهْوَ أَعْلَمُ مِنْهُمْ مَا يَقُولُ عِبَادِى قَالُوا يَقُولُونَ يُسَبِّحُونَكَ، وَيُكَبِّرُونَكَ، وَيَحْمَدُونَكَ وَيُمَجِّدُونَكَ. قَالَ فَيَقُولُ هَلْ رَأَوْنِى قَالَ فَيَقُولُونَ لاَ وَاللَّهِ مَا رَأَوْكَ. قَالَ فَيَقُولُ وَكَيْفَ لَوْ رَأَوْنِى قَالَ يَقُولُونَ لَوْ رَأَوْكَ كَانُوا أَشَدَّ لَكَ عِبَادَةً، وَأَشَدَّ لَكَ تَمْجِيدًا، وَأَكْثَرَ لَكَ تَسْبِيحًا. قَالَ يَقُولُ فَمَا يَسْأَلُونِى قَالَ يَسْأَلُونَكَ الْجَنَّةَ. قَالَ يَقُولُ وَهَلْ رَأَوْهَا قَالَ يَقُولُونَ لاَ وَاللَّهِ يَا رَبِّ مَا رَأَوْهَا. قَالَ يَقُولُ فَكَيْفَ لَوْ أَنَّهُمْ رَأَوْهَا قَالَ يَقُولُونَ لَوْ أَنَّهُمْ رَأَوْهَا كَانُوا أَشَدَّ عَلَيْهَا حِرْصًا، وَأَشَدَّ لَهَا طَلَبًا، وَأَعْظَمَ فِيهَا رَغْبَةً. قَالَ فَمِمَّ يَتَعَوَّذُونَ قَالَ يَقُولُونَ مِنَ النَّارِ. قَالَ يَقُولُ وَهَلْ رَأَوْهَا قَالَ يَقُولُونَ لاَ وَاللَّهِ مَا رَأَوْهَا. قَالَ يَقُولُ

[15] Əbu Hureyra Abdur-Rahmən ibn Səxr əd-Dəvsi əl-Yəməni ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Əbu Hureyra "pişikcığaz atası" deməkdir. Əgər biz onun adı ilə ləqəbini müqayisə etsək, görərik ki, Abdur-Rahmən yəni, ər-Rahmənin qulu, Allahın ən çox sevdiyi adlardan biridir, Əbu Hureyra ﷺ isə əcaib-qəraib bir ləqəbdir. Lakin buna rəğmən Uca Allah onu insanlara məhz bu ləqəblə tanıtmış və onu insanlara sevdirmişdir. Peyğəmbər ﷺ onun üçün belə dua etmişdir: "Allahım, bu iki qulunu: Əbu Hureyranı və onun anasını insanlara sevdir!" (Ədəbul-Mufrad, 34). Əbu Hureyra ﷺ hicrətin 59-cu ilində vəfat etmişdir.

[16] Muslim, 2699, 4867.

فَكَيْفَ لَوْ رَأَوْهَا قَالَ يَقُولُونَ لَوْ رَأَوْهَا كَانُوا أَشَدَّ مِنْهَا فِرَارًا، وَأَشَدَّ لَهَا مَخَافَةً. قَالَ فَيَقُولُ فَأُشْهِدُكُمْ أَنِّى قَدْ غَفَرْتُ لَهُمْ. قَالَ يَقُولُ مَلَكٌ مِنَ الْمَلاَئِكَةِ فِيهِمْ فُلاَنٌ لَيْسَ مِنْهُمْ إِنَّمَا جَاءَ لِحَاجَةٍ. قَالَ هُمُ الْجُلَسَاءُ لاَ يَشْقَى بِهِمْ جَلِيسُهُمْ»

7. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allahın yollarda dolaşıb Allahı yad edən insanları axtaran mələkləri vardır. Onlar Allahı yad edən bir camaat gördükləri zaman bir-birlərini çağırıb: "Axtardığınızın yanına gəlin!"- deyirlər. Sonra onlar bu camaatı öz qanadları ilə dünya səmasınadək əhatəyə alırlar. Elə həmin vaxt Rəbbi mələklərdən - (hər şeyi) onlardan daha yaxşı bildiyi halda - soruşur: "Qullarım nə deyirlər?" Mələklər: "Onlar Sənin şəninə təriflər deyir, Səni uca tutur, Səni həmd-səna ilə təqdis edir və Səni tərifləyirlər"- deyə cavab verirlər. Allah soruşur: "Məgər onlar Məni görüblərmi?" Mələklər deyirlər: "Xeyr, vallahi ki, onlar Səni görməyiblər!" Allah soruşur: "Bəs Məni görsəydilər, necə (olardı)?" Mələklər deyirlər: "Əgər onlar Səni görsəydilər, bundan da çox Sənə ibadət edər, Səni tərifləyər, Səni həmd-səna ilə təqdis edər və Sənin şənini uca tutardılar". Allah soruşur: "Onlar Məndən nə istəyirlər?" Mələklər deyirlər: "Onlar Səndən Cənnəti istəyirlər". Allah soruşur: "Məgər onlar Cənnəti görüblərmi?" Mələklər deyirlər: "Xeyr, ya Rəbb! Vallahi ki, onlar Cənnəti görməyiblər". Allah soruşur: "Bəs onu görsəydilər, necə (olardı)?" Mələklər deyirlər: "Əgər onu görsəydilər, daha əzmlə ona can atar, daha inadla onu diləyər və daha çox rəğbətlə onu arzulayardılar". Allah soruşur: "Onlar (Mənə) nədən sığınırlar?" Mələklər: "Cəhənnəm odundan"- deyirlər. Allah soruşur: "Məgər onlar Cəhənnəmi görüblərmi?" Mələklər deyirlər: "Xeyr, ya Rəbb! Vallahi ki, onlar Cəhənnəmi görməyiblər". Allah soruşur: "Bəs onu görsəydilər necə (olardı)?" Mələklər deyirlər: "Əgər onu görsəydilər, ondan daha uzağa qaçmağa çalışar və ondan daha çox çəkinərdilər!" Allah buyurur: "Şahid olun ki, Mən onları bağışladım!" Bu vaxt mələklərdən biri deyir: "Bu camaatın arasında olan filankəs onlarla (yoldaşlıq edən kimsələrdən) deyildir, sadəcə olaraq öz ehtiyacı üzündən ora gəlmişdir". Onda Allah buyurur: "Bunlar elə insanlardır ki, onlarla oturub-duran adam bədbəxt olmaz".[17]

٨ - عَنْ سُهَيْلِ بن حَنْظَلَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَا جَلَسَ قَوْمٌ يَذْكُرُونَ اللَّهَ تعالى فَيَقُومُونَ حَتَّى يُقَالَ لَهُمْ: قُومُوا، قَدْ غَفَرَ اللَّهُ لَكُمْ ذُنُوبَكُمْ، وبُدِّلَتْ سَيِّئَاتُكُمْ حَسَنَاتٍ».

[17] əl-Buxari, 5929, 6045, 6408; Muslim, 2689, 4854, 7015.

8. Suheyl ibn Hənzalə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Oturaraq Uca Allahı yad edən elə bir qövm yoxdur ki, onlar ayağa qalxdıqda belə deyilməsin: "Qalxın, Allah günahlarınızı bağışlamış və günahlarınız savablarla əvəz edildi".[18]

ELMƏ ÖYRƏNMƏKLƏ YİYƏLƏNMƏK OLAR

٩ - عن أبي الدرداء ﷺ قال قال رسول الله ﷺ إنما العلم بالتعلم و إنما الحلم بالتحلم و من يتحر الخير يعطه و من يتق الشر يوقه

9. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurmuşdur: "Elmə öyrənməklə, həlim olmağa isə mülayimliklə yiyələnmək olar. Kim xeyir axtararsa, ona verilər, kim də şərdən çəkinərsə, ondan qorunar".[19]

ELM ÖYRƏNMƏK VƏ YA ÖYRƏTMƏK NİYYƏTİ

١٠ - عَنْ أَبِي أُمَامَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: مَنْ غَدَا إِلَى الْمَسْجِدِ لا يُرِيدُ إِلا أَنْ يَتَعَلَّمَ خَيْرًا أَوْ يُعَلِّمَهُ، كَانَ لَهُ كَأَجْرِ حَاجٍّ تَامًّا حِجَّتُهُ.

10. Əbu Umamə ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurur: "Kim xeyir öyrənmək və ya öyrətmək üçün səhər məscidə gedərsə, ona tam bir həcc savabı verilər".[20]

ELMİ YAYMAĞIN FƏZİLƏTİ

١١ - عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ ﷺ قَالَ قَالَ سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ «نَضَّرَ اللَّهُ امْرَأً سَمِعَ مِنَّا شَيْئًا فَبَلَّغَهُ كَمَا سَمِعَ فَرُبَّ مُبَلَّغٍ أَوْعَى مِنْ سَامِعٍ»

11. Abdullah ibn Məsud[21] ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və

---

[18] ət-Təbərani "Mucəmul-Kəbir" 639, 5907. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5610) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2210) səhih olduğunu söyləmişdir.

[19] ət-Təbərani "Mucəmul-Əvsat" 2663. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha" (№ 342) və "Sahihul-Cəmius-Sağir"də (№ 2328) həsən olduğunu bildirmişdir.

[20] ət-Təbərani "Mucəmul-Kəbir" 7346, 7473. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 86) həsən səhih olduğunu bildirmişdir.

[21] Əbu Abdur-Rahmən Abdullah ibn Məsud ibn Ğafil ibn Həbib əl-Huzəli ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. İslamı ilk əvvəl qəbul edənlərdən olmuşdur. İbn Məsud ﷺ hicrətin 32-ci ilində Mədinədə vəfat etmişdir.

səlləm buyurmuşdur: “Bizdən bir hədis eşidib onu olduğu kimi çatdıranın Allah üzünü ağ etsin! Ola bilsin ki, onu eşidən çatdırandan daha anlayışlı olsun!”[22] Digər rəvayətdə isə: “...Allah rəhm etsin!”- deyilir.[23]

[22] ət-Tirmizi, 2657, 2869. əl-Albani səhih olduğunu bildirmişdir.
[23] İbn Hibban, 68. əl-Albani səhih olduğunu bildirmişdir.

İMAN VƏ TÖVHİD

İSLAM, İMAN VƏ YƏQİNLİK

١٢ - عَنْ أَبِي فِرَاسٍ ﷺ رَجُلٍ مِنْ أَسْلَمَ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: "سَلُونِي عَمَّا شِئْتُمْ"، فَنَادَى رَجُلٌ: يَا رَسُولَ اللهِ، مَا الْإِسْلَامُ؟ قَالَ: "إِقَامُ الصَّلَاةِ وَإِيتَاءُ الزَّكَاةِ"، قَالَ: فَمَا الْإِيمَانُ؟ قَالَ: "الْإِخْلَاصُ"، قَالَ: فَمَا الْيَقِينُ؟ قَالَ: "التَّصْدِيقُ بِالْقِيامَةِ".

12. Əsləm qəbiləsindən olan Əbu Firas ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm dedi: “Nə haqda istəyirsinizsə, məndən soruşun?” Bir kişi müraciət edərək soruşdu: “Ey Allahın Elçisi, İslam nədir?” O buyurdu: “Namaz qılmaq və zəkat vermək”. O yenə soruşdu: “Bəs iman nədir?” Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: “İxlas”. O yenə soruşdu: “Bəs yəqinlik nədir?” Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: “Qiyaməti təsdiq etmək”.[24]

ALLAHA İMAN GƏTİRƏNLƏR

١٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ إِنَّ أَهْلَ الْجَنَّةِ لَيَتَرَاءَوْنَ فِي الْجَنَّةِ كَمَا تَرَاءَوْنَ أَوْ تَرَوْنَ الْكَوْكَبَ الدُّرِّيَّ الْغَارِبَ فِي الْأُفُقِ وَالطَّالِعَ فِي تَفَاضُلِ الدَّرَجَاتِ قَالُوا يَا رَسُولَ اللَّهِ أُولَئِكَ النَّبِيُّونَ قَالَ بَلَى وَالَّذِي نَفْسِي بِيَدِهِ وَأَقْوَامٌ آمَنُوا بِاللَّهِ وَصَدَّقُوا الْمُرْسَلِينَ

13. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Cənnət əhli yüksək dərəcələrdə bir-birilərini üfüqdə doğan parlaq qərb ulduzunu gördükləri kimi görəcəklər”. Dedilər: “Ey Allahın Elçisi, onlar (yüksək dərəcədə olanlar) peyğəmbərlərdir?” O buyurdu: “Xeyr, canım Əlində Olana and olsun ki, (onlar) Allaha iman gətirib, elçiləri təsdiq edən qövmlərdir”.[25]

١٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سُئِلَ رَسُولُ اللَّهِ ﷺ: أَيُّ الأَعْمَالِ أَفْضَلُ؟ قَالَ: «إِيمَانٌ بِاللَّهِ» قَالَ: ثُمَّ مَاذَا؟ قَالَ: «الْجِهَادُ فِي سَبِيلِ اللَّهِ» قَالَ: ثُمَّ مَاذَا؟ قَالَ: «حَجٌّ مَبْرُورٌ» وَفِي رِوَايَةِ مُحَمَّدِ بْنِ جَعْفَرٍ قَالَ: «إِيمَانٌ بِاللَّهِ وَرَسُولِهِ».

14. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbərdən sallәllahu aleyhi və sәllәm soruşdular: “Hansı əməl ən fəzilətli (əməl) sayılır?” O dedi: “Allaha iman

---

[24] əl-Beyhəqi “Şuabul-İman” 6442. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 3) səhih olduğunu bildirmişdir.

[25] Əhməd, 8471, 8452. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 3708) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

gətirmək". Soruşdular: "Sonra hansıdır?" Dedi: "Allah yolunda cihad etmək". (Yenə) soruşdular: "Sonra hansıdır?" Dedi: "Qəbul olunmuş həcc".[26] Muhəmməd ibn Cəfərin rəvayətində: "Allaha və Onun Elçisinə iman gətirməkdir"- deyilir".[27]

İMANIN ŞİRİNLİYİNİ DADANLAR

١٥ - عَنْ أَنَسٍ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ: «ثَلاَثٌ مَنْ كُنَّ فِيهِ وَجَدَ بِهِنَّ حَلاَوَةَ الإِيمَانِ، مَنْ كَانَ اللَّهُ وَرَسُولُهُ أَحَبَّ إِلَيْهِ مِمَّا سِوَاهُمَا، وَأَنْ يُحِبَّ الْمَرْءَ لاَ يُحِبُّهُ إِلاَّ لِلَّهِ، وَأَنْ يَكْرَهَ أَنْ يَعُودَ فِي الْكُفْرِ بَعْدَ أَنْ أَنْقَذَهُ اللَّهُ مِنْهُ، كَمَا يَكْرَهُ أَنْ يُقْذَفَ فِي النَّارِ».

15. Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Üç xislət vardır ki, bunlar kimdə olsa, o kimsə bu xislətlər sayəsində imanın şirinliyini dadmış olar: Allahı və Onun Elçisini başqalarından daha çox sevmək[28], sevdiyi kimsəni yalnız Allah üçün sevmək, Allah onu küfrdən qurtardıqdan sonra yenidən küfrə qayıtmağı, oda atılmağı xoşlamadığı kimi, xoşlamamaq".[29]

١٦ - عَنْ الْعَبَّاسِ بْنِ عَبْدِ الْمُطَّلِبِ ﷺ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «ذَاقَ طَعْمَ الإِيمَانِ مَنْ رَضِيَ بِاللَّهِ رَبًّا وَبِالإِسْلاَمِ دِينًا وَبِمُحَمَّدٍ رَسُولاً».

16. Abbas ibn Abdulmuttəlib ﷺ rəvayət edir ki, Allah Elçisinin salləllahu aleyhi və səlləm belə dediyini eşitdim: "Allahın Rəbb, İslamın din və Muhəmmədin peyğəmbər olduğundan razı qalan kimsə imanın tamını dadar!"[30]

---

[26] Əbu Hureyra ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: "Kim Allah xatirinə həcc ziyarətini yerinə yetirsə, ziyarət əsnasında qadını ilə yaxınlıq etməsə və digər günah işlərdən çəkinsə, dünyaya gəldiyi gündə olduğu kimi pak halda evinə qayıdar" (əl-Buxari, 1521).

[27] Muslim, 248.

[28] Yəni Allah və Onun Elçisi ﷺ ona dünyada mövcud olan hər şeydən – canından, övladından, valideynindən, zövcəsindən və qeyrilərindən daha sevimli olarsa ("əl-Qovlul-Mufid", 2/ 53); Hədisdə Allah və Onun Elçisi deyilir, Allah, sonra Onun Elçisi deyilmir. Çünki Peyğəmbəri ﷺ sevmək Pak və Uca Allahı sevməyə bağlıdır. İnsanın Allaha olan sevgisi artdıqca, Peyğəmbərə ﷺ olan sevgisi də artmalıdır ("Şərh Riyadus-Salihin", 1/ 432); Belə ki, Allaha olan sevgi yalnız Peyğəmbəri ﷺ sevməklə təsdiq edilə bilər. Uca Allah buyurur: ***"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir"*** *(Ali-İmran, 31).*

[29] Muslim, 165.

[30] Muslim, 151. Bir şeydən "razı qaldım" demək, "ona qane oldum və onunla kifayətləndim, onunla yanaşı başqa bir şey istəmədim" deməkdir. Hədisdə razı qalmaq deyildikdə Uca Allahdan başqa məbud axtarmamaq, İslam yolundan başqa bir yol tutmamaq və Muhəmmədin ﷺ şəriətindən başqa bir

KAMİL İMAN

١٧ - عَنْ عَمَّار بْن يَاسِر أنه قال: ثَلَاث مَنْ كن فيه فقد استكمل الْإِيمَان: الْإِنْصَاف مِنْ نَفْسه, وَالْإِنْفَاق مِنْ الْإِقْتَار وَبَذْل السَّلَام لِلْعَالَمِ

17. Ammar ibn Yasir ﷺ rəvayət edir: "Kimdə bu üç şey olarsa, artıq imanını kamilləşdirmişdir; insaflı olmaq, ehtiyac içində ola-ola sədəqə vermək və hər kəsə salam vermək".[31]

١٨ - عَنْ سَهْلِ بْنِ مُعَاذِ بْنِ أَنَسٍ الْجُهَنِيِّ ﷺ عَنْ أَبِيهِ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ أَعْطَى لِلَّهِ وَمَنَعَ لِلَّهِ وَأَحَبَّ لِلَّهِ وَأَبْغَضَ لِلَّهِ وَأَنْكَحَ لِلَّهِ فَقَدِ اسْتَكْمَلَ إِيمَانَهُ».

18. Səhl ibn Muaz ibn Ənəs əl-Cuhəni atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Kim Allah xatirinə verər, Allah xatirinə (verməkdən) imtina edər, Allah xatirənə sevər, Allah xatirinə qəzəblənər və Allah xatirinə evlənərsə, artıq imanını kamilləşdirmişdir".[32]

İMAN DA KÖHNƏLİR

١٩ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو رضي الله عنهما قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ الإِيمَانَ لَيَخْلَقُ فِي جَوْفِ أَحَدكُم كَمَا يَخْلَقُ الثَّوبَ الْخَلِق ، فَاسْأَلوا اللهَ أَنْ يُجَدِّدَ الإِيمَانَ فِي قُلُوبِكُم».

19. Abdullah ibn Amr[33] رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, hər birinizin qəlbindəki iman paltar köhnəldiyi kimi köhnəlir, elə isə Allahdan qəlbinizdə olan imanı təzələməyi diləyin!"[34]

QƏLBDƏ OLAN VƏSVƏSƏLƏR

٢٠ - أَبُو زُمَيْلٍ قَالَ سَأَلْتُ ابْنَ عَبَّاسٍ رضي الله عنهما فَقُلْتُ مَا شَيْءٌ أَجِدُهُ فِى صَدْرِى قَالَ مَا هُوَ قُلْتُ وَاللَّهِ مَا أَتَكَلَّمُ بِهِ. قَالَ

şəriət qəbul etməmək qəsd edilir. Şəkk yoxdur ki, bu sifətləri özündə cəm edən kimsə imanın şirinliyini qəlbinə salmış və onun tamını dadmış olar.

[31] İbn Həcər "Fəthul-Bəri" 1/ 82. əl-Albani İbn Teymiyyənin "İman" əsərinin təhqiqində hədisin səhih olduğunu bildirmişdir.

[32] ət-Tirmizi, 2521, 2713. əl-Albani həsən olduğunu qeyd etmişdir.

[33] Əbu Muhəmməd Abdullah ibn Amr ibn As ibn Vail əs-Səhmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Abdullah ibn Amr ﷺ hicrətin 63-cü ilində vəfat etmişdir.

[34] əl-Hakim, 5. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1590) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1585) səhih olduğunu bildirmişdir.

فَقَالَ لِي أَشَيْءٌ مِنْ شَكٍّ قَالَ وَضَحِكَ. قَالَ مَا نَجَا مِنْ ذَلِكَ أَحَدٌ – قَالَ – حَتَّى أَنْزَلَ اللَّهُ ﷻ ﴿**فَإِنْ كُنْتَ فِي شَكٍّ مِمَّا أَنْزَلْنَا إِلَيْكَ فَاسْأَلِ الَّذِينَ يَقْرَءُونَ الْكِتَابَ مِنْ قَبْلِكَ**﴾ الآيَةَ قَالَ فَقَالَ لِي إِذَا وَجَدْتَ فِي نَفْسِكَ شَيْئًا فَقُلْ ﴿**هُوَ الأَوَّلُ وَالآخِرُ وَالظَّاهِرُ وَالْبَاطِنُ وَهُوَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ**﴾

20. Əbu Zumeyl rəvayət edir: "İbn Abbasdan[35] ﷺ soruşaraq dedim: "Köksümdə hiss etdiyim şey nədir?" O soruşdu: "O nədir?" Mən dedim: "Allaha and olsun ki, mən onu danışa bilmərəm". O: "Şübhə ilə bağlı bir şeydir?"- dedi və güldü. Sonra o dedi: "Ondan heç kəs xilas olmamışdır, hətta Allah ﷻ (bu haqda ayə) nazil etmişdir: ***"Əgər sənə nazil etdiyimizə şübhə edirsənsə, səndən əvvəl Kitab oxuyanlardan soruş"*** *(Yunus, 94)*. O, (sözünə davam edərək) dedi: "Özündə elə bir şey hiss etdikdə, de: "Huvəl-Əvvəlu vəl-Əxiru vəz-Zahiru vəl-Bətinu və huva bikulli şeyin alim[36]".[37]

٢١ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ مَا قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُوْلَ اللهِ! إِنَّ أَحَدَنَا لَيَجِدُ فِي نَفْسِهِ الشَّيْءَ لأَنْ يَكُونَ حُمَمَةً أَحَبُّ إِلَيْهِ مِنْ أَنْ يَتَكَلَّمَ بِهِ؟! فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «اللهُ أَكْبَرُ! الْحَمْدُ للهِ الَّذِي رَدَّ أَمْرَهُ إِلَى الْوَسْوَسَةِ».

21. İbn Abbas ﷺ rəvayət edir ki, bir kişi Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi, həqiqətən, qəlbimizdə elə bir şey hiss edirik ki, yanıb kül olmağımız onu danışmaqdan bizə daha xoşdur". O buyurdu: "Allahu Əkbər! (Şeytanın) işini vəsvəsəyə çevirən Allaha həmd olsun!"[38]

٢٢ - عَنْ عَبْدِ اللَّهِ ﷺ قَالَ: سَأَلْنَا رَسُولَ اللَّهِ ﷺ عَنِ الرَّجُلِ يَجِدُ الشَّيْءَ لَوْ خَرَّ مِنَ السَّمَاءِ، فَتَخْطَفَهُ الطَّيْرُ كَانَ أَحَبَّ إِلَيْهِ مِنْ أَنْ يَتَكَلَّمَ، قَالَ: ذَاكَ صَرِيحُ الْإِيمَانِ.

22. Abdullah ibn Məsud ﷺ demişdir: "Biz Allah Elçisindən salləllahu aleyhi və səlləm qəlbində vəsvəsə hiss edib, bu vəsvəsini danışmaqdansa göydən yerə düşüb, quşların da onu götürüb aparmasını daha xoş görən kimsə haqqında soruşduq. O buyurdu: "Bu, əsl imandır".[39]

---

[35] Əbul-Abbas Abdullah ibn Abbas ibn Abdul-Müttəlib əl-Haşimi ﷺ hicrətdən az əvvəl dünyaya gəlmişdir. Peyğəmbərin ﷺ məşhur səhabələrindən biridir. Ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir. Hicrətin 68-ci ilində yetmiş bir yaşında vəfat etmişdir.

[36] Tərcüməsi: ***"Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi bilir"*** *(əl-Hədid, 3).*

[37] Əbu Davud, 5112. əl-Albani isnadının həsən olduğunu bildirmişdir.

[38] İbn Hibban, 147. əl-Albani səhih olduğunu bildirmişdir.

[39] İbn Hibban, 149. Şueyb əl-Arnavut isnadının səhih olduğunu bildirmişdir.

٢٣ - عن أبي هريرة ﷺ قالوا يا رسول الله إنا نجد في أنفسنا شيئا ما نحب أن نتكلم به وأن لنا ما طلعت عليه الشمس قال أو قد وجدتم ذلك قالوا نعم قال ذاك صريح الإيمان

23. Əbu Hureyra ﷺ rəvayət edir ki, (səhabələr) dedilər: "Ey Allahın Elçisi! Biz özümüzdə elə bir şeylər hiss edirik ki, onu danışmaq istəmirik və bizdə üzərinə gün düşməmiş (Allahdan başqa heç kəsin bilmədiyi) şeylər vardır". Peyğəmbər salləllahu aleyhi və səlləm soruşdu: "Doğrudanmı siz bunu hiss edirsiniz?" Onlar: "Bəli"- deyə cavab verdilər. O dedi: "Məhz bu, imanın ən xalisidir".[40]

٢٤ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: قَالَ رَجُلٌ: يَا رَسُوْلَ اللهِ! مَا الإِيمَانُ؟ قَالَ: «إِذَا سَرَّتْكَ حَسَنَاتُكَ وَسَاءتْكَ سَيِّئَاتُكَ، فَأَنْتَ مُؤْمِنٌ». قَالَ: يَا رَسُوْلَ اللهِ! فَمَا الإِثْمُ؟ قَالَ: «إِذَا حَاكَ فِي قَلْبِكَ شَيءٌ فَدَعْهُ».

24. Əbu Umamə ﷺ demişdir: "Bir kişi dedi: "Ey Allahın Elçisi, iman nədir?" O buyurdu: "Yaxşı əməlinə sevinir, pis əməlinə kədərlənirsənsə, sən möminsən". Kişi dedi: "Ey Allahın Elçisi, bəs günah nədir?" O buyurdu: "Əgər qəlbində bir şey tərəddüd edərək səni narahat edərsə, onu tərk et!"[41]

٢٥ - عَنْ عَائِشَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ إِنَّ أَحَدَكُمْ يَأْتِيهِ الشَّيْطَانُ فَيَقُولُ مَنْ خَلَقَكَ فَيَقُولُ اللَّهُ فَيَقُولُ فَمَنْ خَلَقَ اللَّهَ فَإِذَا وَجَدَ ذَلِكَ أَحَدُكُمْ فَلْيَقْرَأْ آمَنْتُ بِاللَّهِ وَرُسُلِهِ فَإِنَّ ذَلِكَ يُذْهِبُ عَنْهُ

25. Aişə[42] ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Həqiqətən, sizdən birinizə şeytan gəlib vəsvəsə edir: "Səni kim yaradıb?" O da: "Allah!"- deyir. (Sonra şeytan belə vəsvəsə edir): "Bəs Allahı kim yaradıb?" Sizdən biriniz bunu özündə hiss etdikdə: "Əməntu billəhi və rusulihi[43]"- desin. Həqiqətən, bu, vəsvəsini ondan uzaqlaşdırar".[44]

---

[40] əl-Buxari "Ədəbul-Mufrad" 1284. əl-Albani səhih olduğunu bildirmişdir.

[41] İbn Hibban, 176; Əhməd, 22220. əl-Albani səhih olduğunu bildirmişdir.

[42] Aişə bint Əbu Bəkr Abdullah ibn Əbu Quhafə Osman ibn Amir ət-Teymiyyə ﷺ Allah Elçisinin ﷺ zövcəsi, möminlərin anası, bu ümmətin qadınları arasında İslam dinini ən yaxşı bilən qadın və ən çox hədis rəvayət edən səhabələrdəndir. Hicrətin 57-ci ilində Mədinədə vəfat etmişdir. Onun fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur. Bunlardan birini qeyd edək; (bir dəfə) Peyğəmbər ﷺ Aişədən: "Sən həm bu dünyada, həm də Axirətdə mənim zövcəm olmağa razısanmı?"– deyə soruşdu. Aişə: "Əlbəttə, *razıyam*!"– deyə cavab verdi. Onda Peyğəmbər ﷺ buyurdu: "Dünyada da, Axirətdə də sən mənim zövcəmsən!" (Mustədrək, 4/10; Silsilətul-Əhədisis-Sahiha, 1142). Həmçinin onun barəsində nazil olmuş bəraət ayələri (ən-Nur surəsi, 11-22) onun nə dərəcədə fəzilətli qadın olduğuna dəlalət edir.

[43] Tərcüməsi: Allaha və Onun elçilərinə iman etdim!

[44] Əhməd, 26203, 26246. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1610) səhih olduğunu bildirmişdir.

DOĞRU YOLUN MİSALI

٢٦ - عَنْ النَّوَّاسِ بْنِ سَمْعَانَ الأَنْصَارِيِّ ﷺ عَنْ رَسُولِ اللهِ ﷺ قَالَ: ضَرَبَ اللَّهُ مَثَلاً صِرَاطًا مُسْتَقِيمًا، وَعَلَى جَنْبَتَيْ الصِّرَاطِ سُورَانِ، فِيهِمَا أَبْوَابٌ مُفَتَّحَةٌ، وَعَلَى الأَبْوَابِ سُتُورٌ مُرْخَاةٌ، وَعَلَى بَابِ الصِّرَاطِ دَاعٍ يَقُولُ: أَيُّهَا النَّاسُ، ادْخُلُوا الصِّرَاطَ جَمِيعًا، وَلاَ تَتَعَرَّجُوا، وَدَاعٍ يَدْعُو مِنْ فَوْقِ الصِّرَاطِ، فَإِذَا أَرَادَ يَفْتَحُ شَيْئًا مِنْ تِلْكَ الأَبْوَابِ، قَالَ: وَيْحَكَ لاَ تَفْتَحْهُ، فَإِنَّكَ إِنْ تَفْتَحْهُ تَلِجْهُ، وَالصِّرَاطُ الإِسْلاَمُ، وَالسُّورَانِ: حُدُودُ اللهِ، وَالأَبْوَابُ الْمُفَتَّحَةُ: مَحَارِمُ اللهِ، وَذَلِكَ الدَّاعِي عَلَى رَأْسِ الصِّرَاطِ: كِتَابُ اللهِ، وَالدَّاعِي مِنِ فَوْقَ الصِّرَاطِ: وَاعِظُ اللهِ فِي قَلْبِ كُلِّ مُسْلِمٍ.

26. Nəvvas ibn Səman əl-Ənsari ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: “Allah doğru yolu məsəl çəkir. Yolun hər iki tərəfində divarlar, onun üzərində açıq qapılar, qapıların üzərində isə zərif pərdə vardır. Yolun başında duran bir carçı belə deyir: “Ey insanlar! Hamılıqla doğru yolla gedin və yolunuzdan sapmayın!” Yolun üzərində duran bir carçı isə hər dəfə (qul) o qapılardan bir şey açdıqda, belə deyir: “Vay sənin halına, onu açma! Onu açsan, ora girəcəksən”. (Sonra Allah Elçisi sallәllahu aleyhi və sәllәm bunları açıqlayaraq buyurdu:) “Yol İslamdır, divarlar Allahın hüdudları, açıq qapılar Allahın haramları, yolun başında duran carçı Allahın Kitabı, yolun üzərində olan carçı isə Allahın hər bir mömin qulunun qəlbində olan nəsihətçisidir”.[45]

CƏNNƏTİ İSTƏYƏN ALLAHA ŞƏRİK QOŞMAYARAQ ONA İBADƏT ETSİN

٢٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ أَعْرَابِيًّا جَاءَ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ! دُلَّنِي عَلَى عَمَلٍ إِذَا عَمِلْتُهُ دَخَلْتُ الْجَنَّةَ. قَالَ: «تَعْبُدُ اللَّهَ لاَ تُشْرِكُ بِهِ شَيْئًا، وَتُقِيمُ الصَّلاَةَ الْمَكْتُوبَةَ، وَتُؤَدِّي الزَّكَاةَ الْمَفْرُوضَةَ، وَتَصُومُ رَمَضَانَ» قَالَ: وَالَّذِي نَفْسِي بِيَدِهِ لاَ أَزِيدُ عَلَى هَذَا شَيْئًا أَبَدًا، وَلاَ أَنْقُصُ مِنْهُ، فَلَمَّا وَلَّى، قَالَ النَّبِيُّ ﷺ: «مَنْ سَرَّهُ أَنْ يَنْظُرَ إِلَى رَجُلٍ مِنْ أَهْلِ الْجَنَّةِ، فَلْيَنْظُرْ إِلَى هَذَا».

27. Əbu Hureyra ﷺ demişdir: “(Bir dəfə) bir bədəvi Peyğəmbərin sallәllahu aleyhi və sәllәm yanına gəlib dedi: “Ey Allahın Elçisi! Mənə elə bir əməl öyrət ki, onu yerinə yetirəcəyim təqdirdə Cənnətə daxil olum”. Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: “Allaha ibadət et və Ona heç kəsi şərik qoşma, fərz buyurulmuş namazları qıl, vacib buyurulmuş zəkatı ver və Ramazan ayını oruc tut!” Bədəvi dedi: “Canım Əlində olan Allaha and olsun

[45] Əhməd, 17671, 17784. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

ki, mən heç vaxt buna heç nə artırmayacağam və bundan heç nə əskiltməyəcəyəm". O gedəndən sonra Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Cənnət əhlindən olan bir adama baxıb zövq almaq istəyəniniz varsa, qoy buna baxsın[46]".[47]

٢٨ - عَنْ أَبِى أَيُّوبَ ﷺ أَنَّ رَجُلاً قَالَ لِلنَّبِىِّ ﷺ أَخْبِرْنِى بِعَمَلٍ يُدْخِلُنِى الْجَنَّةَ. قَالَ مَا لَهُ مَا لَهُ؟ وَقَالَ النَّبِىُّ ﷺ: «أَرَبٌ مَالَهُ، تَعْبُدُ اللَّهَ، وَلاَ تُشْرِكُ بِهِ شَيْئًا، وَتُقِيمُ الصَّلاَةَ، وَتُؤْتِى الزَّكَاةَ، وَتَصِلُ الرَّحِمَ».

28. Əbu Əyyub[48] ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərə salləllahu aleyhi və səlləm dedi: "Mənə Cənnətə girməyimə səbəb olacaq əməl barədə xəbər ver". (Əshabələr): "Ona nə olub? Ona nə olub?"- deyə soruşdular. Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "O (bilmədiyini öyrənmək) istəyir. Allaha ibadət et və Ona heç kəsi şərik qoşma, namaz qıl, zəkat ver və qohumluq əlaqələrini saxla!"[49]

٢٩ - حَدَّثَنَا أَنَسُ بْنُ مَالِكٍ، عَنْ مُعَاذِ بْنِ جَبَلٍ رضي الله عنهما قَالَ: كُنْتُ رِدْفَ النَّبِيِّ ﷺ لَيْسَ بَيْنِي وَبَيْنَهُ إِلاَّ مُؤْخِرَةُ الرَّحْلِ، فَقَالَ: «يَا مُعَاذَ بْنَ جَبَلٍ!» قُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ، ثُمَّ سَارَ سَاعَةً، ثُمَّ قَالَ: «يَا مُعَاذَ بْنَ جَبَلٍ!» قُلْتُ لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ، ثُمَّ سَارَ سَاعَةً، ثُمَّ قَالَ: «يَا مُعَاذَ بْنَ جَبَلٍ!» قُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ، قَالَ: «هَلْ تَدْرِي مَا حَقُّ اللَّهِ ﷻ عَلَى الْعِبَادِ؟» قَالَ: قُلْتُ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ. قَالَ: «فَإِنَّ حَقَّ اللَّهِ عَلَى الْعِبَادِ أَنْ يَعْبُدُوهُ وَلاَ يُشْرِكُوا بِهِ شَيْئًا» ثُمَّ سَارَ سَاعَةً، ثُمَّ قَالَ: «يَا مُعَاذَ بْنَ جَبَلٍ!» قُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ، قَالَ: «هَلْ تَدْرِي مَا حَقُّ الْعِبَادِ عَلَى اللَّهِ إِذَا فَعَلُوا ذَلِكَ؟» قَالَ: قُلْتُ: «اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ. قَالَ: «أَنْ لاَ يُعَذِّبَهُمْ».

29. Ənəs ﷺ rəvayət edir ki, Muaz ibn Cəbəl[50] ﷺ demişdir: "(Bir dəfə) mən Peyğəmbərlə salləllahu aleyhi və səlləm birlikdə onun (mindiyi heyvanın) tərkində idim.[51] Mənimlə onun arasında yəhərin söykəyindən başqa heç nə yox idi. (Peyğəmbər salləllahu aleyhi və səlləm məni): "Ey Muaz ibn Cəbəl!"– deyə çağırdı. Dedim: "Buyur, əmrinə müntəzirəm, ey Allahın Elçisi!" Bir

---

[46] Hədisdən açıq-aydın görünür ki, Peyğəmbər ﷺ bu adamın ölənədək vacib buyurulanları yerinə yetirəcəyini və Cənnətə daxil olacağını bilirdi.

[47] Muslim, 107; əl-Buxari, 1397.

[48] Əbu Əyyub əl-Ənsari əl-Xəzrəci ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Adı: Xalid ibn Zeyddir. O, hicrətin 52-ci ilində Konstantinopolun fəthi uğrunda gedən döyüşdə şəhid olmuşdur.

[49] əl-Buxari, 1396; Muslim, İman 14; ən-Nəsəi, Salət 10.

[50] Əbu Abdullah Muaz ibn Cəbəl ibn Amr əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabələrindən olmuşdur. Miladi 605-ci ildə Mədinədə anadan olmuş, hicrətin 18-ci ilində Əmvasda vəfat etmişdir.

[51] Bu, Muazın nə dərəcədə fəzilətli olduğunu, habelə bir kimsəni heyvanın tərkinə almağın caiz olduğunu göstərir.

az getdikdən sonra o, yenə: “Ey Muaz ibn Cəbəl!”– deyə çağırdı.[52] Dedim: “Buyur, əmrinə müntəzirəm, ey Allahın Elçisi!” Bir qədər getdikdən sonra o, yenə: “Ey Muaz ibn Cəbəl!”– deyə çağırdı. Dedim: “Buyur, əmrinə müntəzirəm, ey Allahın Elçisi!” O dedi: “Bilirsənmi, Allahın ﷻ qulları üzərindəki haqqı nədir?” Dedim: “Allah və Onun Elçisi daha yaxşı bilir!” Dedi: “Allahın qulları üzərindəki haqqı, qulların Ona ibadət edib heç kəsi Ona şərik qoşmamalarıdır”. Bir qədər getdikdən sonra yenə: “Ey Muaz ibn Cəbəl!”– deyə çağırdı. Dedim: “Buyur, əmrinə müntəzirəm, ey Allahın Elçisi!” O dedi: “Bilirsənmi, qulları bunu yerinə yetirəcəkləri təqdirdə onların Allah üzərindəki haqqı nədir?” Dedim: “Allah və Onun Elçisi daha yaxşı bilir!” Dedi: “(Ona heç nəyi şərik qoşmayan)[53] qullarına əzab verməməsidir”.[54]

٣٠ - عن أبي ذر ﷺ قال انطلق النبي ﷺ نحو البقيع وانطلقت أتلوه فالتفت فرآني فقال يا أبا ذر فقلت لبيك يا رسول الله وسعديك وأنا فداؤك فقال إن المكثرين هم المقلون يوم القيامة إلا من قال هكذا وهكذا في حق قلت الله ورسوله أعلم فقال هكذا ثلاثا ثم عرض لنا أحد فقال يا أبا ذر فقلت لبيك رسول الله وسعديك وأنا فداؤك قال ما يسرني أن أحدا لآل محمد ذهبا فيمسي عندهم دينار أو قال مثقال ثم عرض لنا واد فاستنتل فظننت أن له حاجة فجلست على شفير وأبطأ على قال فخشيت عليه ثم سمعته كأنه يناجي رجلا ثم خرج إلي وحده فقلت يا رسول الله من الرجل الذي كنت تناجي فقال أو سمعته قلت نعم قال فإنه جبريل أتاني فبشرني أنه من مات من أمتي لا يشرك بالله شيئا دخل الجنة قلت وإن زنى وإن سرق قال "نعم" ... عَنْ أَبَا ذَرٍّ ﷺ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ وَعَلَيْهِ ثَوْبٌ أَبْيَضُ وَهُوَ نَائِمٌ ثُمَّ أَتَيْتُهُ وَقَدْ اسْتَيْقَظَ فَقَالَ: مَا مِنْ عَبْدٍ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ ثُمَّ مَاتَ عَلَى ذَلِكَ إِلاَّ دَخَلَ الْجَنَّةَ قُلْتُ وَإِنْ زَنَى وَإِنْ سَرَقَ قَالَ وَإِنْ زَنَى وَإِنْ سَرَقَ قُلْتُ وَإِنْ زَنَى وَإِنْ سَرَقَ قَالَ وَإِنْ زَنَى وَإِنْ سَرَقَ قُلْتُ وَإِنْ زَنَى وَإِنْ سَرَقَ قَالَ وَإِنْ زَنَى وَإِنْ سَرَقَ عَلَى رَغْمِ أَنْفِ أَبِي ذَرٍّ وَكَانَ أَبُو ذَرٍّ إِذَا حَدَّثَ بِهَذَا قَالَ وَإِنْ رَغِمَ أَنْفُ أَبِي ذَرٍّ.

---

[52] ən-Nəvəvi ﷺ demişdir: “Peyğəmbərin ﷺ Muazı təkrar çağırması, ona söyləyəcəyinə diqqət yetirməsi və onu axıra kimi dinləməsi üçün idi. Rəvayət edilir ki, Peyğəmbər ﷺ bir söz söylədiyi zaman, söylədiklərini başa düşsünlər deyə, onu üç dəfə təkrar edərdi, habelə bir tayfanın yanına gəlib onları salamladıqda, üç kərə salam verərdi” (əl-Buxari 94).

[53] ən-Nəvəvi ﷺ demişdir: “Bilin ki, sələflərdən və xələflərdən haqq yolda olan əhli-sünnə alimləri ittifaq etmişlər ki, tövhidi qəbul edərək ölən kimsə hökmən Cənnətə daxil olacaq. Əgər bu adam uşaq, yaxud məcnun, yaxud şirkdən və başqa günahlardan tövbə etmiş birisi kimi günahsızdırsa və tövbə etdikdən sonra günah etməyibsə, Cəhənnəmdən uzaq olub Cənnətə girəcək... Kim də böyük günah edər və tövbə etmədən dünyadan köçərsə, Uca Allahın istəyi altında olar. İstəsə, onu bağışlayar və Cənnətə daxil edər. İstəsə də, ona Cəhənnəmdə istədiyi qədər əzab verər, sonra da onu Cənnətə daxil edər. Allah tövhid üzərində ölən heç bir kəsi – həmin adam nə qədər günah edirsə etsin – əbədi olaraq Cəhənnəmdə saxlamaz. Necə ki, kafir olaraq ölən kimsəni – həmin adam nə qədər yaxşılıqlar edirsə etsin – Cənnətə daxil etməz...”

[54] Muslim, 143.

30. Əbu Zərr[55] ﷺ demişdir: “Peyğəmbər sallallahu aleyhi və səlləm Bəqi qəbristanlığına tərəf getdi. Mən də onun dalınca getdim. O, arxaya dönüb məni gördükdə dedi: “Ey Əbu Zərr!” Mən dedim: “Canım sənə fəda olsun, (ey Allahın Elçisi!) Buyur əmrinə müntəzirəm!” O dedi: “(Bu dünyada vardövlətini) çoxaldanlar Qiyamət günü (savabı) azaldanlardır. Yalnız, “buna bu qədər, ona bu qədər xərcləyin” deyənlər müstəsnadır”. Mən dedim: “Allah və Onun Elçisi daha yaxşı bilir”. O: “Ona bu qədər” sözünü üç dəfə təkrar etdi. Sonra qarşımıza Uhud dağı çıxdı. O dedi: “Ey Əbu Zərr!” Mən dedim: “Canım sənə fəda olsun, (ey Allahın Elçisi!) Buyur, əmrinə müntəzirəm!” O dedi: “Uhud dağının Muhəmməd ailəsi üçün qızıl olub bir gecə onların yanında ondan bircə qızıl, yaxud bircə misqal qalması məni sevindirməz”. Sonra qarşımıza bir vadi çıxdı. Allah Elçisi sallallahu aleyhi və səlləm qabağa keçdi. Mən onun subaşına çıxmaq istədiyini zənn etdim. Ona görə də bir kənarda oturub onu gözlədim. Onun qayıtmağı gec oldu. Mən onun başına bir iş gəlməsindən qorxdum. Sonra onun səsini eşitdim, sanki kiminləsə pıçıldaşırdı. Mənim yanıma isə tək gəldi. Mən soruşdum: “Ey Allahın Elçisi! Sən kiminlə pıçıldaşırdın?” O soruşdu: “Sən bunu eşitdinmi?” Mən: “Bəli!”- deyə cavab verdim. O dedi: “Bu Cəbrail idi. Gəlmişdi mənə müjdə versin ki, ümmətimdən hər kim Allaha şərik qoşmadığı halda ölsə, Cənnətə daxil olacaq”. Mən dedim: “Zina etsə, oğurluq etsə də belə?” (Cəbrail): “Bəli!”- dedi”.[56]

٣١ - أَنَّ أَبَا ذَرٍّ ﷺ حَدَّثَهُ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ وَهُوَ نَائِمٌ، عَلَيْهِ ثَوْبٌ أَبْيَضُ، ثُمَّ أَتَيْتُهُ فَإِذَا هُوَ نَائِمٌ، ثُمَّ أَتَيْتُهُ وَقَدْ اسْتَيْقَظَ، فَجَلَسْتُ إِلَيْهِ فَقَالَ: «مَا مِنْ عَبْدٍ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ ثُمَّ مَاتَ عَلَى ذَلِكَ إِلاَّ دَخَلَ الْجَنَّةَ» قُلْتُ: وَإِنْ زَنَى، وَإِنْ سَرَقَ؟ قَالَ: «وَإِنْ زَنَى، وَإِنْ سَرَقَ» قُلْتُ: وَإِنْ زَنَى، وَإِنْ سَرَقَ؟ قَالَ: «وَإِنْ زَنَى، وَإِنْ سَرَقَ» ثَلاَثًا، ثُمَّ قَالَ فِي الرَّابِعَةِ: «عَلَى رَغْمِ أَنْفِ أَبِي ذَرٍّ» قَالَ: فَخَرَجَ أَبُو ذَرٍّ وَهُوَ يَقُولُ: وَإِنْ رَغِمَ أَنْفُ أَبِي ذَرٍّ.

31. Əbu Zərr ﷺ demişdir: “(Bir dəfə) mən Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəldim. (Həmin vaxt) o, üstünə ağ örtük sərib yatmışdı. (Mən dönüb getdim və bir müddətdən) sonra yenə onun yanına gəldim. O, hələ də yatırdı. (Mən yenə dönüb getdim və bir müddətdən) sonra bir də onun yanına gəldim. Artıq o, oyanmışdı. Mən onun yanında oturdum və o, mənə belə buyurdu: “Lə iləhə illəllah” deyən və (qəlbən) bunu təsdiqləyərək ölən hər bir bəndə mütləq Cənnətə girəcəkdir”. Mən soruşdum: “Zina

[55] Əbu Zərr Cundəb ibn Cunadə əl-Ğifari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 31-ci ilində Mədinə yaxınlığında vəfat etmişdir.

[56] əl-Buxari “Ədəbul-Mufrad” 803. əl-Albani səhih olduğunu bildirmişdir.

etsə, oğurluq etsə belə?" Dedi: "Zina etsə, oğurluq etsə belə". Mən (yenə) soruşdum: "Zina etsə, oğurluq etsə belə?" Dedi: "Zina etsə, oğurluq etsə belə". (Mən bu sualı) üç dəfə (təkrar etdim və hər dəfə eyni cavabı aldım.) Sonra dördüncü dəfə dedi: "Əbu Zərin xoşuna gəlməsə belə". Əbu Əsvəd deyir: "Əbu Zərr Peyğəmbərin salləllahu aleyhi və səlləm yanından çıxarkən (öz-özünə) dedi: "Əbu Zərin xoşuna gəlməsə belə".[57]

٣٢ - عَنْ جَابِرٍ قَالَ: أَتَى النَّبِيَّ ﷺ رَجُلٌ فَقَالَ: يَا رَسُولَ اللَّهِ! مَا الْمُوجِبَتَانِ؟ فَقَالَ: «مَنْ مَاتَ لاَ يُشْرِكُ بِاللَّهِ شَيْئًا دَخَلَ الْجَنَّةَ، وَمَنْ مَاتَ يُشْرِكُ بِاللَّهِ شَيْئًا دَخَلَ النَّارَ».

32. Cabir[58] ﷺ demişdir: "Bir nəfər Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi! (Cənnətə və Cəhənnəmə girməyi) vacib edən iki şey nədir?" Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Kim Allaha şərik qoşmayıb ölərsə, Cənnətə daxil olar. Kim də Allaha şərik qoşub ölərsə, Cəhənnəmə girər".[59]

٣٣ - عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﷺ أَنَّهُ قَامَ فيهم عند كنيسة معاوية فَحَدَّثَ أَنَّ رَسُولَ اللهِ ﷺ كَانَ يَقُولُ: مَنْ عَبَدَ اللَّهَ لاَ يُشْرِكُ بِهِ شَيْئًا، وَأَقَامَ الصَّلاَةَ وَآتَى الزَّكَاةَ، وَسَمِعَ وَأَطَاعَ فَإِنَّ اللَّهَ يدخله مِنْ أَيِّ أَبْوَابِ الْجَنَّةِ شَاءَ، وَ إن لَهَا ثَمَانِيَةُ أَبْوَاب، وَمَنْ عَبَدَ اللَّهَ لاَ يُشْرِكُ بِهِ شَيْئًا، وَآتَى الزَّكَاةَ، وَسَمِعَ، وَعَصَى فَإِنَّ اللَّهَ مِنْ أَمْرِهِ على الْخِيَارِ إِنْ شَاءَ رَحِمَهُ، وَإِنْ شَاءَ عَذَّبَهُ.

33. Ubadə ibn Samit ﷺ rəvayət edir ki, bir dəfə Muaviyə kilsənin yanında insanların arasında dayanaraq belə demişdir: "Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Kim Allaha heç bir şeyi şərik qoşmadan ibadət edər, namaz qılar, zəkat verər, eşidər və itaət edərsə, həqiqətən, Allah onu Cənnətin səkkiz qapısından hər hansı birindən istəsə, Cənnətə daxil edər. Kim də Allaha heç bir şeyi şərik qoşmadan ibadət edər, zəkat verər, eşidər və asi olarsa, həqiqətən o, Allahın ixtiyarı altındadır. İstəsə, ona rəhm edər, istəsə də ona əzab verər[60]".[61]

---

[57] Muslim, 273; əl-Buxari, 5827.

[58] Əbu Abdur-Rahmən Cabir ibn Abdullah ibn Amr ibn Həram əl-Ənsari əl-Xəzrəci əl-Mədəni ﷺ Peyğəmbərin ﷺ səhabələrindəndir. Ağac altında Peyğəmbərə ﷺ beyət gətirənlərdən olmuşdur. Öz zamanında Mədinənin müftisi olmuşdur. Hicrətin 78-ci ilində doxsan dörd yaşında vəfat etmişdir. Ən çox hədis rəvayət edən yeddi səhabədən biridir.

[59] Muslim, 269, 278.

[60] Bu, ümumiyyətlə, tövhid əhlindən olan günahkarın mütləq şəkildə Cənnətə daxil olacağına aiddir. Belə ki, etdiyi günahlara görə tövbə etməyən hər kəs Allahın istəyi altındadır. Allah ona Cəhənnəm əzabını daddırsa da, həmin adam tövhid əhli olduğundan axırda onu Cənnətə daxil edəcək.

٣٤ - عَنْ أَبِي أَيُّوبَ ﷺ أَنَّهُ حَدَّثَهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ مَنْ جَاءَ يَعْبُدُ اللهَ لاَ يُشْرِكُ بِهِ شَيْئًا، وَيُقِيمُ الصَّلاَةَ، وَيُؤْتِي الزَّكَاةَ، وَيَصُومُ رَمَضَانَ، وَيَتَّقِي الْكَبَائِرَ، فَإِنَّ لَهُ الْجَنَّةَ. قالُوا مَا الْكَبَائِرُ؟ قَالَ: الإِشْرَاكُ بِاللهِ، وَقَتْلُ النَّفْسِ الْمُسْلِمَةِ، وَفِرَارُ يَوْمِ الزَّحْفِ

34. Əbu Əyyub ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim Allaha heç bir şeyi şərik qoşmadan ibadət edər, namaz qılar, zəkat verər, Ramazan orucunu tutar və böyük günahlardan çəkinərək (Allahın hüzuruna) gələrsə, həqiqətən, ona Cənnət verilər". Dedilər: "Böyük günahlar hansılardır?" O buyurdu: "Allaha şərik qoşmaq, müsəlmanı öldürmək və düşmənlə qarşılaşdıqda döyüşdən qaçmaq!"[62]

٣٥ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «يَقُولُ اللَّهُ ﷻ مَنْ جَاءَ بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا وَأَزِيدُ وَمَنْ جَاءَ بِالسَّيِّئَةِ فَجَزَاؤُهُ سَيِّئَةٌ مِثْلُهَا أَوْ أَغْفِرُ وَمَنْ تَقَرَّبَ مِنِّى شِبْرًا تَقَرَّبْتُ مِنْهُ ذِرَاعًا وَمَنْ تَقَرَّبَ مِنِّى ذِرَاعًا تَقَرَّبْتُ مِنْهُ بَاعًا وَمَنْ أَتَانِى يَمْشِى أَتَيْتُهُ هَرْوَلَةً وَمَنْ لَقِيَنِى بِقُرَابِ الأَرْضِ خَطِيئَةً لاَ يُشْرِكُ بِى شَيْئًا لَقِيتُهُ بِمِثْلِهَا مَغْفِرَةً»

35. Əbu Zərr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Allah ﷻ buyurur: "Kim yaxşı bir əməl ilə (hüzuruma) gəlsə, ona on misli qədər və əlavə (yeddi yüzə qədər və daha çox savab) verərəm. Kim günah ilə gəlsə, ona (həmin) günaha bərabər əvəzini verərəm və ya bağışlayaram. Kim Mənə bir qarış yaxınlaşsa, Mən də ona bir dirsək[63] yaxınlaşaram. Kim Mənə bir dirsək yaxınlaşsa, Mən də ona bir qulac[64] yaxınlaşaram. Kim Mənə doğru yeriyərək gəlsə, Mən də ona doğru yüyürərək gələrəm. Kim Mənə heç bir şeyi şərik qoşmadan yer boyda günahla Mənimlə görüşsə, Mən də (onun etdiyinin) misli qədər məğfirətlə onu qarşılayaram".[65]

٣٦ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: قَالَ اللَّهُ ﷻ: «مَنْ عَلِمَ أَنِّي ذُو قُدْرَةٍ عَلَى مَغْفِرَةِ الذُّنُوبِ، غَفَرْتُ لَهُ وَلا أُبَالِي مَا لَمْ يُشْرِكْ بِي شَيْئًا»

36. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Allah ﷻ buyurdu: "Kim Mənim günahları bağışlamağa qadir ol-

---

[61] əl-Bəzzar, 2349, 2704; Əhməd, 23439, 22820. əl-Albani "Ziləlul-Cənnə"də (№ 968, 1027) həsən olduğunu qeyd etmişdir.

[62] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 11669. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6185) səhih olduğunu qeyd etmişdir.

[63] Dirsək - dirsəkdən barmaqların ucuna qədər uzunluqda olan qədim ölçü.

[64] Qulac - iki qol açıldığı zaman birinin ucundan digərinin ucuna qədər olan məsafə.

[65] Muslim, 2687, 4852, 7009.

duğumu bilsə, Mənə heç bir şeyi şərik qoşmadıqca, onu bağışlayaram. Bu Mənim üçün heç nədir".[66]

٣٧ - عَنْ جَابِرٍ ﷺ أَنَّ رَجُلاً سَأَلَ رَسُولَ اللَّهِ ﷺ فَقَالَ: أَرَأَيْتَ إِذَا صَلَّيْتُ الصَّلَوَاتِ الْمَكْتُوبَاتِ، وَصُمْتُ رَمَضَانَ، وَأَحْلَلْتُ الْحَلاَلَ وَحَرَّمْتُ الْحَرَامَ، وَلَمْ أَزِدْ عَلَى ذَلِكَ شَيْئًا، أَأَدْخُلُ الْجَنَّةَ؟ قَالَ: «نَعَمْ» قَالَ: وَاللَّهِ لاَ أَزِيدُ عَلَى ذَلِكَ شَيْئًا.

37. Cabir ﷺ demişdir: "Bir nəfər Peyğəmbərdən salləllahu aleyhi və səlləm soruşdu: "De görüm, əgər mən fərz namazları qılsam, Ramazan orucunu tutsam, halalı halal, haramı da haram qəbul etsəm və bunlara heç nə əlavə etməsəm, Cənnətə daxil olaram?" Peyğəmbər salləllahu aleyhi və səlləm: "Bəli!"– deyə cavab verdi. O da: "Vallahi ki, mən bunlara heç nə əlavə etməyəcəyəm".[67]

LƏ İLƏHƏ İLLƏLLAH KƏLMƏSİNİN ƏZƏMƏTİ

٣٨ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «الإِيمَانُ بِضْعٌ وَسَبْعُونَ أَوْ بِضْعٌ وَسِتُّونَ شُعْبَةً فَأَفْضَلُهَا قَوْلُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَدْنَاهَا إِمَاطَةُ الأَذَى عَنِ الطَّرِيقِ وَالْحَيَاءُ شُعْبَةٌ مِنَ الإِيمَانِ».

38. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "İmanın yetmişdən və ya altmışdan çox şöbəsi var. Onların ən fəzilətlisi "Lə iləhə illəllah" kəlməsi, ən aşağı olanı isə yoldan bir maneəni uzaqlaşdırmaqdır. Həya da imanın şöbələrindən biridir".[68]

٣٩ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ "مَا مِنْ نَفْسٍ تَمُوتُ تَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنِّى رَسُولُ اللَّهِ ﷺ يَرْجِعُ ذَلِكَ إِلَى قَلْبٍ مُوقِنٍ إِلاَّ غَفَرَ اللَّهُ لَهَا"..."مَا قَالَ عَبْدٌ لاَ إِلَهَ إِلاَّ اللَّهُ قَطُّ مُخْلِصًا إِلاَّ فُتِحَتْ لَهُ أَبْوَابُ السَّمَاءِ حَتَّى تُفْضِىَ إِلَى الْعَرْشِ مَا اجْتَنَبَ الْكَبَائِرَ"..."مَنْ كَانَ آخِرُ كَلاَمِهِ لا إِلَهَ إِلاَّ اللهُ، دَخَلَ الْجَنَّةَ".

39. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Allahdan başqa haqq ilahın olmadığına, mənim də Onun Elçisi olduğuna qəlbən, tam yəqinliklə şəhadət edərək ölən elə bir kimsə yoxdur ki, Allah onu bağışlamasın".[69] Digər rəvayətdə deyilir: "Səmimi

---

[66] ət-Təbərani "Mucəmul-Kəbir" 11615; əl-Hakim, 7676. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4330) həsən olduğunu bildirmişdir.
[67] Muslim, 110.
[68] Muslim, 162.
[69] İbn Məcə, 3796, 3928; əl-Humeydi, 395. əl-Albani həsən səhih olduğunu söyləmişdir.

qəlbdən “lə iləhə illəllah” deyən elə bir qul yoxdur ki, böyük günahlardan çəkindiyi müddətdə göyün qapıları onun üçün açılmasın və o kəlmə Ərşə çatmasın”.[70] “Kimin son kəlməsi “lə iləhə illəllah” olarsa, Cənnətə girər”.[71]

٤٠ - عَنْ عُثْمَانَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ مَاتَ وَهُوَ يَعْلَمُ أَنَّهُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ دَخَلَ الْجَنَّةَ)).

40. Osman ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Hər kim Allahdan başqa ibadətə layiq ilahın olmadığını bildiyi halda ölərsə, Cənnətə girər”.[72]

٤١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "مَنْ قَالَ: لا إِلَهَ إِلا اللَّهُ نَفَعَتْهُ يَوْمًا مِنْ دَهْرِهِ، أَصَابَهُ قَبْلَ ذَلِكَ مَا أَصَابَهُ".

41. Əbu Hureyra ﷺ rəvayət edir k, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: “Kim ömründə bir gün belə “lə iləhə illəllah” deyərsə, bundan öncə nə etməsinə baxmayaraq ona fayda verər”.[73]

٤٢ - سَمِعْتُ أُسَامَةَ بْنَ زَيْدِ بْنِ حَارِثَةَ ﷺ يُحَدِّثُ قَالَ: بَعَثَنَا رَسُولُ اللَّهِ ﷺ إِلَى الْحُرَقَةِ مِنْ جُهَيْنَةَ، فَصَبَّحْنَا الْقَوْمَ فَهَزَمْنَاهُمْ، قَالَ: وَلَحِقْتُ أَنَا وَرَجُلٌ مِنَ الأَنْصَارِ رَجُلاً مِنْهُمْ، فَلَمَّا غَشِينَاهُ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ، فَكَفَّ عَنْهُ الأَنْصَارِيُّ وَطَعَنْتُهُ بِرُمْحِي حَتَّى قَتَلْتُهُ، قَالَ: فَلَمَّا قَدِمْنَا بَلَغَ ذَلِكَ النَّبِيَّ ﷺ فَقَالَ لِي: ((يَا أُسَامَةُ! أَقَتَلْتَهُ بَعْدَ مَا قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ؟)) قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ! إِنَّمَا كَانَ مُتَعَوِّذًا. (قَالَ قُلْتُ يَا رَسُولَ اللَّهِ إِنَّمَا قَالَهَا خَوْفًا مِنَ السِّلاَحِ. قَالَ «أَفَلاَ شَقَقْتَ عَنْ قَلْبِهِ حَتَّى تَعْلَمَ أَقَالَهَا أَمْ لاَ) قَالَ: فَقَالَ: ((أَقَتَلْتَهُ بَعْدَ مَا قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ؟)) قَالَ: فَمَا زَالَ يُكَرِّرُهَا عَلَيَّ حَتَّى تَمَنَّيْتُ أَنِّي لَمْ أَكُنْ أَسْلَمْتُ قَبْلَ ذَلِكَ الْيَوْمِ.

42. Usamə ibn Zeyd ﷺ demişdir: “Bir dəfə Allah Elçisi sallәllahu aleyhi və sәllәm bizi Cuheynədəki Huraqatın üstünə göndərdi. Biz səhərə yaxın düşmənə hücum etdik və onları məğlubiyyətə uğratdıq. (Orada) mən ənsardan olan bir (mücahidlə) kafirlərdən birini haqladıq. Biz onun başının üstünü aldıqda o: “Lə ilahə illəllah!”- dedi. (Bunu eşidəndə) ənsardan olan qardaşım ona dəymədi. Mən isə nizəmlə onu vurub öldürdüm. Biz Mədinəyə gəldikdə hadisəni Peyğəmbərə sallәllahu aleyhi və sәllәm danışdılar. Peyğəmbər sallәllahu

[70] ət-Tirmizi, 3590, 3939. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.
[71] Əbu Davud, 3116, 3118. əl-Albani səhih olduğunu bildirmişdir.
[72] Muslim, 136.
[73] əl-Bəzzar, 8292; ət-Tabərani “Mucəmul-Kəbir” 1111; əl-Beyhəqi “Şuabul-İman” 96; İbn əl-Arabi “əl-Mucəm” 1132. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 6434) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 1932) səhih olduğunu bildirmişdir.

aleyhi və səlləm mənə dedi: “Ey Usamə! O: “Lə ilahə illəllah” deyəndən sonra sən onu öldürdün?!” Dedim: “Ey Allahın Elçisi! O, (canını) qurtarmaq üçün belə etdi”. (Mən dedim: “Ey Allahın Elçisi! O bunu silahdan qorxduğuna görə dedi”. Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu dedi: “Məgər sən onun qəlbini yardın ki, biləsən o bunu (ürəkdən) deyib, yoxsa yox?”[74]). Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: “O: “Lə ilahə illəllah” deyəndən sonra sən onu öldürdün?!” Peyğəmbər salləllahu aleyhi və səlləm bu sözü mənə o qədər təkrar etdi ki, nəhayət, mən (öz-özümə): “Kaş mən bu gündən öncə İslamı qəbul etmiş olmayaydım”- deyə təmənna etdim”.[75]

٤٣ - عَنْ الْمِقْدَادِ بْنِ الأَسْوَدِ ﷺ أَنَّهُ أَخْبَرَهُ أَنَّهُ قَالَ: يَا رَسُولَ اللَّهِ! أَرَأَيْتَ إِنْ لَقِيتُ رَجُلاً مِنْ الْكُفَّارِ، فَقَاتَلَنِي، فَضَرَبَ إِحْدَى يَدَيَّ بِالسَّيْفِ فَقَطَعَهَا، ثُمَّ لاَذَ مِنِّي بِشَجَرَةٍ فَقَالَ: أَسْلَمْتُ لِلَّهِ، أَفَأَقْتُلُهُ يَا رَسُولَ اللَّهِ بَعْدَ أَنْ قَالَهَا؟ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لاَ تَقْتُلْهُ» قَالَ: فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ! إِنَّهُ قَدْ قَطَعَ يَدِي، ثُمَّ قَالَ ذَلِكَ بَعْدَ أَنْ قَطَعَهَا، أَفَأَقْتُلُهُ؟ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لاَ تَقْتُلْهُ، فَإِنْ قَتَلْتَهُ فَإِنَّهُ بِمَنْزِلَتِكَ قَبْلَ أَنْ تَقْتُلَهُ، وَإِنَّكَ بِمَنْزِلَتِهِ قَبْلَ أَنْ يَقُولَ كَلِمَتَهُ الَّتِي قَالَ».

43. Miqdad ibn əl-Əsvəd ﷺ belə rəvayət etmişdir: “(Bir dəfə) mən Peyğəmbərə salləllahu aleyhi və səlləm dedim: “Ey Allahın Elçisi! Söylə görüm, əgər mən (döyüşdə) kafirlərdən biri ilə üz-üzə gəlib onunla vuruşsam, o, qılıncla vurub mənim bir əlimi kəssə, sonra da canını məndən qurtarmaq üçün ağaca qalxıb: “Allaha təslim oluram!”- desə, bu sözü dedikdən sonra mən onu öldürə bilərəmmi, ey Allahın Elçisi?” Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: “Sən onu öldürməməlisən!” Mən dedim: “Ey Allahın Elçisi! O, mənim bir əlimi kəsmiş və bu sözü ancaq əlimi kəsdikdən sonra demişdir. Belə isə mən onu öldürə bilərəmmi?” Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: “Sən onu öldürməməlisən. Çünki əgər sən onu öldürsən, onun halı, sənin onu öldürməmişdən qabaqkı halın kimi olacaq. Sənin halın isə, onun bu sözü deməmişdən əvvəlki halı kimi olacaq[76]”.[77]

٤٤ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ كَانَ رَسُولُ اللَّهِ ﷺ يُغِيرُ إِذَا طَلَعَ الْفَجْرُ وَكَانَ يَسْتَمِعُ الأَذَانَ فَإِنْ سَمِعَ أَذَانًا أَمْسَكَ وَإِلاَّ أَغَارَ فَسَمِعَ رَجُلاً يَقُولُ اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «عَلَى الْفِطْرَةِ». ثُمَّ قَالَ أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ

---

[74] Muslim, 287, 289.

[75] Muslim, 278; əl-Buxari, 4269, 4021, 6478, 6872; İbn Hibban, 4751; Əhməd, 21793.

[76] Peyğəmbərin ﷺ “...onun halı, sənin onu öldürməmişdən qabaqkı halın kimi olacaq” sözü o deməkdir ki, zahirən müsəlman olduqdan sonra onun qəsdinə durmaq qadağan olacaq, özü də şəriətə uyğun şəkildə mühakimə olunacaq. “Sənin halın onun bu sözü deməmişdən əvvəlki halı kimi olacaq” sözü isə o deməkdir ki, əgər sən onu öldürsən, onun varislərinin səndən qisas və ya qanbahası almağa haqqı olacaq” (Fəthul-Bəri, 19/ 301).

[77] Muslim, 95, 274; əl-Buxari, 4019, 6865.

أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «خَرَجْتَ مِنَ النَّارِ». فَنَظَرُوا فَإِذَا هُوَ رَاعِي مِعْزًى.

44. Ənəs ibn Məlik ﷺ demişdir: "Allah Elçisi sallәllahu aleyhi və sәllәm bir yerə sübh açıldıqda hücum edərdi. (Ora yaxınlaşıb) qulaq asar, azanı eşitsəydi, hücum etməzdi. Əks təqdirdə isə hücum edərdi. Bir kişinin: "Allahu Əkbər, Allahu Əkbər"- dediyini eşitdi və belə buyurdu: "O fitrət üzərindədir". Sonra belə dedikdə: "Əşhədu ənlə iləhə illəllah, əşhədu ənlə iləhə illəllah (Allahdan başqa haqq ilahın olmadığına şəhadət edirəm)". O, belə buyurdu: "Oddan qurtuldu". Baxdıqları vaxt onun bir çoban olduğunu gördülər".[78]

٤٥ - عَنْ أَبِي هُرَيْرَةَ أَوْ عَنْ أَبِي سَعِيدٍ ﷺ - شَكَّ الأَعْمَشُ - قَالَ: لَمَّا كَانَ غَزْوَةُ تَبُوكَ أَصَابَ النَّاسَ مَجَاعَةٌ، قَالُوا: يَا رَسُولَ اللَّهِ! لَوْ أَذِنْتَ لَنَا فَنَحَرْنَا نَوَاضِحَنَا، فَأَكَلْنَا وَادَّهَنَّا، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «افْعَلُوا» قَالَ: فَجَاءَ عُمَرُ فَقَالَ: يَا رَسُولَ اللَّهِ! إِنْ فَعَلْتَ قَلَّ الظَّهْرُ، وَلَكِنْ ادْعُهُمْ بِفَضْلِ أَزْوَادِهِمْ، ثُمَّ ادْعُ اللَّهَ لَهُمْ عَلَيْهَا بِالْبَرَكَةِ، لَعَلَّ اللَّهَ أَنْ يَجْعَلَ فِي ذَلِكَ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «نَعَمْ» قَالَ: فَدَعَا بِنِطَعٍ فَبَسَطَهُ، ثُمَّ دَعَا بِفَضْلِ أَزْوَادِهِمْ قَالَ: فَجَعَلَ الرَّجُلُ يَجِيءُ بِكَفِّ ذُرَةٍ، قَالَ: وَيَجِيءُ الآخَرُ بِكَفِّ تَمْرٍ، قَالَ: وَيَجِيءُ الآخَرُ بِكَسْرَةٍ، حَتَّى اجْتَمَعَ عَلَى النِّطَعِ مِنْ ذَلِكَ شَيْءٌ يَسِيرٌ قَالَ: فَدَعَا رَسُولُ اللَّهِ ﷺ عَلَيْهِ بِالْبَرَكَةِ، ثُمَّ قَالَ: «خُذُوا فِي أَوْعِيَتِكُمْ» قَالَ: فَأَخَذُوا فِي أَوْعِيَتِهِمْ، حَتَّى مَا تَرَكُوا فِي الْعَسْكَرِ وِعَاءً إِلاَّ مَلَئُوهُ، قَالَ: فَأَكَلُوا حَتَّى شَبِعُوا، وَفَضَلَتْ فَضْلَةٌ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنِّي رَسُولُ اللَّهِ، لاَ يَلْقَى اللَّهَ بِهِمَا عَبْدٌ غَيْرَ شَاكٍّ، فَيُحْجَبَ عَنْ الْجَنَّةِ».

45. Əbu Hureyra yaxud, Əbu Səid[79] ﷺ demişdir: "Təbuk[80] döyüşündə camaata aclıq üz vermişdi. Onlar (Peyğəmbərin sallәllahu aleyhi və sәllәm yanına gəlib) dedilər: "Ey Allahın Elçisi! İzn versəydin, yük dəvələrimizi kəsib ətindən yeyər, yağından da istifadə edərdik". Peyğəmbər sallәllahu aleyhi və sәllәm: "Edin!"– deyə buyurdu. Bu vaxt Ömər[81] ﷺ gəlib dedi: "Ey

[78] Muslim, 873.

[79] Ravi Aməş hədisin kim tərəfindən rəvayət edildiyinə şəkk etmişdir.

[80] Mədinədən 700 km şimalda yerləşən şəhər.

[81] Əbu Həfs, Ömər ibn Xəttab ibn Nufeyl əl-Qurəşi əl-Faruq ﷺ fil ilindən on il sonra, yəni, Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən otuz il əvvəl dünyaya gəlmişdir. Cənnətlə müjdələnmiş on nəfərdən biridir. O, Peyğəmbərin ﷺ həm ən yaxın iki dostundan biri, həm də onun qayınatası, möminlərin anası – Həfsənin O atasıdır. Ömər ibn Xəttab ﷺ demək olar ki, Peyğəmbərlə ﷺ birlikdə bütün döyüşlərdə iştirak etmiş və ələlxüsus da ağac altında ona beyət gətirənlərdən olmuşdur. Ömər ibn Xəttab ﷺ Rəsulullahın ﷺ ikinci xəlifəsi olmuş və məhz onun xilafəti dövründə o dövrün ən böyük imperiyaları, habelə Peyğəmbərimizin ﷺ arzuladığı Qüds fəth edilmişdir. Peyğəmbər ﷺ onu tərifləyib demişdir: "Əgər məndən sonra peyğəmbər göndərilmiş olsaydı, Ömər olardı" (ət-Tirmizi, 2/293; Silsilətul-Əhədisis-Sahiha, 327); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "(Yuxuda) gördüm ki, Cənnətdəyəm. Birdən qarşıma bir qəsr və bu qəsrin həyətində bir cavan qız çıxdı. Soruşdum: "Bu *qəsr* kimindir?" Dedilər: "Ömərindir!" Mən qəsrin içinə girib ora göz gəzdirmək istədim, lakin sənin qısqanclığın

Allahın Elçisi! Əgər belə etsək, miniyimiz azalacaq. (Yaxşı olar ki,) camaata ərzaqlarının qalanını sənin yanına gətirməyi buyurasan, sonra da onlar üçün Allahdan buna bərəkət diləyəsən. Yəqin ki, Allah bunun bərəkətini artırar". Peyğəmbər sallәllahu aleyhi və sәlləm: "Yaxşı!"– dedi. Sonra bir döşənək gətizdirdi və onu yerə sərdi. Sonra da camaata artıq qalmış ərzaqlarını gətirib (onun içinə qoymağı) buyurdu. (Onlardan) kimisi bir ovuc darı, kimisi bir ovuc xurma, kimisi də bir tikə yemək gətirməyə başladı. Nəhayət, döşənəyin üstündə az miqdarda ərzaq yığıldı. Peyğəmbər sallәllahu aleyhi və sәlləm yığılmış (ərzaq komasına) bərəkət dilədikdən sonra (camaata): "Xurcunlarınızı doldurun!"– deyə buyurdu. Onlar da xurcunlarını doldurmağa başladılar. Nəhayət, orduda olan xurcunların hamısını (ağızbaağız) doldurdular. Üstəlik (bu yeməkdən) doyuncaya qədər yedilər. Hələ artıq da qaldı. Onda Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "Mən şahidlik edirəm ki, Allahdan başqa həqiqi məbud yoxdur və mən Allahın elçisiyəm! Bu iki (şəhadət kəlməsinə) şəkk etməyərək bunlarla Allaha qovuşan hər bir bəndə mütləq Cənnətə girəcəkdir".[82]

٤٦ - عَنْ الصُّنَابِحِيِّ، عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﷺ أَنَّهُ قَالَ: دَخَلْتُ عَلَيْهِ وَهُوَ فِي الْمَوْتِ، فَبَكَيْتُ، فَقَالَ: مَهْلاً، لِمَ تَبْكِي؟ فَوَاللَّهِ! لَئِنْ اسْتُشْهِدْتُ لأَشْهَدَنَّ لَكَ، وَلَئِنْ شُفِّعْتُ لأَشْفَعَنَّ لَكَ، وَلَئِنْ اسْتَطَعْتُ لأَنْفَعَنَّكَ، ثُمَّ قَالَ: وَاللَّهِ! مَا مِنْ حَدِيثٍ سَمِعْتُهُ مِنْ رَسُولِ اللَّهِ ﷺ لَكُمْ فِيهِ خَيْرٌ إِلاَّ حَدَّثْتُكُمُوهُ، إِلاَّ حَدِيثًا وَاحِدًا، وَسَوْفَ أُحَدِّثُكُمُوهُ الْيَوْمَ وَقَدْ أُحِيطَ بِنَفْسِي، سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ شَهِدَ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ، حَرَّمَ اللَّهُ عَلَيْهِ النَّارَ».

46. Sunabihi[83] demişdir: "Ubadə ibn Samit ölüm ayağında ikən mən onun yanına gəldim və (onun bu halını görüb) ağlamağa başladım. Dedi: "Sakit ol görüm, niyə ağlayırsan? Vallahi, əgər məni şahid tutsalar, sənin lehinə

---

yadıma düşdü və mən dönüb oradan uzaqlaşdım". Bunu eşidəndə Ömər dedi: "Atam-anam sənə qurban, ya Rəsulullah, heç sənə qısqana bilərəmmi?!" (əl-Buxari, 3679). Abdullah ibn Məsud ﷺ demişdir: "Ömər İslamı qəbul edənədək müşriklər bizə Kəbənin yanında namaz qılmağa imkan vermirdilər. Ömər müsəlman olduqdan sonra qureyşlilərin müqavimətini sındırıb Kəbənin yanında namaz qıldı, biz də onunla birgə namaz qıldıq" (Səhih Sirə ən-Nəbəviyyə, 1/188). Ömər ibn Xəttab ﷺ hicrətin 13-cü ilində xilafətə gəlmiş, 10 il 6 ay möminlərə layiqincə əmirlik etmiş və hicrətin 23-cü ilində, zilhiccə ayının 23-ü, Mədinə şəhərində milliyətcə fars olan məcusi Əbu Lulu Firuz tərəfindən vurulmuş və üç gündən sonra altmış üç yaşında şəhid olmuşdur. Bundan sonra onu əziz iki dostunun: Peyğəmbərin ﷺ və Əbu Bəkrin ﷺ yanında dəfn etmişlər.

[82] Muslim, 139.

[83] Adı: Əbu Abdullah Abdur-Rahmən ibn Useylə əl-Muradidir. Əbu Bəkri ﷺ və bir çox səhabələri ﷺ görmüş tabiindir. Sunabih – Murad qəbiləsi yaxınlığındakı vadidir. Vaxtı ilə Sunabihi (İslam dinini qəbul etmək məqsədilə) Peyğəmbərin ﷺ yanına yollanmış, lakin gəlib Cöhfəyə yetişdikdə, artıq Mədinəyə çatmağa beş gün qalmış Peyğəmbər ﷺ vəfat etmişdir. Qeyd etmək lazımdır ki, hədis elmində təcrübəsi olmayan kimsələr bu tabiini Sunabih ibn Ə'sər ﷺ adlı səhabə ilə səhv salırlar.

şahidlik edərəm, işdir, mənə şəfaət etmək hüququ versələr, səndən ötrü şəfaətçi olaram və əgər gücüm yetərsə, sənə yardım edərəm. Vallahi, mən Peyğəmbərdən sallallahu aleyhi və səlləm eşitdiyim, (məzmunu) xeyirli olan hər bir hədisi sizə danışmışam. Yalnız bir hədisdən başqa. Bu gün mən artıq ölüm ayağında ikən o hədisi sizə danışacağam. Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: "Kim Allahdan başqa həqiqi məbudun olmadığına və Muhəmmədin Onun Elçisi olduğuna şahidlik etsə, Allah Cəhənnəm odunu ona haram edər".[84]

٤٧ - عَنْ أَنَسٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ وَمُعَاذٌ رَدِيفُهُ عَلَى الرَّحْلِ قَالَ: «يَا مُعَاذُ بْنَ جَبَلٍ». قَالَ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ. قَالَ «يَا مُعَاذُ». قَالَ لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ. ثَلاَثًا. قَالَ: «مَا مِنْ أَحَدٍ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ صِدْقًا مِنْ قَلْبِهِ إِلاَّ حَرَّمَهُ اللَّهُ عَلَى النَّارِ». قَالَ يَا رَسُولَ اللَّهِ، أَفَلاَ أُخْبِرُ بِهِ النَّاسَ فَيَسْتَبْشِرُوا قَالَ «إِذًا يَتَّكِلُوا». وَأَخْبَرَ بِهَا مُعَاذٌ عِنْدَ مَوْتِهِ تَأَثُّمًا.

47. Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm Muazla ﷺ birlikdə dəvənin tərkində ikən: "Ey Muaz!"- deyə çağırdı. (Muaz): "Buyur, əmrinə müntəzirəm, ey Allahın Elçisi!"- deyə cavab verdi. (Peyğəmbər sallallahu aleyhi və səlləm) yenə: "Ey Muaz!"- deyə çağırdı. O: "Buyur, əmrinə müntəzirəm, ey Allahın Elçisi!"- deyə cavab verdi. Bu hal üç dəfə təkrar olduqdan sonra Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Allahdan başqa həqiqi məbudun olmadığına və Muhəmmədin Allahın elçisi olduğuna sidq ürəkdən şəhadət verən elə bir kəs yoxdur ki, Allah ona Cəhənnəm odunu haram etməsin". (Muaz) dedi: "Ey Allahın Elçisi! Bunu insanlara xəbər verimmi ki, sevinsinlər?" Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Belə olduğu təqdirdə (buna) arxayın olacaqlar". Muaz ﷺ günaha batacağından qorxub ölümündən qabaq bu haqda (insanlara) xəbər verdi[85]".[86]

٤٨ - حَدَّثَنَا عُبَادَةُ بْنُ الصَّامِتِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ قَالَ: أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ (لاَ شَرِيكَ لَهُ)، وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، وَأَنَّ عِيسَى عَبْدُ اللَّهِ وَابْنُ أَمَتِهِ وَكَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ وَرُوحٌ مِنْهُ، وَأَنَّ الْجَنَّةَ حَقٌّ، وَأَنَّ النَّارَ حَقٌّ، أَدْخَلَهُ اللَّهُ مِنْ أَيِّ أَبْوَابِ الْجَنَّةِ الثَّمَانِيَةِ شَاءَ». ...«أَدْخَلَهُ اللَّهُ الْجَنَّةَ عَلَى مَا كَانَ مِنَ الْعَمَلِ».

---

[84] Muslim, 142.

[85] Şeyx Əbu Amr ibn əs-Səlah ﷺ demişdir: "Peyğəmbər ﷺ, həyat təcrübəsi və savadı olmayan kimsələrin bu müjdədən xəbər tutub çaş-baş qalacaqlarından və arxayınlaşacaqlarından qorxub, bunu ümumi şəkildə qadağan etmişdir. Halbuki özü bunu Muaza, Əbu Hureyraya, Ömərə və digərlərinə ﷺ – aldanmayacaqlarına və arxayınlaşmayacaqlarına əmin olduğu səhabələrinə xəbər vermişdir. Muaz da öz növbəsində bunu etibar etdiyi yaxın adamlarına xəbər vermişdir".

[86] əl-Buxari, 128; Muslim, 148.

48. Ubədə ibn Samit[87] ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: “Hər kim Allahdan başqa həqiqi məbudun olmadığına, Onun Tək olduğuna (və heç bir şəriki olmadığına), Muhəmmədin Onun qulu və elçisi olduğuna, İsanın Allahın qulu, kənizinin oğlu, Məryəmə göndərdiyi kəlməsi və Onun ruhundan olduğuna, Cənnətin haqq, Cəhənnəmin də haqq olduğuna şahidlik etsə, Allah Cənnətin səkkiz qapısının hansından diləsə, onu oradan (Cənnətə) daxil edər[88]”.[89] Digər rəvayətdə deyilir: “...nə əməl etmiş olursa-olsun, Allah onu Cənnətə daxil edər”.[90]

٤٩ - حَدَّثَنِي أَبُو هُرَيْرَةَ ﷺ قَالَ: كُنَّا قُعُودًا حَوْلَ رَسُولِ اللَّهِ ﷺ – مَعَنَا أَبُو بَكْرٍ وَعُمَرُ – فِي نَفَرٍ فَقَامَ رَسُولُ اللَّهِ ﷺ مِنْ بَيْنِ أَظْهُرِنَا، فَأَبْطَأَ عَلَيْنَا وَخَشِينَا أَنْ يُقْتَطَعَ دُونَنَا، وَفَزِعْنَا وَقُمْنَا، فَكُنْتُ أَوَّلَ مَنْ فَزِعَ، فَخَرَجْتُ أَبْتَغِي رَسُولَ اللَّهِ ﷺ، حَتَّى أَتَيْتُ حَائِطًا لِلأَنْصَارِ لِبَنِي النَّجَّارِ، فَدُرْتُ بِهِ هَلْ أَجِدُ لَهُ بَابًا، فَلَمْ أَجِدْ، فَإِذَا رَبِيعٌ يَدْخُلُ فِي جَوْفِ حَائِطٍ مِنْ بِئْرٍ خَارِجَةٍ – وَالرَّبِيعُ: الْجَدْوَلُ – فَاحْتَفَزْتُ (كَمَا يَحْتَفِزُ الثَّعْلَبُ) فَدَخَلْتُ عَلَى رَسُولِ اللَّهِ ﷺ، فَقَالَ: «أَبُو هُرَيْرَةَ؟» فَقُلْتُ: نَعَمْ، يَا رَسُولَ اللَّهِ! قَالَ: «مَا شَأْنُكَ؟» قُلْتُ: كُنْتَ بَيْنَ أَظْهُرِنَا، فَقُمْتَ فَأَبْطَأْتَ عَلَيْنَا، فَخَشِينَا أَنْ تُقْتَطَعَ دُونَنَا، فَفَزِعْنَا، فَكُنْتُ أَوَّلَ مِنْ فَزِعَ، فَأَتَيْتُ هَذَا الْحَائِطَ، فَاحْتَفَزْتُ كَمَا يَحْتَفِزُ الثَّعْلَبُ، وَهَؤُلاَءِ النَّاسُ وَرَائِي، فَقَالَ: «يَا أَبَا هُرَيْرَةَ!» وَأَعْطَانِي نَعْلَيْهِ قَالَ: «اذْهَبْ بِنَعْلَيَّ هَاتَيْنِ فَمَنْ لَقِيتَ مِنْ وَرَاءِ هَذَا الْحَائِطِ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، مُسْتَيْقِنًا بِهَا قَلْبُهُ، فَبَشِّرْهُ بِالْجَنَّةِ» فَكَانَ أَوَّلَ مَنْ لَقِيتُ عُمَرُ، فَقَالَ: مَا هَاتَانِ النَّعْلاَنِ يَا أَبَا هُرَيْرَةَ؟ فَقُلْتُ: هَاتَانِ نَعْلاَ رَسُولِ اللَّهِ ﷺ بَعَثَنِي بِهِمَا، مَنْ لَقِيتُ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ مُسْتَيْقِنًا بِهَا قَلْبُهُ، بَشَّرْتُهُ بِالْجَنَّةِ. فَضَرَبَ عُمَرُ بِيَدِهِ بَيْنَ ثَدْيَيَّ ضَرْبَةً، فَخَرَرْتُ لاِسْتِي، فَقَالَ: ارْجِعْ يَا أَبَا هُرَيْرَةَ! فَرَجَعْتُ إِلَى رَسُولِ اللَّهِ ﷺ، فَأَجْهَشْتُ بُكَاءً، وَرَكِبَنِي عُمَرُ، فَإِذَا هُوَ عَلَى أَثَرِي، فَقَالَ (لِي) رَسُولُ اللَّهِ ﷺ: «مَا لَكَ يَا أَبَا هُرَيْرَةَ؟» قُلْتُ: لَقِيتُ عُمَرَ، فَأَخْبَرْتُهُ بِالَّذِي بَعَثْتَنِي بِهِ، فَضَرَبَ بَيْنَ ثَدْيَيَّ ضَرْبَةً خَرَرْتُ لاِسْتِي، قَالَ: ارْجِعْ. قَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ: «يَا عُمَرُ! مَا حَمَلَكَ عَلَى مَا فَعَلْتَ؟» قَالَ: يَا رَسُولَ اللَّهِ! بِأَبِي أَنْتَ وَأُمِّي، أَبَعَثْتَ أَبَا هُرَيْرَةَ بِنَعْلَيْكَ، مَنْ لَقِيَ يَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ مُسْتَيْقِنًا بِهَا قَلْبُهُ، بَشَّرَهُ بِالْجَنَّةِ، قَالَ: «نَعَمْ» قَالَ: فَلاَ تَفْعَلْ، فَإِنِّي أَخْشَى أَنْ يَتَّكِلَ النَّاسُ عَلَيْهَا، فَخَلِّهِمْ يَعْمَلُونَ، قَالَ رَسُولُ اللَّهِ ﷺ: «فَخَلِّهِمْ».

49. Əbu Hureyra ﷺ demişdir: “(Bir dəfə) biz bir dəstə adamla Peyğəmbərin sallәllahu aleyhi və sәllәm ətrafında oturmuşduq. Əbu Bəkr[91] və Ömər ﷺ də

---

[87] Ubadə ibn Samit ibn Qeys ibn Əsram əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Miladi 583-cü ildə Mədinədə anadan olmuş, hicrətin 34-cü ilində Fələstində vəfat etmişdir.

[88] Əqidə məsələlərini özündə əks etdirən bu hədisdə Peyğəmbər ﷺ müxtəlif batil etiqadlarda olan kafir ümmətlərin hamısından uzaq bir etiqadı cəm etmişdir. Peyğəmbər ﷺ bu hədisdə İsanın ﷺ Allahın Kəlməsi olduğunu bildirmişdir. Belə ki, İsanın ﷺ anasına insan toxunmamış və o, sadəcə “Ol” kəlməsi ilə olmuşdur. Bu haqda Quranda belə buyurulur: ***“Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə, ona ancaq “Ol!”- deyər, o da dərhal olar”*** *(Məryəm, 35).*

[89] Muslim, 140.

[90] əl-Buxari, 3435.

[91] Əbu Bəkr Abdullah ibn Osman ibn Amir əs-Siddiq ﷺ miladi 572-ci ildə Məkkədə anadan olmuşdur. Muhəmmədə ﷺ peyğəmbərlik verildiyi zaman o, Məkkə əhlini İslama dəvət etmiş və bu dəvəti

bizimlə idi.[92] Bu vaxt Peyğəmbər sallәllahu aleyhi və sәlləm aramızdan qalxıb getdi və (geri qayıtmaqda) bir qədər ləngidi. Biz onun başına bir iş gələcəyindən qorxub təşvişə düşdük və (dərhal hamımız) ayağa qalxdıq. (Hamıdan) əvvəl mən narahat oldum və qalxıb onu axtarmağa getdim. Nəhayət,

---

kişilərdən qəbul edən ilk şəxs Əbu Bəkr ﷺ olmuşdur. Peyğəmbər ﷺ əs-Siddiq ləqəbini Əbu Bəkrə ﷺ İsra və Merac səfərini şəkk-şübhə etmədən təsdiqlədiyi üçün vermişdir. O, Peyğəmbərin ﷺ ən yaxın səhabələrindən, hicrət yoldaşı və Cənnətlə müjdələnmiş on nəfərdən biridir. Bir çox döyüşlərdə iştirak etmiş, malı və canı ilə İslam dininə yardım etmişdir. Əbu Bəkrin ﷺ fəzilətinə dair bəzi ayələr: ət-Tövbə, 40, əl-Leyl, 17-21 və s. Hədislərdən isə bunları qeyd etmək olar: Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ səhabələrə xitab edib dedi: "Həqiqətən, mənə ən yaxın yoldaş və mal-dövləti ilə ən çox qayğı göstərən Əbu Bəkrdir. Rəbbimdən qeyrisini (ifrata varmaqla) sevmiş olsaydım, Əbu Bəkri sevərdim. Lakin, o mənim müsəlman qardaşımdır. Elə isə, məscidə açılan Əbu Bəkrin qapısından başqa bütün qapıları bağlayın!" (əl-Buxari, 3654). Cubeyr bin Mutim ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ onun yanına gələn qadına qayıdıb, bir müddət sonra gəlməyini bildirdi. Qadın: "Səni tapa bilməsəm necə?"- deyə soruşduqda, o dedi: "Məni tapmasan, Əbu Bəkrin yanına get!" (əl-Buxari, 3659). Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbərdən ﷺ eşitdim, o dedi: "Hər kəs Allah üçün saleh əməl edərsə, Cənnət qapılarından dəvət olunar; namaz əhli namaz qapısından, cihad əhli cihad qapısından, sədəqə əhli sədəqə qapısından və oruc əhli Rəyyan adlı oruc qapısından Cənnətə dəvət olunar". Bunu eşidən Əbu Bəkr ﷺ dedi: "Ey Allahın Elçisi! O qapıların hamısından dəvət olunan olacaqmı?" Allahın Elçisi ﷺ: "Bəli, və mən istəyirəm ki, sən onlardan olasan, ey Əbu Bəkr!"– deyə cavab verdi" (əl-Buxari, 3666). Urva ibn əz-Zubeyr ﷺ rəvayət edir: "Mən Abdullah ibn Amrdan ﷺ müşriklərin Peyğəmbərə ﷺ nə etdikləri barəsində soruşduqda, o dedi: "Peyğəmbər ﷺ namaz qılarkən Uqbə ibn Əbu Muit gəlib dəsmalı onun boynuna sarıdı və boğmağa başladı. Bunu görən Əbu Bəkr gəlib onu kənara itələdi və Allahın bu kəlamını oxudu: ***"Məgər, siz bir adamı "Rəbbim Allahdır"- deməyinə görə öldürəcəksiniz?! Halbuki, o, Rəbbinizdən sizə açıq-aşkar möcüzələr gətirmişdir"*** *(Ğafir, 28)* (əl-Buxari, 3678). Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, bir dəfə Əbu Bəkr ﷺ Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə ﷺ çatdırdıqda, o dedi: "İzn ver, gəlsin və onu cənnətlə müjdələ!" (əl-Buxari, 3674). İbn Abbas رضي الله عنهما rəvayət edir ki, mən Ömər ibn əl-Xəttabın ﷺ vəfatından sonra, onun çarpayısının ətrafına toplaşıb dua edənlərin arasında dayanmışdım; Arxamda dayanan bir kişi dirsəyini çiynimə qoyub dedi: "Allah sənə rəhmət etsin! Allahdan istəyirəm ki, sən yoldaşlarınla (Məhəmməd ﷺ və Əbu Bəkrlə ﷺ bir yerdə olasan! Çünki mən çox vaxt Peyğəmbərin ﷺ dediyini eşidirdim: "Mən, Əbu Bəkr və Ömər filan yerdə idik. Mən, Əbu Bəkr və Ömər filan əməli etdik. Mən, Əbu Bəkr və Ömər filan yerə getdik". Mən dönüb arxamda dayanan səhabənin kim olduğuna baxdım. Bu, Əli bin Əbu Talib ﷺ idi" (əl-Buxari, 3677). Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə) hətta yarısına belə çata bilməz" (əl-Buxari, 3673). Əli ﷺ iki şeyx - Əbu Bəkr və Ömər رضي الله عنهما haqqında demişdir: "Müsəlmanların ən yaxşısı, Allaha və Onun Elçisinə ﷺ ən yaxını - xəlifə Siddiq və xəlifə Faruq olmuşlar. And içirəm ki, onların İslamda yerləri həqiqətən böyükdür. Onların yoluxduğu adam şiddətli İslam xəstəliyinə tutular (yəni, onlardan ibrət götürənlər dinlərində daha möhkəm olardılar). Allah onlara rəhmət etsin və onları gördükləri ən yaxşı işlərə görə mükafatlandırsın" (Meysəm "Şərh Nəhcul-Bəlağə", 1/31, Tehran çapı). Məclisi istinadla Cəfər əs-Sadiqdən رحمه الله, o da babalarından, onlar da Əlidən ﷺ rəvayət etmişdir: "Peyğəmbərimizin ﷺ səhabələrini söyməməyi sizə vəsiyyət edirəm. Onlar Peyğəmbərdən ﷺ sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər ﷺ də belə vəsiyyət etmişdir" (Biharul-Ənvar", 22/305, 306). Peyğəmbərin ﷺ vəfatından sonra səhabələrin şurası tərəfindən seçilərək xilafətə gəlmiş və 2 il 3 ay xəlifə olmuşdur. Hicrətin 13-cü ilində 63 yaşında vəfat etmişdir.

[92] Səhabələr adətən bir toplumdan xəbər verdikdə, onların hamısının adlarını çəkməz, ən hörmətlilərinin və ya bunlardan bəzilərinin adlarını çəkməklə kifayətlənər və "başqaları" deyərdilər.

ənsardan[93] olan Nəccar oğullarının bostanına gəldim. Bostanın ətrafına hərləndim ki, bəlkə bir qapı tapıb (oraya girim), amma tapa bilmədim. Bir də baxdım ki, çölдəki su quyusundan bostanın içinə bir arx gedir. Mən yerə yatıb (tülkü kimi) sürünərək Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına daxil oldum. Peyğəmbər salləllahu aleyhi və səlləm: "Əbu Hureyradırmı?"– deyə soruşdu. Dedim: "Bəli, ey Allahın Elçisi!" Soruşdu: "Sənə nə olub?" Dedim: "Sən aramızdan qalxıb getdin və bir qədər ləngidin deyə, başına bir iş gələcəyindən qorxub təşvişə düşdük. Hamıdan əvvəl mən narahat oldum, qalxıb bu bostana gəldim və yerə yatıb tülkü kimi sürünərək bura daxil oldum. Oradakı camaat da arxamca gəlir". Peyğəmbər salləllahu aleyhi və səlləm: "Ey Əbu Hureyra!"– deyib nəleyinlərini[94] mənə verdi və dedi: "Götür apar bu nəleyinlərimi![95] Bu bostanın çölündə, Allahdan başqa həqiqi məbudun olmadığına şahidlik gətirən və yəqinliklə buna inanan kəsə rast gəlsən, onu Cənnətlə müjdələ"[96]. Mənim ilk rast gəldiyim adam Ömər oldu. O soruşdu: "Bu nə nəleyinlərdir, ey Əbu Hureyra?" Dedim: "Bu, Peyğəmbərin salləllahu aleyhi və səlləm nəleyinləridir. Bunları mənə verərək göndərib ki, Allahdan başqa həqiqi məbudun olmadığına şahidlik gətirən və yəqinliklə buna inanan hər kəsi Cənnətlə müjdələyim". (Bunu eşidəndə) Ömər sinəmə bir zərbə vurdu və mən arxası üstə yerə dəydim. Sonra (mənə): "Geri dön, ey Əbu Hureyra!"– dedi, mən də Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına qayıtdım. Mən az qala ağlayacaqdım. Ömər də arxamca gəlirdi. Peyğəmbər salləllahu aleyhi və səlləm (məndən): "Sənə nə olub, ey Əbu Hureyra?"– deyə soruşdu. Dedim: "Mən Ömərə rast gəldim və sənin mənə tapşırdığını ona xəbər verdim. (Buna rəğmən) o mənim sinəmə bir zərbə vurdu və mən arxası üstə yerə düşdüm. (Sonra mənə): "Geri dön!"– dedi". Peyğəmbər salləllahu aleyhi və səlləm ondan: "Ey Ömər, bunu etməyə səni nə vadar etdi?"– deyə soruşdu. Ömər dedi: "Atam-anam sənə fəda olsun, ey Allahın Elçisi! Doğrudanmı, sən nəleyinlərini Əbu Hureyraya verib göndərmisən ki, Allahdan başqa həqiqi məbudun olmadığına

---

[93] İslamı qəbul etmiş və Muhəmməd Peyğəmbərin ﷺ sədaqətli silahdaşları olmuş Mədinənin yerli sakinləri. Onlar Məkkədən və başqa şəhərlərdən gələn mühacirləri evlərinə qəbul edir və onları zəruri əşyalarla təmin edirdilər.

[94] Nəleyin - başmağa oxşar ayaqqabı.

[95] Peyğəmbərin ﷺ səndəlləri Əbu Hureyraya ؓ verməkdə məqsədi bu idi ki, bunlar səhabələr üçün zahiri bir əlamət olsun və onlar Əbu Hureyranın ؓ Peyğəmbərə ﷺ rast gəldiyini bilsinlər və onun söylədiklərini daha tez qəbul etsinlər. Halbuki, onlar bunsuz da onun dediyini qəbul edirdilər (Mişkətul-Məsabih, 1/ 298).

[96] Onlara xəbər ver ki, bu sifətləri özündə cəm edən hər kəs Cənnət əhlindən olacaq. Hədisdən açıq-aydın görünür ki, nə tövhid kəlməsinə iman gətirmədən onu tələffüz etməyin, nə də tələffüz etmədən ona inanmağın faydası var. Əksinə, bunları cəm etmək labüddür.

şahidlik gətirən və yəqinliklə buna inanan hər kəsi Cənnətlə müjdələsin?" Peyğəmbər sallallahu aleyhi və səlləm: "Bəli"- deyə cavab verdi. Ömər dedi: "Belə etmə, (ey Allahın Elçisi)! Düzü, mən insanların buna arxayın olacağından qorxuram. Burax onları, (yaxşı) işlər görməyə çalışsınlar[97]". Peyğəmbər sallallahu aleyhi və səlləm: "Yaxşı, qoy çalışsınlar!"- deyə buyurdu".[98]

٥٠ - عَنْ أَبِى هُرَيْرَةَ وَأَبِى سَعِيدٍ ﷺ أَنَّهُمَا شَهِدَا عَلَى رَسُولِ اللَّهِ ﷺ قَالَ «إِذَا قَالَ الْعَبْدُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ. قَالَ يَقُولُ اللَّهُ ﷻ صَدَقَ عَبْدِى لاَ إِلَهَ إِلاَّ أَنَا وَأَنَا أَكْبَرُ. وَإِذَا قَالَ الْعَبْدُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ. قَالَ صَدَقَ عَبْدِى لاَ إِلَهَ إِلاَّ أَنَا وَحْدِى. وَإِذَا قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ لاَ شَرِيكَ لَهُ. قَالَ صَدَقَ عَبْدِى لاَ إِلَهَ إِلاَّ أَنَا وَلاَ شَرِيكَ لِى. وَإِذَا قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ. قَالَ صَدَقَ عَبْدِى لاَ إِلَهَ إِلاَّ أَنَا لِىَ الْمُلْكُ وَلِىَ الْحَمْدُ. وَإِذَا قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ. قَالَ صَدَقَ عَبْدِى لاَ إِلَهَ إِلاَّ أَنَا وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِى». قَالَ أَبُو إِسْحَاقَ ثُمَّ قَالَ الأَغَرُّ شَيْئًا لَمْ أَفْهَمْهُ. قَالَ فَقُلْتُ لأَبِى جَعْفَرٍ مَا قَالَ فَقَالَ مَنْ رُزِقَهُنَّ عِنْدَ مَوْتِهِ لَمْ تَمَسَّهُ النَّارُ.

50. Əbu Hureyra və Əbu Səid əl-Xudri[99] ﷺ rəvayət edirlər ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Qul: "Lə iləhə illəllahu Vallahu Əkbər" (Allahdan başqa haqq ilah yoxdur və Allah ən Böyükdür) - dedikdə, Allah ﷻ buyurur: "Qulum doğru söylədi, Məndən başqa haqq ilah yoxdur və Uca olan Mənəm". Qul: "Lə iləhə illəllahu vahdəhu" (Allahdan başqa haqq ilah yoxdur, O təkdir) - dedikdə, Allah buyurur: "Qulum doğru söylədi, tək olan Mənəm, Məndən başqa haqq ilah yoxdur". Qul: "Lə iləhə illəllahu lə şərikə ləhu" (Allahdan başqa haqq ilah yoxdur, Onun şəriki də yoxdur) - dedikdə, Allah buyurur: "Qulum doğru söylədi, Məndən başqa haqq ilah yoxdur və Mənim şərikim də yoxdur". Qul: "Lə iləhə illəllahu ləhul-mulku va ləhul-həmdu" (Allahdan başqa haqq ilah yoxdur, mülk və həmd Ona məxsusdur) - dedikdə, Allah buyurur: "Məndən başqa haqq ilah yoxdur,

---

[97] Qazı İyad ﷺ və bir çox başqa alimlər ﷺ demişlər: "Ömərin ﷺ hərəkəti və Peyğəmbərə ﷺ etdiyi müraciəti, heç də onun Peyğəmbərə ﷺ etiraz etməsi və onun əmrinə qarşı çıxması demək deyildir. Çünki Peyğəmbərin ﷺ Əbu Hureyraya ﷺ tapşırdığı bu iş ancaq ümmətin könlünü açacaq və onları müjdələyəcək bir xəbər idi. Lakin Ömər ﷺ bunun gizli saxlanmasını insanlar üçün daha məqsədəuyğun və onların arxayınlaşmamaları üçün daha əlverişli hesab etmiş, habelə bunun o müjdədən daha xeyirli olduğunu güman etmişdir. Nəhayət, Ömər ﷺ bu məsələni Peyğəmbərə ﷺ ərz etdikdə, o, Ömərin ﷺ təklifi ilə razılaşmışdır. Bu da dəlildir ki, imam və ya rəhbər şəxs bir şeyi məsləhət gördüyü, tabeçiliyində olan kimsənin isə bunun tam əksini məsləhət bildiyi təqdirdə, tabeçilikdə olan adam məsələni rəhbər şəxsə bildirməlidir. Bildirməlidir ki, o, buna bir daha nəzər salsın və əgər tabeçiliyində olan adamın dediyi məqsədəuyğundursa, onu dəstəkləsin, əks halda isə ona yanlış düşündüyünü başa salsın".

[98] Muslim, 147.

[99] Əbu Səid Səd ibn Malik ibn Sinan əl-Xudri ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir. Mədinənin müftisi olmuşdur. Xəndək döyüşündə və Rizvan beyətində (yəni, ağac altında olan beyətdə) iştirak etmişdir. Hicrətin 74-cü ilində vəfat etmişdir.

mülk və həmd Mənə məxsusdur". Qul: "Lə iləhə illəllahu va lə həulə va lə quvvətə illə billəh" - (Allahdan başqa haqq ilah yoxdur, qüdrət və güc yalnız Allaha məxsusdur) - dedikdə, Allah buyurur: "Qulum doğru söylədi, Məndən başqa haqq ilah yoxdur, qüdrət və güc yalnız Məndədir". Əbu İshaq dedi: "Sonra Əğarr Əbu Muslim anlamadığım bəzi şeylər söylədi. Mən Əbu Cəfərə: "O nə dedi?"- deyə soruşdum. O dedi: "Ölüm anında bunları deməyə imkan verilən şəxsə Cəhənnəm odu toxunmaz".[100]

٥١ - عَنْ سُعْدَى الْمُرِّيَّةِ ﵂ قَالَتْ: مَرَّ عُمَرُ بِطَلْحَةَ ﵁ بَعْدَ وَفَاةِ رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: مَا لَكَ كَئِيبًا أَسَاءَتْكَ إِمْرَةُ ابْنِ عَمِّكَ؟ قَالَ: لاَ وَلَكِنْ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنِّي لأَعْلَمُ كَلِمَةً لاَ يَقُولُهَا أَحَدٌ عِنْدَ مَوْتِهِ إِلاَّ كَانَتْ نُورًا لِصَحِيفَتِهِ وَإِنَّ جَسَدَهُ وَرُوحَهُ لَيَجِدَانِ لَهَا رَوْحًا عِنْدَ الْمَوْتِ». فَلَمْ أَسْأَلْهُ حَتَّى تُوُفِّيَ قَالَ: أَنَا أَعْلَمُهَا هِيَ الَّتِي أَرَادَ عَمَّهُ عَلَيْهَا وَلَوْ عَلِمَ أَنَّ شَيْئًا أَنْجَى لَهُ مِنْهَا لأَمَرَهُ.

51. Sudə əl-Murriyyə ﵂ rəvayət edir ki, bir gün Ömər ﵁ Allah Elçisinin sallallahu aleyhi və səlləm vəfatından sonra Talhənin ﵁ yanından keçərkən onu kədərli görüb dedi: "Nəyə görə kədərlisən? Əmin oğlunun (Əbu Bəkrin ﵁) hakimiyyətə gəlməsi səni kədərləndirdi?" Talhə ﵁ dedi: "Xeyr, lakin mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitdim: "Həqiqətən, mən elə bir kəlmə bilirəm ki, onu ölüm vaxtı deyən elə bir kimsə yoxdur ki, onun əməl dəftəri nurlanmasın, onun bədəni və ruhu buna görə rahatlıq tapmasın". Amma mən o kəlməni ondan vəfat edənə qədər soruşmadım". Ömər ﵁ dedi: "Mən o kəlməni bilirəm! O, Peyğəmbərin sallallahu aleyhi və səlləm əmisinə təklif etdiyi (tövhid kəlməsidir). Əgər Peyğəmbər sallallahu aleyhi və səlləm əmisini oddan xilas edə bilən daha yaxşı bir şey bilsəydi, onu əmr edərdi".[101]

٥٢ - عَنْ حُذَيْفَةَ بْنِ الْيَمَانِ ﵁ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «يَدْرُسُ الإِسْلاَمُ كَمَا يَدْرُسُ وَشْيُ الثَّوبِ، حَتَّى لا يُدْرى مَا صِيَامٌ وَلاَ صَلاَةٌ وَلاَ نُسُك وَلاَ صَدَقَةٌ، وَلَيُسْرى عَلَى كِتَابُ اللهِ ﷻ فِي لَيْلَةٍ، فَلاَ يَبْقَى فِي الأَرْضِ مِنهُ آيَةٌ، وَتَبْقَى طَوَائِفُ مِنَ النَّاسِ الشَّيخُ الْكَبِيرُ، وَالْعَجُوزُ يَقُولُونَ: أَدْرَكْنَا آبَاءَنَا عَلَى هَذِهِ الْكَلِمَة: لاَ إِلَهَ إِلاَّ اللهُ فَنَحْنُ نَقُولُهَا». فَقَالَ لَهُ صِلَةُ: مَا تُغْنِي عَنْهُم: لا إِلَهَ إِلاَّ اللهُ وَهُمْ لا يَدْرُونَ، مَا صَلاَةٌ وَلاَ صِيَامٌ وَلاَ نُسُك وَلاَ صَدَقَةٌ؟ فَأَعْرَضَ عَنْهُ حُذَيْفَةُ ﵁، ثُمَّ رَدَّهَا عَلَيْهِ ثَلاثًا كُلَّ ذَلِكَ يُعْرِضُ عَنْهُ حُذَيفَةُ ﵁، ثُمَّ أَقْبَلَ عَلَيْهِ فِي الثَّالِثَةِ، فَقَالَ: يَا صِلَةُ! تُنْجِيهِمْ مِنَ النَّارِ ثَلاثًا.

---

[100] İbn Məcə, 3794, 3926. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[101] İbn Məcə, 3795, 3927. əl-Albani səhih olduğunu bildirmişdir.

52. Huzeyfə ibn əl-Yəmən[102] ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurdu: “Paltarın naxışı köhnəlib silindiyi kimi İslam dini də (yer üzərindən) silinib gedəcək, hətta orucun, namazın, həcc və sədəqənin nə olduğu bilinməyəcək. Bir gecədə Allahın ﷻ Kitabı qaldırılacaq və yer üzündə ondan bir ayə belə qalmayacaq. Çox yaşlı kişilər və qadınlardan olan insanlar qalacaq və onlar belə deyəcəklər: “Biz atalarımızdan bu “lə iləhə illəllah” kəlməsini eşitmişik və biz də onu söyləyirik”. Huzeyfə ibn Yəmən bu hədisi rəvayət edtikdə orada olan Sila ona dedi: “Namazın, orucun, həccin və sədəqənin nə olduğunu bilmədikləri halda “lə iləhə illəllah” kəlməsi onları (Cəhənnəm əzabindan) qurtara bilərmi?” Huzeyfə Silanın bu sualını cavabsız buraxıb ondan üzünü çevirdi. Sonra Sila bu sualı Huzeyfəyə üç dəfə təkrar etdi. Hər dəfə də Huzeyfə ondan üz çevirirdi. Nəhayət Huzeyfə Silaya tərəf dönüb üç dəfə: “Ey Sila! (Bu kəlmə) onları oddan xilas edəcək!”- dedi”.[103]

٥٣ - عَنْ عَمْرِو بْنِ مُرَّه الْجُهَنِيِّ ﷺ قَالَ: جَاءَ رَسُوْل اللهِ ﷺ رَجُلٌ مِنْ قُضَاعة، فَقَالَ لَهُ: يَا رَسُوْلَ اللهِ! أَرَأَيْتَ إِنْ شَهِدْتُ أَنْ لاَ إِلهَ إِلاَّ اللهُ، وَأَنَّكَ رَسُوْلُ اللهِ، وَصَلَّيْتُ الصَّلَوَات الْخَمْس، وَصُمْتُ الشَّهرَ وَقُمْتُ رَمَضَانَ، وَآتَيْتُ الزَّكَاةَ، فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ مَاتَ عَلَى هَذَا، كَانَ مِنَ الصِّدِّيقِينَ وَالشُّهَداءِ».

53. Amr ibn Murra əl-Cuhəni ﷺ rəvayət edir ki, Qudaa qəbiləsindən olan bir kişi Allah Elçisinin sallәllahu aleyhi və səlləm yanına gələrək soruşdu: “Ey Allahın Elçisi! De görüm, əgər mən Allahdan başqa həqiqi məbudun olmadığına, sənin Allahın Elçisi olduğuna şəhadət etsəm, beş vaxt namazı qılsam, Ramazan ayını oruc tutub ibadətlə keçirsəm və zəkat versəm (nə əldə edərəm)?” Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurdu: “Kim bu əməllər üzrə ölərsə, o, sidq ürəkdən inananlardan və şəhidlərdəndir”.[104]

٥٤ - عَنْ عَبْدَ اللَّهِ بْنَ عَمْرٍو ﷺ يَقُولُ قَالَ رَسُولُ اللَّهِ ﷺ «يُصَاحُ بِرَجُلٍ مِنْ أُمَّتِى يَوْمَ الْقِيَامَةِ عَلَى رُءُوسِ الْخَلاَئِقِ فَيُنْشَرُ لَهُ تِسْعَةٌ وَتِسْعُونَ سِجِلاًّ كُلُّ سِجِلٍّ مَدَّ الْبَصَرِ ثُمَّ يَقُولُ اللَّهُ ﷻ هَلْ تُنْكِرُ مِنْ هَذَا شَيْئًا فَيَقُولُ لاَ يَا رَبِّ فَيَقُولُ أَظَلَمَتْكَ كَتَبَتِى الْحَافِظُونَ ثُمَّ يَقُولُ أَلَكَ عُذْرٌ أَلَكَ حَسَنَةٌ فَيُهَابُ الرَّجُلُ فَيَقُولُ لاَ. فَيَقُولُ بَلَى إِنَّ لَكَ عِنْدَنَا حَسَنَاتٍ وَإِنَّهُ لاَ ظُلْمَ عَلَيْكَ الْيَوْمَ فَتُخْرَجُ لَهُ بِطَاقَةٌ فِيهَا أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ قَالَ فَيَقُولُ يَا رَبِّ مَا هَذِهِ الْبِطَاقَةُ مَعَ هَذِهِ السِّجِلاَّتِ فَيَقُولُ إِنَّكَ لاَ تُظْلَمُ. فَتُوضَعُ السِّجِلاَّتُ فِى كِفَّةٍ وَالْبِطَاقَةُ فِى كِفَّةٍ فَطَاشَتِ السِّجِلاَّتُ

[102] Huzeyfə ibn əl-Yəmən ibn Cabir əl-Absi ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. “Sirrin sahibi” ləqəbi ilə tanınmışdır. Peyğəmbər ﷺ münafiqlərin adlarını yalnız ona bildirmişdi. Hicrətin 36-cı ilində, Osman ibn Əffanın ﷺ vəfatından qırx gecə sonra vəfat etmişdir.

[103] İbn Məcə, 4049, 4185. əl-Albani səhih olduğunu bildirmişdir.

[104] İbn Xuzeymə, 2212. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 749) səhih olduğunu bildirmişdir.

وَثَقُلَتِ الْبِطَاقَةُ»

54. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Ümmətimdən olan bir kişi Qiyamət günü məxluqatın qarşısına çağırılacaq və ona doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın ölçüsü gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra Allah ﷻ buyuracaq: "Bunlardan birini inkar edə bilərsənmi?" O: "Xeyr, ey Rəbbim!"- deyə cavab verəcək. Allah buyuracaq: "(Əməlləri) yazan gözətçi mələklərim sənə zülm ediblərmi? Bu qədər kitabın qabağında sənin savabın ola bilərmi?" O, qorxu içində: "Xeyr!"- deyə cavab verəcək. Allah buyuracaq: "Əksinə, dərgahımızda sənin üçün savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək". Bu vaxt onun qarşısına içində "əşhədu əl-lə iləhə illəllah və ənnə Muhəmmədən abduhu və rəsuluhu" yazılmış bir kağız parçası qoyulacaq. O deyəcək: "Ey Rəbbim! Bu qədər kitabın qabağında bu kağız parçası nə fayda verə bilər?" Allah buyuracaq: "Sənə zülm olunmayacaq!" Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq".[105]

ŞƏFAƏT

٥٥ - عن حذيفة ﷺ عن النبي ﷺ قال: يقول إبراهيم يوم القيامة: يا رباه! فيقول الرب ﷻ: يا لَبَّيْكاهُ! فيقول إبراهيمُ يا رب حرقْت بَنِيَّ فيقولُ أخرِجوا من النارِ (من الناسِ) من كانَ في قلبِهِ ذرةٌ أو شعيرةٌ من إيمانٍ

55. Huzeyfə ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Qiyamət günü İbrahim deyəcək: "Ya Rəbb!" Rəbb ﷻ buyuracaq: "Çağırışını eşitdim və qəbul etdim". İbrahim deyəcək: "Ya Rəbb, övladlarımı yandırdın!" Allah buyuracaq: "Qəlbində zərrə və ya arpa dənəsi qədər imanı olan hər kəsi Cəhənnəmdən çıxarın!"[106]

٥٦ - عَنْ أَنَسٍ ﷺ يرفعه إلى رَسُولُ اللَّهِ ﷺ قال مَا زِلْتُ أَشْفَعُ إِلَى رَبِّي ﷻ ويشفعني وأشفع ويشفعني حتى أقول أَيْ رَب شَفِّعْنِي فِيمَنْ قَالَ لا إِلَهَ إِلا اللَّهُ فيقول هَذِهِ لَيْسَتْ لَكَ يَا مُحَمَّدُ وَلا لأَحَدٍ هَذِهِ لِي وَعِزَّتِي وَجَلالِي وَرَحْمَتِي لا أَدَعُ فِي النَّارِ أَحَدًا يقول لا إِلَهَ إِلا اللَّهُ

[105] ət-Tirmizi, 2639, 2850; İbn Məcə, 4300. 4442. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[106] İbn Hibban, 7378. Şueyb əl-Arnavut isnadını əl-Buxari və Muslimin şərtlərinə əsasən səhih adlandırmışdır. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3645) səhih olduğunu bildirmişdir.

56. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Mən Rəbbimə ﷻ durmadan şəfaət edəcəyəm, O da şəfaətimi qəbul edəcək. Mən şəfaət etməyə davam edəcəyəm, O da şəfaətimi qəbul edəcək, hətta mən deyəcəyəm: "Ey Rəbbim! Məni "lə iləhə illəllah" deyən kimsələrə şəfaətçi et". Allah buyuracaq: "Ey Muhəmməd, bu nə sənə, nə də bir kimsəyə məxsus deyildir. Bu Mənə məxsusdur. İzzətimə, Əzəmətimə və Mərhəmətimə and olsun ki, Mən "lə iləhə illəllah" deyən kəsləri odun içində buraxmayacağam".[107]

٥٧ - عَنْ عَوْفِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَتَانِي آتٍ مِنْ عِنْدِ رَبِّي فَخَيَّرَنِي، بَيْنَ أَنْ يُدْخِلَ نِصْفَ أُمَّتِي الْجَنَّةَ، وَبَيْنَ الشَّفَاعَةَ فَاخْتَرتُ الشَّفَاعَةَ، وَهِيَ لِمَنْ مَاتَ لاَ يُشْرِكُ بِاللهِ شَيْئاً».

57. Auf ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Rəbbimin dərgahından bir mələk yanıma gəlib ümmətimin yarısını Cənnətə salmaq və ya şəfaət etmək seçimi arasında mənə ixtiyar verdi. Mən də şəfaəti seçdim. Bu şəfaət Allaha heç bir şeyi şərik qoşmadan ölənlərə aiddir".[108]

٥٨ - عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، أَنَّ رَسُولَ اللهِ ﷺ عَامَ غَزْوَةِ تَبُوكَ قَامَ مِنَ اللَّيْلِ يُصَلِّي، فَاجْتَمَعَ وَرَاءَهُ رِجَالٌ مِنْ أَصْحَابِهِ يَحْرُسُونَهُ، حَتَّى إِذَا صَلَّى وَانْصَرَفَ إِلَيْهِمْ، فَقَالَ لَهُمْ: لَقَدْ أُعْطِيتُ اللَّيْلَةَ خَمْسًا، مَا أُعْطِيَهُنَّ أَحَدٌ قَبْلِي: أَمَّا أَنَا فَأُرْسِلْتُ إِلَى النَّاسِ كُلِّهِمْ عَامَّةً، وَكَانَ مَنْ قَبْلِي إِنَّمَا يُرْسَلُ إِلَى قَوْمِهِ، وَنُصِرْتُ عَلَى الْعَدُوِّ بِالرُّعْبِ، وَلَوْ كَانَ بَيْنِي وَبَيْنَهُمْ مَسِيرَةُ شَهْرٍ لَمُلِئَ مِنْهُ رُعْبًا، وَأُحِلَّتْ لِي الْغَنَائِمُ آكُلُهَا، وَكَانَ مَنْ قَبْلِي يُعَظِّمُونَ أَكْلَهَا، كَانُوا يُحْرِقُونَهَا، وَجُعِلَتْ لِي الأَرْضُ مَسَاجِدَ وَطَهُورًا، أَيْنَمَا أَدْرَكَتْنِي الصَّلاَةُ تَمَسَّحْتُ وَصَلَّيْتُ، وَكَانَ مَنْ قَبْلِي يُعَظِّمُونَ ذَلِكَ، إِنَّمَا كَانُوا يُصَلُّونَ فِي كَنَائِسِهِمْ وَبِيَعِهِمْ، وَالْخَامِسَةُ هِيَ مَا هِيَ، قِيلَ لِي: سَلْ فَإِنَّ كُلَّ نَبِيٍّ قَدْ سَأَلَ، فَأَخَّرْتُ مَسْأَلَتِي إِلَى يَوْمِ الْقِيَامَةِ، فَهِيَ لَكُمْ وَلِمَنْ شَهِدَ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ.

58. Amr ibn Şueyb atasından, o da Amrın babasından (Abdullah ibn Amrdan) رضي الله عنهما rəvayət edir: "Allah Elçisi sallallahu aleyhi və səlləm Təbuk döyüşü olan ili gecə qalxıb namaz qılırdı və səhabələrindən bir dəstə onu qorumağa toplaşdılar. Nəhayət, namazını qurtardıqdan sonra onlara üz tutub buyurdu: "Bu gecə mənə məndən əvvəlki peyğəmbərlərdən heç birinə verilməyən beş xislət verildi. Məndən öncəki peyğəmbərlər yalnız öz qövmünə göndərildiyi halda, mən bütün insanlara göndərildim. (Düşmənin qəlbinə salınan) qorxu ilə mənə yardım edilir, hətta mənimlə onlar

[107] İbn Əbu Asim, 685. əl-Albani "Ziləlul-Cənnə"də (№ 828) səhih olduğunu bildirmişdir.
[108] ət-Tirmizi, 2441, 2628. əl-Albani səhih olduğunu bildirmişdir.

arasında bir aylıq məsafə olsa belə qəlbləri qorxu ilə dolar. Mənə qənimətlər halal edildi, halbuki məndən əvvəlkilər qənimətləri götürməyi haram sayardılar, onlar qənimətləri (bir yerə toplayıb) yandırırdılar. Mənim üçün hər yer səcdəgah və təmizləyici edildi. Harda namazın vaxtı girsə, təyəmmüm edib namaz qıla bilərəm. Məndən əvvəlkilər isə bunu etməyi haram görürdülər. Onlar yalnız kilsələrdə və məbədlərdə namaz qılırdılar. Beşincisi, olduğu kimidir.[109] (Qiyamət günü) mənə: "İstə"- deyiləcək. Həqiqətən, hər bir peyğəmbərin istəyi olmuşdur, mən isə istəyimi Qiyamət günü sizin və "lə iləhə illəllah" şəhadət verən kəslər üçün saxlamışam".[110]

٥٩ - عَنْ أَنَسٍ ﷺ قَالَ: حَدَّثَنِي نَبِيُّ اللهِ ﷺ قَالَ: «إِنِّي لَقَائِمٌ أَنْتَظِرُ أُمَّتِي تَعْبُر عَلَى الصِّرَاطِ إِذْ جَاءَنِي عِيسَى فَقَالَ: هَذِه الأَنْبِيَاء قَدْ جَاءَتْكَ يَا مُحَمَّدُ! يَشْتَكُونَ أَوْ قَالَ يَجْتَمِعُونَ إِلَيْكَ وَيَدْعُونَ اللهَ ﷻ أَنْ يُفَرِّقَ جَمْع الأُمَمِ إِلَى حَيْثُ يَشَاءُ اللهُ، لِعِظَمِ مَا هُمْ فِيهِ وَالْخَلْقُ مُلْجَمُونَ فِي الْعَرَقِ وَأَمَّا الْمُؤْمِن فَهُوَ عَلَيْهِ كَالزُّكْمَةِ، وَأَمَّا الْكَافِر فَيَتَغَشَّاهُ الْمُوتُ، قَالَ: قَالَ: يا عِيسَى! انْتَظِر حَتَّى أَرْجِعَ إِلَيْكَ قَالَ: فَذَهَبَ نَبِيُّ اللهِ ﷺ حَتَّى قَامَ تَحْتَ الْعَرْشِ فَلَقِيَ مَا لَمْ يَلْقَ مَلَكٌ مُصْطَفَى، وَلاَ نَبِيٌّ مُرسَلٌ فَأَوْحَي اللهُ ﷻ إِلَى جبْرِيلُ: اذْهَبْ إِلَى مُحَمَّدٍ فَقُلْ لَهُ: ارْفَعْ رَأْسَكَ سَلْ تُعْطَ وَاشْفَعْ تُشَفَّعْ قَالَ: فَشُفِّعْتُ فِي أُمَّتِي أَنْ اخرِجَ مِنْ كُلِّ تَسْعَةٍ وَتِسْعِينَ إِنْسَاناً وَاحِداً قَالَ: فَمَا زِلتُ أَتَرَدَّدُ عَلَى رَبِيِّ ﷻ فَلاَ أَقُومُ مَقَاماً إِلاَّ شُفِّعْتُ حَتَّى أَعْطَانِي اللهُ ﷻ مِنْ ذَلِكَ أَنْ قَالَ: يَا مُحَمَّد! أَدْخِلْ مِنْ أُمَّتِكَ مَنْ خَلْقِ اللهِ ﷻ مَنْ شَهِدَ أَنَّهُ لاَ إِلَهَ إِلاَّ اللهُ يَوماً وَاحِداً مُخْلِصاً وَمَاتَ عَلَى ذَلِكَ».

59. Ənəs ﷺ rəvayət edir ki, Allahın Peyğəmbəri sallәllahu aleyhi və sәllәm demişdir: "Həqiqətən, mən (Qiyamət günü) ayaq üstə ümmətimin sirat körpüsünün üstündən keçməyini gözlədiyim zaman İsa yanıma gəlib deyəcək: "Ey Muhəmməd! Bu peyğəmbərlər sənin yanına gəlib, sənə şikayət edir və Allaha dua edirlər ki"- və ya -"yanına toplanaraq Allaha dua edirlər ki, ümmətlərin halı çox dəhşətli olduğu üçün Allah onları birbirindən ayırıb istədiyi yerə (Cənnətə və ya Cəhənnəmə) salsın". Həmin vaxt insanlar tər içində olacaqlar. Möminə gəlincə, bu ona zökəm kimi gələcək. Kafir olan kəsi isə ölüm bürüyəcək". Allah Elçisi sallәllahu aleyhi və sәllәm deyəcək: "Ey İsa, sənin yanına qayıdanadək gözlə!" Allahın Peyğəmbəri sallәllahu aleyhi və sәllәm gedib Ərşin altında, heç bir seçilmiş mələyə və ya göndərilmiş peyğəmbərə nəsib olmayan məqamda duracaq. Sonra Allah

[109] Yəni, beşinci xislət əslində, heç də əvvəlki peyğəmbərlərə verilməyən və yalnız Muhəmməd Peyğəmbərə ﷺ xas olan bir şey deyil. Sadəcə Peyğəmbər ﷺ bu istəyini Qiyamət gününə saxlamaqla digər peyğəmbərlərdən seçilmişdir.

[110] Əhməd, 7068. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3634) həsən olduğunu bildirmişdir.

ﷻ Cəbrayıla belə vəhy edəcək: “Muhəmmədin yanına get və ona de: “Başını qaldır, istə, istədiyin sənə veriləcək, şəfaət et, şəfaətin qəbul ediləcək”. Mən ümmətimə hər doxsan doqquz insandan birinin (Cəhənnəmdən) çıxmasına şəfaət edəcəyəm. Mən Rəbbimə ﷻ üz tutaraq dayanmadan, Allaha şəfaət edilə bilən hər məqamdan şəfaət edəcəyəm, nəhayət Allah ﷻ bunu mənə verərək belə buyuracaq: “Ey Muhəmməd! Ümmətindən bir gün olsa belə ixlasla “lə iləhə illəllah” kəlməsinə şəhadət verən və bunun üzərində ölən kəsləri (Cənnətə) daxil et!”[111]

٦٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قُلْتُ يَا رَسُولَ اللَّهِ، مَنْ أَسْعَدُ النَّاسِ بِشَفَاعَتِكَ يَوْمَ الْقِيَامَةِ قَالَ رَسُولُ اللَّهِ ﷺ «لَقَدْ ظَنَنْتُ يَا أَبَا هُرَيْرَةَ أَنْ لاَ يَسْأَلَنِى عَنْ هَذَا الْحَدِيثِ أَحَدٌ أَوَّلُ مِنْكَ، لِمَا رَأَيْتُ مِنْ حِرْصِكَ عَلَى الْحَدِيثِ، أَسْعَدُ النَّاسِ بِشَفَاعَتِى يَوْمَ الْقِيَامَةِ مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، خَالِصًا مِنْ قَلْبِهِ أَوْ نَفْسِهِ».

60. Əbu Hureyra ﷺ rəvayət edir ki, mən (Peyğəmbərdən sallallahu aleyhi və səlləm): “Ey Allahın Elçisi! Qiyamət günü sənin şəfaətin sayəsində ən böyük səadətə çatan adam kim olacaq?”– deyə soruşdum. Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: “Ey Əbu Hureyra! Mən sənin hədis öyrənməyə olan hərisliyini görüb düşünürdüm ki, səndən əvvəl heç kəs bu hədis barəsində məndən soruşmayacaq. Qiyamət günü mənim şəfaətim sayəsində ən böyük səadətə çatanlar, səmimi-qəlblə “lə iləhə illəllah”– deyən kimsələr olacaq”.[112]

ALLAHDAN QORXARAQ BİR ŞEYİ TƏRK EDƏN

٦١ - عَنْ أَبِى قَتَادَةَ وَأَبِى الدَّهْمَاءِ قَالاَ كَانَا يُكْثِرَانِ السَّفَرَ نَحْوَ هَذَا الْبَيْتِ. قَالاَ أَتَيْنَا عَلَى رَجُلٍ مِنْ أَهْلِ الْبَادِيَةِ فَقَالَ الْبَدَوِىُّ أَخَذَ بِيَدِى رَسُولُ اللَّهِ ﷺ فَجَعَلَ يُعَلِّمُنِى مِمَّا عَلَّمَهُ اللَّهُ تَبَارَكَ وَتَعَالَى وَقَالَ «إِنَّكَ لَنْ تَدَعَ شَيْئاً اتِّقَاءَ اللَّهِ ﷻ إِلاَّ أَعْطَاكَ اللَّهُ خَيْراً مِنْهُ»

61. Əbu Qatədə[113] və Əbud-Dəhmə rəvayət edirlər ki, onlar bu evə doğru çox səfər edirdilər. Onlar dedilər: “Bir bədəvi kişinin yanına gəlib çatdıq. Bədəvi dedi: “Allah Elçisi sallallahu aleyhi və səlləm mənim əlimdən tutub Uca Allahın ona öyrətdiklərindən mənə də öyrədərək dedi: “Həqiqətən, sən

---

[111] Əhməd, 1276. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 553) səhih olduğunu bildirmişdir.

[112] əl-Buxari, 99.

[113] Əbu Qətadə Haris ibn Rəbi əl-Ənsari əs-Suləmi ﷺ Peyğəmbər ﷺ səhabəsidir. Miladi 602-ci ildə Mədinədə anadna olmuş, hicrətin 54-cü ilində Kufədə vəfat etmişdir.

Allahdan ﷻ qorxaraq bir şeyi tərk etsən, Allah sənə ondan daha xeyirlisini bəxş edər".[114]

٦٢ - عَنْ أَنَسٍ ﷺ أَنَّ رَسُولَ اللهِ ﷺ قَالَ: قَالَ اللَّهُ ﷻ «مَنْ تَرَكَ الْخَمْرَ وَهُوَ يَقْدِرُ عَلَيْهِ لأسقينه مِنْهُ فِي حَظِيرَةِ الْقُدْسِ وَمَنْ تَرَكَ الْحَرِيرَ وَهُوَ يَقْدِرُ عَلَيْهِ لأَ كَسَوْنه إِيَّاهُ فِي حَظِيرَةِ الْقُدْسِ»

62. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allah ﷻ buyurur: "Kim içki içmək iqtidarında ola-ola onu tərk edərsə, Mən mütləq ona Cənnətdə içki içizdirərəm. Kim ipək geyinmək iqtidarında ola-ola onu tərk edərsə, Mən mütləq ona Cənnətdə ipək geyindirərəm".[115]

٦٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ يَرْوِي ذَلِكَ عَنْ رَبِّهِ ﷻ أَنَّهُ يَقُولُ: وَعِزَّتِي لَا أَجْمَعُ عَلَى عَبْدِي خَوْفَيْنِ وَأَمْنَيْنِ إِذَا خَافَنِي فِي الدُّنْيَا أَمَّنْتُهُ يَوْمَ الْقِيَامَةِ، وَإِذَا أَمِنَنِي فِي الدُّنْيَا أَخَفْتُهُ يَوْمَ الْقِيَامَةِ

63. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm Rəbbindən ﷻ rəvayət edərək belə buyurur: "İzzətimə and olsun ki, quluma eyni zamanda iki qorxu və iki arxayınlıq vermərəm. Əgər bu dünyada Məndən qorxsa, Qiyamət günü ona arxayınlıq bəxş edərəm. Yox, əgər bu dünyada Məndən qorxmayıb arxayın yaşasa, Qiyamət günü onun canına vəlvələ salaram".[116]

YAXŞI ƏMƏLİ ALLAHA GÖRƏ ET!

٦٤ - عَنْ كَعْبِ بْنِ عُجْرَةَ ﷺ قَالَ: مَرَّ عَلَى النَّبِيِّ ﷺ رَجُلٌ فَرَأى أَصْحَابَ رَسُوْلِ اللهِ ﷺ مِنْ جَلَدِهِ وَنَشَاطِهِ فَقَالُوا: يَا رَسُوْلَ اللهِ! لَوْ كَانَ هَذَا فِي سَبِيلِ اللهِ؟ فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنْ كَانَ خَرَجَ يسْعَى عَلَى وَلَدِهِ صِغَاراً فَهُوَ فِي سَبِيلِ اللهِ، وَإِنْ كَانَ خَرَجَ يَسْعَى عَلَى أَبَوَيْنِ شَيْخَيْنِ كَبِيرَيْنِ فَهُوَ فِي سَبِيلِ اللهِ، وَإِنْ كَانَ يَسْعَى عَلَى نَفْسِهِ يَعِفُّهَا فَهُوَ فِي سَبِيلِ اللهِ، وَإِنْ كَانَ خَرَجَ رِيَاءً وَمُفَاخَرَةً فَهُوَ فِي سَبِيلِ الشَّيْطَانِ».

64. Kəb ibn Ucra ﷺ rəvayət edir ki, bir dəfə Peyğəmbərin sallallahu aleyhi və səlləm yanından bir kişi keçirdi. Kişi öz çevikliyini və cəldliyini səhabələrə göstərdikdə onlar dedilər: "Ey Allahın Elçisi, kaş ki, bütün bunlar Allah yolunda olardı". Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Əgər azyaşlı

---

[114] Əhməd, 20758, 21282. Şueyb əl-Arnavut isnadının səhih olduğunu, Səlim ibn İyd əl-Hilali isə hədisin səhih olduğunu bildirmişdir.

[115] əl-Bəzzar, 7271. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2375) hədisin səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[116] İbn Hibban, 640. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

övladına görə bir yerə gedirsə, bu, Allah yolundadır. Əgər ahıl yaşına çatmış valideynlərinə görə bir yerə gedirsə, bu, Allah yolundadır. Əgər ləyaqətini qorumaq üçün bir yerə gedirsə, bu da Allah yolundadır. Yox, əgər o, riyakarlıq və lovğalıq üçün gedirsə, bu, şeytanın yolundadır".[117]

٦٥ - عَنِ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا مِنْ خَارِجٍ يَخْرُجُ يَعْنِي مِنْ بَيْتِهِ إِلاَّ بِبَابِهِ رَايَتَانِ، رَايَةٌ بِيَدِ مَلَكٍ وَرَايَةٌ بِيَدِ شَيْطَانٍ، فَإِنْ خَرَجَ لِمَا يُحِبُّ اللهُ ﷻ، أَتْبَعَهُ الْمَلَكُ بِرَايَتِهِ، فَلَمْ يَزَلْ تَحْتَ رَايَةِ الْمَلَكِ حَتَّى يَرجِعَ إِلَى بَيْتِهِ، وَإِنْ خَرَجَ لِمَا يُسْخِطُ اللهَ، أَتْبَعَهُ الشَيْطَانُ بِرايَتِهِ، فَلَمْ يَزلْ تَحْتَ رَايَةِ الشَّيْطَانِ حَتَّى يَرجِعَ إِلَى بَيْتِهِ».

65. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Evindən çıxan elə bir kimsə yoxdur ki, qapısında iki bayraq olmasın. Bayrağın biri mələyin əlində, o biri isə şeytanın əlindədir. Əgər o, Allahın ﷻ sevdiyi bir şey üçün (evindən) çıxarsa, mələk bayrağı ilə onun ardınca gedər və o, evinə qayıdana qədər mələyin bayrağı altında olar. Yox, əgər o, Allahı qəzəbləndirəcək bir şey üçün çıxarsa, şeytan bayrağı ilə onun ardınca gedər və o, evinə qayıdana qədər şeytanın bayrağı altında olar".[118]

٦٦ - عَنْ أَبِي أُمَامَةَ الْبَاهِلِيِّ ﷺ قَالَ جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ أَرَأَيْتَ رَجُلاً غَزَا يَلْتَمِسُ الأَجْرَ وَالذِّكْرَ مَا لَهُ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «لاَ شَيْءَ لَهُ». فَأَعَادَهَا ثَلاَثَ مَرَّاتٍ يَقُولُ لَهُ رَسُولُ اللَّهِ ﷺ «لاَ شَيْءَ لَهُ». ثُمَّ قَالَ «إِنَّ اللَّهَ لاَ يَقْبَلُ مِنَ الْعَمَلِ إِلاَّ مَا كَانَ لَهُ خَالِصًا وَابْتُغِيَ بِهِ وَجْهُهُ».

66. Əbu Umamə əl-Bəhili ﷺ rəvayət edir ki, bir kişi Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına gəlib dedi: "Savab və (insanlar arasında) şöhrət əldə etmək üçün döyüşən nə qazanır?" Allah Elçisi sallәllahu aleyhi və sәlləm: "Heç nə qazanmır"- deyə buyurdu. Həmin adam təkrarən üç dəfə soruşdu və Allah Elçisi sallәllahu aleyhi və sәlləm yenə: "Heç nə qazanmır"- deyə buyurdu. Sonra dedi: "Həqiqətən, Allah xalis Onun üçün və yalnız Onun Üzünü diləyərək edilən əməlləri qəbul edir".[119]

DİLİN DÜZ OLMASI İMANLA BAĞLIDIR

٦٧ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لاَ يَسْتَقِيمُ إِيْمَانُ عَبْدٍ حَتَّى يَسْتَقِيمَ قَلْبُهُ، وَلاَ يَسْتَقِيمَ قَلْبُهُ حَتَّى

---

[117] ət-Tabərani "Mucəmul-Kəbir" 282. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1428) səhih olduğunu bildirmişdir.

[118] Əhməd, 8269. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

[119] ən-Nəsəi, 3140, 3153. əl-Albani hədisin həsən səhih olduğunu bildirmişdir.

يَسْتَقِيمَ لِسَانُهُ، وَلاَ يَدْخُلُ رَجُلٌ الْجَنَّةَ لاَ يَأْمَنُ جَارَهُ بَوَائِقَهُ».

67. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Qulun qəlbi düz olmadıqca imanı düz olmaz, dili düz olmadıqca da qəlbi düz olmaz. Qonşusu, şərindən və zülmündən əmin olmayan kimsə Cənnətə girməz[120]".[121]

ƏMR EDİLƏNLƏRİ YERİNƏ YETİRƏN

٦٨ - عَنْ أَبِي أَيُّوبَ ﷺ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: دُلَّنِي عَلَى عَمَلٍ أَعْمَلُهُ يُدْنِينِي مِنْ الْجَنَّةِ وَيُبَاعِدُنِي مِنْ النَّارِ. قَالَ: «تَعْبُدُ اللَّهَ لاَ تُشْرِكُ بِهِ شَيْئًا، وَتُقِيمُ الصَّلاَةَ، وَتُؤْتِي الزَّكَاةَ، وَتَصِلُ ذَا رَحِمِكَ» فَلَمَّا أَدْبَرَ، قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنْ تَمَسَّكَ بِمَا أُمِرَ بِهِ دَخَلَ الْجَنَّةَ».

68. Əbu Əyyub ﷺ demişdir: "Bir nəfər Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: "Məni Cənnətə yaxınlaşdıracaq və oddan uzaqlaşdıracaq bir əməl öyrət ki, onu yerinə yetirim". Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Heç bir şeyi Allaha şərik qoşmadan Ona ibadət et, namaz qıl, zəkat ver və qohumluq əlaqələrini möhkəmlət![122]" Adam dönüb getdikdən sonra Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Əgər ona əmr edilənləri yerinə yetirsə, Cənnətə daxil olar".[123]

PEYĞƏMBƏRİ SALLƏLLAHU ALEYHİ VƏ SƏLLƏM GÖRMƏDƏN ONA İMAN GƏTİRƏNLƏR

٦٩ - عن أبي صالح ﷺ أن رسول الله ﷺ قال: "متى ألقى إخواني فقيل: يا رسول الله لسنا إخوانك؟ قال: انتم أصحابي

---

[120] İmam Nəvəvi ﷺ demişdir: "Hədisdə keçən "Cənnətə girməz" sözü iki cür izah edilə bilər: **Birincisi** budur ki, bu, qonşuya əziyyət verməyin haram olduğunu bilə-bilə bu yaramaz əməli halal sayan kimsəyə aiddir. (Allahın və Onun Peyğəmbərinin ﷺ haram buyurduğunu halal sayan) adam isə kafir sayılır və beləsi Cənnətə əsla girməyəcək. **İkincisi** də budur ki, o, Cənnətin qapıları açıldığı zaman oraya ilk əvvəl daxil olacaq kimsələrlə birgə daxil olmayacaq, əksinə, bir müddət məhşərdə saxlanılacaq. Bundan sonra o, ya cəzalandırılacaq, ya da Allah ona rəhm edəcək və beləliklə də o, Cənnətə daxil olacaq. Haqq yolu tutub gedənlərin bu etiqadda olduğuna görə biz hədisi bu şəkildə izah etdik. Əvvəldə qeyd etmişdik ki, haqq əhlinin etiqadına görə günah işlər görmüş və tövhid üzərində dünyasını dəyişmiş hər kəs Uca Allahın istəyi altındadır. İstər onu bağışlayar və Cənnətə daxil edər, istərsə də, əvvəlcə cəzalandırar, sonra Cənnətə daxil edər".

[121] Əhməd, 13071. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2554) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2841) həsən olduğunu bildirmişdir.

[122] İmkan daxilində qohum-əqrəbaya yaxşılıq etmək, onlara əl tutmaq, qarşılaşdıqda onlara salam vermək, onları ziyarət etmək və başqa bu kimi haqlarını ödəmək hər bir müsəlmanın borcudur.

[123] Muslim, 106.

وإخواني قوم من أمتي لم يروني يؤمنون بي ويصدقونني ثم قال لهم رسول الله: أي الخلق أعجب إيمانا؟ قالوا: ملائكة الله فقال رسول الله ﷺ: وما لهم لا يؤمنون وهم عند ربهم قالوا: فالنبيون قال: وما لهم لا يؤمنون وهم يوحى إليهم قالوا: فأصحاب النبيين فقال رسول الله ﷺ: وما لهم لا يؤمنون وأنبياء الله فيهم ولكنهم قوم من أمتي لم يدركوني يؤتون بكتاب من ربهم فيؤمنون به ويصدقونه" و في رواية "... وَلكن أعجب الناس إيمانا قوم يجيؤون من بعدكم، فيجدون كتابا من الوحي، فيؤمنون به، ويتبعونه، فهم أعجب الناس، أو الخلق، إيمانًا".

69. Əbu Salih ﷺ rəvayət edir ki, bir dəfə Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "(Görəsən) qardaşlarımla nə vaxt görüşəcəm?" Dedilər: "Ey Allahın Elçisi, məgər biz sənin qardaşların deyilmiyik?" O buyurdu: "Siz mənim səhabələrimsiniz, qardaşlarım isə ümmətimdən məni görmədən mənə iman gətirib, məni təsdiq edənlərdir". Sonra Allah Elçisi sallallahu aleyhi və səlləm onlara dedi: "Yaradılmışlardan iman baxımından ən qəribə olanlar kimlərdir?" Səhabələr dedilər: "Allahın mələkləridir". Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Onlar Rəblərinin yanında ola-ola niyə iman gətirməsinlər ki?!" Səhabələr dedilər: "Onda peyğəmbərlərdir". O buyurdu: "Onlara vəhy gəldiyi halda niyə də iman gətirməsinlər ki?!" Səhabələr dedilər: "Peyğəmbərlərin səhabələridir". Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Allahın peyğəmbərləri onların yanında ola-ola niyə də iman gətirməsinlər ki?! Lakin onlar ümmətimdən məni görməyib özlərinə Rəbləri tərəfindən bir kitab gətirilən, ona iman gətirən və onu təsdiq edən qövmdür".[124] Digər rəvayətdə belə deyilir: "... Lakin insanlar arasında iman baxımından ən qəribə olanlar, sizdən sonra gəlib, vəhydən ibarət olan bir kitab görən, ona iman gətirən, ona tabe olan qövmdür. İnsanlar və ya yaradılmışlar arasında iman baxımından ən qəribə olanlar məhz onlardır".[125]

٧٠ - عَنْ أَبِى عَبْدِ الرَّحْمَنِ الْجُهَنِىِّ ﷺ قَالَ بَيْنَا نَحْنُ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ إِذْ طَلَعَ رَاكِبَانِ فَلَمَّا رَآهُمَا قَالَ «كِنْدِيَّانِ مَذْحِجِيَّانِ». حَتَّى أَتَيَاهُ فَإِذَا رِجَالٌ مِنْ مَذْحِجٍ. قَالَ فَدَنَا إِلَيْهِ أَحَدُهُمَا لِيُبَايِعَهُ. قَالَ فَلَمَّا أَخَذَ بِيَدِهِ قَالَ يَا رَسُولَ اللَّهِ أَرَأَيْتَ مَنْ رَآكَ فَآمَنَ بِكَ وَصَدَّقَكَ وَاتَّبَعَكَ مَاذَا لَهُ قَالَ «طُوبَى لَهُ». قَالَ فَمَسَحَ عَلَى يَدِهِ فَانْصَرَفَ ثُمَّ أَقْبَلَ الآخَرُ حَتَّى أَخَذَ بِيَدِهِ لِيُبَايِعَهُ قَالَ يَا رَسُولَ اللَّهِ أَرَأَيْتَ مَنْ آمَنَ بِكَ وَصَدَّقَكَ وَاتَّبَعَكَ وَلَمْ يَرَكَ قَالَ «طُوبَى لَهُ ثُمَّ طُوبَى لَهُ ثُمَّ طُوبَى لَه». قَالَ فَمَسَحَ عَلَى يَدِهِ فَانْصَرَفَ

[124] əl-Beyhəqi "Dələil ən-Nubuvvə" 6/ 538. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3215) şahidləri ilə birlikdə həsən olduğunu bildirmişdir.
[125] əl-Bəzzar, 7294. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3215) həsən li-zatihi olduğunu bildirmişdir.

70. Əbu Abdur-Rahmən əl-Cuhəni ﷺ rəvayət edir ki, Məzhic qəbiləsindən olan iki kişi bizim yanımıza gəldi. Onlardan biri beyət etmək üçün Allah Elçisinə sallallahu aleyhi və səlləm yaxınlaşıb onun əlindən tutdu və dedi: "Ey Allahın Elçisi! De görüm, sənə iman gətirən, sənə tabe olan və səni təsdiqləyən kimsəni nə gözləyir?" Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Beləsinə Tubə olsun![126]" O, əlini Allah Elçisinin sallallahu aleyhi və səlləm əlinə sürtərək çıxıb getdi. Sonra digəri beyət etmək üçün ona yaxınlaşıb əlindən tutdu və dedi: "Ey Allahın Elçisi! De görüm, səni görmədən sənə iman gətirən, sənə tabe olan və səni təsdiqləyən kimsəni nə gözləyir?" Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Beləsinə Tubə olsun! Beləsinə Tubə olsun! Beləsinə Tubə olsun!" O da əlini Allah Elçisinin sallallahu aleyhi və səlləm əlinə sürtərək çıxıb getdi"[127]

٧١ - عَنْ أَبِي أُمَامَةَ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «طُوْبَى لِمَنْ رَآنِي ثُمَّ آمَنَ بِي، وَطُوبَى سَبْعَ مَرَّاتٍ لِمَنْ آمَنَ بِي وَلَمْ يَرَانِي».

71. Əbu Umamə ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Məni görüb iman gətirənə Tubə olsun! Məni görmədən iman gətirənə yeddi dəfə Tubə olsun!"[128]

QƏRİBLƏR

٧٢ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِي ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ ذَاتَ يَوْمٍ وَنَحْنُ عِنْدَهُ: «طُوبَى لِلْغُرَبَاءِ». فَقِيلَ: مَنْ الْغُرَبَاءُ يَا رَسُوْلَ اللهِ؟ قَالَ: «أُنَاسٌ صَالِحُونَ فِي أُنَاسٍ سُوءٍ كَثِيرٍ، مَنْ يَعْصِيْهِمْ أَكْثَرُ مِمَّنْ يُطِيْعُهُمْ».

72. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, bir gün biz Allah Elçisinin sallallahu aleyhi və səlləm yanında ikən o belə buyurdu: "Qəriblərə Tubə olsun!" Dedilər: "Qəriblər kimlərdir, ey Allahın Elçisi?" O buyurdu: "Onlar, çox pis insanların arasında yaşayan əməlisaleh insanlardır. Onlara qarşı çıxanlar, onların tərəfini saxlayanlardan daha çoxdur".[129]

---

[126] Hədisdə keçən "Tubə olsun" ifadəsi eynilə Qurandakı ayəyə bənzəyir. Həmin ayədə Uca Allah buyurur: ***"İman gətirib saleh əməllər edənlər üçün** (Tubə) **xoş güzəran və gözəl qayıdış yeri hazırlanmışdır"** (ər-Rəd, 29).* Bəzi təfsirçilər ayədə keçən "tubə" kəlməsinin "Cənnət" və ya "Cənnətdəki ağac" olduğunu söyləmişlər.

[127] Əhməd, 17426, 17852. Şueyb əl-Arnavut isnadını həsən və qüvvətli, ravilərini də əl-Buxari və Muslimin ravilərindən olduğunu demişdir. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da 1241 nömrəli hədisin şərhində isnadının yaxşı olduğunu bildirmişdir.

[128] İbn Hibban, 7189. əl-Albani səhih olduğunu bildirmişdir.

[129] Əhməd, 6650. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3921) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1619) səhih olduğunu bildirmişdir.

٧٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «بَدَأَ الإِسْلاَمُ غَرِيبًا وَسَيَعُودُ كَمَا بَدَأَ غَرِيبًا، فَطُوبَى لِلْغُرَبَاءِ».

73. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "İslam (dini) qərib olaraq başlamış və yenə başlanğıcda olduğu kimi qəribliyə qayıdacaqdır. (O dövrdə yaşayacaq) qəriblərin xoş halına! (O qəriblərə Tubə olsun!)"[130]

SƏN SEVDİKLƏRİNLƏ BİRLİKDƏ OLACAQSAN

٧٤ - عَنْ أَبِي ذَرٍّ ﷺ أَنَّهُ قَالَ يَا رَسُولَ اللَّهِ الرَّجُلُ يُحِبُّ الْقَوْمَ وَلَا يَسْتَطِيعُ أَنْ يَعْمَلَ كَعَمَلِهِمْ قَالَ أَنْتَ يَا أَبَا ذَرٍّ مَعَ مَنْ أَحْبَبْتَ قَالَ فَإِنِّي أُحِبُّ اللَّهَ وَرَسُولَهُ قَالَ فَإِنَّكَ مَعَ مَنْ أَحْبَبْتَ قَالَ فَأَعَادَهَا أَبُو ذَرٍّ فَأَعَادَهَا رَسُولُ اللَّهِ ﷺ

74. Əbu Zərr ﷺ demişdir: "Mən dedim: "Ey Allahın Elçisi, bir kişi bir qövmü sevir, lakin onların əməli kimi əməl edə bilmir". O buyurdu: "Ey Əbu Zərr, sən sevdiklərinlə birlikdəsən!" Dedim: "Həqiqətən, mən Allahı və Onun Elçisini sevirəm". O buyurdu: "Sən sevdiklərinlə birlikdəsən". Əbu Zərr ﷺ təkrar soruşdu, Allah Elçisi salləllahu aleyhi və səlləm də təkrar söylədi".[131]

٧٥ - عَنْ أَنَسٍ ﷺ أَنَّ رَجُلاً سَأَلَ النَّبِيَّ ﷺ عَنِ السَّاعَةِ، فَقَالَ مَتَى السَّاعَةُ قَالَ: «وَمَاذَا أَعْدَدْتَ لَهَا». قَالَ لاَ شَيْءَ إِلاَّ أَنِّي أُحِبُّ اللَّهَ وَرَسُولَهُ ﷺ. فَقَالَ: «أَنْتَ مَعَ مَنْ أَحْبَبْتَ». قَالَ أَنَسٌ فَمَا فَرِحْنَا بِشَيْءٍ فَرَحَنَا بِقَوْلِ النَّبِيِّ ﷺ: «أَنْتَ مَعَ مَنْ أَحْبَبْتَ». قَالَ أَنَسٌ فَأَنَا أُحِبُّ النَّبِيَّ ﷺ وَأَبَا بَكْرٍ وَعُمَرَ، وَأَرْجُو أَنْ أَكُونَ مَعَهُمْ بِحُبِّي إِيَّاهُمْ، وَإِنْ لَمْ أَعْمَلْ بِمِثْلِ أَعْمَالِهِمْ.

75. Ənəs ﷺ rəvayət edir ki, (bir dəfə) bir nəfər Peyğəmbərdən salləllahu aleyhi və səlləm Qiyamət barəsində soruşub dedi: "Qiyamət Saatı nə zaman gələcək?" Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Sən Qiyamətə nə tədarük görmüsən?" Adam dedi: "Heç bir şey hazırlamamışam, mən sadəcə Allahı və onun Rəsulunu sevirəm". Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Sən sevdiyin kəslə bir yerdə olacaqsan!" Ənəs ﷺ dedi: "Biz Peyğəmbərin salləllahu aleyhi və səlləm: "Sən sevdiyin kəslə bir yerdə olacaqsan!" sözünə sevindiyimiz kimi heç bir şeyə sevinməmişdik". Ənəs ﷺ dedi: "Mən Peyğəmbəri salləllahu aleyhi və səlləm, Əbu Bəkri, Öməri رضي الله عنهما

[130] Muslim, 372.
[131] Əbu Davud, 5128. əl-Albani səhih olduğunu bildirmişdir.

sevirəm və ümid edirəm ki, onlar qədər yaxşılıq etmiş olmasam belə, bu sevgimə görə onlarla bir yerdə olacağam".[132]

ALLAH ÜÇÜN SEVMƏK VƏ ALLAH ÜÇÜN NİFRƏT ETMƏK

٧٦ - عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ ﷺ قَالَ كُنَّا جُلُوسًا عِنْدَ النَّبِيِّ ﷺ فَقَالَ أَيُّ عُرَى الْإِسْلَامِ أَوْسَطُ قَالُوا الصَّلَاةُ قَالَ حَسَنَةٌ وَمَا هِيَ بِهَا قَالُوا الزَّكَاةُ قَالَ حَسَنَةٌ وَمَا هِيَ بِهَا قَالُوا صِيَامُ رَمَضَانَ قَالَ حَسَنٌ وَمَا هُوَ بِهِ قَالُوا الْحَجُّ قَالَ حَسَنٌ وَمَا هُوَ بِهِ قَالُوا الْجِهَادُ قَالَ حَسَنٌ وَمَا هُوَ بِهِ قَالَ إِنَّ أَوْسَطَ عُرَى الْإِيمَانِ أَنْ تُحِبَّ فِي اللَّهِ وَتُبْغِضَ فِي اللَّهِ

76. Bəra ibn Azib[133] ﷺ demişdir: "(Bir gün) Peyğəmbərin salləllahu aleyhi və səlləm hüzurunda oturmuşduq. O soruşdu: "Bilirsinizmi İslamın qırılmayan ən möhkəm ipi hansıdır?" Dedilər: "Namaz". O buyurdu: "Namaz yaxşıdır, amma o deyil". Dedilər: "Zəkat". O buyurdu: "Zəkat yaxşıdır, amma o deyil". Dedilər: "Ramazan orucu". O buyurdu: "Ramazan orucu yaxşıdır, amma o deyil". Dedilər: "Həcc". O buyurdu: "Həcc yaxşıdır, amma o deyil". Dedilər: "Cihad". O buyurdu: "Cihad yaxşıdır, amma o deyil. Həqiqətən, imanın qırılmayan ən möhkəm ipi Allah üçün sevməyin və Allah üçün nifrət etməyindir".[134]

ALLAHA VƏ AXİRƏT GÜNÜNƏ İNANAN...

٧٧ - عَنْ أَبِي شُرَيْحٍ الْخُزَاعِيِّ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ فَلْيُحْسِنْ إِلَى جَارِهِ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَسْكُتْ».

77. Əbu Şureyh əl-Xuzai[135] ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Kim Allaha və Axirət gününə inanırsa, qonşusu ilə yaxşı rəftar etsin! Kim Allaha və Axirət gününə inanırsa, qonağına yaxşı baxsın![136] Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da

---

[132] əl-Buxari, 3688; Muslim 2639.

[133] Əbu Umarə Bəra ibn Azib ibn Haris əl-Ənsari əl-Harisi əl-Mədəni ﷺ Peyğəmbərin ﷺ məşhur səhabələrindəndir. Hicrətin 72-ci ilində vəfat etmişdir.

[134] Əhməd, 18524, 18547. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3030) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[135] Əbu Şureyh Xuveylid ibn Amr əl-Xuzai ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Məkkənin fəthi günü İslamı qəbul etmişdir. Əbu Şureyh hicrətin 68-ci ilində vəfat etmişdir.

[136] Qazı İyad ﷺ demişdir: "İslam ayinlərini yerinə yetirən hər kəsə qonşusuna və qonağına yaxşılıq etmək gərəkdir. Qonşunun haqlarını ödəmək və bu hüquqları qorumaq müsəlmanın borcudur. Bu xüsusda Uca Allah buyurur: ***"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib***

sussun![137]"[138]

ƏNSARI SEVMƏK İMANIN ƏLAMƏTİDİR

٧٨ - عَنْ الْبَرَاءِ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «الأَنْصَارُ لاَ يُحِبُّهُمْ إِلاَّ مُؤْمِنٌ، وَلاَ يُبْغِضُهُمْ إِلاَّ مُنَافِقٌ، فَمَنْ أَحَبَّهُمْ أَحَبَّهُ اللَّهُ، وَمَنْ أَبْغَضَهُمْ أَبْغَضَهُ اللَّهُ».

78. Bəra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Ənsarı[139] yalnız mömin sevər və onlara yalnız münafiq nifrət edər. Kim onları sevsə, Allah onu sevər. Kim onlara nifrət etsə, Allah da ona nifrət edər".[140]

İKİQAT ƏCR QAZANANLAR

٧٩ - عَنْ صَالِحِ بْنِ صَالِحٍ الْهَمْدَانِيِّ، عَنْ الشَّعْبِيِّ، قَالَ: رَأَيْتُ رَجُلاً مِنْ أَهْلِ خُرَاسَانَ سَأَلَ الشَّعْبِيَّ فَقَالَ: يَا أَبَا عَمْرٍو! إِنَّ مَنْ قِبَلَنَا مِنْ أَهْلِ خُرَاسَانَ يَقُولُونَ – فِي الرَّجُلِ – إِذَا أَعْتَقَ أَمَتَهُ ثُمَّ تَزَوَّجَهَا: فَهُوَ كَالرَّاكِبِ بَدَنَتَهُ، فَقَالَ الشَّعْبِيُّ: حَدَّثَنِي أَبُو بُرْدَةَ بْنُ أَبِي مُوسَى عَنْ أَبِيهِ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «ثَلاَثَةٌ يُؤْتَوْنَ أَجْرَهُمْ مَرَّتَيْنِ: رَجُلٌ مِنْ أَهْلِ الْكِتَابِ آمَنَ بِنَبِيِّهِ وَأَدْرَكَ النَّبِيَّ ﷺ فَآمَنَ بِهِ وَاتَّبَعَهُ وَصَدَّقَهُ فَلَهُ أَجْرَانِ، وَعَبْدٌ مَمْلُوكٌ أَدَّى حَقَّ اللَّهِ تَعَالَى وَحَقَّ سَيِّدِهِ فَلَهُ أَجْرَانِ، وَرَجُلٌ كَانَتْ لَهُ أَمَةٌ فَغَذَّاهَا فَأَحْسَنَ غِذَاءَهَا، ثُمَّ أَدَّبَهَا فَأَحْسَنَ أَدَبَهَا، ثُمَّ أَعْتَقَهَا وَتَزَوَّجَهَا، فَلَهُ أَجْرَانِ». ثُمَّ قَالَ الشَّعْبِيُّ لِلْخُرَاسَانِيِّ: خُذْ هَذَا الْحَدِيثَ بِغَيْرِ شَيْءٍ، فَقَدْ كَانَ الرَّجُلُ يَرْحَلُ فِيمَا دُونَ هَذَا إِلَى الْمَدِينَةِ.

79. Saleh ibn Saleh əl-Həmdani demişdir: "Mən Xorasan əhlindən bir nəfər gördüm, (bu adam) Şəbiyə dedi: "Ey Əbu Amr! Bizim tərəflərdə xorasanlılardan bəziləri, öz kənizini azad edib sonra onunla evlənən kimsə haqqında: "O, qurbanlıq dəvəsinə minmiş kimidir"– deyirlər. Şəbi dedi: "Əbu Burdə ibn Əbu Musa öz atasından mənə rəvayət etmişdir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm belə buyurmuşdur: "Savabları özlərinə ikiqat verilən üç qisim insan vardır; Kitab əhlindən olan bir kimsə (əvvəlcə) öz peyğəmbərinə iman gətirər, sonra da Muhəmmədə salləllahu aleyhi və səlləm yetişər və ona iman

---

olduğunuz *(kölə və kənizlərə)* ***yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir"*** *(ən-Nisa, 36).* Peyğəmbər ﷺ də hədisdə belə buyurmuşdur: "Cəbrail qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, qonşuya da mirasdan pay düşəcəyini güman etdim" (əl-Buxari, 6014). Həmçinin, qonaqpərvər olmaq İslam ədəb-ərkanına, peyğəmbərlərin və əməlisaleh insanların əxlaqına aid olan əməllərdəndir...".

[137] Ömər ibn Abdul-Aziz ﷺ demişdir: "Hər kim danışdığı sözün etdiyi əməllərə aid olduğunu hesab edərsə, ancaq özünə aid olan sözləri dilinə gətirər" (İbn Asakir "Tarixu Dəməşq", 48/117).

[138] Muslim, 176.

[139] Allah Elçisinə ﷺ yardım etmiş Mədinə şəhərinin müsəlman sakinləri.

[140] əl-Buxari, 3783.

gətirər, onun ardınca gedər və onun (gətirdiyini) təsdiqləyərsə, ikiqat savab qazanar;[141] Kölə edilmiş bir qul həm Uca Allahın haqqını, həm də ağasının haqqını ödəyərsə, ikiqat savab qazanar; Cariyəyə[142] sahib olan bir adam onun qayğısına qalar və bunu gözəl tərzdə yerinə yetirər, habelə ona tərbiyə verər və bunu gözəl tərzdə yerinə yetirər, sonra da onu azad edib onunla evlənərsə, ikiqat savab qazanar". Sonra Şəbi xorasanlıya dedi: "Heç bir şey (verməd̈ən) hədisi götür. Vaxtı ilə adam belə bir hədisi öyrənmək üçün ta Mədinəyə qədər gedərdi".[143]

٨٠ - عَنْ عَبْدِ اللَّهِ ﷺ قَالَ: لَمَّا أُسْرِيَ بِرَسُولِ اللَّهِ ﷺ انْتُهِيَ بِهِ إِلَى سِدْرَةِ الْمُنْتَهَى، وَهِيَ فِي السَّمَاءِ السَّادِسَةِ، إِلَيْهَا يَنْتَهِي مَا يُعْرَجُ بِهِ مِنْ الأَرْضِ، فَيُقْبَضُ مِنْهَا، وَإِلَيْهَا يَنْتَهِي مَا يُهْبَطُ بِهِ مِنْ فَوْقِهَا، فَيُقْبَضُ مِنْهَا – قَالَ: ﴿**إِذْ يَغْشَى السِّدْرَةَ مَا يَغْشَى**﴾ قَالَ: فَرَاشٌ مِنْ ذَهَبٍ. قَالَ: فَأُعْطِيَ رَسُولُ اللَّهِ ﷺ ثَلاَثًا: أُعْطِيَ الصَّلَوَاتِ الْخَمْسَ، وَأُعْطِيَ خَوَاتِيمَ سُورَةِ الْبَقَرَةِ، وَغُفِرَ – لِمَنْ لَمْ يُشْرِكْ بِاللَّهِ مِنْ أُمَّتِهِ شَيْئًا – الْمُقْحِمَاتُ.

80. Abdullah (ibn Məsud) ﷺ demişdir: "Peyğəmbər sallәllahu aleyhi və sәllәm İsra gecəsində (göyə) qaldırıldığı zaman son həddəki Sidr ağacının yanına qədər aparıldı. Bu (ağac) altıncı səmadadır. Yerdən yüksəldilən hər nə varsa, ancaq oraya qədər gedib çata bilir və (hər şey) oradan götürülür. Üst tərəfindən endirilən hər nə varsa, orada dayanır və oradan götürülür". (Allah) buyurur: ***"O zaman Sidr ağacını bürüyən bürümüşdü"*** *(ən-Nəcm, 16).* (Yəni) qızıldan pərvanələr (və başqa bu kimi göz oxşayan şeylər). (Abdullah ﷺ davam edib) dedi: "Orada Peyğəmbərə sallәllahu aleyhi və sәllәm üç şey verilmişdi; ona beş namaz bəxş edilmiş,[144] əl-Bəqərə surəsinin son ayələri verilmiş[145] və bir də ümmətindən Allaha heç bir şeyi şərik qoşma-

---

[141] Uca Allah buyurur: ***"****(Qurandan)* ***əvvəl özlərinə Kitab verdiyimiz kəslər ona iman gətirirlər. Onlara*** *(Quran)* ***oxunduğu zaman: "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!"– deyirlər. Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir"*** *(əl-Qəsəs, 52-54).*

[142] Cariyə – keçmiş zamanlarda azadlıqdan məhrum edilən, pulla alınıb-satıla bilən, hər cəhətdən sahibinin arzularına tabe olan qız və ya qadındır.

[143] Muslim, 387.

[144] Yəni beş vaxt namaz qılmaq vacib buyurulmuşdur.

[145] Uca Allah buyurur: ***"Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də*** *(iman gətirdilər).* ***Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər.*** *(Onlar dedilər):* ***"Biz Onun elçiləri arasında fərq qoymuruq!" Onlar dedilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!" Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı*** *(xeyir yalnız)* ***onun özünə, qazandığı*** *(şər də yalnız)* ***öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!"*** *(əl-Bəqərə, 285-286).* Burada "əl-Bəqərə surəsinin son ayələri verilmiş" deyildikdə ayələr-

dan ölən kimsələr üçün sahibini həlak edəcək böyük günahların bağışlanması vəd edilmişdir[146]".[147]

MÖMİN MURDAR OLMAZ

٨١ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ النَّبِىَّ ﷺ لَقِيَهُ فِى بَعْضِ طَرِيقِ الْمَدِينَةِ وَهْوَ جُنُبٌ، فَانْخَنَسْتُ مِنْهُ، فَذَهَبَ فَاغْتَسَلَ، ثُمَّ جَاءَ فَقَالَ: «أَيْنَ كُنْتَ يَا أَبَا هُرَيْرَةَ». قَالَ: كُنْتُ جُنُبًا، فَكَرِهْتُ أَنْ أُجَالِسَكَ وَأَنَا عَلَى غَيْرِ طَهَارَةٍ. فَقَالَ: «سُبْحَانَ اللَّهِ، إِنَّ الْمُؤْمِنَ لاَ يَنْجُسُ».

81. Əbu Hureyra ﷺ rəvayət edir ki, bir gün o, cənabətli olduğu halda Mədinənin küçələrindən birində Peyğəmbərlə sallәllahu aleyhi və sәllәm rastlaşdı. Peyğəmbərdən sallәllahu aleyhi və sәllәm aralanıb getdi, sonra da qüsl alıb geri qayıtdı. Peyğəmbər sallәllahu aleyhi və sәllәm: "Harada idin, ey Əbu Hureyra?"- deyə soruşdu. (Əbu Hureyra ﷺ): "Cənabətli idim. Odur ki, təmiz olmadığım halda sənin yanında oturmaq istəmədim"- deyə cavab verdi. Peyğəmbər sallәllahu aleyhi və sәllәm: "Subhənallah! Mömin murdar olmaz"- dedi".[148]

ALLAHLA QARŞILAŞMAQ İSTƏYƏN

٨٢ - عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ: مَنْ أَحَبَّ لِقَاءَ اللَّهِ أَحَبَّ اللَّهُ لِقَاءَهُ وَمَنْ كَرِهَ لِقَاءَ اللَّهِ كَرِهَ اللَّهُ لِقَاءَهُ قَالَتْ عَائِشَةُ أَوْ بَعْضُ أَزْوَاجِهِ إِنَّا لَنَكْرَهُ الْمَوْتَ قَالَ لَيْسَ ذَاكِ وَلَكِنَّ الْمُؤْمِنَ إِذَا حَضَرَهُ الْمَوْتُ بُشِّرَ بِرِضْوَانِ اللَّهِ وَكَرَامَتِهِ فَلَيْسَ شَيْءٌ أَحَبَّ إِلَيْهِ مِمَّا أَمَامَهُ فَأَحَبَّ لِقَاءَ اللَّهِ وَأَحَبَّ اللَّهُ لِقَاءَهُ وَإِنَّ الْكَافِرَ إِذَا حُضِرَ بُشِّرَ بِعَذَابِ اللَّهِ وَعُقُوبَتِهِ فَلَيْسَ شَيْءٌ أَكْرَهَ إِلَيْهِ مِمَّا أَمَامَهُ كَرِهَ لِقَاءَ اللَّهِ وَكَرِهَ اللَّهُ لِقَاءَهُ.

82. Ubədə ibn Samit ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm

---

dəki dualırın qəbul olunması nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, bu iki ayə Peyğəmbər ﷺ meracda ikən yox, yerdə ikən nazil olmuşdur. İbn Abbas ﷺ demişdir: "Bir dəfə biz Peyğəmbərin ﷺ yanında oturmuşduq. Cəbrail ﷺ də onun yanında idi. Birdən Peyğəmbər ﷺ başının üstündə xışıltı səsi eşitdi. Cəbrail ﷺ göyə baxıb dedi: "Bu, göyün qapıları idi, açıldı! Bu günədək o, heç vaxt açılmamışdı". Oradan yerə bir mələk endi. Bu mələk indiyədək heç vaxt yerə enməmişdi. Mələk Peyğəmbərə ﷺ salam verdikdən sonra dedi: "Sənə verilən və səndən əvvəl heç bir peyğəmbərə verilməmiş bu iki nura sevin! Bu, "əl-Fatihə" surəsi, bir də "əl-Bəqərə" surəsinin son ayələridir" (Səhih Muslim, 1913).

[146] Burada "böyük günahların bağışlanması vəd edilmişdir"- deyildikdə tövhid-əhlindən olan böyük günah sahibinin əbədi olaraq Cəhənnəm odunda qalmayacağı, nə vaxtsa oradan çıxıb Cənnətə daxil olacağı nəzərdə tutulur. Belə ki, günahkarlar Qiyamət günü Allahın istəyi altında olacaqlar. İstər, onları bağışlayar, istərsə də, onlara əzab verər.

[147] Muslim, 431.

[148] əl-Buxari, 283.

demişdir: “Kim Allahla qarşılaşmaq istəsə, Allah da onunla qarşılaşmaq istəyər, kim də Allahla qarşılaşmaq istəməsə, Allah da onunla qarşılaşmaq istəməz”. Aişə ﵂ (və ya zövcələrindən biri) demişdir: “Axı biz ölmək istəmirik?!” Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “Söhbət bundan getmir. İş orasındadır ki, möminə ölüm yetişdiyi zaman ona müjdə verilir ki, Allah (ondan) razı qalmış və ona ehtiram göstərmişdir. Həmin an onun üçün qarşıda onu gözləyən (nemətdən) daha sevimli bir şey ola bilməz. Odur ki, o, Allahla qarşılaşmaq istəyir, Allah da onunla qarşılaşmaq istəyir. O ki qaldı kafirə, (ölüm) onu haqladığı zaman ona müjdə verilir ki, Allah onu əzaba düçar edəcək və onu cəzalandıracaqdır. Həmin an onun üçün qarşıda onu gözləyən (bəladan) daha pis bir şey ola bilməz. Odur ki, o, Allahla qarşılaşmaq istəmir, Allah da onunla qarşılaşmaq istəmir”.[149]

YEDDİ QİSM İNSAN

٨٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ عَنْ النَّبِيِّ ﷺ قَالَ «سَبْعَةٌ يُظِلُّهُمْ اللَّهُ فِي ظِلِّهِ يَوْمَ لَا ظِلَّ إِلَّا ظِلُّهُ الْإِمَامُ الْعَادِلُ وَشَابٌّ نَشَأَ بِعِبَادَةِ اللَّهِ وَرَجُلٌ قَلْبُهُ مُعَلَّقٌ فِي الْمَسَاجِدِ وَرَجُلَانِ تَحَابَّا فِي اللَّهِ اجْتَمَعَا عَلَيْهِ وَتَفَرَّقَا عَلَيْهِ وَرَجُلٌ دَعَتْهُ امْرَأَةٌ ذَاتُ مَنْصِبٍ وَجَمَالٍ فَقَالَ إِنِّي أَخَافُ اللَّهَ وَرَجُلٌ تَصَدَّقَ بِصَدَقَةٍ فَأَخْفَاهَا حَتَّى لَا تَعْلَمَ يَمِينُهُ مَا تُنْفِقُ شِمَالُهُ وَرَجُلٌ ذَكَرَ اللَّهَ خَالِيًا فَفَاضَتْ عَيْنَاهُ».

83. Əbu Hureyra ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Yeddi qism insan vardır ki, Allah onları Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə kölgəsi altında kölgələndirəcəkdir. Bunlar; ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc, qəlbi məscidlərə bağlı olan kişi, bir-birini Allah xatirinə sevən, Ona görə görüşüb Ona görə ayrılan iki kişi, gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: “Mən Allahdan qorxuram!”- deyən kişi, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən kişi və xəlvətə çəkilib Allahı yad edərək gözləri yaşla dolan kişi”.[150]

[149] əl-Buxari, 6507.
[150] Muslim, 1031, 1712.

TƏMİZLİK

TƏMİZLİK İMANIN YARISIDIR

٨٤ - عَنْ أَبِي مَالِكٍ الأَشْعَرِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: الطُّهُورُ شَطْرُ الإِيمَانِ، وَالْحَمْدُ لِلَّهِ تَمْلأُ الْمِيزَانَ وَسُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ تَمْلآنِ – أَوْ تَمْلأُ – مَا بَيْنَ السَّمَاوَاتِ وَالأَرْضِ، وَالصَّلاَةُ نُورٌ، وَالصَّدَقَةُ بُرْهَانٌ، وَالصَّبْرُ ضِيَاءٌ، وَالْقُرْآنُ حُجَّةٌ لَكَ أَوْ عَلَيْكَ، كُلُّ النَّاسِ يَغْدُو فَبَايِعٌ نَفْسَهُ فَمُعْتِقُهَا أَوْ مُوبِقُهَا.

84. Əbu Malik əl-Əşari[151] ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Təmizlik imanın yarısıdır.[152] Əlhəmdulillah tərəzini doldurur.[153] Subhanəllah vəlhəmdulillah göylərlə yer arasını doldururlar. Namaz bir nurdur. Sədəqə bir dəlildir.[154] Səbir bir işıqdır.[155] Quran isə sənin ya lehinə, ya da əleyhinə bir hüccətdir.[156] Hər bir insan səhər (evindən çıxıb iş dalınca gedər və) nəfsini satar; kimisi onu azad edər, kimisi də onu məhv edər".[157]

٨٥ - حَدَّثَنِى أَبُو أَيُّوبَ الأَنْصَارِىُّ وَجَابِرُ بْنُ عَبْدِ اللَّهِ وَأَنَسُ بْنُ مَالِكٍ ﷺ أَنَّ هَذِهِ الآيَةَ نَزَلَتْ ﴿**فِيهِ رِجَالٌ يُحِبُّونَ أَنْ يَتَطَهَّرُوا وَاللَّهُ يُحِبُّ الْمُطَّهِّرِينَ**﴾ قَالَ رَسُولُ اللَّهِ ﷺ «يَا مَعْشَرَ الأَنْصَارِ إِنَّ اللَّهَ قَدْ أَثْنَى عَلَيْكُمْ فِى الطُّهُورِ فَمَا طُهُورُكُمْ». قَالُوا نَتَوَضَّأُ لِلصَّلاَةِ وَنَغْتَسِلُ مِنَ الْجَنَابَةِ وَنَسْتَنْجِى بِالْمَاءِ. قَالَ «هُوَ ذَلِكَ فَعَلَيْكُمُوهُ».

---

[151] Əbu Malik əl-Əşari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Adı: Kəb ibn Asimdir. Hicrətin 18-ci ilində vəfat etmişdir.

[152] Hədisdə ərəbcə "şətrul-iman" (imanın yarısıdır) cümləsi, həm də imanı təmizləyən və kənarlaşdıran mənasını da ifadə edir. Belə ki, pak olmaq, qəlbi murdar şeylərdən təmizləyir və imanı şirkdən uzaqlaşdırır (Şərh əl-Ərbəin, 1/ 24).

[153] Burada tərəzi deyildikdə Qiyamət günü qurulacaq ədalət tərəzisi nəzərdə tutulur. Uca Allah buyurur: ***"Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kəsə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir.*** *(Görülmüş iş)* ***bir xardal dənəsi mislində olsa belə, onu gətirib*** *(tərəziyə)* ***qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik"*** *("əl-Ənbiya" surəsi, 47).*

[154] Yəni o, sahibinin səmimi olmasına dəlildir. Çünki mömin sədəqə verməklə Allaha yaxınlaşmaq və bunun sayəsində də savab qazanmaq istəyir. Beləliklə də, o, özünə əziz olan bir şeyi ona daha əziz olan Allahın yolunda sərf etmiş olur. Bu da onun imanının təmiz olduğuna dəlalət edir.

[155] Şəriətin buyurduğu səbir üç növdür: 1. Allaha və Onun Elçisinə itaət etməkdə səbir etmək; 2. Allahın və Onun Elçisinin qadağan etdiyi şeylərdən çəkinməkdə səbir etmək; 3. Müsibətlərə səbir etmək.

Diqqət edin! Burada Peyğəmbər ﷺ "səbir bir nurdur" demir, "işıqdır" deyir. Çünki işıqda hərarət də olur. Uca Allah buyurur: ***"Günəşi işıqlı, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə ona mənzillər*** *(səfhələr)* ***müəyyən edən Odur. Allah bunları yalnız haqq naminə yaratmışdır. O, ayələri bilən adamlara*** *(belə)* ***izah edir"*** *(Yunus, 5).* Günəş həm işıq saçır, həm də istilik verir. Səbir də həmçinin sahibinin qəlbinə və bədəninə istilik verir.

[156] Yəni əgər mömin bəndə Quranın buyurduqlarına əməl edib qadağan etdiklərindən çəkinərsə, həmin bəndə qəbirdə sorğu-suala çəkilərkən, məhşər günü haqq-ədalət tərəziləri qoyularkən və Allahın hüzuruna gətirilərkən, Quran onun lehinə, əks halda isə əleyhinə şahidlik edər.

[157] Muslim, 534. Bilin ki, hər bir əməl sahibi (etdiyi əməllər sayəsində) ya nəfsini azad etmiş, ya da onu məhv etmiş olur. Allaha və Onun Elçisinə ﷺ itaət etməklə nəfsini azad etmiş və şeytandan canını qurtarmış, əks halda isə nəfsini həlaka uğratmış olur.

85. Əbu Əyyub əl-Ənsari, Cabir ibn Abdullah və Ənəs ibn Məlik ﵃ rəvayət edirlər ki, Uca Allahın: "***Orada təmizlənməyi sevən kişilər vardır. Allah da təmizlənənləri sevir"*** *(ət-Tövbə 108)* ayəsi nazil olduqda Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "Ey ənsarlar! Allah sizi pak olduğunuza görə tərifl ədi, sizin paklığınız nədədir?" Onlar dedilər: "Biz namaz üçün dəstəmaz alır, cənabət qüslu alır və (subaşına çıxdıqda) su ilə yuyunuruq". Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "Elə buna görə də (Allah sizi tərifl ədi), buna davam edin!"[158]

DƏSTƏMAZ ALMAĞIN FƏZİLƏTİ

٨٦ - عَنْ عُقْبَةَ بْنَ عَامِرٍ ﵁ يَقُولُ: لَا أَقُولُ الْيَوْمَ عَلَى رَسُولِ اللَّه ﷺ مَا لَمْ يَقُلْ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يقول: "مَنْ كَذِبَ عَلَيَّ متعمدًا فَلْيَتَبَوَّأْ بَيْتًا مِنْ جَهَنَّمَ" وسمعت النبي ﷺ يقول: "رجل من أمتي يقوم مِنْ اللَّيْلِ يُعَالِجُ نَفْسَهُ إِلَى الطَّهُورِ وَ عليكم عُقَد فَإِذَا وَضَّأَ يَدَيْهِ انْحَلَّتْ عُقْدَةٌ وَإِذَا وَضَّأَ وَجْهَهُ انْحَلَّتْ عُقْدَةٌ وَإِذَا مَسَحَ رَأْسَهُ انْحَلَّتْ عُقْدَةٌ وَإِذَا وَضَّأَ رجليهه انْحَلَّتْ عُقْدَةٌ فَيَقُولُ اللهُ ﷻ لِلَّذِينَ وَرَاءَ الْحِجَابِ: انْظُرُوا إِلَى عَبْدِي هَذَا يُعَالِجُ نَفْسَهُ يَسْأَلُنِي مَا سَأَلَنِي عَبْدِ هَذَا فَهُوَ لَهُ ما سألني عبدي هذا فهو له"..."مَا مِنْ مُسْلِمٍ، ذَكَرٍ وَلاَ أُنْثَى، يَنَامُ إِلاَّ وَعَلَيْهِ جَرِيرٌ مَعْقُودٌ، فَإِنِ اسْتَيْقَظَ فَذَكَرَ اللَّهَ، انْحَلَّتْ عُقْدَةٌ، وَإِنْ هُوَ تَوَضَّأَ ثُمَّ قَامَ إِلَى الصَّلاَةِ أَصْبَحَ نَشِيطًا قَدْ أَصَابَ خَيْرًا، وَقَدِ انْحَلَّتْ عُقَدُهُ كُلُّهَا، وَإِنْ أَصْبَحَ وَلَمْ يَذْكُرِ اللَّهَ أَصْبَحَ وَعُقَدُهُ عَلَيْهِ، وَأَصْبَحَ ثَقِيلًا كَسْلاَنًا لَمْ يُصِبْ خَيْرًا".

86. Uqbə ibn Amir[159] ﵁ demişdir: "Bu gün mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm buyurmadığı şeylər haqqında danışmayacağam, çünki mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə buyurduğunu eşitdim: "Kim bilərəkdən mənim adımdan yalan danışarsa, Cəhənnəmdəki evinə hazırlaşsın". Həmçinin, Peyğəmbərin sallәllahu aleyhi və sәlləm belə buyurduğunu eşitdim: "Ümmətimdən bir kişi var ki, gecə duraraq dəstəmaz almaqla nəfsini müalicə edir. O, əllərini yuduqda bir düyün, üzünü yuduqda bir düyün, başını məsh etdikdə bir düyün, ayaqlarını yuduqda isə bir düyün açılır. Allah ﷻ pərdə arxasında olanlara buyurur: "Nəfsini müalicə edən bu quluma baxın! Bu qulum Məndən nə istəyirsə, o da ona veriləcəkdir".[160] Digər rəvayətdə deyilir: "Elə bir müsəlman kişi və ya qadın yoxdur ki, yatdığı zaman ona düyün vurulmasın. Səhər oyanıb Allahı zikr edərsə, bir düyün açılar. Dəstəmaz alıb namaza durarsa, gümrah olar, xeyir

[158] İbn Məcə, 355, 383. əl-Albani səhih olduğunu bildirmişdir.
[159] Uqbə ibn Amir əl-Cuhəni əl-Misri ﵁ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 58-cı ilində vəfat etmişdir.
[160] İbn Hibban, 1052, 2555. Şueyb əl-Arnavut isnadını səhih olduğunu bildirmişdir.

qazanar və bütün düyünləri açılar. Səhər oyanıb Allahı zikr etməzsə, düyünləri açılmaz, yuxudan əzgin və tənbəl oyanar və xeyir əldə etməz”.[161]

٨٧ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ: كَانَتْ عَلَيْنَا رِعَايَةُ الإِبِلِ فَجَاءَتْ نَوْبَتِي، فَرَوَّحْتُهَا بِعَشِيٍّ، فَأَدْرَكْتُ رَسُولَ اللَّهِ ﷺ قَائِمًا يُحَدِّثُ النَّاسَ، فَأَدْرَكْتُ مِنْ قَوْلِهِ: «مَا مِنْ مُسْلِمٍ يَتَوَضَّأُ فَيُحْسِنُ وُضُوءَهُ، ثُمَّ يَقُومُ فَيُصَلِّي رَكْعَتَيْنِ، مُقْبِلٌ عَلَيْهِمَا بِقَلْبِهِ وَوَجْهِهِ، إِلاَّ وَجَبَتْ لَهُ الْجَنَّةُ» قَالَ فَقُلْتُ: مَا أَجْوَدَ هَذِهِ فَإِذَا قَائِلٌ بَيْنَ يَدَيَّ يَقُولُ: الَّتِي قَبْلَهَا أَجْوَدُ، فَنَظَرْتُ فَإِذَا عُمَرُ. قَالَ: إِنِّي قَدْ رَأَيْتُكَ جِئْتَ آنِفًا. قَالَ: «مَا مِنْكُمْ مِنْ أَحَدٍ يَتَوَضَّأُ فَيُبْلِغُ - أَوْ فَيُسْبِغُ - الْوَضُوءَ ثُمَّ يَقُولُ: أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُ اللَّهِ وَرَسُولُهُ، إِلاَّ فُتِحَتْ لَهُ أَبْوَابُ الْجَنَّةِ الثَّمَانِيَةُ، يَدْخُلُ مِنْ أَيِّهَا شَاءَ».

87. Uqbə ibn Amir ﷺ demişdir: “Dəvələri otarmaq bizə[162] həvalə edilmişdi. Nəhayət, mənim növbəm gəlib çatdı və mən (vəzifəmi yerinə yetirdikdən sonra) axşamüstü dəvələri sürüb (tövləyə) apardım. Sonra Peyğəmbərin sallәllahu aleyhi və sәlləm (yanına getdim və onun) ayaq üstə durub camaata (öyüd-nəsihət) verdiyini gördüm. Söylədiklərindən eşitdiyim isə bu oldu: “Hansı bir müsəlman dəstəmaz alar və onu gözəl şəkildə yerinə yetirər, sonra da qalxıb qəlbi (xuşu ilə[163]) və üzü ilə (diqqətini namazın hərəkətlərinə) yönəldərək iki rükət namaz qılarsa, Cənnət mütləq ona vacib olar”. (Uqbə) dedi: “Mən (öz-özümə): “Bu nə gözəl sözlərdir!”– dedim. Birdən qarşımda oturan adam (mənə): “Bundan əvvəlki daha gözəl idi”– dedi. Baxdım ki, bu Ömərdir. O dedi: “Mən sənin bir qədər əvvəl gəldiyini gördüm. (Sən gəlməmişdən öncə) Peyğəmbər sallәllahu aleyhi və sәlləm belə buyurdu: “Sizdən hansı biriniz dəstəmaz alar və dəstəmazını kamil şəkildə, (yaxud tam şəkildə) yerinə yetirər, sonra da: “Əşhədu ən lə ilahə illəllah və ənnə Muhəmmədən abdullahi və Rəsuluhu!”[164]– deyərsə, Cənnətin səkkiz qapısı onun üçün açılar və o, hansından istəsə, (oradan Cənnətə) daxil olar”.[165]

٨٨ - عَنْ ثَعْلَبَةَ بْنِ عَبَّادٍ الْعَبْدِيِّ، عَنْ أَبِيهِ ﷺ قَالَ: مَا أَدْرَاكُمْ حَدَّثَنِيهِ رَسُولُ اللهِ ﷺ أَزْوَاجًا وَأَفْرَادًا: "مَا مِنْ عَبْدٍ يَتَوَضَّأُ فَيُحْسِنُ الْوُضُوءَ, فَيَغْسِلُ وَجْهَهُ حَتَّى يَسِيلَ الْمَاءُ عَلَى ذَقَنِهِ, ثُمَّ يَغْسِلُ ذِرَاعَيْهِ حَتَّى يَسِيلَ الْمَاءُ عَلَى مِرْفَقَيْهِ, وَيَغْسِلُ

---

[161] İbn Hibban, 2556. Şueyb əl-Arnavut isnadını Muslimin şərtlərinə əsasən səhih olduğunu bildirmişdir. Həmçinin, əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 648) olduğunu bildirmişdir.

[162] Yəni səhabələrdən bəzilərinə.

[163] Tiybi ﷺ demişdir: “Namazda xuşu deyildikdə, gözləri ancaq səcdə yerinə zilləyərək, fikri-zikri cəm edib başqa heç bir şey haqqında düşünmədən, qorxa-qorxa namaz qılmaq nəzərdə tutulur (ət-Təysir bi Şərhul-Camius-Sağir, 1/ 793).

[164] Tərcüməsi: Mən şahidlik edirəm ki, Allahdan başqa haqq ilah yoxdur və (şahidlik edirəm ki,) Muhəmməd Allahın qulu və elçisidir.

[165] Muslim, 553, 576.

رِجْلَيْهِ حَتَّى يَسِيلَ الْمَاءُ مِنْ قِبَلِ كَعْبَيْهِ، ثُمَّ يَقُومُ فَيُصَلِّي رَكْعَتَيْنِ؛ إِلَّا غُفِرَ لَهُ مَا سَلَفَ مِنْ ذَنْبِهِ".

88. Sələbə ibn Abbad əl-Abdi atasından ﷺ rəvayət edir: "Siz nə biləsiniz ki, Allah Elçisi sallallahu aleyhi və səlləm tək və ya cüt sayda bunları mənə neçə dəfə buyurmuşdur: "Hər hansı bir qul gözəl bir şəkildə dəstəmaz alaraq üzünü yuduqda su çənəsindən, qollarını yuduqda su dirsəklərindən, ayaqlarını yuduqda su topuqlarından axar, sonra durub iki rükət namaz qıldıqda keçmiş günahları bağışlanar".[166]

٨٩ - أَنَّ حُمْرَانَ مَوْلَى عُثْمَانَ أَخْبَرَهُ أَنَّ عُثْمَانَ بْنَ عَفَّانَ ﷺ دَعَا بِوَضُوءٍ فَتَوَضَّأَ، فَغَسَلَ كَفَّيْهِ ثَلاَثَ مَرَّاتٍ، ثُمَّ مَضْمَضَ وَاسْتَنْثَرَ، ثُمَّ غَسَلَ وَجْهَهُ ثَلاَثَ مَرَّاتٍ، ثُمَّ غَسَلَ يَدَهُ الْيُمْنَى إِلَى الْمِرْفَقِ ثَلاَثَ مَرَّاتٍ، ثُمَّ غَسَلَ يَدَهُ الْيُسْرَى مِثْلَ ذَلِكَ، ثُمَّ مَسَحَ رَأْسَهُ، ثُمَّ غَسَلَ رِجْلَهُ الْيُمْنَى إِلَى الْكَعْبَيْنِ ثَلاَثَ مَرَّاتٍ، ثُمَّ غَسَلَ الْيُسْرَى مِثْلَ ذَلِكَ، ثُمَّ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ تَوَضَّأَ نَحْوَ وُضُوئِي هَذَا، ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ: مَنْ تَوَضَّأَ نَحْوَ وُضُوئِي هَذَا، ثُمَّ قَامَ فَرَكَعَ رَكْعَتَيْنِ، لاَ يُحَدِّثُ فِيهِمَا نَفْسَهُ، غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ. قَالَ ابْنُ شِهَابٍ: وَكَانَ عُلَمَاؤُنَا يَقُولُونَ: هَذَا الْوُضُوءُ أَسْبَغُ مَا يَتَوَضَّأُ بِهِ أَحَدٌ لِلصَّلاَةِ.

89. Osmanın ﷺ mövlası (azad etdiyi köləsi) Humran belə rəvayət etmişdir: "(Bir dəfə) Osman su gətizdirdi və dəstəmaz aldı. (Əvvəlcə) əllərini üç dəfə yudu,[167] sonra (sağ əli ilə qabdan su götürüb) həm ağzını yaxaladı, həm də burnunun içini yudu, sonra üç dəfə üzünü yudu, sonra üç dəfə sağ qolunu dirsəyə qədər yudu, sonra da sol qolunu eyni qaydada yudu, sonra başına məsh çəkdi, sonra üç dəfə sağ ayağını topuğa qədər yudu, sonra da sol ayağını eyni qaydada yudu, sonra belə dedi: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm mənim dəstəmaz aldığım kimi dəstəmaz aldığını gördüm.[168] (O, dəstəmaz aldıqdan sonra belə) buyurdu: "Hər kim mənim dəstəmaz aldığım kimi dəstəmaz alar, sonra qalxıb iki rükət namaz qılar və namaz əsnasında heç bir şey haqda düşünməzsə, onun keçmiş günahları bağışlanar[169]". İbn Şihab demişdir: "Alimlərimiz deyərdilər: "Bu dəstəmaz, bir kimsənin namaz qılmaq üçün alacağı dəstəmazın ən kamilidir".[170]

---

[166] ət-Tahavi "Şərh Məanil-Əsər" 176, 182. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 188) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[167] Alimlərin yekdil rəyinə əsasən dəstəmaza başladıqda əlləri üç dəfə yumaq müstəhəbdir.

[168] Hədisdən belə nəticə çıxır ki, üzü, qolları və ayaqları yumaq, habelə başa məsh etmək vacibdir. Bu vaciblər "əl-Maidə" surəsinin 6-cı ayəsində öz əksini tapmışdır. Onu da qeyd etmək lazımdır ki, burada, üzü yumaq deyəndə, ağız və burunu yaxalamaq, habelə başa məsh etmək deyəndə, qulaqlara da məsh etmək də buna aid edilir.

[169] Söhbət kiçik günahlardan gedir.

[170] Muslim, 538.

٩٠ - عَنْ حُمْرَانَ مَوْلَى عُثْمَانَ قَالَ: أَتَيْتُ عُثْمَانَ بْنَ عَفَّانَ ﷺ بِوَضُوءٍ، فَتَوَضَّأَ ثُمَّ قَالَ: إِنَّ نَاسًا يَتَحَدَّثُونَ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَحَادِيثَ، لاَ أَدْرِي مَا هِيَ. إِلاَّ أَنِّي رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ تَوَضَّأَ مِثْلَ وُضُوئِي هَذَا، ثُمَّ قَالَ: مَنْ تَوَضَّأَ هَكَذَا غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ، وَكَانَتْ صَلاَتُهُ وَمَشْيُهُ إِلَى الْمَسْجِدِ نَافِلَةً.

90. Osmanın ﷺ mövlası Humran demişdir: "(Bir dəfə) Mən Osman ibn Əffana ﷺ (dəstəmaz almaq üçün) su gətirdim. O, dəstəmaz aldıqdan sonra dedi: "(Bəzi) adamlar Peyğəmbərdən sallәllahu aleyhi və səlləm hədislər danışırlar ki, mən bunların nə məna daşıdığını bilmirəm? Ancaq onu deyə bilərəm ki, mən Peyğəmbəri sallәllahu aleyhi və səlləm gördüm, o, mənim dəstəmaz aldığım kimi dəstəmaz aldı, sonra da belə buyurdu: "Kim bu cür dəstəmaz alsa, onun keçmiş günahları bağışlanar. Üstəlik namaz qılmağı və məscidə getməyi (onun savabını) artırar".[171]

٩١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا تَوَضَّأَ الْعَبْدُ الْمُسْلِمُ - أَوْ الْمُؤْمِنُ - فَغَسَلَ وَجْهَهُ، خَرَجَ مِنْ وَجْهِهِ كُلُّ خَطِيئَةٍ نَظَرَ إِلَيْهَا بِعَيْنَيْهِ مَعَ الْمَاءِ - أَوْ مَعَ آخِرِ قَطْرِ الْمَاءِ - فَإِذَا غَسَلَ يَدَيْهِ خَرَجَ مِنْ يَدَيْهِ كُلُّ خَطِيئَةٍ كَانَ بَطَشَتْهَا يَدَاهُ مَعَ الْمَاءِ - أَوْ مَعَ آخِرِ قَطْرِ الْمَاءِ - فَإِذَا غَسَلَ رِجْلَيْهِ خَرَجَتْ كُلُّ خَطِيئَةٍ مَشَتْهَا رِجْلاَهُ مَعَ الْمَاءِ - أَوْ مَعَ آخِرِ قَطْرِ الْمَاءِ - حَتَّى يَخْرُجَ نَقِيًّا مِنْ الذُّنُوبِ».

91. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm demişdir: "Müsəlman (yaxud mömin) bir bəndə dəstəmaz aldığı zaman üzünü yuduqda, gözləri ilə gördüyü hər bir xəta[172] su ilə, (yaxud suyun son damlasıyla) bərabər üzündən çıxar. Əllərini yuduqda, əlləri ilə tutduğu hər bir xəta su ilə, (yaxud suyun son damlasıyla) bərabər əllərindən çıxar. Ayaqlarını yuduqda, ayaqları ilə batdığı hər bir xəta su ilə, (yaxud suyun son damlasıyla) bərabər ayaqlarından çıxar. Nəhayət, o bəndə günahlardan təmizlənmiş halda (üzə) çıxar".[173]

٩٢ - عَنْ جَامِعِ بْنِ شَدَّادٍ قَالَ: سَمِعْتُ حُمْرَانَ بْنَ أَبَانَ يُحَدِّثُ أَبَا بُرْدَةَ فِي هَذَا الْمَسْجِدِ، فِي إِمَارَةِ بِشْرٍ أَنَّ عُثْمَانَ بْنَ عَفَّانَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: مَنْ أَتَمَّ الْوُضُوءَ كَمَا أَمَرَهُ اللَّهُ تَعَالَى، فَالصَّلَوَاتُ الْمَكْتُوبَاتُ كَفَّارَاتٌ لِمَا بَيْنَهُنَّ.

92. Cami ibn Şəddad demişdir: "Mən Humran ibn Əbanın, Bişrin[174] əmir olduğu dövrdə, bu məsciddə Əbu Burdəyə belə bir hədis danışdığını eşit-

---

[171] Muslim, 544.

[172] Burada söhbət kiçik günahlardan gedir.

[173] Muslim, 577.

[174] Həmin dövrdə Bişr ibn Mərvan Kufənin əmiri idi.

dim: “Osman ibn Əffan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm belə buyurmuşdur: “Hər kim Uca Allahın əmr etdiyi kimi dəstəmazı tam şəkildə yerinə yetirsə, (qıldığı) fərz buyurulmuş namazları, aralarındakı günahlar üçün kəffarə olar”.[175]

٩٣ - عَنْ عَمْرِو بْنِ شُعَيبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ ﷺ قَالَ: جَاءَ أَعْرَابِيٌّ إِلَى النَّبِيِّ ﷺ يَسأَلُهُ عَنِ الْوضُوءِ، فَأَرَاهُ ثَلاَثًا ثَلاَثًا قَالَ: «هَذَا الْوضُوء، فُمَنْ زَادَ عَلَى هَذَا، فَقَدْ أَسَاءَ وَتَعَدَّى وَظَلَم».

93. Amr ibn Şueyb atasından və babasından ﷺ rəvayət edir ki, (bir dəfə) bir bədəvi Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib ondan dəstəmaz haqqında soruşdu. Peyğəmbər sallallahu aleyhi və səlləm (əzalarını) üç dəfə yuyaraq (dəstəmaz almağın qaydasını) ona göstərdi və buyurdu: “Dəstəmaz budur, kim (üç dəfə yumağı) artırarsa, düzgün etməmişdir, həddini aşmışdır və zülm etmişdir”.[176]

DƏSTƏMAZLI YATAN

٩٤ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ :«مَا مِنْ مُسْلِمٍ يَبِيْتُ عَلَى ذِكْرٍ طَاهِراً فَيَتَعَارَّ مِنَ اللَّيْلِ فَيَسْأَلَ اللهَ ﷻ خَيْراً مِنَ الدُّنْيَا وَالآخِرَةِ ، إِلاَّ أَعْطَاهُ إِيَاه».

94. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “Allahı zikr edərək dəstəmazlı yatan, gecə oyanıb Allahdan ﷻ dünya və Axirəti üçün xeyir diləyən elə bir müsəlman yoxdur ki, Allah ona istədiyini verməsin”.[177]

DƏSTƏMAZ ƏZALARI QİYAMƏT GÜNÜ NUR SAÇACAQ

٩٥ - عَنِ ابْنِ مَسْعُودٍ ﷺ قَالَ: قِيلَ: يَا رَسُوْلَ اللهِ! كَيْفَ تَعْرِفُ مَنْ لَمْ تَرَى مِنْ أُمَّتِكَ؟ قَالَ ﷺ: «غُرٌّ مُحَجَّلُونَ بُلْقٌ مِنْ آثَارِ الْوَضُوءِ».

95. İbn Məsud ﷺ rəvayət edir ki, Allah Elçisindən sallallahu aleyhi və səlləm soruşdular: “Ey Allahın Elçisi! (Qiyamət günü) ümmətindən görmədiyin kəsləri necə tanıyacaqsan?” Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Dəstəmaz aldıqlarına görə üzləri parlaq, əlləri və ayaqları nurlu olma-

[175] Muslim, 547.
[176] Əhməd, 6684. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 2980) həsən səhih olduğunu bildirmişdir.
[177] Əbu Davud, 5042, 5044. əl-Albani səhih olduğunu bildirmişdir.

sından (tanıyacağam)".[178]

٩٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ : قَالَ رَسُوْلُ اللهِ ﷺ: «تَرِدُونَ عَلَيَّ غُرًّا مُحَجَّلِينَ مِنْ الْوُضُوءِ، سِيْمَاءُ أُمَّتِي لَيْسَ لأَحَدٍ غَيْرَهَا».

96. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Siz (Qiyamət günü) mənim yanıma dəstəmaz əzaları nurlu olaraq gələcəksiniz. Ümmətimin siması başqalarında olmayacaq".[179]

٩٧ - عَنْ عَبْدِ اللهِ بْنِ بُسْرٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «أُمَّتِي يَومَ الْقِيَامَةِ غُرٌّ مِنَ السُّجُودِ مُحَجَّلُونَ مِنَ الْوُضُوءِ».

97. Abdullah ibn Busr ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Qiyamət günü ümmətimin səcdə və dəstəmaz aldığı yerləri nurlu olacaq".[180]

٩٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: «إِنَّ أُمَّتِي يُدْعَوْنَ يَوْمَ الْقِيَامَةِ غُرًّا مُحَجَّلِينَ مِنْ آثَارِ الْوُضُوءِ، فَمَنِ اسْتَطَاعَ مِنْكُمْ أَنْ يُطِيلَ غُرَّتَهُ فَلْيَفْعَلْ».

98. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Ümmətim Qiyamət günü dəstəmaz aldıqlarına görə üzləri parlaq, əlləri və ayaqları nurlu olduğu halda gələcəklər." (Əbu Hureyra ﷺ dedi:) "Aranızdan kim üzünün parlaqlığını artıra bilirsə, qoy artırsın!"[181]

٩٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَتَى الْمَقْبُرَةَ فَقَالَ: «السَّلاَمُ عَلَيْكُمْ دَارَ قَوْمٍ مُؤْمِنِينَ، وَإِنَّا إِنْ شَاءَ اللَّهُ بِكُمْ لاَحِقُونَ، وَدِدْتُ أَنَّا قَدْ رَأَيْنَا إِخْوَانَنَا» قَالُوا: أَوَلَسْنَا إِخْوَانَكَ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: «أَنْتُمْ أَصْحَابِي، وَإِخْوَانُنَا الَّذِينَ لَمْ يَأْتُوا بَعْدُ» فَقَالُوا كَيْفَ تَعْرِفُ مَنْ لَمْ يَأْتِ بَعْدُ مِنْ أُمَّتِكَ يَا رَسُولَ اللَّهِ؟ فَقَالَ: «أَرَأَيْتَ لَوْ أَنَّ رَجُلاً لَهُ خَيْلٌ غُرٌّ مُحَجَّلَةٌ، بَيْنَ ظَهْرَيْ خَيْلٍ دُهْمٍ بُهْمٍ، أَلاَ يَعْرِفُ خَيْلَهُ؟» قَالُوا: بَلَى، يَا رَسُولَ اللَّهِ، قَالَ: «فَإِنَّهُمْ يَأْتُونَ غُرًّا مُحَجَّلِينَ مِنْ الْوُضُوءِ، وَأَنَا فَرَطُهُمْ عَلَى الْحَوْضِ، أَلاَ لَيُذَادَنَّ رِجَالٌ عَنْ حَوْضِي كَمَا يُذَادُ الْبَعِيرُ الضَّالُّ أُنَادِيهِمْ: أَلاَ هَلُمَّ، فَيُقَالُ: إِنَّهُمْ قَدْ بَدَّلُوا بَعْدَكَ، فَأَقُولُ: سُحْقًا سُحْقًا».

99. Əbu Hureyra ﷺ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər sallәllahu aleyhi və sәlləm qəbiristanlığa gəlib dedi: "Salam olsun sizə, ey (bu) diyarın mömin

[178] İbn Hibban, 1044. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[179] İbn Məcə, 4282, 4423. əl-Albani səhih olduğunu bildirmişdir.
[180] ət-Tirmizi, 607. əl-Albani səhih olduğunu bildirmişdir.
[181] əl-Buxari, 136.

sakinləri! Allah istəsə biz də sizə qovuşacağıq. Qardaşlarımızı görməyimizə ümid edirəm!" (Səhabələr) soruşdular: "Biz sənin qardaşların deyilikmi, ey Allahın Elçisi?" (Peyğəmbər sallәllahu aleyhi və sәlləm) buyurdu: "Siz mənim səhabələrimsiniz. Qardaşlarımız isə hələ (dünyaya) gəlməmiş kimsələrdir". (Digər rəvayətdə Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Qardaşlarım isə məni görməyib mənə iman gətirən kimsələrdir"[182]). (Səhabələr) soruşdular: "Hələ (dünyaya) gəlməmiş kimsələrin sənin ümmətindən olduğunu necə tanıyacaqsan, ey Allahın Elçisi?" (Peyğəmbər sallәllahu aleyhi və sәlləm) buyurdu: "Bir deyin görək, əgər bir adamın alnında və ayaqlarında ağ ləkə olan atları olsa və bu atlar, rənginə başqa rəng qarışmamış qapqara atların arasında olarsa, o adam öz atını tanımazmı?" (Səhabələr): "Bəli, (tanıyar), ey Allahın Elçisi!"– deyə cavab verdilər. (Peyğəmbər sallәllahu aleyhi və sәlləm) buyurdu: "Heç şübhəsiz ki, onlar da (Qiyamət günü) dəstəmaz almaqdan dolayı üzləri parlaq, əlləri və ayaqları nurlu halda (məhşərə) gələcəklər. Hamıdan əvvəl hovuzun başına gələn kimsə mən olacağam. Biləsiniz! İtmiş dəvə qovulduğu kimi bir çox insanlar da mənim hovuzumun yanından qovulacaqlar. Mən: "Haydı, bura gəlin!"– deyə onları səsləyəcəyəm. (Cavabında) mənə: "Onlar səndən sonra (dində) dəyişikliklər etmişlər"– deyiləcək. Onda mən deyəcəyəm: "Allah (onları məndən) uzaq eləsin, uzaq!"[183]

GÖZƏL ŞƏKİLDƏ DƏSTƏMAZ ALIB NAMAZ QILAN

١٠٠ - عَنْ عُثْمَانَ بْنَ عَفَّانَ ﷺ، أَنَّهُ دَعَا بِإِنَاءٍ، فَأَفْرَغَ عَلَى كَفَّيْهِ ثَلاَثَ مِرَارٍ فَغَسَلَهُمَا، ثُمَّ أَدْخَلَ يَمِينَهُ فِي الإِنَاءِ فَمَضْمَضَ، وَاسْتَنْشَقَ، ثُمَّ غَسَلَ وَجْهَهُ ثَلاَثًا، وَيَدَيْهِ إِلَى الْمِرْفَقَيْنِ ثَلاَثَ مِرَارٍ، ثُمَّ مَسَحَ بِرَأْسِهِ، ثُمَّ غَسَلَ رِجْلَيْهِ ثَلاَثَ مِرَارٍ إِلَى الْكَعْبَيْنِ، ثُمَّ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ تَوَضَّأَ نَحْوَ وُضُوئِي هَذَا، ثُمَّ صَلَّى رَكْعَتَيْنِ، لاَ يُحَدِّثُ فِيهِمَا نَفْسَهُ، غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ».

100. Osman ibn Əffan ﷺ su gətizdirib (dəstəmaz aldı), əllərinə su töküb onları üç dəfə yudu; sonra sağ əlini qaba salıb (su götürdü və bununla) həm ağzını yaxaladı, həm də burnunun içini yudu; sonra üç dəfə üzünü və üç dəfə qollarını dirsəklərə qədər yudu; sonra başına məsh çəkdi; sonra üç dəfə ayaqlarını topuqlara qədər yudu, sonra da dedi: "Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Mənim kimi dəstəmaz alıb, qəlbindən heç bir şey

[182] Əhməd, 12601. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2888) səhih olduğunu bildirmişdir.
[183] Muslim, 584.

keçirtmədən iki rükət namaz qılan kimsənin keçmiş günahları bağışlanar".[184]

١٠١ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ الْجُهَنِيِّ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ تَوَضَّأَ فَأَحْسَنَ الْوُضُوءَ ثُمَّ صَلَّى رَكْعَتَيْنِ يُقْبِلُ عَلَيْهِمَا بِقَلْبِهِ وَوَجْهِهِ وَجَبَتْ لَهُ الْجَنَّةُ».

101. Uqbə ibn Amir əl-Cuhəni ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Kim gözəl şəkildə dəstəmaz alar, sonra qəlbi (xuşu ilə) və üzü ilə (diqqəti namazın hərəkətlərinə) yönələrək iki rükət namaz qılarsa, Cənnət ona vacib olar".[185]

١٠٢ - عَنْ زَيْدِ بْنِ خَالِدٍ الْجُهَنِيِّ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ «مَنْ تَوَضَّأَ فَأَحْسَنَ وُضُوءَهُ ثُمَّ صَلَّى رَكْعَتَيْنِ لاَ يَسْهُو فِيهِمَا غَفَرَ اللَّهُ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ»

102. Zeyd ibn Xalid əl-Cuhəni ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Kim gözəl şəkildə dəstəmaz alar, sonra səhv etmədən iki rükət namaz qılarsa, Allah onun keçmiş günahlarını bağışlayar".[186]

١٠٣ - سَمِعْتُ عَلِيًّا ﷺ يَقُولُ إِنِّى كُنْتُ رَجُلاً إِذَا سَمِعْتُ مِنْ رَسُولِ اللَّهِ ﷺ حَدِيثًا نَفَعَنِى اللَّهُ مِنْهُ بِمَا شَاءَ أَنْ يَنْفَعَنِى بِهِ وَإِذَا حَدَّثَنِى رَجُلٌ مِنْ أَصْحَابِهِ اسْتَحْلَفْتُهُ فَإِذَا حَلَفَ لِى صَدَّقْتُهُ وَإِنَّهُ حَدَّثَنِى أَبُو بَكْرٍ ﷺ وَصَدَقَ أَبُو بَكْرٍ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَا مِنْ رَجُلٍ يُذْنِبُ ذَنْبًا ثُمَّ يَقُومُ فَيَتَطَهَّرُ ثُمَّ يُصَلِّى ثُمَّ يَسْتَغْفِرُ اللَّهَ إِلاَّ غَفَرَ اللَّهُ لَهُ». ثُمَّ قَرَأَ هَذِهِ الآيَةَ ﴿**وَالَّذِينَ إِذَا فَعَلُوا فَاحِشَةً أَوْ ظَلَمُوا أَنْفُسَهُمْ ذَكَرُوا اللَّهَ فَاسْتَغْفَرُوا لِذُنُوبِهِمْ وَمَنْ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ اللَّهُ وَلَمْ يُصِرُّوا عَلَى مَا فَعَلُوا وَهُمْ يَعْلَمُونَ**﴾.

103. Əli[187] ﷺ demişdir: "Mən Allah Elçisindən salləllahu aleyhi və səlləm bir hədis eşitdikdə, Allah o hədislə məni istədiyi şəkildə faydalandırırdı. Allah

---

[184] əl-Buxari, 159; Muslim, 537; ən-Nəsəi, 84.

[185] ən-Nəsəi, 151, 152. əl-Albani səhih olduğunu bildirmişdir.

[186] Əhməd, 17095, 17517. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6165) həsən olduğunu söyləmişdir.

[187] Əbu Turab, yaxud Əbu Sibteyn, yaxud da Əbul-Həsən, Əli ibn Əbu Talib ibn Abdul-Müttəlib ﷺ fil ilindən otuz il sonra – yəni, Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on il əvvəl dünyaya gəlmiş, İslam dinini ilk əvvəl qəbul etmiş səhabələrdəndir. O, Peyğəmbərin ﷺ həm əmisi oğlu, həm kürəkəni, həm də ən əziz və reyhan qoxulu nəvələri – Həsən və Hüseynin ﷺ atalarıdır. Əli ibn Əbu Talib ﷺ Təbuk döyüşü istisna olmaqla, Peyğəmbərlə ﷺ birlikdə bütün döyüşlərdə iştirak etmiş və ələlxüsus da ağac altında ona beyət gətirənlərdən olmuşdur. Təbuk döyüşündə isə Peyğəmbər ﷺ onu öz yerinə – Mədinəyə xəlifə təyin etmişdir. Səd ibn Əbu Vəqqas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Təbuka yola düşərkən Əlini öz yerinə başçı təyin etdi. Onda Əli ﷺ dedi: "Doğrudanmı sən məni uşaqların və qadınların yanında qoyub getmək istəyirsən?!" Peyğəmbər ﷺ buyurdu: "İstəmirsən ki, Harun Musaya yaxın olduğu kimi, sən də mənə yaxın olasan?! Fəqət məndən sonra peyğəmbər gəlməyəcək" (əl-

Elçisinin sallәllahu aleyhi və sәlləm səhabələrindən bir nəfər mənə hədis danışanda ona and içdirirdim. Əgər and içirdisə, ona inanırdım. Bir dəfə Əbu Bəkr ﷺ mənə bir hədis danışdı. Əbu Bəkr ﷺ düz danışan idi, o belə dedi: "Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə buyurduğunu eşitdim: "Günah etdikdən sonra dəstəmaz alaraq namaz qılıb Allahdan bağışlanmasını diləyən elə bir kişi yoxdur ki, Allah onu bağışlamasın". Sonra Allah Elçisi sallәllahu aleyhi və sәlləm bu ayəni oxudu: ***"O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər,- günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər"*** *(Ali-İmran, 135)"*.[188]

١٠٤ - فَقَالَ أَبُو الدَّرْدَاءِ ﷺ بِئْسَ سَاعَةُ الْكَذِبِ هَذِهِ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ مَنْ تَوَضَّأَ فَأَحْسَنَ وُضُوءَهُ ثُمَّ قَامَ فَصَلَّى رَكْعَتَيْنِ أَوْ أَرْبَعًا شَكَّ سَهْلٌ يُحْسِنُ فِيهِمَا الذِّكْرَ وَالْخُشُوعَ ثُمَّ اسْتَغْفَرَ اللَّهَ ﷻ غَفَرَ لَهُ

104. Əbud-Dərdə ﷺ demişdir: "Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: "Kim gözəl şəkildə dəstəmaz alar, sonra iki və ya dörd rükət namaz qılar, namazda zikr və xuşusu gözəl olar, sonra Allahdan ﷻ bağışlanma diləyərsə, Allah onu bağışlayar".[189]

١٠٥ - كُنْتُ عِنْدَ عُثْمَانَ ﷺ فَدَعَا بِطَهُورٍ فَقَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ مَا مِنْ امْرِئٍ مُسْلِمٍ تَحْضُرُهُ صَلَاةٌ مَكْتُوبَةٌ فَيُحْسِنُ وُضُوءَهَا وَخُشُوعَهَا وَرُكُوعَهَا إِلَّا كَانَتْ كَفَّارَةً لِمَا قَبْلَهَا مِنْ الذُّنُوبِ مَا لَمْ يُؤْتِ كَبِيرَةً وَذَلِكَ الدَّهْرَ كُلَّهُ

105. Osman ibn Əffan ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Fərz namazının vaxtı gəldikdə gözəl bir şəkildə dəstəmaz alıb xuşu ilə, rukusunu (tam riayət edərək namazını) qılan elə bir müsəlman yoxdur ki, böyük günah etmədikcə, bu onun namazdan öncə olan günahlarına kəffarə olmasın. Bu hər zaman üçün belədir".[190]

Buxari, 4416). Əli ibn Əbu Talib ﷺ sağlığında ikən Cənnətlə müjdələnmiş on nəfərdən biridir. Əli ibn Əbu Talib ﷺ Rəsulullahın ﷺ dördüncü xəlifəsi olmuşdur. Hicrətin 35-ci ilində, zilhiccə ayının 18-i, cümə günü xilafətə gəlmiş, 4 il 9 ay möminlərə layiqincə əmirlik etmiş və hicrətin 40-cı ilində, ramazan ayının 17-si, cümə günü, Kufə şəhərində fars mənşəli xəvaric olan Abdur-Rahmən ibn Mülcəm əl-Muradi tərəfindən vurulmuş və üç gündən sonra altmış üç yaşında şəhid olmuşdur. Oğlanları Həsən və Hüseyn, habelə Cəfərin oğlu Abdullah onu yuyub kəfənləmiş, Həsən onun cənazə namazını qıldırmış və bundan sonra onu dəfn etmişlər.

[188] ət-Tirmizi, 406, 408. əl-Albani həsən olduğunu bildirmişdir.

[189] Əhməd, 27546, 27586. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 230) həsən adlandırmışdır.

[190] Muslim, 543, 565.

١٠٦ - عَنْ حُمْرَانَ مَوْلَى عُثْمَانَ قَالَ: تَوَضَّأَ عُثْمَانُ بْنُ عَفَّانَ ﷺ يَوْمًا وُضُوءًا حَسَنًا، ثُمَّ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ تَوَضَّأَ فَأَحْسَنَ الْوُضُوءَ، ثُمَّ قَالَ: مَنْ تَوَضَّأَ هَكَذَا، ثُمَّ خَرَجَ إِلَى الْمَسْجِدِ لاَ يَنْهَزُهُ إِلاَّ الصَّلاَةُ، غُفِرَ لَهُ مَا خَلاَ مِنْ ذَنْبِهِ.

106. Osmanın mövlası Humran demişdir: “Bir gün Osman ibn Əffan gözəl şəkildə dəstəmaz aldı. Sonra belə dedi: “Mən Peyğəmbəri sallallahu aleyhi və səlləm gördüm. O, dəstəmaz aldı və bunu gözəl şəkildə yerinə yetirdi. Sonra buyurdu: “Kim bu şəkildə dəstəmaz alar, sonra da nəfsini yalnız namaz qılmağa təhrik edərək məscidə gedərsə, keçmiş günahları bağışlanar”.[191]

١٠٧ - عَنْ عُثْمَانَ بْنِ عَفَّانَ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: مَنْ تَوَضَّأَ لِلصَّلاَةِ فَأَسْبَغَ الْوُضُوءَ، ثُمَّ مَشَى إِلَى الصَّلاَةِ الْمَكْتُوبَةِ، فَصَلاَّهَا مَعَ النَّاسِ، أَوْ مَعَ الْجَمَاعَةِ، أَوْ فِي الْمَسْجِدِ، غَفَرَ اللَّهُ لَهُ ذُنُوبَهُ.

107. Osman ibn Əffan ﷺ demişdir: “Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: “Kim namaz qılmaq üçün dəstəmaz alar və dəstəmazını tam şəkildə yerinə yetirər, sonra da fərz namazını qılmağa gedər və bu namazı insanlarla, yaxud camaatla birgə, ya da məsciddə qılarsa, Allah onun günahlarını bağışlayar”.[192]

١٠٨ - حَدَّثَنَا إِسْحَقُ بْنُ سَعِيدِ بْنِ عَمْرِو بْنِ سَعِيدِ بْنِ الْعَاصِ: حَدَّثَنِي أَبِي عَنْ أَبِيهِ قَالَ: كُنْتُ عِنْدَ عُثْمَانَ، فَدَعَا بِطَهُورٍ فَقَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَا مِنْ امْرِئٍ مُسْلِمٍ تَحْضُرُهُ صَلاَةٌ مَكْتُوبَةٌ، فَيُحْسِنُ وُضُوءَهَا وَخُشُوعَهَا وَرُكُوعَهَا، إِلاَّ كَانَتْ كَفَّارَةً لِمَا قَبْلَهَا مِنْ الذُّنُوبِ، مَا لَمْ يُؤْتِ كَبِيرَةً وَذَلِكَ الدَّهْرَ كُلَّهُ».

108. Amr ibn Səid demişdir: “Mən Osmanın yanında ikən o, (dəstəmaz almaq üçün) su gətizdirdi və dedi: “Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: “Bir fərz namazının vaxtı yetişdikdə onun dəstəmazını, xuşusunu və rükusunu[193] gözəl tərzdə yerinə yetirən elə bir müsəlman bəndə yoxdur ki, böyük günah işləmədikcə bu namazı onun əvvəlki günahlarına kəffarə olmasın.[194] Bu da hər zaman beləcə davam edər”.[195]

---

[191] Muslim, 548.

[192] Muslim, 549.

[193] Ruku – fiqh istilahı olub, qabağa əyilmə, namazda qiraətdən sonra yerə, təzim edirmiş kimi, paralel şəkildə önə əyilməni bildirir. Rüku namazın rüknlərindən – vacib ünsürlərindən biridir və fərzdir. Rükuda əllər dizlərə qoyulur.

[194] Müsəlman olan kəs gözəl tərzdə dəstəmaz alıb lazımi qaydada namaz qılarsa, bu namaz onun kiçik günahlarını silib aparar.

[195] Muslim, 543.

١٠٩ - عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «أَلاَ أَدُلُّكُمْ عَلَى مَا يَمْحُو اللَّهُ بِهِ الْخَطَايَا وَيَرْفَعُ بِهِ الدَّرَجَاتِ؟» قَالُوا: بَلَى، يَا رَسُولَ اللَّهِ! قَالَ: «إِسْبَاغُ الْوُضُوءِ عَلَى الْمَكَارِهِ، وَكَثْرَةُ الْخُطَا إِلَى الْمَسَاجِدِ، وَانْتِظَارُ الصَّلاَةِ بَعْدَ الصَّلاَةِ، فَذَلِكُمْ الرِّبَاطُ».

109. Əbu Hureyra ﷺ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər salləllahu aleyhi və səlləm (səhabələrinə) buyurdu: "Allahın, sayəsində günahları silib dərəcələri artıracağı şeyi sizə öyrədimmi?" Onlar: "Bəli, ey Allahın Elçisi!"– deyə cavab verdilər. Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Çətinliklərə rəğmən[196] dəstəmazı kamil şəkildə almaq, məscidlərə getdikdə addımları çoxaltmaq[197] və namazdan sonra (növbəti) namazı gözləməkdir. Bunlar keşiyində durmağa layiq işlərdir"[198].[199]

١١٠ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما : أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «طَهِّرُوا هَذِهِ الأَجْسَاد طَهَّرَكُمْ اللهُ، فَإِنَّهُ لَيْسَ عَبْدٌ يَبِيْتُ طَاهِراً إِلاَّ بَاتَ مَعَهُ مَلَكٌ فِي شِعَارِهِ، لاَ يَنْقَلِبُ سَاعَةً مِنَ اللَّيْلِ (فَلَمْ يَسْتَيْقِظْ) إِلاَّ قَالَ: اللَّهُمَّ أَغْفِرْ لِعَبْدِكَ فَإِنَّهُ بَاتَ طَاهِراً».

110. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Vücudlarınızı təmizləyin, Allah da sizi təmizləsin! Həqiqətən, gecə təmizlənərək yatan elə bir qul yoxdur ki, bir mələk onun paltarında gecələməsin. O, gecə hər dəfə çevrildikdə (oyandıqda[200]) mələk belə dua edir: "Allahım, qulunu bağışla, həqiqətən, o, təmizlənərək yatmışdır!"[201]

١١١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «تَبْلُغ حِلْيَةُ أَهْلِ الْجَنَّةِ مَبْلَغَ الْوضُوءِ».

111. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Cənnət əhlinin zinəti dəstəmaz yerlərinə qədər olacaqdır".[202]

---

196 Yəni, soyuq və ya xəstəlik səbəbilə.

197 Burada uzaq məsafədən məscidə gəlmək nəzərdə tutulur.

198 Hədisdə "keşiyində durmağa layiq işlər" deyildikdə üş şeydən biri qəsd edilir:
– ya həqiqətən də, sərhədin keşiyində durmaq qəsd edilir. Yəni sərhədin keşiyində duran adam düşməni gözətlədiyi kimi, abid adam da Allah üçün etdiyi ibadətləri qoruyur;
– ya Allah üçün olan xeyirxah işlərin keşiyində durmaq qəsd edilir;
– ya da keşik çəkmək deyildikdə nəfslə mübarizə aparmaq nəzərdə tutulur.

199 Muslim, 587.

200 İbn Hibban, 1048. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

201 ət-Tabərani "Mucəmul-Kəbir" 13620. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3936) həsən olduğunu bildirmişdir.

202 İbn Hibban, 1042. əl-Albani səhih olduğunu bildirmişdir.

CƏNABƏT QÜSLU ƏMANƏTDIR

١١٢ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: خَمْسٌ مَنْ جَاءَ بِهِنَّ مَعَ إِيمَانٍ دَخَلَ الْجَنَّةَ: مَنْ حَافَظَ عَلَى الصَّلَوَاتِ الْخَمْسِ, عَلَى وُضُوئِهِنَّ, وَرُكُوعِهِنَّ, وَسُجُودِهِنَّ, وَمَوَاقِيتِهِنَّ, وَصَامَ رَمَضَانَ, وَحَجَّ الْبَيْتَ إِنْ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا, وَآتَى الزَّكَاةَ طَيِّبَةً بِهَا نَفْسُهُ, وَأَدَّى الْأَمَانَةَ", قيل: يا رسول الله وَمَا أَدَاءُ الْأَمَانَةِ؟ قَالَ: الْغُسْلُ مِنْ الْجَنَابَةِ إِنَّ اللَّهَ لَمْ يَأْمَنِ ابْنَ آدَمَ عَلَى شَيْءٍ مِنْ دِينِهِ غَيْرِهَا

112. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "İman gətirməklə bərabər kim bu beş əməli edərsə, Cənnətə daxil olar; dəstəmazını gözəl şəkildə almaqla, ruku və səcdəsini tam yerinə yetirməklə beş vaxt namazları vaxtlı-vaxtında qılan; Ramazan orucunu tutan; gücü çatdıqda Evi (Kəbəni) həcc edən; könüllü şəkildə zəkat verən; əmanəti qaytaran". Dedilər: "Ey Allahın Elçisi, əmanəti qaytarmaq nədir?" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Cənabət halından[203] qüsl etməkdir. Həqiqətən, Allah Adəm oğluna dində yalnız bunu əmanət etmişdir".[204]

[203] Cənabət halı - cinsi əlaqə və ya məninin şəhvətlə xaric olmasından sonrakı haldır.

[204] əl-Munziri "Tərğib vət-Tərhib" 544; əl-Heysəmi "Məcməuz-Zəvaid" 139. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 369) həsən olduğunu bildirmişdir.

CAMAAT VƏ FƏRZ NAMAZLARI

SİZİN ƏN XEYİRLİ ƏMƏLİNİZ NAMAZDIR

١١٣ - عَنْ ثَوْبَانٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «اسْتَقِيمُوا وَلَنْ تُحْصُوا وَاعْلَمُوا أَنَّ خَيْرَ أَعْمَالِكُمْ الصَّلاَة، وَلاَ يُحَافِظُ عَلَى الْوضُوءِ إِلاَّ مُؤمِنٌ».

113. Səubən[205] ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Düz yol tutun! Bilin ki, (nə qədər çalışsanız da) bunu tam bacara bilməyəcəksiniz. Bilin ki, sizin əməllərinizin ən xeyirlisi namazdır. Dəstəmazı isə ancaq mömin qoruya biləcəkdir".[206]

FƏRZ NAMAZLARININ FƏZİLƏTİ

١١٤ - عَنْ أَبِي إِدْرِيسَ الْخَوْلاَنِيِّ، قَالَ: كُنْتُ فِي مَجْلِسٍ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ فِيهِمْ عُبَادَةُ بْنُ الصَّامِتِ ﷺ فَذَكَرُوا الْوِتْرَ فَقَالَ بَعْضُهُمْ: وَاجِبٌ وَقَالَ بَعْضُهُمْ: سُنَّةٌ فَقَالَ عُبَادَةُ بْنُ الصَّامِتِ ﷺ: أَمَّا أَنَا فَأَشْهَدُ أَنِّي سَمِعْتُ رَسُولَ اللهِ ﷺ يَقُولُ: أَتَانِي جِبْرِيلُ مِنْ عِنْدِ اللهِ تَبَارَكَ وَتَعَالَى فَقَالَ: يَا مُحَمَّدُ إِنَّ اللَّهَ ﷻ يَقُولُ: إِنِّي قَدْ فَرَضْتُ عَلَى أُمَّتِكَ خَمْسَ صَلَوَاتٍ مَنْ وَافَى بِهِنَّ عَلَى وضُوئِهِنَّ وَمَوَاقِيتِهِنَّ وَرُكُوعِهِنَّ وَسُجُودِهِنَّ فَإِنَّ لَهُ عِنْدِي بِهِنَّ عَهْدًا أَنْ أُدْخِلَهُ بِهِنَّ الْجَنَّةَ، وَمَنْ لَقِيَنِي قَدِ انْتَقَصَ مِنْ ذَلِكَ شَيْئًا، أَوْ كَلِمَةً شِبْهَهَا فَلَيْسَ لَهُ عِنْدِي عَهْدٌ إِنْ شِئْتُ عَذَّبْتُهُ وَإِنْ شِئْتُ رَحِمْتُهُ

114. Əbu İdris əl-Xauləni demişdir: "(Bir dəfə) Peyğəmbərin sallallahu aleyhi və səlləm səhabələrinin məclisində idim. Ubədə ibn Samit ﷺ də onların arasında idi. Vitr[207] namazı haqqında söhbət düşdü. Bəziləri onun vacib olduğunu, bəziləri isə sünnət olduğunu dedilər. Ubədə ibn Samit ﷺ dedi: "Mənə gəlincə, mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: "Cəbrail Uca Allahın dərgahından yanıma gəlib dedi: "Ey Muhəmməd! Həqiqətən, Allah ﷻ buyurur: "Mən sənin ümmətinə beş namazı fərz etdim. Kim bu (namazların) dəstəmazına, vaxtlarına, rukusuna,[208] səcdəsinə riayət etsə, onu Cənnətə daxil edəcəyimə dair dərgahımda əhdi olar. Kim Mənimlə görüşərək bunlardan bir şeyi əskiltmiş olsa, Mənim dərgahımda onun üçün əhd yoxdur. Mən istəsəm ona əzab verərəm, istəsəm də ona rəhm edərəm".[209]

---

[205] Əbu Abdullah Səubən əl-Yəməni ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicri 54-cü ildə Xumsda vəfat edib.
[206] İbn Məcə, 277, 290. əl-Albani səhih olduğunu bildirmişdir.
[207] Vitr - tək, İşa namazından Sübh namazınadək olan hər vaxtda qılınan tək rükətli namaz.
[208] Ruku - fiqh istilahı olub, qabağa əyilmə, namazda qiraətdən sonra yerə, təzim edirmiş kimi, paralel şəkildə önə əyilməni bildirir. Ruku namazın rüknlərindən olub - vacib ünsürlərindən biridir və fərzdir. Rukuda əllər dizlərə qoyulur. Camaatla namaz qılarkən imama rukuda çatan şəxs, ayaq üstə "Allahu Əkbər" deyərək rukuya gedir.
[209] ət-Tayəlisi, 574. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 842) səhih olduğunu bildirmişdir.

١١٥ - عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ ﷺ أَنَّ رَجُلًا أَصَابَ مِنْ امْرَأَةٍ قُبْلَةً فَأَتَى النَّبِيَّ ﷺ فَذَكَرَ ذَلِكَ لَهُ قَالَ فَنَزَلَتْ ﴿**أَقِمْ الصَّلَاةَ طَرَفَيْ النَّهَارِ وَزُلَفًا مِنْ اللَّيْلِ إِنَّ الْحَسَنَاتِ يُذْهِبْنَ السَّيِّئَاتِ ذَلِكَ ذِكْرَى لِلذَّاكِرِينَ**﴾ قَالَ فَقَالَ الرَّجُلُ أَلِيَ هَذِهِ يَا رَسُولَ اللَّهِ قَالَ لِمَنْ عَمِلَ بِهَا مِنْ أُمَّتِي

115. Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, bir kişi bir qadını öpdü. Sonra o, Peyğəmbərin sallәllahu aleyhi və sәllәm yanına gəlib bunu ona söylədi və "***Gündüzün iki başında*** *(əvvəlində və axırında)* ***və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır"*** *(Hud, 114)* - ayəsi nazil oldu. Həmin kişi soruşdu: "Ey Allahın Elçisi! Bu yalnız mənə aiddir?" O buyurdu: "Ümmətimdən belə bir əməl edən kimsələrə aiddir".[210]

١١٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَقُولُ الصَّلَوَاتُ الْخَمْسُ وَالْجُمْعَةُ إِلَى الْجُمْعَةِ وَرَمَضَانُ إِلَى رَمَضَانَ مُكَفِّرَاتٌ مَا بَيْنَهُنَّ إِذَا اجْتَنَبَ الْكَبَائِرَ

116. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Böyük günahlar işlənmədiyi təqdirdə, beş vaxt namaz, iki Cümə və iki Ramazan, arasında edilən günahlara kəffarə olur".[211]

١١٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ، أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «أَرَأَيْتُمْ لَوْ أَنَّ نَهَرًا بِبَابِ أَحَدِكُمْ، يَغْتَسِلُ فِيهِ كُلَّ يَوْمٍ خَمْسًا، مَا تَقُولُ ذَلِكَ يُبْقِي مِنْ دَرَنِهِ؟» قَالُوا: لاَ يُبْقِي مِنْ دَرَنِهِ شَيْئًا، قَالَ: «فَذَلِكَ مِثْلُ الصَّلَوَاتِ الْخَمْسِ، يَمْحُو اللَّهُ بِهَا الْخَطَايَا»

117. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Bir deyin görüm, əgər sizdən birinizin qapısının önündən çay axsaydı, o da hər gün bu çayda beş dəfə yuyunsaydı, onun (bədənində olan) çirkabdan bir şey qalardımı?" Əshabələr: "Onun (bədənindəki) çirkabdan heç nə qalmazdı"- deyə cavab verdikdə Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "Beş vaxt qılınan namazların məsəli də buna bənzəyir. Belə ki, Allah bununla günahları silir!"[212]

١١٨ - عَنْ عُثْمَانَ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «إِنَّ الصَّلَوَاتِ الْخَمْس يَذْهَبنَ بِالذُّنُوبِ، كَمَا يُذهِبُ الْمَاءُ الدَّرَنَ».

---

[210] Muslim, 2763, 4963, 7177.
[211] Muslim, 552, 574.
[212] əl-Buxari, 528; Muslim, 667.

118. Osman ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Beş vaxt namaz günahları, su çirki yuyub apardığı kimi aparır”.[213]

١١٩ - عَنْ عَاصِمِ بْنِ سُفْيَانَ الثَّقَفِيِّ أَنَّهُمْ غَزَوْا غَزْوَةَ السَّلاَسِلِ فَفَاتَهُمُ الْغَزْوُ فَرَابَطُوا ثُمَّ رَجَعُوا إِلَى مُعَاوِيَةَ وَعِنْدَهُ أَبُو أَيُّوبَ وَعُقْبَةُ بْنُ عَامِرٍ ﷺ فَقَالَ عَاصِمٌ يَا أَبَا أَيُّوبَ فَاتَنَا الْغَزْوُ الْعَامَ وَقَدْ أُخْبِرْنَا أَنَّهُ مَنْ صَلَّى فِى الْمَسَاجِدِ الأَرْبَعَةِ غُفِرَ لَهُ ذَنْبُهُ. فَقَالَ يَا ابْنَ أَخِى أَدُلُّكَ عَلَى أَيْسَرَ مِنْ ذَلِكَ إِنِّى سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ تَوَضَّأَ كَمَا أُمِرَ وَصَلَّى كَمَا أُمِرَ غُفِرَ لَهُ مَا قَدَّمَ مِنْ عَمَلٍ». أَكَذَلِكَ يَا عُقْبَةُ قَالَ نَعَمْ.

119. Asim ibn Süfyan əs-Səqafi rəvayət edir ki, onlar Muaviyənin dövründə baş vermiş Sələsil döyüşündə iştirak etməyib, atlarını sərhəddə bağlı saxlamışdılar. Onlar bu əməllərini günah sayıb peşman halda Müaviyənin ﷺ yanına qayıtdılar. Əbu Əyyub və Uqbə ibn Amir də Müaviyənin ﷺ yanında idilər. Asim dedi: “Ey Əbu Əyyub, bu ilki döyüşü ötürdük. Bizə çatıb ki: “Kim bu dörd məsciddə (Məkkə, Mədinə, Qüds və Quba) namaz qılarsa günahları bağışlanar”. Əbu Əyyub ﷺ dedi: “Ey qardaş oğlu, bundan daha asanını sənə xəbər verimmi? Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: “Kim əmr olunduğu kimi gözəl şəkildə dəstəmaz alar, əmr olunduğu kimi namaz qılarsa keçmiş günahları bağışlanar”. Elədirmi, ey Uqbə?” Uqbə ibn Amir ﷺ: “Bəli”- dedi”.[214]

١٢٠ - أَنَّ أَبَا أَيُّوبَ الْأَنْصَارِيَّ ﷺ حَدَّثَهُ أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُولُ إِنَّ كُلَّ صَلَاةٍ تَحُطُّ مَا بَيْنَ يَدَيْهَا مِنْ خَطِيئَةٍ

120. Əbu Əyyub əl-Ənsari ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “Hər namaz, ondan əvvəl edilən günahlara kəffarədir”.[215]

١٢١ - أَنَّ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ رَأَى فَتىً وَهُوَ يُصَلِّي، وَقَدْ أَطَالَ صَلاَتَهُ وَأَطْنَبَ فِيهَا، فَقَالَ: مَنْ يَعْرِفُ هَذَا؟ فَقَالَ رَجُلٌ: أَنَا. فَقَالَ عَبْدُ اللَّهِ بْنُ عُمَرَ: لَوْ كُنْتُ أَعْرِفُهُ لأَمَرْتُهُ أَنْ يُطِيلَ الرُّكُوعَ وَالسُّجُودَ، فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ :«إنّ العَبْدَ إذا قامَ يُصَلِّي أتَي بِذُنوبِهِ كلِّها فوُضِعَتْ على رأْسِهِ وعاتِقَيْهِ فكُلَّما رَكَعَ أوْ سَجَدَ تَساقَطَتْ عنهُ».

121. (Bir gün) Abdullah ibn Ömər[216] ﷺ bir gəncin namazında (qiyamı) həddən artıq uzadaraq qıldığını gördü. O soruşdu: “Kim bunu tanıyır?” Bir

---

[213] Əhməd, 518. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 1668) səhih olduğunu bildirmişdir.

[214] ən-Nəsəi, 144, 145. əl-Albani səhih olduğunu bildirmişdir.

[215] Əhməd, 23503, 23550. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 2144) səhih olduğunu bildirmişdir.

[216] Əbu Abdur-Rahmən Abdullah ibn Ömər ibn Xəttab əl-Ədəvi əl-Qurəşi ﷺ Allah Elçisinin ﷺ azyaşlı səhabələrindəndir. Xəndək döyüşündə iştirak etmiş və ağac altında beyət edənlərdən olmuşdur. Ən çox hədis rəvayət edən yeddi səhabədən biridir. Hicrətin 73-cü ilində vəfat etmişdir.

kişi dedi: “Mən tanıyıram”. Abdullah ibn Ömər ﷺ dedi: “Əgər mən onu tanısaydım, ona rukunu və səcdəni uzatmağı buyurardım. Çünki, mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitmişəm: “Həqiqətən, qul namaza durduqda onun bütün günahları gətirilərək başının və hər iki çiyinlərinin üzərinə qoyulur. O, hər dəfə ruku və səcdə etdikdə günahları tökülür”.[217]

١٢٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: "مَنْ حَافَظَ عَلَى هَؤُلَاءِ الصَّلَوَاتِ الْمَكْتُوبَاتِ لَمْ يُكْتَبْ مِنَ الْغَافِلِينَ، وَمَنْ قَرَأَ فِي لَيْلَةٍ مِائَةَ آيَةٍ كُتِبَ مِنَ الْقَانِتِينَ"

122. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Kim bu fərz namazlarını öz vaxtlarında qılarsa, qafillərdən yazılmaz. Kim də gecə yüz ayə oxuyarsa, müti olanlardan yazılar”.[218]

CAMAAT NAMAZININ ADİ NAMAZDAN ÜSTÜNLÜYÜ

١٢٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِذَا أَمَّنَ الإِمَامُ فَأَمِّنُوا فَإِنَّهُ مَنْ وَافَقَ تَأْمِينُهُ تَأْمِينَ الْمَلاَئِكَةِ غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ»

123. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “İmam “Amin” deyəndə, siz də ”Amin” deyin! Bilin ki, kimin “Amin” deməsi mələklərin “Amin” deməsi ilə üst-üstə düşərsə, onun keçmiş günahları bağışlanar”.[219]

١٢٤ - عَنْ ابْنِ عُمَرَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ صَلَاةُ الْجَمَاعَةِ أَفْضَلُ مِنْ صَلَاةِ الْفَذِّ بِسَبْعٍ وَعِشْرِينَ دَرَجَةً

124. Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Camaatla qılınan namaz tək qılınan namazdan iyirmi yeddi dərəcə daha fəzilətlidir”.[220]

١٢٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: «صَلاَةُ الْجَمِيعِ تَزِيدُ عَلَى صَلاَتِهِ فِي بَيْتِهِ، وَصَلاَتِهِ فِي سُوقِهِ خَمْسًا وَعِشْرِينَ دَرَجَةً، فَإِنَّ أَحَدَكُمْ إِذَا تَوَضَّأَ فَأَحْسَنَ وَأَتَى الْمَسْجِدَ، لاَ يُرِيدُ إِلاَّ الصَّلاَةَ، لَمْ يَخْطُ خُطْوَةً إِلاَّ رَفَعَهُ اللَّهُ بِهَا

---

[217] İbn Hibban, 1734; Cəlaləddin əs-Suyuti “Cəmius-Sağir” 2062, 3157; əl-Beyhəqi “Sünənul-Kubra” 4473, 4884. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 1671) səhih olduğunu bildirmişdir.

[218] əl-Hakim, 1160. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib” (№ 1437) səhih olduğunu bildirmişdir.

[219] əl-Buxari, 780; Muslim, 912.

[220] Muslim, 1509; ən-Nəsəi, 837; ət-Tirmizi, 215.

دَرَجَةً، وَحَطَّ عَنْهُ خَطِيئَةً، حَتَّى يَدْخُلَ الْمَسْجِدَ، وَإِذَا دَخَلَ الْمَسْجِدَ كَانَ فِي صَلاَةٍ مَا كَانَتْ تَحْبِسُهُ، وَتُصَلِّي – يَعْنِي عَلَيْهِ – الْمَلاَئِكَةُ مَا دَامَ فِي مَجْلِسِهِ الَّذِي يُصَلِّي فِيهِ اللَّهُمَّ اغْفِرْ لَهُ، اللَّهُمَّ ارْحَمْهُ، مَا لَمْ يُحْدِثْ فِيهِ»

125. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "(İnsanın) camaatla qıldığı namazı öz evində və ya bazarda (fərdi şəkildə) qıldığı namazdan iyirmi beş dəfə artıqdır.[221] Çünki sizdən biri lazımı qaydada dəstəmaz alıb ancaq namaz qılmaq məqsədilə məscidə gəlsə, məscidə daxil olanadək atdığı hər addıma görə Allah onu bir dərəcə yüksəldər və onun bir günahını silər. Məscidə daxil olduqdan sonra orada qaldığı vaxt ərzində namazda olduğu kimi sayılar. Namazını qılacağı yerdə gözlədiyi vaxt ərzində, dəstəmazı pozulanadək mələklər: "Allahım, onu bağışla! Allahım, ona rəhm et!" - deyə onun üçün dua edərlər".[222]

١٢٦ - حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ عُمَرَ بْنِ الْخَطَّابِ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ إِنَّ اللَّهَ لَيَعْجَبُ مِنْ الصَّلَاةِ فِي الْجَمِيعِ

126. Abdullah ibn Ömər ibn əl-Xattab ﷺ demişdir: "Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: "Həqiqətən, Allah camaatla qılınan namaza təəccüblənir[223]".[224]

١٢٧ - عَنْ سَمُرَةَ بن جُنْدُب ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "إِذَا قَالَ الإِمَامُ: ﴿**غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ، وَلا الضَّالِّينَ**﴾ (الفاتحة: 7)، فَقُولُوا: آمِينَ، يُجِبْكُمُ اللَّهُ".

127. Səmura ibn Cundəb ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "***Ğeyril məğdubi aleyhim vələd-dallin***" (***Qəzəbə uğramışların və azmışların yoluna yox!)***" *(əl-Fatihə, 7)* - dedikdə, siz: "Amin"- deyin ki, Allah onu (Fatihə surəsinin əhatə etdiyi duanı) qəbul etsin".[225]

١٢٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «تَفْضُلُ صَلَاةُ الْجَمِيعِ صَلَاةَ أَحَدِكُمْ وَحْدَهُ بِخَمْسٍ

---

[221] Burada söhbət namazın savabından gedir.
[222] əl-Buxari, 477; Muslim, 1476.
[223] Allahın sifətlərinin necəliyi barəsində fikir yürütmək olmaz.
[224] Əhməd, 5112. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 406) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1652) həsən olduğunu bildirmişdir.
[225] ət-Tabərani "Mucəmul-Kəbir" 6748. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 516) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

وَعِشْرِينَ جُزْءًا، وَتَجْتَمِعُ مَلاَئِكَةُ اللَّيْلِ وَمَلاَئِكَةُ النَّهَارِ فِى صَلاَةِ الْفَجْرِ». يَقُولُ: فَاقْرَءُوا إِنْ شِئْتُمْ: ﴿**إِنَّ قُرْآنَ الْفَجْرِ كَانَ مَشْهُودًا**﴾

128. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "Mən Peyğəmbərin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: "Camaat namazı birinizin fərdi şəkildə qıldığı namazdan iyirmi beş dəfə üstündür. Gecə mələkləri ilə gündüz mələkləri Sübh namazında bir yerə toplaşırlar". (Əbu Hureyra ﷺ) dedi: "İstəyirsinizsə, (bu ayəni) oxuyun: ***"...Sübh çağı oxunan Quranın***[226] ***şahidləri olur".*** *(əl-İsra 78)*".[227]

١٢٩ - عَنْ أُبَيِّ بْنِ كَعْبٍ ﷺ قَالَ صَلَّى بِنَا رَسُولُ اللَّهِ ﷺ يَوْمًا الصُّبْحَ فَقَالَ «أَشَاهِدٌ فُلاَنٌ». قَالُوا لاَ. قَالَ «أَشَاهِدٌ فُلاَنٌ». قَالُوا لاَ. قَالَ «إِنَّ هَاتَيْنِ الصَّلاَتَيْنِ أَثْقَلُ الصَّلَوَاتِ عَلَى الْمُنَافِقِينَ وَلَوْ تَعْلَمُونَ مَا فِيهِمَا لأَتَيْتُمُوهُمَا وَلَوْ حَبْوًا عَلَى الرُّكَبِ وَإِنَّ الصَّفَّ الأَوَّلَ عَلَى مِثْلِ صَفِّ الْمَلاَئِكَةِ وَلَوْ عَلِمْتُمْ مَا فَضِيلَتُهُ لاَبْتَدَرْتُمُوهُ وَإِنَّ صَلاَةَ الرَّجُلِ مَعَ الرَّجُلِ أَزْكَى مِنْ صَلاَتِهِ وَحْدَهُ وَصَلاَتُهُ مَعَ الرَّجُلَيْنِ أَزْكَى مِنْ صَلاَتِهِ مَعَ الرَّجُلِ وَمَا كَثُرَ فَهُوَ أَحَبُّ إِلَى اللَّهِ تَعَالَى».

129. Ubeyy ibn Kəb[228] ﷺ rəvayət edir ki, bir gün Allah Elçisi sallәllahu aleyhi və sәlləm bizə Sübh namazını qıldırdı və soruşdu: "Filankəs buradadır?" (Səhabələr): "Xeyr!"- dedilər. Allah Elçisi sallәllahu aleyhi və sәlləm yenə soruşdu: "Bəs filankəs buradadır?" Oradakılar yenə: "Xeyr!"- dedilər. (Allah Elçisi sallәllahu aleyhi və sәlləm) buyurdu: "Bu iki namaz (İşa və Sübh) münafiqlərə ən ağır gələn namazlardır. Əgər onlar bu namazlardakı savabı bilsəydilər, dizləri üstündə imәkləyərək də olsa (bunları camaatla qılmaq üçün məscidə) gələrdilər. Həqiqətən, birinci səf mələklərin səfi kimidir. Siz birinci səfdəki fəziləti bilsəydiniz, onun üçün yarışardınız. Həqiqətən, bir adamın başqa bir adamla namaz qılması onun fərdi şəkildə namaz qılmasından, iki nəfərlə birlikdə qılması da, bir nəfərlə birlikdə qılmasından daha fəzilətlidir. (Namazda iştirak edənlərin sayı) nə qədər çox olarsa, Uca Allaha o qədər sevimli olar".[229]

١٣٠ - عَنْ عَبْدِ اللَّهِ بْنِ حُبْشِيٍّ الْخَثْعَمِيِّ ﷺ أَنَّ النَّبِيَّ ﷺ سُئِلَ أَىُّ الأَعْمَالِ أَفْضَلُ قَالَ «طُولُ الْقِيَامِ». قِيلَ فَأَىُّ الصَّدَقَةِ أَفْضَلُ قَالَ «جُهْدُ الْمُقِلِّ». قِيلَ فَأَىُّ الْهِجْرَةِ أَفْضَلُ قَالَ «مَنْ هَجَرَ مَا حَرَّمَ اللَّهُ عَلَيْهِ». قِيلَ فَأَىُّ الْجِهَادِ أَفْضَلُ قَالَ «مَنْ جَاهَدَ الْمُشْرِكِينَ بِمَالِهِ وَنَفْسِهِ». قِيلَ فَأَىُّ الْقَتْلِ أَشْرَفُ قَالَ «مَنْ أُهْرِيقَ دَمُهُ وَعُقِرَ جَوَادُهُ».

---

[226] Bu vaxt qılınan fəcr namazını gecə mələkləri ilə gündüz mələkləri müşahidə edirlər.

[227] əl-Buxari, 648; Muslim, 649, 1035.

[228] Ubeyy ibn Kəb əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 35-ci ilində vəfat etmişdir.

[229] Əbu Davud, 554. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.

130. Abdullah ibn Hubşi əl-Xasami ﷺ rəvayət edir ki, Peyğəmbərdən sallәllahu aleyhi və sәlləm soruşdular: “Ən fəzilətli əməl hansıdır?” O buyurdu: “Namazda qiyamın uzun olması”. Yenə soruşdular: “Ən fəzilətli sədəqə hansıdır?” O buyurdu: “Kasıb olduqda verilən sədəqə”. Yenə soruşdular: “Ən fəzilətli hicrət hansıdır?” O buyurdu: “Allahın haram buyurduğunu tərk etmək”. Yenə soruşdular: “Ən fəzilətli cihad hansıdır?” O buyurdu: “Malı və canı ilə müşriklərlə edilən cihad”. Yenə soruşdular: “Ən şərəfli ölüm hansıdır?” O buyurdu: “Qanı axıdılaraq və atı kəsilərək öldürülən”.[230]

CAMAATA SARILMAQ

١٣١ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما قَالَ خَطَبَنَا عُمَرُ ﷺ بِالْجَابِيَةِ فَقَالَ يَا أَيُّهَا النَّاسُ إِنِّى قُمْتُ فِيكُمْ كَمَقَامِ رَسُولِ اللَّهِ ﷺ فِينَا فَقَالَ «أُوصِيكُمْ بِأَصْحَابِى ثُمَّ الَّذِينَ يَلُونَهُمْ ثُمَّ الَّذِينَ يَلُونَهُمْ ثُمَّ يَفْشُو الْكَذِبُ حَتَّى يَحْلِفَ الرَّجُلُ وَلاَ يُسْتَحْلَفُ وَيَشْهَدَ الشَّاهِدُ وَلاَ يُسْتَشْهَدُ أَلاَ لاَ يَخْلُوَنَّ رَجُلٌ بِامْرَأَةٍ إِلاَّ كَانَ ثَالِثَهُمَا الشَّيْطَانُ عَلَيْكُمْ بِالْجَمَاعَةِ وَإِيَّاكُمْ وَالْفُرْقَةَ فَإِنَّ الشَّيْطَانَ مَعَ الْوَاحِدِ وَهُوَ مِنَ الاِثْنَيْنِ أَبْعَدُ مَنْ أَرَادَ بُحْبُوحَةَ الْجَنَّةِ فَلْيَلْزَمِ الْجَمَاعَةَ مَنْ سَرَّتْهُ حَسَنَتُهُ وَسَاءَتْهُ سَيِّئَتُهُ فَذَلِكَ الْمُؤْمِنُ».

131. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, (bir gün) Ömər ﷺ Cəbiyədə[231] bizə xütbə verərək belə dedi: “Ey insanlar! Allah Elçisinin sallәllahu aleyhi və sәlləm bizim aramızda durub xütbə söylədiyi kimi, mən də sizin aranızda durub xütbə söyləyirəm. Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: “Sizə səhabələrimin, sonra onların ardınca gələnlərin, sonra onların ardınca gələnlərin yolu ilə getməyi tövsiyə edirəm. Sonra gələn nəsillərdə yalan yayılacaqdır. O dərəcədə ki, bir kişidən and içmək tələb olunmadığı halda and içəcək. Şahidlik tələb olunmadığı halda şahidlik edəcək. Bir qadın bir kişi ilə təklikdə qalarsa, üçüncüsü şeytan olar. Camaatdan tutunun! Parçalanmadan çəkinin, çünki şeytan (camaata qatışmayıb) tək qalanla bərabər, (camaat olan) iki nəfərdən isə uzaqdır. Kim Cənnətin ən gözəl yerlərindən köşkə sahib olmaq istəyərsə, camaata sarılsın. Kimin savab işləri onu sevindirib, günahları kədərləndirirsə, o mömindir”.[232]

١٣٢ - عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «التَّحَدُّثُ بِنِعْمَةِ اللهِ شُكْرٌ وَتَرْكُهَا كُفْرٌ، وَمَنْ لاَ يَشْكُرُ الْقَلِيلَ لاَ يَشْكُرُ الْكَثِيرَ، وَمَنْ لاَ يَشْكُرُ النَّاسَ لاَ يَشْكُرُ اللهَ، وَالْجَمَاعَةُ بَرَكَةٌ وَالْفُرْقَةُ عَذَابٌ».

---

[230] Əbu Davud, 1451. əl-Albani səhih olduğunu bildirmişdir.

[231] Şamda yer adıdır.

[232] ət-Tirmizi, 2165, 2318. əl-Albani səhih olduğunu qeyd etmişdir.

132. Numən ibn Bəşir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allahın neməti barəsində danışmaq şükür, danışmamaq isə nankorluqdur. Aza şükür etməyən çoxa da şükür etməz. İnsanlara şükür etməyən, Allaha da şükür etməz. Camaat bərəkət, ayrılıq isə əzabdır".[233]

١٣٣ - عَنْ ابْنَ عَبَّاسٍ رضي الله عنهما عَنْ النَّبِيِّ ﷺ قَالَ: مَنْ رَأَى مِنْ أَمِيرِهِ شَيْئًا يَكْرَهُهُ فَلْيَصْبِرْ عَلَيْهِ فَإِنَّهُ مَنْ فَارَقَ الْجَمَاعَةَ شِبْرًا فَمَاتَ إِلاَّ مَاتَ مِيتَةً جَاهِلِيَّةً.

133. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Kim öz rəhbərinin xoşagəlməz bir hərəkətini görsə, qoy buna səbir etsin. Çünki kim (müsəlman) camaatından bircə qarış kənara çıxıb ölərsə, cahiliyyət dövründə olduğu kimi ölmüş olar".[234]

١٣٤ - عَنْ مُحَمَّدِ بْنِ جُبَيْرِ بْنِ مُطْعِمٍ عَنْ أَبِيهِ رضي الله عنه قَالَ قَامَ رَسُولُ اللَّهِ ﷺ بِالْخَيْفِ مِنْ مِنًى فَقَالَ «نَضَّرَ اللَّهُ امْرَأً سَمِعَ مَقَالَتِى فَبَلَّغَهَا فَرُبَّ حَامِلِ فِقْهٍ غَيْرُ فَقِيهٍ وَرُبَّ حَامِلِ فِقْهٍ إِلَى مَنْ هُوَ أَفْقَهُ مِنْهُ ثَلاَثٌ لاَ يُغِلُّ عَلَيْهِنَّ قَلْبُ مُؤْمِنٍ إِخْلاَصُ الْعَمَلِ لِلَّهِ وَالنَّصِيحَةُ لِوُلاَةِ الْمُسْلِمِينَ وَلُزُومُ جَمَاعَتِهِمْ فَإِنَّ دَعْوَتَهُمْ تُحِيطُ مِنْ وَرَائِهِمْ».

134. Muhəmməd ibn Cubeyr ibn Mutim atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm Minadakı Xeyf məscidində dedi: "Sözlərimi eşidib onu olduğu kimi çatdıranın Allah üzünü ağ etsin! Ola bilsin ki, hədisi daşıyan heç də anlayışlı olmasın. Ola bilsin ki, hədisi daşıyan onu daha anlayışlı olana ötürsün. Üç əməl vardır ki, onlara görə möminin qəlbində kin-küdurətə yer qalmaz; əməli yalnız Allah üçün etmək, müsəlmanların rəhbərlərinə nəsihət etmək və onların camaatına bağlı olmaq. Həqiqətən, onlar (rəhbərlər) üçün edilən hətta bir dua belə onların qorunmasına səbəbdir".[235]

CAMAAT NAMAZINI QIRX GÜN TƏRK ETMƏMƏK

١٣٥ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ صَلَّى لِلَّهِ أَرْبَعِينَ يَوْمًا فِى جَمَاعَةٍ يُدْرِكُ التَّكْبِيرَةَ الأُولَى كُتِبَتْ لَهُ بَرَاءَتَانِ بَرَاءَةٌ مِنَ النَّارِ وَبَرَاءَةٌ مِنَ النِّفَاقِ».

---

[233] İbn Əbi əd-Dunyə "əş-Şukur" 64; əl-Beyhəqi "Şuabul-İman" 4105, 4419. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3014) həsən olduğunu bildirmişdir.

[234] əl-Buxari, 7054; Muslim, 1849.

[235] İbn Məcə, 3056, 3172. əl-Albani səhih olduğunu bildirmişdir.

135. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Kim qırx gün birinci təkbirə çataraq camaatla namaz qılarsa, ona iki bəraət yazılar; Cəhənnəmdən və nifaqdan bəraət".[236]

CAMAAT NAMAZINI MƏSCİDDƏ QILMAQ NİYYƏTİ

١٣٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ تَوَضَّأَ فَأَحْسَنَ وُضُوءَهُ ثُمَّ رَاحَ فَوَجَدَ النَّاسَ قَدْ صَلَّوْا أَعْطَاهُ اللَّهُ ﷻ مِثْلَ أَجْرِ مَنْ صَلاَّهَا وَحَضَرَهَا لاَ يَنْقُصُ ذَلِكَ مِنْ أَجْرِهِمْ شَيْئًا».

136. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Kim gözəl bir şəkildə dəstəmaz alar, sonra məscidə gəlib insanların namazı bitirdiklərini görsə belə, Allah ﷻ ona namazda iştirak edənlərin savabına bərabər mükafat yazar və onların savabından heç bir şey əskilməz".[237]

١٣٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ إِذَا ثُوِّبَ لِلصَّلَاةِ فَلَا تَأْتُوهَا وَأَنْتُمْ تَسْعَوْنَ وَأْتُوهَا وَعَلَيْكُمْ السَّكِينَةُ فَمَا أَدْرَكْتُمْ فَصَلُّوا وَمَا فَاتَكُمْ فَأَتِمُّوا فَإِنَّ أَحَدَكُمْ إِذَا كَانَ يَعْمِدُ إِلَى الصَّلَاةِ فَهُوَ فِي صَلَاةٍ

137. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Namaz üçün iqamə deyildiyi zaman ona (namaza) qaçaraq gəlməyin, yeriyərək rahatlıqla gəlin. Çata bildiyinizi (imamla) qılın, çata bilmədiyinizi də özünüz tamamlayın. Çünki sizdən biriniz namaz qılmaq istədikdə (namaza getdikdə və ya oturub namazı gözlədikdə), namazda olmuş kimi sayılır".[238]

CAMAAT NAMAZLARINA GEDƏRƏK MƏSCİDLƏRİ ZİYARƏT EDƏNLƏR

١٣٨ - عَنْ أَنَسٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: «إِنَّ اللَّهَ لَيُنَادِي يَوْمَ الْقِيَامَةِ أَيْنَ جِيرَانِي؟ أَيْنَ جِيرَانِي؟ قَالَ فَتَقُولُ الْمَلَائِكَةُ رَبَّنَا وَمَنْ يَنْبَغِي أَنْ يُجَاوِرَكَ فَيَقُولُ أَيْنَ عُمَّارُ الْمَسَاجِدِ؟»

138. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, Allah Qiyamət günü belə müraciət edəcək: "Qonşularım hanı,

---

[236] ət-Tirmizi, 241. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6365) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2652) həsən olduğunu bildirmişdir.
[237] Əbu Davud, 564. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[238] Muslim, 602, 945, 1390.

qonşularım hanı?!" Mələklər deyəcəklər: "Ey Rəbbimiz! Sənə qonşu olmağa kim layiq ola bilər?" Allah buyuracaq: "Məscidləri ziyarət edənlər hanı?!"[239]

١٣٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: إِنَّ لِلْمَسَاجِدِ أَوْتَادًا الْمَلاَئِكَةُ جُلَسَاؤُهُمْ، إِنْ غَابُوا يَفْتَقِدُونَهُمْ، وَإِنْ مَرِضُوا عَادُوهُمْ، وَإِنْ كَانُوا فِي حَاجَةٍ أَعَانُوهُمْ. وَقَالَ: جَلِيسُ الْمَسْجِدِ عَلَى ثَلاَثِ خِصَالٍ: أَخٍ مُسْتَفَادٍ ، أَوْ كَلِمَةٍ مُحْكَمَةٍ ، أَوْ رَحْمَةٍ مُنْتَظَرَةٍ.

139. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Həqiqətən, daim məscidlərə gələn (insanlar) vardır ki, mələklər bu insanlarla oturub-durarlar. (Həmin insanlar) gəlmədikdə mələklər onları axtararlar. Xəstələndikdə (mələklər) onları ziyarət edər, hər hansı ehtiyacları olduqda isə onlara yardım edərlər". Sonra buyurdu: "Məsciddə oturan üç məqsədlə - qardaşından faydalanmaq, hikmətli söz eşitmək və ya Allahın rəhmətini gözləmək üçün oturar".[240]

١٤٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «مَا تَوَطَّنَ رَجُلٌ مُسْلِمٌ الْمَسَاجِدَ لِلصَّلاَةِ وَالذِّكْرِ إِلاَّ تَبَشْبَشَ اللَّهُ لَهُ كَمَا يَتَبَشْبَشُ أَهْلُ الْغَائِبِ بِغَائِبِهِمْ إِذَا قَدِمَ عَلَيْهِمْ».

140. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm belə buyurdu: "Əgər müsəlman bir kişi məscidləri özünə namaz qılmaq və zikr etmək üçün məskən edərsə, qohum-əqrabası uzaqdan gələni necə qarşılayırlarsa, Allah da onu elə qarşılayar".[241]

١٤١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ غَدَا إِلَى الْمَسْجِدِ وَرَاحَ أَعَدَّ اللَّهُ لَهُ نُزُلَهُ مِنَ الْجَنَّةِ كُلَّمَا غَدَا أَوْ رَاحَ»

141. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Kim səhər və axşamüstü məscidə gedərsə, hər gedişində Allah onun üçün Cənnətdə bir yer hazırlayar".[242]

---

[239] əl-Haris "Müsnəd" 126; Cəlaləddin əs-Suyuti "Cəmiul-Əhədis" 7341. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2728) səhih olduğunu bildirmişdir.
[240] Əhməd, 9414, 9424. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 329) həsən səhih olduğunu bildirib.
[241] İbn Məcə 800, 849. əl-Albani səhih olduğunu bildirmişdir.
[242] əl-Buxari 662; Muslim 285/ 669 (1073).

١٤٢ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «الْمَسْجِد بَيتُ كُلّ تَقِيّ».

142. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Məscid – hər bir təqvalı (qulun) evidir".[243]

١٤٣ - عَنْ سُلَيْمَان ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ تَوَضَّأَ فِي بَيْتِهِ فَأَحْسَنَ الْوضُوء ثُمَّ أَتَى الْمَسْجِدَ، فَهُوَ زَائِرٌ اللهِ، وَحَقٌّ عَلَى الْمَزُور أَنْ يُكْرِمَ الزَائِرَ».

143. Suleyman ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Evində gözəl bir şəkildə dəstəmaz aldıqdan sonra məscidə gələn Allahın ziyarətçisidir. Ziyarət edənə ehtiram göstərmək isə ziyarət olunanın üzərində bir haqdır".[244]

١٤٤ - عَنْ عُثْمَانَ بْنِ عَفَّانَ ﷺ أَنَّهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللهِ ﷺ يَقُولُ: "مَنْ تَوَضَّأَ فَأَسْبَغَ الْوُضُوءَ ثُمَّ مشى إِلَى صَلَاةٍ مَكْتُوبَةٍ فَصَلَّاهَا مَعَ الْإِمَامِ غُفِرَ لَهُ ذَنْبُهُ"

144. Osman ibn Əffan ﷺ demişdir: "Allah Elçisinin sallәllahu aleyhi və sәllәm belə dediyini eşitdim: "Kim kamil şəkildə dəstəmaz alar, sonra (məscidə) fərz namazını imamla qılmaq üçün gedərsə, günahı bağışlanar".[245]

١٤٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ أَبُو الْقَاسِمِ ﷺ: إِذَا تَوَضَّأَ أَحَدُكُمْ فِي بَيْتِهِ ثُمَّ أَتَى الْمَسْجِدَ كَانَ فِي صَلاَةٍ حَتَّى يَرْجِعَ، فَلاَ يَقُلْ هَكَذَا وَشَبَّكَ بَيْنَ أَصَابِعِهِ.

145. Əbu Hureyra ﷺ rəvayət edir ki, Əbul-Qasim (yəni Muhəmməd peyğəmbər sallәllahu aleyhi və sәllәm) demişdir: "Biriniz evində dəstəmaz alıb məscidə gələrsə, evinə qayıdana qədər namazda sayılar. Amma belə etməsin"- deyib əl barmaqlarını bir-birinə keçirdi".[246]

١٤٦ - عَنْ ميثم ﷺ رَجُلٌ مِنْ أَصْحَابِ رَسُوْلِ اللهِ ﷺ قَالَ: «بَلَغَنِي أَنَّ الْمَلَكَ يَغْدُو بِرَايَتِهِ مَعَ أَوَّل مِنْ يَغْدُو إِلَى الْمَسْجِد، فَلاَ يَزَالُ بِهَا مَعَهُ حَتَّى يَرْجِعَ فَيَدخُلَ بِهَا مَنْزِلَهُ، وَإِنَّ الشَّيْطَانَ يَغْدُو بِرَايَتِهِ إِلَى السُّوق مَعَ أَوَّل مَنْ يَغْدُو، فَلاَ

---

[243] əş-Şihab "Müsnəd" 72. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6702) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 716) həsən olduğunu bildirmişdir.

[244] ət-Tabərani "Mucəmul-Kəbir" 6139. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 322) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1169) səhih olduğunu bildirmişdir.

[245] İbn Xuzeymə, 1489. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 300) səhih olduğunu bildirmişdir.

[246] əl-Hakim, 744. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 446) səhih olduğunu bildirmişdir.

يَزَال بِهَا مَعَهُ حَتَّى يَرْجِعَ فَيُدخِلَها مَنْزِلَهُ».

146. Allah Elçisinin salləllahu aleyhi və səlləm səhabələrindən olan Meysəm ﷺ demişdir: “Mənə çatmışdır ki, mələk bayrağı ilə səhər məscidə birinci gedənlə yanaşı gedir və evinə qayıdıb girənədək mələk (bayrağı ilə) onun yanında olur. Həqiqətən, şeytan bayrağı ilə səhər bazara birinci gedənlə yanaşı gedir və o, evinə qayıdıb girənədək şeytan (bayrağı ilə) onun yanında olur”.[247]

١٤٧ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ أَنَّهُ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ مَشَى فِي ظُلْمَةِ اللَّيْلِ إِلَى الْمَسَاجِدِ لَقِيَ اللهَ ﷻ بِنُورٍ يَوْمَ الْقِيَامَةِ.

147. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: “Kim zülmət gecədə məscidlərə gedərsə, Qiyamət günü nur içində Allahla ﷻ görüşəcək”.[248]

١٤٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ تَطَهَّرَ فِي بَيْتِهِ ثُمَّ مَشَى إِلَى بَيْتٍ مِنْ بُيُوتِ اللَّهِ لِيَقْضِيَ فَرِيضَةً مِنْ فَرَائِضِ اللَّهِ كَانَتْ خَطْوَتَاهُ إِحْدَاهُمَا تَحُطُّ خَطِيئَةً وَالأُخْرَى تَرْفَعُ دَرَجَةً».

148. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm belə buyurdu: “Kim evində gözəl bir şəkildə dəstəmaz alar, sonra Allahın fərz namazlarından birini yerinə yetirmək üçün Allahın evlərindən birinə gedərsə, onun atdığı hər iki addımdan biri onun bir günahını silər, digəri isə onu bir dərəcə yüksəldər”.[249]

١٤٩ - عَنْ سَعِيدِ بْنِ الْمُسَيَّبِ ﷺ قَالَ حَضَرَ رَجُلاً مِنَ الأَنْصَارِ الْمَوْتُ فَقَالَ إِنِّي مُحَدِّثُكُمْ حَدِيثًا مَا أُحَدِّثُكُمُوهُ إِلاَّ احْتِسَابًا سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «إِذَا تَوَضَّأَ أَحَدُكُمْ فَأَحْسَنَ الْوُضُوءَ ثُمَّ خَرَجَ إِلَى الصَّلاَةِ لَمْ يَرْفَعْ قَدَمَهُ الْيُمْنَى إِلاَّ كَتَبَ اللَّهُ ﷻ لَهُ حَسَنَةً وَلَمْ يَضَعْ قَدَمَهُ الْيُسْرَى إِلاَّ حَطَّ اللَّهُ ﷻ عَنْهُ سَيِّئَةً فَلْيُقَرِّبْ أَحَدُكُمْ أَوْ لِيُبَعِّدْ فَإِنْ أَتَى الْمَسْجِدَ فَصَلَّى فِي جَمَاعَةٍ غُفِرَ لَهُ فَإِنْ أَتَى الْمَسْجِدَ وَقَدْ صَلَّوْا بَعْضًا وَبَقِيَ بَعْضٌ صَلَّى مَا أَدْرَكَ وَأَتَمَّ مَا بَقِيَ كَانَ كَذَلِكَ فَإِنْ أَتَى الْمَسْجِدَ وَقَدْ صَلَّوْا فَأَتَمَّ الصَّلاَةَ كَانَ كَذَلِكَ».

---

[247] İbn Əbu Asim, 2715, 2394. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 422) səhih məvquf olduğunu bildirmişdir.

[248] ət-Tabərani “Müsnəduş-Şəmiyyin” 3513, “Mucəmul-Kəbir” 1744, 1788. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 424) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[249] Muslim, 666, 1070, 1553.

149. Səid ibn Museyyib ﵀ rəvayət edir ki, Ənsardan olan bir kişi ölüm ayağında dedi: "Sizə bir hədis söyləyəcəyəm. Bu hədisi yalnız Allahdan mükafatını umduğuma görə söyləyirəm. Mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: "Biriniz gözəl şəkildə dəstəmaz aldıqdan sonra namaza gedərsə, hər dəfə sağ ayağını qaldırdıqda Allah ﷻ ona bir savab yazar və hər dəfə sol ayağını yerə basdıqda Allah ﷻ onun bir günahını silər. Qoy (məscidə gedən) addımlarını yaxınlaşdırsın, məscidə gəlib camaatla namaz qılarsa, günahları bağışlanar. Əgər namazın bir qismi artıq qılınmış halda məscidə gələrsə, yetişdiyini onlarla qılıb qalanını tamamlayarsa, o savaba nail olar. Əgər namaz qılınıb qurtaran zaman məscidə gələr və tək namaz qılarsa, yenə o savaba nail olar".[250]

١٥٠ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﵁: عَنْ رَسُوْلِ اللهِ ﷺ أَنَّهُ قَالَ: «إِذَا تَطَهَّرَ الرَّجُلُ، ثُمَّ أَتَى الْمَسْجِدَ يَرْعَى الصَّلَاةَ: كَتَبَ لَهُ كَاتِبَاهُ بِكُلِّ خُطْوَةٍ يَخْطُوهَا إِلَى الْمَسْجِدِ عَشْرَ حَسَنَاتٍ».

150. Uqbə ibn Amir ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Bir kişi dəstəmaz aldıqdan sonra namaz qılmaq üçün məscidə gedərsə, məscidə doğru atdığı hər addıma görə əməlləri yazan iki mələk onun üçün on savab yazar".[251]

١٥١ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو ﵄ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «مَنْ رَاحَ إِلَى مَسْجِدِ الْجَمَاعَةِ، فَخَطْوَةٌ تَمْحُو سَيِّئَةً، وَخَطْوَةٌ تُكْتَبُ لَهُ حَسَنَةٌ ذَاهِبًا وَرَاجِعًا».

151. Abdullah ibn Amr ﵄ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Kim camaatla (namaz qılmaq üçün) məscidə yollanarsa, gedib qayıdana qədər atdığı bir addım onun bir günahını silər, bir addıma görə də onun üçün bir savab yazılar".[252]

١٥٢ - عَنْ أَبِي أُمَامَةَ ﵁ عَنِ النَّبِيِّ ﷺ قَالَ: مَنْ مَشَى إِلَى صَلاةٍ مَكْتُوبَةٍ فِي الْجَمَاعَةِ، فَهِي كَحَجَّةٍ، وَمَنْ مَشَى إِلَى صَلاةِ تَطَوُّعٍ فَهِي كَعُمْرَةٍ نافلة (تَامَّةٍ)

152. Əbu Umamə ﵁ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kim fərz namazını camaatla qılmaq üçün piyada (məscidə)

[250] Əbu Davud, 563. əl-Albani səhih olduğunu bildirmişdir.
[251] İbn Hibban, 2043. əl-Albani səhih olduğunu bildirmişdir.
[252] İbn Hibban, 2037. əl-Albani həsən olduğunu bildirmişdir.

gedərsə, bu, həcc etmək kimidir. Kim nafilə namazını qılmaq üçün piyada (məscidə) gedərsə, bu, ümrə etmək kimidir".[253]

١٥٣ - عَنْ عُقْبَةَ بْنَ عَامِرٍ ﷺ يُحَدِّثُ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ إِذَا تَطَهَّرَ الرَّجُلُ ثُمَّ أَتَى الْمَسْجِدَ يَرْعَى الصَّلَاةَ كَتَبَ لَهُ كَاتِبَاهُ أَوْ كَاتِبُهُ بِكُلِّ خُطْوَةٍ يَخْطُوهَا إِلَى الْمَسْجِدِ عَشْرَ حَسَنَاتٍ وَالْقَاعِدُ يَرْعَى الصَّلَاةَ كَالْقَانِتِ وَيُكْتَبُ مِنْ الْمُصَلِّينَ مِنْ حِينِ يَخْرُجُ مِنْ بَيْتِهِ حَتَّى يَرْجِعَ إِلَيْهِ

153. Uqbə ibn Amir ﷺ deyir ki, bir dəfə Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Dəstəmaz alıb namaz qılmaq üçün məscidə gedən kişiyə əməllərini yazan iki və ya bir mələyi məscidə doğru atdığı hər addıma görə on savab yazır. (Məsciddə) oturaraq namazı gözləyən müti olan kimidir və evindən çıxıb qayıdanadək namaz qılanlardan yazılır".[254]

HƏR KƏS ÖZÜ ÜÇÜN QALADIĞI ODU SÖNDÜRSÜN!

١٥٤ - عَنْ عَبْدِ اللَّهِ بن مَسْعُودٍ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ: يُبْعَثُ مُنَادٍ عِنْدَ حَضْرَةِ كُلِّ صَلاةٍ، فَيَقُولُ: يَا بني آدَمَ، قُومُوا فَأَطْفِئُوا مَا أَوْقَدْتُمْ عَلَى أَنْفُسِكُمْ، فَيَقُومُونَ فَيَتَطَهَّرُونَ وَيُصَلُّونَ الظهر فَيُغْفَرُ لَهُمْ مَا بَيْنَهُمَا فَإِذَا حَضَرَتِ الْعَصْرُ فَمِثْلُ ذَلِكَ، فَإِذَا حَضَرَتِ الْمَغْرِبُ فَمِثْلُ ذَلِكَ، فَإِذَا حَضَرَتِ الْعَتَمَةُ فَمِثْلُ ذَلِكَ، فَيَنَامُونَ فَمُدْلِجٌ فِي خَيْرٍ، وَمُدْلِجٌ فِي شَرٍّ.

154. Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Allah hər bir namazın vaxtı gələndə bir carçı (mələk) göndərir və o belə deyir: "Ey Adəm oğulları, özünüz üçün qaladığınız (ocağı) söndürün!" Onlar ayağa qalxaraq dəstəmaz alıb Zöhr namazını qılırlar. (Beləcə) iki namaz arasında olan günahlar bağışlanır. Əsr, Məğrib və İşa namazının vaxtı gələndə də eynilə olur. Beləliklə, bəziləri xeyir içində, bəziləri isə zərər içindədirlər".[255]

NAMAZI GÖZLƏMƏK

١٥٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ «لاَ يَزَالُ الْعَبْدُ فِي صَلاَةٍ مَا كَانَ فِي الْمَسْجِدِ يَنْتَظِرُ الصَّلاَةَ، مَا لَمْ

[253] ət-Tabərani "Mucəmul-Kəbir" 7457. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6556) hədisin səhih olduğunu bildirmişdir.
[254] Əhməd, 17440, 17476. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 298) səhih olduğunu bildirmişdir.
[255] ət-Tabərani "Mucəmul-Kəbir" 10104, 10252. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 359) həsən olduğunu bildirmişdir.

يُحْدِثْ»

155. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Dəstəmazı pozulmadıqca məsciddə namazı gözlədiyi müddət ərzində qul namazda olduğu kimi sayılır".[256]

١٥٦ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ قَالَ: «الْقَاعِدُ عَلَى الصَّلاَةِ كَالقَانِتِ، وَيُكْتَبُ مِنَ الْمُصَلِّين، مِنْ حِيْن يَخْرُجُ مِنْ بَيْتِهِ حَتَّى يرجِعَ إِلَى بَيْتِهِ».

156. Uqbə ibn Amir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Evindən çıxıb evinə qayıdana qədər (məsciddə) oturaraq namazı gözləyən, namaz qılan mütilərdən yazılar".[257]

١٥٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «مُنْتَظِرِ الصَلاَة مِنْ بَعْدِ الصَّلاَةِ، كَفَارِسٍ اشْتَدَّ بِهِ فَرَسهُ فِي سَبِيلِ اللهِ عَلَى كَشحهِ، تُصَلِّي عَلَيهِ مَلاَئِكَةُ اللهِ مَالَمْ يُحْدِثْ أَوْ يَقُوم، وَهُوَ فِي الرِّبَاط الأَكْبَرِ».

157. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Bir namazdan sonra digər namazı gözləyən Allah yolunda atı ilə bərk çapan süvari kimidir. Onun dəstəmazı pozulmadıqca və ayağa durmadıqca Allahın mələkləri ona xeyir-dua edirlər. O, sərhəddə ən üstün keşik çəkməkdə sayılır".[258]

١٥٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «أَلاَ أُخْبِرُكُمْ بِمَا يَمْحُو اللَّهُ بِهِ الْخَطَايَا وَيَرْفَعُ بِهِ الدَّرَجَاتِ إِسْبَاغُ الْوُضُوءِ عَلَى الْمَكَارِهِ وَكَثْرَةُ الْخُطَا إِلَى الْمَسَاجِدِ وَانْتِظَارُ الصَّلاَةِ بَعْدَ الصَّلاَةِ فَذَلِكُمُ الرِّبَاطُ فَذَلِكُمُ الرِّبَاطُ فَذَلِكُمُ الرِّبَاطُ».

158. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Sizə Allahın günahları nə ilə sildiyini və dərəcələri nə ilə yüksəltdiyini xəbər verim? Çətin olsa belə kamil şəkildə dəstəmaz almaq, məscidlərə doğru addımları çoxaltmaq və bir namazdan sonra digər namazı gözləmək. Bunlar keşiyində durmağa layiq işlərdir! Bunlar keşiyində durmağa layiq işlərdir! Bunlar keşiyində durmağa layiq işlərdir!"[259]

---

[256] əl-Buxari, 176.

[257] İbn Hibban, 2036. əl-Albani səhih olduğunu bildirmişdir.

[258] Əhməd, 8610. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 450) həsən olduğunu bildirmişdir.

[259] ən-Nəsəi, 143, 144. əl-Albani səhih olduğunu bildirmişdir.

١٥٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺقَالَ لَا يَزَالُ أَحَدُكُمْ فِي صَلَاةٍ مَا دَامَتْ الصَّلَاةُ تَحْبِسُهُ لَا يَمْنَعُهُ أَنْ يَنْقَلِبَ إِلَى أَهْلِهِ إِلَّا الصَّلَاةُ

159. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurdu: "Sizdən biriniz (məsciddə) namazı gözlədiyi və evə qayıtmasının qarşısını yalnız namaz aldığı müddətdə namazda sayılır".[260]

SÜBH NAMAZININ FƏZİLƏTİ

١٦٠ - عَنْ جُنْدَبِ بْنِ سُفْيَانَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «مَنْ صَلَّى الصُّبْحَ فَهُوَ فِي ذِمَّةِ اللَّهِ فَلاَ تُخْفِرُوا اللَّهَ فِي ذِمَّتِهِ».

160. Cundəb ibn Sufyan ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm belə buyurdu: "Kim Sübh namazını qılarsa, Allahın himayəsi altında olar. Elə isə Allahın himayəsində olanın haqqını tapdalayaraq Allaha xəyanət etməyin".[261]

١٦١ - عن أنس ﷺ قال: قال رسول الله ﷺ: مَنْ صَلَّى الْفَجْرَ فِي جَمَاعَةٍ ثُمَّ قَعَدَ يَذْكُرُ اللهَ حَتَّى تَطْلُعَ الشَّمْسُ ثُمَّ صَلَّى رَكْعَتَيْنِ كانَتْ كَأَجْرِ حَجَّةٍ وَعُمْرَةٍ تَامَّةٍ تَامَّةٍ تَامَّةٍ

161. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurmuşdur: "Kim Sübh namazını camaatla qılar, sonra oturub günəş çıxana qədər Allahı zikr edər, sonra iki rükət namaz qılarsa, ona tam, tam, tam həcc və ümrə savabı yazılar".[262]

SÜBH VƏ ƏSR NAMAZLARINI QILAN CƏNNƏTƏ GİRƏR

١٦٢ - عَنْ أَبِي مُوسَى ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ صَلَّى الْبَرْدَيْنِ دَخَلَ الْجَنَّةَ».

162. Əbu Musa[263] ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Kim iki sərini (Sübh və Əsr namazlarını) qılarsa, Cənnətə girər".[264]

---

[260] Əhməd, 10308, 10313. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 7688) səhih olduğunu bildirmişdir.
[261] ət-Tirmizi, 222. əl-Albani bu hədisin səhih olduğunu bildirmişdir.
[262] İbn Həcər "Ravdatul-Muhəddisin" 4617. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6346) səhih olduğunu bildirmişdir.
[263] Əbu Musa Abdullah ibn Qeys ibn Suleym əl-Əşari ət-Təmimi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Ömərin ﷺ dövründə Bəsrənin, Osmanın ﷺ dövründə isə Kufənin valisi olmuşdur. Əbu Musa ﷺ hicrətin 42-ci ilində vəfat etmişdir.
[264] əl-Buxari, 574; Muslim, 635.

١٦٣ - عُمَارَةَ بْنِ رُؤَيْبَةَ عَنْ أَبِيهِ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ لَنْ يَلِجَ النَّارَ أَحَدٌ صَلَّى قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ غُرُوبِهَا يَعْنِي الْفَجْرَ وَالْعَصْرَ

163. Uməra ibn Rueybə atasından ﷺ rəvayət edir ki, o, Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə buyurduğunu eşitmişdir: "Günəş doğmadan və batmadan əvvəl Sübh və Əsr namazlarını qılan kimsə Cəhənnəm oduna girməz!"[265]

MƏĞRİB NAMAZINI VAXTINDA QILMAQ

١٦٤ - عَنْ مَرْثَدِ بْنِ عَبْدِ اللَّهِ قَالَ لَمَّا قَدِمَ عَلَيْنَا أَبُو أَيُّوبَ غَازِيًا وَعُقْبَةُ بْنُ عَامِرٍ يَوْمَئِذٍ عَلَى مِصْرَ فَأَخَّرَ الْمَغْرِبَ فَقَامَ إِلَيْهِ أَبُو أَيُّوبَ فَقَالَ لَهُ: مَا هَذِهِ الصَّلَاةُ يَا عُقْبَةُ؟ فَقَالَ: شُغِلْنَا. قَالَ: أَمَا سَمِعْتَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «لاَ تَزَالُ أُمَّتِي بِخَيْرٍ – أَوْ قَالَ عَلَى الْفِطْرَةِ – مَا لَمْ يُؤَخِّرُوا الْمَغْرِبَ إِلَى أَنْ تَشْتَبِكَ النُّجُومُ»

164. Mərsəd ibn Adbullah demişdir: "Əbu Əyyub ﷺ cihad üçün bizim yanımıza gələndə Uqbə ibn Amir ﷺ həmin vaxt Misir valisi idi. O, Məğrib namazını gecikdirdi. Əbu Əyyub ﷺ durub ona dedi: "Bu nə namazdır, ey Uqbə?" O dedi: "Başımız qarışdı". Əbu Əyyub ﷺ dedi: "Məgər Allah Elçisinin sallәllahu aleyhi və sәlləm: "Nə qədər ki, ümmətim Məğrib namazını ulduzlar görsənən vaxta qədər gecikdirməyiblər, xeyir içində yaxud fitrət üzərində olacaqlar"- buyurduğunu eşitməmisən?!"[266]

İŞA VƏ SÜBH NAMAZLARINI CAMAATLA QILMAQ

١٦٥ - عَنْ عُثْمَانَ بْنِ عَفَّان ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ صَلَّى الْعِشَاءَ وَالْفَجْرَ فِي جَمَاعَةٍ، كَانَ كَقِيَامِ لَيْلَةٍ».

165. Osman ibn Affan ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Kim İşa və Sübh namazlarını camatla qılarsa, gecəni namaz qılmış kimi sayılar".[267]

١٦٦ - دَخَلَ عُثْمَانُ بْنُ عَفَّانَ ﷺ الْمَسْجِدَ بَعْدَ صَلَاةِ الْمَغْرِبِ فَقَعَدَ وَحْدَهُ فَقَعَدْتُ إِلَيْهِ فَقَالَ يَا ابْنَ أَخِي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ مَنْ صَلَّى الْعِشَاءَ فِي جَمَاعَةٍ فَكَأَنَّمَا قَامَ نِصْفَ اللَّيْلِ وَمَنْ صَلَّى الصُّبْحَ فِي جَمَاعَةٍ فَكَأَنَّمَا صَلَّى اللَّيْلَ كُلَّهُ

[265] Muslim, 634, 1003, 1468.
[266] Əbu Davud, 418. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[267] İbn Hibban, 2056. əl-Albani səhih olduğunu bildirmişdir.

166. Osman ibn Əffan ﷺ edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Kim İşa namazını camaatla qılarsa, gecənin yarısını namaz qılmış kimidir. Kim də Sübh namazını camaatla qılarsa, bütün gecəni namaz qılmış kimidir".[268]

١٦٧ - عَنْ بُرَيْدَةَ الأَسْلَمِيِّ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «بَشِّرِ الْمَشَّائِينَ فِى الظُّلَمِ إِلَى الْمَسَاجِدِ بِالنُّورِ التَّامِّ يَوْمَ الْقِيَامَةِ».

167. Bureydə əl-Əsləmi ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: "Zülmət qaranlıqda (Sübh və İşa namazları vaxtı) məscidlərə gedənləri Qiyamət günü tam bir nur saçacaqları ilə müjdələ!"[269]

İŞA NAMAZININ FƏZİLƏTİ

١٦٨ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ قَالَ صَلَّيْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ الْمَغْرِبَ فَرَجَعَ مَنْ رَجَعَ وَعَقَّبَ مَنْ عَقَّبَ فَجَاءَ رَسُولُ اللَّهِ ﷺ مُسْرِعًا قَدْ حَفَزَهُ النَّفَسُ و قَدْ حَسَرَ عَنْ رُكْبَتَيْهِ فَقَالَ «أَبْشِرُوا هَذَا رَبُّكُمْ قَدْ فَتَحَ بَابًا مِنْ أَبْوَابِ السَّمَاءِ يُبَاهِى بِكُمُ الْمَلاَئِكَةَ يَقُولُ انْظُرُوا إِلَى عِبَادِى قَدْ قَضَوْا فَرِيضَةً وَهُمْ يَنْتَظِرُونَ أُخْرَى»

168. Abdullah ibn Amr ﷺ demişdir: "Biz Allah Elçisi sallallahu aleyhi və səlləm ilə birlikdə Məğrib namazını qıldıqdan sonra bizdən gedən getdi, qalan da qaldı. Birdən Allah Elçisi sallallahu aleyhi və səlləm təngənəfəs və dizləri açıq halda tələsik gəldi və dedi: "Sizə müjdə olsun! Budur, Rəbbiniz səma qapılarından birini açmış, mələklərin qarşısında sizinlə öyünərək buyurur: "Qullarıma baxın! Artıq bir fərzi yerinə yetirib digərini gözləyirlər!"[270]

١٦٩ - عَنْ أَنَسٍ ﷺ قَالَ أَخَّرَ النَّبِيُّ ﷺ صَلاَةَ الْعِشَاءِ إِلَى نِصْفِ اللَّيْلِ، ثُمَّ صَلَّى ثُمَّ قَالَ «قَدْ صَلَّى النَّاسُ وَنَامُوا، أَمَا إِنَّكُمْ فِى صَلاَةٍ مَا انْتَظَرْتُمُوهَا» .

169. Ənəs ﷺ buyurur ki, bir dəfə Peyğəmbər sallallahu aleyhi və səlləm İşa namazını gecənin yarısına qədər gecikdirdi. Sonra namazı qıldırdı və buyurdu: "İnsanlar namaz qılıb yatdılar. Siz isə namazı gözlədikcə, namazda sayılırsınız".[271]

---

[268] Muslim, 656, 1049, 1523.
[269] ət-Tirmizi, 223. əl-Albani səhih olduğunu bildirmişdir.
[270] İbn Məcə, 801, 850. əl-Albani səhih olduğunu bildirmişdir.
[271] əl-Buxari, 572, 661.

KƏFFARƏLƏR

١٧٠ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ بِطُولِهِ وَقَالَ «إِنِّي نَعَسْتُ فَاسْتَثْقَلْتُ نَوْمًا فَرَأَيْتُ رَبِّي فِي أَحْسَنِ صُورَةٍ فَقَالَ فِيمَ يَخْتَصِمُ الْمَلأُ الأَعْلَى». حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ حَدَّثَنَا مُعَاذُ بْنُ هَانِئٍ أَبُو هَانِئٍ الْبَشْكُرِيُّ حَدَّثَنَا جَهْضَمُ بْنُ عَبْدِ اللَّهِ عَنْ يَحْيَى بْنِ أَبِي كَثِيرٍ عَنْ زَيْدِ بْنِ سَلاَّمٍ عَنْ أَبِي سَلاَّمٍ عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَائِشٍ الْحَضْرَمِيِّ أَنَّهُ حَدَّثَهُ عَنْ مَالِكِ بْنِ يُخَامِرَ السَّكْسَكِيِّ عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ قَالَ احْتُبِسَ عَنَّا رَسُولُ اللَّهِ ﷺ ذَاتَ غَدَاةٍ عَنْ صَلاَةِ الصُّبْحِ حَتَّى كِدْنَا نَتَرَاءَى عَيْنَ الشَّمْسِ فَخَرَجَ سَرِيعًا فَثُوِّبَ بِالصَّلاَةِ فَصَلَّى رَسُولُ اللَّهِ ﷺ وَتَجَوَّزَ فِي صَلاَتِهِ فَلَمَّا سَلَّمَ دَعَا بِصَوْتِهِ قَالَ لَنَا «عَلَى مَصَافِّكُمْ كَمَا أَنْتُمْ». ثُمَّ انْفَتَلَ إِلَيْنَا ثُمَّ قَالَ «أَمَا إِنِّي سَأُحَدِّثُكُمْ مَا حَبَسَنِي عَنْكُمُ الْغَدَاةَ إِنِّي قُمْتُ مِنَ اللَّيْلِ فَتَوَضَّأْتُ وَصَلَّيْتُ مَا قُدِّرَ لِي فَنَعَسْتُ فِي صَلاَتِي حَتَّى اسْتَثْقَلْتُ فَإِذَا أَنَا بِرَبِّي تَبَارَكَ وَتَعَالَى فِي أَحْسَنِ صُورَةٍ فَقَالَ يَا مُحَمَّدُ. قُلْتُ لَبَّيْكَ رَبِّ. قَالَ فِيمَ يَخْتَصِمُ الْمَلأُ الأَعْلَى قُلْتُ لاَ أَدْرِي. قَالَهَا ثَلاَثًا قَالَ فَرَأَيْتُهُ وَضَعَ كَفَّهُ بَيْنَ كَتِفَيَّ حَتَّى وَجَدْتُ بَرْدَ أَنَامِلِهِ بَيْنَ ثَدْيَيَّ فَتَجَلَّى لِي كُلُّ شَيْءٍ وَعَرَفْتُ فَقَالَ يَا مُحَمَّدُ. قُلْتُ لَبَّيْكَ رَبِّ قَالَ فِيمَ يَخْتَصِمُ الْمَلأُ الأَعْلَى قُلْتُ فِي الْكَفَّارَاتِ قَالَ مَا هُنَّ قُلْتُ مَشْيُ الأَقْدَامِ إِلَى الْجَمَاعَاتِ وَالْجُلُوسُ فِي الْمَسَاجِدِ بَعْدَ الصَّلَوَاتِ وَإِسْبَاغُ الْوُضُوءِ فِي الْمَكْرُوهَاتِ. قَالَ فِيمَ قُلْتُ إِطْعَامُ الطَّعَامِ وَلِينُ الْكَلاَمِ وَالصَّلاَةُ بِاللَّيْلِ وَالنَّاسُ نِيَامٌ. قَالَ سَلْ. قُلْتُ اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ فِعْلَ الْخَيْرَاتِ وَتَرْكَ الْمُنْكَرَاتِ وَحُبَّ الْمَسَاكِينِ وَأَنْ تَغْفِرَ لِي وَتَرْحَمَنِي وَإِذَا أَرَدْتَ فِتْنَةَ قَوْمٍ فَتَوَفَّنِي غَيْرَ مَفْتُونٍ أَسْأَلُكَ حُبَّكَ وَحُبَّ مَنْ يُحِبُّكَ وَحُبَّ عَمَلٍ يُقَرِّبُ إِلَى حُبِّكَ». قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّهَا حَقٌّ فَادْرُسُوهَا ثُمَّ تَعَلَّمُوهَا»

170. Muaz ibn Cəbəl ﷺ demişdir: “(Bir dəfə) Allah Elçisi sallallahu aleyhi və səlləm Sübh namazına gecikirdi, hətta az qala günəş çıxacaqdı. Birdən tələsik gəldi və namaza iqamə verildi. Allah Elçisi sallallahu aleyhi və səlləm namazı yüngül qıldırdı. Salam verdikdən sonra uca səslə: “Sıralarda olduğunuz kimi qalın!”- dedi. Sonra bizə tərəf dönərək buyurdu: “Sübhə gecikməyimin səbəbini sizə söyləyəcəyəm. Gecə qalxıb dəstəmaz aldım və mənə təqdir olunan qədər namaz qıldım. Birdən namazımda mürgülədim, hətta yuxum ağırlaşdı və mən bu arada Uca Rəbbimi ən gözəl surətdə gördüm. O buyurdu: “Ey Muhəmməd!” Mən dedim: “Əmrinə müntəzirəm, ey Rəbbim!” Allah buyurdu: “Mələklər nə haqda mübahisə edirlər?” Mən dedim: “Bilmirəm!” Bunu üç dəfə təkrarladı. Gördüm ki, əlini kürəyimin arasına qoydu, hətta barmaqlarının uclarının sərinliyini sinəmdə hiss etdim. Hər şey mənə göründü və hər şeyi bildim. Allah buyurdu: “Ey Muhəmməd!” Mən dedim: “Əmrinə müntəzirəm, ey Rəbbim!” Allah buyurdu: “Mələklər nə haqda mübahisə edirlər?” Mən dedim: “Kəffarələr[272] haqqında”. O buyurdu: “Nədir onlar?” Mən dedim: “Camaat namazlarına piyada getmək, namazlardan sonra məscidlərdə oturub növbəti

[272] Kəffarə - günahın əvəzinə keçən, günahları yuyan əməllər mənasında işlədilir.

namazı gözləmək, soyuqda dəstəmazı tam almaq". Allah buyurdu: "Sonra nə haqda?" Mən dedim: "Yemək yedirtmək, mülayim söz söyləmək, insanlar yatdığı vaxt namaz qılmaq". Allah buyurdu: "İstə!" Mən dedim: "Allahım! Səndən xeyir işlər görməyi, pis işlərdən uzaq olmağı, kasıbları sevməyi, məni bağışlamağını, mənə rəhm etməyini və hər hansı bir qövmü fitnəyə salmaq istədikdə, fitnəyə düşməmiş canımı almağını diləyirəm. Səndən Sənin və Səni sevənin məhəbbətini qazanmağımı və məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyi istəyirəm".[273] Allah Elçisi sallәllahu aleyhi və sәllәm dedi: "Bu yuxu haqdır, bunları yaxşıca öyrənin".[274]

١٧١ - عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِسْبَاغُ الوضُوءِ عَلَى الْمَكَارِهِ وَإِعْمَالُ الأَقْدَامِ إِلَى الْمَسَاجِدِ، وَانْتِظَارُ الصَّلاَةِ بَعْدَ الصَّلاَةِ يَغْسِلُ الْخَطَايَا غَسْلاً».

171. Əli ibn Əbu Talib ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Çətin şəraitdə[275] dəstəmazı kamil şəkildə almaq, məscidə piyada getmək və bir namazdan sonra digər namazı gözləmək günahları yuyub aparır".[276]

١٧٢ - عَنْ أَنَس ﷺ عَن النَّبِيِّ ﷺ أنه قال: ثلاث كفارات وثلاث درجات وثلاث منجيات وثلاث مهلكات فأما الكفارات: فإسباغ الوضوء في السبرات وانتظار الصلوات بعد الصلوات ونقل الأقدام إلى الجمعات وأما الدرجات: فإطعام الطعام وإفشاء السلام والصلاة بالليل والناس نيام وأما المنجيات: فالعدل في الغضب والرضا والقصد في الفقر والغني وخشية الله في السر والعلانية وأما المهلكات فشح مطاع وهوي متبع وإعجاب المرء بنفسه.

172. Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Üç kəffarə, üç dərəcə, üç xilas olma və üç həlak vardır. Kəffarələrə gəlincə, bu, çətin vəziyyətdə dəstəmazı kamil şəkildə almaq, bir namazdan sonra digər namazı gözləmək və camaatla (namaz qılmaq) üçün addımları çoxaltmaqdır. Dərəcələrə gəlincə, bu, yemək yedizdirmək, salamı yaymaq və gecə insanlar yatarkən namaz qılmaqdır. Xilas olmağa gəlincə, bu, qəzəb və razılıq anında ədalətli olmaq, kasıblıqda da, zənginlikdə də mötədil olmaq, gizlində də, aşkarda da Allahdan qorxmaqdır. Həlak olmağa

---

[273] Transkripsiyası: Allahummə inni əs'ələukə fi'ləl-xeyrati va tərkəl-munkərati va hubbəl məsəkini va ən təğfira li və tərhəməni va izə əradtə fitnətə qaumin fətəvaffəni ğeyra məftunin. Əs'ələukə hubbəkə va hubbə mən yuhibbukə və hubbə amələin yuqarribu ilə hubbikə.

[274] ət-Tirmizi, 3235, 3543. əl-Albani səhih olduğunu bildirmişdir.

[275] Yəni, soyuq və ya xəstəlik səbəbilə.

[276] əl-Hakim, 456. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 926) səhih olduğunu bildirmişdir.

gəlincə, bu, xəsis olmaq, nəfsə uymaq və özünü bəyənməkdir".[277]

MƏSCİDƏ UZAQ YERDƏN GƏLMƏK

١٧٣ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ كَانَتِ الأَنْصَارُ بَعِيدَةً مَنَازِلُهُمْ مِنَ الْمَسْجِدِ فَأَرَادُوا أَنْ يَقْتَرِبُوا فَنَزَلَتْ ﴿**وَنَكْتُبُ مَا قَدَّمُوا وَآثَارَهُمْ**﴾ قَالَ فَثَبَتُوا.

173. İbn Abbas ﷺ demişdir: "Ənsarların evləri məsciddən uzaq idi və onlar (məscidə) yaxın köçmək istəyirdilər. Ona görə bu ayə nazil oldu: ***"Onların bu dünyada törətdiklərini və tərk etdiklərini yazan Bizik"*** *(Yasin, 12)* - və onlar yerlərində qaldılar".[278]

١٧٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الأَبْعَدُ فَالأَبْعَدُ مِنَ الْمَسْجِدِ أَعْظَمُ أَجْرًا».

174. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Məscidə ən uzaq yerdən gələnin mükafatı daha böyükdür".[279]

١٧٥ - عَنْ أَبِي مُوسَى ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «أَعْظَمُ النَّاسِ أَجْرًا فِي الصَّلاَةِ أَبْعَدُهُمْ فَأَبْعَدُهُمْ مَمْشًى، وَالَّذِي يَنْتَظِرُ الصَّلاَةَ حَتَّى يُصَلِّيَهَا مَعَ الإِمَامِ أَعْظَمُ أَجْرًا مِنَ الَّذِي يُصَلِّي ثُمَّ يَنَامُ».

175. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "(Camaatla birlikdə) namaz qıldıqlarına görə ən böyük mükafatı o kəslər qazanırlar ki, onlar (məscidə gələndə) ən uzaq məsafəni qət edirlər. İmamla birgə namaz qılmaq üçün namazı gözləyənin mükafatı isə namazı qılan kimi yıxılıb-yatan kimsənin mükafatından daha böyükdür".[280]

İMAMIN QILDIRDIĞI NAMAZ

١٧٦ - حَدَّثَنَا أَبُو حَازِمٍ قَالَ: كَانَ سَهْلُ بْنُ سَعْدٍ السَّاعِدِيُّ يُقَدِّمُ فِتْيَانَ قَوْمِهِ يُصَلُّونَ بِهِمْ فَقِيلَ لَهُ: تَفْعَلُ وَلَكَ مِنَ الْقِدَمِ مَا لَكَ؟ قَالَ: إِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «الإِمَامُ ضَامِنٌ فَإِنْ أَحْسَنَ فَلَهُ وَلَهُمْ وَإِنْ أَسَاءَ - يَعْنِي - فَعَلَيْهِ وَلاَ عَلَيْهِمْ».

---

[277] əl-Bəzzar, 6491. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 453) həsən li-ğeyrihi olduğunu bildirmişdir.
[278] İbn Məcə, 785, 834. əl-Albani səhih olduğunu bildirmişdir.
[279] Əbu Davud, 556. əl-Albani səhih olduğunu bildirmişdir.
[280] əl-Buxari, 651; Muslim, 662.

176. Əbu Həzim rəvayət edərək buyurur: "Səhl ibn Səd əs-Səidi ﷺ qövmünün gənclərini namaz qıldırmaq üçün önə keçirərdi. Soruşdular: "Sən yaşlı olduğun halda nəyə görə belə edirsən?" O, belə cavab verdi: "Mən Allah Elçisinin sallәllahu aleyhi və sәllәm belə buyurduğunu eşitdim: "İmam zamindir. Əgər o, (imamlığı) yaxşı edərsə, həm ona, həm də qılanlara savab yazılar. Yox, əgər o, (imamlığı) yaxşı etməzsə, ona (günah) yazılar, qılanlara isə yazılmaz".[281]

١٧٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «يُصَلُّونَ لَكُمْ، فَإِنْ أَصَابُوا فَلَكُمْ، وَإِنْ أَخْطَئُوا فَلَكُمْ وَعَلَيْهِمْ».

177. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "İmamlar sizə namaz qıldırırlar. Əgər (namazı) düzgün qıldırarlarsa, sizə savab çatar və əgər səhvə yol verərlərsə, sizə (yenə də savab) çatar, (bunun günahı isə) onların öz əleyhinə olar".[282]

١٧٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «الإِمَامُ ضَامِنٌ، وَالْمُؤَذِّنُ مُؤْتَمَنٌ، فَأَرْشَدَ اللهُ الأَئِمَّةَ، وَغَفَرَ لِلْمُؤَذِّنِينَ».

178. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "İmam zamin, müəzzin isə etibar olunandır. Allah imamları doğru yola yönəltsin, müəzzinləri də bağışlasın!"[283]

١٧٩ - عَنْ قَبَّاتِ بْنِ أَشْيَم ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «صَلاَةُ رَجُلَيْنِ يَؤُمُّ أَحَدهُمَا صَاحِبَهُ، أَزْكَى عِنْدَ اللهِ مِنْ صَلاَةِ أَرْبَعَةٍ تَتْرَى صلاَةُ أَرْبَعَهٍ يَؤمّهُمْ أَحَدهُمْ، أَزْكَى عِنْدَ اللهِ مِنْ صَلاَةِ ثَمَانِيَةٍ تَتْرَى، وَصَلاَةُ ثَمَانِيَة يَؤمّهُمْ أَحَدهُمْ، أَزْكَى عِنْدَ اللهِ مِنْ صَلاَةِ مِئَة تَتْرَى».

179. Qabbət ibn Əşyəm ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "İki kişinin biri imam duraraq namaz qılmaları, dörd nəfərin ayrılıqda qıldıqları namazdan daha üstündür. Dörd kişinin biri imam duraraq namaz qılmaları, səkkiz nəfərin ayrılıqda qıldıqları namazdan daha üstündür. Səkkiz kişinin biri imam duraraq namaz qılmaları isə yüz nəfərin ayrılıqda qıldıqları namazdan daha üstündür".[284]

---

[281] İbn Məcə, 981. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[282] əl-Buxari, 694.
[283] İbn Hibban, 1670. əl-Albani səhih olduğunu bildirmişdir.
[284] əl-Beyhəqi "Sunənul-Kubra" 4745. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3836) həsən olduğunu bildirmişdir.

VAXTINDA QILINAN NAMAZ

١٨٠ - عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ ﷺ قَالَ: سَأَلْتُ رَسُولَ اللَّهِ ﷺ: أَيُّ الْعَمَلِ أَفْضَلُ؟ قَالَ: «الصَّلاَةُ لِوَقْتِهَا» قَالَ: قُلْتُ: ثُمَّ أَيٌّ؟ قَالَ: «بِرُّ الْوَالِدَيْنِ» قَالَ: قُلْتُ: ثُمَّ أَيٌّ؟ قَالَ: «الْجِهَادُ فِي سَبِيلِ اللَّهِ» فَمَا تَرَكْتُ أَسْتَزِيدُهُ إِلاَّ إِرْعَاءً عَلَيْهِ.

180. Abdullah ibn Məsud ﷺ demişdir: "Mən Peyğəmbərdən sallallahu aleyhi və səlləm soruşdum: "Hansı əməl daha fəzilətli sayılır?" O buyurdu: "Namazı vaxtlı-vaxtında qılmaq". Mən soruşdum: "Sonra hansıdır?" O buyurdu: "Valideynlərin qayğısına qalmaq". Mən soruşdum: "Bəs sonra hansıdır?" O buyurdu: "Allah yolunda cihad etmək". Mən onu yormaq istəmədiyim üçün ona bundan artıq sual vermədim".[285]

ÇÖLLÜKDƏ QILINAN NAMAZ

١٨١ - عَنْ سَلْمَانَ الْفَارِسِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِذَا كَانَ الرَّجُلُ بِأَرْضٍ قِيٍّ فَحَانَتِ الصَّلاَة، فَلْيَتَوضَّأْ فَإِن لَمْ يَجِد مَاءَ فَلْيَتَيَمَّم، فَإِن أَقَامَ صَلَّى مَعَهُ مَلَكَاه، وَإِنْ أَذَّنَ وَأَقَامَ صَلَّى خَلْفَهُ مِنْ جُنُودِ اللهِ مَا لاَ يَرَى طَرَفَاهُ».

181. Salman əl-Farisi[286] ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kişi çöllükdə olarkən namazın vaxtı girərsə, dəstəmaz alsın, su tapmadıqda isə təyəmmüm etsin. Namaza iqamə verəndə, onun iki mələyi də onunla namaz qılar. Əgər azan oxuyub iqamə verərsə, arxasında ucu-bucağı görünməyən Allah orduları namaz qılar".[287]

١٨٢ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «صَلاَةُ الرَّجُلِ فِي جَمَاعَةٍ تَزِيدُ عَلَى صَلاَتِهِ وَحْدَهُ خَمْساً وَعِشْرِينَ دَرَجَةً فَإِذَا صَلاَّهَا بِأَرْضٍ فَلاَةٍ فَأَتَمَّ وُضُوءَهَا وَرُكُوعَهَا وَسُجُودَهَا بَلَغَتْ صَلاَتُهُ خَمْسِينَ دَرَجَةً»

182. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Bir kişinin camaatla qıldığı namazı tək qıldığı namazından iyirmi beş dərəcə üstündür. Namazın dəstəmazına, rukusuna və səcdələrinə tam riayət edərək səhrada qıldığı namaz isə əlli dərəcə üstün olar".[288]

---

[285] Muslim, 252.

[286] Əbu Abdullah Salman əl-Farisi ﷺ Peyğəmbərin ﷺ səhabələrindən olub. Hicrətin 35-ci ilində Mədaində vəfat etmişdir.

[287] Abdur-Razzaq "Musannəf" 1955. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 414) səhih olduğunu bildirmişdir.

[288] Abd ibn Humeyd "Müsnəd" 976. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3824) səhih olduğunu bildirmişdir.

NAMAZ VACİBDİR

١٨٣ - عَنْ عُثْمَانَ بْنِ عَفَّانَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: «مَنْ عَلِمَ أَنَّ الصَّلَاةَ حَقٌّ وَاجِبٌ دَخَلَ الْجَنَّةَ».

183. Osman ibn Əffan ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurmuşdur: "Kim namazın vacib haqq olduğunu bilərsə, Cənnətə daxil olar".[289]

١٨٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «الصَّلَاةُ ثَلَاثَةُ أَثْلَاثٍ، الطُّهُورُ ثُلثٌ، وَالرُّكُوعُ ثُلُثٌ، وَالسُّجُودُ ثُلُثٌ؛ فَمَنْ أَدَّاهَا بِحَقِّهَا قُبِلَتْ مِنْهُ، وَقُبِلَ مِنْهُ سَائِرُ عَمَلِهِ، وَمَنْ رُدَّتْ عَلَيْهِ صَلَاتُهُ، رُدَّ عَلَيْهِ سَائِرُ عَمَلِهِ»

184. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Namaz üç hissədən ibarətdir. Təmizlik üçdə biri, ruku üçdə biri, səcdə də üçdə biridir. Kim onları layiqincə yerinə yetirərsə, namazı qəbul olunar. Namazı qəbul olunarsa, digər əməlləri də qəbul olunar. Kimin namazı qəbul olunmazsa, digər əməlləri də qəbul olunmaz".[290]

NAMAZDA OLAN SƏFİN FƏZİLƏTİ

١٨٥ - عَبْدِ اللَّهِ بْنِ عُمَرَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ أَقِيمُوا الصُّفُوفَ وَحَاذُوا بَيْنَ الْمَنَاكِبِ وَسُدُّوا الْخَلَلَ وَلِينُوا بِأَيْدِي إِخْوَانِكُمْ لَمْ يَقُلْ عِيسَى بِأَيْدِي إِخْوَانِكُمْ وَلَا تَذَرُوا فُرُجَاتٍ لِلشَّيْطَانِ وَمَنْ وَصَلَ صَفًّا وَصَلَهُ اللَّهُ وَمَنْ قَطَعَ صَفًّا قَطَعَهُ اللَّهُ

185. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Səfləri düzəldin, çiyinlərinizi birləşdirin, boş yerləri doldurun, qardaşlarınızla mülayim davranın və şeytan üçün boş yer buraxmayın! Kim səfi birləşdirərsə, Allah onu birləşdirər. Kim də səfi kəsərsə, Allah onu kəsər[291]".[292]

١٨٦ - عَنْ عَائِشَةَ ﷺ قَالَتْ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ سَدَّ فُرْجَةً فِي صَفٍّ رَفَعَهُ اللَّهُ بِهَا دَرَجَةً، أَوْ بَنَى لَهُ بَيْتًا فِي

---

[289] Əhməd, 423; əl-Beyhəqi "Şuabul-İman" 2551, "Sunənul-Kubra" 1745. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 382) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[290] əl-Heysəmi "Kəşful-Əstər an Zəvaidul-Bəzzar" 349. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 539) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2537) həsən səhih olduğunu bildirmişdir.

[291] Yəni, kim səfi birləşdirərsə, Allah ona Öz rəhmətini çatdırar. Kim səfi ayırarsa, Allah da onu Öz rəhmətinindən ayırar. (İslam Fiqhi, səh. 184).

[292] Əbu Davud, 570. əl-Albani səhih olduğunu bildirmişdir.

الْجَنَّةِ.

186. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Kim namazdakı səfin bir boşluğunu doldurarsa, Allah onu bir dərəcə yüksəldər və Cənnətdə ona bir ev tikər”.[293]

١٨٧ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ وَمَلاَئِكَتَهُ يُصَلُّونَ عَلَى الَّذِينَ يَصِلُونَ الصُّفُوفَ وَمَنْ سَدَّ فُرْجَةً رَفَعَهُ اللَّهُ بِهَا دَرَجَةً».

187. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Həqiqətən, Allah və Onun mələkləri (namazdakı) səfləri dolduranlara salavat edirlər. Kim səfdəki bir boşluğu doldurarsa, Allah onu bir dərəcə yüksəldər”.[294]

١٨٨ - عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ ﵁ قَالَ سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ إِنَّ اللَّهَ ﷻ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى الصَّفِّ الْأَوَّلِ أَوْ الصُّفُوفِ الْأُوَلِ

188. Numan ibn Bəşir ﵁ demişdir: “Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: “Həqiqətən, Allah ﷻ və Onun mələkləri birinci və ya ön səflərdə duranlara salavat edirlər”.[295]

١٨٩ - عَنْ أَبِي أُمَامَةَ ﵁ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى الصَّفِّ الْأَوَّلِ قَالُوا يَا رَسُولَ اللَّهِ وَعَلَى الثَّانِي قَالَ إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى الصَّفِّ الْأَوَّلِ قَالُوا يَا رَسُولَ اللَّهِ وَعَلَى الثَّانِي قَالَ وَعَلَى الثَّانِي قَالَ رَسُولُ اللَّهِ ﷺ سَوُّوا صُفُوفَكُمْ وَحَاذُوا بَيْنَ مَنَاكِبِكُمْ وَلِينُوا فِي أَيْدِي إِخْوَانِكُمْ وَسُدُّوا الْخَلَلَ فَإِنَّ الشَّيْطَانَ يَدْخُلُ بَيْنَكُمْ بِمَنْزِلَةِ الْحَذَفِ يَعْنِي أَوْلَادَ الضَّأْنِ الصِّغَارَ

189. Əbu Umamə ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Həqiqətən, Allah və Onun mələkləri birinci səfdə duranlara salavat edirlər”. Dedilər: “Ey Allahın Elçisi, ikinci səfdə duranlara da?” O buyurdu: “Həqiqətən, Allah və Onun mələkləri birinci səfdə duranlara salavat edirlər” Dedilər: “Ey Allahın Elçisi, ikinci səfdə duranlara da?” O buyurdu: “İkinci səfdə duranlara da”. Allah Elçisi sallallahu aleyhi və səlləm

---

[293] ət-Tabərani “Mucəmul-Əvsat” 5795; İbn Əbu Şeybə “Müsnəd” 3844. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 505) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[294] İbn Məcə, 995, 1048. əl-Albani həsən olduğunu bildirmişdir.

[295] Əhməd, 17641, 18390. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 492) həsən olduğunu bildirib.

dedi: “Səflərinizi düzəldin, çiyinlərinizi bərabərləşdirin və (səfə daxil olmaq istəyənlər üçün) çiyinlərinizi yumşaldın, boşluqları doldurun, çünki şeytan sizin aranızdan balaca quzular kimi keçər”.[296]

١٩٠ - عَنْ عَبْدِ اللَّهِ بن عُمَرَ ﵄ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: خِيَارُكُمْ أَلْيَنُكُمْ مَنَاكِبًا فِي الصَّلاةِ ، وَمَا مِنْ خُطْوَةٍ أَعْظَمُ أَجْرًا مِنْ خُطْوَةٍ مَشَاهَا رَجُلٌ إِلَى فُرْجَةٍ فِي الصَّفِّ فَسَدَّهَا

190. Abdullah ibn Ömər ﵄ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Sizin ən xeyirliniz, namazda çiyni (səfə daxil olmaq istəyənlər üçün) yumşaq olanınızdır. Kişinin səfi doldurmaq üçün atdığı addımdan mükafatı daha böyük addım yoxdur”.[297]

١٩١ - عَنِ ابْنِ عَبَّاسٍ ﵄ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «خِيَارُكُمْ أَلْيَنُكُمْ مَنَاكِبَ فِى الصَّلاَةِ».

191. İbn Abbas ﵄ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Sizin ən xeyirliniz, namazda çiyini ən yumşaq olanınızdır”.[298]

١٩٢ - عَنْ جَابِرِ بْنِ عَبدِ اللهِ ﵄ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ مِن تَمَامِ الصَّلاَةِ إِقَامَةُ الصَّفِّ».

192. Cabir ibn Abdullah ﵄ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Həqiqətən, səfin düz olması namazın kamilliyindəndir”.[299]

AZAN VERMƏYİN FƏZİLƏTİ

١٩٣ - عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ ﵁ أَنَّ نَبِيَّ اللَّهِ ﷺ قَالَ «إِنَّ اللَّهَ وَمَلاَئِكَتَهُ يُصَلُّونَ عَلَى الصَّفِّ الْمُقَدَّمِ وَالْمُؤَذِّنُ يُغْفَرُ لَهُ بِمَدِّ صَوْتِهِ وَيُصَدِّقُهُ مَنْ سَمِعَهُ مِنْ رَطْبٍ وَيَابِسٍ وَلَهُ مِثْلُ أَجْرِ مَنْ صَلَّى مَعَهُ»....«لاَ يَسْمَعُهُ جِنٌّ وَلاَ إِنْسٌ وَلاَ شَجَرٌ وَلاَ حَجَرٌ إِلاَّ شَهِدَ لَهُ».

193. Bəra ibn Azib ﵁ rəvayət edir ki, Allahın Peyğəmbəri sallallahu aleyhi və səlləm belə buyurdu: “Allah və Onun mələkləri birinci səfdə duranlara

---

[296] Əhməd, 22263, 22317. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 491) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[297] ət-Tabərani “Mucəmul-Əvsat” 5240, “Mucəmul-Kəbir” 937. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 504) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[298] Yəni səfdən keçmək istəyəni sıxmamaq və keçməyinə imkan yaratmaq nəzərdə tutulur. Əbu Davud, 672. əl-Albani səhih olduğunu bildirmişdir.

[299] Əhməd, 14494. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 2225) səhih olduğunu bildirmişdir.

salavat edirlər. Müəzzinin səsinin çatacağı yerə qədər günahları bağışlanır. Onun səsini eşidən yaş və quru nə varsa onu təsdiq edir və onunla birlikdə namaz qılanların savabı qədər ona savab yazılır".[300] Başqa bir rəvayətdə belə deyilir: "Müəzzinin səsini eşidən elə bir cin, insan, ağac və daş yoxdur ki, (Qiyamət günü) ona şahidlik etməsin".[301]

١٩٤ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ سَمِعْتُ مِنْ فِى رَسُولِ اللَّهِ ﷺ يَقُولُ «الْمُؤَذِّنُ يُغْفَرُ لَهُ مَدَّ صَوْتِهِ وَيَسْتَغْفِرُ لَهُ كُلُّ رَطْبٍ وَيَابِسٍ وَشَاهِدُ الصَّلاَةِ يُكْتَبُ لَهُ خَمْسٌ وَعِشْرُونَ حَسَنَةً وَيُكَفَّرُ عَنْهُ مَا بَيْنَهُمَا».

194. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi ﷺ belə buyurdu: "Səsinin çatdığı yerə qədər müəzzinin günahları bağışlanır. (Onu eşidən) yaş və quru olan hər bir şey onun üçün bağışlanma diləyir. Camaatla namaz qılana isə iyirmi beş savab yazılır və iki namaz arasındakı günahları bağışlanır".[302]

١٩٥ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ أَذَّنَ ثِنْتَىْ عَشْرَةَ سَنَةً وَجَبَتْ لَهُ الْجَنَّةُ وَكُتِبَ لَهُ بِتَأْذِينِهِ فِى كُلِّ يَوْمٍ سِتُّونَ حَسَنَةً وَلِكُلِّ إِقَامَةٍ ثَلاَثُونَ حَسَنَةً».

195. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Kim on iki il azan oxuyarsa, Cənnət ona vacib olar. Hər gün ona oxuduğu azana görə altmış, hər iqaməyə görə otuz savab yazılar".[303]

١٩٦ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ أَنَّ رَجُلاً قَالَ يَا رَسُولَ اللَّهِ إِنَّ الْمُؤَذِّنِينَ يَفْضُلُونَنَا. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «قُلْ كَمَا يَقُولُونَ فَإِذَا انْتَهَيْتَ فَسَلْ تُعْطَهْ»...«إِذَا نُودِيَ بِالصَّلاَةِ فُتِحَت أَبْوَابُ السَّمَاءِ وَاسْتُجِيبَ الدُّعَاءِ».

196. Abdullah İbn Amr ﷺ rəvayət edir ki, bir kişi: "Ey Allahın Elçisi, müəzzinlər bizdən üstün oldular"- dedi. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Onların söylədikləri kimi de, bitirdikdən sonra istədiyini dilə, sənə veriləcək".[304] Digər rəvayətdə deyilir: "Namaza azan verildikdə səma qapıları açılır və dua qəbul olunur".[305]

---

[300] ən-Nəsəi, 646, 653. Albani səhih olduğunu bildirmişdir.
[301] İbn Məcə, 723, 772. əl-Albani səhih olduğunu bildirmişdir.
[302] İbn Məcə, 724, 773; Əbu Davud, 528. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[303] İbn Məcə, 728, 777. əl-Albani səhih olduğunu bildirmişdir.
[304] Əbu Davud 524, 526. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[305] Əbu Yəalə, 4072. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 803) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1413) səhih olduğunu bildirmişdir.

١٩٧ - سَمِعْتُ مُعَاوِيَةَ بْنَ أَبِى سُفْيَانَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «الْمُؤَذِّنُونَ أَطْوَلُ النَّاسِ أَعْنَاقًا يَوْمَ الْقِيَامَةِ».

197. Muaviyə ibn Əbu Sufyan ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Qiyamət günü müəzzinlər boyunları ən uzun olan insanlardır".[306]

١٩٨ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «يَعْجَبُ رَبُّكَ مِنْ رَاعِى غَنَمٍ فِى رَأْسِ شَظِيَّةِ الْجَبَلِ يُؤَذِّنُ بِالصَّلاَةِ وَيُصَلِّى فَيَقُولُ اللَّهُ ﷻ انْظُرُوا إِلَى عَبْدِى هَذَا يُؤَذِّنُ وَيُقِيمُ الصَّلاَةَ يَخَافُ مِنِّى قَدْ غَفَرْتُ لِعَبْدِى وَأَدْخَلْتُهُ الْجَنَّةَ»

198. Uqbə ibn Amir ﷺ demişdir: "Allah Elçisini salləllahu aleyhi və səlləm belə deyərkən eşitdim: "Rəbbin dağın başında qoyun otaran çobanın azan verib, namaz qılmasına təəccüb edir[307]. Allah ﷻ belə buyurur: "Bu quluma baxın! Məndən qorxduğuna görə azan verib, namaz qılır. Artıq Mən qulumu bağışladım və Cənnətə daxil etdim".[308]

١٩٩ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لَوْ يَعْلَمُ النَّاسُ مَا فِى النِّدَاءِ وَالصَّفِّ الأَوَّلِ، ثُمَّ لَمْ يَجِدُوا إِلاَّ أَنْ يَسْتَهِمُوا عَلَيْهِ لاَسْتَهَمُوا، وَلَوْ يَعْلَمُونَ مَا فِى التَّهْجِيرِ لاَسْتَبَقُوا إِلَيْهِ، وَلَوْ يَعْلَمُونَ مَا فِى الْعَتَمَةِ وَالصُّبْحِ لأَتَوْهُمَا وَلَوْ حَبْوًا»

199. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisinin salləllahu aleyhi və səlləm belə dediyini eşitdim: "Əgər insanlar azan (verməyin) və (namazda) birinci sırada (durmağın nə qədər xeyirli və bərəkətli) olduğunu bilsəydilər və (buna nail olmaq üçün) püşk atmaqdan başqa bir çarə tapmasaydılar, hökmən püşk atardılar. Əgər onlar namazın vaxtı yetişən kimi onu qılmağın (nə qədər xeyirli və bərəkətli) olduğunu bilsəydilər, onu yerinə yetirmək üçün bir-birini ötüb keçməyə çalışardılar və əgər onlar İşa və Sübh namazlarını (camaatla birgə) qılmağın (nə qədər xeyirli və bərəkətli) olduğunu bilsəydilər, bu namazları qılmaq üçün dizləri üstündə sürünə-sürünə də olsa (məscidə) gələrdilər".[309]

---

[306] İbn Məcə, 725, 774. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[307] Allahın sifətlərinin necəliyi barəsində fikir yürütmək olmaz.
[308] ən-Nəsəi, 660, 666, 674, 1630. əl-Albani səhih olduğunu söyləmişdir.
[309] əl-Buxari, 615.

QUBA MƏSCİDİNİN FƏZİLƏTİ

٢٠٠ - قَالَ سَهْلُ بْنُ حُنَيْفٍ ﷺ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ تَطَهَّرَ فِي بَيْتِهِ ثُمَّ أَتَى مَسْجِدَ قُبَاءٍ فَصَلَّى فِيهِ صَلاَةً كَانَ لَهُ كَأَجْرِ عُمْرَةٍ».

200. Səhl ibn Huneyf ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Kim evində təmizlənər, sonra Quba məscidinə gedib orada namaz qılarsa, ona ümrə savabı kimi yazılar".[310]

PEYĞƏMBƏR SALLƏLLAHU ALEYHI VƏ SƏLLƏM MƏSCİDİNİN FƏZİLƏTİ

٢٠١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ جَاءَ مَسْجِدِي هَذَا، لَمْ يَأْتِهِ إِلاَّ لِخَيْرٍ يَتَعَلَّمُهُ أَوْ يُعَلِّمُهُ، فَهُوَ بِمَنْزِلَةِ الْمُجَاهِدِ فِي سَبِيلِ اللَّهِ، وَمَنْ جَاءَ لِغَيْرِ ذَلِكَ فَهُوَ بِمَنْزِلَةِ الرَّجُلِ يَنْظُرُ إِلَى مَتَاعِ غَيْرِهِ».

201. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisini sallallahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Kim yalnız xeyir öyrənmək və ya öyrətmək məqsədilə mənim bu məscidimə gələrsə, o kimsə Allah yolunda savaşan mücahidin mərtəbəsindədir. Kim də bundan başqa bir məqsədlə gələrsə, özgəsinin var-dövlətinə baxan adamın vəziyyətindədir".[311]

MƏSCİDUL-HARAMDA (KƏBƏ OLAN MƏSCİDDƏ) QILINAN NAMAZIN FƏZİLƏTİ

٢٠٢ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ ﷺقَالَ : قَالَ رَسُوْلُ اللهِ ﷺ: «صَلاَةٌ فِي مَسْجِدِي هَذَا أَفْضَلُ مِنْ أَلْفِ صَلاَةٍ فِيْمَا سِوَاهُ إِلاَّ الْمَسْجِدَ الْحَرَامَ، وَصَلاَةٌ فِي الْمَسْجِدِ الْحَرَامِ أَفْضَلُ مِنْ مَائَةِ أَلْفِ صَلاَةٍ فِيْمَا سِوَاهُ»

202. Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Mənim bu məscidimdə qılınan namaz Məscidul-Həram istisna olmaqla başqa məscidlərdə qılınan min namazdan daha fəzilətlidir. Məscidul-Haramda qılınan namaz isə digər məscidlərdə qılınan yüz min namazdan daha xeyirlidir".[312]

---

[310] İbn Məcə, 1412, 1477. əl-Albani səhih olduğunu bildirmişdir.
[311] İbn Məcə, 227, 233. əl-Albani səhih olduğunu bildirmişdir.
[312] Əhməd, 15306. Şueyb əl-Arnavut isnadını əl-Buxarin şərtinə əsasən səhih olduğunu bildirmişdir.

SƏHV SƏCDƏSİ

٢٠٣ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «سَجْدَتَا السَّهوِ تُجْزِئَانِ مِنْ كُلِّ زِيَادَةٍ وَنَقْصَانٍ».

203. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Səhv səcdəsi (namazda) olan bütün əlavələri və əskikliklәri aradan götürür".[313]

[313] Əbu Yəalə, 4592. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3626) həsən olduğunu bildirmişdir.

NAFİLƏ NAMAZLAR

NAFİLƏ NAMAZININ DƏYƏRİ

٢٠٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ مَرَّ بِقَبْرٍ فَقَالَ: «مَنْ صَاحِبُ هَذَا الْقَبْرِ؟» فَقَالُوا فُلَان، فَقَالَ: «رَكْعَتَانِ أَحَبَّ إِلَى هَذَا مِنْ بَقِيَّةِ دُنْيَاكُمْ».

204. Əbu Hureyra ﷺ rəvayət edir ki, (bir gün) Allah Elçisi sallәllahu aleyhi və sәllәm bir qəbrin yanından keçərkən soruşdu: "Bu kimin qəbridir?" Dedilər: "Filankəsin". O buyurdu: "İki rükət namaz dünyanızda qalan (hər şeydən) bunun üçün daha sevimlidir".[314]

٢٠٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «الصَّلَاةُ خَيرُ مَوْضُوعٍ، فَمَنِ اسْتَطَاعَ أَنْ يَسْتَكْثِرَ فَلْيَسْتَكْثِر».

205. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Namaz əmr olunanların ən xeyirlisidir. Kim çox qılmağı bacarırsa, çox qılsın!"[315]

ON İKİ RÜKƏT NAFİLƏNİN FƏZİLƏTİ

٢٠٦ - عَنْ أُمِّ حَبِيبَةَ ﵂ قَالَتْ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ صَلَّى فِي يَوْمٍ وَلَيْلَةٍ ثِنْتَيْ عَشْرَةَ رَكْعَةً بُنِيَ لَهُ بَيْتٌ فِي الْجَنَّةِ أَرْبَعًا قَبْلَ الظُّهْرِ وَرَكْعَتَيْنِ بَعْدَهَا وَرَكْعَتَيْنِ بَعْدَ الْمَغْرِبِ وَرَكْعَتَيْنِ بَعْدَ الْعِشَاءِ وَرَكْعَتَيْنِ قَبْلَ صَلَاةِ الْفَجْرِ».

206. Ummu Həbibə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim gündə on iki rükət namaz qılarsa, Cənnətdə onun üçün bir ev tikilər; dörd rükət Zöhrdən əvvəl, iki rükət Zöhrdən sonra, iki rükət Məğribdən sonra, iki rükət İşadan sonra və iki rükət də Sübh namazından əvvəl".[316]

SÜBH NAMAZININ SÜNNƏSİ

٢٠٧ - عَنْ عَائِشَةَ ﵂ عَنِ النَّبِيِّ ﷺ قَالَ رَكْعَتَا الْفَجْرِ خَيْرٌ مِنَ الدُّنْيَا وَمَا فِيهَا

207. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuş-

---

[314] ət-Tabərani "Mucəmul-Əvsat" 920. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 391) həsən səhih olduğunu bildirmişdir.

[315] ət-Tabərani "Mucəmul-Əvsat" 243. əl-Albani"Sahihul-Cəmius-Sağir"də (№ 3870) həsən olduğunu bildirmişdir.

[316] ət-Tirmizi, 415, 417. əl-Albani səhih olduğunu qeyd etmişdir.

dur: “Sübh namazının iki rükət (sünnəsi) dünya və onun içindəkilərindən daha xeyirlidir”.[317]

٢٠٨ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ لَمْ يَكُنِ النَّبِيُّ ﷺ عَلَى شَيْءٍ مِنَ النَّوَافِلِ أَشَدَّ مِنْهُ تَعَاهُدًا عَلَى رَكْعَتَيِ الْفَجْرِ.

208. Rəvayət edilir ki, Aişə ﵂ demişdir: “Peyğəmbər sallallahu aleyhi və səlləm nafilə namazlarından heç birini Sübh namazının sünnəsi[318] kimi davamlı qılmamışdır”.[319]

ZÖHR NAMAZINDAN QABAQ QILINAN NAMAZ

٢٠٩ - عَنْ عَبْدِ اللهِ بْنِ السَّائِبِ ﵁: أَنَّ رَسُوْلَ اللهِ ﷺ كَانَ يُصَلِّي أَرْبعاً بَعدَ أَنْ تَزُولَ الشَّمْسُ قَبْلَ الظُّهْرِ، وَقَالَ :«إِنَّهَا سَاعَةٌ تُفْتَحُ فِيهَا أَبْوَابُ السَّمَاءِ، وَأُحِبُّ أَنْ يَصْعَدَ لِي فِيهَا عَمَلٌ صَالِحٌ».

209. Abdullah ibn Səib ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm günəş zenitdən keçdikdən sonra zöhrdən qabaq dörd rükət namaz qılar və belə deyərdi: “Bu, səma qapılarının açıldığı bir vaxtdır. Mən də sevirəm ki, mənim üçün yaxşı əməl Allaha o vaxt yüksəlsin”.[320]

٢١٠ - عَنْ أَبِي صَالِحٍ ﵁ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَرْبَعُ رَكَعَاتٍ قَبْلَ الظُّهْرِ يَعْدِلْنَ بِصَلَاةِ السَّحَرِ».

210. Əbu Saleh ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurmuşdur: “Zöhr namazından əvvəl dörd rükət (nafilə namazı) gecə namazına bərabərdir”.[321]

ZÖHR NAMAZINDAN ƏVVƏLKİ VƏ SONRAKI NAFİLƏLƏR

٢١١ - عَنْ أُمِّ حَبِيبَةَ ﵂ قَالَتْ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ حَافَظَ عَلَى أَرْبَعِ رَكَعَاتٍ قَبْلَ الظُّهْرِ وَأَرْبَعٍ بَعْدَهَا حَرَّمَهُ اللَّهُ عَلَى النَّارِ».

211. Ummu Həbibə ﵂ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm

---

[317] Muslim, 1721.
[318] Söhbət sübh namazından qabaq qılınan iki rükət sünnət namazından gedir.
[319] əl-Buxari, 1169.
[320] ət-Tirmizi, 478. əl-Albani səhih olduğunu bildirmişdir.
[321] İbn Əbi Şeybə “Musannəf” 5940. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 882) və “Silsilətul-Əhədis-Sahiha”da (№ 1431) həsən olduğunu bildirmişdir.

buyurmuşdur: “Kim müntəzəm olaraq Zöhrdən əvvəl və sonra dörd rükət nafilə qılsa, Allah Cəhənnəmi ona haram edər”.[322]

ƏSR NAMAZINDAN ƏVVƏL QILINAN NAFİLƏ

٢١٢ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «رَحِمَ اللَّهُ امْرَأً صَلَّى قَبْلَ الْعَصْرِ أَرْبَعًا».

212. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: “Əsr (namazından) əvvəl dörd rükət namaz qılan kimsəyə Allah rəhm edər!”[323]

VİTR NAMAZI

٢١٣ - عَنْ جَابِرٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ مَنْ خَافَ أَنْ لَا يَقُومَ مِنْ آخِرِ اللَّيْلِ فَلْيُوتِرْ أَوَّلَهُ وَمَنْ طَمِعَ أَنْ يَقُومَ آخِرَهُ فَلْيُوتِرْ آخِرَ اللَّيْلِ فَإِنَّ صَلَاةَ آخِرِ اللَّيْلِ مَشْهُودَةٌ وَذَلِكَ أَفْضَلُ

213. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: “Kim (Vitr namazını) gecənin axır vaxtında qıla bilməməsindən ehtiyat edərsə, onu gecənin ilk vaxtında qılsın. Kim də gecənin axır vaxtında qılmaq istəyərsə, onu gecənin axır vaxtında qılsın. Çünki gecənin axır vaxtında qılınan namazın şahidləri olur və bu daha fəzilətlidir”.[324]

٢١٤ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ لأَبِى بَكْرٍ «أَىَّ حِينٍ تُوتِرُ» قَالَ أَوَّلَ اللَّيْلِ بَعْدَ الْعَتَمَةِ. قَالَ «فَأَنْتَ يَا عُمَرُ». فَقَالَ آخِرَ اللَّيْلِ. فَقَالَ النَّبِىُّ ﷺ «أَمَّا أَنْتَ يَا أَبَا بَكْرٍ فَأَخَذْتَ بِالْوُثْقَى وَأَمَّا أَنْتَ يَا عُمَرُ فَأَخَذْتَ بِالْقُوَّةِ».

214. Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm Əbu Bəkrə ﷺ belə dedi: “Vitri nə vaxt qılırsan?” Əbu Bəkr ﷺ dedi: “Gecənin əvvəlində, İşadan sonra”. Sonra Ömərə ﷺ dedi: “Bəs sən, ey Ömər?” Ömər dedi: “Gecənin sonunda”. Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: “Sən, ey Əbu Bəkr, işinə ehtiyatlı yanaşmısan. Sən isə, ey Ömər, işinə əzmkarlıqla yanaşmısan”.[325]

---

[322] ət-Tirmizi, 428, 430. əl-Albani səhih olduğunu qeyd etmişdir.
[323] Əbu Davud, 1271, 1273; ət-Tirmizi, 430. əl-Albani həsən olduğunu bildirmişdir.
[324] Muslim, 1255.
[325] İbn Məcə, 1202, 1258. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

٢١٥ - عَنْ عَلِيٍّ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «يَا أَهْلَ الْقُرْآنِ أَوْتِرُوا فَإِنَّ اللَّهَ وِتْرٌ يُحِبُّ الْوِتْرَ».

215. Əli ibn Əbu Talib ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Ey Quran əhli, Vitr namazını qılın! Allah Vitrdir (Təkdir) və Vitr (namazını) sevir".[326]

٢١٦ - عَنِ عَبْدِ اللهِ بن عَمْرو رضي الله عنهما: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «إِنَّ اللهَ ﷻ قَدْ زَادكُمْ صَلاَةً وَهِيَ الْوِتْر فَحَافِظُوا عَلَيْهَا».

216. Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Həqiqətən, Allah ﷻ sizin üçün Vitr namazını əlavə etmişdir, elə isə ona riayət edin!"[327]

٢١٧ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «صَلاَةُ الْمَغْرِب وِتْرُ النَّهَارِ فَأَوْتِرُوا صَلاَةَ اللَّيْلِ».

217. Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Məğrib namazı günün vitridir, elə isə gecənin vitrini də qılın!"[328]

٢١٨ - عَنْ سَعدِ بْنِ أَبِي وَقَّاصٍ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «الَّذِي لا يَنَامُ حَتَّى يُوتِرَ، حَازِمٌ».

218. Səid ibn Əbu Vaqqas ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Vitri qılıb yatan tədbirlidir".[329]

DUHA NAMAZI[330]

٢١٩ - عَنْ أَبِى الدَّرْدَاءِ وَأَبِى ذَرٍّ رضي الله عنهما عَنْ رَسُولِ اللَّهِ ﷺ «عَنِ اللَّهِ ﷻ أَنَّهُ قَالَ ابْنَ آدَمَ ارْكَعْ لِى مِنْ أَوَّلِ النَّهَارِ أَرْبَعَ رَكَعَاتٍ أَكْفِكَ آخِرَهُ»

---

326 Əbu Davud, 1416, 1418. əl-Albani səhih olduğunu bildirmişdir.

327 Əhməd, 6941. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1772) səhih olduğunu bildirmişdir.

328 Əhməd, 4847. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6720) səhih olduğunu bildirmişdir.

329 Əhməd, 1461. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5493) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2208) səhih olduğunu bildirmişdir.

330 Duha - Səhər gündüzün başlanğıcına deyilir. Duha namazının vaxtı isə günəş üfüqdən bir nizə hündürlüyündə qalxdıqdan sonra - yəni, təqribən günəş çıxdıqdan 15 dəqiqə sonra günəş səmanın ortasına - zenitə yüksəlməsindən bir az əvvələdək - təqribən 15 dəqiqə qabaq. Onu da qeyd edək ki, duha namazını günəşin zenitə yüksəlməsinə yarım saat qalmış, yəni, bu namazın axır vaxtında onu qılmaq daha əfzəldir. 222-ci hədisdə bu haqda deyiləcək.

219. Əbud-Dərdə və Əbu Zərr ﷺ rəvayət edirlər ki, Allah Elçisi sallallahu aleyhi və səlləm Allahın ﷻ belə buyurduğunu xəbər verdi: "Ey Adəm oğlu! Günün əvvəlində Mənim üçün dörd rükət namaz qıl ki, günün sonunadək səni qoruyum".[331]

٢٢٠ - عَنْ أَبِي مُوسَى ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ صَلَّى الضُّحَى أَرْبَعاً، وَقَبْلَ الأُوْلَى أَرْبَعاً بُنِيَ لَهُ بِهَا بَيْتٌ فِي الْجَنَّةِ».

220. Əbu Musa ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim dörd rükət Duha namazı və dörd rükət Zöhr namazından əvvəl namaz qılarsa, buna görə onun üçün Cənnətdə bir ev tikilər".[332]

٢٢١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ أَوْصَانِي خَلِيلِي بِثَلاَثٍ لاَ أَدَعُهُنَّ حَتَّى أَمُوتَ صَوْمِ ثَلاَثَةِ أَيَّامٍ مِنْ كُلِّ شَهْرٍ، وَصَلاَةِ الضُّحَى، وَنَوْمٍ عَلَى وِتْرٍ

221. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "Ən əziz dostum[333] mənə üç şeyi nəsihət etmişdir ki, mən ölənədək onları buraxan deyiləm; hər ay üç gün oruc tutmaq, Duha namazını qılmaq və vitri qılıb yatmaq".[334]

٢٢٢ - عَنِ الْقَاسِمِ الشَّيْبَانِيِّ أَنَّ زَيْدَ بْنَ أَرْقَمَ ﷺ رَأَى قَوْمًا يُصَلُّونَ مِنَ الضُّحَى فَقَالَ أَمَا لَقَدْ عَلِمُوا أَنَّ الصَّلاَةَ فِى غَيْرِ هَذِهِ السَّاعَةِ أَفْضَلُ. إِنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «صَلاَةُ الأَوَّابِينَ حِينَ تَرْمَضُ الْفِصَالُ».

222. Qasim əş-Şeybani belə rəvayət edir: "Zeyd ibn Ərqam ﷺ bir dəstə adamın Duha namazını qıldığını gördü və belə dedi: "Məgər onlar bu namazın bu saatdan daha əfzəl bir vaxtı olduğunu bilmirlərmi?! Həqiqətən, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurmuşdur: "Allaha üz tutanların namazı, istidən dəvə balasının ayaqlarının yandığı (günəş şüalarının bədəni qızışdırdığı) vaxtdır".[335]

٢٢٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لا يُحَافِظُ عَلَى صَلاَةِ الضُّحَى إِلاَّ أَوَّاب». قَالَ: «وَهِيَ صَلاَةُ

---

[331] ət-Tirmizi, 475, 477. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

[332] ət-Təbərani "Mucəmul-Əvsat" 4753. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6340) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2349) həsən olduğunu bildirmişdir.

[333] Burada Peyğəmbəri ﷺ nəzərdə tutur.

[334] əl-Buxari, 1178; Muslim, 1669.

[335] Muslim, 1780. Bu hədis Duha namazının Zöhr namazına yaxın vaxtda qılınmasının daha fəzilətli olmasına dəlalət edir.

الأَوَّابِينَ».

223. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Duha namazına yalnız Allaha üz tutan riayət edər. O, Allaha üz tutanların namazıdır".[336]

٢٢٤ - عَنْ أَبِي ذَرٍّ ﷺ عَنْ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ يُصْبِحُ عَلَى كُلِّ سُلَامَى مِنْ أَحَدِكُمْ صَدَقَةٌ فَكُلُّ تَسْبِيحَةٍ صَدَقَةٌ وَكُلُّ تَحْمِيدَةٍ صَدَقَةٌ وَكُلُّ تَهْلِيلَةٍ صَدَقَةٌ وَكُلُّ تَكْبِيرَةٍ صَدَقَةٌ وَأَمْرٌ بِالْمَعْرُوفِ صَدَقَةٌ وَنَهْيٌ عَنْ الْمُنْكَرِ صَدَقَةٌ وَيُجْزِئُ مِنْ ذَلِكَ رَكْعَتَانِ يَرْكَعُهُمَا مِنْ الضُّحَى

224. Əbu Zərr ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Sizdən biri hər bir sümüyü bir sədəqə borcu olduğu halda səhərə çıxır. Hər təsbih (Subhənəllah demək) sədəqədir, hər təhmid (Əlhəmdulilləh demək) sədəqədir, hər təhlil (lə iləhə illəllah demək) sədəqədir, hər təkbir (Allahu Əkbər demək) sədəqədir. Yaxşı işlər görməyi əmr etmək sədəqədir, pis əməllərdən çəkindirmək sədəqədir. Duha vaxtı qılınan iki rükət namaz isə bunların hamısını əvəz edir".[337]

٢٢٥ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو رضي الله عنهما قَالَ: بَعَثَ رَسُوْلُ اللهِ ﷺ سَرِيَّةً فَغَنِمُوا وَأَسْرَعُوا الرَّجْعَةَ، فَتَحَدَّثَ النَّاسُ بِقُرْبِ مَغْزَاهُمْ وَكَثْرَةِ غَنِيْمَتِهِمْ وَسُرْعَةِ رجْعَتِهِمْ، فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَلاَ أَدُلُّكُمْ عَلَى أَقْرَبَ مِنْهُ مَغْزَى، وَأَكْثَرُ غَنِيْمَةً وَأَوْشَكُ رَجْعَةً؟ مَنْ تَوَضَّأَ ثُمَّ غَدَا إِلَى الْمَسْجِدِ لِسبْحَةِ الضُّحَى فَهُوَ أَقْرَبُ مَغْزَى وَأَكْثَرُ غَنِيمَةً وَأَوْشَكُ رَجْعَةً».

225. Abdullah ibn Amr رضي الله عنهما demişdir: "(Bir dəfə) Allah Elçisi sallallahu aleyhi və səlləm bir dəstəni (döyüşə) göndərdi, (dəstə) qənimət əldə edib qısa bir müddətdə geriyə qayıtdı. İnsanlar onların necə çoxlu qənimət əldə etmələri və qısa bir müddətdə qayıtmaları haqqında danışırdılar. Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Sizə onlardan daha yaxın döyüşü, daha çox qəniməti, daha qısa müddətdə geri dönməyi göstərimmi? Kim dəstəmaz alar, sonra Duha namazını qılmaq üçün məscidə gedərsə, bu, daha xeyirli döyüş, daha çox qənimət və daha qısa müddətdə geri dönməkdir".[338]

---

[336] əl-Hakim, 1182. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 7628) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 703) həsən olduğunu bildirmişdir.

[337] Muslim, 720, 1181, 1704.

[338] Əhməd, 6638. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 668) həsən səhih olduğunu bildirib.

٢٢٦ - عَنْ أَبِى أُمَامَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ خَرَجَ مِنْ بَيْتِهِ مُتَطَهِّرًا إِلَى صَلاَةٍ مَكْتُوبَةٍ فَأَجْرُهُ كَأَجْرِ الْحَاجِّ الْمُحْرِمِ وَمَنْ خَرَجَ إِلَى تَسْبِيحِ الضُّحَى لاَ يُنْصِبُهُ إِلاَّ إِيَّاهُ فَأَجْرُهُ كَأَجْرِ الْمُعْتَمِرِ وَصَلاَةٌ عَلَى أَثَرِ صَلاَةٍ لاَ لَغْوَ بَيْنَهُمَا كِتَابٌ فِى عِلِّيِّينَ»

226. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Kim dəstəmazlı olaraq fərz namazını qılmaq üçün evindən çıxarsa, onun mükafatı, ihrama girmiş hacının mükafatı kimidir. Kim Duha namazını qılmaq üçün (evindən) çıxar və buna görə yorularsa, onun mükafatı ümrə edənin mükafatı kimidir. Araya boş söz salınmadan fərz namazdan sonra qılınan ikinci fərz namaz, İlliyyunda yazılır".[339]

TƏRAVİH NAMAZI

٢٢٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ قَامَ رَمَضَانَ، إِيْمَاناً وَاحْتِسَاباً، غُفِرَ لَهُ مَا تَقَدَمَ مِنْ ذَنْبِهِ.

227. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Kim Ramazan gecələrində imanla, mükafatını (yalnız Allahdan) umaraq nafilə namazları qılsa, keçmiş günahları bağışlanar".[340]

٢٢٨ - عَنْ أَبِى ذَرٍّ ﷺ قَالَ صُمْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ فَلَمْ يُصَلِّ بِنَا حَتَّى بَقِىَ سَبْعٌ مِنَ الشَّهْرِ فَقَامَ بِنَا حَتَّى ذَهَبَ ثُلُثُ اللَّيْلِ ثُمَّ لَمْ يَقُمْ بِنَا فِى السَّادِسَةِ وَقَامَ بِنَا فِى الْخَامِسَةِ حَتَّى ذَهَبَ شَطْرُ اللَّيْلِ فَقُلْنَا لَهُ يَا رَسُولَ اللَّهِ لَوْ نَفَّلْتَنَا بَقِيَّةَ لَيْلَتِنَا هَذِهِ فَقَالَ «إِنَّهُ مَنْ قَامَ مَعَ الإِمَامِ حَتَّى يَنْصَرِفَ كُتِبَ لَهُ قِيَامُ لَيْلَةٍ». ثُمَّ لَمْ يُصَلِّ بِنَا حَتَّى بَقِىَ ثَلاَثٌ مِنَ الشَّهْرِ وَصَلَّى بِنَا فِى الثَّالِثَةِ وَدَعَا أَهْلَهُ وَنِسَاءَهُ فَقَامَ بِنَا حَتَّى تَخَوَّفْنَا الْفَلاَحَ. قُلْتُ لَهُ وَمَا الْفَلاَحُ قَالَ السُّحُورُ.

228. Əbu Zərr ﷺ demişdir: "Allah Elçisi sallәllahu aleyhi və sәllәm ilə birlikdə oruc tutduq. O, Ramazanın qurtarmasına bir həftə qalmış fərz namazından başqa bir namaz qıldırmadı. Gecənin üçdə biri keçənə qədər namaz qıldırdı. (Ayın bitməsinə) altı gün qalmış (yəni iyirmi dördüncü gecə) namaz qıldırmadı, beş gün qalmış (yəni iyirmi beşinci gecə) isə gecənin yarısına qədər bizə namaz qıldırdı. Biz ona dedik: "Ey Allahın Elçisi! Bəlkə bu gecənin qalan hissəsini də bizə nafilə namaz qıldırasan?" O buyurdu: "Kim imamla birlikdə namaza başlayar və onunla birlikdə bitirərsə, ona gecəni namazla keçirməyin savabı yazılar!"[341]

---

[339] Əbu Davud, 558. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.

[340] əl-Buxari, 37.

[341] ət-Tirmizi, 806, 811; Əbu Davud, 1375. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

QİYAMI UZUN OLAN NAMAZ

٢٢٩ - عَنْ جَابِرٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ أَفْضَلُ الصَّلَاةِ طُولُ الْقُنُوتِ

229. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurdu: "Ən fəzilətli namaz qiyamı uzun olandır".[342]

٢٣٠ - عَنْ عَبْدِ اللَّهِ بْنِ حُبْشِيٍّ الْخَثْعَمِيِّ ﷺ أَنَّ النَّبِيَّ ﷺ سُئِلَ أَيُّ الأَعْمَالِ أَفْضَلُ قَالَ «طُولُ الْقِيَامِ». قِيلَ فَأَيُّ الصَّدَقَةِ أَفْضَلُ قَالَ «جُهْدُ الْمُقِلِّ». قِيلَ فَأَيُّ الْهِجْرَةِ أَفْضَلُ قَالَ «مَنْ هَجَرَ مَا حَرَّمَ اللَّهُ عَلَيْهِ». قِيلَ فَأَيُّ الْجِهَادِ أَفْضَلُ قَالَ «مَنْ جَاهَدَ الْمُشْرِكِينَ بِمَالِهِ وَنَفْسِهِ». قِيلَ فَأَيُّ الْقَتْلِ أَشْرَفُ قَالَ «مَنْ أُهْرِيقَ دَمُهُ وَعُقِرَ جَوَادُهُ».

230. Abdullah ibn Hubşi əl-Xasami ﷺ rəvayət edir ki, Peyğəmbərdən sallәllahu aleyhi və sәllәm soruşdular: "Ən fəzilətli əməl hansıdır?" O buyurdu: "Namazda qiyamın uzun olması". Yenə soruşdular: "Ən fəzilətli sədəqə hansıdır?" O buyurdu: "Kasıb olduqda verilən sədəqə". Yenə soruşdular: "Ən fəzilətli hicrət hansıdır?" O buyurdu: "Allahın haram buyurduğundan edilən hicrət". Yenə soruşdular: "Ən fəzilətli cihad hansıdır?" O buyurdu: "Malı və canı ilə müşriklərlə edilən cihad". Yenə soruşdular: "Ən şərəfli ölüm hansıdır?" O buyurdu: "Son damla qanı tökülənədək Allah yolunda döyüşərək öldürülən".[343]

DAVUDUN عليه السلام NAMAZI

٢٣١ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ لَهُ: «أَحَبُّ الصَّلاَةِ إِلَى اللَّهِ صَلاَةُ دَاوُدَ عليه السلام وَأَحَبُّ الصِّيَامِ إِلَى اللَّهِ صِيَامُ دَاوُدَ، وَكَانَ يَنَامُ نِصْفَ اللَّيْلِ وَيَقُومُ ثُلُثَهُ وَيَنَامُ سُدُسَهُ، وَيَصُومُ يَوْمًا وَيُفْطِرُ يَوْمًا».

231. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm ona demişdir: "Allahın ən çox xoşuna gələn namaz Davudun عليه السلام qıldığı namaz, ən çox xoşuna gələn oruc isə Davudun tutduğu orucdur. Davud gecənin yarısını yatar, sonra qalxıb onun üçdə birini namaz qılar, sonra da yerdə qalan altıda birini yatardı. Orucu da günaşırı tutardı".[344]

---

[342] Muslim, 756, 1257, 1804, 1805.
[343] Əbu Davud, 1451. əl-Albani səhih olduğunu bildirmişdir.
[344] əl-Buxari, 1131; Muslim, 2731.

TƏSABİH NAMAZI

٢٣٢ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ لِلْعَبَّاسِ بْنِ عَبْدِ الْمُطَّلِبِ «يَا عَبَّاسُ يَا عَمَّاهُ أَلاَ أُعْطِيكَ أَلاَ أَمْنَحُكَ أَلاَ أَحْبُوكَ أَلاَ أَفْعَلُ بِكَ عَشْرَ خِصَالٍ إِذَا أَنْتَ فَعَلْتَ ذَلِكَ غَفَرَ اللَّهُ لَكَ ذَنْبَكَ أَوَّلَهُ وَآخِرَهُ قَدِيمَهُ وَحَدِيثَهُ خَطَأَهُ وَعَمْدَهُ صَغِيرَهُ وَكَبِيرَهُ سِرَّهُ وَعَلاَنِيَتَهُ عَشْرَ خِصَالٍ أَنْ تُصَلِّىَ أَرْبَعَ رَكَعَاتٍ تَقْرَأُ فِى كُلِّ رَكْعَةٍ فَاتِحَةَ الْكِتَابِ وَسُورَةً فَإِذَا فَرَغْتَ مِنَ الْقِرَاءَةِ فِى أَوَّلِ رَكْعَةٍ وَأَنْتَ قَائِمٌ قُلْتَ سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ خَمْسَ عَشْرَةَ مَرَّةً ثُمَّ تَرْكَعُ فَتَقُولُهَا وَأَنْتَ رَاكِعٌ عَشْرًا ثُمَّ تَرْفَعُ رَأْسَكَ مِنَ الرُّكُوعِ فَتَقُولُهَا عَشْرًا ثُمَّ تَهْوِى سَاجِدًا فَتَقُولُهَا وَأَنْتَ سَاجِدٌ عَشْرًا ثُمَّ تَرْفَعُ رَأْسَكَ مِنَ السُّجُودِ فَتَقُولُهَا عَشْرًا ثُمَّ تَسْجُدُ فَتَقُولُهَا عَشْرًا ثُمَّ تَرْفَعُ رَأْسَكَ فَتَقُولُهَا عَشْرًا فَذَلِكَ خَمْسٌ وَسَبْعُونَ فِى كُلِّ رَكْعَةٍ تَفْعَلُ ذَلِكَ فِى أَرْبَعِ رَكَعَاتٍ إِنِ اسْتَطَعْتَ أَنْ تُصَلِّيَهَا فِى كُلِّ يَوْمٍ مَرَّةً فَافْعَلْ فَإِنْ لَمْ تَفْعَلْ فَفِى كُلِّ جُمُعَةٍ مَرَّةً فَإِنْ لَمْ تَفْعَلْ فَفِى كُلِّ شَهْرٍ مَرَّةً فَإِنْ لَمْ تَفْعَلْ فَفِى كُلِّ سَنَةٍ مَرَّةً فَإِنْ لَمْ تَفْعَلْ فَفِى عُمُرِكَ مَرَّةً».

232. İbn Abbas ﷺ rəvayət edir: “Allah Elçisi sallallahu aleyhi və səlləm (əmisi) Abbasa ﷺ dedi: “Ey əmim Abbas, sənə elə var-dövlət, bəxşiş verim ki, ona əməl etsən Allah sənin on xislətini (nöqsan, qüsur, eyib) - əvvəldə və sonda, keçmişdə və hazırda, qəsdən və səhvən, kiçik və böyük, gizlində və aşkarda olan günahlarını bağışlasın? Dörd rükət namaz qıl! Hər rükətində Fatihə surəsini və digər surələr oxu! Birinci rükətdə surələri oxuyub qurtardıqdan sonra qiyamda ikən (ayaq üstə) on beş dəfə: “Subhənəllahi vəlhəmdulilləhi və lə iləhə illəllahu və Allahu Əkbər”- (Allah pak və müqəddəsdir! Həmd Allahadır! Allahdan başqa haqq ilah yoxdur! Allah ən Böyükdür!) - de! Sonra ruku et və (o vəziyyətdə) on dəfə bu duanı de! Sonra rukudan qalx dikəl (və qiyamda) on dəfə bu duanı de! Sonra səcdə et və (o vəziyyətdə) on dəfə bu duanı de! Sonra səcdədən qalx otur və (o vəziyyətdə) on dəfə bu duanı de! Sonra bir daha səcdə et və (o vəziyyətdə) on dəfə bu duanı de! Sonra başını qaldır və (o vəziyyətdə) on dəfə bu duanı de! Hər rükət əsnasında duaların cəmi sayı yetmiş beş olmaqla dörd rükətdən ibarət namaz qıl! İmkan daxilində gündə bir dəfə, yaxud Cümədə (həftədə) bir dəfə, yaxud ayda bir dəfə, yaxud ildə bir dəfə, yaxud da ömründə bir dəfə olsa belə bu namazı qıl!”[345]

٢٣٣ - عَبْدُ اللَّهِ بْنُ عَمْرٍو ﷺ قَالَ قَالَ النَّبِىُّ ﷺ «ائْتِنِى غَدًا أَحْبُوكَ وَأُثِيبُكَ وَأُعْطِيكَ». حَتَّى ظَنَنْتُ أَنَّهُ يُعْطِينِى عَطِيَّةً قَالَ «إِذَا زَالَ النَّهَارُ فَقُمْ فَصَلِّ أَرْبَعَ رَكَعَاتٍ». فَذَكَرَ نَحْوَهُ قَالَ «تَرْفَعُ رَأْسَكَ - يَعْنِى مِنَ السَّجْدَةِ الثَّانِيَةِ - فَاسْتَوِ جَالِسًا وَلاَ تَقُمْ حَتَّى تُسَبِّحَ عَشْرًا وَتَحْمَدَ عَشْرًا وَتُكَبِّرَ عَشْرًا وَتُهَلِّلَ عَشْرًا ثُمَّ تَصْنَعُ ذَلِكَ فِى الأَرْبَعِ رَكَعَاتٍ». قَالَ

[345] Əbu Davud, 1299; İbn Məcə, 1387, 1450. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 7937) səhih olduğunu bildirmişdir.

«فَإِنَّكَ لَوْ كُنْتَ أَعْظَمَ أَهْلِ الأَرْضِ ذَنْبًا غُفِرَ لَكَ بِذَلِكَ». قُلْتُ فَإِنْ لَمْ أَسْتَطِعْ أَنْ أُصَلِّيَهَا تِلْكَ السَّاعَةَ قَالَ «صَلِّهَا مِنَ اللَّيْلِ وَالنَّهَارِ».

233. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, (bir gün) Peyğəmbər sallallahu aleyhi və səlləm mənə: "Sabah yanıma gəl, sənə hədiyyə verim, səni mükafatlandırım"- deyə buyurdu, mən də elə güman etdim ki, o mənə hədiyyə verəcək. O dedi: "Gün batmağa doğru meyl etdikdə dörd rükət namaz qıl. İkinci səcdədən sonra başını qaldırıb qamətini düzəldərək otur və on dəfə "subhənəllah", on dəfə "əlhəmdulilləh", on dəfə "Allahu Əkbər" və on dəfə "lə iləhə illəllah" demədən ayağa qalxma! Sonra bunları dörd rükətdə edirsən. Əgər sən yer üzünün ən böyük günahkarı olsan belə bağışlanarsan". Mən dedim: "Bəs mən onu həmin vaxtda qıla bilməsəm necə?" Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Gecə və gündüz istədiyin vaxtda qıl".[346]

EVDƏN ÇIXDIQDA VƏ EVƏ GİRDİKDƏ QILINAN NAMAZ

٢٣٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: "إِذَا خَرَجْتَ مِنْ مَنْزِلِكَ فَصَلِّ رَكْعَتَيْنِ يَمْنَعَانِكَ مِنْ مَخْرَجِ السَّوءِ، وَإِذَا دَخَلْتَ إِلَى مَنْزِلِكَ فَصَلِّ رَكْعَتَيْنِ يَمْنَعَانِكَ مِنْ مَدْخَلِ السَّوءِ".

234. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Evindən çıxdıqda iki rükət namaz qıl ki, səni pisliklə çıxmaqdan qorusun, evinə girdikdə isə iki rükət namaz qıl ki, səni pisliklə daxil olmaqdan qorusun".[347]

SÜNNƏLƏRİ EVDƏ QILMAQ

٢٣٥ - عَنْ جَابِرٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ إِذَا قَضَى أَحَدُكُمْ الصَّلَاةَ فِي مَسْجِدِهِ فَلْيَجْعَلْ لِبَيْتِهِ نَصِيبًا مِنْ صَلَاتِهِ فَإِنَّ اللَّهَ جَاعِلٌ فِي بَيْتِهِ مِنْ صَلَاتِهِ خَيْرًا

235. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Sizdən biriniz namazını məsciddə qıldıqda evi üçün də nama-

[346] Əbu Davud, 1298, 1300; İbn Məcə, 1387. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[347] əl-Bəzzar, 8567; əl-Beyhəqi "Şuabul-İman" 3078. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 505) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1323) həsən olduğunu bildirmişdir.

zından bir pay ayırsın. Çünki Allah namazının səbəbilə onun evində bir xeyir yaradır".[348]

٢٣٦ - عَنْ زَيْدِ بْنِ ثَابِتٍ ﷺ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ اتَّخَذَ حُجْرَةً - قَالَ حَسِبْتُ أَنَّهُ قَالَ - مِنْ حَصِيرٍ فِى رَمَضَانَ فَصَلَّى فِيهَا لَيَالِىَ، فَصَلَّى بِصَلاَتِهِ نَاسٌ مِنْ أَصْحَابِهِ، فَلَمَّا عَلِمَ بِهِمْ جَعَلَ يَقْعُدُ، فَخَرَجَ إِلَيْهِمْ فَقَالَ: «قَدْ عَرَفْتُ الَّذِى رَأَيْتُ مِنْ صَنِيعِكُمْ، فَصَلُّوا أَيُّهَا النَّاسُ فِى بُيُوتِكُمْ، فَإِنَّ أَفْضَلَ الصَّلاَةِ صَلاَةُ الْمَرْءِ فِى بَيْتِهِ إِلاَّ الْمَكْتُوبَةَ».

236. Zeyd ibn Sabit ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm Ramazan ayında özü üçün hücrə düzəltdi və bir neçə gecə orada namaz qıldı. Əshabələrindən bir qismi ona qoşulub bu namazı qılmağa başladı. O, bunu biləndə (evində) oturub (namaza çıxmadı). Sonra onların yanına gəlib dedi: "Mən sizin nə etdiyinizi başa düşürəm. Ancaq ey insanlar, öz evlərinizdə namaz qılın. Çünki, fərz namazlarından başqa ən fəzilətli namaz insanın öz evində qıldığı namazdır".[349]

ÇOXLU SƏCDƏ ETMƏK

٢٣٧ - حَدَّثَنِي مَعْدَانُ بْنُ أَبِي طَلْحَةَ الْيَعْمَرِيُّ قَالَ لَقِيتُ ثَوْبَانَ ﷺ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ فَقُلْتُ أَخْبِرْنِي بِعَمَلٍ أَعْمَلُهُ يُدْخِلُنِي اللَّهُ بِهِ الْجَنَّةَ أَوْ قَالَ قُلْتُ بِأَحَبِّ الْأَعْمَالِ إِلَى اللَّهِ فَسَكَتَ ثُمَّ سَأَلْتُهُ فَسَكَتَ ثُمَّ سَأَلْتُهُ الثَّالِثَةَ فَقَالَ سَأَلْتُ عَنْ ذَلِكَ رَسُولَ اللَّهِ ﷺ فَقَالَ عَلَيْكَ بِكَثْرَةِ السُّجُودِ لِلَّهِ فَإِنَّكَ لَا تَسْجُدُ لِلَّهِ سَجْدَةً إِلَّا رَفَعَكَ اللَّهُ بِهَا دَرَجَةً وَحَطَّ عَنْكَ بِهَا خَطِيئَةً

237. Mədan ibn Əbu Talha demişdir: "Allah Elçisinin sallallahu aleyhi və səlləm köləlikdən azad etdiyi Səubən ﷺ adlı səhabəsi ilə görüşdum və ona dedim: "Mənə elə bir əməl haqqında xəbər ver ki, ona əməl etdiyim təqdirdə Allah məni Cənnətə daxil etsin!" O susdu. Mən yenə soruşduqda, o yenə də susdu. Üçüncü dəfə soruşduqda, o dedi: "Mən də bu haqda Allah Elçisindən sallallahu aleyhi və səlləm soruşdum, o da belə cavab verdi: "Allaha çoxlu səcdə etməyə diqqət yetir. Şübhəsiz ki, sən Allah üçün hər dəfə səcdə etdikdə, onun sayəsində Allah səni bir dərəcə yüksəldir və bir günahını silir".[350]

---

[348] Muslim, 778, 1298, 1858.
[349] əl-Buxari, 731; Muslim, 731; əd-Dərimi, 1373.
[350] Muslim, 488, 753, 1121; ən-Nəsəi, 1127; Əhməd, 21336.

GECƏ VAXTI NAMAZ QILMAQ

٢٣٨ - عَنِ ابْنِ مَسْعُودٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «عَجِبَ رَبُّنَا ﷻ مِنْ رَجُلَيْنِ رَجُلٍ ثَارَ عَنْ وِطَائِهِ وَلِحَافِهِ مِنْ بَيْنِ أَهْلِهِ وَحَبِّهِ إِلَى صَلاَتِهِ فَيَقُولُ رَبُّنَا أَيَا مَلاَئِكَتِى انْظُرُوا إِلَى عَبْدِى ثَارَ مِنْ فِرَاشِهِ وَوِطَائِهِ وَمِنْ بَيْنِ حَبِّهِ وَأَهْلِهِ إِلَى صَلاَتِهِ رَغْبَةً فِيمَا عِنْدِى وَشَفَقَةً مِمَّا عِنْدِى. وَرَجُلٍ غَزَا فِى سَبِيلِ اللَّهِ ﷻ فَانْهَزَمُوا فَعَلِمَ مَا عَلَيْهِ مِنَ الْفِرَارِ وَمَا لَهُ فِى الرُّجُوعِ فَرَجَعَ حَتَّى أُهَرِيقَ دَمُهُ رَغْبَةً فِيمَا عِنْدِى ﷻ وَشَفَقَةً مِمَّا عِنْدِى فَيَقُولُ اللَّهُ ﷻ لِمَلاَئِكَتِهِ انْظُرُوا إِلَى عَبْدِى رَجَعَ رَغْبَةً فِيمَا عِنْدِى وَرَهْبَةً مِمَّا عِنْدِى حَتَّى أُهَرِيقَ دَمُهُ»

238. İbn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Rəbbimiz ﷻ iki kişiyə təəccüblənir[351]. (Onlardan biri) o kişidir ki, yatağından qalxıb ailəsini tərk edərək namaza durur. Rəbbimiz buyurur: "Ey mələklərim, Mənim quluma baxın! O, yatağından qalxıb ailəsini tərk edərək, dərgahımda olan (mükafata) can ataraq və dərgahımda olan (əzabdan) qorxaraq namaza durur". Həmçinin, o kişi ki, Allahın ﷻ yolunda döyüşə gedir və (döyüş yoldaşları) darmadağın edildiyi halda, döyüşdən qaçmağın haram olduğunu və döyüşə qayıtmağın onun xeyrinə olduğunu bilərək, qayıdıb Allahın ﷻ dərgahında olana can ataraq və Onun dərgahında olandan qorxaraq son damla qanı tökülənə qədər döyüşür. Allah ﷻ mələklərinə buyurur: "Mənim quluma baxın! O, dərgahımda olan (mükafata) can ataraq və dərgahımda olan (əzabdan) qorxaraq qayıtdı və son damla qanı tökülənə qədər döyüşdü".[352]

٢٣٩ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «رَحِمَ اللَّهُ رَجُلاً قَامَ مِنَ اللَّيْلِ فَصَلَّى وَأَيْقَظَ امْرَأَتَهُ فَصَلَّتْ فَإِنْ أَبَتْ نَضَحَ فِى وَجْهِهَا الْمَاءَ رَحِمَ اللَّهُ امْرَأَةً قَامَتْ مِنَ اللَّيْلِ فَصَلَّتْ وَأَيْقَظَتْ زَوْجَهَا فَإِنْ أَبَى نَضَحَتْ فِى وَجْهِهِ الْمَاءَ».

239. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Gecə vaxtı yatağından qalxıb namaz qılan və zövcəsini namaza oyadan, oyanmadığı təqdirdə isə onun üzünə su çiləyən kişiyə Allah rəhm etsin! Habelə, gecə vaxtı yatağından qalxıb namaz qılan, ərini namaza oyadan, oyanmadığı təqdirdə isə onun üzünə su çiləyən qadına Allah rəhm etsin!"[353]

٢٤٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «شَرَفُ الْمُؤمِنِ صَلاَتُهُ بِاللَّيْلِ وَعِزُّهُ اسْتِغْنَاؤُهُ عَمَّا فِي أَيْدِي

[351] Allahın sifətlərinin necəliyi barəsində fikir yürütmək olmaz.
[352] Əhməd, 3753, 3949, 4028. əl-Albani "Mişkətul-Məsabih"də (№ 1251) səhih olduğunu bildirmişdir.
[353] Əbu Davud, 1450, 1452. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

النَّاسِ».

240. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Möminin şərəfi gecə namazını qılmasında, izzəti isə insanların əlində olana möhtac olmamasındadır".[354]

٢٤١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قِيلَ يَا رَسُوْلَ اللهِ! إِنَّ فُلاَنًا يُصَلِّي اللَّيْلَ كُلَّهُ فَإِذَا أَصْبَحَ سَرَقَ قَالَ: «سَيَنْهَاهُ مَا تَقُولُ».

241. Əbu Hureyra ﷺ demişdir: "Soruşdular: "Ey Allahın Elçisi! Filankəs bütün gecəni namaz qılır, səhər açıldıqda isə oğurluq edir". O buyurdu: "(Namaz) bu söylədiyin (günahdan) onu çəkindirəcək".[355]

٢٤٢ - أَنَّ عَائِشَةَ ﵂ أَخْبَرَتْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَا مِنِ امْرِئٍ تَكُونُ لَهُ صَلاَةٌ بِلَيْلٍ فَغَلَبَهُ عَلَيْهَا نَوْمٌ إِلاَّ كَتَبَ اللَّهُ لَهُ أَجْرَ صَلاَتِهِ وَكَانَ نَوْمُهُ صَدَقَةً عَلَيْهِ».

242. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Gecə namazını qılan hər hansı bir kişi yuxuya gedərsə, Allah onun üçün gecə namazının savabını yazar, yuxusu isə ona sədəqə olar".[356]

٢٤٣ - عَنْ بِلاَلٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «عَلَيْكُمْ بِقِيَامِ اللَّيْلِ فَإِنَّهُ دَأْبُ الصَّالِحِينَ قَبْلَكُمْ وَإِنَّ قِيَامَ اللَّيْلِ قُرْبَةٌ إِلَى اللَّهِ وَمَنْهَاةٌ عَنِ الإِثْمِ وَتَكْفِيرٌ لِلسَّيِّئَاتِ وَمَطْرَدَةٌ لِلدَّاءِ عَنِ الْجَسَدِ».

243. Bilal ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Gecə namazını qılın! Çünki o, sizdən əvvəlki əməlisalehlərin adətidir. Gecə namazı Allaha yaxınlıq, günahlardan çəkinmə, günahlara kəffarə və bədən xəstəliyini aparandır".[357]

DƏSTƏMAZ NAMAZI

٢٤٤ - حَدَّثَنِي أَبِي بُرَيْدَةُ ﷺ قَالَ أَصْبَحَ رَسُولُ اللَّهِ ﷺ فَدَعَا بِلاَلاً فَقَالَ «يَا بِلاَلُ بِمَ سَبَقْتَنِي إِلَى الْجَنَّةِ مَا دَخَلْتُ الْجَنَّةَ قَطُّ إِلاَّ سَمِعْتُ خَشْخَشَتَكَ أَمَامِي دَخَلْتُ الْبَارِحَةَ الْجَنَّةَ فَسَمِعْتُ خَشْخَشَتَكَ أَمَامِي فَأَتَيْتُ عَلَى قَصْرٍ مُرَبَّعٍ

---

[354] İbn Asakir "Tarixu-Dəməşqi" 23/ 81. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3710) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1903) həsən olduğunu bildirmişdir.
[355] İbn Hibban, 2551. əl-Albani səhih olduğunu bildirmişdir.
[356] ən-Nəsəi, 1784, 1795. əl-Albani səhih olduğunu bildirmişdir.
[357] ət-Tirmizi, 3549. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

مُشَرَّفٍ مِنْ ذَهَبٍ فَقُلْتُ لِمَنْ هَذَا الْقَصْرُ فَقَالُوا لِرَجُلٍ مِنَ الْعَرَبِ فَقُلْتُ أَنَا عَرَبِيٌّ لِمَنْ هَذَا الْقَصْرُ قَالُوا لِرَجُلٍ مِنْ قُرَيْشٍ قُلْتُ أَنَا قُرَشِيٌّ لِمَنْ هَذَا الْقَصْرُ قَالُوا لِرَجُلٍ مِنْ أُمَّةِ مُحَمَّدٍ قُلْتُ أَنَا مُحَمَّدٌ لِمَنْ هَذَا الْقَصْرُ قَالُوا لِعُمَرَ بْنِ الْخَطَّابِ». فَقَالَ بِلاَلٌ يَا رَسُولَ اللَّهِ مَا أَذَّنْتُ قَطُّ إِلاَّ صَلَّيْتُ رَكْعَتَيْنِ وَمَا أَصَابَنِى حَدَثٌ قَطُّ إِلاَّ تَوَضَّأْتُ عِنْدَهَا وَرَأَيْتُ أَنَّ لِلَّهِ عَلَىَّ رَكْعَتَيْنِ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «بِهِمَا».

244. Əbu Bureydə ﷺ demişdir: “(Bir dəfə) səhər Allah Elçisi səlləllahu aleyhi və səlləm Bilalı ﷺ çağırdı və ona dedi: “Ey Bilal! Hansı əmələ görə Cənnətə girməkdə məni qabaqladın? Mən nə vaxt (yuxuda) Cənnətə girdimsə, hər dəfə önümdə sənin xışıltını (ayaq səsini) eşitdim. Dünən Cənnətə girmişdim, önümdə (yenə) sənin xışıltını eşitdim və qızıldan düzəldilmiş dörd tərəfi eyvanlı bir saraya gəldim. Dedim: “Bu saray kimindir?” Dedilər: “Bir ərəbindir”. Dedim: “Mən ərəbəm, bu saray kimindir?” Dedilər: “Qureyşli bir kişinin”. Dedim: “Mən Qureyşliyəm, bu saray kimindir?” Dedilər: “Muhəmməd ümmətindən bir kişinin”. Dedim: “Mən Muhəmmədəm, bu saray kimindir?” Dedilər: “Ömər ibn əl-Xəttabın”. Bilal ﷺ dedi: “Ey Allahın Elçisi! Mən nə vaxt azan verdimsə, iki rükət namaz qıldım və nə vaxt dəstəmazım pozuldusa, dəstəmaz aldım və Allah üçün bu iki rükət namaza riayət etdim (heç vaxt tərk etmədim)” Allah Elçisi səlləllahu aleyhi və səlləm dedi: “Elə bu iki şeyə görə (Cənnətə məndən öncə girirsən)”.[358]

٢٤٥ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ لِبِلاَلٍ عِنْدَ صَلاَةِ الْغَدَاةِ «يَا بِلاَلُ حَدِّثْنِى بِأَرْجَى عَمَلٍ عَمِلْتَهُ عِنْدَكَ فِى الإِسْلاَمِ مَنْفَعَةً فَإِنِّى سَمِعْتُ اللَّيْلَةَ خَشْفَ نَعْلَيْكَ بَيْنَ يَدَىَّ فِى الْجَنَّةِ». قَالَ بِلاَلٌ مَا عَمِلْتُ عَمَلاً فِى الإِسْلاَمِ أَرْجَى عِنْدِى مَنْفَعَةً مِنْ أَنِّى لاَ أَتَطَهَّرُ طُهُورًا تَامًّا فِى سَاعَةٍ مِنْ لَيْلٍ وَلاَ نَهَارٍ إِلاَّ صَلَّيْتُ بِذَلِكَ الطُّهُورِ مَا كَتَبَ اللَّهُ لِى أَنْ أُصَلِّىَ.

245. Əbu Hureyra ﷺ belə rəvayət edir: “Allah Elçisi ﷺ Sübh namazı vaxtı Bilala belə buyurdu: “Ey Bilal, mənə İslamda sənə fayda verəcəyinə daha çox ümid bəslədiyin bir əməlini söylə! Çünki, mən bu gecə Cənnətdə qarşımda sənin səndəlinin tıqqıltısını eşitdim”. Bilal dedi: “Gecənin və gündüzün hər hansı bir vaxtı tam şəkildə dəstəmaz alaraq Allahın mənə yazdığı qədər namaz qılmağımdan İslamda mənə fayda verəcəyinə daha çox ümid bəslədiyim başqa bir əməl etmədim”.[359]

---

[358] ət-Tirmizi, 3689, 4053; Əhməd, 21918. əl-Albani səhih olduğunu bildirmişdir.
[359] Muslim, 6478.

NAMAZDA ON, YÜZ VƏ MİN AYƏ OXUYANIN SAVABI

٢٤٦ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ قَامَ بِعَشْرِ آيَاتٍ لَمْ يُكْتَب مِنَ الْغَافِلِين، وَمَنْ قَامَ بِمِئَةِ آيَةٍ كُتِبَ مِنَ الْقَانِتِين، وَمَنْ قَامَ بِأَلْفِ آيَةٍ كُتِبَ مِنَ الْمُقَنْطَرِين».

246. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Kim (gecə namazında) on ayə oxuyarsa, qafillərdən yazılmaz. Kim yüz ayə oxuyarsa, Allaha müti olanlardan yazılar. Kim min ayə oxuyarsa, savabı qintarlarla[360] yazılar".[361]

٢٤٧ - عَن أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: مَنْ صَلَّى فِي لَيْلَةٍ بِمِائَةِ آيَةٍ، لَمْ يُكْتَبْ مِنَ الْغَافِلِينَ، وَمَنْ صَلَّى فِي لَيْلَةٍ بِمِائَتَيْ آيَةٍ، فَإِنَّهُ يُكْتَبُ مِنَ الْقَانِتِينَ الْمخلصِّينَ

247. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurdu: "Kim bir gecədə yüz ayə oxuyaraq namaz qılarsa, qafillərdən yazılmaz və kim bir gecədə iki yüz ayə oxuyaraq namaz qılarsa, o, müti və ixlaslı kimsələrdən yazılar".[362]

TƏKLİKDƏ QILINAN NAFİLƏ NAMAZLARININ FƏZİLƏTİ

٢٤٨ - عَنْ صُهَيْب ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «فَضْلُ صَلاَةِ الرَّجُلِ فِي بَيْتِهِ عَلَى صَلاَتِهِ حَيْثُ يَرَاهُ النَّاسُ، كَفَضْلِ الْمَكْتُوبَةِ عَلَى النَّافِلَةِ»....«صَلاَةُ الرَّجُلِ تَطَوُّعاً حَيْثُ لاَ يَرَاهُ النَّاسُ تَعْدِلُ صَلاَتَهُ عَلَى أَعْيُنِ النَّاسِ خَمْساً وَعِشْرِينَ».

248. Suheyb[363] ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Fərz namazı nafilə namazından üstün oldüğü kimi, kişinin evində qıldığı nafilə namazı da insanların yanında qıldığı (nafilə) namazdan üstündür".[364] Digər rəvayətdə deyilir: "Bir kişinin təklikdə qıldığı nafilə namaz, insanların gözü önündə qıldığı iyirmi beş (nafilə) namaza bərabərdir".[365]

---

[360] Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə buyurduğunu rəvayət etmişdir: "Qintar on iki min uqiyəyə bərabərdir. Bir uqiyə yerlə göy arasında olan hər şeydən daha xeyirlidir". İbn Hibban, 2573.

[361] Əbu Davud, 1398, 1400. əl-Albani səhih olduğunu bildirmişdir.

[362] əl-Hakim, 1161. əl-Albani "Sifətus-Salətin-Nəbi" kitabında səhih olduğunu bildirmişdir.

[363] Əbu Yəhyə Suheyb ibn Sinan ər-Rumi ﷺ Peyğəmbərin ﷺ səhabələrindən olmuşdur. Hicrətin 38-ci ilində Mədinədə vəfat etmişdir.

[364] ət-Tabərani "Mucəmul-Kəbir" 7322. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4217) həsən olduğunu bildirmişdir.

[365] əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3821) səhih olduğunu bildirmişdir.

٢٤٩ - عَنْ زَيْدِ بْنِ ثَابِتٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «أَفْضَلُ صَلاَتِكُمْ فِى بُيُوتِكُمْ إِلاَّ الْمَكْتُوبَةَ»

249. Zeyd ibn Səbit ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Fərz namazlarından başqa sizin ən fəzilətli namazınız evlərinizdə qıldığınız namazdır".[366]

٢٥٠ - عن ضمرة بن حبيب عن رجل من أصحاب النبي ﷺ قال تَطَوُّعُ الرَّجُلِ فِي بَيْتِهِ يَزِيدُ على تَطَوُّعِهِ عِنْدَ النَّاسِ كَفَضْلِ صلاةِ الرَّجُلِ فِي جَماعَةٍ على صَلاته وَحْدَهُ

250. Dumra ibn Həbib səhabələrdən bir kişidən rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Kişinin camaatla qıldığı namaz tək qıldığı namazdan üstün olduğu kimi, evində qıldığı nafilə namazı da camaat arasında qıldığı nafilə namazlarından daha üstündür".[367]

٢٥١ - عَنْ صُهَيْبٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: صَلاَةُ الرَّجُلِ تَطَوُّعاً حَيْثُ لاَيَرَاهُ النَّاسُ تَعْدِلُ صَلاَتَهُ عَلَى أَعْيُنِ النَّاسِ خَمْساً وَعِشْرِينَ.

251. Suheyb ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Kişinin gizlində qıldığı nafilə namazı, insanlar arasında qıldığı iyirmi beş nafilə namaza bərabərdir".[368]

BEYTUL-MƏQDİSDƏ NAMAZ QILMAĞIN FƏZİLƏTİ

٢٥٢ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ «أَنَّ سُلَيْمَانَ بْنَ دَاوُدَ ﷺ لَمَّا بَنَى بَيْتَ الْمَقْدِسِ سَأَلَ اللَّهَ ﷻ خِلاَلاً ثَلاَثَةً سَأَلَ اللَّهَ ﷻ حُكْمًا يُصَادِفُ حُكْمَهُ فَأُوتِيَهُ وَسَأَلَ اللَّهَ ﷻ مُلْكًا لاَ يَنْبَغِى لأَحَدٍ مِنْ بَعْدِهِ فَأُوتِيَهُ وَسَأَلَ اللَّهَ ﷻ حِينَ فَرَغَ مِنْ بِنَاءِ الْمَسْجِدِ أَنْ لاَ يَأْتِيَهُ أَحَدٌ لاَ يَنْهَزُهُ إِلاَّ الصَّلاَةُ فِيهِ أَنْ يُخْرِجَهُ مِنْ خَطِيئَتِهِ كَيَوْمِ وَلَدَتْهُ أُمُّهُ». فَقَالَ النَّبِيُّ ﷺ أَمَّا اثْنَتَانِ فَقَدْ أُعْطِيَهُمَا وَأَرْجُو أَنْ يَكُونَ قَدْ أُعْطِيَ الثَّالِثَةَ

252. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Davudun oğlu Süleyman salləllahu aleyhi və səlləm Beytul-Məqdisi (Qüds məscidini) tikəndə Allahdan ﷻ üç şey istədi; Allahdan ﷻ düzgün

---

366 ət-Tirmizi, 450, 452. əl-Albani səhih olduğunu bildirmişdir.

367 Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 3306, 5375. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2953) səhih olduğunu bildirmişdir.

368 Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 5082, 7304. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3821) həsən olduğunu bildirmişdir.

hökm çıxarmağı istədi, bu ona verildi. Allahdan ﷻ özündən sonra heç kəsə verilməyəcək bir səltənət istədi, bu da ona verildi. Allahdan ﷻ Beytul-Məqdisin tikintisini qurtardıqda, ora namaz qılmaq üçün gələn hər kəsi günahlarından, anasından doğulduğu gündə olduğu kimi təmizləməsini istədi". Sonra Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: "İkisi ona verildi və ümid edirəm ki, üçüncüsü də ona verilmişdir".[369]

MİSVAK VƏ ONDAN İSTİFADƏ EDİB NAMAZ QILMAQ

٢٥٣ - سَمِعْتُ عَائِشَةَ ﵂ عَنِ النَّبِيِّ ﷺ قَالَ «السِّوَاكُ مَطْهَرَةٌ لِلْفَمِ مَرْضَاةٌ لِلرَّبِّ».

253. Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm belə buyurdu: "Misvak ağzın təmizliyi və Rəbbin razılığıdır".[370]

٢٥٤ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ ﵄ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِذَا قَامَ أَحَدكُمْ يُصَلِّي مِنَ اللَّيلِ فَلْيَسْتَكْ فَإِنَّ أَحَدكُمْ إِذَا قَرَأَ فِي صَلاَتِهِ وَضَعَ مَلَكٌ فَاهُ عَلَى فِيهِ وَ لاَ يَخْرُجُ مِنْ فِيهِ شَيْءٌ إِلاَّ دَخَلَ فَمُ الْمَلَك».

254. Cabir ibn Abdullah ﵄ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Sizdən biriniz gecə namaza durarsa, misvakla dişlərini təmizləsin. Həqiqətən, sizdən biriniz namazda (Quran) oxuduqda, mələk onunla ağız-ağıza durur və onun ağzından çıxanlar mələyin ağzına daxil olur".[371]

٢٥٥ - عَنْ عَلِيٍّ ﵁ قَالَ: أُمِرْنَا بِالسِّوَاكِ وَقَالَ:«إِنَّ الْعَبْدَ إِذَا قَامَ يُصَلِّى أَتَاهُ الْمَلَكُ فَقَامَ خَلْفَهُ يَسْتَمِعُ الْقُرْآنَ وَيَدْنُو، فَلاَ يَزَالُ يَسْتَمِعُ وَيَدْنُو حَتَّى يَضَعَ فَاهُ عَلَى فِيهِ، فَلاَ يَقْرَأُ آيَةً إِلاَّ كَانَتْ فِى جَوْفِ الْمَلَكِ».

255. Əli ﵁ demişdir: "(Peyğəmbər salləllahu aleyhi və səlləm) bizə misvakdan istifadə etməyi əmr edib buyurdu: "Bəndə qalxıb namaz qılanda bir mələk gəlib onun arxasında dayanır, ona yaxınlaşıb oxuduğu Quranı dinləyir. O, qulaq asaraq o qədər yaxınlaşır ki, hətta onunla ağız-ağıza durur. Onun oxuduğu hər bir ayə də mələyin daxilinə keçir".[372]

---

[369] İbn Məcə, 1408; ən-Nəsəi, 693, 701. əl-Albani səhih olduğunu bildirmişdir.
[370] ən-Nəsəi, 5; İbn Xuzeymə, 135. əl-Albani səhih olduğunu bildirmişdir.
[371] əl-Beyhəqi "Şuabul-İman" 2117. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 720) hədisin səhih olduğunu bildirmişdir.
[372] əl-Beyhəqi "Sunənul-Kubra" 161, 165. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1213) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

٢٥٦ - عَنِ ابْنِ شِهَاب ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِذَا قَامَ الرَّجُل فَتَوَضَّأَ لَيْلاً، أَوْ نَهَاراً فَأَحْسَنَ وضُوءهُ، وَاسْتَنَّ، ثُمَّ قَامَ فَصَلَّى، أَطَافَ بِهِ مَلَكٌ، وَدَنَا مِنْهُ، حَتَّى يَضَع فَاهُ عَلَى فِيهِ، فَمَا يَقْرَأُ إِلاَّ فِي فِيهِ، وَإِذَا لَمْ يَسْتَنَّ أَطَافَ بِهِ وَلَمْ يَضَع فَاهُ عَلَى فِيهِ، وَكَانَ رَسُوْلُ اللهِ ﷺ لاَ يَقُومُ إِلَى الصَّلاَةِ حَتَّى يَسْتَنَّ».

256. İbn Şihab ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurmuşdur: “Bir kişi gecə və ya gündüz gözəl bir şəkildə dəstəmaz alar, dişini təmizləyər, sonra namaz qılarsa, bir mələk onu əhatə edər və ona o qədər yaxınlaşar ki, ağzını onun ağzına birləşdirər. Onun oxuduğu mələyin ağzına daxil olar. Əgər dişlərini təmizləməsə, mələk onu əhatə edər, lakin ağzını onun ağzına birləşdirməz”. Ravi dedi: “Allah Elçisi sallәllahu aleyhi və sәlləm dişlərini təmizləmədən namaza durmazdı”.[373]

[373] İbnul-Mubarak “Zuhd” 1205. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 723) səhih olduğunu bildirib.

CÜMƏ

CÜMƏ GÜNÜNÜN FƏZİLƏTİ

٢٥٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللهِ ﷺ قَالَ: «أَفْضَلُ الْأَيَّامِ عِنْدَ اللهِ يَوْمُ الْجُمُعَةِ».

257. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Allah dərgahında ən fəzilətli gün Cümə günüdür".[374]

٢٥٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «نَحْنُ الآخِرُونَ السَّابِقُونَ يَوْمَ الْقِيَامَةِ، بَيْدَ أَنَّهُمْ أُوتُوا الْكِتَابَ مِنْ قَبْلِنَا، ثُمَّ هَذَا يَوْمُهُمُ الَّذِي فُرِضَ عَلَيْهِمْ فَاخْتَلَفُوا فِيهِ، فَهَدَانَا اللَّهُ، فَالنَّاسُ لَنَا فِيهِ تَبَعٌ، الْيَهُودُ غَدًا وَالنَّصَارَى بَعْدَ غَدٍ».

258. Əbu Hureyra ﷺ rəvayət edir ki, o, Allah Elçisinin ﷺ belə dediyini eşitmişdir: "Hərçənd onlara[375] bizdən əvvəl Kitab verilmişdir, lakin biz sonuncular[376] Qiyamət günü birinci[377] olacağıq. Onlar özlərinə fərz buyurulmuş bu günləri barəsində ixtilafa düşdülər[378]. Lakin Allah bizi (bu günü ehtiramla keçirməyə) müvəffəq etdi və bu xüsusda insanlar bizim ardımızca gəldilər, yəhudilər sabahkı günü[379], xristianlar isə ondan sonrakı günü[380] (təntənə ilə qeyd edirlər)".[381]

٢٥٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ ذَكَرَ يَوْمَ الْجُمُعَةِ فَقَالَ فِيهِ سَاعَةٌ لَا يُوَافِقُهَا عَبْدٌ مُسْلِمٌ وَهُوَ يُصَلِّي يَسْأَلُ اللَّهَ شَيْئًا إِلَّا أَعْطَاهُ إِيَّاهُ زَادَ قُتَيْبَةُ فِي رِوَايَتِهِ وَأَشَارَ بِيَدِهِ يُقَلِّلُهَا

259. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm Cümə günü haqqında danışdı və belə buyurdu: "Cümə günündə elə bir saat var ki, hər hansı müsəlman qul namazda həmin saatda Allahdan bir şey istəyərsə, şübhəsiz, Allah ona istədiyini verər". Əli ilə işarə edərək saatın qısa bir vaxt olduğunu göstərdi".[382]

---

374 əl-Beyhəqi "Şuabul-İman" 2783. əl-Alabani "Sahihul-Cəmius-Sağir"də (№ 1098) səhih olduğunu bildirmişdir.

375 Burada yəhudilər və xristianlar nəzərdə tutulur.

376 Yəni zəmanəyə görə sonuncu ümmətik.

377 Axirətdə bu ümmətin hamıdan əvvəl Sirat körpüsündən keçib Cənnətə daxil olacağı qəsd edilir.

378 Allah Kitab əhlinə Cümə gününü ehtiramla keçirməyi vacib buyurmuş, onlar isə bu xüsusda fikir ayrılığına düşüb asi olmuşlar.

379 Yəni şənbə gününü.

380 Yəni bazar gününü.

381 əl-Buxari, 876.

382 Muslim, 852, 1406.

٢٦٠ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ «الْتَمِسُوا السَّاعَةَ الَّتِى تُرْجَى فِى يَوْمِ الْجُمُعَةِ بَعْدَ الْعَصْرِ إِلَى غَيْبُوبَةِ الشَّمْسِ».

260. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "(Duaların qəbul olunacağı) vaxtı axtarın! Ümid edilir ki, bu, Cümə günü Əsrdən sonra günəş batana qədər olan vaxtdadır".[383]

٢٦١ - عَنْ أَبِى هُرَيْرَةَ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «خَيْرُ يَوْمٍ طَلَعَتْ فِيهِ الشَّمْسُ يَوْمُ الْجُمُعَةِ فِيهِ خُلِقَ آدَمُ (وَفِيهِ أُدْخِلَ الْجَنَّةَ وَفِيهِ أُخْرِجَ مِنْهَا) وَفِيهِ أُهْبِطَ وَفِيهِ تِيبَ عَلَيْهِ وَفِيهِ مَاتَ وَفِيهِ تَقُومُ السَّاعَةُ وَمَا مِنْ دَابَّةٍ إِلاَّ وَهِىَ مُسِيخَةٌ يَوْمَ الْجُمُعَةِ مِنْ حِينَ تُصْبِحُ حَتَّى تَطْلُعَ الشَّمْسُ شَفَقًا مِنَ السَّاعَةِ إِلاَّ الْجِنَّ وَالإِنْسَ وَفِيهِ سَاعَةٌ لاَ يُصَادِفُهَا عَبْدٌ مُسْلِمٌ وَهُوَ يُصَلِّى يَسْأَلُ اللَّهَ حَاجَةً إِلاَّ أَعْطَاهُ إِيَّاهَا». قَالَ كَعْبٌ ذَلِكَ فِى كُلِّ سَنَةٍ يَوْمٌ. فَقُلْتُ بَلْ فِى كُلِّ جُمُعَةٍ. قَالَ فَقَرَأَ كَعْبٌ التَّوْرَاةَ فَقَالَ صَدَقَ النَّبِىُّ ﷺ. قَالَ أَبُو هُرَيْرَةَ ثُمَّ لَقِيتُ عَبْدَ اللَّهِ بْنَ سَلاَمٍ فَحَدَّثْتُهُ بِمَجْلِسِى مَعَ كَعْبٍ فَقَالَ عَبْدُ اللَّهِ بْنُ سَلاَمٍ قَدْ عَلِمْتُ أَيَّةَ سَاعَةٍ هِىَ. قَالَ أَبُو هُرَيْرَةَ فَقُلْتُ لَهُ فَأَخْبِرْنِى بِهَا. فَقَالَ عَبْدُ اللَّهِ بْنُ سَلاَمٍ هِىَ آخِرُ سَاعَةٍ مِنْ يَوْمِ الْجُمُعَةِ. فَقُلْتُ كَيْفَ هِىَ آخِرُ سَاعَةٍ مِنْ يَوْمِ الْجُمُعَةِ وَقَدْ قَالَ رَسُولُ اللَّهِ ﷺ «لاَ يُصَادِفُهَا عَبْدٌ مُسْلِمٌ وَهُوَ يُصَلِّى». وَتِلْكَ السَّاعَةُ لاَ يُصَلَّى فِيهَا. فَقَالَ عَبْدُ اللَّهِ بْنُ سَلاَمٍ أَلَمْ يَقُلْ رَسُولُ اللَّهِ ﷺ «مَنْ جَلَسَ مَجْلِسًا يَنْتَظِرُ الصَّلاَةَ فَهُوَ فِى صَلاَةٍ حَتَّى يُصَلِّىَ». قَالَ فَقُلْتُ بَلَى. قَالَ هُوَ ذَاكَ.

261. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Günəşin üzərinə doğduğu ən xeyirli gün Cümə günüdür. O gün Adəm yaradılmış, (Həmin gün Adəm yaradılmış və Cənnətə daxil edilmiş, oradan çıxarılmışdır[384]), o gün yer üzünə endirilmiş, o gün tövbəsi qəbul edilmiş və o gün vəfat etmişdir. Qiyamət günü də o gün qopacaqdır. Cin və insanlardan başqa elə bir canlı yoxdur ki, Cümə günü dan yeri ağarandan günəş çıxana qədər Qiyamətin qopmasına görə qorxu içində gözləməsinlər. Bu gündə elə bir saat vardır ki, müsəlman bir qul həmin saatda namaz qılarkən Allahdan dilədiyini Allah ona verər". Kəb ﷺ dedi: "Bu hər ildə bir gündür". Mən dedim: "Xeyr, hər Cümədir". Kəb ﷺ Tövratı oxudu və dedi: "Peyğəmbər sallәllahu aleyhi və sәllәm doğru soyləyib". Əbu Hureyra ﷺ dedi: "Bundan sonra mən Abdullah ibn Səlamla rastlaşdım. Ona Kəblə ﷺ olan söhbəti dedim. Abdullah ibn Səlam[385] ﷺ dedi: "Mən o saatın hansı saat olduğunu bilirəm". Əbu Hureyra ﷺ dedi: "Mən dedim: "Elə isə mənə də söylə!" O dedi: "Cümə gününün ən son saatıdır". Mən dedim: "Bu necə ola

[383] ət-Tirmizi, 489, 491. əl-Albani həsən olduğunu bildirmişdir.

[384] Muslim, 2014.

[385] Əbu Yusuf Abdullah ibn Səlam ibn Haris əl-İsraili əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabələrindən olub, əslən İsrail övladlarındandır. Hicrətin 43-cü ilində Mədinədə vəfat etmişdir.

bilər?! Axı Allah Elçisi sallәllahu aleyhi və sәlləm: “Müsəlman bir qul həmin saatda namaz qılarkən...”- deyib. Bu ən son saatda isə namaz qılınmaz”. Abdullah ibn Səlam ﷺ dedi: “Allah Elçisi sallәllahu aleyhi və sәlləm: “Namaz qılmaq üçün bir yerdə oturub gözləyən şəxs namaz qılıncaya qədər namazdadır”- deyə buyurmayıbmı?!” Mən: “Bəli”- dedim. O da buyurdu: “Bu belədir”.[386]

٢٦٢ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ «يَوْمُ الْجُمُعَةِ ثِنْتَا عَشْرَةَ». يُرِيدُ سَاعَةً «لاَ يُوجَدُ مُسْلِمٌ يَسْأَلُ اللَّهَ ﷻ شَيْئًا إِلاَّ آتَاهُ اللَّهُ ﷻ فَالْتَمِسُوهَا آخِرَ سَاعَةٍ بَعْدَ الْعَصْرِ».

262. Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: “Cümə günü on ikidir”- bununla o, saatı qəsd edirdi - “(həmin vaxtda) Allaha ﷻ dua edən elə bir müsəlman yoxdur ki, Allah ﷻ (dilədiyini) ona verməsin. Siz (o vaxtı) Əsrdən sonra son saatda axtarın”.[387]

٢٦٣ - عَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ اللَّهَ يَبْعَثُ الأَيَّامَ يَوْمَ الْقِيَامَةِ عَلَى هَيْأَتِهَا، وَيَبْعَثُ الْجُمُعَةَ زَهْرَاءَ مُنِيرَةً، أَهْلُهَا يَحُفُّونَ بِهَا كَالْعَرُوسِ تُهْدَى إِلَى كَرِيمِهَا تُضِيءُ لَهُمْ ، يَمْشُونَ فِي ضَوْئِهَا، أَلْوَانُهُمْ كَالثَّلْجِ بَيَاضًا، وَرِيحُهُمْ يَسْطَعُ كَالْمِسْكِ، يَخُوضُونَ فِي جِبَالِ الْكَافُورِ، يَنْظُرُ إِلَيْهِمُ الثَّقَلاَنِ لاَ يُطْرِقُونَ تَعَجُّبًا حَتَّى يَدْخُلُونَ الْجَنَّةَ، لاَ يُخَالِطُهُمْ أَحَدٌ إِلاَّ الْمُؤَذِّنُونَ الْمُحْتَسِبُونَ».

263. Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: “Həqiqətən, Allah, günləri Qiyamət günü olduğu kimi gətirəcək. Cümə gününü isə parlaq və nurlu halda gətirəcək. Gəlin bəzədilib bəyə təhvil verilirmiş kimi, Cümə əhli[388] onu dövrəyə alacaqlar. Onlara işıq saçacaq və onun işığının ardınca gedəcəklər. Rəngləri buz kimi ağ olacaq, qoxuları müşk ətri verəcək, kəfur dağlarında gedəcəklər, ta Cənnətə girənə kimi insan və cinlər təəccübdən gözlərini onlardan çəkməyəcəklər. Onların toplumuna Allahdan savab uman müəzzinlərdən başqa heç kəs qarışa bilməz”.[389]

CÜMƏ NAMAZININ FƏZİLƏTİ

٢٦٤ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﷺ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ «مَنِ اغْتَسَلَ يَوْمَ الْجُمُعَةِ وَمَسَّ مِنْ طِيبِ امْرَأَتِهِ –

386 Əbu Davud, 1048. əl-Albani səhih olduğunu bildirmişdir.
387 Əbu Davud, 1048, 1050. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
388 Cüməyə daim gedənlər və onu səbəbsiz tərk etməyənlər.
389 əl-Hakim, 1027. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 1872) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 706) səhih olduğunu bildirmişdir.

إِنْ كَانَ لَهَا – وَلَبِسَ مِنْ صَالِحِ ثِيَابِهِ ثُمَّ لَمْ يَتَخَطَّ رِقَابَ النَّاسِ وَلَمْ يَلْغُ عِنْدَ الْمَوْعِظَةِ كَانَتْ كَفَّارَةً لِمَا بَيْنَهُمَا وَمَنْ لَغَا وَتَخَطَّى رِقَابَ النَّاسِ كَانَتْ لَهُ ظُهْرًا».

264. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim Cümə günü qüsl edib, zövcəsinin olsa belə ətrindən vuraraq gözəl libas geyinsə, sonra (məscidə gəlib) insanların çiyinləri üzərindən keçməsə, xütbə verilərkən danışmasa, (bu, onun üçün) iki Cümə arasındakı günahlara kəffarə olar. Kim də xütbə verilərkən danışsa və insanların çiyinləri üzərindən keçsə, (qıldığı namaz) onun üçün Zöhr namazı olar".[390]

٢٦٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ مَنْ تَوَضَّأَ فَأَحْسَنَ الْوُضُوءَ ثُمَّ أَتَى الْجُمُعَةَ فَاسْتَمَعَ وَأَنْصَتَ غُفِرَ لَهُ مَا بَيْنَهُ وَبَيْنَ الْجُمُعَةِ وَزِيَادَةُ ثَلَاثَةِ أَيَّامٍ وَمَنْ مَسَّ الْحَصَى فَقَدْ لَغَا

265. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim gözəl bir şəkildə dəstəmaz alıb Cümə namazına gələr və (xütbəni) sakitcə dinləyərsə, iki Cümə arasındakı və əlavə olaraq üç günlük günahları bağışlanar. Kim (xütbə verilərkən) çınqıl daşları ilə oynayarsa, boş və mənasız bir şey etmiş olar".[391]

٢٦٦ - عَنْ أَوْسِ بْنِ أَوْسٍ الثَّقَفِيِّ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ غَسَّلَ يَوْمَ الجُمُعَةِ وَاغْتَسَلَ، ثُمَّ بَكَّرَ وَابْتَكَرَ وَمَشَى وَلَمْ يَرْكَبْ وَدَنَا مِنَ الإِمَامِ وَاسْتَمَعَ وَأَنْصَتَ وَلَمْ يَلْغُ كانَ لَهُ بِكُلِّ خَطْوَةٍ يَخْطُوهَا مِنْ بَيْتِهِ إِلَى المَسْجِدِ عَمَلُ سَنَةٍ أَجْرُ صِيَامِهَا وَقِيَامِهَا».

266. Əus ibn Əus əs-Səqafi ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim Cümə günü yaxşıca yuyunaraq qüsl edər, tezdən məscidə miniksiz, yeriyərək gedər, imama yaxın oturub onu sakitcə dinləyərsə, evdən məscidə qədər atdığı hər addıma görə ona bir illik oruc və bir illik gecə namazı savabı yazılar".[392]

٢٦٧ - عَنْ سَلْمَانَ الْفَارِسِيِّ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «لاَ يَغْتَسِلُ رَجُلٌ يَوْمَ الْجُمُعَةِ، وَيَتَطَهَّرُ مَا اسْتَطَاعَ مِنْ طُهْرٍ، وَيَدَّهِنُ مِنْ دُهْنِهِ، أَوْ يَمَسُّ مِنْ طِيبِ بَيْتِهِ ثُمَّ يَخْرُجُ، فَلاَ يُفَرِّقُ بَيْنَ اثْنَيْنِ، ثُمَّ يُصَلِّي مَا كُتِبَ لَهُ، ثُمَّ يُنْصِتُ إِذَا تَكَلَّمَ الإِمَامُ، إِلاَّ غُفِرَ لَهُ مَا بَيْنَهُ وَبَيْنَ الْجُمُعَةِ الأُخْرَى».

---

390 Əbu Davud, 347. əl-Albani səhih olduğunu bildirmişdir.
391 Muslim, 857, 1419; Əbu Davud, 886.
392 Əbu Davud, 345. əl-Albani səhih olduğunu bildirmişdir.

267. Salman əl-Farisi ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Hər kim Cümə günü qüsl edib bacardığı qədər təmizlənər, (saçlarını) yağlayar[393] və ya evində olan ətirlə ətirlənər, sonra (Cümə namazına) gedər və iki nəfərin arasına girib oturmaz, üstündən keçmədən (bir tərəfə çəkilib Allahın) ona buyurduğu namazı qılar və bundan sonra imam xütbə verərkən susub dinləyərsə, həmin Cümə ilə ötən Cümə arasında olan (kiçik günahları) bağışlanar".[394]

٢٦٨ - عَنْ أَبِي عَبْسٍ ﷺ قَالَ، هُوَ ذَاهِبٌ إِلَى الْجُمُعَةِ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: «مَنِ اغْبَرَّتْ قَدَمَاهُ فِي سَبِيلِ اللَّهِ حَرَّمَهُ اللَّهُ عَلَى النَّارِ».

268. Rəvayət edilir ki, Əbu Əbs ﷺ Cümə namazına gedərkən demişdir: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: "Kimin ayaqları Allah yolunda toz-torpağa batarsa, Allah ona Cəhənnəm odunu haram edər!"[395]

٢٦٩ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «يَحْضُرُ الْجُمُعَةَ ثَلاَثَةُ نَفَرٍ رَجُلٌ حَضَرَهَا يَلْغُو وَهُوَ حَظُّهُ مِنْهَا وَرَجُلٌ حَضَرَهَا يَدْعُو فَهُوَ رَجُلٌ دَعَا اللَّهَ ﷻ إِنْ شَاءَ أَعْطَاهُ وَإِنْ شَاءَ مَنَعَهُ وَرَجُلٌ حَضَرَهَا بِإِنْصَاتٍ وَسُكُوتٍ وَلَمْ يَتَخَطَّ رَقَبَةَ مُسْلِمٍ وَلَمْ يُؤْذِ أَحَدًا فَهِيَ كَفَّارَةٌ إِلَى الْجُمُعَةِ الَّتِي تَلِيهَا وَزِيَادَةُ ثَلاَثَةِ أَيَّامٍ وَذَلِكَ بِأَنَّ اللَّهَ ﷻ يَقُولُ ﴿**مَنْ جَاءَ بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا**﴾».

269. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Cüməyə üç qism insan gəlir; biri o kimsədir ki, gəlib (xütbə zamanı) danışır. Onun nəsibi sadəcə budur. Başqa birisi o kimsədir ki, gəlib (xütbə zamanı) dua edir. Bu, Allaha ﷻ dua edən kimsədir. Allah istəsə, ona (dilədiyini) verər, istəməsə də verməz. Həmçinin, o kimsədir ki, gəlib heç bir müsəlmanın çiyni üzərindən keçmədən və heç kəsə əziyyət vermədən sakitcə (xütbəni dinləyir). Bu, (onun üçün) növbəti Cüməyədək və əlavə üç günlük günahlara kəffarədir. Çünki Allah belə buyurur: "***Kim** (Qiyamət günü) **yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər**" (Ənam 160)".*[396]

---

[393] Əvvəllər saça yağ sürtərdilər.
[394] əl-Buxari, 883.
[395] əl-Buxari, 907.
[396] Əbu Davud, 1113, 1115. əl-Albani həsən olduğunu söyləmişdir.

CÜMƏ NAMAZINDA XÜTBƏNİ DİNLƏYİN VƏ İMAMA YAXIN OLUN!

٢٧٠ - عَنْ سَمُرَةَ بْنِ جُنْدُبٍ ﷺ قَالَ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «احْضُرُوا الذِّكْرَ وَادْنُوا مِنَ الإِمَامِ، فَانَّ الرَّجُلَ لاَ يَزَالُ يَتَبَاعَدُ حَتَّى يُؤَخَّرُ فِي الْجَنَّةِ وَإِنْ دَخَلَهَا».

270. Səmura ibn Cundəb ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "(Cümə günü) xütbəni dinləyin və imama yaxın olun! Çünki, insan uzaqlaşmağa davam etdikcə, Cənnətə girsə belə (onun yüksək mərtəbəsini əldə etməkdə) geridə qalar".[397]

CÜMƏ QÜSLU

٢٧١ - عَنْ سَمُرَةَ بْنِ جُنْدُبٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ :«مَنْ تَوَضَّأَ يَوْمَ الْجُمُعَةِ فَبِهَا وَنِعْمَتْ، وَمَنْ أَغْتَسَلَ فَالْغُسْلُ أَفْضَل».

271. Səmura ibn Cundəb ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim Cümə günü dəstəmaz alarsa, gözəl etmişdir. Kim qüsl edərsə, bu, daha fəzilətlidir".[398]

٢٧٢ - عَنْ عَبْدِ اللَّهِ بْنِ أَبِى قَتَادَةَ ﷺ قَالَ: دَخَلَ عَلَىَّ أَبِى وَأَنَا أَغْتَسِلُ يَوْمَ الْجُمُعَةِ فَقَالَ: غُسْلُكَ مِنْ جَنَابَةٍ أَوْ لِلْجُمُعَةِ؟ قَالَ قُلْتُ: مِنْ جَنَابَةٍ. قَالَ: أَعِدْ غُسْلاً آخَرَ، فَإِنِّى سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنِ اغْتَسَلَ يَوْمَ الْجُمُعَةِ كَانَ فِى طَهَارَةٍ إِلَى الْجُمُعَةِ الأُخْرَى».

272. Rəvayət edilir ki, Abdullah ibn Əbu Qatədə demişdir: "Mən Cümə günü qüsl alarkən atam içəri daxil oldu və soruşdu: "Sən cənabət qüslu alırsan, yoxsa Cümə qüslu?" Mən: "Cənabət qüslu"- deyə cavab verdim. O dedi: "Əlavə bir qüsl al, çünki mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: "Kim Cümə günü qüsl edərsə, növbəti Cüməyə qədər (kiçik günahlardan) təmiz qalar".[399]

---

[397] Əhməd, 20130. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 200) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 365) səhih olduğunu bildirmişdir.

[398] ət-Tirmizi, 497; Əbu Davud, 354. əl-Albani səhih olduğunu bildirmişdir.

[399] əl-Beyhəqi "Sunənul-Kubra" 1475; əl-Hakim, 1044; ət-Təbərani "Mucəmul-Əvsat" 8180. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6065) həsən olduğunu bildirmişdir.

CÜMƏ GÜNÜNÜN İLK SAATINDA MƏSCİDƏ GƏLƏN

٢٨٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنِ اغْتَسَلَ يَوْمَ الْجُمُعَةِ غُسْلَ الْجَنَابَةِ ثُمَّ رَاحَ فَكَأَنَّمَا قَرَّبَ بَدَنَةً، وَمَنْ رَاحَ فِى السَّاعَةِ الثَّانِيَةِ فَكَأَنَّمَا قَرَّبَ بَقَرَةً، وَمَنْ رَاحَ فِى السَّاعَةِ الثَّالِثَةِ فَكَأَنَّمَا قَرَّبَ كَبْشًا أَقْرَنَ، وَمَنْ رَاحَ فِى السَّاعَةِ الرَّابِعَةِ فَكَأَنَّمَا قَرَّبَ دَجَاجَةً، وَمَنْ رَاحَ فِى السَّاعَةِ الْخَامِسَةِ فَكَأَنَّمَا قَرَّبَ بَيْضَةً، فَإِذَا خَرَجَ الإِمَامُ حَضَرَتِ الْمَلاَئِكَةُ يَسْتَمِعُونَ الذِّكْرَ»

273. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Cənabət qüslu kimi qüsl edib Cümə gününün ilk saatında məscidə gələn dəvə, ikinci saatında gələn inək, üçüncü saatında gələn buynuzlu qoç, dördüncü saatında gələn toyuq və beşinci saatında gələn yumurta qurban vermiş kimidir. İmam (minbərə) qalxdıqda mələklər zikri dinləməyə hazırlaşırlar[400]".[401]

CÜMƏ GÜNÜ CAMAATLA QILINAN SÜBH NAMAZI

٢٨٤ - عن ابن عُمَر ﷺ قال رسول الله ﷺ: أَفْضَلَ الصَّلَوَاتِ عِنْدَ اللَّهِ صَلاَةُ الصُّبْحِ يَوْمَ الْجُمُعَةِ فِي جَمَاعَةٍ

274. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Allah dərgahında ən fəzilətli namaz Cümə günü camaatla qılınan Sübh namazıdır".[402]

CÜMƏ GÜNÜ VƏ YA GECƏSİ ÖLƏN

٢٧٥ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا مِنْ مُسْلِمٍ يَمُوتُ يَوْمَ الْجُمُعَةِ أَوْ لَيْلَةَ الْجُمُعَةِ إِلاَّ وَقَاهُ اللَّهُ فِتْنَةَ الْقَبْرِ».

275. Abdullah bin Amr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Cümə günü və ya Cümə gecəsi ölən elə bir müsəlman yoxdur ki, Allah onu qəbir fitnəsindən qorumasın".[403]

---

[400] Yəni bundan sonra Cüməyə yetişənləri siyahıya almazlar.

[401] əl-Buxari, 881.

[402] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 1273, 2132. əl-Albani "Silsilətu-Əhədisis-Sahiha"da (№ 1566) və Sahihul-Cəmius-Sağir"də (№ 1119) səhih olduğunu bildirmişdir.

[403] ət-Tirmizi, 1074, 1095. əl-Albani bu hədisin həsən olduğunu bildirmişdir.

CÜMƏ GÜNÜ DEYİLƏN SALAVAT

٢٧٦ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَكْثِرُوا عَلَيَّ مِنَ الصَّلاَةِ فِي كُلِّ يَوْمِ جُمُعَةٍ فَإِنَّ صَلاَةَ أُمَّتِي تُعْرَضُ عَلَيَّ فِي كُلِّ يَوْمِ جُمُعَةٍ، فَمَنْ كَانَ أَكْثَرَهُمْ عَلَيَّ صَلاَةً كَانَ أَقْرَبَهُمْ مِنِّي مَنْزِلَةً».

276. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Hər Cümə günü mənə çox salavat deyin! Həqiqətən, hər Cümə günü ümmətimin salavatı mənə bildirilir. Kimin mənə dediyi salavatı daha çox olarsa, (Qiyamət günü) o, mənə daha yaxın mərtəbədə olacaq".[404]

٢٧٧ - عَنْ أَنَسٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَكْثِرُوا الصَّلاَةَ عَلَيَّ يَوْمَ الْجُمُعَةِ فإنه أتاني جبريل آنفا عن ربه ﷻ فقال ما على الأرض من مسلم يصلي عليك مرة واحدة إلا صليت أنا وملائكتي عَلَيْهِ عَشْرًا».

277. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Cümə günü mənə çoxlu salavat deyin! Həqiqətən, Cəbrail indicə Rəbbimin ﷻ dərgahından yanıma gəlib Allahın belə dediyini çatdırdı: "Yer üzərində sənə bir dəfə salavat deyən elə bir müsəlman yoxdur ki, Mən və mələklərim ona on dəfə salavat etməyək".[405]

CÜMƏ GÜNÜ CƏM OLUNAN ƏMƏLLƏR

٢٧٨ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ أَنَّهُ سَمِعَ رَسُولَ اللهِ ﷺ يَقُولُ: مَنْ وَافَقَ صِيَامُهُ يَوْمَ الْجُمُعَةِ، وَعَادَ مَرِيضًا، وَشَهِدَ جِنَازَةً، وَتَصَدَّقَ وَأَعْتَقَ، وَجَبَتْ لَهُ الْجَنَّةُ.

278. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Kimin orucu Cümə gününə düşər, xəstəyə baş çəkər, cənazəni müşayiət edər, sədəqə verər və (qul) azad edərsə, Cənnət onun üçün vacib olar".[406]

٢٧٩ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ: أَنَّهُ سَمِعَ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «خَمْسٌ مَنْ عَمِلَهُنَّ فِي يَوْمٍ، كَتَبَهُ اللهُ مِنْ أَهْلِ الْجَنَّةِ: مَنْ عَادَ مَرِيْضاً وَشَهِدَ جَنَازَةً وَصَامَ يَوْماً وَرَاحَ يَوْمَ الْجُمُعَةِ وَأَعْتَقَ رَقَبَةً».

---

[404] əl-Beyhəqi "Sunənul-Kubra" 5791, 6208, "Şuabul-İman" 3032. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1673) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[405] əl-Munziri "Tərğib vət-Tərhib" 2568. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1662) həsən li-ğeyrihi adlandırıb.

[406] Əbu Yəalə, 1043. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1023) səhih olduğunu qeyd etmişdir.

279. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitdim: "Kim bir gündə bu beş əməli yerinə yetirərsə, Allah onu Cənnət əhlindən yazar; xəstəyə baş çəkmək, cənazəni müşayiət emək, oruc tutmaq, Cümə namazına getmək və qul azad etmək".[407]

[407] ət-Təbərani "Mucəmul-Kəbir" 55, 16485. əl-Albani "Sahihut-Tarğib vət-Tərhib"də (№ 1268, 3471) səhih olduğunu bildirmişdir.

SƏDƏQƏ

HƏR BİR YAXŞILIQ SƏDƏQƏDİR

٢٨٠ - عَنْ جَابِرٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «كُلُّ مَعْرُوفٍ صَنَعْتَهُ إِلَى غَنِيٍّ أَوْ فَقِيرٍ فَهُوَ صَدَقَةٌ».

280. Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Varlıya və ya yoxsula etdiyin hər bir yaxşılıq sədəqədir".[408]

٢٨١ - عن ابن عمر ﷺ قال قال رسول الله ﷺ إن تبسمك في وجه أخيك يكتب لك به صدقة وإماطتك الأذى عن الطريق يكتب لك به صدقة وإن أمرك بالمعروف صدقة وإرشادك الضال يكتب لك به صدقة

281. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Həqiqətən, qardaşının üzünə təbəssüm etməyinə görə sənə bir sədəqə yazılır. İnsanlara əziyyət verən şeyləri yoldan kənarlaşdırmağına görə bir sədəqə, yaxşı işlər görməyi əmr etməyinə görə bir sədəqə və yolunu azana yol göstərməyinə görə sənə bir sədəqə yazılır".[409]

٢٨٢ - عن جابر ﷺ قال قال رسول الله ﷺ كل معروف صدقة وإن من المعروف أن تلقى أخاك بوجه طلق وأن تفرغ من دلوك في إناء أخيك

282. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Hər bir yaxşılıq sədəqədir. Gülərüzlə qardaşını qarşılamaq, (həmçinin) öz qabında olandan qardaşının qabına (yemək və s.) tökmək yaxşılıqdandır".[410]

٢٨٣ - عَنْ أَبُو هُرَيْرَةَ ﷺ قَالَ رَسُولُ اللَّهِ ﷺ كُلُّ سُلَامَى مِنْ النَّاسِ عَلَيْهِ صَدَقَةٌ كُلَّ يَوْمٍ تَطْلُعُ فِيهِ الشَّمْسُ قَالَ تَعْدِلُ بَيْنَ الِاثْنَيْنِ صَدَقَةٌ وَتُعِينُ الرَّجُلَ فِي دَابَّتِهِ فَتَحْمِلُهُ عَلَيْهَا أَوْ تَرْفَعُ لَهُ عَلَيْهَا مَتَاعَهُ صَدَقَةٌ قَالَ وَالْكَلِمَةُ الطَّيِّبَةُ صَدَقَةٌ وَكُلُّ خُطْوَةٍ تَمْشِيهَا إِلَى الصَّلَاةِ صَدَقَةٌ وَتُمِيطُ الْأَذَى عَنْ الطَّرِيقِ صَدَقَةٌ

283. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurmuşdur: "İnsanların hər bir bədən üzvü üçün günəşin çıxdığı hər bir gündə sədəqə vardır. İki nəfər arasında ədalətlə hökm vermək sədəqədir. Bir kimsəyə miniyinə minərkən kömək etmək və ya yükünü miniyinə yükləməyə kömək etmək sədəqədir. Gözəl bir söz sədəqədir. Namaz

---

[408] Xatib əl-Bağdadi "Cəmiul-Əxləqir-Ravi və Ədəbus-Səmi" 903; İbn Asakir "Tarixu Dəməşq" 24/ 365. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4558) həsən olduğunu bildirmişdir.

[409] əl-Bəzzar, 6097. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2686) səhih li-ğeyrihi olduğunu bildirib.

[410] əl-Buxari "Ədəbul-Mufrad" 304. əl-Albani həsən olduğunu bildirmişdir.

qılmaq üçün (məscidə) atdığın hər addımın əvəzi bir sədəqə (əcri) vardır. Əziyyət verən şeyi keçdiyin yoldan uzaqlaşdırmaq (götürmək belə) sədəqədir".[411]

٢٨٤ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ! أَيُّ الأَعْمَالِ أَفْضَلُ؟ قَالَ: «الإِيمَانُ بِاللَّهِ وَالْجِهَادُ فِي سَبِيلِهِ» قَالَ: قُلْتُ: أَيُّ الرِّقَابِ أَفْضَلُ؟ قَالَ: «أَنْفَسُهَا عِنْدَ أَهْلِهَا، وَأَكْثَرُهَا ثَمَنًا» قَالَ: قُلْتُ: فَإِنْ لَمْ أَفْعَلْ؟ قَالَ: «تُعِينُ صَانِعًا أَوْ تَصْنَعُ لأَخْرَقَ» قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ! أَرَأَيْتَ إِنْ ضَعُفْتُ عَنْ بَعْضِ الْعَمَلِ؟ قَالَ: «تَكُفُّ شَرَّكَ عَنْ النَّاسِ، فَإِنَّهَا صَدَقَةٌ مِنْكَ عَلَى نَفْسِكَ».

284. Əbu Zərr ﷺ demişdir: "Mən (Peyğəmbərdən salləllahu aleyhi və səlləm) soruşdum: "Ey Allahın Elçisi! Əməllərin hansı biri daha fəzilətli sayılır?" O dedi: "Allaha iman gətirmək və Onun yolunda cihad etmək". Soruşdum: "Hansı köləni azad etmək daha yaxşıdır?" Dedi: "Sahibi üçün ən dəyərli və ən bahalı olanı". Mən dedim: "Əgər bunu edə bilməsəm, (onda necə olsun)?" O buyurdu: "(Yaxşı) bir iş görən adama kömək et və ya işi bacarmayan adamın işini gör". Dedim: "İşdi, bunu da etməyə qadir olmasam, (onda necə olsun)?" O buyurdu: "İnsanlara pislik etməkdən çəkin. (Belə etsən,) bu, sənin özünə verdiyin bir sədəqə olar".[412]

KİM BU GÜN BORC VERƏRSƏ, SABAH ƏVƏZİ VERİLƏCƏK

٢٨٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ قَالَ: «إِنَّ مَلَكاً بِبَابٍ مِنْ أَبْوَابِ الْجَنَّةِ يَقُولُ: مَنْ يُقْرِضِ الْيَومَ يُجْزَ غَداً، وَمَلَكٌ بِبَابٍ آخَرَ يَقُولُ: اللَّهُمَّ أَعْطِ مُنْفِقاً خَلَفاً وَأَعْطِ مُمْسِكاً تَلَفاً».

285. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Həqiqətən, bir mələk Cənnət qapılarının birində (dayanaraq) belə deyir: "Kim bu gün borc verərsə, sabah əvəzi veriləcək[413]". Həmçinin, digər qapıda duran mələk də belə deyir: "Allahım (Sənin yolunda) xərcləyənə əvəzini ver, xəsislik edənin isə (malını) tələf et!"[414]

---

411 əl-Buxari, 2891, 2989; Muslim, 2382.

412 Muslim, 250.

413 Yəni, kim bu dünyada yaxşı əməllər etməklə Allaha borc verərsə, Qiyamət günü bunların əvəzi veriləcəkdir. Uca Allah belə buyurur: ***"...Namaz qılın, zəkatınızı ödəyin və Allaha gözəl bir borc verin. Bu dünyada qabaqcadan özünüzə hansı xeyirli əməlləri tədarük etsəniz, Allah yanında onun daha xeyirlisi ilə və daha böyük mükafatla əvəz olunduğunu görəcəksiniz. Elə isə Allahdan sizi əfv etməsini istəyin! Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir!"*** *(əl-Muzzəmmil, 20).*

414 İbn Hibban, 3323. əl-Albani səhih olduğunu bildirmişdir.

٢٨٦ - عَنْ أَبِى الدَّرْدَاءِ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا طَلَعَتْ شَمْسٌ قَطُّ إِلاَّ بُعِثَ بِجَنَبَتَيْهَا مَلَكَانِ يُنَادِيَانِ يُسْمِعَانِ أَهْلَ الأَرْضِ إِلاَّ الثَّقَلَيْنِ يَا أَيُّهَا النَّاسُ هَلُمُّوا إِلَى رَبِّكُمْ فَإِنَّ مَا قَلَّ وَكَفَى خَيْرٌ مِمَّا كَثُرَ وَأَلْهَى وَلاَ آبَتْ شَمْسٌ قَطُّ إِلاَّ بُعِثَ (مَا مِنْ يَوْمٍ يُصْبِحُ الْعِبَادُ فِيهِ إِلاَّ مَلَكَانِ يَنْزِلاَنِ) بِجَنَبَتَيْهَا مَلَكَانِ يُنَادِيَانِ يُسْمِعَانِ أَهْلَ الأَرْضِ إِلاَّ الثَّقَلَيْنِ اللَّهُمَّ أَعْطِ مُنْفِقاً خَلَفاً وَأَعْطِ مُمْسِكاً مَالاً تَلَفاً».

286. Əbu Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə demişdir: “Hər dəfə günəş doğanda hər iki tərəfinə iki mələk göndərilir. Bu iki mələk car çəkərək səslərini cin və insanlardan başqa bütün yer əhlinə eşitdirirlər: “Ey insanlar, Rəbbinizə doğru tələsin! Həqiqətən, az və kifayət edəcək qədər ruzi, çox və baş qatan ruzidən daha xeyirlidir!” Hər dəfə günəş batanda hər iki tərəfinə iki mələk göndərilir. (Hər səhər insanlar yuxudan oyandıqda, yer üzünə iki mələk enir[415]). Bu iki mələk car çəkərək səslərini cin və insanlardan başqa bütün yer əhlinə eşitdirirlər: “Allahım, malını (Sənin yolunda) xərcləyən hər kəsə (etdiyi yaxşılığın) əvəzini ver! Allahım, xəsislik edən hər kəsin (malını) tələf et!”[416]

SÜD SƏDƏQƏ EDƏN

٢٨٧ - عَنْ أَبِى هُرَيْرَةَ يَبْلُغُ بِهِ «أَلاَ رَجُلٌ يَمْنَحُ أَهْلَ بَيْتٍ نَاقَةً تَغْدُو بِعُسٍّ وَتَرُوحُ بِعُسٍّ إِنَّ أَجْرَهَا لَعَظِيمٌ».

287. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Bilin ki, bir qab səhər və bir qab axşam süd verən dəvəni bir ailəyə hədiyyə edən kişinin mükafatı çox böyükdür”.[417]

٢٨٨ - عَن الْبَرَاءِ بْنِ عَازِبٍ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «مَنْ مَنَحَ مَنِيحَةَ لَبَنٍ أَوْ وَرِقٍ أَوْ هَدَى زُقَاقاً كَانَ لَهُ مِثلَ عِتقِ رَقَبَةٍ».

288. Bəra ibn Azib ﷺ demişdir: “Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: “Kim südündən istifadə etməsi üçün qoyun və ya keçi verər, borc pul verər, yolunu tapa bilməyənə yol göstərərsə, ona bir kölə azad etmiş kimi savab verilir”.[418]

---

[415] əl-Buxari, 1442.

[416] Əhməd, 21769, 22353. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 443, 920) səhih olduğunu bildirib.

[417] Muslim, 2404.

[418] ət-Tirmizi, 1957, 2084. əl-Albani səhih olduğunu bildirmişdir.

QIRX YAXŞILIQ

٢٨٩ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَرْبَعُونَ خَصْلَةً أَعْلاَهُنَّ مَنِيحَةُ الْعَنْزِ، مَا مِنْ عَامِلٍ يَعْمَلُ بِخَصْلَةٍ مِنْهَا رَجَاءَ ثَوَابِهَا وَتَصْدِيقَ مَوْعُودِهَا إِلاَّ أَدْخَلَهُ اللَّهُ بِهَا الْجَنَّةَ».

289. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Qırx yaxşılıq var ki, bunların ən üstünü, ehtiyacı olan kimsəyə (müvəqqəti olaraq südündən istifadə etmək üçün) sağmal keçi verməkdir. Hər kim savabını (Allahdan) umaraq və vəd olunanı təsdiq edərək bu yaxşılıqlardan birini yerinə yetirsə, Allah bunun sayəsində onu Cənnətə daxil edər".[419]

BİRİNCİ ÖZÜNDƏN BAŞLA

٢٩٠ - عن جابر ﷺ قال قال رجل يا رسول الله عندي دينار قال أنفقه على نفسك قال عندي آخر فقال أنفقه على خادمك أو قال على ولدك قال عندي آخر قال ضعه في سبيل الله وهو أخسها

290. Cabir ﷺ rəvayət edir ki, bir kişi dedi: "Ey Allahın Elçisi! Mənim bir dinarım var". Allah Elçisi salləllahu aleyhi və səlləm dedi: "Onu özünə xərclə". Kişi dedi: "Məndə biri də var". Allah Elçisi salləllahu aleyhi və səlləm dedi: "Onu xidmətində durana, - yaxud dedi ki, - uşağına xərclə". Kişi dedi: "Məndə biri də var". Allah Elçisi salləllahu aleyhi və səlləm dedi: "Onu Allah yolunda sərf et. Bu da ən kiçiyidir".[420]

٢٩١ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ أَمَرَ النَّبِىُّ ﷺ بِالصَّدَقَةِ فَقَالَ رَجُلٌ يَا رَسُولَ اللَّهِ عِنْدِى دِينَارٌ. فَقَالَ «تَصَدَّقْ بِهِ عَلَى نَفْسِكَ». قَالَ عِنْدِى آخَرُ. قَالَ «تَصَدَّقْ بِهِ عَلَى وَلَدِكَ». قَالَ عِنْدِى آخَرُ. قَالَ «تَصَدَّقْ بِهِ عَلَى زَوْجَتِكَ». أَوْ قَالَ «زَوْجِكَ». قَالَ عِنْدِى آخَرُ. قَالَ «تَصَدَّقْ بِهِ عَلَى خَادِمِكَ». قَالَ عِنْدِى آخَرُ. قَالَ «أَنْتَ أَبْصَرُ».

291. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm sədəqə verməyi əmr etdi və bir kişi dedi: "Ey Allahın Elçisi! Mənim bir dinarım var". Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Onu özünə xərclə". Kişi dedi: "Məndə biri də var". Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Onu övladına xərclə". Kişi dedi: "Məndə biri də var". Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Onu həyat yoldaşına xərclə". Kişi

---

[419] əl-Buxari, 2631.

[420] əl-Buxari "Ədəbul-Mufrad" 750. əl-Albani hədisi səhih li-ğeyrihi olduğunu bildirmişdir.

dedi: “Məndə biri də var”. Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: “Onu da qulluqçuna xərclə”. Kişi dedi: “Məndə biri də var”. Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: “Onu sən daha yaxşı bilirsən[421]”.[422]

AİLƏNƏ XƏRCLƏMƏYİ UNUTMA!

٢٩٢ - عن المقدام بن معدى كرب ﷺ أنه سمع رسول الله ﷺ يقول ما أطعمت نفسك فهو لك صدقة وما أطعمت ولدك فهو لك صدقة وما أطعمت زوجك فهو لك صدقة وما أطعمت خادمك فهو لك صدقة

292. Miqdəm ibn Mədikərib ﷺ rəvayət edir ki, Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: “Özün nə yesən sənin üçün sədəqədir. Övladına nə yedirtsən, o da sənin üçün sədəqədir. Zövcənə nə yedirtsən, o da sənin üçün sədəqədir. Xidmətçinə nə yedirtsən, o da sənin üçün sədəqədir”.[423]

٢٩٣ - عَنْ أُمِّ سَلَمَةَ ﵂ قَالَتْ: قُلْتُ يَا رَسُولَ اللَّهِ أَلِيَ أَجْرٌ أَنْ أُنْفِقَ عَلَى بَنِى أَبِى سَلَمَةَ إِنَّمَا هُمْ بَنِيَّ؟ فَقَالَ: «أَنْفِقِى عَلَيْهِمْ، فَلَكِ أَجْرُ مَا أَنْفَقْتِ عَلَيْهِمْ».

293. Ummu Sələmə ﵂ demişdir: “Mən dedim: Ey Allahın Elçisi, (malımdan) Əbu Sələmənin uşaqlarına xərclədiyimə görə mənə savab çatırmı? Axı, onlar həm də mənim uşaqlarımdır?” Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: “(Malından) onlara xərclə, xərclədiyin qədər savab qazanacaqsan”.[424]

٢٩٤ - عن أبي هريرة ﷺ عن النبي ﷺ قال أربعة دنانير دينارا أعطيته مسكينا ودينارا أعطيته في رقبة ودينارا أنفقته في سبيل الله ودينارا أنفقته على أهلك أفضلها الذي أنفقته على أهلك

294. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: “Dörd (fəzilətli) dinar vardır - kasıba verdiyin dinar, qul azad etmək üçün verdiyin dinar, Allah yolunda xərclədiyin dinar və ailənə xərclədiyin dinar. Bunların ən fəzilətlisi ailənə xərclədiyindir”.[425]

---

421 Yəni bundan sonra istədiyinə sədəqə ver və ya özündə saxla, ixtiyarın öz əlindədir.
422 Əbu Davud, 1691, 1693. əl-Albani hədisin həsən olduğunu qeyd etmişdir.
423 əl-Buxari “Ədəbul-Mufrad” 82. əl-Albani səhih olduğunu bildirmişdir.
424 əl-Buxari, 1467.
425 əl-Buxari “Ədəbul-Mufrad” 751. əl-Albani səhih olduğunu bildirmişdir.

٢٩٥ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرِو بْنِ أُمَيَّةَ، عَنْ أَبِيهِ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «مَا أَعْطَى الرَّجُلُ امْرَأَتَهُ فَهُوَ صَدَقَةٌ».

295. Abdullah ibn Amr ibn Umeyyə atasından rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Kişinin öz qadınına verdiyi hər bir şey sədəqədir".[426]

٢٩٦ - عن ثوبان ﷺ عن النبي ﷺ قال إن من أفضل دينار أنفقه الرجل على عياله ودينار أنفقه على أصحابه في سبيل الله ودينار أنفقه على دابته في سبيل الله قال أبو قلابة وبدأ بالعيال وأي رجل أعظم أجرا من رجل ينفق على عيال صغار حتى يغنيهم الله ﷻ

296. Səubən ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Ən fəzilətli dinar kişinin ailəsinə xərclədiyi dinar, sonra Allah yolundakı dostlarına xərclədiyi dinar və Allah yolundakı (cihadda olan) heyvanına xərclədiyi dinardır". Əbu Qilabə deyir: "Peyğəmbər sallәllahu aleyhi və sәlləm öncə ailədən başladı. Hansı kişi, ailəsindəki körpələri Allah ﷻ ehtiyacdan qurtarana qədər malından onlara xərcləyən adamdan daha böyük savab qazana bilər?!"[427]

٢٩٧ - عن سعد بن أبي وقاص ﷺ أنه أخبره أن النبي ﷺ قال لسعد إنك لن تنفق نفقة تبتغي بها وجه الله ﷻ إلا أجرت بها حتى ما تجعل في فم امرأتك

297. Sad ibn Əbu Vəqqas ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "Allahın ﷻ Üzünü diləyərək xərclədiyin hər bir şey sayəsində, hətta həyat yoldaşının ağzına qoyduğun loxmaya görə savab qazanırsan".[428]

SAVABINI ALLAHDAN UM!

٢٩٨ - عن أبي مسعود البدري ﷺ عن النبي ﷺ قال من أنفق نفقة على أهله وهو يحتسبها كانت له صدقة

298. Əbu Məsud əl-Bədri ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və

---

[426] Əhməd, 17654. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5540) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1024) səhih olduğunu bildirmişdir.

[427] Muslim, 2537; əl-Buxari "Ədəbul-Mufrad" 748. əl-Albani səhih olduğunu bildirmişdir.

[428] əl-Buxari "Ədəbul-Mufrad" 752. əl-Albani səhih olduğunu bildirmişdir.

səlləm dedi: “Kim əvəzini Allahdan umaraq öz ailəsinə mal xərcləsə, bu onun üçün sədəqə olar”.[429]

ZƏKAT MƏMURU

٢٩٩ - عَنْ رَافِعِ بْنِ خَدِيجٍ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «الْعَامِلِ عَلَى الصَّدَقَةِ بِالْحَقِّ، كَالْغَازِي فِي سَبِيلِ اللهِ تَعَالَى حَتَّى يَرجِعَ إِلَى بَيْتِهِ».

299. Rafi ibn Xədic ﷺ rəvayət edir ki, Allah Elçisini sallallahu aleyhi və səlləm belə buyurarkən eşitdim: “Öz işini layiqincə yerinə yetirən zəkat məmuru evinə qayıdana qədər Uca Allahın yolunda döyüşən qazi kimidir”.[430]

٣٠٠ - عَنْ أَبِي مُوسَى ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْخَازِنُ الْمُسْلِمُ الأَمِينُ الَّذِى يُنْفِذُ - وَرُبَّمَا قَالَ يُعْطِى - مَا أُمِرَ بِهِ كَامِلاً مُوَفَّرًا طَيِّبٌ بِهِ نَفْسُهُ، فَيَدْفَعُهُ إِلَى الَّذِى أُمِرَ لَهُ بِهِ، أَحَدُ الْمُتَصَدِّقَيْنِ».

300. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Özünə əmr ediləni mükəmməl şəkildə – könül xoşluğu ilə yerinə yetirib (sədəqəni) veriləcək adama çatdıran, (başqasının malını) qoruyan etibarlı müsəlman sədəqə verən iki nəfərdən biri hesab olunur (sədəqəni verən adam qədər savab qazanır)”.[431]

SU SƏDƏQƏSİ

٣٠١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: "لَيْسَ صَدَقَةٌ أَعْظَمَ أَجْرًا مِنْ مَاءٍ"

301. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Su sədəqəsindən mükafatı daha böyük olan sədəqə yoxdur”.[432]

٣٠٢ - عَنْ سَعِيدٍ أَنَّ سَعْدًا أَتَى النَّبِيَّ ﷺ فَقَالَ أَيُّ الصَّدَقَةِ أَعْجَبُ إِلَيْكَ قَالَ «الْمَاءُ».

302. Səid ibn əl-Museyyib ﷺ rəvayət edir ki, Sa'd ibn Ubadə ﷺ Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib ondan soruşdu: “Hansı sədəqə sənin

---

[429] əl-Buxari “Ədəbul-Mufrad” 749. əl-Albani səhih olduğunu bildirmişdir.
[430] Əbu Davud, 2936, 2938. əl-Albani səhih olduğunu bildirmişdir.
[431] əl-Buxari, 1438; Muslim, 2410.
[432] əl-Beyhəqi “Şuabul-İman” 3106. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 960) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

daha çox xoşuna gəlir?" Allah Elçisi sallәllahu aleyhi və sәlləm: "Su!"- deyə buyurdu".[433]

٣٠٣ - عَنْ سَعْدٍ ﷺ: أنه أَتَى النَّبِيَّ ﷺ فَقَالَ: يَا رَسُوْلَ إِنَّ أُمِّي تُوفِّيَتْ وَلَمْ تُوْصِ أَفَيَنْفَعُهَا أَنْ أَتَصَدَّق عَنْهَا؟ قَالَ: «نَعَمْ وَعَلَيْكَ بِالْمَاءِ».

303. Səd ﷺ rəvayət edir ki, (bir gün) o, Allah Elçisinin sallәllahu aleyhi və sәlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi! Anam vəfat etmiş və vəsiyyət etməmişdir, mənim onun əvəzindən sədəqə verməyim ona fayda verər?" O buyurdu: "Bəli, su sədəqə et!"[434]

HƏR BİR MÜSƏLMAN SƏDƏQƏ VERMƏLİDİR

٣٠٤ - عَنْ أَبِي مُوسَى ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «عَلَى كُلِّ مُسْلِمٍ صَدَقَةٌ». فَقَالُوا يَا نَبِيَّ اللَّهِ فَمَنْ لَمْ يَجِدْ قَالَ: «يَعْمَلُ بِيَدِهِ فَيَنْفَعُ نَفْسَهُ وَيَتَصَدَّقُ». قَالُوا فَإِنْ لَمْ يَجِدْ قَالَ: «يُعِينُ ذَا الْحَاجَةِ الْمَلْهُوفَ». قَالُوا فَإِنْ لَمْ يَجِدْ. قَالَ: «فَلْيَعْمَلْ بِالْمَعْرُوفِ، وَلْيُمْسِكْ عَنِ الشَّرِّ فَإِنَّهَا لَهُ صَدَقَةٌ».

304. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Hər bir müsəlman sədəqə verməlidir". (Səhabələr) soruşdular: "Ey Allahın peyğəmbəri! (Sədəqə verməyə bir şey) tapmasa necə?" (Peyğəmbər sallәllahu aleyhi və sәlləm) buyurdu: "Öz əlləri ilə işləyib qazansın və (bu qazancından) həm özü faydalansın, həm də (başqalarına) sədəqə versin". (Səhabələr) soruşdular: "(Bunu) edə bilməsə necə?" (Peyğəmbər sallәllahu aleyhi və sәlləm) buyurdu: "Ehtiyacı olan çarəsiz adama kömək etsin". (Səhabələr) soruşdular: "(Bunu da) edə bilməsə necə?" (Peyğəmbər sallәllahu aleyhi və sәlləm) buyurdu: "Yaxşı işlər görsün və şər əməllərdən çəkinsin. Həqiqətən də, bu onun üçün sədəqə olar".[435]

SƏDƏQƏ HALAL QAZANCDAN VERİLMƏLİDİR

٣٠٥ - عَنْ أَبُو هُرَيْرَةَ ﷺ قَالَ رَسُولُ اللَّهِ ﷺ مَا تَصَدَّقَ أَحَدٌ بِصَدَقَةٍ مِنْ طَيِّبٍ وَلَا يَقْبَلُ اللَّهُ إِلَّا الطَّيِّبَ إِلَّا أَخَذَهَا الرَّحْمَنُ بِيَمِينِهِ وَإِنْ كَانَتْ تَمْرَةً فَتَرْبُو فِي كَفِّ الرَّحْمَنِ حَتَّى تَكُونَ أَعْظَمَ مِنْ الْجَبَلِ كَمَا يُرَبِّي أَحَدُكُمْ فَلُوَّهُ أَوْ فَصِيلَهُ

---

[433] Əbu Davud, 1679, 1681. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.
[434] ət-Tabərani "Mucəmul-Əvsat" 8061. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 961) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2615) səhih olduğunu bildirmişdir.
[435] əl-Buxari, 1445.

305. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: “Kim halal qazancından bir sədəqə verərsə - Allah da halal maldan başqasını qəbul etməz - şübhəsiz Rahmən onu sağ Əli ilə - Onun hər iki əli sağdır - qəbul edər. Bu sədəqə bir dənə xurma da olsa, birinizin süddən təzə kəsilmiş dayçasına və ya dəvə balasına baxıb böyütməsi kimi, o bir xurma Rahmənin ovucunda dağdan da böyük olana qədər böyüyər”.[436]

٣٠٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ بَيْنَا رَجُلٌ بِفَلَاةٍ مِنْ الْأَرْضِ فَسَمِعَ صَوْتًا فِي سَحَابَةٍ اسْقِ حَدِيقَةَ فُلَانٍ فَتَنَحَّى ذَلِكَ السَّحَابُ فَأَفْرَغَ مَاءَهُ فِي حَرَّةٍ فَإِذَا شَرْجَةٌ مِنْ تِلْكَ الشِّرَاجِ قَدْ اسْتَوْعَبَتْ ذَلِكَ الْمَاءَ كُلَّهُ فَتَتَبَّعَ الْمَاءَ فَإِذَا رَجُلٌ قَائِمٌ فِي حَدِيقَتِهِ يُحَوِّلُ الْمَاءَ بِمِسْحَاتِهِ فَقَالَ لَهُ يَا عَبْدَ اللَّهِ مَا اسْمُكَ قَالَ فُلَانٌ لِلِاسْمِ الَّذِي سَمِعَ فِي السَّحَابَةِ فَقَالَ لَهُ يَا عَبْدَ اللَّهِ لِمَ تَسْأَلُنِي عَنْ اسْمِي فَقَالَ إِنِّي سَمِعْتُ صَوْتًا فِي السَّحَابِ الَّذِي هَذَا مَاؤُهُ يَقُولُ اسْقِ حَدِيقَةَ فُلَانٍ لِاسْمِكَ فَمَا تَصْنَعُ فِيهَا قَالَ أَمَّا إِذْ قُلْتَ هَذَا فَإِنِّي أَنْظُرُ إِلَى مَا يَخْرُجُ مِنْهَا فَأَتَصَدَّقُ بِثُلُثِهِ وَآكُلُ أَنَا وَعِيَالِي ثُلُثًا وَأَرُدُّ فِيهَا ثُلُثَهُ و حَدَّثَنَاه أَحْمَدُ بْنُ عَبْدَةَ الضَّبِّيُّ أَخْبَرَنَا أَبُو دَاوُدَ حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي سَلَمَةَ حَدَّثَنَا وَهْبُ بْنُ كَيْسَانَ بِهَذَا الْإِسْنَادِ غَيْرَ أَنَّهُ قَالَ وَأَجْعَلُ ثُلُثَهُ فِي الْمَسَاكِينِ وَالسَّائِلِينَ وَابْنِ السَّبِيلِ

306. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Bir kişi düzənlik bir yerdə dayanmışdı. Birdən göydəki bir buluddan belə bir səs gəldiyini eşitdi: “Filankəsin baxçasını sula!” və həmin bulud qara daşlı bir sahəyə yönələrək suyunu (yağışını) oraya boşaltdı. Orada olan arxlardan biri suyun hamısını özünə çəkdi. Kişi suyun ardınca gedərək gəlib bir kişinin bostanın içində əlindəki alətlə suyun yönünü dəyişdirdiyini gördü. Kişi ondan: “Ey Allahın qulu, adın nədir?” deyə soruşdu. O: “Filankəs” deyə, buluddan eşitdiyi adı ona xəbər verdi. Ondan: “Adımı nə üçün soruşdun?” deyə soruşduqda kişi belə dedi: “Mən, suyunu işlətdiyin bir buluddan filankəsin bağçasını sula”, deyə sənin adın çəkilən bir səs eşitdim. Sən burada nə edirsən?” O, kişiyə belə cavab verdi: “Belə deyirsənsə, mən ondan (bostandan) alınan məhsula baxıb, onun üçdəbirini sədəqə verirəm. Üçdəbirini isə mən və ailəm yeyirik. Qalan üçdəbirini isə ona (torpağa) qaytarıram”. Başqa bir rəvayətdə isə belə deyilir: “Üçdəbirini miskinlərə, istəyənlərə və (pulu qurtarıb) yolda qalan müsafirə (yolçulara) verirəm”.[437]

VAXTINDA VERİLƏN SƏDƏQƏ

٣٠٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ أَيُّ الصَّدَقَةِ أَعْظَمُ أَجْرًا قَالَ: «أَنْ تَصَدَّقَ

[436] əl-Buxari, 1410, 1321; Muslim, 1014, 1684.
[437] Muslim, 5299.

وَأَنْتَ صَحِيحٌ شَحِيحٌ، تَخْشَى الْفَقْرَ وَتَأْمُلُ الْغِنَى، وَلاَ تُمْهِلُ حَتَّى إِذَا بَلَغَتِ الْحُلْقُومَ قُلْتَ لِفُلاَنٍ كَذَا، وَلِفُلاَنٍ كَذَا، وَقَدْ كَانَ لِفُلاَنٍ»

307. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "Bir nəfər Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi, savabı ən böyük olan sədəqə hansıdır?" Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Bu, sənin sağlam və xəsis olduğun, kasıb olmaqdan ehtiyat etdiyin və varlanacağına ümid bəslədiyin halda verdiyin sədəqədir. Bir də ki, sədəqə verməyi, canın boğazına yetişən vaxta, özün də "filankəsə bu qədər, filankəsə də bu qədər (verin)" (deyə vəsiyyət edəcəyin günə) saxlama. (Çünki) həmin vaxt (mal-dövlətin) başqalarına (miras) qalacaq".[438]

AĞAC ƏKMƏK SAVAB QAZANDIRIR

٣٠٨ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ مَا مِنْ مُسْلِمٍ غَرَسَ غَرْسًا فَأَكَلَ مِنْهُ إِنْسَانٌ أَوْ دَابَّةٌ إِلاَّ كَانَ لَهُ بِهِ صَدَقَةٌ.

308. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Hansı bir müsəlman bir ağac əkər və onun (əkdiyi ağacın) bəhrəsindən insan və ya heyvan yeyərsə, (və ya taxıl və s.) əkərsə, sonra da quşlar, insanlar və heyvanlar onun (məhsulundan yeyərsə[439]) bu o müsəlman üçün sədəqə sayılar".[440]

٣٠٩ - عَنْ جَابِرٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا مِنْ مُسْلِمٍ يَغْرِسُ غَرْسًا إِلاَّ كَانَ مَا أُكِلَ مِنْهُ لَهُ صَدَقَةٌ وَمَا سُرِقَ مِنْهُ لَهُ صَدَقَةٌ وَمَا أَكَلَ السَّبُعُ مِنْهُ فَهُوَ لَهُ صَدَقَةٌ وَمَا أَكَلَتِ الطَّيْرُ فَهُوَ لَهُ صَدَقَةٌ وَلاَ يَرْزَؤُهُ أَحَدٌ إِلاَّ كَانَ لَهُ صَدَقَةٌ».

309. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Hər hansı bir müsəlman bir ağac əkərsə, ondan yeyilən bir şey onun üçün sədəqə olar. Ondan oğurlanan bir şey onun üçün sədəqə olar. Vəhşi heyvanların ondan yediyi bir şey onun üçün sədəqə olar. Quşun ondan yediyi bir şey onun üçün sədəqə olar. Ondan kimsə nə isə əskiltsə, bu onun üçün sədəqə olar".[441]

---

438 əl-Buxari, 1419; ən-Nəsəi, 2495, 2541. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
439 əl-Buxari, 2320.
440 əl-Buxari, 6012.
441 Muslim, 1552, 4050-4055.

YEDDİ YÜZ QAT SAVAB

٣١٠ - عَنْ خُرَيْمِ بْنِ فَاتِكٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ أَنْفَقَ نَفَقَةً فِى سَبِيلِ اللَّهِ كُتِبَتْ لَهُ بِسَبْعِمِائَةِ ضِعْفٍ».

310. Xureym ibn Fatiq ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim Allah yolunda xərcləyərsə, ona xərclədiyinin yeddi yüz qat savabı verilər".[442]

٣١١ - عَنْ أَبِى مَسْعُودٍ ﷺ أَنَّ رَجُلاً تَصَدَّقَ بِنَاقَةٍ مَخْطُومَةٍ فِى سَبِيلِ اللَّهِ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «لَيَأْتِيَنَّ يَوْمَ الْقِيَامَةِ بِسَبْعِمِائَةِ نَاقَةٍ مَخْطُومَةٍ».

311. Əbu Məsud[443] ﷺ rəvayət edir ki, bir nəfər yüyənli bir dəvəni Allah yolunda sədəqə etdi. Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Qiyamət günü o, yeddi yüz yüyənli dəvə ilə gələcəkdir".[444]

QOŞA SƏDƏQƏ VERMƏK

٣١٢ - عَنْ صَعْصَعَةَ بْنِ مُعَاوِيَةَ قَالَ لَقِيتُ أَبَا ذَرٍّ ﷺ قَالَ قُلْتُ حَدِّثْنِى. قَالَ نَعَمْ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا مِنْ عَبْدٍ مُسْلِمٍ يُنْفِقُ مِنْ كُلِّ مَالٍ لَهُ زَوْجَيْنِ فِى سَبِيلِ اللَّهِ إِلاَّ اسْتَقْبَلَتْهُ حَجَبَةُ الْجَنَّةِ كُلُّهُمْ يَدْعُوهُ إِلَى مَا عِنْدَهُ». قُلْتُ وَكَيْفَ ذَلِكَ قَالَ «إِنْ كَانَتْ إِبِلاً فَبَعِيرَيْنِ وَإِنْ كَانَتْ بَقَرًا فَبَقَرَتَيْنِ».

312. Sasaə ibn Muaviyə rəvayət edir ki, Əbu Zərr ﷺ ilə qarşılaşdım və dedim: "Mənə bir hədis danış!" O dedi: "Yaxşı, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurmuşdur: "Allah yolunda hər cür maldan qoşa sədəqə verən elə bir müsəlman qul yoxdur ki, Cənnət keşikçiləri onu qarşılamasın və hər biri özü durduğu qapıdan onu dəvət etməsin". Mən dedim: "Bu necə olur?" Əbu Zərr ﷺ dedi: "Dəvəsi varsa, iki dəvə, inəyi varsa, iki inək".[445]

ORTA YOL TUTMAQ

٣١٣ - عَنِ ابْنِ مَسْعُودٍ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِنَّ السَّلَفَ يَجْرِي مَجْرَى شَطرِ الصَّدَقَةِ».

---

[442] ət-Tirmizi, 1625, 1725. əl-Albani səhih olduğunu bildirmişdir.

[443] Əbu Məsud əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Adı: Uqbə ibn Amrdır. Əbu Məsud hicrətin 40-cı ilində vəfat etmişdir.

[444] ən-Nəsəi, 3187, 3200. əl-Albani səhih olduğunu bildirmişdir.

[445] ən-Nəsəi, 3186, 3198. Albani səhih olduğunu bildirmişdir.

313. İbn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Sizdən öncə olan əməlisalehlər sədəqə verməkdə orta yolu tutardılar".[446]

SƏDƏQƏ ACLIĞI ARADAN QALDIRIR

٣١٤ - عَنْ عِكْرِمَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «تَصَدَّقُوا وَلَوْ بِتَمْرَةٍ، فَإِنَّهَا تَسُدُّ مِنَ الْجَائِعِ وَتُطْفِئُ الْخَطِيْئَةَ كَمَا يُطْفِئُ الْمَاءُ النَّارَ».

314. İkrimə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Bir xurma olsa belə sədəqə verin! Həqiqətən, o, aclığı aradan qaldırır və su odu söndürdüyü kimi günahları söndürür".[447]

QOHUMA VERİLƏN SƏDƏQƏ

٣١٥ - عَنْ أَبِي أَيُّوبَ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «أَفْضَلُ الصَّدَقَةِ الصَّدَقَةُ عَلَى ذِي الرَّحِمِ الْكَاشِحِ».

315. Əbu Əyyub ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Ən yaxşı sədəqə ədavət bəslənən qohuma verilən sədəqədir".[448]

٣١٦ - عَنْ عَمِّهَا سَلْمَانَ بْنِ عَامِرٍ ﷺ يَبْلُغُ بِهِ النَّبِيَّ ﷺ قَالَ «إِذَا أَفْطَرَ أَحَدُكُمْ فَلْيُفْطِرْ عَلَى تَمْرٍ فَإِنَّهُ بَرَكَةٌ فَإِنْ لَمْ يَجِدْ تَمْرًا فَالْمَاءُ فَإِنَّهُ طَهُورٌ». وَقَالَ «الصَّدَقَةُ عَلَى الْمِسْكِينِ صَدَقَةٌ وَهِيَ عَلَى ذِى الرَّحِمِ ثِنْتَانِ صَدَقَةٌ وَصِلَةٌ».

316. Səlman ibn Amir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Sizdən biriniz iftar etdikdə xurma ilə iftar etsin, çünki o bərəkətdir. Əgər xurma tapmazsa, su ilə iftar etsin, çünki o pakdır". Həmçinin, o demişdir: "Miskinə sədəqə verməyin bir sədəqə savabı vardır. Qohuma sədəqə verməyin isə iki savabı vardır; sədəqə savabı və qohumluq əlaqələrini möhkəmlətmək savabı".[449]

GİZLİ SƏDƏQƏ

٣١٧ - عَنْ أَبِي سَعِيْدٍ الْخُدْرِيِّ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «صَدَقَةُ السِّرِّ تُطْفِيءُ غَضَبَ الرَّبِّ، وَصِلَةُ الرَّحِمِ تَزِيْدُ فِي

---

[446] Əhməd, 3911. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1640) səhih olduğunu bildirmişdir.
[447] İbnul-Mubarak "əz-Zuhd" 651. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2951) səhih olduğunu bildirmişdir.
[448] Əhməd, 23577. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1110) səhih olduğunu bildirmişdir.
[449] ət-Tirmizi, 658, 660. əl-Albani bu hədisin səhih olduğunu bildirmişdir.

الْعُمرِ، وَفِعلُ الْمَعْرُوف يَقِي مَصَارِعَ السُّوءِ».

317. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Gizli olaraq verilən sədəqə Allahın qəzəbini söndürür, qohumluq əlaqələrini möhkəmlətmək ömrü artırır və insanlara yaxşılıq etmək isə pis aqibətdən qoruyur".[450]

SƏDƏQƏ VERƏN KASIBLIQDAN QORXMAZ

٣١٨ - عَنْ بُرَيْدَه ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا يُخْرِجُ رَجُلٌ شَيئاً مِنَ الصَّدَقَةِ، حَتَّى يَفُكَّ عَنْهَا لِحيَيْ سَبْعِيْنَ شَيْطَاناً».

318. Bureydə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Bir kişi yetmiş şeytanın çənəsini (vəsvəsəsini sədəqədən) dəf etdikdən sonra sədəqə vermiş olar".[451]

UCA ALLAH SİMİCLİK ETMƏYƏNƏ NEMƏTİNİ ƏSİRGƏMƏZ

٣١٩ - عَنْ عَائِشَةَ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ لَهَا فِي عُمْرَتِهَا: «إِنَّ لَكِ مِنَ الأَجْرِ عَلَى قَدْرِ نَصَبِكِ وَنَفَقَتِكِ».

319. Aişə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm ümrədə ona belə demişdir: "Həqiqətən, (Allah yolunda) yorulmağın və xərcləməyin qədər sənə mükafat verilir".[452]

٣٢٠ - عَنْ أَسْمَاءَ بِنْتِ أَبِي بَكْرٍ ﷺ أَنَّهَا جَاءَتِ النَّبِيَّ ﷺ فَقَالَتْ يَا نَبِيَّ اللَّهِ لَيْسَ لِي شَيْءٌ إِلاَّ مَا أَدْخَلَ عَلَيَّ الزُّبَيْرُ فَهَلْ عَلَيَّ جُنَاحٌ أَنْ أَرْضَخَ مِمَّا يُدْخِلُ عَلَيَّ فَقَالَ «ارْضَخِي مَا اسْتَطَعْتِ وَلاَ تُوعِي فَيُوعِيَ اللَّهُ عَلَيْكِ».

320. Əsma bint Əbu Bəkr ﷺ belə rəvayət edir: "O, Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gələrək belə demişdir: "Ey Allahın Peyğəmbəri! Zubeyrin mənə gətirdiyi şeylərdən başqa bir şeyim yoxdur. Mənə verilən şeylərdən cüzi bir şey versəm, mənə günah olmaz ki?" Peyğəmbər sallallahu

---

[450] əl-Beyhəqi "Şuabul-İman" 3442. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3760) səhih olduğunu bildirmişdir.

[451] əl-Hakim, 1521; Əhməd, 23012. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5814) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1268) səhih olduğunu bildirmişdir. Hədisdə insanın sədəqə vermək istəyərkən yetmiş şeytanın onu kasıblıqla qorxudaraq sədəqə verməkdən çəkindirməyə çalışması nəzərdə tutulur.

[452] əl-Hakim, 1733. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2160) səhih olduğunu bildirmişdir.

aleyhi və səlləm belə buyurdu: “Bacardığını ver, simiclik etmə ki, Uca Allah da səndən nemətlərini əsirgəməsin”.[453]

HƏDİYYƏ DƏ SƏDƏQƏDİR

٣٢١ - عن البراء بن عازب ﷺ عن النبي ﷺ قال من منح منيحة أو هدى زقاقا أو قال طريقا كان له عدل عتاق نسمة

321. Bəra ibn Azib ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm dedi: “Kim bir dəvə (yaxud qoç) hədiyyə versə və ya bir küçə (yaxud yol) göstərsə, ona bir kölə azad etdiyi qədər savab yazılar”.[454]

XƏSİSLƏ ƏLİAÇIĞIN MİSALI

٣٢٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَثَلُ الْبَخِيلِ وَالْمُنْفِقِ كَمَثَلِ رَجُلَيْنِ، عَلَيْهِمَا جُبَّتَانِ مِنْ حَدِيدٍ، مِنْ ثُدِيِّهِمَا إِلَى تَرَاقِيهِمَا، فَأَمَّا الْمُنْفِقُ فَلاَ يُنْفِقُ إِلاَّ سَبَغَتْ – أَوْ وَفَرَتْ – عَلَى جِلْدِهِ حَتَّى تُخْفِيَ بَنَانَهُ وَتَعْفُوَ أَثَرَهُ، وَأَمَّا الْبَخِيلُ فَلاَ يُرِيدُ أَنْ يُنْفِقَ شَيْئًا إِلاَّ لَزِقَتْ كُلُّ حَلْقَةٍ مَكَانَهَا، فَهُوَ يُوَسِّعُهَا وَلاَ تَتَّسِعُ»

322. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ Peyğəmbərin sallәllahu aleyhi və səlləm belə dediyini eşitmişdir: “Xəsislə əliaçıq adamın məsəli, əyninə, (bədəninin) sinədən körpücük sümüklərinə qədər olan hissəsini örtən, dəmir cübbə geymiş iki adamın məsəlinə bənzəyir. Əliaçıq adama gəlincə, o, (hər dəfə öz malından) xərclədikdə (cübbəsi) genişlənir, yaxud böyüyür və (bu genişlənmə) cübbəsi ta onun barmaqlarının üstünü örtənə qədər və ayaq izlərini silənədək[455] (beləcə böyüyüb genişlənir). Xəsislik edənə gəldikdə isə o, (hər dəfə malından) xərcləmək istədikdə (cübbənin) dəmir həlqəsi yerinə yapışır və o, cübbəsini genişləndirməyə çalışsa da, cübbə genişlənmir ki, genişlənmir”.[456]

BİR DİRHƏM SƏDƏQƏ EDƏN

٣٢٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «سَبَقَ دِرْهَمٌ مِائَةَ أَلْفٍ». قَالُوا يَا رَسُولَ اللَّهِ وَكَيْفَ قَالَ «رَجُلٌ لَهُ دِرْهَمَانِ فَأَخَذَ أَحَدَهُمَا فَتَصَدَّقَ بِهِ وَرَجُلٌ لَهُ مَالٌ كَثِيرٌ فَأَخَذَ مِنْ عُرْضِ مَالِهِ مِائَةَ أَلْفٍ فَتَصَدَّقَ بِهَا».

---

[453] Muslim, 2425.

[454] əl-Buxari “Ədəbul-Mufrad” 890. əl-Albani səhih olduğunu qeyd etmişdir.

[455] Burada cübbənin ətəyinin yerlə sürünməsi və sahibinin günahlarını ört-basdır etməsi nəzərdə tutulur.

[456] əl-Buxari, 1443; Muslim 1021, 1696; ən-Nəsəi, 2547.

323. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Bir dirhəm yüz min dirhəmdən irəlidədir". Səhabələr: "Ey Allahın Elçisi, bu necə ola bilər?"- deyə soruşdular. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "İki dirhəmi olub birini sədəqə verən adam hara, mal-dövləti olub ondan yüz min dirhəm sədəqə verən insan hara!"[457]

VERƏN ƏL ALAN ƏLDƏN ÜSTÜNDÜR

٣٢٤ - عَنْ حَكِيمِ بْنِ حِزَامٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْيَدُ الْعُلْيَا خَيْرٌ مِنَ الْيَدِ السُّفْلَى، وَابْدَأْ بِمَنْ تَعُولُ، وَخَيْرُ الصَّدَقَةِ عَنْ ظَهْرِ غِنًى، وَمَنْ يَسْتَعْفِفْ يُعِفَّهُ اللَّهُ، وَمَنْ يَسْتَغْنِ يُغْنِهِ اللَّهُ».

324. Həkim ibn Hizam ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Verən əl alan əldən daha xeyirlidir. Baxmağın vacib olan kimsələrdən[458] başla. Ən xeyirli sədəqə, zəngin ikən verilən (sədəqədir). İffətli olmaq istəyəni Allah iffətli edər. (İnsanlara) möhtac olmaq istəməyən kimsəni Allah heç kəsə möhtac etməz".[459]

٣٢٥ - عَنْ طَارِقٍ الْمُحَارِبِيِّ ﷺ قَالَ قَدِمْنَا الْمَدِينَةَ فَإِذَا رَسُولُ اللَّهِ ﷺ قَائِمٌ عَلَى الْمِنْبَرِ يَخْطُبُ النَّاسَ وَهُوَ يَقُولُ «يَدُ الْمُعْطِي الْعُلْيَا وَابْدَأْ بِمَنْ تَعُولُ أُمَّكَ وَأَبَاكَ وَأُخْتَكَ وَأَخَاكَ ثُمَّ أَدْنَاكَ أَدْنَاكَ».

325. Tariq əl-Muharibinin ﷺ belə deməsi rəvayət olunur: "Mədinəyə çatdıqda Allahın Elçisi sallallahu aleyhi və səlləm minbərin üstündə ayaq üstə duraraq camaata xütbə oxuyurdu: "Verən əl üstündür. Sənin öhdəndə olan anandan, atandan, bacından, qardaşından, sonra sənə ən yaxın (olanlardan və ondan sonra bir qədər uzaq) olanlardan başla!"[460]

٣٢٦ - عَنْ حَكِيمِ بْنِ حِزَامٍ ﷺ قَالَ سَأَلْتُ النَّبِيَّ ﷺ فَأَعْطَانِي ثُمَّ سَأَلْتُهُ فَأَعْطَانِي ثُمَّ سَأَلْتُهُ فَأَعْطَانِي ثُمَّ قَالَ إِنَّ هَذَا الْمَالَ خَضِرَةٌ حُلْوَةٌ فَمَنْ أَخَذَهُ بِطِيبِ نَفْسٍ بُورِكَ لَهُ فِيهِ وَمَنْ أَخَذَهُ بِإِشْرَافِ نَفْسٍ لَمْ يُبَارَكْ لَهُ فِيهِ وَكَانَ كَالَّذِي يَأْكُلُ وَلَا يَشْبَعُ وَالْيَدُ الْعُلْيَا خَيْرٌ مِنْ الْيَدِ السُّفْلَى

326. Həkim ibn Hizam ﷺ demişdir: "Mən Allah Elçisindən sallallahu aleyhi və səlləm mal istədim, o da mənə verdi. Sonra yenə istədim, o yenə mənə verdi. Sonra yenə istədim, o yenə verdi. Sonra o dedi: "Şübhəsiz ki, bu mal şirin

---

[457] ən-Nəsəi, 2528, 2540; İbn Xuzeymə, 2443. əl-Albani həsən olduğunu bildirmişdir.
[458] Burada insanın özü, ata-anası və digər ailə üzvləri nəzərdə tutulur.
[459] əl-Buxari, 1427; Muslim 1033.
[460] Nəsəi, 2532, 2544. Albani səhih olduğunu bildirmişdir.

meyvədir. Kim onu gözütoxluq ilə alarsa, onun üçün bərəkətli olar. Kim də onu tamahkarlıq ilə alarsa, onun üçün bərəkətli olmaz və o, yemək yeyən, lakin doymayan bir kimsəyə bənzəyir. Verən əl alan əldən daha yaxşıdır".[461]

٣٢٧ - سَمِعْتُ أَبَا أُمَامَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ يَا ابْنَ آدَمَ إِنَّكَ أَنْ تَبْذُلَ الْفَضْلَ خَيْرٌ لَكَ وَأَنْ تُمْسِكَهُ شَرٌّ لَكَ وَلَا تُلَامُ عَلَى كَفَافٍ وَابْدَأْ بِمَنْ تَعُولُ وَالْيَدُ الْعُلْيَا خَيْرٌ مِنْ الْيَدِ السُّفْلَى

327. Əbu Umamə ﷺ demişdir: "Allah Elçisini sallallahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Ey Adəm oğlu! Artıq malını sərf etməyin sənin üçün xeyir, etməməyin isə şərdir. Kifayət qədər mala sahib olduğun üçün qınanmazsan. Öhdəndə olandan başla! Verən əl alan əldən daha yaxşıdır".[462]

SƏDƏQƏ QƏBRİN HƏRARƏTİNİ SÖNDÜRÜR

٣٢٨ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ قَالَ: «إِنَّ الصَّدَقَةَ لَتُطْفِئُ عَنْ أَهْلِهَا حَرّ الْقُبُورِ، وَإِنَّمَا يَسْتَظِلُ الْمُؤمِنُ يَوْمَ الْقِيَامَةِ فِي ظِلِّ صَدَقَتِهِ».

328. Uqbə ibn Amir ﷺ rəvayət edir ki, Allahın Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, sədəqə qəbrin hərarətini söndürür. Qiyamət günü mömin öz sədəqəsinin kölgəsi altında kölgələnəcək".[463]

٣٢٩ - عن الحسن ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "دَاوُوا مَرْضَاكُمْ بِالصَّدَقَةِ"

329. Həsən ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Xəstələrinizi sədəqə verməklə müalicə edin!"[464]

İNSAN ÖLMƏMİŞ ONUN RUZİSİ TÜKƏNMƏZ

٣٣٠ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: إِنَّ الرِّزْقَ لَيَطْلُبُ الْعَبْدَ كَمَا يَطْلُبُهُ أَجَلُهُ.

---

[461] Muslim, 1035, 1717, 2434.
[462] Muslim, 1036, 1718, 2435.
[463] ət-Tabərani "Mucəmul-Kəbir" 14207; əl-Beyhəqi "Şuabul-İman" 3347. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 365) səhih olduğunu bildirmişdir.
[464] əl-Beyhəqi "Sunənul-Kubra" 6832. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 744) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

330. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Şubhəsiz ki, əcəl qulu axtarıb tapdığı kimi ruzi də onu axtarıb tapır".[465]

ZƏKAT

٣٣١ - عَنْ جَابِرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ أَدَّى زَكَاةَ مَالِهِ فَقَدْ ذَهَبَ عَنْهُ شَرُّه».

331. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim malın zəkatını verərsə, malın şəri ondan uzaqlaşar".[466]

[465] İbn Hibban, 3238. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1703) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[466] ət-Tabərani "Mucəmul-Əvsat" 1579. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 743) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

HƏCC VƏ ÜMRƏ

HƏCCİN FƏZİLƏTİ

٣٣٢ - عن عبادة بن الصامت ﷺ قال «صلى بنا رسول الله ﷺ فتخطا إليه رجلان رجل من الأنصار ورجل من ثقيف سبق الأنصاري الثقفي فقال رسول الله ﷺ للثقفي إن الأنصاري قد سبقك بالمسألة فقال ألأنصاري لعله يا رسول الله أن يكون أعجل مني فهو في حل قال فسأله الثقفي عن الصلاة فأخبره ثم قال رسول الله ﷺ للأنصاري إن شئت خبرتك بما جئت تسأل عنه وإن شئت سألتني فأخبر بذلك فقال يا رسول الله تخبرني فقال جئت تسألني مالك من الأجر إذا أممت البيت العتيق وما لك من الأجر في وقوفك في عرفة وما لك من الأجر في رميك الجمار وما لك من الأجر في حلق رأسك وما لك من الأجر إذا ودعت البيت فقال الأنصاري والذي بعثك بالحق ما جئت أسألك عن غيره قال فإن لك من الأجر إذا أممت البيت العتيق ألا ترفع قدما أو تضعها أنت ودابتك إلا كتبت لك حسنة ورفعت لك درجة وأما وقوفك بعرفة فإن الله ﷻ يقول لملائكته يا ملائكتي ما جاء بعبادي قالوا جاؤوا يلتمسون رضوانك والجنة فيقول الله ﷻ فإني أشهد نفسي وخلقي أني قد غفرت لهم عدد أيام الدهر وعدد القطر وعدد رمل عالج وأما رميك الجمار فإن الله ﷻ يقول ﴿**فَلَا تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ جَزَاءً بِمَا كَانُوا يَعْمَلُونَ**﴾ وأما حلقك رأسك فإنه ليس من شعرك شعرة تقع في الأرض إلا كانت لك نورا يوم القيامة وأما البيت إذا ودعت فإنك تخرج من ذنوبك كيوم ولدتك أمك» ... حديث ابن عمر ﷺ قال: قال رسول الله ﷺ: أَمَّا خُرُوجُكَ مِنْ بَيْتِكَ تَؤُمُّ البَيْتَ الحَرامَ فإنَّ لَكَ بِكُلِّ وَطْأَةٍ تطَؤُها راحِلَتُكَ يَكْتُبُ اللَّهُ لَكَ بِها حَسَنَةً ويَمْحُو عنكَ بِها سَيِّئَةً وأمّا وُقُوفُكَ بِعَرَفَةَ فإنَّ اللَّهَ ﷻ يَنْزِلُ إلى السَّماءِ الدُّنْيا فَيُباهِي بِهِم المَلائِكَةَ فَيَقُولُ هؤُلاءِ عِبادِي جاؤُونِي شُعْثاً غُبْراً مِنْ كُلِّ فَجَ عَمِيقٍ يَرْجُونَ رَحْمَتِي ويَخافُونَ عَذَابِي و لَمْ يرَوْنِي فكَيْفَ لَوْ رأَوْنِي فَلَوْ كانَ عليكَ مثلُ رَمْلِ عالِجٍ أوْ مِثْلِ أيَّامِ الدُّنْيا أوْ مِثْلُ قَطْرِ السَّماءِ ذُنُوباً غَسَلَها اللَّهُ عنكَ وأمَّا رَمْيُكَ الجِمارَ فإنهُ مَذْخُورٌ لَكَ وأما حَلْقُكَ رَأْسَكَ فإنَّ لكَ بِكُلِّ شَعْرَةٍ تَسْقُطُ حَسَنَةً فإذا طُفْتَ بالبَيْتِ خَرَجْتَ مِنْ ذُنُوبِكَ كَيَوْمِ وَلَدَتْكَ أُمُّكَ

332. Ubədə ibn Samit ﷺ demişdir: "(Bir gün) Allah Elçisi sallәllahu aleyhi və səlləm bizimlə namaz qılırdı. (Bu zaman) biri Ənsardan,[467] biri isə Səqif qəbiləsindən olan iki kişi ona doğru addımladı və Ənsardan olan kişi Səqif qəbiləsindən olan kişini (Allah Elçisinə sallәllahu aleyhi və səlləm birinci yaxınlaşmaqda) qabaqladı. Allah Elçisi sallәllahu aleyhi və səlləm Səqifdən olan kişiyə dedi: "Ənsardan (olan kişi) soruşmaqda səni qabaqladı". Ənsardan olan kişi dedi: "Ola bilsin ki, o, məndən çox tələsir, qoy (birinci) soruşsun". Səqif qəbiləsindən olan kişi namaz haqqında soruşdu, o da ona xəbər verdi. Sonra Allah Elçisi sallәllahu aleyhi və səlləm Ənsardan olan kişiyə dedi: "Əgər istəyirsənsə, soruşmaq üçün gəldiyin məsələ barəsində sənə xəbər verim". O dedi: "Ey Allahın Elçisi! Mənə xəbər ver!" O dedi: "Sən gəldin məndən

[467] Ənsar - İslamı qəbul etmiş və Muhəmməd Peyğəmbərin ﷺ sədaqətli silahdaşları olmuş Mədinənin yerli sakinlərinə deyilir. Onlar Məkkədən və başqa şəhərlərdən gələn mühacirləri evlərinə qəbul edir və onları zəruri əşyalarla təmin edirdilər.

soruşasan ki, qədim Evə (Kəbəyə)[468] gəlməyinin, Ərafatda durmağının, daş atmağının, başını qırxdırmağının və Ev ilə vidalaşmağının sənin üçün mükafatı nədir?" Ənsardan olan kişi dedi: "Səni haqq ilə göndərən Allaha and olsun ki, mən səndən bundan başqa (bir məsələ) haqqında soruşmağa gəlmədim". O dedi: "Qədim Evə gəlməkdə mükafatın sənin və miniyinin atdığı hər addıma görə sənə bir savab yazılar və sənin üçün bir dərəcə artırılar. Ərafatda durduqda Allah ﷻ mələklərinə buyurur: "Ey Mənim mələklərim! Mənim qullarımı bura gətirən nədir?" Mələklər deyirlər: "Onlar Sənin razılığını və Cənnəti istəyirlər". Allah ﷻ buyurur: "Mən Özümü və məxluqatımı şahid tuturam ki, Mən onları zamanın günlərinin, (yağışın) damcılarının, qum dənəciklərinin sayı qədər bağışladım!" Daş atdıqda Allah ﷻ buyurur: "***Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir***" *(əs-Səcdə, 17).* Başını qırxdırdıqda isə yerə düşən hər bir tükün Qiyamət günü sənin üçün nur olacaq. Ev ilə vidalaşdıqda sən anadan doğulduğun gündə olduğun kimi günahlarından azad olarsan".[469] Başqa bir rəvayətdə isə Peyğəmbər salləllahu aleyhi və səlləm belə demişdir: "Beytul-Harama gəlmək üçün evindən çıxmağına gəlincə, miniyinin atdığı hər addıma görə Allah sənə bir savab yazır və bir günahını silir. Ərəfatda durmağına gəlincə, Allah ﷻ bu vaxt dünya səmasına enir və mələklərinin qarşısında öyünərək buyurur: "Bunlar toz-torpaq içində, saçları dağınıq bir halda uzaq yerlərdən Mənə doğru gələn qullarımdır. Onlar Məni görmədən mərhəmətimə ümid bəsləyir və əzabımdan qorxurlar, bəs Məni görsəydilər necə?" Sənin günahların böyük bir qum yığınının dənələri və ya dünyanın günləri, ya da göydə olan yağışın damcıları qədər olsa belə, Allah onları səndən təmizləyər. Daş atmağına gəlincə, o, sənin üçün (şeytanı) zəlil etməkdir. Başını qırxdırmağına gəlincə, yerə duşən hər bir tükə görə sənin üçün bir savab vardır. Evi təvaf etdikdə[470] isə anadan doğulduğun gündə olduğun kimi günahlarından azad olarsan".[471]

---

[468] Kəbə - İbrahim peyğəmbər ﷺ və onun oğlu İsmail peyğəmbərin ﷺ ucaltdığı kub formasında daş tikilidir. O, Allaha ibadət etmək üçün Yer üzündə tikilən ilk məbəd olmuşdur. Bütün müsəlmanlar namaz qılarkən üzlərini ona doğru çevirirlər və hər il milyonlarla müsəlman yaşadığı ölkədən Məkkəyə gələrək onu ziyarət edir, qədim ibadətgahın ətrafına dolanırlar.

[469] ət-Tabərani "Mucəmul-Əvsat" 2320. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1113) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[470] Təvaf etmək - Kəbənin ətrafına dolanmaqdır. O, qara daşın səviyyəsində başlanıb qurtarır və yeddi dairədən ibarət olur.

[471] ət-Tabərani "Mucəmul-Kəbir" 13566. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1360) həsən olduğunu qeyd etmişdir.

٣٣٣ - عن ابن عمر ﷺ قال: سمعت النبي ﷺ يقول: مَا تَرْفَعُ إِبِلُ الحَاجِّ رِجْلاً وَلاَ تَضَعُ يَداً إِلاَّ كَتَبَ اللهُ تَعَالَى لَهُ بِهَا حَسَنَةً أَوْ مَحَا عَنْهُ سَيِّئَةً أَوْ رَفَعَهُ بِهَا دَرَجَةً.

333. İbn Ömər ﷺ demişdir: "Peyğəmbərin ﷺ belə buyurduğunu eşitdim: "Həcc edənin dəvəsi hər dəfə ayağını qaldırıb-qoyduqda, Uca Allah ona bir savab yazır və ya bir günahını silir və ya onu bir dərəcə yüksəldir".[472]

٣٣٤ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِذَا رَمَيْتَ الْجِمَارَ كَانَتْ، لَكَ نُوراً يَومَ الْقِيَامَةِ».

334. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "(Həccdə) Camarata daş atmağın[473] sənin üçün Qiyamət günü nur olacaq".[474]

٣٣٥ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ لَقِيَ رَكْبًا بِالرَّوْحَاءِ فَقَالَ «مَنِ الْقَوْمُ». قَالُوا الْمُسْلِمُونَ. فَقَالُوا مَنْ أَنْتَ قَالَ «رَسُولُ اللَّهِ». فَرَفَعَتْ إِلَيْهِ امْرَأَةٌ صَبِيًّا فَقَالَتْ أَلِهَذَا حَجٌّ قَالَ «نَعَمْ وَلَكِ أَجْرٌ».

335. İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm ər-Ravha adlanan yerdə bir dəstə atlı ilə qarşılaşdı. Onlardan: "Siz kimsiniz?"- deyə soruşduqda, onlar: "Müsəlmanıq!"- deyə cavab verdilər. Ondan soruşdular: "Bəs sən kimsən?" O: "Allahın Elçisi!"- deyə cavab verdikdə, bir qadın əlindəki uşağı qucağına götürərək soruşdu: "Buna həcc varmı?" Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Bəli və onun savabı sənə verilir!"[475]

ƏRAFA GÜNÜNÜN FƏZİLƏTİ

٣٣٦ - قَالَتْ عَائِشَةُ ﷺ إِنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَا مِنْ يَوْمٍ أَكْثَرَ مِنْ أَنْ يُعْتِقَ اللَّهُ فِيهِ عَبْدًا مِنَ النَّارِ مِنْ يَوْمِ عَرَفَةَ وَإِنَّهُ لَيَدْنُو ثُمَّ يُبَاهِي بِهِمُ الْمَلاَئِكَةَ فَيَقُولُ مَا أَرَادَ هَؤُلاَءِ»

---

[472] əl-Beyhəqi "Şuabul-İman" 4116. Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5596) həsən olduğunu qeyd etmişdir.

[473] Həcc mərasimində həcc edənlərin Zil-Hiccə ayının 10, 11 və 12-ci günləri yerinə yetirdikləri mərasimdir. Bu mərasimdə həcc edənlər ibadət növü olaraq təkbir edərək Camaratı (daş atılan yeri) kiçik daşlarla daşlayırlar.

[474] əl-Heysəmi "Kəşful-Əstər an Zəvaidil-Bəzzar" 1140. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2515) və "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1557) həsən səhih olduğunu bildirmişdir.

[475] Muslim, 1336, 3317.

336. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Ərafa günü olduğu qədər Allahın atəşdən çox qul azad etdiyi başqa bir gün yoxdur. Həqiqətən, o gün Allah, (dünya səmasına) yaxınlaşır və mələklərin qarşısında (Ərafatda olanlarla) öyünərək buyurur: "Bunlar nə istəyirlər?"[476]

HƏCCƏ GEDƏRƏK YOLDA ÖLƏN

٣٣٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: مَنْ خَرَجَ حَاجًّا فَمَاتَ كتب الله لَهُ أَجْرُ الْحَاجِّ إِلَى يَوْمِ الْقِيَامَةِ، وَمَنْ خَرَجَ مُعْتَمِرًا فَمَاتَ كتب الله لَهُ أَجْرُ الْمُعْتَمِرِ إِلَى يَوْمِ الْقِيَامَةِ، وَمَنْ خَرَجَ غَازِيًا فِي سبيل الله فَمَاتَ كتب الله لَهُ أَجْرُ الْغَازِي إِلَى يَوْمِ الْقِيَامَةِ.

337. Əbu Hureyra ﵁ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Kim həcc etmək üçün yola çıxaraq ölsə, Allah ona Qiyamət gününə qədər həcc savabı yazar. Kim ümrə etmək üçün yola çıxaraq ölsə, Allah ona Qiyamət gününə qədər ümrə savabı yazar. Kim də Allah yolunda döyüşə getmək üçün yola çıxaraq ölsə, Allah ona Qiyamət gününə qədər döyüşçü savabı yazar".[477]

QƏBUL OLUNMUŞ HƏCCİN MÜKAFATI

٣٣٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «الْعُمْرَةُ إِلَى الْعُمْرَةِ كَفَّارَةٌ لِمَا بَيْنَهُمَا، وَالْحَجُّ الْمَبْرُورُ لَيْسَ لَهُ جَزَاءٌ إِلاَّ الْجَنَّةُ».

338. Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Ümrə ziyarəti, növbəti ümrəyədək arada olan (kiçik günahlar üçün) kəffarədir. Qəbul olunmuş həccin mükafatı isə ancaq Cənnətdir".[478]

٣٣٩ - عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ ﵁ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «تَابِعُوا بَيْنَ الْحَجِّ وَالْعُمْرَةِ فَإِنَّهُمَا يَنْفِيَانِ الْفَقْرَ وَالذُّنُوبَ كَمَا يَنْفِي الْكِيرُ خَبَثَ الْحَدِيدِ وَالذَّهَبِ وَالْفِضَّةِ وَلَيْسَ لِلْحَجَّةِ الْمَبْرُورَةِ ثَوَابٌ إِلاَّ الْجَنَّةُ».

339. Abdullah ibn Məsud ﵁ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Həcc və ümrəni ardıcıl edin, çünki körük dəmirin,

---

[476] Muslim, 1348, 2402, 3354.

[477] ət-Tabərani "Mucəmul-Kəbir" 80; Əbu Yəalə, 6357. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1114, 1267) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[478] əl-Buxari, 1773.

qızılın və gümüşün pasını apardığı kimi onlar da kasıblığı və günahları aparır. Qəbul olunmuş həccin mükafatı isə ancaq Cənnətdir".[479]

٣٤٠ - عَنْ جَابِرِ بْنِ عَبْدُ اللهِ ﵄ عَنِ النَّبِيِّ ﷺ قال الْحَجُّ الْمَبْرُورُ لَيْسَ لَهُ جَزَاءٌ إِلا الْجَنَّةَ قال وما بره قال إِطْعَامُ الطَّعَامِ وطيب الكلام

340. Cabir ibn Abdullah ﵄ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Yaxşı yerinə yetirilən həccin mükafatı yalnız Cənnətdir". Soruşdular: "Onun yaxşılığı nədir?" O buyurdu: "Yemək yedirtmək və xoş söz söyləməkdir".[480]

٣٤١ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: «مَنْ حَجَّ لِلَّهِ فَلَمْ يَرْفُثْ وَلَمْ يَفْسُقْ رَجَعَ كَيَوْمِ وَلَدَتْهُ أُمُّهُ».

341. Rəvayət edilir ki, Əbu Hureyra ﵁ demişdir: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: "Kim Allah xatirinə həcc ziyarətini yerinə yetirsə, (ziyarət əsnasında) qadını ilə yaxınlıq etməsə və (digər) günah işlərdən çəkinsə, anadan doğulduğu gündə olduğu kimi (pak halda evinə) qayıdar".[481]

TƏLBİYƏ HƏCCİN NİŞANƏLƏRİNDƏNDİR

٣٤٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا أَهَلَّ مُهِلٌّ قَطّ إِلاَّ بُشِّرَ، وَلاَ كَبَّرَ مُكَبِّرٌ قَطّ إِلاَّ بُشِّرَ». قِيلَ: يَا رَسُوْلَ اللهِ! بِالْجَنَّةِ؟ قَالَ: «نَعَمْ».

342. Əbu Hureyra ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Təlbiyə"[482] söyləyən elə bir kəs yoxdur ki, müjdələnməsin. Habelə, təkbir söyləyən elə bir kəs yoxdur ki, müjdələnməsin". Soruşdular: "Ey Allahın Elçisi, Cənnətlə?" O: "Bəli"– deyə buyurdu".[483]

٣٤٣ - عَنْ زَيْدِ بْنِ خَالِدٍ الْجُهَنِيِّ ﵁ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ جَاءَنِي جِبْرِيلُ فَقَالَ يَا مُحَمَّدُ مُرْ أَصْحَابَكَ فَلْيَرْفَعُوا

---

[479] ət-Tirmizi, 810, 815. əl-Albani hədisin həsən səhih olduğunu bildirmişdir.

[480] ət-Tabərani "Mucəmul-Əvsat" 8405. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1104) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[481] əl-Buxari, 1521; Muslim, 1350, 2404.

[482] Həcc və ya ümrədə deyilən zikr.

[483] ət-Tabərani "Mucəmul-Əvsat" 7779. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5569) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1621) həsən olduğunu bildirmişdir.

أَصْوَاتَهُمْ بِالتَّلْبِيَةِ فَإِنَّهَا مِنْ شِعَارِ الْحَجِّ

343. Zeyd ibn Xalid əl-Cuhəni ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Cəbrayıl yanıma gəlib dedi: "Ey Muhəmməd, səhabələrinə "təlbiyyəni" yüksək səslə söyləməyi əmr et! Çünki, o, həccin nişanələrindəndir".[484]

٣٤٤ - عَنْ أَبِي بَكْرٍ الصِّدِّيقِ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ سُئِلَ: أَيُّ الْحَجِّ أَفْضَلُ؟ قَالَ :«الْعَجُّ وَالثَّجُّ».

344. Əbu Bəkr əs-Siddiq ﷺ rəvayət edir ki, Peyğəmbərdən sallallahu aleyhi və səlləm soruşdular: "Hansı həcc daha fəzilətlidir?" O dedi: "Çoxlu "təlbiyyə" gətirilən və çox qurban kəsilən həcc".[485]

QURBANLIQ QOYUNUN FƏZİLƏTİ

٣٤٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ : قَالَ رَسُوْلُ اللهِ ﷺ: «دَمُ عَفْرَاءَ أَحَبُّ إِلَى اللهِ مِنْ سَوْدَاوَيْنِ».

345. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "(Qurban kəsilən) bir qumral[486] qoyunun qanı iki qara qoyunun qanından Allaha daha sevimlidir".[487]

ZÜL-HİCCƏNİN İLK ON GÜNÜ

٣٤٦ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا مِنْ أَيَّامٍ الْعَمَلُ الصَّالِحُ فِيهَا أَحَبُّ إِلَى اللَّهِ(التَّسْبِيحَ، وَالتَّهْلِيلَ، وَالتَّكْبِيرِ) مِنْ هَذِهِ الأَيَّامِ». يَعْنِى الْعَشْرَ. قَالُوا يَا رَسُولَ اللَّهِ وَلاَ الْجِهَادُ فِى سَبِيلِ اللَّهِ قَالَ «وَلاَ الْجِهَادُ فِى سَبِيلِ اللَّهِ إِلاَّ رَجُلٌ خَرَجَ بِنَفْسِهِ وَمَالِهِ فَلَمْ يَرْجِعْ مِنْ ذَلِكَ بِشَىْءٍ».

346. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "(Zül-Hiccə ayının) bu on günündə edilən yaxşı əməllər (Digər rəvayətdə belə bir əlavə vardır: "...Subhənallah, Lə iləhə illəllah və Allahu Əkbər demək".[488]) Allaha başqa günlərdə edilən əməllərdən daha

---

[484] İbn Məcə, 2365, 2888. əl-Albani səhih li-ğeyrihi olduğunu bildirmişdir.
[485] ət-Tirmizi, 827, 835. əl-Albani səhih olduğunu bildirmişdir.
[486] Açıq şabalıdı rəngində olan.
[487] əl-Beyhəqi "Sunənus-Suğra" 1795, 1411, "Sunənul-Kubra" 18870, 19563. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3391) həsən olduğunu bildirmişdir.
[488] ət-Tabərani "Mucəmul-Kəbir" 10953. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1248) və "İrvaul-Ğalil"də (№ 890) həsən olduğunu bildirmişdir.

sevimlidir". Dedilər: "Ey Allahın Elçisi, Allah yolunda edilən cihaddan da?!" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Allah yolunda edilən cihaddan da! Yalnız öz canı və malı ilə Allah yolunda cihada gedib qayıtmayan (yəni şəhid olan) kişi müstəsnadır".[489]

٣٤٧ - عَنْ جَابِرٍ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «أَفْضَلُ أَيَّامِ الدُّنْيَا أَيَّامُ الْعَشْرِ» قيل: وَلاَ مثلهن في سبيل الله؟ قال: «وَلاَ مثلهن فِي سَبِيلِ اللهِ إِلاَّ رَجُلٌ عَفَّرَ وَجْهَهُ فِي التُّرَابِ».

347. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Dünyanın ən fəzilətli günləri (Zül-Hiccə ayının ilk) on günüdür". Dedilər: "Allah yolunda onlara bərabər (günlər) varmı?" O buyurdu: "Onlara bərabər yalnız bir kişinin Allah yolunda üzünü toz-torpağa batırmasıdır".[490]

HƏCCDƏ SAÇLARINI QISALDANLAR

٣٤٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «اللَّهُمَّ اغْفِرْ لِلْمُحَلِّقِينَ». قَالُوا وَلِلْمُقَصِّرِينَ. قَالَ: «اللَّهُمَّ اغْفِرْ لِلْمُحَلِّقِينَ». قَالُوا وَلِلْمُقَصِّرِينَ. قَالَهَا ثَلاَثًا. قَالَ: «وَلِلْمُقَصِّرِينَ».

348. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm (həcc ziyarətində) dedi: "Allahım, saçını qırxdıranları bağışla!" (Əshablər): "Qısaldanları da, (ey Allahın Elçisi)?"- deyə soruşdular. Dedi: "Allahım, saçını qırxdıranları bağışla!" Onlar: "Qısaldanları da, (ey Allahın Elçisi)?"- deyə soruşdular. Peyğəmbər sallallahu aleyhi və səlləm bu duanı üç dəfə təkrar etdi. (Bundan sonra) dedi: "Qısaldanları da (bağışla)!"[491]

KƏBƏNİ TƏVAF ETMƏYİN FƏZİLƏTİ

٣٤٩ - عَنْ عَبْدِ اللهِ بْنِ عُمَرَ رضي الله عنهما قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «مَنْ طَافَ بِالْبَيْتِ وَصَلَّى رَكْعَتَيْنِ كَانَ كَعِتْقِ رَقَبَه».

349. Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki, Allah Elçisini sallallahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Kim Kəbəni təvaf edər və iki rükət namaz

---

[489] ət-Tirmizi, 757, 1799. əl-Albani səhih olduğunu bildirmişdir.

[490] əl-Heysəmi "Kəşful-Əstər an Zəvaidil-Bəzzar" 1133. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1133) səhih olduğunu bildirmişdir.

[491] əl-Buxari, 1728. Bu hədisdə Həcc edərkən saçlarını qırxdıranlar nəzərdə tutulur.

qılarsa, bir köləni azad etmiş kimi savab qazanar".[492]

٣٥٠ - عَنْ عَبْدِ اللهِ بْنِ عُمَرَ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «إِنَّ مَسْحَهُمَا كَفَّارَةٌ لِلْخَطَايَا». وَسَمِعْتُهُ يَقُولُ: «مَنْ طَافَ بِهَذَا الْبَيْتِ أُسْبُوعاً فَأَحْصَاهُ كَانَ كَعِتْقِ رَقَبَةٍ». وَسَمِعْتُهُ يَقُولُ: «لاَ يَضَعُ قَدَماً وَلاَ يَرْفَعُ أُخْرَى، إِلاَّ حَطَّ اللهُ عَنْهُ بِهَا خَطِيْئَةً وَكَتَبَ لَهُ بِهَا حَسَنَةً».

350. Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, o iki (küncü) məsh etmək günahlara kəffarədir". Həmçinin, demişdir: "Kim bu Evi hesablayaraq yeddi dəfə tavaf edərsə, qul azad etmiş kimidir". Həmçinin, demişdir: "O (Həcc edən) hər dəfə ayağını qaldırdıqda və yerə qoyduqda, Allah buna görə onun bir günahını silir və bir savab yazır".[493]

٣٥١ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «الطَّوَافُ بِالْبَيْتِ صَلاَةٌ، وَلَكِنَّ اللهَ تَعَالَى أَحَلَّ فِيهِ الْمَنْطِقَ، فَمَنْ نَطَقَ فَلاَ يَنْطِقُ إِلاَّ بِخَيْرٍ».

351. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Evi tavaf etmək namazdır, lakin Uca Allah onda danışmağı halal etmişdir, kim danışarsa, yalnız xeyir söyləsin".[494]

HƏCƏRUL-ƏSVƏDİN FƏZİLƏTİ

٣٥٢ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ : قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لَيَأْتِيَنَّ هَذَا الْحَجَرُ يَوْمُ الْقِيَامَةِ وَلَهُ عَيْنَانِ يُبْصِرُ بِهِمَا، وَلِسَانٌ يَنْطِقُ بِهِ، يَشْهَدُ عَلَى كُلِّ مَنْ يَسْتَلِمهُ بِحَقٍّ».

352. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Bu daş (Həcərul-Əsvəd) Qiyamət günü görən gözləri və danışan dili olduğu halda mütləq gələcək və onu haqqı ilə ziyarət edən hər bir kəsə şahidlik edəcək".[495]

٣٥٣ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «إِنَّ مَسْحَ الْحَجَرِ الأَسْوَدِ، وَالرُّكْنِ الْيَمَانِي، يحطانِ الْخَطَايَا حَطّاً».

---

[492] İbn Məcə, 2956, 3069. əl-Albani səhih olduğunu bildirmişdir.
[493] əl-Hakim, 1799. əl-Albani səhih olduğunu bildirmişdir.
[494] əl-Hakim, 3058; ət-Tabərani "Mucəmul-Kəbir" 10955. əl-Albani səhih olduğunu bildirmişdir.
[495] İbn Məcə, 2944, 3057. əl-Albani səhih olduğunu bildirmişdir.

353. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Qara daşı və "Ruknul-Yəməni"ni məsh etmək günahları silir".[496]

٣٥٤ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ الرُّكْنَ وَالْمَقَامَ، يَاقُوتَتَانِ مِنْ يَاقُوتِ الْجَنَّةِ، طَمَسَ اللهُ نُورَهُمَا، وَلَوْ لَمْ يَطْمِسْ نُورَهُمَا لأَضَاءَتَا مَا بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ».

354. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: "Rükn (Yəmən rüknü) və Məqam (İbrahim məqamı) Cənnət yaqutlarından iki yaqutdur. Allah onların nurunu almışdır. Əgər onların nurunu almasaydı, onlar şərqlə qərbin arasını işıqlandırardı".[497]

ZƏM-ZƏM SUYUNUN FƏZİLƏTİ

٣٥٥ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «مَاءُ زَمْزَمَ لِمَا شُرِبَ لَهُ».

355. Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Allah Elçisini sallallahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Zəm-zəm suyu nə məqsədlə içilirsə, onun üçün (faydalı) olur".[498]

٣٥٦ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «زَمْزَمْ طَعَامُ طُعْمٍ وَشِفَاءُ سُقْمٍ».

356. Əbu Zərr ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurmuşdur: "Zəm-zəm suyu yeməyi əvəz edir və xəstəliklərə şəfadır".[499]

٣٥٧ - عن ابن عباس ﷺ قال قال رسول الله ﷺ مَاءُ زَمْزَمَ لِمَا شُرِبَ لَهُ إِنْ شَرِبْتَهُ تَسْتَشْفِي بِهِ شَفَاكَ الله وَإِنْ شَرِبْتَهُ لِشِبَعِكَ أَشْبَعَكَ الله بِهِ وَإِنْ شَرِبْتَهُ لِتَقْطَعَ ظَمَأَكَ قَطَعَهُ الله وَهِيَ هَزْمَةُ جِبْرِيلَ وَسُقْيا الله إِسْمَاعِيلَ

357. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Zəm-zəm suyu nə üçün içilirsə, onun üçündür. Əgər sən şəfa tapmaq üçün içərsənsə, Allah sənə şəfa verər. Tox olmaq üçün içərsənsə, Allah səni tox edər. Susuzluğunu yatırmaq üçün içərsənsə, Allah sənin

---

[496] ət-Tabərani "Mucəmul-Kəbir" 13438; İbn Hibban 3690. əl-Albani səhih olduğunu bildirmişdir.
[497] ət-Tirmizi, 878, 887. əl-Albani səhih olduğunu bildirmişdir.
[498] İbn Məcə, 3062, 3178. əl-Albani səhih olduğunu bildirmişdir.
[499] əl-Bəzzar, 3929. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3572) səhih olduğunu bildirmişdir.

susuzluğunu yatırdar. O, Cəbrayılın bulaq açması və Allahın İsmayılı içirtməsidir".[500]

RAMAZAN AYINDA EDİLƏN ÜMRƏ

٣٥٨ - عَنْ أَبِى مَعْقِلٍ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ «عُمْرَةٌ فِى رَمَضَانَ تَعْدِلُ حِجَّةً».

358. Əbu Məqil ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurmuşdur: "Ramazan ayı ümrə etmək həccə bərabərdir".[501]

٣٥٩ - عَنْ عَائِشَةَ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «إِذَا قَضَى أَحَدُكُمْ حِجَّهُ فَلْيُعَجِّل الرِّحْلَةَ إِلَى أَهْلِهِ فَإِنَّهُ أَعْظَمُ لأَجْرِهِ».

359. Aişə ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Biriniz həcci bitirdikdə ailəsinin yanına qayıtmağa tələssin, çünki bunun savabı daha böyükdür".[502]

---

[500] əd-Dəraqutni, 238. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1164) həsən li-ğeyrihi olduğunu bildirmişdir

[501] İbn Məcə, 2993, 3107. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

[502] əd-Dəraqutni, 289. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 732) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1379) həsən olduğunu bildirmişdir.

ORUC

ORUCUN FƏZİLƏTİ

٣٦٠ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «الصِّيَامُ جُنَّةٌ، فَلاَ يَرْفُثْ وَلاَ يَجْهَلْ، وَإِنِ امْرُؤٌ قَاتَلَهُ أَوْ شَاتَمَهُ فَلْيَقُلْ إِنِّى صَائِمٌ. مَرَّتَيْنِ، وَالَّذِى نَفْسِى بِيَدِهِ لَخُلُوفُ فَمِ الصَّائِمِ أَطْيَبُ عِنْدَ اللَّهِ تَعَالَى مِنْ رِيحِ الْمِسْكِ، يَتْرُكُ طَعَامَهُ وَشَرَابَهُ وَشَهْوَتَهُ مِنْ أَجْلِى، الصِّيَامُ لِى، وَأَنَا أَجْزِى بِهِ، وَالْحَسَنَةُ بِعَشْرِ أَمْثَالِهَا»

360. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Oruc qalxandır.[503] Qoy (oruc tutan adam) günah işlər görməsin və cahillik etməsin. Əgər kimsə onunla dalaşmaq istəsə və ya söysə, qoy iki dəfə: "Mən oruc tutmuşam"- desin. Canım Əlində olan Allaha and olsun ki, oruc tutan adamın ağzından gələn qoxu, Uca Allahın yanında müşk qoxusundan daha gözəldir. (Allah buyurur:) "O, Mənə görə öz yeməyindən, içməyindən və şəhvətindən imtina etmişdir. Oruc isə Mənim üçündür və Mən (oruc tutan adama) ayrıca mükafat verəcəyəm. Yaxşı əməlin əvəzi on qat veriləcəkdir".[504]

٣٦١ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ يَقُولُ قَالَ رَسُولُ اللَّهِ ﷺ «قَالَ اللَّهُ كُلُّ عَمَلِ ابْنِ آدَمَ لَهُ إِلاَّ الصِّيَامَ، فَإِنَّهُ لِى، وَأَنَا أَجْزِى بِهِ. وَالصِّيَامُ جُنَّةٌ، وَإِذَا كَانَ يَوْمُ صَوْمِ أَحَدِكُمْ، فَلاَ يَرْفُثْ وَلاَ يَصْخَبْ، فَإِنْ سَابَّهُ أَحَدٌ، أَوْ قَاتَلَهُ فَلْيَقُلْ إِنِّى امْرُؤٌ صَائِمٌ. وَالَّذِى نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ لَخُلُوفُ فَمِ الصَّائِمِ أَطْيَبُ عِنْدَ اللَّهِ مِنْ رِيحِ الْمِسْكِ، لِلصَّائِمِ فَرْحَتَانِ يَفْرَحُهُمَا إِذَا أَفْطَرَ فَرِحَ، وَإِذَا لَقِىَ رَبَّهُ فَرِحَ بِصَوْمِهِ»

361. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allahın Elçisi sallallahu aleyhi və səlləm demişdir: "(Allah buyurur:) "Adəm övladının orucdan başqa hər bir əməli özünə aiddir. Oruc Mənim üçündür və elə buna görə də Mən (oruc tutan adama) ayrıca mükafat verəcəyəm". Oruc bir qalxandır. Sizdən biriniz oruc tutduğu zaman günah işlər görməsin və dava-dalaş salmasın. Əgər kimsə onu söysə və ya onunla dalaşmaq istəsə, qoy desin: "Mən oruc tutmuşam". Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, oruc tutan adamın ağzından gələn qoxu, Allah qatında müşk qoxusundan daha gözəldir. Oruc tutan adamın iki sevinc anı vardır: orucunu açdığı iftar vaxtında sevinir; bir də Rəbbinə qovuşduğu zaman tutduğu oruca görə sevinəcəkdir".[505]

٣٦٢ - فَقَالَ عُثْمَانُ ﷺ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «الصِّيَامُ جُنَّةٌ مِنَ النَّارِ كَجُنَّةِ أَحَدِكُمْ مِنَ الْقِتَالِ».

---

[503] Cəhənnəm odundan qoruyan sipər.
[504] əl-Buxari, 1761, 1795, 1894.
[505] əl-Buxari, 1904, 5472, 5927; Muslim, 1151, 1944, 2762.

362. Osman (ibn Əbil-As əs-Səqafi) ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səllәm buyurmuşdur: “Sizdən birinizin döyüş üçün qalxanı olduğu kimi, oruc da Cəhənnəm odundan (qoruyan) bir qalxandır”.[506]

٣٦٣ - عَنْ أَبِى أُمَامَةَ ﷺ أَنَّهُ سَأَلَ رَسُولَ اللَّهِ ﷺ أَىُّ الْعَمَلِ أَفْضَلُ قَالَ «عَلَيْكَ بِالصَّوْمِ فَإِنَّهُ لاَ عِدْلَ لَهُ».

363. Əbu Umamə ﷺ rəvayət edir ki, o, Allah Elçisindən sallallahu aleyhi və səllәm soruşdu: “Hansı əməl daha fəzilətlidir?” O buyurdu: “Oruc tut, çünki onun tayı-bərabəri yoxdur”.[507]

٣٦٤ - عَنْ سَهْلٍ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ: «إِنَّ فِى الْجَنَّةِ بَابًا يُقَالُ لَهُ الرَّيَّانُ، يَدْخُلُ مِنْهُ الصَّائِمُونَ يَوْمَ الْقِيَامَةِ، لاَ يَدْخُلُ مِنْهُ أَحَدٌ غَيْرُهُمْ يُقَالُ أَيْنَ الصَّائِمُونَ فَيَقُومُونَ، لاَ يَدْخُلُ مِنْهُ أَحَدٌ غَيْرُهُمْ، فَإِذَا دَخَلُوا أُغْلِقَ، فَلَمْ يَدْخُلْ مِنْهُ أَحَدٌ».

364. Səhl ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səllәm demişdir: “Cənnətdə Rəyyan adlı bir qapı var, Qiyamət günü bu qapıdan oruc tutanlar daxil olacaqlar, onlardan başqa heç kəs bu qapıdan keçə bilməyəcək, (o gün): “Oruc tutanlar haradadır?”– deyiləcək və oruc tutanlar ayağa qalxacaqlar, onlardan başqa heç kəs bu qapıdan keçə bilməyəcək, onlar içəri daxil olduqdan sonra (qapılar) bağlanacaq və (bundan sonra) heç kəs o qapıdan (Cənnətə) daxil ola bilməyəcək”.[508]

RAMAZAN ORUCUNUN FƏZİLƏTİ

٣٦٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ صَامَ رَمَضَانَ، إِيْمَاناً وَ احْتِسَاباً، غُفِرَ لَهُ مَا تَقَدَمَ مِنْ ذَنْبِهِ.

365. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səllәm demişdir: “Kim Ramazan ayını imanla, mükafatını (yalnız Allahdan) umaraq oruc tutarsa, keçmiş günahları bağışlanar”.[509]

٣٦٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: "إِذَا كَانَ أَوَّلُ لَيْلَةٍ مِنْ شَهْرِ رَمَضَانَ صُفِّدَتِ الشَّيَاطِينُ وَمَرَدَةُ الْجِنِّ، وَغُلِّقَتْ أَبْوَابُ النَّارِ فَلَمْ يُفْتَحْ مِنْهَا بَابٌ، وَفُتِّحَتْ أَبْوَابُ الْجَنَّةِ فَلَمْ يُغْلَقْ مِنْهَا بَابٌ، وَيُنَادِي مُنَادٍ: يَا بَاغِيَ الْخَيْرِ أَقْبِلْ، وَيَا بَاغِيَ الشَّرِّ اقْصِرْ، وَلِلهِ عُتَقَاءُ مِنَ النَّارِ وَذَلِكَ كُلَّ لَيْلَةٍ"...."إن لله تبارك وتعالى عتقاء في كل يوم وليلة – يعني في رمضان – وإن لكل مسلم في كل يوم وليلة دعوة مستجابة".

---

[506] İbn Məcə, 1639, 1708. əl-Albani səhih olduğunu bildirmişdir:.

[507] ən-Nəsəi, 2222, 2234. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

[508] əl-Buxari, 1896.

[509] əl-Buxari, 38.

366. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Ramazan ayının ilk gecəsi girdikdə şeytanlar və üsyankar cinlər zəncirlənir, Cəhənnəmin bütün qapıları bağlanaraq heç bir qapısı açılmır. Cənnətin bütün qapıları açılalaraq heç bir qapısı bağlanmır. Bir carçı belə səslənir: "Ey xeyir istəyən, çalış! Ey şər istəyən, dayan! Allahın oddan azad etdiyi kimsələr var və bu, hər gecə belədir".[510] Digər rəvayətdə deyilir: "Uca Allahın Ramazan ayının hər günü və gecəsi (Cəhənnəmdən) azad etdiyi qulları vardır. Hər bir müsəlmanın Ramazan ayının günü və gecəsində qəbul olunan duası vardır".[511]

NAFİLƏ ORUCLAR

٣٦٧ - عَنْ أُمِّ هَانِئٍ رضي الله عنها: أَنَّ رَسُوْلَ اللهِ ﷺ كَانَ يَقُولُ: «الصَّائِمُ الْمُتَطَوِّعِ أَمِيرَ نَفْسِهِ، إِنْ شَاءَ صَامَ وَإِنْ شَاءَ أَفْطَر».

367. Ummu Həni ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Nafilə oruc hər kəsin öz ixtiyarındadır. İstəsə, tutar, istəsə də onu pozar".[512]

٣٦٨ - عَنْ أَبِي سَعِيدٍ ﷺ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: «مَنْ صَامَ يَوْمًا فِي سَبِيلِ اللَّهِ بَعَّدَ اللَّهُ وَجْهَهُ عَنِ النَّارِ سَبْعِينَ خَرِيفًا».

368. Rəvayət edilir ki, Əbu Səid ﷺ demişdir: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: "Kim Allah yolunda bir gün oruc tutarsa, Allah onun üzünü Cəhənnəm odundan yetmiş illik (məsafəyədək) uzaqlaşdırar".[513]

٣٦٩ - عَنْ أَبِي أُمَامَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ صَامَ يَوْماً فِي سَبِيلِ اللهِ، جَعَلَ اللهُ بَيْنَهُ وَبَيْنَ النَّارِ خَنْدَقاً كَمَا بَيْنَ السَّمَاءِ وَالأَرْضِ».

369. Əbu Umamə ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Kim Allah yolunda bir gün oruc tutarsa, Allah yerlə göy arasında olduğu məsafə qədər onunla Cəhənnəm odu arasında bir xəndək meydana gətirər".[514]

---

[510] ət-Tirmizi, 682, 684. əl-Albani səhih olduğunu bildirmişdir.
[511] əl-Heysəmi "Kəşful-Əstər an Zəvaidil-Bəzzar" 962; ət-Təbərani "Mucəmul-Əvsat" 6401; əl-Heysəmi "Məcməuz-Zəvaid" 4793. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1002) səhih li-ğeyrihi olduğunu bildirmişdir.
[512] əl-Hakim, 1599. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3854) səhih olduğunu bildirmişdir.
[513] əl-Buxari, 2840; Muslim, 2704.
[514] ət-Tirmizi, 1624, 1724. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

٣٧٠ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﵄ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: «يَا عَبْدَ اللَّهِ أَلَمْ أُخْبَرْ أَنَّكَ تَصُومُ النَّهَارَ وَتَقُومُ اللَّيْلَ». فَقُلْتُ بَلَى يَا رَسُولَ اللَّهِ. قَالَ: «فَلاَ تَفْعَلْ، صُمْ وَأَفْطِرْ، وَقُمْ وَنَمْ، فَإِنَّ لِجَسَدِكَ عَلَيْكَ حَقًّا، وَإِنَّ لِعَيْنِكَ عَلَيْكَ حَقًّا، وَإِنَّ لِزَوْجِكَ عَلَيْكَ حَقًّا، وَإِنَّ لِزَوْرِكَ عَلَيْكَ حَقًّا، وَإِنَّ بِحَسْبِكَ أَنْ تَصُومَ كُلَّ شَهْرٍ ثَلاَثَةَ أَيَّامٍ، فَإِنَّ لَكَ بِكُلِّ حَسَنَةٍ عَشْرَ أَمْثَالِهَا، فَإِنَّ ذَلِكَ صِيَامُ الدَّهْرِ كُلِّهِ». فَشَدَّدْتُ، فَشُدِّدَ عَلَيَّ، قُلْتُ يَا رَسُولَ اللَّهِ، إِنِّي أَجِدُ قُوَّةً. قَالَ:«فَصُمْ صِيَامَ نَبِيِّ اللَّهِ دَاوُدَ عَلَيْهِ السَّلاَمُ وَلاَ تَزِدْ عَلَيْهِ». قُلْتُ وَمَا كَانَ صِيَامُ نَبِيِّ اللَّهِ دَاوُدَ عَلَيْهِ السَّلاَمُ قَالَ:«نِصْفَ الدَّهْرِ».

370. Rəvayət edilir ki, Abdullah ibn Amr ibn əl-As ﵄ demişdir: "Peyğəmbər sallallahu aleyhi və səlləm mənə belə buyurdu: "Ey Abdullah, elə bilirsən ki, sənin (ara vermədən) gündüzlər oruc tutub, gecələr namaz qıldığını mənə xəbər verməyiblər?!" Dedim: "(Bilirəm ki,) xəbərin var, ey Allahın Elçisi!" O buyurdu: "Belə etmə! Hərdən oruc tut, hərdən də tutma, gecənin bir hissəsini namaz qıl, bir hissəsini də yat! Sözsüz ki, bədəninin sənin üzərində haqqı vardır, gözlərinin sənin üzərində haqqı vardır, həyat yoldaşının sənin üzərində haqqı vardır, qonağının sənin üzərində haqqı vardır. Şübhəsiz ki, hər ayın üç gününü oruc tutmaq sənə yetər. Belə ki, bir yaxşılığın əvəzi sənə on qat verilər. Bu da tam bir ilin orucuna bərabər olar". Mən daha çox (rüsxət istədim), lakin daha da sərt münasibət gördüm. Mən dedim: "Ey Allahın Elçisi, mən özümdə (oruc tutmağa) qüvvə hiss edirəm". Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Elə isə Allahın peyğəmbəri Davudun ﵇ tutduğu orucu tut və buna heç nə əlavə etmə!" Mən soruşdum: "Allahın peyğəmbəri Davudun ﵇ tutduğu oruc necə idi ki?" Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "İlin yarısını (oruc tutardı)!"[515]

ƏRAFA VƏ AŞURA ORUCLARININ FƏZİLƏTİ

٣٧١ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ ﵁ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ صَامَ يَوْمَ عَرَفَةَ غُفِرَ لَهُ سَنَتَيْنِ مُتَتَابِعَتَيْنِ». ...«وَسُئِلَ عَنْ صَوْمِ يَوْمِ عَاشُوْرَاءَ فَقَالَ «يُكَفِّرُ السَّنَةَ الْمَاضِيَةَ».

371. Səhl ibn Səd ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim Ərafa günü oruc tutarsa, bir il keçmiş və bir il gələcək günahları bağışlanar".[516] Digər rəvayətdə deyilir: "...Allah Elçisindən sallallahu aleyhi və səlləm Aşura gününün orucu barədə soruşduqda: "Keçmiş il üçün işlənmiş günahları yuyacaq!"- deyə cavab vermişdir".[517]

---

[515] əl-Buxari, 1975; Muslim, 2721.

[516] Əbu Yəalə, 7548. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1012) səhih olduğunu bildirmişdir.

[517] Muslim, 1162, 2804.

MUHƏRRƏM AYINDA TUTULAN ORUC

٣٧٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ أَفْضَلُ الصِّيَامِ بَعْدَ رَمَضَانَ شَهْرُ اللَّهِ الْمُحَرَّمُ وَأَفْضَلُ الصَّلَاةِ بَعْدَ الْفَرِيضَةِ صَلَاةُ اللَّيْلِ

372. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Ramazandan sonra ən fəzilətli oruc ayı Allahın Muhərrəm ayıdır. Fərz namazlarından sonra ən fəzilətli namaz da gecə namazıdır".[518]

BAZAR ERTƏSİ VƏ CÜMƏ AXŞAMI TUTULAN ORUCLARIN FƏZİLƏTİ

٣٧٣ - عَنْ أَبِي قَتَادَةَ الْأَنْصَارِيِّ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ سُئِلَ عَنْ صَوْمِ الِاثْنَيْنِ فَقَالَ فِيهِ وُلِدْتُ وَفِيهِ أُنْزِلَ عَلَيَّ

373. Əbu Qatədə əl-Ənsari[519] ﷺ rəvayət edir ki, Allah Elçisindən sallallahu aleyhi və səlləm bazar ertəsi gününün orucu barəsində soruşdular. O belə buyurdu: "Mən o gün doğuldum və mənə o gün (Quran) nazil oldu".[520]

٣٧٤ - حَدَّثَنِي أُسَامَةُ بْنُ زَيْدٍ ﷺ قَالَ قُلْتُ يَا رَسُولَ اللَّهِ إِنَّكَ تَصُومُ حَتَّى لاَ تَكَادَ تُفْطِرُ وَتُفْطِرُ حَتَّى لاَ تَكَادَ أَنْ تَصُومَ إِلاَّ يَوْمَيْنِ إِنْ دَخَلاَ فِي صِيَامِكَ وَإِلاَّ صُمْتَهُمَا. قَالَ «أَىُّ يَوْمَيْنِ». قُلْتُ يَوْمَ الاِثْنَيْنِ وَيَوْمَ الْخَمِيسِ. قَالَ «ذَانِكَ يَوْمَانِ تُعْرَضُ فِيهِمَا الأَعْمَالُ عَلَى رَبِّ الْعَالَمِينَ فَأُحِبُّ أَنْ يُعْرَضَ عَمَلِي وَأَنَا صَائِمٌ».

374. Usəmə ibn Zeyd ﷺ demişdir: "Mən dedim: "Ey Allahın Elçisi! Bəzən sən ara vermədən oruc tutursan, bəzən isə iki gün istisna olmaqla uzun müddət oruc tutmursan. Bu iki gündə orucu buraxmırsan". Allah Elçisi sallallahu aleyhi və səlləm soruşdu: "O hansı iki gündür elə?" Mən də: "Bazar ertəsi və cümə axşamı"- deyə cavab verdim. Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "O iki gündə əməllər Allaha təqdim olunur. Mən də əməllərimin oruclu ikən Allaha təqdim olunmasını istəyirəm".[521]

ŞABAN AYI TUTULAN ORUCUN FƏZİLƏTİ

٣٧٥ - حَدَّثَنِي أُسَامَةُ بْنُ زَيْدٍ ﷺ قَالَ قُلْتُ يَا رَسُولَ اللَّهِ لَمْ أَرَكَ تَصُومُ شَهْرًا مِنَ الشُّهُورِ مَا تَصُومُ مِنْ شَعْبَانَ. قَالَ

---

[518] Muslim, 1163, 1982.

[519] Əbu Qətadə Haris ibn Rəbi əl-Ənsari əs-Suləmi ﷺ Peyğəmbər ﷺ səhabəsidir. Miladi 602-ci ildə Mədinədə anadna olmuş, hicrətin 54-cü ilində Kufədə vəfat etmişdir.

[520] Muslim, 1162, 1978, 2807.

[521] ən-Nəsəi, 2358, 2370. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

«ذَلِكَ شَهْرٌ يَغْفُلُ النَّاسُ عَنْهُ بَيْنَ رَجَبٍ وَرَمَضَانَ وَهُوَ شَهْرٌ تُرْفَعُ فِيهِ الأَعْمَالُ إِلَى رَبِّ الْعَالَمِينَ فَأُحِبُّ أَنْ يُرْفَعَ عَمَلِي وَأَنَا صَائِمٌ».

375. Usəmə ibn Zeyd ﷺ demişdir: "Mən dedim: "Ey Allahın Elçisi! Sənin Şaban ayı kimi heç bir ayda oruc tutduğunu görmədim". Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Bu, Rəcəb və Ramazan arasında insanların qafil olduqları bir aydır. Bu ayda əməllər aləmlərin Rəbbinə yüksəldilir. Mən də əməlimin oruclu olduğum halda Allaha yüksəlməsini istəyirəm".[522]

٣٧٦ - عَنْ عَائِشَةَ رضي الله عنها قَالَتْ: لَمْ يَكُنِ النَّبِيُّ ﷺ يَصُومُ شَهْرًا أَكْثَرَ مِنْ شَعْبَانَ، فَإِنَّهُ كَانَ يَصُومُ شَعْبَانَ كُلَّهُ، وَكَانَ يَقُولُ: «خُذُوا مِنَ الْعَمَلِ مَا تُطِيقُونَ، فَإِنَّ اللَّهَ لاَ يَمَلُّ حَتَّى تَمَلُّوا» وَأَحَبُّ الصَّلاَةِ إِلَى النَّبِيِّ ﷺ مَا دُووِمَ عَلَيْهِ، وَإِنْ قَلَّتْ وَكَانَ إِذَا صَلَّى صَلاَةً دَاوَمَ عَلَيْهَا.

376. Rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "Peyğəmbər sallallahu aleyhi və səlləm heç bir ayda şaban ayında tutduğu qədər çox oruc tutmazdı. Elə olurdu ki, o, şaban ayını başdan-başa oruc tuturdu. O, deyərdi: "Gücünüz çatan işləri görün! Siz usanmadıqca Allah usanmaz". Peyğəmbərin sallallahu aleyhi və səlləm ən çox xoşuna gələn namaz, qısa da olsa davamlı qılınanı idi. O, hər hansı bir namazı qılardısa, onu davamlı qılardı".[523]

ŞƏVVAL AYINDA TUTULAN ALTI GÜN ORUC

٣٧٧ - عَنْ أَبِي أَيُّوبَ الْأَنْصَارِيِّ ﷺ أَنَّهُ حَدَّثَهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ مَنْ صَامَ رَمَضَانَ ثُمَّ أَتْبَعَهُ سِتًّا مِنْ شَوَّالٍ كَانَ كَصِيَامِ الدَّهْرِ

377. Əbu Əyyub ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Kim Ramazan ayında oruc tutsa, sonra Şəvval ayının altı gününü də buna əlavə etsə, il boyu oruc tutmuş kimidir".[524]

٣٧٨ - عَنْ ثَوبَانَ ﷺ: أَنَّهُ سَمِعَ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «جَعَلَ اللهُ الْحَسَنَةَ بِعَشْرِ أَمْثَالِهَا، الشَّهْرُ بِعَشْرَةِ أَشْهُرٍ، وَصِيَامُ سِتَّةِ أَيَّامٍ بَعْدَ الشَّهْرِ تَمَامُ السَّنَةِ».

378. Səubən ﷺ rəvayət edir: "Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: "Allah hər bir yaxşı əmələ görə on qat mükafat

[522] ən-Nəsəi, 2357, 2369. əl-Albani həsən olduğunu bildirmişdir.
[523] əl-Buxari, 1970.
[524] Muslim, 1164, 1984, 2815.

verir, bir ay on aya bərabərdir. (Ramazan) ayından sonra altı gün oruc tutmaq isə ili tamamlayır".[525]

HƏR AYIN ON ÜÇÜ, ON DÖRDÜ VƏ ON BEŞİ TUTULAN ORUCLAR

٣٧٩ - أَنَّ أَبَا هُرَيْرَةَ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «صَوْمُ شَهْرِ الصَّبْرِ وَثَلاَثَةِ أَيَّامٍ مِنْ كُلِّ شَهْرٍ صَوْمُ الدَّهْرِ» يُذْهِبْنَ وَحَرَ الصَّدْرِ»...

379. Əbu Hureyra ﷺ demişdir: "Allah Elçisin salləllahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: "Səbir (Ramazan) ayı və hər ay üç gün oruc tutmaq il boyu oruc tutmaq kimidir".[526] Digər rəvayətdə deyilir: "...qəlbin kin-küdurətini aparır".[527]

٣٨٠ - عَنِ ابْنِ مِلْحَانَ الْقَيْسِيِّ عَنْ أَبِيهِ ﷺ قَالَ: «كَانَ رَسُولُ اللَّهِ يَأْمُرُنَا أَنْ نَصُومَ الْبِيضَ ثَلاَثَ عَشْرَةَ وَأَرْبَعَ عَشْرَةَ وَخَمْسَ عَشْرَةَ». قَالَ: وَقَالَ: «هُنَّ كَهَيْئَةِ الدَّهْرِ».

380. İbn Milhən əl-Qeysi atasından ﷺ rəvayət edərək demişdir: "Allah Elçisi salləllahu aleyhi və səlləm bizə hər ayın on üçüncü, on dördüncü və on beşinci günləri oruc tutmağı əmr edərək demişdir: "Bunlar bir ilin orucu kimidir".[528]

٣٨١ - عَنْ مُعَاوِيَةَ بْنِ قُرَّةَ عَنْ أَبِيهِ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ فِي صِيَامِ ثَلاَثَةِ أَيَّامٍ مِنَ الشَّهْرِ صَوْمُ الدَّهْرِ وَإِفْطَارُهُ

381. Muaviyə ibn Qurra atasından ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Hər ay üç gün oruc tutmaq, il boyu oruc tutmaq kimidir".[529]

٣٨٢ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ : قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ صَامَ مِنْ كُلِّ شَهْرٍ ثَلاَثَةَ أَيَّامٍ ، فَذَلِكَ صِيَامُ الدَّهْرِ». فَأَنْزَلَ اللهُ ﷻ تَصْدِيقَ ذَلِكَ فِي كِتَابِهِ ﴿**مَنْ جَآءَ بِالْحسنةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا**﴾ الْيَوْمَ بِعَشْرَةِ أَيَّامٍ.

382. Əbu Zərr ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Kim hər ay üç gün oruc tutarsa, bütün il boyu oruc tutmuş kimidir". Allah

---

[525] İbn Asakir "Tarixu Dəməşq" 54/ 82; İbn Xuzeymə, 2115. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3094) səhih olduğunu bildirmişdir.

[526] Əhməd, 9222. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3803) səhih olduğunu bildirmişdir.

[527] Əhməd, 23070. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3804) səhih olduğunu bildirmişdir.

[528] Əbu Davud, 2449, 2451. əl-Albani səhih olduğunu bildirmişdir.

[529] Əhməd, 16249, 16294. Şueyb əl-Arnavut isnadının səhih olduğunu bildirmişdir.

ﷻ bunun təsdiqini Öz Kitabında belə nazil etmişdir: ***"Kim Qiyamət günü yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər"*** *(əl-Ənam 160).* Bir gün on günə bərabərdir".[530]

QƏDR GECƏSİNİN FƏZİLƏTİ

٣٨٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ يَقُمْ لَيْلَةَ الْقَدْرِ، إِيْمَاناً وَ احْتِسَاباً، غُفِرَ لَهُ مَا تَقَدَمَ مِنْ ذَنْبِهِ

383. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Kim Qədr gecəsini imanla və mükafatını Allahdan umaraq ibadət edərsə, keçmiş günahları bağışlanar".[531]

EVLƏNMƏYƏ İMKANI OLMAYAN ORUC TUTSUN!

٣٨٤ - عَنْ عَبْدِ اللَّهِ ﷺ قَالَ: كُنَّا مَعَ النَّبِيِّ ﷺ فَقَالَ: «مَنِ اسْتَطَاعَ الْبَاءَةَ فَلْيَتَزَوَّجْ، فَإِنَّهُ أَغَضُّ لِلْبَصَرِ وَأَحْصَنُ لِلْفَرْجِ، وَمَنْ لَمْ يَسْتَطِعْ فَعَلَيْهِ بِالصَّوْمِ، فَإِنَّهُ لَهُ وِجَاءٌ».

384. Rəvayət edilir ki, Abdullah ﷺ demişdir: "Biz Peyğəmbərlə salləllahu aleyhi və səlləm birlikdə olarkən o belə buyurdu: "Qoy evlənməyə imkanı olan (hər kəs) evlənsin. Çünki evlilik, gözləri və cinsiyyət üzvünü (zinadan) qoruyan ən yaxşı (səbəbdir). İmkanı olmayanlar isə oruc tutsunlar. Çünki oruc (insanın) şəhvətini soyudur".[532]

SON ƏMƏL ORUCLA BİTƏRSƏ

٣٨٥ - عَنْ حُذَيْفَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ خُتِمَ لَهُ بِصِيَامِ يُوْمٍ دَخَلَ الْجَنَّة».

385. Huzeyfə ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Kimin son əməli orucla bitərsə,[533] Cənnətə daxil olar".[534]

SƏHURDA BƏRƏKƏT VARDIR

٣٨٦ - عَنْ سَلْمَانَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "الْبَرَكَةُ فِي ثَلاثَةٍ: فِي الْجَمَاعَةِ، وَالثَّرِيدِ، وَالسحُورِ"

---

[530] ət-Tirmizi, 762, 767. əl-Albani səhih olduğunu bildirmişdir.
[531] əl-Buxari, 35.
[532] əl-Buxari, 1905; Muslim, 1400.
[533] əl-Munəvi ﷺ "Feydul-Qadir"də (6/123) belə demişdir: "...yəni həyatı oruclu ikən və ya orucunu açdıqdan sonra sona çatarsa".
[534] əl-Bəzzar, 2781, 2854. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6224) səhih olduğunu bildirmişdir.

386. Salman ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Bərəkət bu üç şeydədir; camaatda, səriddə[535] və səhurda”.[536]

٣٨٧ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «تَسَحَّرُوا فَإِنَّ فِي السَّحُورِ بَرَكَةً».

387. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Səhur yeməyini yeyin! Həqiqətən, səhurda bərəkət vardır”.[537]

٣٨٨ - عَنْ أَبِي سَعِيدٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «السَّحُورُ أَكْلُهُ بَرَكَةٌ فَلاَ تَدَعُوهُ، وَلَوْ أَنْ يَجْرَعَ أَحَدُكُمْ جُرْعَةً مِنْ مَاءٍ، فَأَنَّ اللهَ ﷻ وَمَلاَئِكَتَهُ يُصَلُّونَ عَلَى الْمُتَسَحِّرِيْنَ».

388. Əbu Səid ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Səhur yeməyi bərəkətdir, biriniz bir qurtum su ilə olsa belə onu tərk etməsin! Çünki Allah və Onun mələkləri səhur yeməyi yeyənlərə xeyir-dua edirlər”.[538]

٣٨٩ - عَنْ عِرْبَاضِ بْنِ سَارِيَةَ ﷺ قَالَ دَعَانِي رَسُولُ اللَّهِ ﷺ إِلَى السَّحُورِ فِي رَمَضَانَ فَقَالَ: "هَلُمَّ إِلَى (هَذَا) الْغِذَاءِ الْمُبَارَكِ"

389. İrbad ibn Səriyyə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm Ramazan ayında məni səhura dəvət edərək buyurdu: “Mübarək yeməyə tələs!”[539]

İFTARI TEZLƏŞDİRMƏK

٣٩٠ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لاَ تَزَالُ أُمَّتِي عَلَى سُنَّتِي مَا لَمْ تَنْتَظِرْ بِفِطْرِهَا النُّجُوم». وَكَانَ النَّبِيُّ ﷺ إِذَا كَانَ صَائِماً أَمَرَ رَجُلا فَأَوْفَى عَلَى شَيء فَإِذَا قَالَ: غَابَتِ الشَّمْسُ: أَفْطَرَ.

390. Səhl ibn Səd ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Ümmətim iftar açmaqda ulduzları gözləmədikcə, sünnəm üzrə

---

[535] Sərid – bişmiş ətin suyuna doğranmış çörək əlavə edilərək hazırlanan xörəkdir.
[536] ət-Təbərani “Mucəmul-Kəbir” 6004, 6127. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 1065) həsən li-ğeyrihi olduğunu bildirmişdir.
[537] əl-Buxari, 1923; Muslim, 1095.
[538] Əhməd, 11101, 11414; İbn Hibban, 3467. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 1844, 3683) həsən olduğunu bildirmişdir.
[539] Əhməd, 17143, 17183. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 1067) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

olacaqlar". Peyğəmbər sallәllahu aleyhi və sәlləm oruc tutduqda bir nəfər təyin edərək ona məvacib verərdi. O da peyğəmbərə günəşin batdığını xəbər verər, Peyğəmbər də iftarını açardı".[540]

٣٩١ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ رضي الله عنهما قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ لِلهِ ﷻ عِنْدَ كُلِّ فِطْرٍ عُتَقَاءَ، وَذَلِكَ فِي كُلِّ لَيْلَةٍ».

391. Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Həqiqətən, hər iftar vaxtı Allah ﷻ tərəfindən azad edilənlər olur. Bu hər gecə baş verir".[541]

٣٩٢ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «لاَ يَزَالُ النَّاسُ بِخَيْرٍ مَا عَجَّلُوا الْفِطْرَ».

392. Səhl ibn Səd رضي الله عنه rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "İnsanlar iftar açmağa tələsdikcə, xeyir içində olacaqlar".[542]

İFTAR VERMƏYİN FƏZİLƏTİ

٣٩٣ - عَنْ زَيْدِ بْنِ خَالِدٍ الْجُهَنِيِّ رضي الله عنه عَنِ النَّبِيِّ ﷺ قَالَ :«مَنْ فَطَّرَ صَائِمًا أَوْ جَهَّزَ غَازِيًا فَلَهُ مِثْلُ أَجْرِهِ».

393. Zeyd ibn Xalid əl-Cuhəni رضي الله عنه rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Oruc tutana iftar verənə və ya cihada gedəni təchiz edənə onun savabının misli verilər".[543]

---

[540] İbn Hibban, 3501. əl-Albani səhih olduğunu bildirmişdir.
[541] İbn Məcə, 1643, 1712. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[542] əl-Buxari, 1957; Muslim, 2549.
[543] əl-Beyhəqi "Sunənul-Kubra" 8398. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6414) səhih olduğunu bildirmişdir.

CİHAD

CİHADIN FƏZİLƏTİ

٣٩٤ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «يَا أَبَا سَعِيدٍ مَنْ رَضِيَ بِاللَّهِ رَبًّا وَبِالإِسْلاَمِ دِينًا وَبِمُحَمَّدٍ نَبِيًّا وَجَبَتْ لَهُ الْجَنَّةُ». فَعَجِبَ لَهَا أَبُو سَعِيدٍ فَقَالَ أَعِدْهَا عَلَيَّ يَا رَسُولَ اللَّهِ فَفَعَلَ ثُمَّ قَالَ «وَأُخْرَى يُرْفَعُ بِهَا الْعَبْدُ مِائَةَ دَرَجَةٍ فِى الْجَنَّةِ مَا بَيْنَ كُلِّ دَرَجَتَيْنِ كَمَا بَيْنَ السَّمَاءِ وَالأَرْضِ». قَالَ وَمَا هِيَ يَا رَسُولَ اللَّهِ قَالَ «الْجِهَادُ فِى سَبِيلِ اللَّهِ الْجِهَادُ فِى سَبِيلِ اللَّهِ».

394. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim Rəbb olaraq Allahdan, din olaraq İslamdan, Peyğəmbər olaraq Muhəmməddən razı olarsa, ona Cənnət vacib olar!" Bu Əbu Səidin ﷺ xoşuna gəldi və o dedi: "Ey Allahın Elçisi! Bunu mənim üçün bir daha təkrar et!" Allah Elçisi sallәllahu aleyhi və sәllәm də onun üçün təkrar etdi və dedi: "Başqa bir əməl də vardır ki, Allah onunla qulunu Cənnətdə yüz dərəcə yüksəldir. Hər iki dərəcə arasındakı məsafə göy ilə yer arası kimidir". Əbu Səid ﷺ soruşdu: "O nədir, ey Allahın Elçisi?" O buyurdu: "Allah yolunda cihad etmək, Allah yolunda cihad etmək!"[544]

ƏN FƏZİLƏTLİ CİHAD HANSIDIR?

٣٩٥ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَفْضَلُ الْجِهَادِ أَنْ يُجَاهِدَ الرَّجُلُ نَفْسَهُ وَهَوَاهُ».

395. Əbu Zərr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurmuşdur: "Ən fəzilətli cihad kişinin nəfsi ilə cihad etməsidir".[545]

ŞƏHİDLƏR

٣٩٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنْ رَسُولُ اللَّهِ ﷺ أَنَّهُ سَأَلَ جِبْرِيلَ عليه السلام عَنْ هَذِهِ الْآيَةِ ﴿**وَنُفِخَ فِي الصُّورِ فَصَعِقَ مَنْ فِي السَّمَاوَاتِ وَمَنْ فِي الْأَرْضِ إِلَّا مَنْ شَاءَ اللَّهُ**﴾ مِنَ الَّذِينَ لَمْ يَشَأِ اللهُ أَنْ يُصْعَقُوا؟ قَالَ: هُمْ شُهَدَاءُ اللهِ ﷻ

396. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm Cəbraildən عليه السلام bu ayə haqda soruşdu: ***"Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir"*** (əz-

[544] Muslim, 1884, 3496, 4987; ən-Nəsəi, 3131.

[545] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 1247, 2092. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1099) səhih olduğunu bildirmişdir.

Zumər, 68). Allahın öldürmək istəmədikləri kimlərdir?" Cəbrail dedi: "Onlar Allahın ﷻ şəhidləridir".[546]

٣٩٧ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ مَرَّ رَجُلٌ مِنْ أَصْحَابِ رَسُولِ اللَّهِ ﷺ بِشِعْبٍ فِيهِ عُيَيْنَةٌ مِنْ مَاءٍ عَذْبَةٌ فَأَعْجَبَتْهُ لِطِيبِهَا فَقَالَ لَوِ اعْتَزَلْتُ النَّاسَ فَأَقَمْتُ فِى هَذَا الشِّعْبِ وَلَنْ أَفْعَلَ حَتَّى أَسْتَأْذِنَ رَسُولَ اللَّهِ ﷺ. فَذَكَرَ ذَلِكَ لِرَسُولِ اللَّهِ ﷺ فَقَالَ «لاَ تَفْعَلْ فَإِنَّ مَقَامَ أَحَدِكُمْ فِى سَبِيلِ اللَّهِ أَفْضَلُ مِنْ صَلاَتِهِ فِى بَيْتِهِ سَبْعِينَ عَامًا أَلاَ تُحِبُّونَ أَنْ يَغْفِرَ اللَّهُ لَكُمْ وَيُدْخِلَكُمُ الْجَنَّةَ اغْزُوا فِى سَبِيلِ اللَّهِ مَنْ قَاتَلَ فِى سَبِيلِ اللَّهِ فُوَاقَ نَاقَةٍ وَجَبَتْ لَهُ الْجَنَّةُ».

397. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "Allah Elçisinin sallallahu aleyhi və səlləm səhabələrindən olan bir kişi şirin sulu çeşmənin olduğu bir vadidən keçdi və onun gözəlliyi xoşuna gələrək belə dedi: "Kaş insanlardan uzaqlaşıb bu vadidə qalardım. Ancaq Allah Elçisindən sallallahu aleyhi və səlləm izn almayınca, heç vaxt bunu etmərəm". Sonra o, bunu Allah Elçisinə sallallahu aleyhi və səlləm danışdı və o, belə buyurdu: "Belə etmə! Həqiqətən də, birinizin Allah yolunda olan məqamı, evində yetmiş il qıldığı nafilə namazlarından daha fəzilətlidir. Allahın sizi bağışlamasını və sizi Cənnətə salmasını istəmirsiniz? Allah yolunda döyüşə çıxın! Kim dəvənin iki sağımı arasında olan müddət qədər Allah yolunda döyüşərsə, Cənnət onun üçün vacib olar".[547]

٣٩٨ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ «انْتَدَبَ اللَّهُ لِمَنْ خَرَجَ فِى سَبِيلِهِ لاَ يُخْرِجُهُ إِلاَّ إِيمَانٌ بِى وَتَصْدِيقٌ بِرُسُلِى أَنْ أُرْجِعَهُ بِمَا نَالَ مِنْ أَجْرٍ أَوْ غَنِيمَةٍ، أَوْ أُدْخِلَهُ الْجَنَّةَ، وَلَوْلاَ أَنْ أَشُقَّ عَلَى أُمَّتِى مَا قَعَدْتُ خَلْفَ سَرِيَّةٍ، وَلَوَدِدْتُ أَنِّى أُقْتَلُ فِى سَبِيلِ اللَّهِ ثُمَّ أُحْيَا، ثُمَّ أُقْتَلُ ثُمَّ أُحْيَا، ثُمَّ أُقْتَلُ»

398. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Allah Onun yolunda cihada[548] çıxan kimsənin mükafatını tez verər. (Allah buyurur): "Onu (evindən) çıxaran yalnız Mənə olan inamı və elçilərimə olan inamıdır. Mən də onu nail olduğu savab və qənimətlə (sağ-salamat yurduna) qaytaracağam, yaxud Cənnətə daxil edəcəyəm". Hərgah ümmətimi əziyyətə salmış olmasaydım, (döyüşə gedən) dəstənin arxasında

---

[546] əl-Hakim, 3000. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1387) səhih olduğunu bildirmişdir.

[547] ət-Tirmizi, 1650, 1751. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.

[548] Allah yolunda müqəddəs müharibə cihad adlanır. Cihad Uca Allahın adını şərəfləndirmək məqsədilə göstərilən istənilən səylər deməkdir. Cihadın bir neçə forması var. Müsəlman dövlətinin təhlükəsizliyinə qəsd edən və İslamın yayılmasına manea yaradan kafirlərlə mübarizə hərbi yolla aparılır. Özlərini müsəlman kimi göstərən münafiqlərlə cihad, moizələr və onlara həqiqi biliklərin çatdırılması vasitəsilə aparılır. İnsanın şeytanla, həmçinin öz nəfsi ilə apardığı cihad da vardır.

qalmazdım və Allah yolunda öldürülüb sonra dirildilməyimi, sonra öldürülüb yenə dirildilməyimi, sonra mütləq yenə öldürülməyimi istərdim".[549]

٣٩٩ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لَمَّا أُصِيبَ إِخْوَانُكُمْ بِأُحُدٍ جَعَلَ اللَّهُ أَرْوَاحَهُمْ فِى جَوْفِ طَيْرٍ خُضْرٍ تَرِدُ أَنْهَارَ الْجَنَّةِ تَأْكُلُ مِنْ ثِمَارِهَا وَتَأْوِى إِلَى قَنَادِيلَ مِنْ ذَهَبٍ مُعَلَّقَةٍ فِى ظِلِّ الْعَرْشِ فَلَمَّا وَجَدُوا طِيبَ مَأْكَلِهِمْ وَمَشْرَبِهِمْ وَمَقِيلِهِمْ قَالُوا: مَنْ يُبَلِّغُ إِخْوَانَنَا عَنَّا أَنَّا أَحْيَاءٌ فِى الْجَنَّةِ نُرْزَقُ لِئَلاَّ يَزْهَدُوا فِى الْجِهَادِ وَلاَ يَنْكُلُوا عِنْدَ الْحَرْبِ فَقَالَ اللَّهُ سُبْحَانَهُ: أَنَا أُبَلِّغُهُمْ عَنْكُمْ. قَالَ: فَأَنْزَلَ اللَّهُ ﴿**وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِى سَبِيلِ اللَّهِ أَمْوَاتًا**﴾»

399. İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Qardaşlarınız Uhud döyüşündə şəhid olduqda, qüdrət və qüvvət sahibi olan Allah onların ruhlarını yaşıl quşların içinə yerləşdirdi. Onlar Cənnət çaylarının yanına gəlir, Cənnət meyvələrindən yeyir və Ərşin kölgəsində yerləşdirilmiş qızıl çıraqların yanına qayıdırlar. Yemək-içmək-lərinin və qayıtdıqları yerin nə qədər gözəl olduğunu gördükləri zaman deyirlər: "Kaş ki, qardaşlarımız Allahın bizə bəxş etdiyi bu nemətlərdən xəbər tutaydılar və Allah yolunda olan cihaddan qorxub qaçmayaydılar". Allah ﷻ: "Mən sizin dediklərinizi onlara bildirərəm!"- dedi və bu ayələri Öz elçisinə nazil etdi: "***Allah yolunda öldürülənləri əsla ölmüş sanma. Əksinə, (onlar) diridirlər"*** *(Ali-İmran, 169)"*.[550]

٤٠٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا يَجِدُ الشَّهِيدُ مَسَّ الْقَتْلِ إِلاَّ كَمَا يَجِدُ أَحَدُكُمْ مَسَّ الْقَرْصَةِ».

400. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Şəhid öldürülməyini birinizin çimdik hiss etməsi kimi hiss edir".[551]

٤٠١ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ «زَمِّلُوهُمْ بِدِمَائِهِمْ فَإِنَّهُ لَيْسَ كَلْمٌ يُكْلَمُ فِى اللَّهِ إِلاَّ أَتَى يَوْمَ الْقِيَامَةِ جُرْحُهُ يَدْمَى لَوْنُهُ لَوْنُ دَمٍ وَرِيحُهُ رِيحُ الْمِسْكِ».

401. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Şəhidləri qanlı-qanlı (kəfənlərinə) bürüyün, çünki Allaha görə elə bir yaralanan yoxdur ki, Qiyamət günü yarasından qan axa-axa (Allahın hüzuruna) gəlməsin. Onun yarasının rəngi qan rəngində, qoxusu isə müşk qoxusunda olacaq".[552]

---

[549] əl-Buxari, 26, 36.

[550] Əbu Davud, 2158, 2520, 2522. əl-Albani səhih olduğunu bildirmişdir.

[551] İbn Hibban, 4636; Əhməd, 7940; ən-Nəsəi, 3161; İbn Məcə, 2802. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[552] ən-Nəsəi, 2002, 2014. əl-Albani səhih olduğunu bildirmişdir.

ŞƏHİDİN BAŞQALARINDA OLMAYAN XÜSUSİYYƏTLƏRİ

٤٠٢ - عَنِ الْمِقْدَامِ بْنِ مَعْدِيكَرِبَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «لِلشَّهِيدِ عِنْدَ اللَّهِ سِتُّ خِصَالٍ يُغْفَرُ لَهُ فِى أَوَّلِ دَفْعَةٍ وَيَرَى مَقْعَدَهُ مِنَ الْجَنَّةِ وَيُجَارُ مِنْ عَذَابِ الْقَبْرِ وَيَأْمَنُ مِنَ الْفَزَعِ الأَكْبَرِ وَيُوضَعُ عَلَى رَأْسِهِ تَاجُ الْوَقَارِ الْيَاقُوتَةُ مِنْهَا خَيْرٌ مِنَ الدُّنْيَا وَمَا فِيهَا وَيُزَوَّجُ اثْنَتَيْنِ وَسَبْعِينَ زَوْجَةً مِنَ الْحُورِ الْعِينِ وَيُشَفَّعُ فِى سَبْعِينَ مِنْ أَقَارِبِهِ».

402. Miqdəm ibn Mədikərib ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Şəhidin Allah dərgahında altı xüsusiyyəti vardır; ilk (qan damcısı ilə) bağışlanır, Cənnətdəki yerini görür, qəbir əzabından qorunur, Qiyamət gününü dəhşətli qorxusundan arxayın olur, başına vüqar tacı qoyulur - Onun üzərindəki yaqut dənəsi dünya və onun içərisində olanlardan daha xeyirlidir - yetmiş iki huri ilə evləndirilir və qohum-əqrabasından yetmiş nəfərə şəfaət edir".[553]

ALLAH YOLUNDA ÖLDÜRÜLƏN CƏNNƏTDƏDİR

٤٠٣ - عَنْ أَنَس ﷺ: أَنَّ رَجُلاً أَسْوَد أَتَى النَّبِيَّ ﷺ فَقَالَ: يَا رَسُوْلَ اللهِ! إِنِّي رَجُل أَسْوَد مُنْتِنُ الرِّيح ، قَبِيحُ الْوَجْه، لاَ مَالَ لِي فَإِنْ أَنَا قَاتَلْتُ هَؤُلاَءِ حَتَّى أُقْتَلَ، فَأَيْنَ أَنَا؟ قَالَ: «فِي الْجَنَّة». فَقَاتَلَ حَتَّى قُتِلَ، فَأَتَاهُ النَّبِيُّ ﷺ فَقَالَ: «قَدْ بَيَّضَ اللهُ وَجْهَكَ، وَطَيَّبَ رِيْحَكَ وَأَكْثَرَ مَالَكَ». وَقَالَ لِهَذَا أَوْ لِغَيْرِهِ: «لَقَدْ رَأَيْتُ زَوْجَتَهُ مِنَ الْحُور الْعِين نَازِعَتَه جُبَّة لَهُ مِنْ صُوفٍ، تَدْخُل بَيْنَهُ وَبَينَ جُبَّتَهُ».

403. Ənəs ﷺ rəvayət edir ki, bir qara kişi Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi, mən pis qoxulu, qara, eybəcər sifətli və malı olmayan bir kişiyəm. Əgər mən öldürülənə qədər döyüşsəm, hara düşərəm?" Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: "Cənnətə!" O, öldürülənə qədər döyüşdü. Peyğəmbər salləllahu aleyhi və səlləm onun yanına gəlib dedi: "Allah sənin üzünü ağ, qoxunu gözəl etdi və malını çoxaltdı". Ona və digərlərinə dedi: "Mən onun hurilərdən olan zövcəsini yun cübbəsini aralayıb onunla cübbənin arasına girdiyini gördüm".[554]

ŞƏHİDLƏR HARADADIRLAR?

٤٠٤ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «الشُّهَدَاءُ عَلَى بَارِقِ نَهَرٍ بِبَابِ الْجَنَّةِ فِي قُبَّةٍ خَضْرَاءَ يَخْرُجُ عَلَيْهِمْ رِزْقُهُمْ مِنَ الْجَنَّةِ بُكْرَةً وَعَشِيًّا»

---

[553] ət-Tirmizi, 1663, 1764. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

[554] əl-Hakim, 2463. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1381) səhih olduğunu bildirmişdir.

404. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Şəhidlər Cənnət qapısının yanında olan "Bəriq" çayının üzərində yaşıl çadırdadırlar. Səhər-axşam onlara Cənnətdən ruziləri gətirilir".[555]

ALLAH YOLUNDA OLAN TOZ

٤٠٥ - عَنْ عَائِشَةَ ﷺ أَنَّ مُكَاتِباً لَهَا دَخَلَ عَلَيْهَا بِبَقِيَّةِ مُكَاتَبَتِهِ فَقَالَتْ لَهُ أَنْتَ غَيْرُ دَاخِلٍ عَلَيَّ غَيْرَ مَرَّتِكَ هَذِهِ فَعَلَيْكَ بِالْجِهَادِ فِي سَبِيلِ اللَّهِ فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَا خَالَطَ قَلْبَ امْرِئٍ مُسْلِمٍ رَهَجٌ فِي سَبِيلِ اللَّهِ إِلاَّ حَرَّمَ اللَّهُ عَلَيْهِ النَّارَ».

405. Aişə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Bir müsəlman kişinin Allah yolunda nəfəsinə toz gedərsə, şübhəsiz ki, Allah Cəhənnəm odunu ona haram edər".[556]

٤٠٦ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ رَاحَ رَوْحَةً فِي سَبِيلِ اللهِ كَانَ لَهُ بِمِثْلِ مَا أَصَابَ مِنَ الْغُبَارِ مِسْكاً يَوْمَ الْقِيَامَةِ».

406. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kim Allah yolunda (döyüşə) gedərsə, batdığı toz-torpağın misli Qiyamət günü onun üçün müşk olar".[557]

٤٠٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ لَا يَجْتَمِعُ غُبَارٌ فِي سَبِيلِ اللَّهِ وَدُخَانُ جَهَنَّمَ فِي مَنْخَرَيْ مُسْلِمٍ وَلَا يَجْتَمِعُ شُحٌّ وَإِيمَانٌ فِي قَلْبِ رَجُلٍ مُسْلِمٍ

407. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Allah yolunda toz-torpaq ilə Cəhənnəm tüstüsü müsəlmanın burnunda bir araya gəlməz. Müsəlman kişinin qəlbində iman ilə simiclik bir araya gəlməz".[558]

٤٠٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لاَ يَلِجُ النَّارَ رَجُلٌ بَكَى مِنْ خَشْيَةِ اللهِ، حَتَّى يَعُودُ اللَّبَنُ فِي الضَّرْعِ، وَلاَ يَجْتَمِعُ غُبَارٌ فِي سَبِيلِ اللهِ وَدُخَانُ جَهَنَّمَ».

---

555 Əhməd, 2390; əl-Hakim, 2403. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3742) həsən adlandırıb.
556 Əhməd, 24548, 24592, 25285. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5616) səhih olduğunu bildirib.
557 İbn Məcə, 2775, 2880. əl-Albani həsən olduğunu bildirmişdir.
558 ən-Nəsəi, 3114, 3127. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 7617) səhih olduğunu söyləmişdir.

408. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Süd döşə geri qayıtmadığı kimi, Allah qorxusundan ağlayan kişi də Cəhənnəmə girməz. Həmçinin, Allah yolunda toz-torpaq ilə Cəhənnəm tüstüsü bir araya gəlməz".[559]

CƏNNƏTƏ QIRX İL ƏVVƏL GİRƏNLƏR

٤٠٩ - عن عبد الله بن عمرو ﷺ قال: قال لي رسول الله ﷺ: أَتَعْلَمُ أَوَّلُ زُمْرَةٍ تَدْخُلُ الجَنَّةَ مِنْ أُمَّتِي؟ قال: الله و رسوله أعلم فقال: المهاجِرُونَ يَأْتُونَ يَوْمَ القِيامَةِ إلى باب الجَنَّةِ وَيَسْتَفْتِحُونَ فَيَقُولُ لَهُمُ الخَزَنَةُ أو قَدْ حُوسِبْتُمْ فيقولون بأي شَيْءٍ نُحَاسَبُ وإنَّمَا كانَتْ أسْيافُنا على عَوَاتِقِنَا في سَبِيلِ الله حَتَّى مُتْنَا على ذَلِكَ قال فَيُفْتَحُ لَهُمْ فَيَقِيلُونَ فيه أرْبَعِينَ عاماً قَبْلَ أنْ يَدْخُلَها النَّاسُ

409. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Ümmətimdən Cənnətə girən birinci dəstəyə kimin daxil olacağını bilirsən?" O dedi: "Allah və Onun Elçisi daha yaxşı bilir!" Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Mühacirlər. Onlar Qiyamət günü Cənnət qapısına gələcək və qapının açılmasını istəyəcəklər. Gözətçilər onlara deyəcəklər: "Siz artıq sorğu-sual olundunuz?" Onlar deyəcəklər: "Nə ilə sorğu-sual olunacağıq? Biz Allah yolunda qılınclarımızı çiyinlərimizdə ölənə qədər daşımışıq". (Cənnət qapıları) onların üzünə açılacaq və insanlar (Cənnətə) daxil olana qədər onlar qırx il orada dincələcəklər".[560]

DƏNİZDƏ OLAN CİHAD

٤١٠ - عَنْ أُمِّ حَرَامٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ «الْمَائِدُ فِي الْبَحْرِ الَّذِي يُصِيبُهُ الْقَيْءُ لَهُ أَجْرُ شَهِيدٍ وَالْغَرِقُ لَهُ أَجْرُ شَهِيدَيْنِ».

410. Ummu Həram ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: "(Allah yolunda) dənizdə (başı gicəllənərək) qusana bir şəhid savabı vardır. Boğulana isə iki şəhid savabı vardır".[561]

ŞƏHİD OLMAĞI SİDQ ÜRƏKLƏ İSTƏMƏK

٤١١ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ: أَنَّهُ سَمِعَ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «مَنْ قُاتِلَ فِي سَبِيلِ اللهِ فَوَاقَ نَاقَةٍ فَقَدْ وَجَبَتْ لَهُ الْجَنَّة،

---

[559] ət-Tirmizi, 1633, 1733, 2311, 2481. əl-Albani səhih olduğunu bildirmişdir.

[560] əl-Hakim, 2389. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 96) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 853) səhih olduğunu bildirmişdir.

[561] Əbu Davud, 2495. əl-Albani həsən olduğunu bildirmişdir.

وَمَنْ سَأَلَ اللهَ الْقَتلَ مِنْ نَفْسِهِ صَادِقاً ثُمَّ مَاتَ أَوْ قُتِلَ فَإِنَّ لَهُ أَجْرَ شَهِيد، وَمَنْ جُرِحَ جُرحاً فِي سَبِيلِ اللهِ، أَوْ نُكِبَ نَكْبَة فَإِنَّهَا تَجِيء يَوْمَ الْقِيَامَةِ كَأَغْزَرِ مَا كَانَتْ لَونُهَا لَونَ الزَّعْفَرَان، وَرِيْحُهَا رِيحُ الْمِسْكِ وَمَنْ خَرَجَ بِهِ خُرَاج فِي سَبِيلِ اللهِ فَإِنَّ عَلَيْهِ طَابِعَ الشُّهَدَاءِ».

411. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Allah Elçisini sallallahu aleyhi və səlləm buyurmuşdur: “Kim dəvənin iki sağımı arasında olan müddət qədər Allah yolunda döyüşərsə, Cənnət onun üçün vacib olar. Kim sidq-ürəklə Allah-dan şəhid olmağı diləyərsə, sonra (yatağında) ölsə və ya öldürülsə belə, ona şəhid savabı verilər. Kim Allah yolunda (döyüşərək) yaralansa və ya (döyüşə gedib ehtiyatsızlıqdan) yara alsa, Qiyamət günü o, (dünyada yarasından axdığı qandan) daha çox qan ilə (Allahın hüzuruna) gələcək. Onun qanının rəngi zəfəran rəngi, qoxusu da müşk qoxusu olacaq. Kimin vücudunda Allah yolunda bir çiban çıxsa, onun üzərinə şəhidlik möhürü vurular”.[562]

٤١٢ - سَمِعَ سَهْلَ بْنَ أَبِى أُمَامَةَ بْنِ سَهْلِ بْنِ حُنَيْفٍ يُحَدِّثُ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ «مَنْ سَأَلَ اللَّهَ الشَّهَادَةَ مِنْ قَلْبِهِ صَادِقًا بَلَّغَهُ اللَّهُ مَنَازِلَ الشُّهَدَاءِ وَإِنْ مَاتَ عَلَى فِرَاشِهِ»

412. Səhl ibn Huneyf ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: “Kim Allahdan sidq-ürəklə şəhid olmağı istəsə, yatağında ölmüş olsa belə, Allah onu şəhidlərin dərəcəsinə yüksəldər”.[563]

٤١٣ - عَنْ أَبِي مُوسَى ﷺ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ يَا رَسُولَ اللَّهِ، مَا الْقِتَالُ فِى سَبِيلِ اللَّهِ فَإِنَّ أَحَدَنَا يُقَاتِلُ غَضَبًا، وَيُقَاتِلُ حَمِيَّةً. فَقَالَ: «مَنْ قَاتَلَ لِتَكُونَ كَلِمَةُ اللَّهِ هِىَ الْعُلْيَا فَهُوَ فِى سَبِيلِ اللَّهِ عَزَّ وَجَلَّ».

413. Əbu Musa ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: “Ey Allahın Elçisi! Allah yolunda vuruşmaq nə deməkdir? Axı bizdən kimisi qəzəbinə görə, kimisi də namusuna görə vuruşur.” Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “Hər kim Allahın Kəlməsi hər şeydən uca olsun deyə vuruşarsa, Allahın ﷻ yolunda (vu-ruşmuş) olar”.[564]

---

[562] Əbu Davud, 2541, 2543. əl-Albani səhih olduğunu bildirmişdir.
[563] ət-Tirmizi, 1653, 1754. əl-Albani səhih olduğunu bildirmişdir.
[564] əl-Buxari, 123.

İNSANLARIN ƏN XEYİRLİ OLANI

٤١٤ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «أَلاَ أُخْبِرُكُمْ بِخَيْرِ النَّاسِ؟ رَجُلٌ مُمْسِكٌ بِعِنَانِ فَرَسِهِ فِي سَبِيلِ اللَّهِ، أَلاَ أُخْبِرُكُمْ بِالَّذِي يَتْلُوهُ؟ رَجُلٌ مُعْتَزِلٌ فِي غُنَيْمَةٍ لَهُ يُؤَدِّي حَقَّ اللَّهِ فِيهَا، أَلاَ أُخْبِرُكُمْ بِشَرِّ النَّاسِ؟ رَجُلٌ يُسْأَلُ بِاللَّهِ وَلاَ يُعْطِي بِهِ».

414. İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Sizə insanların ən xeyirli olanı barədə xəbər verimmi? Bu, Allah yolunda atının yüyənindən tutan kişidir. Sizə bundan sonra kimin xeyirli olduğunu xəbər verimmi? Bu, insanlardan uzaqlaşaraq bir neçə qoyun saxlayan və Allahın haqqını yerinə yetirən kişidir. Sizə insanların ən şər olanı barədə xəbər verimmi? Bu, Allah xatirinə bir şey istənildikdə heç bir şey verməyən kişidir!"[565]

٤١٥ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ: قِيلَ يَا رَسُولَ اللَّهِ، أَيُّ النَّاسِ أَفْضَلُ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «مُؤْمِنٌ يُجَاهِدُ فِي سَبِيلِ اللَّهِ بِنَفْسِهِ وَمَالِهِ». قَالُوا ثُمَّ مَنْ قَالَ: «مُؤْمِنٌ فِي شِعْبٍ مِنَ الشِّعَابِ يَتَّقِي اللَّهَ، وَيَدَعُ النَّاسَ مِنْ شَرِّهِ».

415. Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "(Bir dəfə Peyğəmbərdən sallәllahu aleyhi və sәlləm) soruşdular: "Ey Allahın Elçisi, insanların ən üstünü kimdir?" Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "Allah yolunda malı və canı ilə cihad edən mömindir". Soruşdular: "Sonra hansıdır?" Dedi: "Dağ dərəsinə[566] çəkilib Allahdan qorxan və insanlara pislik etməkdən çəkinən mömindir".[567]

ALLAH YOLUNDA OLAN MÜCAHİDİN MİSALI

٤١٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قِيلَ لِلنَّبِيِّ ﷺ مَا يَعْدِلُ الْجِهَادَ فِي سَبِيلِ اللَّهِ ﷻ قَالَ لَا تَسْتَطِيعُونَهُ قَالَ فَأَعَادُوا عَلَيْهِ

---

[565] ət-Tirmizi, 1652, 1753. əl-Albani səhih olduğunu bildirmişdir.

[566] ən-Nəvəvi ﷺ demişdir: "Bu, ibrətamiz bir məsəldir. Belə ki, möminin təkliyə çəkilib (Allaha ibadət etməklə məşğul olub heç nəyə və heç kəsə qarışmamağı), "dağ dərəsində" – insanlardan uzaq düşmüş bir adamın halına bənzəyir". İbn Həcər ﷺ demişdir: "Bu hədis təkliyə çəkilməyin fəzilətinə dəlalət edir. Çünki belə olduqda adam qeybətdən, boşboğazlıqdan və başqa bu kimi bihudə işlərdən uzaq olur. Lakin qeyd etmək lazımdır ki, – müsəlmanlar arasına fitnə düşdüyü vaxt istisna olmaqla – heç bir zamanda və heç bir halda camaatdan ayrılmaq olmaz". Peyğəmbər ﷺ demişdir: "...Allahın Əli (haqq yolda olan) camaatın üzərindədir!" (əl-Albani "Sahihul-Cəmius-Sağir", № 2729). Digər rəvayətdə demişdir: "Kənddə və ya çöllü-biyabanda olan üç nəfər camaat şəklində namaz qılmasalar, şeytan onlara hakim olar. Belə olmasın deyə camaat olun! Əlbəttə ki, canavar sürüdən ayrı düşmüş qoyunu (tez) yeyər". (Hədisi Əhməd, Əbu Davud və ən-Nəsəi rəvayət etmişlər).

[567] əl-Buxari, 2786; Muslim, 1881.

مَرَّتَيْنِ أَوْ ثَلَاثًا كُلُّ ذَلِكَ يَقُولُ لَا تَسْتَطِيعُونَهُ وَقَالَ فِي الثَّالِثَةِ مَثَلُ الْمُجَاهِدِ فِي سَبِيلِ اللَّهِ كَمَثَلِ الصَّائِمِ الْقَائِمِ الْقَانِتِ بِآيَاتِ اللَّهِ لَا يَفْتُرُ مِنْ صِيَامٍ وَلَا صَلَاةٍ حَتَّى يَرْجِعَ الْمُجَاهِدُ فِي سَبِيلِ اللَّهِ تَعَالَى حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ حَدَّثَنَا أَبُو عَوَانَةَ ح و حَدَّثَنِي زُهَيْرُ بْنُ حَرْبٍ حَدَّثَنَا جَرِيرٌ ح و حَدَّثَنَا أَبُو بَكْرِ بْنُ أَبِي شَيْبَةَ حَدَّثَنَا أَبُو مُعَاوِيَةَ كُلُّهُمْ عَنْ سُهَيْلٍ بِهَذَا الْإِسْنَادِ نَحْوَهُ

416. Əbu Hureyra ﷺ rəvayət edir ki, (bir gün) Peyğəmbərdən sallәllahu aleyhi və sәlləm soruşdular: "Ey Allahın Elçisi! Hansı əməl Allah yolunda olan cihada bərabərdir?" O buyurdu: "Sizin ona gücünüz çatmaz!" (Səhabələr bu sualı) iki və ya üç dəfə təkrar etdilər. Allah Elçisi sallәllahu aleyhi və sәlləm hər dəfə: "Sizin ona gücünüz çatmaz!"- deyirdi. Sonra belə buyurdu: "Allah yolunda olan mücahidin misalı oruc tutan, namaz qılan, Allahın ayələrinə itaət edən, dayanmadan orucu və namazı Uca Allahın yolunda olan mücahid (evinə) qayıdana qədər yerinə yetirənin misalı kimidir".[568]

٤١٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «مَثَلُ الْمُجَاهِدِ فِي سَبِيلِ اللهِ وَاللهُ أَعْلَمُ بِمَنْ يُجَاهِدُ فِي سَبِيلِهِ كَمَثَلِ: الصَّائِمِ الْقَائِمِ الْخَاشِعِ الرَّاكِعِ السَّاجِدِ».

417. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Allah yolunda döyüşən mücahidin misalı – Allahın yolunda kimin cihad etdiyini O daha yaxşı bilir - oruc tutan, gecə namazlarını qılan, müti olan, ruku və səcdə edənin misalı kimidir".[569]

İKİ GÖZ, İKİ DAMCI VƏ İKİ İZ

٤١٨ - عَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ عَيْنَانِ لَا تَمَسُّهُمَا النَّارُ أبدا عَيْنٌ بَكَتْ مِنْ خَشْيَةِ اللَّهِ وَعَيْنٌ بَاتَتْ تَحْرُسُ فِي سَبِيلِ اللَّهِ

418. İbn Abbas رضي الله عنهما demişdir: "Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə buyurduğunu eşitdim: "İki gözə heç vaxt od toxunmayacaq; Allah qorxusundan ağlayan və gecəni Allah yolunda keşik çəkərək keçirən göz".[570]

٤١٩ - عَنْ أَبِي أُمَامَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «لَيْسَ شَيْءٌ أَحَبَّ إِلَى اللَّهِ مِنْ قَطْرَتَيْنِ وَأَثَرَيْنِ قَطْرَةٌ مِنْ دُمُوعٍ فِى خَشْيَةِ اللَّهِ وَقَطْرَةُ دَمٍ تُهَرَاقُ فِى سَبِيلِ اللَّهِ. وَأَمَّا الأَثَرَانِ فَأَثَرٌ فِى سَبِيلِ اللَّهِ وَأَثَرٌ فِى فَرِيضَةٍ مِنْ فَرَائِضِ اللَّهِ».

---

[568] Muslim, 1878, 3490.

[569] ən-Nəsəi, 3127, 3140. əl-Albani səhih olduğunu bildirmişdir.

[570] ət-Tirmizi, 1639, 1740. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4113) səhih olduğunu bildirmişdir.

419. Əbu Umamə ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: "Heç bir şey Allaha iki damcı və iki izdən daha sevimli deyildir. Allah qorxusundan axıdılan göz yaşı damcısı və Allah yolunda (döyüşərkən) axıdılan qan damcısı. İki izə gəlincə, Allah yolunda (döyüşərkən əmələ gələn) iz və Allahın fərz ibadətlərini edərkən (əmələ gələn) iz".[571]

٤٢٠ - سَمِعْتُ أَبَا هُرَيْرَةَ ﷺ يَقُولُ: إِنَّ رَسُولَ اللهِ ﷺ قَالَ: حُرِّمَ عَلَى عَيْنَيْنِ أَنْ تَنَالَهُمَا النَّارُ: عَيْنٌ بَكَتْ مِنْ خَشْيَةِ اللهِ، وَعَيْنٌ بَاتَتْ تَحْرُسُ الإِسْلاَمَ وَأَهْلَهُ مِنْ أَهْلِ الْكُفْرِ.

420. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "İki gözə Cəhənnəm odu haram edilmişdir; Allah qorxusundan ağlayan göz, İslamı və ailəsini küfr əhlindən qoruyaraq gecələyən göz".[572]

٤٢١ - عن معاوية بن حيدة ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "ثَلاثَةٌ لا تَرَى أَعْيُنُهُمُ النَّارَ: عَيْنٌ حَرَسَتْ فِي سَبِيلِ اللَّهِ، وَعَيْنٌ بَكَتْ مِنْ خَشْيَةِ اللَّهِ، وَعَيْنٌ غَضَّتْ عَنْ مَحَارِمِ اللَّهِ"

421. Müaviyə ibn Heydə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Üç nəfər vardır ki, onların gözləri Cəhənnəm odunu görməyəcək; Allah yolunda keşik çəkən, Allah qorxusundan ağlayan və Allahın haramlarından qorunan göz".[573]

ŞƏHİDLƏR QƏBİR FİTNƏSİNƏ MƏRUZ QALMIRLAR

٤٢٢ - عَنْ رَاشِدِ بْنِ سَعدٍ، عَنْ رَجُلٍ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ أَنَّ رَجُلاً قَالَ: يَا رَسُوْلَ اللهِ! مَا بَالُ الْمُؤمِنِينَ يُفْتَنُونَ فِي قُبُورِهِمْ إِلاَّ الشَّهِيد؟ قَالَ: «كَفَى بِبَارِقَةِ السُيوفِ عَلَى رَأْسِهِ فِتنَةً».

422. Raşid ibn Səd Peyğəmbərin sallallahu aleyhi və səlləm səhabələrinin birindən rəvayət edir ki, bir adam dedi: "Ey Allahın Elçisi! Nəyə görə möminlər qəbir fitnəsinə məruz qalırlar, şəhid isə yox?" O buyurdu: "Başının üzərindəki qılıncların parıltısı fitnə olaraq ona kifayətdir".[574]

---

[571] ət-Tirmizi, 1669, 1770. əl-Albani həsən olduğunu bildirmişdir.
[572] əl-Hakim, 2431. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3323) səhih li-ğeyrihi olduğunu bildirib.
[573] ət-Tabərani "Mucəmul-Kəbir" 1003, 16347. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3326) həsən li-ğeyrihi olduğunu bildirmişdir.
[574] ən-Nəsəi, 2053, 2065. əl-Albani səhih olduğunu bildirmişdir.

CİHAD CƏNNƏT QAPILARINDANDIR

٤٢٣ - عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «عَلَيْكُمْ بِالْجِهَادِ فِي سَبِيلِ اللهِ، فَإِنَّهُ بَابٌ مِنْ أَبْوَابِ الْجَنَّة، يُذْهِبُ اللهُ بِهِ الْهَمَّ وَالْغَمَّ».

423. Ubadə ibn əs-Samit ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allahın yolunda cihad edin, çünki o, Cənnətin qapılarından biridir. Allah onunla qəm-qüssəni aparır".[575]

ALLAH YOLUNDA OLAN BİR SAAT

٤٢٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنْ رَسُوْلُ اللهِ ﷺ قَالَ: «قِيَامُ سَاعَةٍ فِي الصَّفِّ لِلقِتَالِ فِي سَبِيلِ اللهِ، خَيْرٌ مِنْ قِيَامِ سِتِّيْنَ سَنَةٍ».

424. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allah yolunda döyüşmək üçün bir saat cərgədə durmaq, altmış il gecə namazlarına durmaqdan daha xeyirlidir".[576]

٤٢٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «مَوقِفُ سَاعَةٍ فِي سَبِيلِ اللهِ، خَيْرٌ مِنْ قِيَامِ لَيْلَةِ الْقَدْرِ عِنْدَ الحَجَرِ الأَسْوَدِ».

425. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allah yolunda (döyüşmək üçün cərgədə) bir saat durmaq, Qara daşın yanında Qədr gecəsini ibadətlə keçirməkdən daha xeyirlidir".[577]

ONLARA YARDIM ETMƏK ALLAH ÜÇÜN BİR HAQDIR

٤٢٦ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «ثَلاَثَةٌ حَقٌّ عَلَى اللَّهِ عَوْنُهُمُ الْمُجَاهِدُ فِى سَبِيلِ اللَّهِ وَالْمُكَاتَبُ الَّذِى يُرِيدُ الأَدَاءَ وَالنَّاكِحُ الَّذِى يُرِيدُ الْعَفَافَ».

426. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allahın Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Üç nəfər vardır ki, onlara yardım etmək Allahın üzərində

---

[575] əl-Hakim, 2404; Əhməd 22771. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4063) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1941) səhih olduğunu bildirmişdir.
[576] İbn Asakir "Tarixu Dəməşq" 22/ 444. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4429) səhih demişdir.
[577] İbn Hibban, 4584. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1068) səhih olduğunu bildirmişdir.

bir haqdır; Allah yolunda vuruşan mücahidə, azadlığa qovuşmaq üçün pul ödəmək istəyən köləyə və zinadan qorunmaq üçün evlənən kimsəyə”.[578]

ALLAHIN SEVDİYİ ÜÇ QİSM İNSAN

٤٢٧ - عن أبي الدرداء ﷺ عن النبي ﷺ قال: «ثلاثةٌ يحبُّهم اللهُ، ويضحكُ إليهم، ويستبشرُ بهم: الذي إذا انكَشَفتْ فئةٌ؛ قاتلَ وراءَها بنفسِه لله ﷻ، فإمّا أنْ يُقتلَ، وإمّا أن يَنصُرَه اللهُ ﷻ و يكفِيَه، فيقولُ: انظرُوا إلى عبدِي هذا كيف صَبَرَ لي نفسَه؟! والذي له امرأة حسنة، وفراش لين حسن، فيقوم من الليل، فيقول: يذر شهوتَه، و يذكُرني، ولو شاءَ رقَدَ! والذِي إذا كان في سَفَرٍ، وكانَ معَه ركْبٌ؛ فسهِرُوا ثمّ هَجَعُوا، فقامَ من السّحرِ في ضرّاءَ وسرّاءَ»

427. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Üç qism insan vardır ki, Allah onları sevir, onlara gülür və onlara görə sevinir. Onlardan biri o kimsədir ki, (bir dəstənin tərkibində döyüşə gedir, dəstənin düşmən tərəfindən) məğlub olduğunu gördükdə, ya Allah yolunda öldürüləcəyini, ya da Allahın ﷻ onu qalib edib qoruyacağını (düşünərək) dəstənin arxasında Allah ﷻ üçün təkbaşına döyüşür”. Bu zaman Allah ﷻ buyurur: “Bu qulumun Mənim üçün təkbaşına necə səbir etdiyinə baxın!” Həmçinin, o kimsə ki, gözəl qadına və rahat yatağa sahib olub gecə vaxtı (yatağından ibadətə) qalxır. Allah buyurur: “O, şəhvətini tərk edib Məni zikr edir, halbuki, əgər istəsəydi yatardı”. Həmçinin, o kimsə ki, yoldaşları ilə birlikdə səfərə çıxır. Yoldaşları gecənin bir hissəsini oyaq qalıb sonra yatırlar. O isə çətinlikdə də, rahatlıqda da (gecənin əvvəlini yatır), gecənin son üçdə birində isə (ibadətə) qalxır”.[579]

ALLAHIN NÜMAYƏNDƏLƏRİ

٤٢٨ - عَنِ ابْنِ عُمَرَ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ «الْغَازِى فِى سَبِيلِ اللَّهِ وَالْحَاجُّ وَالْمُعْتَمِرُ وَفْدُ اللَّهِ دَعَاهُمْ فَأَجَابُوهُ وَسَأَلُوهُ فَأَعْطَاهُمْ».

428. İbn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Allah yolunda döyüşən, həcc edən və ümrə edən Allahın nümayəndələridirlər. Allah onları dəvət etmiş, onlar da Allahın dəvətini qəbul etmişlər. Onlar Allahdan istəmişlər, Allah da onların istədiklərini vermişdir”.[580]

---

[578] ət-Tirmizi, 1655, 1756. əl-Albani həsən olduğunu bildirmişdir.

[579] əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 629) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 3478) həsən olduğunu bildirmişdir.

[580] İbn Məcə, 2884, 3005. əl-Albani həsən olduğunu bildirmişdir.

٤٢٩ - سَمِعْتُ أَبَا هُرَيْرَةَ ﷺ يَقُولُ قَالَ رَسُولُ اللَّهِ ﷺ «وَفْدُ اللَّهِ ثَلاَثَةٌ الْغَازِى وَالْحَاجُّ وَالْمُعْتَمِرُ».

429. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm belə buyurdu: "Allahın üç nümayəndəsi vardır; Allah yolunda döyüşən, həcc edən və ümrə edən".[581]

DÜŞMƏNƏ OX ATMAĞIN FƏZİLƏTİ

٤٣٠ - عَنْ شُرَحْبِيلَ بْنِ السِّمْطِ عَنْ عَمْرِو بْنِ عَبَسَةَ ﷺ قَالَ: قُلْتُ: يَا عَمْرُو بْنَ عَبَسَةَ حَدِّثْنَا حَدِيثًا سَمِعْتَهُ مِنْ رَسُولِ اللَّهِ ﷺ لَيْسَ فِيهِ نِسْيَانٌ وَلاَ تَنَقُّصٌ. قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «مَنْ رَمَى بِسَهْمٍ فِى سَبِيلِ اللَّهِ فَبَلَغَ الْعَدُوَّ أَخْطَأَ أَوْ أَصَابَ كَانَ لَهُ كَعِدْلِ رَقَبَةٍ وَمَنْ أَعْتَقَ رَقَبَةً مُسْلِمَةً كَانَ فِدَاءُ كُلِّ عُضْوٍ مِنْهُ عُضْوًا مِنْهُ مِنْ نَارِ جَهَنَّمَ وَمَنْ شَابَ شَيْبَةً فِى سَبِيلِ اللَّهِ كَانَتْ لَهُ نُورًا يَوْمَ الْقِيَامَةِ».

430. Şurahbil ibn əs-Simt Amr ibn Abəsədən[582] ﷺ rəvayət edərək deyir: "Mən Amr ibn Abəsəyə ﷺ dedim: "Ey Amr ibn Abəsə! Bizə elə bir hədis danış ki, bu hədisdə heç bir unutqanlıq və naqislik olmasın". Amr ibn Abəsə ﷺ dedi: "Allah Elçisinin salləllahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: "Kim Allah yolunda düşmənə bir ox atarsa, ox hədəfə dəyməsə də, dəysə də ona bir kölə azad etmiş kimi savab yazılar. Kim bir müsəlman köləni azad edərsə, onun azad etdiyi hər bir əza müqabilində əzaları Cəhənnəm odundan qurtular. Allah yolunda saçını ağardanın ağ saçları onun üçün Qiyamət günü nur olacaq".[583]

٤٣١ - عَنْ كَعْبِ بْنِ مُرَّةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «مَنْ بَلَغَ الْعَدُوَّ بِسَهمٍ، رَفَعَ اللهُ بِهِ دَرَجَةً لَهُ». فَقَالَ لَهُ عَبْدَ الرَّحْمَن بْن النَّحَّامِ: يَا رَسُوْلَ اللهِ! وَمَا الدَّرَجَة؟ قَالَ: «أَمَا إِنَّها لَيْسَتْ بِعَتَبَةِ أُمِّكَ! مَا بَيْنَ الدَّرَجَتَينِ مِئَةُ عَامٍ».

431. Kəb ibn Murra ﷺ demişdir: "Allah Elçisini salləllahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Kim düşmənə bir ox atarsa, Allah onu bir dərəcə yüksəldər". Abdur-Rahmən ibn Nəhhəm ﷺ dedi: "Ey Allahın Elçisi, dərəcə nədir?" O buyurdu: "Bu, sənin ananın evinin pilləkəni kimi deyildir. Hər iki dərəcənin arası yüz illik məsafəyə bərabərdir".[584]

---

[581] ən-Nəsəi, 2625, 2637. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 7112) hədisi səhih olduğunu bildirib.

[582] Amr ibn Abəsə ibn Xalid ibn Huzeyfə əs-Suləmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 60-cı ilində vəfat etmişdir.

[583] Nəsai, 3145, 3158. Albani bu hədisin səhih olduğunu bildirmişdir.

[584] İbn Hibban, 4597. əl-Albani səhih olduğunu bildirmişdir.

ALLAH YOLUNDA ATA SƏRF EDİLƏNLƏR

٤٣٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «مَنِ احْتَبَسَ فَرَسًا فِي سَبِيلِ اللَّهِ إِيمَانًا بِاللَّهِ وَتَصْدِيقًا بِوَعْدِهِ، فَإِنَّ شِبَعَهُ وَرِيَّهُ وَرَوْثَهُ وَبَوْلَهُ فِي مِيزَانِهِ يَوْمَ الْقِيَامَةِ».

432. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Kim Allaha iman gətirib Onun verdiyi vədi təsdiq edərək Allah yolunda (istifadə etmək məqsədilə) bir at saxlayarsa, atın yediyi, içdiyi, nəcisi və sidiyi Qiyamət günü onun əməl tərəzisinə qoyular".[585]

٤٣٣ - عَنِ ابْنِ الْحَنْظَلِيَّةِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ الْمُنْفِقَ عَلَى الْخَيْلِ فِي سَبِيلِ اللَّهِ كَالْبَاسِطِ يَدَهُ بِالصَّدَقَةِ لا يَقْبِضُهَا».

433. İbn əl-Hənzaliyyə ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Həqiqətən, Allah yolunda (döyüşmək üçün) ata vəsait sərf edən, davamlı sədəqə verən kimidir".[586]

٤٣٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «الْخَيْلُ لِرَجُلٍ أَجْرٌ، وَلِرَجُلٍ سِتْرٌ، وَعَلَى رَجُلٍ وِزْرٌ، فَأَمَّا الَّذِي لَهُ أَجْرٌ فَرَجُلٌ رَبَطَهَا فِي سَبِيلِ اللَّهِ، فَأَطَالَ بِهَا فِي مَرْجٍ أَوْ رَوْضَةٍ، فَمَا أَصَابَتْ فِي طِيَلِهَا ذَلِكَ مِنَ الْمَرْجِ أَوِ الرَّوْضَةِ كَانَتْ لَهُ حَسَنَاتٍ، وَلَوْ أَنَّهُ انْقَطَعَ طِيَلُهَا فَاسْتَنَّتْ شَرَفًا أَوْ شَرَفَيْنِ كَانَتْ آثَارُهَا وَأَرْوَاثُهَا حَسَنَاتٍ لَهُ، وَلَوْ أَنَّهَا مَرَّتْ بِنَهَرٍ فَشَرِبَتْ مِنْهُ وَلَمْ يُرِدْ أَنْ يَسْقِيَ كَانَ ذَلِكَ حَسَنَاتٍ لَهُ، فَهِيَ لِذَلِكَ أَجْرٌ، وَرَجُلٌ رَبَطَهَا تَغَنِّيًا وَتَعَفُّفًا ثُمَّ لَمْ يَنْسَ حَقَّ اللَّهِ فِي رِقَابِهَا وَلاَ ظُهُورِهَا، فَهِيَ لِذَلِكَ سِتْرٌ، وَرَجُلٌ رَبَطَهَا فَخْرًا وَرِيَاءً وَنِوَاءً لأَهْلِ الإِسْلاَمِ، فَهِيَ عَلَى ذَلِكَ وِزْرٌ». وَسُئِلَ رَسُولُ اللَّهِ ﷺ عَنِ الْحُمُرِ فَقَالَ: «مَا أُنْزِلَ عَلَيَّ فِيهَا شَيْءٌ إِلاَّ هَذِهِ الآيَةُ الْجَامِعَةُ الْفَاذَّةُ: ﴿**فَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ ۞ وَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ**﴾.

434. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "At (saxlamaq), kimisinə savab qazandırar, kimisinin (kasıbçılığını) ört-basdır edər, kimisinə də günah qazandırar. Savab qazanan adama gəlincə, bu o kimsədir ki, atını otlaqda və ya bağ-bağatlı yerdə uzun kəndirlə bağlayıb Allah yolunda (döyüşmək üçün) saxlamışdır. At otlaqda və ya bağçada otladığı müddət ərzində ona savab yazılar. Hərgah atın kəndiri qırılarsa və at qaçıb bir, yaxud iki təpə aşarsa, onun qoyduğu

---

[585] əl-Buxari, 2853.

[586] ət-Təbərani "Mucəmul-Kəbir" 5487. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1964) həsən olduğunu bildirmişdir.

ləpirlərə və (ifraz etdiyi) nəcisinə görə (yiyəsinə) savab yazılar; və əgər bir çaydan keçib ondan su içərsə, yiyəsinin onu sulamaq istəyi olmasa belə, buna görə ona savab yazılar. Beləliklə də, bu at ona savab qazandırar. Digəri isə, atını, insanlara möhtac olmasın və dilənməsin deyə (qazanc məqsədilə) saxlayan, üstəlik onu bəslədikdə Allahın haqqını unutmayan kimsədir. Bu at onun üçün örtük olar. (Üçüncüsü isə,) atını, lovğalıq etmək, özünü göstərmək və ya onu müsəlmanların əleyhinə istifadə etmək məqsədilə saxlayan kimsədir. Bu at ona günah qazandırar". Peyğəmbərdən sallәllahu aleyhi və səlləm eşşəklər barədə soruşdular. O buyurdu: "Bu xüsusda hər şeyi əhatə edən, müstəsna sayılan bu ayələrdən başqa mənə bir ayə nazil olmamışdır: ***"Zərrə qədər yaxşılıq edən*** *(əvəzini)* ***alacaqdır. Zərrə qədər pislik edən də*** *(əvəzini)* ***alacaqdır".*** *(əz-Zəlzələ 7-8)".*[587]

MÜCAHİDİ TƏCHİZ EDƏNİN SAVABI

٤٣٥ - عَنْ زَيْدِ بْنِ خَالِدٍ الْجُهَنِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ جَهَّزَ غَازِياً فِي سَبِيلِ اللهِ، كَانَ لَهُ مِثْلُ أَجْرِهِ، مِنْ غَيْرِ أَنْ يَنْقُصَ مِنْ أَجْرِ الْغَازِي شَيئاً».

435. Zeyd ibn Xalid əl-Cuhəni ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm belə buyurmuşdur: "Kim Allah yolunda döyüşəni təchiz edərsə, döyüşənin savabından heç bir şey əskilmədən savabının bir misli də ona verilər".[588]

٤٣٦ - عَنْ زَيْدِ بْنِ خَالِدٍ الْجُهَنِيِّ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ «مَنْ جَهَّزَ غَازِيًا فِى سَبِيلِ اللَّهِ فَقَدْ غَزَا وَمَنْ خَلَفَ غَازِيًا فِى أَهْلِهِ فَقَدْ غَزَا».

436. Zeyd ibn Xalid əl-Cuhənidən ﷺ gələn rəvayətə görə Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurmuşdur: "Allah yolunda döyüşəni təchiz edən özü döyüşmüş olur. Allah yolunda döyüşə gedənin ailəsinə himayədarlıq edən döyüşə getmiş kimidir".[589]

٤٣٧ - عَنْ أَبِى أُمَامَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَفْضَلُ الصَّدَقَاتِ ظِلُّ فُسْطَاطٍ فِى سَبِيلِ اللَّهِ وَمَنِيحَةُ خَادِمٍ فِى سَبِيلِ اللَّهِ أَوْ طَرُوقَةُ فَحْلٍ فِى سَبِيلِ اللَّهِ».

---

[587] əl-Buxari, 2371.

[588] İbn Məcə, 2759, 2864. əl-Albani səhih olduğunu bildirmişdir.

[589] ət-Tirmizi, 1628, 1728. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

437. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Ən fəzilətli sədəqə kölgələnmək üçün (döyüşçülərə) çadır vermək, xidmətçi və ya minik hədiyyə etməkdir".[590]

KEŞİK ÇƏKƏNİN FƏZİLƏTİ

٤٣٨ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «أَلاَ أُنَبِّئُكُمْ بِلَيْلَةِ أَفْضَلُ مِنْ لَيْلَةِ الْقَدْرِ؟ حَارِسٌ حَرَسَ فِي أَرْضِ خَوفٍ لَعَلَّهُ أَنْ لاَ يَرجِع إِلَى أَهْلِهِ».

438. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Sizə Qədr gecəsindən daha fəzilətli gecə haqqında xəbər verimmi? Ailəsinin yanına bir daha qayıtmayacağından qorxaraq təhlükəli ərazidə keşik çəkənin (keçirdiyi gecə)".[591]

٤٣٩ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «رِبَاطُ شَهْرٍ خَيْرٌ مِنْ صِيَامِ دَهْرٍ، وَمَنْ مَاتَ مُرَابِطاً فِي سَبِيلِ اللهِ أمِنَ مِنَ الْفَزَعِ الأَكْبَرِ، وَغُدِيَ عَلَيْهِ بِرِزْقِهِ، وَرِيحَ مِنَ الْجَنَّةِ، وَيَجْرِي عَلَيْهِ أَجْرُ الْمُرَابِطِ حَتَّى يَبْعَثَهُ اللهُ».

439. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Bir ay sərhəddə keşik çəkmək bir il oruc tutmaqdan daha xeyirlidir. Kim Allah yolunda sərhədin keşiyini çəkərək ölərsə, o, (Qiyamət gününün) ən böyük dəhşətindən[592] salamat olar. O, Cənnətdən ruzilənəcək və ona Cənnətin qoxusu hiss etdiriləcək. Allah onu dirildənədək (qəbirdə) sərhədin keşiyini çəkənin savabı ona yazılacaq".[593]

٤٤٠ - عَنْ عُثْمَانَ بْنِ عَفَّان ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «رِبَاطُ يَوْمٍ فِي سَبِيلِ اللهِ، خَيْرٌ مِنْ أَلْفِ يَومٍ فِيمَا سِوَاهُ مِنَ الْمَنَازِلِ»

440. Osman ibn Affan ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allah yolunda bir gün sərhəddə keşik çəkmək, başqa yerlərdə keçirilən min gündən daha xeyirlidir".[594]

---

590 ət-Tirmizi, 1627, 1727. əl-Albani həsən olduğunu bildirmişdir.

591 əl-Hakim, 2424. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1232) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2811) səhih olduğunu bildirmişdir.

592 Qiyamətin ən böyük dəhşəti dedikdə, Surun ikinci dəfə üfürülməsi nəzərdə tutulur. Uca Allah buyurur: ***"Sur üfürüləcəyi gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar dəhşətə düşəcək və hamısı Onun hüzuruna baş əyərək gələcəkdir"*** *(ən-Nəml, 87).*

593 əl-Heysəmi "Məcməuz-Zəvaid" 9504. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3479) səhih olduğunu bildirib.

594 ən-Nəsəi, 3169, 3182. əl-Albani həsən olduğunu bildirmişdir.

٤٤١ - عَنْ سَلْمَان ﷺ: أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: «مَنْ مَاتَ مُرَابِطاً فِي سَبِيلِ اللهِ أُومِنَ عَذَابَ الْقبرِ، وَنَمَا لَهُ أَجْرُهُ إِلَى يَوْمِ الْقِيَامَةِ».

441. Salman ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Kim Allah yolunda sərhədin keşiyini çəkərək ölərsə, qəbir əzabından arxayın olar və Qiyamət gününədək onun mükafatı artırılar".[595]

٤٤٢ - حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُنْكَدِرِ قَالَ مَرَّ سَلْمَانُ الْفَارِسِيُّ ﷺ بِشُرَحْبِيلَ بْنِ السِّمْطِ وَهُوَ فِى مُرَابِطٍ لَهُ وَقَدْ شَقَّ عَلَيْهِ وَعَلَى أَصْحَابِهِ قَالَ أَلاَ أُحَدِّثُكَ يَا ابْنَ السِّمْطِ بِحَدِيثٍ سَمِعْتُهُ مِنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ بَلَى. قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «رِبَاطُ يَوْمٍ فِى سَبِيلِ اللَّهِ أَفْضَلُ وَرُبَّمَا قَالَ خَيْرٌ مِنْ صِيَامِ شَهْرٍ وَقِيَامِهِ وَمَنْ مَاتَ فِيهِ وُقِىَ فِتْنَةَ الْقَبْرِ وَنُمِّىَ لَهُ عَمَلُهُ إِلَى يَوْمِ الْقِيَامَةِ».

442. Salman əl-Farisi ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Allah yolunda bir gün sərhəddə keşik çəkmək bir ay oruc tutmaq və gecələri namazla keçirməkdən daha xeyirlidir. Kim də keşik çəkərkən ölsə, qəbir fitnəsindən qorunar və əməli Qiyamətə qədər artırılar".[596]

٤٤٣ - عَنْ سَلْمَانَ الْخَيْرِ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ قَالَ :«مَنْ رَابَطَ يَوْماً وَلَيْلَةً فِي سَبِيلِ اللهِ، كَانَ لَهُ كَأَجْرِ صِيَامِ شَهْرٍ وَقِيَامِهِ، وَمَنْ مَاتَ مُرَابِطاً أُجْرِىَ لَهُ مِثْلُ ذَلِكَ الأَجْرِ، وَأُجْرِىَ عَلَيْهِ الرِّزْقُ، وَأَمِنَ مِنَ الْفَتَّانِ».

443. Salman əl-Xeyr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Kim Allah yolunda sərhəddə bir gün, bir gecə keşik çəkərsə, bir ay oruc tutmuş və bir ay namaz qılmış kimi savab qazanar. Kim də keşik çəkərkən ölərsə, eyni savabı qazanar, Allah ona ruzi verər və o, qəbir fitnəsindən əmin olar".[597]

٤٤٤ - سَمِعَ فَضَالَةَ بْنَ عُبَيْدٍ ﷺ يُحَدِّثُ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ «كُلُّ مَيِّتٍ يُخْتَمُ عَلَى عَمَلِهِ إِلاَّ الَّذِى مَاتَ مُرَابِطًا فِى سَبِيلِ اللَّهِ فَإِنَّهُ يُنْمَى لَهُ عَمَلُهُ إِلَى يَوْمِ الْقِيَامَةِ وَيَأْمَنُ مِنْ فِتْنَةِ الْقَبْرِ». وَسَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «الْمُجَاهِدُ مَنْ جَاهَدَ نَفْسَهُ».

444. Fədalə ibn Ubeyd[598] ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və

---

[595] İbn Hibban, 4606. əl-Albani səhih olduğunu bildirmişdir.
[596] ət-Tirmizi, 1665, 1766. əl-Albani səhih olduğunu bildirmişdir.
[597] ən-Nəsəi, 3167, 3180. əl-Albani səhih olduğunu bildirmişdir.
[598] Fədalə ibn Ubeyd ibn Nəfiz ibn Qeys əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 53-cü ilində vəfat etmişdir.

səlləm buyurdu: “Allah yolunda sərhəddə keşik çəkərkən öləndən başqa hər bir ölünün əməli kəsilir. Onun əməli Qiyamətə qədər artırılır və o, qəbir fitnəsindən arxayın olur”. Həmçinin, Allah Elçisinin sallәllahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: “Mücahid nəfsi ilə cihad edəndir”.[599]

ŞƏHİDLƏRİN AĞASI

٤٤٥ - عَنْ جَابِرٍ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ سَيِّد الشُّهَدَاءِ حَمْزَةُ بْنُ عَبْدِ الْمُطَّلِبِ، وَرَجُلٌ قَامَ إِلَى إِمَامٍ جَائِرٍ فَأَمَرَهُ وَنَهَاهُ فَقَتَلَهُ

445. Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm buyurmuşdur: “Şəhidlərin ağası - Abdulmuttalibin oğlu Həmzə və zalım rəhbərin yanına gedib, ona yaxşılığı əmr edərək və pis işlərdən çəkindirərək öldürülən kişidir”.[600]

ŞƏHİDLİK BORCDAN BAŞQA BÜTÜN GÜNAHLARA KƏFFARƏDİR

٤٤٦ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ «الْقَتْلُ فِى سَبِيلِ اللَّهِ يُكَفِّرُ كُلَّ شَىْءٍ إِلاَّ الدَّيْنَ».

446. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm demişdir: “Allah yolunda öldürülmək borcdan başqa bütün günahlara kəffarədir”.[601]

ŞƏHİDLƏR TƏKCƏ DÖYÜŞ MEYDANINDA ÖLDÜRÜLƏNLƏR DEYİL

٤٤٧ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ «مَا تَقُولُونَ فِى الشَّهِيدِ فِيكُمْ». قَالُوا الْقَتْلُ فِى سَبِيلِ اللَّهِ. قَالَ «إِنَّ شُهَدَاءَ أُمَّتِى إِذًا لَقَلِيلٌ مَنْ قُتِلَ فِى سَبِيلِ اللَّهِ فَهُوَ شَهِيدٌ وَمَنْ مَاتَ فِى سَبِيلِ اللَّهِ فَهُوَ شَهِيدٌ وَالْمَبْطُونُ شَهِيدٌ وَالْمَطْعُونُ شَهِيدٌ».

447. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurdu: “Aranızda şəhid olanlar haqqında nə deyirsiniz?” Dedilər: “Şəhidlər Allah yolunda öldürülənlərdir”. O buyurdu: “Elə olduqda, həqi-

---

[599] ət-Tirmizi, 1621, 1721. əl-Albani səhih olduğunu bildirmişdir.
[600] əl-Hakim, 4884. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 3675) həsən olduğunu qeyd etmişdir.
[601] Muslim, 4992.

qətən, ümmətimin şəhidləri azdır; Allah yolunda öldürülən şəhiddir, Allah yolunda ölən şəhiddir, qarın xəstəliyindən ölən şəhiddir, vəba xəstəliyindən ölən şəhiddir".[602]

٤٤٨ - عَنْ رَاشِدِ بْنِ حُبَيْشٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ الْقَتْلُ فِي سَبِيلِ اللهِ شَهَادَةٌ، وَالطَّاعُونُ شَهَادَةٌ، وَالْغَرَقُ شَهَادَةٌ، وَالْبَطْنُ شَهَادَةٌ، وَالحَرقُ شَهَادَةٌ، وَالسَّيْلُ وَالنُّفَسَاءُ يَجُرُّهَا وَلَدُهَا بِسَرَرِهَا إِلَى الجَنَّةِ

448. Raşid ibn Hubeyş ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Allah yolunda öldürülmək şəhidlikdir, taundan ölmək şəhidlikdir, boğularaq ölmək şəhidlikdir, qarın xəstəliyindən ölmək şəhidlikdir, yanaraq ölmək şəhidlikdir, seldə boğulmaq şəhidlikdir. Doğuş zamanı ölən qadını isə uşağı cifti ilə Cənnətə sürükləyər".[603]

٤٤٩ - عَنْ رَبِيعٍ الأَنْصَارِيِّ ﷺ أَنّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: الطَّعْنُ وَالطَّاعُونُ وَالهَدْمُ وأَكْلُ السَّبُعِ وَالْغَرَقُ وَالحَرَقُ وَالْبَطْنُ وَذَاتُ الجَنْبِ شَهَادَةٌ

449. Rabi əl-Ənsari ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Bədəni (hər hansı bir dəmirlə) deşilərək ölmək, taundan ölmək, dağıntı altında qalaraq ölmək, vəhşi heyvan tərəfindən parçalanaraq ölmək, boğularaq ölmək, yanaraq ölmək, qarın xəstəliyindən ölmək, ağ ciyər iltihabından ölmək şəhidlikdir".[604]

٤٥٠ - عَنْ رَبِيعٍ الأَنْصَارِيِّ ﷺ أَنّ رَسُولَ اللَّهِ ﷺ عَادَ ابْنَ أَخِي جَبْرَ الأَنْصَارِيَّ ﷺ فَجَعَلَ أَهْلُهُ يَبْكُونَ عَلَيْهِ، فَقَالَ لَهُمْ جَبْرٌ: لا تُؤْذُوا رَسُولَ اللَّهِ ﷺ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: دَعْهُنَّ فَلْيَبْكِينَ مَا دَامَ حَيًّا، فَإِذَا وَجَبَ فَلْيَسْكُتْنَ، فَقَالَ بَعْضُهُمْ: مَا كُنَّا نَرَى أَنْ يَكُونَ مَوْتُكَ عَلَى فِرَاشِكَ، حَتَّى تُقْتَلَ فِي سَبِيلِ اللَّهِ، مَعَ رَسُولِ اللَّهِ ﷺ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: أَوَ مَا الشَّهَادَةُ إِلَّا فِي الْقَتْلِ فِي سَبِيلِ اللَّهِ؟ إِنَّ شُهَدَاءَ أُمَّتِي إِذَنْ لَقَلِيلٌ، إِنَّ الطَّعْنَ وَالطَّاعُونَ شَهَادَةٌ، وَالْبَطْنَ شَهَادَةٌ، وَالنُّفَسَاءَ بِجُمْعٍ شَهَادَةٌ، وَالْحَرَقُ شَهَادَةٌ، وَالْغَرَقُ شَهَادَةٌ، وَالْهَدْمُ شَهَادَةٌ، وذَاتَ الْجَنَبِ شَهَادَةٌ.

450. Rabi əl-Ənsari ﷺ demişdir: "Qardaşım oğlu Cəbr əl-Ənsari ölümcül xəstə olarkən Allah Elçisi sallәllahu aleyhi və sәllәm onu ziyarət etdi. Cəbrin ailəsi ona görə ağlayırdılar. Cəbr onlara dedi: "Allah Elçisinə əziyyət

---

602 İbn Məcə, 2804, 2810. əl-Albani səhih olduğunu söyləmişdir.

603 Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 6177, 8538. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4439) həsən olduğunu bildirmişdir.

604 Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 7585. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3953) səhih olduğunu bildirmişdir.

verməyin!" Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Onlarla işin olmasın, nə qədər ki, sağsan, qoy ağlasınlar. Ölüm anı gəldikdə isə sakit olsunlar". Onun ailə üzvlərindən bəziləri dedi: "Biz sənin Allah Elçisi sallәllahu aleyhi və sәllәm ilə cihadda öldürülməyindən əvvəl yatağında ölməyini istəməzdik". Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Şəhidlik yalnız cihadda ölmək deyildir. Belə olsaydı ümmətmin şəhidləri az olardı. Həqiqətən, bədəni (hər hansı bir dəmirlə) deşilərək ölmək və taundan ölmək şəhidlikdir, qarın xəstəliyindən ölmək şəhidlikdir, doğuş zamanı ölmək bütün qadınlara şəhidlikdir, yanaraq ölmək şəhidlikdir, boğularaq ölmək şəhidlikdir, dağıntı altında qalaraq ölmək şəhidlikdir, ağ ciyər iltihabından ölmək şəhidlikdir".[605]

٤٥١ - عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: القتل في سبيل الله شهادة وَالطَّاعُونُ شَهَادَةٌ وَالْبَطْنُ شَهَادَةٌ وَالْغَرَقُ شَهَادَةٌ وَالنُّفَسَاءُ شَهَادَةٌ

451. Ubədə ibn Samit ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Allah yolunda öldürülmək, vəbadan, qarın xəstəliyindən, boğularaq və doğuş zamanı ölmək şəhidlikdir".[606]

٤٥٢ - عَنْ سَعِيدِ بْنِ زَيْدٍ ﷺ اَلَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ قُتِلَ دُونَ مَالِهِ فَهُوَ شَهِيدٌ وَمَنْ قُتِلَ دُونَ دِينِهِ فَهُوَ شَهِيدٌ وَمَنْ قُتِلَ دُونَ دَمِهِ فَهُوَ شَهِيدٌ وَمَنْ قُتِلَ دُونَ أَهْلِهِ فَهُوَ شَهِيدٌ».

452. Səid ibn Zeyd ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim malını qoruyaraq öldürülsə, şəhiddir. Kim dininə görə öldürülsə, şəhiddir. Kim canını müdafiə edərkən öldürülsə, şəhiddir. Kim ailəsini müdafiə edərkən öldürülsə, şəhiddir".[607]

٤٥٣ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ «مَنْ قُتِلَ دُونَ مَظْلَمَتِهِ فَهُوَ شَهِيدٌ».

453. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim haqsız yerə öldürülsə, şəhiddir".[608]

---

[605] ət-Tabərani "Mucəmul-Kəbir" 4472, 4607. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1395) səhih liğeyrihi olduğunu bildirmişdir.

[606] ət-Tabərani "Mucəmul-Kəbir" 7176; Əhməd 7745, 8078, 8092. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4438) səhih olduğunu söyləmişdir.

[607] ət-Tirmizi, 1421, 1485. əl-Albani səhih olduğunu bildirmişdir.

[608] Əhməd, 2780, 2832. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6447) səhih olduğunu söyləmişdir.

٤٥٤ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ جَاءَ رَجُلٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ يَا رَسُولَ اللَّهِ أَرَأَيْتَ إِنْ جَاءَ رَجُلٌ يُرِيدُ أَخْذَ مَالِى قَالَ «فَلاَ تُعْطِهِ مَالَكَ». قَالَ أَرَأَيْتَ إِنْ قَاتَلَنِى قَالَ «قَاتِلْهُ». قَالَ أَرَأَيْتَ إِنْ قَتَلَنِى قَالَ «فَأَنْتَ شَهِيدٌ». قَالَ أَرَأَيْتَ إِنْ قَتَلْتُهُ قَالَ «هُوَ فِى النَّارِ».

454. Əbu Hureyra ﷺ rəvayət edir ki, bir kişi Allah Elçisinin sallәllahu aleyhi və sәllәm yanına gəlib dedi: "Ey Allahın Elçisi, əgər bir nəfər mənim malımı əlimdən almaq istəsə, mən nə edim?" O buyurdu: "Malını ona vermə!" Kişi dedi: "Birdən müqavimət göstərsə?" O buyurdu: "Sən də ona müqavimət göstər". Kişi dedi: "Əgər o, məni öldürsə?" O buyurdu: "Belə olan halda sən şəhid olarsan". Kişi dedi: "Əgər birdən mən onu öldürsəm?" Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "O, Cəhənnəmlik olar".[609]

[609] Muslim, 377.

QURAN

ALLAHA YAXIN OLANLAR

٤٥٥ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ لِلهِ أَهْلِينَ مِنَ النَّاسِ». قَالُوا: يَا رَسُوْلَ اللهِ! مَنْ هُمْ؟ قَالَ: «هُمْ أَهْلُ الْقُرآنِ، أَهْلُ اللهِ وَخَاصَّتُهُ».

455. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Həqiqətən, insanlar arasında Allaha yaxın insanlar vardır". Dedilər: "Ey Allahın Elçisi! Onlar kimlərdir?" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Onlar Quran əhli, Allaha yaxın insanlar və Onun xüsusi qullarıdır".[610]

QURANA MÖHKƏM SARILIN

٤٥٦ - عَنْ أَبِي شُرَيْحٍ الْخُزَاعِيِّ ﷺ قَالَ: خَرَجَ عَلَيْنَا رَسُولُ اللَّهِ ﷺ فَقَالَ: أَبْشِرُوا، أَلَيْسَ تَشْهَدُونَ أَنْ لا إِلَهَ إِلا اللَّهُ وَأَنِّي رَسُولُ اللَّهِ؟ قَالُوا: بَلَى، قَالَ: إِنَّ هَذَا الْقُرْآنَ سَبَبٌ طَرَفَهُ بِيَدِ اللَّهِ، وَطَرَفَهُ بِأَيْدِيكُمْ فَتَمَسَّكُوا بِهِ فَإِنَّكُمْ لَنْ تَضِلُّوا، وَلَنْ تَهْلَكُوا بَعْدَهُ أَبَدًا.

456. Əbu Şureyh əl-Xuzai ﷺ demişdir: "Allah Elçisi sallallahu aleyhi və səlləm yanımıza gələrək buyurdu: "Sizə müjdə olsun! Məgər siz Allahdan başqa haqq ilah olmadığına və mənim Allahın Elçisi olduğuna şahidlik etmirsiniz?" Onlar: "Bəli"- deyə cavab verdilər. O buyurdu: "Həqiqətən, bu Quranın bir tərəfi Allahın Əlində, o biri tərəfi isə sizin əlinizdə olan bir ipdir, elə isə ondan möhkəm tutun! (Belə etsəniz) heç vaxt yolunuzu azmaz və həlak olmazsınız".[611]

٤٥٧ - عَنْ عَبْدِ اللهِ بْنِ مَسْعُودٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «الْقُرْآنُ شَافِعٌ مُشَفَّعٌ ، وَمَاحِلٌ مُصَدَّقٌ، مَنْ جَعَلَهُ أَمَامَهُ قَادَهُ إِلَى الْجَنَّةِ، وَمَنْ جَعَلَهُ خَلفَهُ سَاقَهُ إِلَى النَّارِ».

457. Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Quran şəfaət edən, şəfaəti qəbul olunan və (onu əməl etməyənlərin) əleyhinə şahidlik edəndir və şahidliyi təsdiqlənəndir. Kim (Quranı) özünə rəhbər tutarsa, onu Cənnətə aparar. Kim də ona arxa çevirərsə, onu Cəhənnəmə aparar".[612]

---

[610] İbn Məcə, 215, 220. əl-Albani səhih olduğunu bildirmişdir.

[611] ət-Təbərani "Mucəmul-Kəbir" 491, 17941. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 38) səhih olduğunu bildirmişdir.

[612] ət-Təbərani "Mucəmul-Kəbir" 8655, 10450; İbn Hibban 124. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4443) səhih olduğunu bildirmişdir.

ÜMMƏTİN ƏN ŞƏRƏFLİLƏRİ

٤٥٨ - عَنِ ابْنِ عَبَّاسٍ ﵄ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: "أَشْرَافُ أُمَّتِي حَمَلَةُ الْقُرْآنِ وَأَصْحَابُ اللَّيْلِ"

458. İbn Abbas ﵄ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Ümmətimin ən şərəfliləri Quran hafizləri və gecə ibadət edənlərdir".[613]

QURAN HAFİZİ

٤٥٩ - عَنْ عَائِشَةَ ﵂ عَنْ النَّبِيِّ ﷺ قَالَ مَثَلُ الَّذِي يَقْرَأُ الْقُرْآنَ وَهُوَ حَافِظٌ لَهُ مَعَ السَّفَرَةِ الْكِرَامِ الْبَرَرَةِ وَمَثَلُ الَّذِي يَقْرَأُ وَهُوَ يَتَعَاهَدُهُ وَهُوَ عَلَيْهِ شَدِيدٌ فَلَهُ أَجْرَانِ.

459. Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Quran oxuyan və onu əzbərdən bilən adam möhtərəm və müti (mələklərlə) eyni dərəcədədir. Çətinlik çəkə-çəkə daim Quran oxuyan adam isə iki savab qazanır".[614]

٤٦٠ - عن الأشعري ﵁ قال إن من إجلال الله إكرام ذي الشيبة المسلم وحامل الغالى فيه ولا الجافى عنه وإكرام ذي السلطان المقسط

460. Əşari ﵁ demişdir: "Ağsaqqal müsəlmana və əzbərlədiyi Quranda ifrata varmayan, ona laqeyd yanaşmayan hafizə ehtiram göstərmək, habelə ədalətli ixtiyar sahibinə hörmət etmək Allahı uca tutmaq deməkdir".[615]

QURANI SƏSİNİZ İLƏ BƏZƏYİN

٤٦١ - عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ ﵁ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «زَيِّنُوا الْقُرْآنَ بِأَصْوَاتِكُمْ».

461. Bəra ibn Azib ﵁ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Quranı səsiniz ilə bəzəyin".[616]

---

[613] əl-Beyhəqi "Şuabul-İman" 2447, 2977. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 628) səhih olduğunu bildirmişdir.
[614] əl-Buxari, 4937; Muslim, 798.
[615] əl-Buxari "Ədəbul-Mufrad" 357. əl-Albani həsən olduğunu bildirmişdir.
[616] Əbu Davud, 1470. əl-Albani səhih olduğunu bildirmişdir.

QURANDAN BACARDIĞINIZI ƏZBƏRLƏYİN

٤٦٢ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «يُقَالُ لِصَاحِبِ الْقُرْآنِ اقْرَأْ وَارْتَقِ وَرَتِّلْ كَمَا كُنْتَ تُرَتِّلُ فِي الدُّنْيَا فَإِنَّ مَنْزِلَكَ عِنْدَ آخِرِ آيَةٍ تَقْرَؤُهَا».

462. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurdu: "(Qiyamət günü) Quran oxuyana belə deyiləcək: "Oxu və yüksəl! Dünyada oxuduğun kimi aramla oxu! Həqiqətən, sənin məqamın oxuyacağın son ayəyə qədər (yüksəldiyin yerdədir)".[617]

٤٦٣ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «يُقَالُ لِصَاحِبِ الْقُرآن إِذَا دَخَلَ الْجَنَّة: اقْرَأْ وَاصْعَد، فَيَقْرأ وَيَصْعَد بِكُلِّ آيَة دَرَجَة حَتَّى يَقْرَأ آخِرَ شَيء مَعَهُ».

463. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Cənnətə girəcəyi zaman Quran əhlinə deyiləcək: "Oxu və yüksəl!" O oxumağa başlayacaq və Qurandan bildiyini oxuyub qurtarana qədər hər ayəyə görə bir dərəcə yüksələcəkdir".[618]

HƏR HƏRFƏ GÖRƏ ON SAVAB

٤٦٤ - عَنْ عَبْدِ اللهِ بْنِ مَسْعُودٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «اقْرَؤُا الْقُرْآن فَإِنَّكُم تُؤْجَرُونَ عَلَيْهِ، وَكُل حَرْفٍ عَشْرُ حَسَنَاتٍ، أَمَا إِنِّي لاَ أَقُولُ ﴿الم﴾ حَرْف وَلَكِنْ أَلِفٌ عَشْر وَلاَمٌ عَشْرٌ وَمِيْمٌ عَشْرٌ فَتِلْكَ ثَلاَثُونَ».

464. Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Quran oxuyun! Həqiqətən, siz ona görə mükafat alacaqsınız. Hər hərfə görə on savab vardır. Mən demirəm ki, "әlif, ləm, mim" bir hərfdir, lakin "әlif" on, "ləm" on, "mim" on, bunların hamısı isə otuz savabdır".[619]

QURAN OXUYAN İLƏ OXUMAYANIN MİSALI

٤٦٥ - عَنْ أَبِي مُوسَى ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ: الْمُؤْمِنُ الَّذِي يَقْرَأُ الْقُرْآنَ وَيَعْمَلُ بِهِ كَالأُتْرُجَّةِ طَعْمُهَا طَيِّبٌ وَرِيحُهَا

---

[617] Əbu Davud, 1464, 1466. əl-Albani səhih olduğunu bildirmişdir.
[618] İbn Məcə, 3780, 3912. əl-Albani səhih olduğunu bildirmişdir.
[619] Xatib əl-Bağdadi "Tarixu Bağdad" 1/ 286. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1164) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 660) səhih olduğunu bildirmişdir.

طَيِّبٌ وَالْمُؤْمِنُ الَّذِي لاَ يَقْرَأُ الْقُرْآنَ وَيَعْمَلُ بِهِ كَالتَّمْرَةِ طَعْمُهَا طَيِّبٌ وَلاَ رِيحَ لَهَا وَمَثَلُ الْمُنَافِقِ الَّذِي يَقْرَأُ الْقُرْآنَ كَالرَّيْحَانَةِ رِيحُهَا طَيِّبٌ وَطَعْمُهَا مُرٌّ وَمَثَلُ الْمُنَافِقِ الَّذِي لاَ يَقْرَأُ الْقُرْآنَ كَالْحَنْظَلَةِ طَعْمُهَا مُرٌّ أَوْ خَبِيثٌ وَرِيحُهَا مُرٌّ.

465. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Quran oxuyan və ona əməl edən mömin turunca[620] bənzəyir, onun dadı da xoşdur, iyi də. Quran oxumayan, amma ona əməl edən mömin xurmaya bənzəyir, onun dadı gözəldir, amma iyi yoxdur. Quran oxuyan münafiqin məsəli reyhan bitkisinə bənzəyir, onun iyi gözəl olsa da, dadı acıdır. Quran oxumayan münafiqin məsəli acı qovuna bənzəyir, onun iyi xoşagəlməzdir, dadı da acıdır".[621]

٤٦٦ - عَنْ عَبْدِ اللَّهِ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ بِئْسَ مَا لأَحَدِهِمْ أَنْ يَقُولَ نَسِيتُ آيَةَ كَيْتَ وَكَيْتَ بَلْ نُسِّيَ وَاسْتَذْكِرُوا الْقُرْآنَ فَإِنَّهُ أَشَدُّ تَفَصِّيًا مِنْ صُدُورِ الرِّجَالِ مِنْ النَّعَمِ.

466. Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Birinizin: "Filan və filan ayəni unutmuşam"- deməsi necə də pisdir! Əksinə, bu ona unutdurulmuşdur. Elə isə Quranı öyrənməyə davam edin! Çünki, o, (kəndirdən qırılıb qaçan) heyvandan daha tez insanların qəlbindən ayrılır".[622]

ÖVLADI QURAN OXUYAN VALİDEYNLƏRİN FƏZİLƏTİ

٤٦٧ - عَنْ بُرَيْدَةَ الأَسْلَمِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ قَرَأَ الْقُرْآنَ وَتَعَلَّمَهُ وَعَمِلَ بِهِ أُلْبِسَ يَوْمَ الْقِيَامَةِ تَاجًا مِنْ نُورٍ ضَوْءُهُ مِثْلُ ضَوْءِ الشَّمْسِ، وَيُكْسَى وَالِدَيْهِ حُلَّتَانِ لاَ يَقُومُ بِهِمَا الدُّنْيَا فَيَقُولاَنِ: بِمَا كُسِينَا؟ فَيُقَالُ: بِأَخْذِ وَلَدِكُمَا الْقُرْآنَ.

467. Bureydə əl-Əsləmi ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Kim Quran oxuyar, öyrənər və əməl edərsə, Qiyamət günü onun valideynlərinin başlarına nurdan tac qoyulacaq. Onun işığı günəşin işığı kimi olacaq. Həmçinin, onun valideynlərinə dünyada oxşarı olmayan iki paltar geyindiriləcək. Onlar deyəcəklər: "Nəyə görə bu bizə geyindirildi?" Onlara deyiləcək: "Oğlunuzun Qurana möhkəm sarıldığına görə".[623]

---

620 Xoşiyli sitrus meyvəsi.

621 əl-Buxari, 5059; Muslim, 797.

622 əl-Buxari, 5032, Muslim, 790, ət-Tirmizi, 2942.

623 əl-Hakim, 2086. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1434) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

ALLAHI ﷻ VƏ ONUN ELÇİSİNİ SALLƏLLAHU ALEYHI VƏ SƏLLƏM SEVMƏK QURAN OXUMAQLA BAĞLIDIR

٤٦٨ - عَنِ ابْنِ مَسْعُودٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ سَرَّهُ أَنْ يُحِبَّ اللهَ وَرَسُولَهُ فَلْيَقْرَأْ فِي الْمُصْحَفِ».

468. İbn Məsud ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kimi Allahı və Onun Elçisini sevmək sevindirirsə, qoy Quran oxusun".[624]

QİYAMƏT GÜNÜ QURAN ŞƏFAƏT EDƏCƏK

٤٦٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «الصِّيَامُ وَالْقُرْآنُ يَشْفَعَانِ لِلْعَبْدِ يَوْمَ الْقِيَامَةِ، يَقُولُ الصِّيامُ: أَيْ رَبِّ مَنَعْتُهُ الطَّعَامَ وَالشَّهَوَاتِ بِالنَّهَارِ فَشَفِّعْنِي فِيهِ، وَيَقُولُ الْقُرْآنُ: مَنَعْتُهُ النَّومَ بِاللَّيْلِ فَشَفِّعْنِي فِيهِ، قَالَ: فَيُشَفَّعَانِ».

469. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Oruc və Quran Qiyamət günü qula şəfaət edəcəkdir. Oruc deyəcək: "Ya Rəbb! Mən gündüz onu yemək və şəhvətdən çəkindirdim, məni ona şəfaətçi təyin et!" Quran isə deyəcək: "Mən gecə onun yatmağına mane oldum, məni ona şəfaətçi təyin et!" Beləliklə, onlar şəfaət edəcəklər".[625]

٤٧٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «يَجِيءُ الْقُرْآنُ يَوْمَ الْقِيَامَةِ فَيَقُولُ يَا رَبِّ حَلِّهِ فَيُلْبَسُ تَاجَ الْكَرَامَةِ ثُمَّ يَقُولُ يَا رَبِّ زِدْهُ فَيُلْبَسُ حُلَّةَ الْكَرَامَةِ ثُمَّ يَقُولُ يَا رَبِّ ارْضَ عَنْهُ فَيَرْضَى عَنْهُ فَيُقَالُ لَهُ اقْرَأْ وَارْقَ وَتُزَادُ بِكُلِّ آيَةٍ حَسَنَةً».

470. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Qiyamət günü Quran gəlib belə deyəcək: "Ey Rəbbim! Ona kəramət tacı geyindirərək bəzə!" Sonra belə deyəcək: "Ey Rəbbim! (Ona olan nemətini) artır!" Ona kəramət bəzəyi geyindiriləcək, sonra isə deyəcək: "Ey Rəbbim! Ondan razı ol!" Allah da ondan razı olacaq. Ona deyiləcək: "Oxu və yüksəl, beləcə hər ayəyə görə savabı artırılacaq".[626]

GİZLİ SƏDƏQƏ İLƏ AŞKAR OLAN SƏDƏQƏ

٤٧١ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «الْجَاهِرُ بِالْقُرْآنِ كَالْجَاهِرِ بِالصَّدَقَةِ وَالْمُسِرُّ بِالْقُرْآنِ

---

[624] Əbu Nueym "Hilyətul-Əuliyə" 7/ 209. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6289) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2342) həsən olduğunu bildirmişdir.

[625] Əhməd, 6626. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3882) və "Sahihut-Tərğib vət-Tərhib"də (№ 984, 1829) səhih olduğunu bildirmişdir.

[626] ət-Tirmizi, 2915, 3164. əl-Albani həsən olduğunu söyləmişdir.

كَالْمُسِرِّ بِالصَّدَقَةِ».

471. Uqbə bin Amir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Quranı səslə oxuyan açıq sədəqə verən, Quranı səssiz oxuyan isə gizli sədəqə verən kimidir".[627]

QURANI ÖYRƏNİN VƏ BAŞQALARINA ÖYRƏDİN

٤٧٢ - عَنْ عُثْمَانَ بْنِ عَفَّانَ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: إِنَّ أَفْضَلَكُمْ مَنْ تَعَلَّمَ الْقُرْآنَ وَعَلَّمَهُ.

472. Osman ibn Əffan ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: "Həqiqətən, sizin ən fəzilətliniz Quranı öyrənən və (başqalarına) öyrədəndir".[628]

BİR DƏRİDƏ CƏM EDİLƏN QURAN

٤٧٣ - عَنْ عِصْمَةَ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لَوْ جُمِعَ الْقُرْآنُ فِي إِهَابٍ مَا أَحْرَقَهُ اللهُ بِالنَّارِ».

473. İsmət ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Əgər Quran bir dəridə cəm edilərsə, Allah onu odda yandırmaz".[629]

KİMLƏRƏ HƏSƏD APARMAQ OLAR

٤٧٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ لاَ حَسَدَ إِلاَ فِي اثْنَتَيْنِ رَجُلٌ عَلَّمَهُ اللَّهُ الْقُرْآنَ فَهُوَ يَتْلُوهُ آنَاءَ اللَّيْلِ وَآنَاءَ النَّهَارِ فَسَمِعَهُ جَارٌ لَهُ فَقَالَ لَيْتَنِي أُوتِيتُ مِثْلَ مَا أُوتِيَ فُلاَنٌ فَعَمِلْتُ مِثْلَ مَا يَعْمَلُ وَرَجُلٌ آتَاهُ اللَّهُ مَالاً فَهُوَ يُهْلِكُهُ فِي الْحَقِّ فَقَالَ رَجُلٌ لَيْتَنِي أُوتِيتُ مِثْلَ مَا أُوتِيَ فُلاَنٌ فَعَمِلْتُ مِثْلَ مَا يَعْمَلُ.

474. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Yalnız iki şəxsə həsəd aparmaq olar; o şəxsə ki, Allah ona Quranı öyrətmiş, o da onu gecə-gündüz oxuyur. Qonşusu bunu eşidib deyər: "Kaş ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim". Bir də o şəxsə ki, Allah ona var-dövlət bəxş etmiş, o da onu Allah

---

627 ət-Tirmizi, 2919, 3169. əl-Albani bu hədisin səhih olduğunu bildirmişdir.

628 əl-Buxari, 5028.

629 Yəni, Quran bir insanın qəlbində cəm olarsa, Allah ona əzab verməz. ət-Tabərani "Mucəmul-Kəbir" 13934. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5266) həsən olduğunu bildirmişdir.

yolunda lazımi yerlərə xərcləyir. Onu görən adam deyər: "Kaş ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim".[630]

YATMAZDAN ƏVVƏL QURAN OXUYA BİLMƏYƏN

٤٧٥ - سَمِعْتُ عُمَرَ بْنَ الْخَطَّابِ ﷺ يَقُولُا قَالَ رَسُولُ اللَّهِ ﷺ مَنْ نَامَ عَنْ حِزْبِهِ أَوْ عَنْ شَيْءٍ مِنْهُ فَقَرَأَهُ فِيمَا بَيْنَ صَلَاةِ الْفَجْرِ وَصَلَاةِ الظُّهْرِ كُتِبَ لَهُ كَأَنَّمَا قَرَأَهُ مِنْ اللَّيْلِ

475. Ömər ibn əl-Xəttab ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim Qurandan bir hizb (hissə) və ya bir şey oxumadan yatar, (ertəsi gün) Sübh və Zöhr namazları arasında oxuyarsa, bu onun üçün gecə yatmazdan əvvəl oxumuş kimi savab yazılar".[631]

İLK YEDDİ SURƏ

٤٧٦ - عَنْ عَائِشَةَ ﵂ : أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ أَحَذَ السَّبْعَ الأُوَل مِنَ الْقُرْآنِ فَهُوَ حَبْرٌ».

476. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Quranın ilk yeddi surəsini əzbərləyən alimdir".[632]

QƏBUL OLUNAN ADLA EDİLƏN DUA

٤٧٧ - عَنْ الْقَاسِمِ قَالَ اسْمُ اللَّهِ الْأَعْظَمُ الَّذِي إِذَا دُعِيَ بِهِ أَجَابَ فِي سُوَرٍ ثَلَاثٍ الْبَقَرَةِ وَآلِ عِمْرَانَ وَطه. عَنْ أَبِي أُمَامَةَ ﷺ عَنْ النَّبِيِّ ﷺ نَحْوَهُ

477. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Dua edildikdə qəbul olunan, Allahın ən əzəmətli adı[633] Quranın üç surəsindədir; əl-Bəqərə, Ali-İmran və Taha".[634]

BÜTÜN SƏMAVİ KİTABLARI ƏHATƏ EDƏN KİTAB

٤٧٨ - عَنْ وَاثِلَةَ بْنِ الأَسْقَعِ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أُعطِيْتُ مَكَانَ التَّورَاة السَّبْع الطِوَال وَمَكَانَ الزَّبُورِ الْمِئِينَ

---

630 əl-Buxari, 5026.
631 Muslim, 747, 1236, 1779.
632 Əhməd, 24575. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2305) həsən olduğunu bildirmişdir.
633 Digər rəvayətlərdə Alahın əzəmətli adının "əl-Həyyul-Qayyum" olduğu aydınlaşdırılır. Bax; (əl-Bəqərə, 255; Ali-İmran, 1-2; Taha, 111).
634 İbn Məcə, 3856, 3988. əl-Albani həsən olduğunu bildirmişdir.

وَمَكَانَ الإِنْجِيلِ الْمَثَانِي وَفُضِّلتُ بِالْمُفَصَّلِ».

478. Vasilətu ibn əl-Əsqai[635] ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Mənə Tövratın yerinə yeddi böyük (əl-Bəqərə, Ali-İmran, ən-Nisa, əl-Maidə, əl-Ənam, əl-Əraf və əl-Kəhf surələri), Zəburun yerinə yüz (və daha çox ayədən ibarət olan surələr), İncilin yerinə əl-Məsəni (əl-Fatihə surəsi) verildi və mən müfəssəl (əl-Hucurat surəsindən Quranın axırına qədər olan) surələrlə üstün tutuldum".[636]

ƏL-FATİHƏ SURƏSİNİN FƏZİLƏTİ

٤٧٩ - عن أبي بن كعب ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «(يَقُولُ اللَّهُ تعالى): مَا فِي التَّوْرَاةِ وَلا فِي الْإِنْجِيلِ مِثْلَ أُمِّ الْقُرْآنِ وَهِيَ السَّبْعُ الْمَثَانِي وَهِيَ مَقْسُومَةٌ بَيْنِي وَبَيْنَ عَبْدِي وَلِعَبْدِي مَا سَأَلَ»

479. Ubeyy ibn Kəb ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "(Uca Allah buyurur): "Nə Tövratda, nə də İncildə Ummul-Qur-ana (Kitabın əsasına) bənzər surə yoxdur. O Səb'ul-Məsənidir (Yeddi təkrarlanan ayədir). O Mənimlə qulum arasında bölünüb. Quluma dilədiyi nə varsa veriləcəkdir".[637]

٤٨٠ - عَنْ أَبِي هُرَيْرَةَ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «قَالَ اللَّهُ ﷻ قَسَمْتُ الصَّلاَةَ بَيْنِى وَبَيْنَ عَبْدِى شَطْرَيْنِ فَنِصْفُهَا لِى وَنِصْفُهَا لِعَبْدِى وَلِعَبْدِى مَا سَأَلَ». قَالَ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «اقْرَءُوا يَقُولُ الْعَبْدُ ﴿**الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ**﴾ فَيَقُولُ اللَّهُ عَزَّ وَجَلَّ حَمِدَنِى عَبْدِى وَلِعَبْدِى مَا سَأَلَ. فَيَقُولُ ﴿**الرَّحْمَنِ الرَّحِيمِ**﴾ فَيَقُولُ أَثْنَى عَلَىَّ عَبْدِى وَلِعَبْدِى مَا سَأَلَ. يَقُولُ ﴿**مَالِكِ يَوْمِ الدِّينِ**﴾ فَيَقُولُ اللَّهُ مَجَّدَنِى عَبْدِى فَهَذَا لِى وَهَذِهِ الآيَةُ بَيْنِى وَبَيْنَ عَبْدِى نِصْفَيْنِ يَقُولُ الْعَبْدُ ﴿**إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ**﴾ يَعْنِى فَهَذِهِ بَيْنِى وَبَيْنَ عَبْدِى وَلِعَبْدِى مَا سَأَلَ وَآخِرُ السُّورَةِ لِعَبْدِى يَقُولُ الْعَبْدُ ﴿**اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلاَ الضَّالِّينَ**﴾ فَهَذَا لِعَبْدِى وَلِعَبْدِى مَا سَأَلَ».

480. Əbu Hureyra ﷺ demişdir: "Mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitdim: "Allah ﷻ buyurur: "Mən namazı Özümlə qulum arasında tən yarıya böldüm. Yarısı Mənim, yarısı isə qulumundur, quluma dilədiyi veriləcək". Qul: ***"Həmd olsun aləmlərin Rəbbi Allaha!"***- dedikdə,

---

[635] Vasilətu ibn əl-Əsqai ibn Kəb ibn Amir əl-Leysi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 83-cü ilində vəfat etmişdir.

[636] Əhməd, 17023; əl-Beyhəqi "Şuabul-İman" 2318. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1059) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1480) səhih olduğunu bildirmişdir.

[637] İbn Hibban, 775. Şueyb əl-Arnavut hədisin isnadını Muslimin şərtlərinə görə səhih saymışdır.

Allah: "Qulum Mənə həmd-səna etdi, quluma dilədiyi veriləcək"- deyir. O: ***"Mərhəmətli və Rəhmliyə"***- dedikdə, Allah: "Qulum Məni tərifladi, quluma dilədiyi veriləcək"- deyir. O: ***"Haqq-hesab gününün Hökmdarına!"***- dedikdə, Allah: "Qulum Mənim şənimə tərifləri söylədi. Bu Mənim, bu ayə isə Mənimlə qulum arasında yarıya bölünüb"- deyir. O: ***"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik"***- dedikdə, Allah buyurur: "Bu, Mənimlə qulum arasındadır, quluma dilədiyi veriləcək. Surənin axırı qulumundur". Qul: ***"Bizi doğru yola, nemət bəxş etdiyin şəxslərin yoluna yönəlt, qəzəbə uğramışların və azmışların yoluna yox"***- dedikdə, Allah buyurur: "Bu, qulumundur, quluma dilədiyi veriləcək!"[638]

٤٨١ - عَنْ أَبِى سَعِيدِ بْنِ الْمُعَلَّى ﷺ قَالَ: كُنْتُ أُصَلِّى فِى الْمَسْجِدِ فَدَعَانِى رَسُولُ اللَّهِ ﷺ فَلَمْ أُجِبْهُ، فَقُلْتُ يَا رَسُولَ اللَّهِ إِنِّى كُنْتُ أُصَلِّى، فَقَالَ: «أَلَمْ يَقُلِ اللَّهُ: ﴿**اسْتَجِيبُوا لِلَّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُمْ لِمَا يُحْيِيكُمْ وَاعْلَمُوا**﴾ ثُمَّ قَالَ لِى: لأُعَلِّمَنَّكَ سُورَةً هِىَ أَعْظَمُ السُّوَرِ فِى الْقُرْآنِ قَبْلَ أَنْ تَخْرُجَ مِنَ الْمَسْجِدِ»، ثُمَّ أَخَذَ بِيَدِى ، فَلَمَّا أَرَادَ أَنْ يَخْرُجَ قُلْتُ لَهُ أَلَمْ تَقُلْ: «لأُعَلِّمَنَّكَ سُورَةً هِىَ أَعْظَمُ سُورَةٍ فِى الْقُرْآنِ»، قَالَ: ﴿**الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ**﴾ هِىَ السَّبْعُ الْمَثَانِى وَالْقُرْآنُ الْعَظِيمُ الَّذِى أُوتِيتُهُ».

481. Rəvayət edilir ki, Əbu Səid ibn əl-Muəlla ﷺ demişdir: "(Bir dəfə) mən məsciddə namaz qılarkən Peyğəmbər salləllahu aleyhi və səlləm məni çağırdı, lakin mən ona cavab vermədim. (Namazımı bitirdikdən) sonra dedim: "Ey Allahın Elçisi, mən namaz qılırdım!" Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Məgər Allah: ***"(Peyğəmbər) sizi, həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Onun Peyğəmbərinin çağırışına cavab verin"*** *(əl-Ənfal 24)* - deyə buyurmayıbmı?" Sonra o mənə dedi: "Məsciddən çıxmazdan əvvəl sənə Quranda olan ən əzəmətli surəni öyrədəcəyəm!" (Bir müddətdən) sonra Peyğəmbər salləllahu aleyhi və səlləm mənim əlimdən tutub məsciddən çıxmaq istəyəndə dedim: "Məgər sən deməmişdin ki: "Məsciddən çıxmazdan əvvəl sənə Quranda olan ən əzəmətli surəni öyrədəcəyəm?!" O buyurdu: ***"Həmd olsun aləmlərin Rəbbi Allaha..."*** *(əl-Fatihə surəsi).* Bu, yalnız mənə verilmiş təkrarlanan yeddi ayə və əzəmətli Qurandır[639]".[640]

٤٨٢ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ بَيْنَمَا جِبْرِيلُ قَاعِدٌ عِنْدَ النَّبِىِّ ﷺ سَمِعَ نَقِيضًا مِنْ فَوْقِهِ فَرَفَعَ رَأْسَهُ فَقَالَ هَذَا بَابٌ مِنَ

---

[638] İbn Məcə, 3784, 3916. əl-Albani səhih olduğunu bildirmişdir.

[639] Ərəbcə buna "Səbul-Məsəni" deyilir ki, bu da "əl-Fatihə" surəsinin adlarından biridir. "əl-Fatihə" surəsinin əzəməti ondadır ki, bu surə məna baxımından bütün Quranı özündə cəm etmişdir.

[640] əl-Buxari, 4474.

السَّمَاءِ فُتِحَ الْيَوْمَ لَمْ يُفْتَحْ قَطُّ إِلاَّ الْيَوْمَ فَنَزَلَ مِنْهُ مَلَكٌ فَقَالَ هَذَا مَلَكٌ نَزَلَ إِلَى الأَرْضِ لَمْ يَنْزِلْ قَطُّ إِلاَّ الْيَوْمَ فَسَلَّمَ وَقَالَ أَبْشِرْ بِنُورَيْنِ أُوتِيتَهُمَا لَمْ يُؤْتَهُمَا نَبِيٌّ قَبْلَكَ فَاتِحَةُ الْكِتَابِ وَخَوَاتِيمُ سُورَةِ الْبَقَرَةِ لَنْ تَقْرَأَ بِحَرْفٍ مِنْهُمَا إِلاَّ أُعْطِيتَهُ.

482. İbn Abbas ﷺ belə rəvayət edir: “Bir gün Cəbrail Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanında oturduğu zaman Peyğəmbər sallәllahu aleyhi və sәlləm yuxarıdan qapı səsinə oxşar bir səs eşitdi və başını qaldırdı. (Cəbrail) dedi: “Bu, göydə olan bir qapıdır, o, bu gün açıldı. (Bundan əvvəl) heç vaxt açılmayıb, yalnız bu gün açıldı. Bu zaman oradan bir mələk endi. (Cəbrail) dedi: “Bu yer üzünə enən bir mələkdir. Bu günə qədər yer üzərinə heç enməmişdir”. Mələk salam verdi və dedi: “Sənə verilən iki nur ilə müjdə olsun! Bu iki nur səndən əvvəl heç bir peyğəmbərə verilməmişdir. (Bu iki nur;) “əl-Fatihə” surəsi və “əl-Bəqərə” surəsinin son ayələridir. Onlardan oxuyacağın hər hərfə görə sənə (savab və duanın əvəzi) veriləcəkdir!”[641]

ƏL-BƏQƏRƏ SURƏSİNİN FƏZİLƏTİ

٤٨٣ - حَدَّثَنِى أَبُو أُمَامَةَ الْبَاهِلِىُّ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «اقْرَءُوا الْقُرْآنَ فَإِنَّهُ يَأْتِى يَوْمَ الْقِيَامَةِ شَفِيعًا لأَصْحَابِهِ اقْرَءُوا الزَّهْرَاوَيْنِ الْبَقَرَةَ وَسُورَةَ آلِ عِمْرَانَ فَإِنَّهُمَا تَأْتِيَانِ يَوْمَ الْقِيَامَةِ كَأَنَّهُمَا غَمَامَتَانِ أَوْ كَأَنَّهُمَا غَيَايَتَانِ أَوْ كَأَنَّهُمَا فِرْقَانِ مِنْ طَيْرٍ صَوَافَّ تُحَاجَّانِ عَنْ أَصْحَابِهِمَا اقْرَءُوا سُورَةَ الْبَقَرَةِ فَإِنَّ أَخْذَهَا بَرَكَةٌ وَتَرْكَهَا حَسْرَةٌ وَلاَ تَسْتَطِيعُهَا الْبَطَلَةُ».

483. Əbu Umamə əl-Bəhili ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: “Quran oxuyun! Həqiqətən, Quran Qiyamət günü onu oxuyanlara şəfaətçi olaraq gələcək. “Zəhraveyni” (iki çiçək) yəni “əl-Bəqərə” və “Ali-İmran” surələrini oxuyun! Həqiqətən, bu iki surə Qiyamət günü iki bulud və ya iki kölgə, və ya göydə qanadlarını açmış iki quş dəstəsi kimi gəlib oxucularını qoruyacaqdır. “əl-Bəqərə” surəsini oxuyun! Həqiqətən, onu oxumaq bərəkət, onu tərk etmək isə peşmançılıqdır! Sehr-bazların ona gücü çatmaz!”[642]

٤٨٤ - عَنْ عَبْدِ اللَّهِ ﷺ قَالَ رَسُولَ اللَّهِ ﷺ: اقْرَءُوا سُورَةَ الْبَقَرَةِ فِي بُيُوتِكُمْ، فَإِنَّ الشَّيْطَانَ لا يَدْخُلُ بَيْتًا يُقْرَأُ فِيهِ سُورَةُ الْبَقَرَةِ.

641 Muslim, 1913.
642 Muslim, 1337, 1910.

484. Abdullah ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Evlərinizdə "əl-Bəqərə" surəsini oxuyun! Şübhəsiz ki, şeytan "əl-Bəqərə" surəsi oxunan evə daxil olmaz".[643]

٤٨٥ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «لاَ تَجْعَلُوا بُيُوتَكُمْ مَقَابِرَ إِنَّ الشَّيْطَانَ يَنْفِرُ مِنَ الْبَيْتِ الَّذِى تُقْرَأُ فِيهِ سُورَةُ الْبَقَرَةِ».

485. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Evlərinizi qəbiristanlığa çevirməyin! Şübhəsiz ki, şeytan "əl-Bəqərə" surəsi oxunan evdən qaçar".[644]

KÜRSÜ AYƏSİNİN (ƏL-BƏQƏRƏ, 255) FƏZİLƏTİ

٤٨٦ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ وَكَّلَنِى رَسُولُ اللَّهِ ﷺ بِحِفْظِ زَكَاةِ رَمَضَانَ، فَأَتَانِى آتٍ فَجَعَلَ يَحْثُو مِنَ الطَّعَامِ، فَأَخَذْتُهُ، وَقُلْتُ وَاللَّهِ لأَرْفَعَنَّكَ إِلَى رَسُولِ اللَّهِ ﷺ. قَالَ إِنِّى مُحْتَاجٌ، وَعَلَىَّ عِيَالٌ، وَلِى حَاجَةٌ شَدِيدَةٌ. قَالَ فَخَلَّيْتُ عَنْهُ فَأَصْبَحْتُ فَقَالَ النَّبِىُّ ﷺ: «يَا أَبَا هُرَيْرَةَ مَا فَعَلَ أَسِيرُكَ الْبَارِحَةَ». قَالَ قُلْتُ يَا رَسُولَ اللَّهِ شَكَا حَاجَةً شَدِيدَةً وَعِيَالاً فَرَحِمْتُهُ، فَخَلَّيْتُ سَبِيلَهُ. قَالَ: «أَمَا إِنَّهُ قَدْ كَذَبَكَ وَسَيَعُودُ». فَعَرَفْتُ أَنَّهُ سَيَعُودُ لِقَوْلِ رَسُولِ اللَّهِ ﷺ إِنَّهُ سَيَعُودُ. فَرَصَدْتُهُ فَجَاءَ يَحْثُو مِنَ الطَّعَامِ فَأَخَذْتُهُ فَقُلْتُ لأَرْفَعَنَّكَ إِلَى رَسُولِ اللَّهِ ﷺ. قَالَ دَعْنِى فَإِنِّى مُحْتَاجٌ، وَعَلَىَّ عِيَالٌ لاَ أَعُودُ، فَرَحِمْتُهُ، فَخَلَّيْتُ سَبِيلَهُ فَأَصْبَحْتُ، فَقَالَ لِى رَسُولُ اللَّهِ ﷺ: «يَا أَبَا هُرَيْرَةَ، مَا فَعَلَ أَسِيرُكَ». قُلْتُ يَا رَسُولَ اللَّهِ شَكَا حَاجَةً شَدِيدَةً وَعِيَالاً، فَرَحِمْتُهُ فَخَلَّيْتُ سَبِيلَهُ. قَالَ: «أَمَا إِنَّهُ قَدْ كَذَبَكَ وَسَيَعُودُ». فَرَصَدْتُهُ الثَّالِثَةَ فَجَاءَ يَحْثُو مِنَ الطَّعَامِ، فَأَخَذْتُهُ فَقُلْتُ لأَرْفَعَنَّكَ إِلَى رَسُولِ اللَّهِ ﷺ، وَهَذَا آخِرُ ثَلاَثِ مَرَّاتٍ أَنَّكَ تَزْعُمُ لاَ تَعُودُ ثُمَّ تَعُودُ. قَالَ دَعْنِى أُعَلِّمْكَ كَلِمَاتٍ يَنْفَعُكَ اللَّهُ بِهَا. قُلْتُ مَا هُوَ قَالَ إِذَا أَوَيْتَ إِلَى فِرَاشِكَ فَاقْرَأْ آيَةَ الْكُرْسِىِّ ﴿**اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ**﴾ حَتَّى تَخْتِمَ الآيَةَ، فَإِنَّكَ لَنْ يَزَالَ عَلَيْكَ مِنَ اللَّهِ حَافِظٌ وَلاَ يَقْرَبَنَّكَ شَيْطَانٌ حَتَّى تُصْبِحَ. فَخَلَّيْتُ سَبِيلَهُ فَأَصْبَحْتُ، فَقَالَ لِى رَسُولُ اللَّهِ ﷺ: «مَا فَعَلَ أَسِيرُكَ الْبَارِحَةَ». قُلْتُ يَا رَسُولَ اللَّهِ زَعَمَ أَنَّهُ يُعَلِّمُنِى كَلِمَاتٍ، يَنْفَعُنِى اللَّهُ بِهَا، فَخَلَّيْتُ سَبِيلَهُ. قَالَ: «مَا هِىَ؟» قُلْتُ قَالَ لِى إِذَا أَوَيْتَ إِلَى فِرَاشِكَ فَاقْرَأْ آيَةَ الْكُرْسِىِّ مِنْ أَوَّلِهَا حَتَّى تَخْتِمَ ﴿**اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ**﴾ وَقَالَ لِى لَنْ يَزَالَ عَلَيْكَ مِنَ اللَّهِ حَافِظٌ وَلاَ يَقْرَبَكَ شَيْطَانٌ حَتَّى تُصْبِحَ، وَكَانُوا أَحْرَصَ شَىْءٍ عَلَى الْخَيْرِ. فَقَالَ النَّبِىُّ ﷺ: «أَمَا إِنَّهُ قَدْ صَدَقَكَ وَهُوَ كَذُوبٌ، تَعْلَمُ مَنْ تُخَاطِبُ مُنْذُ ثَلاَثِ لَيَالٍ يَا أَبَا هُرَيْرَةَ». قَالَ لاَ. قَالَ: «ذَاكَ شَيْطَانٌ».

486. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər sallallahu aleyhi və səlləm Ramazan ayında yığılmış zəkatı qoruyub saxlamağı

[643] əl-Hakim, 2062, 2063; ət-Tabərani "Mucəmul-Kəbir" 8643, 8564. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1170) səhih olduğunu bildirmişdir.
[644] Muslim, 1860 .

mənə tapşırdı. Bu əsnada bir nəfər yanıma gəldi və ərzaqdan ovuclayıb (qabına) yığmağa başladı. Mən onu yaxalayıb dedim: "Vallahi, mən səni mütləq Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına aparacağam". O yalvarıb: "Mən buna möhtacam, mənim külfətim var, özümün də (bu yeməyə) olduqca ehtiyacım var"- dedi, mən də onu buraxdım. Ertəsi gün Peyğəmbər sallәllahu aleyhi və sәlləm məndən soruşdu: "Ey Əbu Hureyra! Tutduğun əsir nə etdi?" Mən dedim: "Ey Allahın Elçisi! O (mənə) həm ehtiyaclı, həm də külfət sahibi olduğundan gileyləndi. Buna görə də mənim ona yazığım gəldi və onu buraxdım." Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "O sənə yalan danışıb və o yenə qayıdacaq". Mən bilirdim ki, o qayıdacaq, çünki Peyğəmbər sallәllahu aleyhi və sәlləm: "...o yenə qayıdacaq"- deyə xəbər vermişdi. Odur ki, pusquda durub onu gözlədim. O, yenə gəlib ərzaqdan ovuclayaraq (qabına) yığmağa başladı. Mən onu yaxalayıb dedim: "Səni hökmən Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına aparacağam". O yalvarıb dedi: "Burax məni! Doğrudan da, mən buna möhtacam və mənim külfətim var. (Söz verirəm ki,) bir daha (bura) qayıtmayacağam". Mənim ona yazığım gəldi və mən yenə onu buraxdım. Ertəsi gün Peyğəmbər sallәllahu aleyhi və sәlləm məndən soruşdu: "Ey Əbu Hureyra! Dünən tutduğun əsir nə etdi?" Mən dedim: "Ey Allahın Elçisi! O, (mənə) həm möhtac, həm də külfət sahibi olduğundan giley-güzar elədi. Buna görə də mənim ona yazığım gəldi və mən onu buraxdım". Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "O sənə yalan danışıb və o yenə qayıdacaq". Mən üçüncü dəfə pusquda dayanıb onu gözlədim. O, yenə gəlib ərzaqdan ovuclayaraq (qabına) yığmağa başladı. Mən onu yaxalayıb dedim: "Mən səni hökmən Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına aparacağam. Artıq üçüncü dəfədir ki, sən qayıtmayacağına söz verir, sonra da qayıdırsan". O yalvarıb dedi: "Məni buraxsan, sənə elə sözlər öyrədərəm ki, Allah onların vasitəsilə sənə fayda verər". Mən: "O nə sözdür?"- deyə soruşdum. O dedi: "Yatağına uzananda Kürsü - ***"Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur"*** *(əl-Bəqərə, 255)* - ayəsini axıra qədər oxu. Əgər bunu etsən, səhər yuxudan oyananadək sənin yanında Allahın təyin etdiyi gözətçi (bir mələk) durar və şeytan sənə yaxınlaşmaz". Mən yenə onu buraxdım. Səhəri gün Peyğəmbər sallәllahu aleyhi və sәlləm məndən soruşdu: "Dünən tutduğun əsir nə etdi?" Mən dedim: "Ey Allahın Elçisi! O, Allahın izni ilə mənə faydası olacaq sözlər öyrədəcəyini söylədi və mən də onu buraxdım". Peyğəmbər sallәllahu aleyhi və sәlləm: "Nədir o?" - deyə soruşdu. Mən dedim: "O mənə söylədi ki, yatağına uzananda Kürsü - ***"Allah, Ondan başqa ibadətə layiq olan məbud***

yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur"- ayəsini əvvəldən axıra qədər oxu. Əgər bunu etsən, səhər yuxudan oyananadək sənin yanında Allahın təyin etdiyi gözətçi (bir mələk) durar və şeytan sənə yaxınlaşmaz". Səhabələr xeyirli işlərə ən çox can atan insanlar idi. Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: "O sənə doğru söylədi, halbuki özü qatı yalançıdır. Sən üç gecədir kiminlə söhbət etdiyini bilirsənmi, ey Əbu Hureyra?" Mən: "Xeyr!"- deyə cavab verdikdə, Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: "Bu, şeytan idi!"[645]

٤٨٧ - عَنْ مُحَمَّدِ بن أُبَيِّ بن كَعْبٍ، عَنْ أَبِيهِ ﷺ أَنَّهُ كَانَ لَهُ جُرْنٌ مِنْ تَمْرٍ، فَكَانَ يَنْقُصُ، فَحَرَسَهُ ذَاتَ لَيْلَةٍ، فَإِذَا هُوَ بِدَابَّةٍ شِبْهِ الْغُلامِ الْمُحْتَلِمِ، فَسَلَّمَ عَلَيْهِ، فَرَدَّ عَلَيْهِ السَّلامَ، فَقَالَ: مَا أَنْتَ، جِنِّيٌّ أَمْ إِنْسِيٌّ؟، قَالَ: لا بَلْ جِنِّيٌّ، قَالَ: فَنَاوِلْنِي يَدَكَ، فَنَاوَلَهُ يَدَهُ، فَإِذَا يَدُهُ يَدُ كَلْبٍ، وَشَعْرُهُ شَعْرُ كَلْبٍ، قَالَ: هَكَذَا خَلْقُ الْجِنِّ، قَالَ: قَدْ عَلِمَتِ الْجِنُّ أَنَّ مَا فِيهِمْ رَجُلٌ أَشَدُّ مِنِّي، قَالَ: فَمَا جَاءَ بِكَ؟ قَالَ: بَلَغَنَا أَنَّكَ تُحِبُّ الصَّدَقَةَ، فَجِئْنَا نُصِيبُ مِنْ طَعَامِكَ، قَالَ: فَمَا يُنْجِينَا مِنْكُمْ؟ قَالَ: هَذِهِ الآيَةُ الَّتِي فِي سُورَةِ الْبَقَرَةِ: ﴿**اللَّهُ لا إِلَهَ إِلا هُوَ الْحَيُّ الْقَيُّومُ**﴾ (البقرة: 255) مَنْ قَالَهَا حِينَ يُمْسِي أُجِيرَ مِنَّا حَتَّى يُصْبِحَ، وَمَنْ قَالَهَا حِينَ يُصْبِحُ أُجِيرَ مِنَّا حَتَّى يُمْسِيَ، فَلَمَّا أَصْبَحَ أَتَى رَسُولَ اللَّهِ ﷺ فَذَكَرَ ذَلِكَ لَهُ، فَقَالَ: صَدَقَ الْخَبِيثُ.

487. Muhəmməd ibn Ubeyy ibn Kəb atasından ﷺ rəvayət edir ki, onun xurma anbarı var idi. Bu anbardan xurma azalırdı. Bir gecə o, anbarın keşiyində durarkən yetkinlik yaşına çatmış oğlana bənzər bir heyvan gördü. Ubeyy ibn Kəb ﷺ salam verdi, o da salamı aldı. Ubeyy ibn Kəb ﷺ soruşdu: "Sən cinsən, yoxsa insan?" O dedi: "Mən cinəm". Ubeyy ibn Kəb ﷺ dedi: "Əlini mənə uzat!" O, əlini uzatdıqda əlinin it əli, tükünün də it tükü olduğunu gördü. Cin dedi: "Bu, cinlərin xilqətidir. Cinlər aralarında məndən daha qüvvətli kişi olmadığını bilirlər". Ubeyy ibn Kəb ﷺ dedi: "Səni bura gətirən nədir?" Cin dedi: "Bizə xəbər çatıb ki, sən sədəqə verməyi xoşlayırsan, biz də azuqənə zərər vermək üçün gəldik". Ubeyy ibn Kəb ﷺ dedi: "Bizi sizdən nə qoruyar?" Cin dedi: "əl-Bəqərə" surəsində olan bu ayə - ***"Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur"*** *(əl-Bəqərə, 255)*. Kim onu axşam oxuyarsa, səhər açılanadək bizdən qorunar. Kim də onu səhər oxuyarsa, axşamadək bizdən qorunar". Səhər açıldıqda o, Allah Elçisinin salləllahu aleyhi və səlləm yanına gəlib olanları ona danışdı. Allah Elçisi sal-

[645] əl-Buxari, 2311.

ləllahu aleyhi və səlləm buyurdu: “Xəbis doğru söylədi”.[646]

٤٨٨ - عَنْ أُبَيِّ بْنِ كَعْبٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «يَا أَبَا الْمُنْذِرِ! أَتَدْرِي أَيُّ آيَةٍ مِنْ كِتَابِ اللهِ مَعَكَ أَعْظَمُ؟». قَالَ: قُلْتُ: اللهُ وَرَسُوْلُهُ أَعْلَمُ، قَالَ: «يَا أَبَا الْمُنْذِرِ! أَتَدْرِي أَيُّ آيَةٍ مِنْ كِتَابِ اللهِ مَعَكَ أَعْظَمُ؟». قَالَ: قُلْتُ: ﴿**اللهُ لا إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ**﴾ قَالَ: فَضَرَبَ فِي صَدْرِي وَقَالَ: «وَاللهِ لِيَهْنِكَ الْعَلْمُ أَبَا الْمُنْذِرِ». زَادَ أَحْمَد :«وَالَّذِي نَفْسِي بِيدَهِ! إِنَّ لَهَا لِسَاناً وَشَفَتَينِ ، تُقَدِّس الْمَلِكَ عَنْدِ سَاقِ الْعَرشِ»

488. Ubeyy ibn Kəb ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm demişdir: “Ey Əbu Munzir! Allahın Kitabından əzbərlədiyin hansı ayənin daha əzəmətli olduğunu bilirsən?” Mən: “Allah və Onun Elçisi daha yaxşı bilir!”- deyə cavab verdim. O belə buyurdu: “Ey Əbu Munzir! Allahın Kitabından əzbərlədiyin hansı ayənin daha əzəmətli olduğunu bilirsən?” Mən: “***Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur”*** *(əl-Bəqərə, 255)* - deyə cavab verdim. Peyğəmbər sallәllahu aleyhi və səlləm sinəmə vuraraq dedi: “Allaha and olsun ki, elm sənə uğurlu oldu, ey Əbu Munzir!”[647] Digər rəvayətdə deyilir: “Canım Əlində Olana and olsun ki, onun dili və dodaqları vardır, Ərşin ayağında olan mələk onu müqəddəs tutur“.[648]

٤٨٩ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ قَرَأَ آيَةَ الْكُرْسِي فِي دُبُرِ كُلِّ صَلاَةٍ مَكْتُوبَةٍ، لَمْ يَمْنَعْهُ مِنْ دُخُولِ الْجَنَّةِ إِلاَّ أَنْ يَمُوتَ».

489. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurmuşdur: “Kim hər fərz namazından sonra “Kürsü” ayəsini (əl-Bəqərə, 255) oxuyarsa, Cənnətlə onun arasında yalnız ölüm durar”.[649]

ƏL-BƏQƏRƏ SURƏSİNİN SON İKİ AYƏSİ

٤٩٠ - عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «إِنَّ اللَّهَ كَتَبَ كِتَابًا قَبْلَ أَنْ يَخْلُقَ السَّمَوَاتِ وَالأَرْضَ بِأَلْفَيْ عَامٍ أَنْزَلَ مِنْهُ آيَتَيْنِ خَتَمَ بِهِمَا سُورَةَ الْبَقَرَةِ وَلاَ يُقْرَآنِ فِي دَارٍ ثَلاَثَ لَيَالٍ فَيَقْرَبُهَا شَيْطَانٌ».

---

[646] ət-Təbərani “Mucəmul-Kəbir” 541, 542. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 662) səhih olduğunu bildirmişdir.

[647] Muslim, 1921.

[648] Əhməd, 21315. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 3410) və “Sahihut-Tərğib vət-Tərhib”də (№ 1417) səhih olduğunu bildirmişdir.

[649] ən-Nəsəi “Sünənul-Kubra” 9928; ət-Təbərani “Mucəmul-Kəbir” 7408. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 6464) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 972) səhih olduğunu qeyd etmişdir.

490. Numan ibn Bəşir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Həqiqətən, Allah göyləri və yeri yaratmamışdan iki min il əvvəl bir kitab yazmışdır. Allah ondan iki ayə nazil edərək bunlarla "əl-Bəqərə" surəsini xətm etmişdir. Bu ayələr üç gecə evdə oxunmazsa, şeytan həmin evə yaxınlaşar".[650]

٤٩١ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ عَلَى الْمِنْبَرِ اقْرَءُوا هَاتَيْنِ الْآيَتَيْنِ اللَّتَيْنِ مِنْ آخِرِ سُورَةِ الْبَقَرَةِ فَإِنَّ رَبِّي ﷻ أَعْطَاهُنَّ أَوْ أَعْطَانِيهِنَّ مِنْ تَحْتِ الْعَرْشِ

491. Uqbə ibn Amir ﷺ demişdir: "Allah Elçisini sallallahu aleyhi və səlləm minbərin üzərində ikən belə buyurduğunu eşitdim: "əl-Bəqərə" surəsinin axırıncı bu iki ayəsini oxuyun! Həqiqətən, Rəbbim ﷻ onları mənə Ərşin altından vermişdir".[651]

٤٩٢ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أُعْطِيْتُ خَوَاتِمَ سُورَةِ الْبَقَرَةِ، مِنْ كَنْزٍ تَحْتَ الْعَرشِ، ولَمْ يُعْطَهُنَّ نَبِيٌّ قَبْلِي».

492. Əbu Zərr ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Mənə Ərşin altındakı xəzinədən "əl-Bəqərə" surəsinin son (iki ayəsi) verildi. Bunlar məndən qabaq heç bir peyğəmbərə verilməmişdir".[652]

٤٩٣ - عَنْ أَبِي مَسْعُودٍ الْبَدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «الآيَتَانِ مِنْ آخِرِ سُورَةِ الْبَقَرَةِ مَنْ قَرَأَهُمَا فِي لَيْلَةٍ كَفَتَاهُ».

493. Əbu Məsud əl-Bədri ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Hər kim gecə "əl-Bəqərə" surəsinin son iki ayəsini oxuyarsa, bu, ona kifayət edər".[653]

ƏL-KƏHF SURƏSİNİN FƏZİLƏTİ

٤٩٤ - عن أبي سعيد الخدري ﷺ قال قال رسول الله ﷺ مَنْ قَرَأَ سُورَةَ الْكَهْفِ يَوْمَ الجُمُعَةِ أَضَاءَ لَهُ النُّورُ مَا بَيْنَهُ وَبَيْنَ الْبَيْتِ الْعَتِيقِ

---

[650] ət-Tirmizi, 2882, 3124; əl-Albani səhih olduğunu bildirmişdir.

[651] Əhməd, 17481, 17908. Şueyb əl-Arnavut səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[652] Əhməd, 21604. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1060) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1482) səhih olduğunu bildirmişdir.

[653] Bu iki ayə insanı şeytandan və şeytan kimilərinin şərindən qoruyur. əl-Buxari 4008; əd-Dərimi 1495.

494. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim Cümə günü "əl-Kəhf" surəsini oxuyarsa, bu, onunla Ətiq (Kə'bə) evi arasında nur saçar".[654]

٤٩٥ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ: «مَنْ قَرَأَ سُوْرَةَ الْكَهْفِ لَيْلَةَ الْجُمُعَة أَضَاءَ لَهُ مِنَ النُّورِ فِيمَا بَيْنَهُ وَبَيْنَ الْبَيتِ الْعَتِيق».

495. Əbu Səid əl-Xudri ﷺ demişdir: "Kim Cümə gecəsi "əl-Kəhf" surəsini oxuyarsa, bu, onunla Ətiq (Kəbə) evi arasında nur saçar".[655]

٤٩٦ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ أَنَّ النَّبِيِّ ﷺ قَالَ: مَنْ قَرَأَ سُورَةَ الْكَهْفِ فِي يَوْمِ الجُمُعَةِ أَضَاءَ لَهُ مِنَ النُّورِ مَا بَيْنَ الجُمُعَتَيْنِ

496. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Kim Cümə günü "əl-Kəhf" surəsini oxuyarsa, bu gələn Cümə-yədək onun üçün nur saçar".[656]

٤٩٧ - أَبِي الدَّرْدَاءِ ﷺ يَرْوِيهِ عَنِ النَّبِيِّ ﷺ قَالَ «مَنْ حَفِظَ عَشْرَ آيَاتٍ مِنْ أَوَّلِ سُورَةِ الْكَهْفِ عُصِمَ مِنْ فِتْنَةِ الدَّجَّالِ».

497. Əbud-Dərdə ﷺ rəvayət edir, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim "əl-Kəhf" surəsinin əvvəl on ayəsini əzbərləyərsə, Dəccalın fitnəsindən qorunar".[657]

ƏL-MULK SURƏSİNİN FƏZİLƏTİ

٤٩٨ - عَنْ ابْنِ مَسْعُود قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: «سُورَةُ تَبَارَكَ هِيَ الْمَانِعَةُ مِنْ عَذَابِ الْقَبْرِ».

498. İbn Məsud ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Təbərakə (əl-Mulk) surəsi qəbir əzabından maneədir".[658]

---

[654] əl-Beyhəqi "Sunənus-Sağir" 770; Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 8932, 12186. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6471) səhih olduğunu bildirmişdir.

[655] əd-Dərimi, 3407. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6471) səhih olduğunu bildirmişdir.

[656] əl-Hakim, 3392. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6470) səhih olduğunu bildirmişdir.

[657] Muslim, 1919; Əbu Davud 4325; Əhməd 27580, 28305. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6201) səhih olduğunu bildirmişdir.

[658] Əbu Nueym əl-Əsbəhəni "Tabaqatul-Muhəddisin" 526. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3643) və "Silsilətul-Əhədisis-Sahiha"da (№1140) səhih olduğunu bildirmişdir.

٤٩٩ - عن أبي هريرة ﷺ أن رسول الله ﷺ قال: إن سُورَةً مِنْ كتابِ الله ما هي إلاّ ثلاثونَ آيَةً شَفَعَتْ لِرَجُلٍ فأَخْرَجَتْهُ مِنَ النّارِ وأَدْخَلَتْهُ الجنَّةَ

499. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Həqiqətən, Allahın Kitabında cəmi otuz ayəlik (əl-Mulk) surəsi bir kişini Cəhənnəmdən çıxarıb Cənnətə daxil edərək şəfaət etdi".[659]

٥٠٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ سُورَةً مِنَ الْقُرْآنِ ثَلاَثُونَ آيَةً شَفَعَتْ لِرَجُلٍ حَتَّى غُفِرَ لَهُ وَهِيَ سُورَةُ **﴿تَبَارَكَ الَّذِي بِيَدِهِ الْمُلْكُ﴾**».

500. Əbu Hureya ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "Həqiqətən, Quranda otuz ayəlik surə bir kişiyə şəfaət etdi və o bağışlandı. Bu ***"Mülk Əlində olan, nə qədər xeyirxahdır"*** *(əl-Mulk surəsidir)*".[660]

٥٠١ - عن جابر ﷺ قال كان رسول الله ﷺ لا ينام حتى يقرأ ألم تنزيل وتبارك الذي بيده الملك قال أبو الزبير فهما يفضلان كل سورة في القرآن بسبعين حسنة ومن قرأهما كتب له بهما سبعون حسنة ورفع بهما له سبعون درجة وحط بهما عنه سبعون خطيئة

501. Cabir ﷺ demişdir: "Allah Elçisi sallәllahu aleyhi və sәlləm ***"Əlif. Ləm. Mim. Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi*** *(olan Allah)* ***nazil etmişdir"*** *(Səcdə surəsi)* və ***"Mülk Əlində Olan nə qədər xeyirxahdır..."*** *(Mulk surəsi)* surələrini oxumayınca yatmazdı. Əbu Zubeyr deyir: "Bu iki surə Qurandakı hər bir surədən yetmiş savab üstündür. Hər kəs bu iki surəni oxusa, bunun sayəsində ona yetmiş savab yazılar, onun üçün yetmiş dərəcə yüksələr və onun yetmiş günahı silinər".[661]

٥٠٢ - عَنِ ابْنِ مَسْعُودٍ ﷺ قَالَ: يُؤْتَى الرَّجُلُ فِي قَبْرِهِ فَتُؤْتَى رِجْلاَهُ فَتَقُولُ رِجْلاَهُ: لَيْسَ لَكُمْ عَلَى مَا قِبَلِي سَبِيلٌ كَانَ يَقُومُ يَقْرَأُ بِي سُورَةَ الْمُلْكِ، ثُمَّ يُؤْتَى مِنْ قِبَلِ صَدْرِهِ أَوْ قَالَ بَطْنِهِ، فَيَقُولُ: لَيْسَ لَكُمْ عَلَى مَا قِبَلِي سَبِيلٌ كَانَ يَقْرَأُ بِي سُورَةَ الْمُلْكِ، ثُمَّ يُؤْتَى رَأْسُهُ فَيَقُولُ: لَيْسَ لَكُمْ عَلَى مَا قِبَلِي سَبِيلٌ كَانَ يَقْرَأُ بِي سُورَةَ الْمُلْكِ، قَالَ: فَهِيَ الْمَانِعَةُ تَمْنَعُ مِنْ عَذَابِ الْقَبْرِ وَهِيَ فِي التَّوْرَاةِ سُورَةُ الْمُلْكِ، وَمَنْ قَرَأَهَا فِي لَيْلَةٍ فَقَدْ أَكْثَرَ وَأَطْيَبَ.

---

[659] əl-Hakim, 3838. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2092) həsən olduğunu bildirmişdir.
[660] ət-Tirmizi, 2891, 3134; İbn Məcə, 3786, 3918. əl-Albani həsən olduğunu bildirmişdir.
[661] əl-Buxari "Ədəbul-Mufrad" 1207. əl-Albani səhih li-ğeyrihi olduğunu bildirmişdir.

502. İbn Məsud ﷺ demişdir: "Kişi qəbirə qoyulduqda (əzab) ona ayaqları tərəfindən yaxınlaşdırılacaq. Ayaqları belə deyəcək: "Mən tərəfdən sizə yol yoxdur, (çünki) o, mənimlə qalxıb əl-Mulk surəsini oxuyurdu". Sonra (əzab) ona sinəsi və ya qarnı tərəfdən yaxınlaşdırılacaq. Sinəsi və ya qarnı deyəcək: "Mən tərəfdən sizə yol yoxdur, (çünki) o, mənimlə əl-Mulk surəsini oxuyurdu". Sonra başı tərəfindən yaxınlaşdırılacaq. Başı deyəcək: "Mən tərəfdən sizə yol yoxdur, (çünki) o, mənimlə əl-Mulk surəsini oxuyurdu". Bu surə qəbir əzabından maneədir və o, Tövratda da əl-Mulk surəsidir. Kim onu hər hansı bir gecə oxuyarsa, çox və gözəl əməl etmiş olar".[662]

ƏL-KƏFİRUN SURƏSİ

٥٠٣ - عَنْ فَرْوَةَ بْنِ نَوْفَلٍ ﷺ أَنَّهُ أَتَى النَّبِيَّ ﷺ فَقَالَ يَا رَسُولَ اللَّهِ عَلِّمْنِي شَيْئًا أَقُولُهُ إِذَا أَوَيْتُ إِلَى فِرَاشِي قَالَ «اقْرَأْ ﴿**قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ**﴾ فَإِنَّهَا بَرَاءَةٌ مِنَ الشِّرْكِ».

503. Fərvə ibn Nəufəl ﷺ rəvayət edir ki, o, Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi! Yatağıma girdiyim zaman mənə söyləyəcəyim bir şey öyrət". O buyurdu: "***De: "Ey kafirlər!"*** *(əl-Kəfirun surəsini)* oxu, çünki bu surə şirkdən uzaqlaşdırır".[663]

٥٠٤ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ ﷺ: أَنَّ رَجُلاً قَامَ فَرَكَعَ رَكْعَتَيِ الْفَجْرِ، فَقَرَأَ فِي الرَّكْعَةِ الأُولَى ﴿**قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ**﴾ حَتَّى انقَضَتِ السُّورَةُ، فَقَالَ النَّبِيُّ ﷺ: «هَذَا عَبْدٌ عَرَفَ رَبَّهُ». وَقَرَأَ فِي الآخِرَةِ ﴿**قُلْ هُوَ اللهُ أَحَدٌ**﴾ حَتَّى انقَضَتِ السُّورَةُ، فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «هَذَا عَبْدٌ آمَنَ بِرَبِّهِ».

504. Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, bir kişi ayağa qalxaraq Sübh namazının iki rükətini qıldı. Birinci rükətdə ***"De: "Ey kafirlər!"*** *(əl-Kəfirun surəsini)* sonuna qədər oxudu. Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Bu, öz Rəbbini tanıyan quldur". İkinci rükətdə isə ***"De: "O Allah Təkdir!"*** *(əl-İxlas surəsini)* sonuna qədər oxudu. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Bu, öz Rəbbinə iman gətirən quldur".[664]

ƏL-İXLAS SURƏSİ

٥٠٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ احْشُدُوا فَإِنِّي سَأَقْرَأُ عَلَيْكُمْ ثُلُثَ الْقُرْآنِ فَحَشَدَ مَنْ حَشَدَ ثُمَّ خَرَجَ

---

662 əl-Hakim, 3839. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1475) həsən olduğunu bildirmişdir.
663 ət-Tirmizi, 3403, 3731. əl-Albani səhih olduğunu qeyd etmişdir.
664 İbn Hibban, 2451. əl-Albani səhih olduğunu bildirmişdir.

نَبِيُّ اللَّهِ ﷺ فَقَرَأَ ﴿قُلْ هُوَ اللَّهُ أَحَدٌ﴾ ثُمَّ دَخَلَ فَقَالَ بَعْضُنَا لِبَعْضٍ إِنِّي أُرَى هَذَا خَبَرٌ جَاءَهُ مِنْ السَّمَاءِ فَذَاكَ الَّذِي أَدْخَلَهُ ثُمَّ خَرَجَ نَبِيُّ اللَّهِ ﷺ فَقَالَ إِنِّي قُلْتُ لَكُمْ سَأَقْرَأُ عَلَيْكُمْ ثُلُثَ الْقُرْآنِ أَلَا إِنَّهَا تَعْدِلُ ثُلُثَ الْقُرْآنِ ...وَ ﴿قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ﴾ (الكافرون آية 1) تَعْدِلُ رُبْعَ الْقُرْآنِ....«إِنَّ اللَّهَ جَزَّأَ الْقُرْآنَ ثَلَاثَةَ أَجْزَاءٍ فَجَعَلَ ﴿قُلْ هُوَ اللَّهُ أَحَدٌ﴾ جُزْءًا مِنْ أَجْزَاءِ الْقُرْآنِ».

505. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Bir yerə toplanın, sizə Quranın üçdə birini oxuyacağam". Buna görə insanlar bir yerə toplandılar. Sonra Peyğəmbər sallәllahu aleyhi və sәllәm otağından çıxaraq ***"De: "O Allah Təkdir"*** *(İxlas surəsini)* oxudu və otağına daxil oldu. Biz bir-birimizə dedik: "Mənə elə gəlir ki, bu xəbər ona səmadan gəlmişdir, buna görə də o, içəri daxil oldu". Sonra Allah Elçisi sallәllahu aleyhi və sәllәm çıxıb belə buyurdu: "Sizə Quranın üçdə birini oxuyacağımı söyləmişdim. Həqiqətən, o, Quranın üçdə birinə bərabərdir".[665] Digər rəvayətdə deyilir: ***"De: "Ey kafirlər!"*** *(əl-Kəfirun surəsi)* isə Quranın dörddə birinə bərabərdir".[666] Digər rəvayətdə deyilir: "Allah Quranı üç hissəyə bölmüş, İxlas surəsini isə Quranın bir hissəsi etmişdir".[667]

٥٠٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ أَقْبَلْتُ مَعَ رَسُولِ اللَّهِ ﷺ فَسَمِعَ رَجُلاً يَقْرَأُ ﴿قُلْ هُوَ اللَّهُ أَحَدٌ اللَّهُ الصَّمَدُ﴾ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «وَجَبَتْ». قُلْتُ وَمَا وَجَبَتْ قَالَ «الْجَنَّةُ».

506. Əbu Hureyra ﷺ buyurur: "Allah Elçisi sallәllahu aleyhi və sәllәm ilə birlikdə (bir yerə) gəldik. Allah Elçisi sallәllahu aleyhi və sәllәm bir kişinin: ***"De: "O Allah Təkdir! Allah Möhtac deyildir"*** *(əl-İxlas surəsini)* oxuduğunu eşidərək dedi: "Vacib oldu!" Mən: "Nə vacib oldu?"- deyə soruşdum. O: "Cənnət"- deyə cavab verdi".[668]

٥٠٧ - سَمِعْتُ أَبَا هُرَيْرَةَ ﷺ يَقُولُ: أَقْبَلْتُ مَعَ رَسُولِ اللَّهِ ﷺ فَسَمِعَ رَجُلا يَقْرَأُ: ﴿قُلْ هُوَ اللَّهُ أَحَدٌ ۞ اللَّهُ الصَّمَدُ ۞ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ۞ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ ۞﴾، فَقَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: وَجَبَتْ فَسَأَلْتُهُ: مَاذَا يَا رَسُولَ اللَّهِ؟ فَقَالَ: الْجَنَّةُ، فَقَالَ أَبُو هُرَيْرَةَ ﷺ: فَأَرَدْتُ أَنْ أَذْهَبَ إِلَى الرَّجُلِ فَأُبَشِّرَهُ، ثُمَّ فَرِقْتُ أَنْ يَفُوتَنِي الْغَدَاءُ مَعَ رَسُولِ اللَّهِ ﷺ فَآثَرْتُ الْغَدَاءَ، ثُمَّ ذَهَبْتُ إِلَى الرَّجُلِ، فَوَجَدْتُهُ قَدْ ذَهَبَ

---

[665] Muslim, 1345; İbn Məcə, 3783; ət-Tirmizi, 2899, 2900.

[666] ət-Tabərani "Mucəmul-Kəbir" 13311, 13493. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 583) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[667] Muslim, 1923.

[668] ət-Tirmizi, 2897, 3142; Əhməd, 7669. əl-Albani səhih olduğunu bildirmişdir.

507. Əbu Hureyra ﷺ buyurur: "Allah Elçisi sallәllahu aleyhi və sәllәm ilə birlikdə (bir yerə) gəldim. Allah Elçisi sallәllahu aleyhi və sәllәm bir kişinin: ***"De: "O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur"*** *(əl-İxlas surəsini)* oxuduğunu eşidərək buyurdu: "Vacib oldu!" Mən: "Nə vacib oldu?"- deyə soruşdum. O: "Cənnət"- deyə cavab verdi. Əbu Hureyra ﷺ dedi: "Kişinin yanına gedib onu müjdələmək istədim, lakin Allah Elçisi sallәllahu aleyhi və sәllәm ilə nahar etməyə gecikməyimdən qorxdum. Nahar etdikdən sonra o kişinin yanına getdim və gördüm ki, artıq getmişdir".[669]

٥٠٨ - مُعَاذِ بْنِ أَنَسٍ الْجُهَنِيِّ ﷺ صَاحِبِ النَّبِيِّ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: مَنْ قَرَأَ: ﴿**قُلْ هُوَ اللَّهُ أَحَدٌ**﴾ حَتَّى يَخْتِمَهَا عَشْرَ مَرَّاتٍ، بَنَى اللَّهُ لَهُ قَصْرًا فِي الْجَنَّةِ

508. Peyğəmbərin sallәllahu aleyhi və sәllәm səhabəsi Muaz ibn Ənəs əl-Cuhəni ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Kim ***"De: "O Allah Təkdir"*** *(İxlas surəsini)* sonuna qədər on dəfə oxuyarsa, Allah ona Cənnətdə bir qəsr tikər".[670]

٥٠٩ - عَنْ مُعَاذِ بْنِ عَبْدِ اللَّهِ بْنِ خُبَيْبٍ عَنْ أَبِيهِ ﷺ قَالَ خَرَجْنَا فِي لَيْلَةٍ مَطِيرَةٍ وَظُلْمَةٍ شَدِيدَةٍ نَطْلُبُ رَسُولَ اللَّهِ ﷺ يُصَلِّي لَنَا – قَالَ – فَأَدْرَكْتُهُ فَقَالَ «قُلْ». فَلَمْ أَقُلْ شَيْئًا ثُمَّ قَالَ «قُلْ». فَلَمْ أَقُلْ شَيْئًا. قَالَ «قُلْ». قُلْتُ مَا أَقُولُ قَالَ «قُلْ ﴿**هُوَ اللَّهُ أَحَدٌ**﴾ وَالْمُعَوِّذَتَيْنِ حِينَ تُمْسِي وَتُصْبِحُ ثَلاَثَ مَرَّاتٍ تَكْفِيكَ مِنْ كُلِّ شَىْءٍ».

509. Muaz ibn Abdullah ibn Xubeyb atasından ﷺ rəvayət edərək belə dedi: "Qaranlıq və yağışlı bir gecədə bizə namaz qıldırmaq üçün Allah Elçisini sallәllahu aleyhi və sәllәm axtarmağa çıxmışdıq. Mən ona gəlib çatdıqda, o buyurdu: "De!" Mən heç nə demədim. O yenə buyurdu: "De!" Mən yenə heç nə demədim. O yenə: "De!"- buyurduqda, mən soruşdum: "Nə deyim?" O buyurdu: "Səhər-axşam üç dəfə: ***"O Allah Təkdir"*** *(əl-İxlas surəsini)* və Muavvizəteyni *(əl-Fələq və ən-Nəs surələrini)* de! Bunlar hər şeydən (qorunmaq üçün) sənə kifayət edər".[671]

ƏL-FƏLƏQ VƏ ƏN-NƏS SURƏLƏRİ

٥١٠ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «يَا عُقْبَةَ بْنُ عَامِرٍ! إِنَّكَ لَنْ تَقْرَأَ سُورَةً أَحَبُّ إِلَى اللهِ وَلاَ أَبْلَغَ

[669] əl-Hakim, 2079. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1478) səhih olduğunu bildirmişdir.
[670] Əhməd, 15610, 15648. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 589) və "Sahihul-Cəmius-Sağir"də (№ 6472) səhih olduğunu bildirmişdir.
[671] ət-Tirmizi, 3575, 3924. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.

عِنْدَهُ مِنْ أَنْ تَقْرَأَ: ﴿قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ﴾ فَإِنِ اسْتَطَعْتَ أَنْ لاَ تَفُوتَكَ فِي صَلاَةٍ فَافْعَلْ».

510. Uqbə ibn Amir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm dedi: "Ey Uqbə ibn Amir! Sən heç vaxt ***"De: "Pənah aparıram Sübhün Rəbbinə"*** *(əl-Fələq)* surəsindən Allaha daha sevimli və Onun dərhahında daha üstün olan heç nə oxuya bilməzsən. Bacarırsansa, namazda onu oxumağı tərk etmə!"[672]

٥١١ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ بَيْنَا أَنَا أَسِيرُ مَعَ رَسُولِ اللَّهِ ﷺ بَيْنَ الْجُحْفَةِ وَالأَبْوَاءِ إِذْ غَشِيَتْنَا رِيحٌ وَظُلْمَةٌ شَدِيدَةٌ فَجَعَلَ رَسُولُ اللَّهِ ﷺ يَتَعَوَّذُ بِ ﴿أَعُوذُ بِرَبِّ الْفَلَقِ﴾ وَ ﴿أَعُوذُ بِرَبِّ النَّاسِ﴾ وَيَقُولُ «يَا عُقْبَةُ تَعَوَّذْ بِهِمَا فَمَا تَعَوَّذَ مُتَعَوِّذٌ بِمِثْلِهِمَا». قَالَ وَسَمِعْتُهُ يَؤُمُّنَا بِهِمَا فِى الصَّلاَةِ.

511. Rəvayət edilir ki, Uqbə bin Amir ﷺ demişdir: "Mən Allah Elçisi sallәllahu aleyhi və sәllәm ilə birlikdə Cuhfə ilə Əbva kəndlərinin arasında yol gedərkən, bizi külək yaxaladı və qatı zülmət bürüdü. Allah Elçisi sallәllahu aleyhi və sәllәm əl-Fələq və ən-Nəs surələri ilə Allaha sığınmağa başlayaraq buyurdu: "Ey Uqbə, bu iki surə ilə sığın! Heç kəs bu ikisinə bənzər bir şey ilə sığınmamışdır". Mən Allah Elçisinin sallәllahu aleyhi və sәllәm bizə bu iki surə ilə namaz qıldırdığını eşitmişəm".[673]

٥١٢ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَلَمْ تَرَ آيَاتٍ أُنْزِلَتِ اللَّيْلَةَ لَمْ يُرَ مِثْلُهُنَّ قَطُّ ﴿قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ﴾ وَ ﴿قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ﴾».

512. Uqba ibn Amir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Gecə nazil olan və misli görülməyən ayələri görmədinmi? (Bunlar): ***"De: "Pənah aparıram Sübhün Rəbbinə"*** *(əl-Fələq)* və ***"De: "Pənah aparıram insanların Rəbbinə"*** *(ən-Nəs)* (surələridir)".[674]

٥١٣ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ اتَّبَعْتُ رَسُولَ اللَّهِ ﷺ وَهُوَ رَاكِبٌ فَوَضَعْتُ يَدِى عَلَى قَدَمِهِ فَقُلْتُ أَقْرِئْنِى يَا رَسُولَ اللَّهِ سُورَةَ هُودٍ وَسُورَةَ يُوسُفَ. فَقَالَ «لَنْ تَقْرَأَ شَيْئًا أَبْلَغَ عِنْدَ اللَّهِ مِنْ ﴿قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ﴾ وَ ﴿قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ﴾».

---

[672] İbn Hibban, 1839. əl-Albani səhih olduğunu bildirmişdir.
[673] Əbu Davud, 1463, 1465. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[674] Muslim, 1927.

513. Uqbə ibn Amir ﷺ demişdir: "Allah Elçisi sallallahu aleyhi və səlləm minikdə gedərkən mən onun ardınca gedirdim. Mən əlimi onun ayağının üzərinə qoyub dedim: "Ey Allahın Elçisi! Mənə Hud və Yusuf surələrini öyrət!" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Sən heç vaxt Allah dərgahında ***"De: "Pənah aparıram Sübhün Rəbbinə"*** *(əl-Fələq)* və ***"De: "Pənah aparıram insanların Rəbbinə"*** *(ən-Nəs)* surələrindən daha üstün bir şey oxuya bilməzsən".[675]

٥١٤ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ: قَالَ لِي رَسُوْلُ اللهِ ﷺ: «اقْرَأْ بِالْمُعَوَّذَتَيْنِ فَإِنَّكَ لَنْ تَقْرَأَ بِمِثْلِهِمَا».

514. Uqbə ibn Amir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm mənə buyurdu: "Muavvəzəteyni" (iki sığınma olan "əl-Fələq" və "ən-Nəs" surələrini) oxu! Şübhəsiz ki, sən heç vaxt onlara bənzər bir şey oxuya bilməzsən".[676]

BƏZİ AYƏLƏRİN TƏFSİRİ

٥١٥ - عَنْ عَبْدِ اللهِ ﷺ **﴿مَنْ جَاءَ بِالْحَسَنَةِ﴾** قَالَ: مَنْ جَاءَ بِلاَ إِلَهَ إِلاَّ اللَّهُ **﴿وَمَنْ جَاءَ بِالسَّيِّئَةِ﴾** قَالَ: بِالشِّرْكِ.

515. Abdullah (ibn Məsud) ﷺ ***"Kim Qiyamət günü yaxşı əməl gətirsə"*** *(əl-Qasas, 84)* ayəsi haqqında: "Kim "lə iləhə illəllah" kəlməsi ilə gələrsə, ***"Kim də pis əməl gətirsə"*** *(əl-Qasas, 84)* ayəsi haqqında isə: "Kim şirk ilə gələrsə"-demişdir".[677]

٥١٦ - عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ ﷺ فِي قَوْلِهِ ﷻ: **﴿قُوا أَنْفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا﴾** قَالَ: عَلِّمُوا أَنْفُسَكُمْ وَأَهْلِيكُمُ الْخَيْرَ

516. Əli ibn Əbu Talib ﷺ Allahın ﷻ ***"Özünüzü və ailənizi oddan qoruyun!"*** *(ət-Təhrim, 6)* - ayəsi haqqında belə demişdir: "Xeyir öyrənin və onu ailələrinizə öyrədin".[678]

٥١٧ - عَنْ تَمِيْمٍ الدَّارِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ قَرَأَ بِمِئَةِ آيَةٍ فِي لَيْلَةٍ، كُتِبَ لَهُ قُنُوتُ لَيْلَةٍ».

---

675 ən-Nəsəi, 953, 961. əl-Albani səhih olduğunu bildirmişdir.

676 Əhməd, 17360. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1160) səhih olduğunu bildirmişdir.

677 əl-Hakim, 3528. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib" (№ 1527) səhih məvquf olduğunu bildirmişdir.

678 əl-Hakim, 3826. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 119) səhih məvquf olduğunu bildirib.

517. Təmim əd-Dari[679] ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim bir gecədə yüz ayə oxuyarsa, ona gecə ibadət etmiş kimi savab yazılar".[680]

ƏN-NƏCM SURƏSİNDƏ OLAN SƏCDƏ AYƏSİ

٥١٨ - عن أبي هريرة ﷺ أن النبي ﷺ كُتِبتْ عنده سورةُ النجم، فلمَّا بَلغَ السَّجْدَة سَجَدَ، وسَجَدْنا معه، وسَجَدَتِ الدَّوَاةُ والقَلَمُ

518. Əbu Hureyra ﷺ demişdir: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm yanında ən-Nəcm surəsini yazırdım. Səcdə ayəsi olan yerə çatanda o səcdə etdi, biz də onunla səcdə etdik, mürəkkəb və qələm də səcdə etdi".[681]

SƏCDƏ AYƏSİNİ OXUYANDA SƏCDƏ EDİN

٥١٩ - عَنْ أبِي سَعيد الْخُدْرِي ﷺ قَالَ: رَأَيْتُ فِيمَا يَرَى النَّائِمُ كَأَنِّي تَحْتَ شَجَرَةٍ، وَكَأَنَّ الشَّجَرَةَ تَقْرَأُ ص، فَلَمَّا أَتَتْ عَلَى السَّجْدَةِ سَجَدَتْ، فَقَالَتْ فِي سُجُودِهَا: اللَّهُمَّ اغْفِرْ لِي بِهَا، اللَّهُمَّ حُطَّ عَنِّي بِهَا وِزْرًا، وَأَحْدِثْ لِي بِهَا شُكْرًا، وَتَقَبَّلْهَا مِنِّي كَمَا تَقَبَّلْتَ مِنْ عَبْدِكَ دَاوُدَ سَجْدَتَهُ، فَعَدَوْتُ عَلَى رَسُولِ اللهِ ﷺ فَأَخْبَرْتُهُ فَقَالَ: سَجَدْتَ أَنْتَ يَا أَبَا سَعِيدٍ؟ قُلْتُ: لاَ، قَالَ: فَأَنْتَ أَحَقُّ بِالسُّجُودِ مِنَ الشَّجَرَةِ، ثُمَّ قَرَأَ رَسُولُ اللهِ ﷺ سُورَةَ ص ثُمَّ أَتَى عَلَى السَّجْدَةِ وَقَالَ فِي سُجُودِهِ مَا قَالَتِ الشَّجَرَةُ فِي سُجُودِهَا

519. Əbu Səid əl-Xudri ﷺ demişdir: "Yuxuda özümü Sad surəsini oxuyan bir ağacın altında gördüm. Ağac səcdə ayəsinə gəlib çatanda səcdə edərək belə dua etdi: "Allahummə-ğfirli bihə, Allahummə hutta anni bihə vizran, vəəhdisli bihə şukran, və təqabbəlhə minni kəmə təqabbəltə min abdikə Davud![682]" Səhər tezdən Allah Elçisinin sallallahu aleyhi və səlləm yanına gəlib yuxunu ona danışdım. O buyurdu: "Səcdə etdinmi, ey Əbu Səid?" Dedim: "Xeyr". O buyurdu: "Axı sən səcdə etməyə ağacdan daha layiqsən". Sonra

---

[679] Əbu Ruqeyyə Təmim ibn Əus ibn Xaricə əd-Dari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 40-cı ilində vəfat etmişdir.

[680] Əhməd, 16999. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6468) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 644) səhih olduğunu bildirmişdir.

[681] əl-Bəzzar, 1/ 360/ 763. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1443) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3035) həsən olduğunu bildirmişdir.

[682] Tərcüməsi: Allahım, bunun sayəsində məni bağışla! Allahım, bunun səbəbilə məndən yükü götür (günahımı sil), bununla məni şükür edənlərdən et və onu qulun Davuddan qəbul etdiyin kimi məndən də qəbul et!

Allah Elçisi sallәllahu aleyhi və sәllәm Sad surəsini oxudu, səcdə ayəsinə çatdıqda səcdə etdi və ağacın söylədiyini söylədi".[683]

ADƏM ÖVLADINA ƏMR OLUNAN SƏCDƏ

٥٢٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا قَرَأَ ابْنُ آدَمَ السَّجْدَةَ فَسَجَدَ، اعْتَزَلَ الشَّيْطَانُ يَبْكِي، يَقُولُ: يَا وَيْلَهُ – وَفِي رِوَايَةِ أَبِي كُرَيْبٍ يَا وَيْلِي! – أُمِرَ ابْنُ آدَمَ بِالسُّجُودِ فَسَجَدَ فَلَهُ الْجَنَّةُ، وَأُمِرْتُ بِالسُّجُودِ فَأَبَيْتُ فَلِي النَّارُ».

520. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Adəm övladı səcdə ayəsini[684] oxuyub səcdəyə qapandıqda, şeytan kənara çəkilib ağlayaraq deyir: "Vay mənim halıma! (Əbu Kureybin rəvayətində: Ay yazıq!) Adəm övladına səcdə etmək əmr olundu, səcdə edib Cənnəti qazandı. Mənə isə səcdə etmək əmr olundu, boyun qaçırıb Cəhənnəm odunu qazandım[685]". [686]

MİN AYƏDƏN XEYİRLİ BİR AYƏ

٥٢١ - عَنِ الْعِرْبَاضِ بْنِ سَارِيَةَ ﷺ أَنَّ النَّبِيَّ ﷺ كَانَ لاَ يَنَامُ حَتَّى يَقْرَأَ الْمُسَبِّحَاتِ وَيَقُولُ «فِيهَا آيَةٌ خَيْرٌ مِنْ أَلْفِ آيَةٍ».

521. İrbad ibn Səriyə[687] ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm Musəbbihəti (əl-İsra, əl-Hədid, əl-Həşr, əs-Saf, əl-Cumuə, ət-Təğabun və əl-Əla surələrini) oxumadan yatmazdı və belə deyərdi: "Bunlarda min ayədən daha xeyirli ayə vardır".[688]

OXUNAN HƏR AYƏNİN XEYRİ

٥٢٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَيُحِبُّ أَحَدُكُمْ إِذَا رَجَعَ إِلَى أَهْلِهِ أَنْ يَجِدَ فِيهِ ثَلاَثَ خَلِفَاتٍ عِظَامٍ سِمَانٍ». قُلْنَا نَعَمْ. قَالَ «فَثَلاَثُ آيَاتٍ يَقْرَأُ بِهِنَّ أَحَدُكُمْ فِي صَلاَتِهِ خَيْرٌ لَهُ مِنْ ثَلاَثِ خَلِفَاتٍ عِظَامٍ سِمَانٍ».

522. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Sizdən biri ailəsinin yanına qayıtdıqda, evində üç irisümüklü,

---

683 Əbu Yəalə, 1069. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib" (№ 1442) həsən li-ğeyrihi olduğunu bildirib.
684 Quranda on beş səcdə ayəsi mövcuddur.
685 Uca Allah buyurur: ***"Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– dedikdə İblisdən başqa*** *(hamısı)* ***səcdə etdi. O, imtina edib təkəbbür göstərdi və kafir oldu"*** *(əl-Bəqərə, 34).*
686 Muslim, 244.
687 əl-İrbəd ibn Səriyə əs-Suləmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 75-ci ilində vəfat edib.
688 ət-Tirmizi, 3406, 3735. əl-Albani həsən olduğunu bildirmişdir.

kök, hamilə dəvə görmək istəməzmi?" Biz: "Bəli"- deyə cavab verdik. O belə buyurdu: "Sizdən birinizin namazda oxuduğu üç ayə, sizin üçün üç irisümüklü, kök, hamilə dəvədən daha xeyirlidir".[689]

٥٢٣ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ خَرَجَ رَسُولُ اللَّهِ ﷺ وَنَحْنُ فِى الصُّفَّةِ فَقَالَ «أَيُّكُمْ يُحِبُّ أَنْ يَغْدُوَ كُلَّ يَوْمٍ إِلَى بُطْحَانَ أَوْ إِلَى الْعَقِيقِ فَيَأْتِىَ مِنْهُ بِنَاقَتَيْنِ كَوْمَاوَيْنِ فِى غَيْرِ إِثْمٍ وَلاَ قَطْعِ رَحِمٍ». فَقُلْنَا يَا رَسُولَ اللَّهِ نُحِبُّ ذَلِكَ. قَالَ «أَفَلاَ يَغْدُو أَحَدُكُمْ إِلَى الْمَسْجِدِ فَيَعْلَمَ أَوْ يَقْرَأَ آيَتَيْنِ مِنْ كِتَابِ اللَّهِ ﷻ خَيْرٌ لَهُ مِنْ نَاقَتَيْنِ وَثَلاَثٌ خَيْرٌ لَهُ مِنْ ثَلاَثٍ وَأَرْبَعٌ خَيْرٌ لَهُ مِنْ أَرْبَعٍ وَمِنْ أَعْدَادِهِنَّ مِنَ الإِبِلِ».

523. Uqbə ibn Amir ﷺ demişdir: "Biz Suffədə[690] olarkən Allah Elçisi sallallahu aleyhi və səlləm gəlib dedi: "Hansınız hər səhər Büthan və ya əl-Əqiq vadisinə gedib günah etmədən və qohumluq əlaqələrini kəsmədən oradan hörgüclü iki maya dəvə gətirmək istəyir?" Biz dedik: "Ey Allahın Elçisi! Biz bunu istəyirik". O dedi: "Sizdən biri səhər məscidə gedib, Allahın ﷻ kitabından iki ayə öyrənərsə və ya (onları) oxuyarsa, bu onun üçün iki dəvədən daha xeyirli olar. Üç ayə onun üçün üç dəvədən, dörd ayə onun üçün dörd dəvədən daha xeyirli olar. (Öyrənilən və oxunulan) ayələrin sayı nə qədər-dirsə, o qədər də dəvələrdən daha xeyirlidir".[691]

[689] Muslim, 1908.
[690] Suffə - Peyğəmbərin ﷺ məscidində evsizlər üçün ayrılmış bir yer.
[691] Muslim, 1909.

BƏLA, XƏSTƏLİK VƏ ZİYARƏT

ƏN ÇOX BƏLAYA MƏRUZ QALANLAR

٥٢٤ - عَنْ عَطَاءِ بْنِ يَسَارٍ أَنَّ أَبَا سَعِيدٍ الْخُدْرِيَّ ﷺ دَخَلَ عَلَى رَسُولِ اللهِ ﷺ وَهُوَ مَوْعُوكٌ، عَلَيْهِ قَطِيفَةٌ، وَوَضَعَ يَدَهُ عَلَيْهَا فَوَجَدَ حَرَارَتَهَا فَوْقَ الْقَطِيفَةِ، فَقَالَ أَبُو سَعِيدٍ: مَا أَشَدَّ حَرَّ حُمَّاكَ يَا رَسُولَ اللهِ؟، فَقَالَ رَسُولُ اللهِ ﷺ: إِنَّا كَذَلِكَ يُشَدَّدُ عَلَيْنَا الْبَلاَءُ وَيُضَاعَفُ لَنَا الأَجْرُ ثُمَّ قَالَ: يَا رَسُولَ اللهِ، مَنْ أَشَدُّ النَّاسِ بَلاَءً؟ قَالَ: الأَنْبِيَاءُ قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: الْعُلَمَاءُ قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: ثُمَّ الصَّالِحُونَ كَانَ أَحَدُهُمْ يُبْتَلَى بِالْفَقْرِ حَتَّى مَا يَجِدُ إِلاَّ الْعَبَاءَةَ يَلْبَسُهَا، وَيُبْتَلَى بِالْقُمَّلِ حَتَّى تَقْتُلَهُ، وَلاَحَدُهُمْ كَانَ أَشَدَّ فَرَحًا بِالْبَلاَءِ مِنْ أَحَدِكُمْ بِالْعَطَاءِ.

524. Ata ibn Yəsər[692] ﷺ rəvayət edir ki, bir dəfə Əbu Səid əl-Xudri ﷺ Allah Elçisi sallәllahu aleyhi və sәlləm qızdırmalı olduğu halda onun yanına gəldi. Allah Elçisinin sallәllahu aleyhi və sәlləm üzərində dəsmal var idi. Əbu Səid ﷺ əlini dəsmalın üzərinə qoydu və istiliyi dəsmalın üzərində hiss edib dedi: "Sənin necə də şiddətli qızdırman var, ey Allahın Elçisi?!" Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Bizə gələn bəla belə şiddətli olur və mükafatı da qat-qat verilir". Əbu Səid ﷺ soruşdu: "Ey Allahın Elçisi, insanlardan ən güclü bəlaya məruz qalanlar kimlərdir?" O buyurdu: "Peyğəmbərlər". Əbu Səid ﷺ soruşdu: "Sonra kimlərdir?" O buyurdu: "Alimlər". Əbu Səid ﷺ soruşdu: "Sonra kimlərdir?" O buyurdu: "Sonra əməlisalehlərdir. Onlardan kimisi əbadan başqa geyinməyə heç bir şey tapmayana qədər kasıblaşır, kimisini bit basır və onun ölümünə səbəb olur. Həqiqətən, onlar başlarına gələn bəlaya sizin hədiyyəyə sevinməyinizdən daha çox sevinirlər".[693]

٥٢٥ - عَنْ فَاطِمَةَ بِنْتِ الْيَمَانِ ﷺ قَالَتْ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ مِنْ أَشَدِّ النَّاسِ بَلاءً الأَنْبِيَاءَ، ثُمَّ الَّذِينَ يَلُونَهُمْ ثُمَّ الَّذِينَ يَلُونَهُمْ، ثُمَّ الَّذِينَ يَلُونَهُمْ».

525. Fatimə bint əl-Yəmən ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "İnsanlardan ən çox bəlaya düçar olanlar peyğəmbərlərdir, sonra (fəzilətdə) onların ardınca gələnlər, sonra onların ardınca gələnlər, sonra onların ardınca gələnlər".[694]

٥٢٦ - عَنْ سَعْدِ بْنِ أَبِى وَقَّاصٍ ﷺ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ أَىُّ النَّاسِ أَشَدُّ بَلاَءً؟ قَالَ: «الأَنْبِيَاءُ ثُمَّ الأَمْثَلُ فَالأَمْثَلُ

---

[692] Əbu Muhəmməd Ata ibn Yəsar əl-Mədəni ﷺ tanınmış tabiin olmuşdur. Hicrətin 39-cu ilində anadan olmuş, hicrətin 102-ci ilində vəfat etmişdir.

[693] əl-Hakim, 119; İbn Əbud-Dunyə "Mərad vəl Kəffərat" 1. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3403) səhih olduğunu bildirmişdir.

[694] Əhməd, 27124. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 996) səhih olduğunu bildirmişdir.

يُبْتَلَى الْعَبْدُ عَلَى حَسَبِ دِينِهِ فَإِنْ كَانَ فِي دِينِهِ صُلْبًا اشْتَدَّ بَلاَؤُهُ وَإِنْ كَانَ فِي دِينِهِ رِقَّةٌ ابْتُلِيَ عَلَى حَسَبِ دِينِهِ فَمَا يَبْرَحُ الْبَلاَءُ بِالْعَبْدِ حَتَّى يَتْرُكَهُ يَمْشِي عَلَى الأَرْضِ وَمَا عَلَيْهِ مِنْ خَطِيئَةٍ».

526. Sad ibn Əbu Vaqqas ﷺ rəvayət edərək deyir: "Mən dedim: "Ey Allahın Elçisi, ən şiddətli bəlaya düçar olan insanlar kimlərdir?" O buyurdu: "Peyğəmbərlər, sonra onlara daha yaxın olanlar, sonra onlara daha yaxın olanlardır. Kişi dininə görə imtahan olunur. Əgər dinində möhkəmdirsə, imtahanı çətinləşir. Yox, əgər dinində zəifdirsə, Allah onu dininə görə imtahan edir. Qul yer üzərində günahsız gəzənədək bəla ona gəlməkdə davam edir".[695]

٥٢٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ مَنْ يُرِدْ اللَّهُ بِهِ خَيْرًا يُصِبْ مِنْهُ.

527. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Allah kimə xeyir nəsib etmək istəsə, onu imtahana çəkər".[696]

BƏLA VƏ XƏSTƏLİKLƏR GÜNAHLARA KƏFFARƏDİR

٥٢٨ - عَنْ أَنَسٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «إِنَّ عِظَمَ الْجَزَاءِ مَعَ عِظَمِ الْبَلاَءِ وَإِنَّ اللَّهَ إِذَا أَحَبَّ قَوْمًا ابْتَلاَهُمْ فَمَنْ رَضِيَ فَلَهُ الرِّضَا وَمَنْ سَخِطَ فَلَهُ السَّخَطُ».

528. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Mükafatın böyüklüyü bəlanın böyüklüyünə görədir. Həqiqətən, Allah bir qövmü sevərsə, onlara bəla verməklə imtahan edər. Kim razı olarsa, Allahın razılığını qazanar. Kim qəzəblənərsə, Allah da ona qəzəblənər".[697]

٥٢٩ - عَنْ جَابِرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «يَودُّ أَهْلُ الْعَافِيةِ يَوْمَ الْقِيَامَةِ، حِينَ يُعْطَى أَهْلُ الْبلاَءِ الثَّوَابَ، لَوْ أَنَّ جُلُودَهُمْ كَانَتْ قُرِضَتْ فِي الدُّنْيَا بِالْمَقَارِيْض».

529. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Qiyamət günü bəlaya düçar olanlara savab veriləcəyi zaman, bəla görməyənlər dünyada (imtahana çəkilib) dərilərinin kəskin alətlərlə kəsilib parçalanmasını arzulayacaqlar".[698]

---

[695] İbn Məcə, 4023, 4159. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[696] əl-Buxari, 5645.
[697] ət-Tirmizi, 2396, 2576; İbn Məcə, 4031. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.
[698] ət-Tirmizi, 2402, 2582. əl-Albani həsən olduğunu bildirmişdir.

٥٣٠ - عَنْ عَائِشَةَ ﵂ أَنَّ رَجُلًا تَلاَ هَذِهِ الْآيَةَ ﴿**مَنْ يَعْمَلْ سُوءًا يُجْزَ بِهِ**﴾ فَقَالَ: إِنَّا لَنُجْزَى بِكُلِّ مَا عَمِلْنَا، هَلَكْنَا إِذَا، فَبَلَغَ ذَلِكَ رَسُولَ اللَّهِ ﷺ فَقَالَ: نَعَمْ يُجْزَى بِهِ فِي الدُّنْيَا مِنْ مُصِيبَةٍ فِي جَسَدِهِ مِمَّا يُؤْذِيهِ.

530. Aişə ﵂ demişdir: "Bir kişi bu ayəni: ***"Pislik edən kəs, onun cəzasını alacaq"*** *(ən-Nisa, 123)* – oxudu və dedi: "Biz etdiyimiz hər bir əmələ görə cəzalandırılacağıqsa, onda biz həlak olduq!" Bu xəbər Allah Elçisinə salləllahu aleyhi və səlləm çatdı və o buyurdu: "Bəli, o, dünyada bədəninə əziyyət verəcək şeylərlə imtahan olunmaqla cəzalandırılacaq".[699]

٥٣١ - عَنْ أَبِي بَكْرٍ الصِّدِّيقِ ﵁ أَنَّهُ قَالَ: يَا رَسُولَ اللَّهِ كَيْفَ الصَّلاَحُ بَعْدَ هَذِهِ الْآيَةِ ﴿**لَيْسَ بِأَمَانِيِّكُمْ وَلاَ أَمَانِيِّ أَهْلِ الْكِتَابِ مَنْ يَعْمَلْ سُوءًا يُجْزَ بِهِ**﴾ وَكُلُّ شَيْءٍ عَمِلْنَا جُزِينَا بِهِ؟ فَقَالَ: غَفَرَ اللَّهُ لَكَ يَا أَبَا بَكْرٍ، أَلَسْتَ تَمْرَضُ؟ أَلَسْتَ تَحْزَنُ؟ أَلَسْتَ تُصِيبُكَ اللَّأْوَاءُ؟ قَالَ: قُلْتُ: بَلَى، قَالَ: هُوَ مَا تُجْزَوْنَ بِهِ.

531. Əbu Bəkr əs-Siddiq ﵁ demişdir: "Bir dəfə mən dedim: "Ey Allahın Elçisi, bu ayədən sonra: **"***(Bu nemətə nail olmaq)* ***nə sizin arzunuzla, nə də Kitab əhlinin arzusu ilədir. Pislik edən kəs, onun cəzasını alacaq"*** *(ən-Nisa, 123)* – etdiyimiz hər bir əməlin cəzasını alacağımız halda necə salamat qalmaq olar?" O buyurdu: "Allah səni bağışlasın, ey Əbu Bəkr! Məgər sən xəstələnmirsən, kədərlənmirsən, bəlaya düçar olmursan?" Mən: "Bəli"- dedim. O buyurdu: "Siz elə bunlarla cəzalandırılırsınız".[700]

٥٣٢ - عن زياد بن الربيع قال: قلت لأبي بن كعب ﵁ آية في كتاب الله قد أحزنتني قال: ما هي؟ قلت: ﴿**مَنْ يَعْمَلْ سُوءًا يُجْزَ بِهِ**﴾ قال: ما كنت أراك إلا أفقه مما أرى. إن المؤمن لا تصيبه عثرة قدم ولا اختلاج عرق إلا بذنب وما يعفو الله عنه أكثر.

532. Ziyad ibn Rəbi demişdir: "Ubey ibn Kəbə ﵁ dedim: "Allahın Kitabında bir ayə məni kədərləndirdi". O soruşdu: "O hansıdır?" Mən dedim: ***"...Pislik edən şəxs, onun cəzasını görəcək..."*** *(ən-Nisa 123)* ayəsidir". Kəb ﵁ dedi: "Mən səni gördüyümdən daha fəqih bilirdim. Həqiqətən, möminə ayaq büdrəməsi, damar titrəməsi kimi müsibətin gəlməsi günahına görə-dir. Allahın əfv etdiyi günahlar isə bundan daha çoxdur".[701]

---

[699] İbn Hibban, 2923. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3429) səhih olduğunu bildirmişdir.
[700] İbn Hibban, 2910. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3430) səhih olduğunu bildirmişdir.
[701] İbn Əbud-Dunyə "əl-Mərad vəl-Kəffərat" 100; Beyhəqi "Şuabul-İman" 9814; İbn Cərir "Təfsir" 5/187. Səlim ibn İyd əl-Hilali hədisin səhih olduğunu qeyd etmişdir.

٥٣٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ الرَّجُلَ لَتَكُونُ لَهُ عِنْدَ اللهِ الْمَنْزِلَةُ، فَمَا يَبْلُغُهَا بِعَمَلٍ، فَلاَ يَزَالُ اللهُ يَبْتَلِيهِ بِمَا يَكْرَهُ، حَتَّى يُبَلِّغَهُ إِيَّاهَا».

533. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Kişinin Allah dərgahında yüksək bir dərəcəsi olur. O, bu dərəcəyə əməli sayəsində nail olmamışdır. Allah onu xoşlamadığı şeylərlə imtahana çəkə-çəkə bu dərəcəyə yüksəltmişdir".[702]

٥٣٤ - عَنْ مُحَمَّدِ بن جُبَيْرِ بن مُطْعِمٍ، عَنْ أَبِيهِ، قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "إِنَّ اللَّهَ ﷻ يَبْتَلِي عَبْدَهُ بِالسَّقَمِ حَتَّى يُكَفِّرَ عَنْهُ كُلَّ ذَنْبِهِ"

534. Muhəmməd ibn Cubeyr ibn Mutim atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Şübhəsiz ki, Allah ﷻ qulunun bütün günahlarını yuyana qədər onu xəstəliyə düçar edir".[703]

٥٣٥ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: "صُدَاعُ الْمُؤْمِنِ, أَوْ شَوْكَةٌ يُشَاكُهَا, أَوْ شَيْءٌ يُؤْذِيهِ يَرْفَعُهُ اللهُ بِهَا يَوْمَ الْقِيَامَةِ دَرَجَةً, وَيُكَفِّرُ بِهَا عَنْهُ ذُنُوبَهُ"

535. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Möminin başının ağrıması, ona tikan batması və ya hər hansı bir şeydən əziyyət çəkməsinə görə Qiyamət günü Allah onu bir dərəcə yüksəldər və günahlarına kəffarə edər".[704]

٥٣٦ - عن أبي هريرة ﷺ يقول قال رسول الله ﷺ ما من مسلم يشاك شوكة في الدنيا يحتسبها إلا قضى بها من خطاياه يوم القيامة

536. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Dünyada ikən (ayağına) tikan batan və (Allahdan) bunun savabını uman elə bir müsəlman yoxdur ki, həmin tikan sayəsində Qiyamət günü onun günahları bağışlanmasın".[705]

---

[702] Əbu Yəalə, 6095; İbn Hibban 2897. əl-Albani səhih olduğunu bildirmişdir.
[703] ət-Tabərani "Mucəmul-Kəbir" 1226, 1527, 1548; əl-Hakim, 1286. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1870) səhih olduğunu qeyd etmişdir.
[704] İbn Əbud-Dunyə "Mərad vəl-Kəffərat" 180. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3434) həsən olduğunu bildirmişdir.
[705] əl-Buxari "Ədəbul-Mufrad" 507. əl-Albani səhih olduğunu bildirmişdir.

٥٣٧ - عن أبي هريرة ﷺ عن النبي ﷺ قال لا يزال البلاء بالمؤمن والمؤمنة في جسده وأهله وماله حتى يلقى الله عز وجل وما عليه خطيئة

537. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Mömin kişinin və mömin qadının bədəninə, ailəsinə və mal-dövlətinə Allahla qarşılaşıncaya qədər bəla üz verərsə, boynunda heç bir günah qalmaz".[706]

٥٣٨ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ: مَا يُصِيبُ الْمُسْلِمَ مِنْ نَصَبٍ وَلاَ وَصَبٍ وَلاَ هَمٍّ وَلاَ حُزْنٍ وَلاَ أَذًى وَلاَ غَمٍّ حَتَّى الشَّوْكَةِ يُشَاكُهَا إِلاَّ كَفَّرَ اللَّهُ بِهَا مِنْ خَطَايَاهُ.

538. Əbu Səid əl-Xudri və Əbu Hureyra ﷺ rəvayət edirlər ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd, hətta (ayağına) batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah (həmin) müsəlmanın günahlarını bağışlamasın".[707]

٥٣٩ - عَنْ أَبِي أُمَامَةَ الْبَاهِلِيِّ ﷺ عَنْ نَبِيِّ اللَّهِ ﷺ قَالَ: "مَا مِنْ عَبْدٍ يُصْرَعُ صَرْعَةً مِنْ مَرَضٍ إِلا بَعَثَهُ اللَّهُ مِنْهَا طَاهِرًا".

539. Əbu Umamə əl-Bəhili ﷺ rəvayət edir ki, Allahın Peyğəmbəri sallәllahu aleyhi və sәlləm demişdir: "Xəstəlikdən əziyyət çəkən elə bir qul yoxdur ki, Allah onu günahlardan təmizlənmiş halda xəstəlikdən azad etməsin".[708]

٥٤٠ - عَنْ عَبْدِ اللَّهِ ﷺ أَتَيْتُ النَّبِيَّ ﷺ فِي مَرَضِهِ وَهُوَ يُوعَكُ وَعْكًا شَدِيدًا وَقُلْتُ إِنَّكَ لَتُوعَكُ وَعْكًا شَدِيدًا قُلْتُ إِنَّ ذَاكَ بِأَنَّ لَكَ أَجْرَيْنِ قَالَ أَجَلْ مَا مِنْ مُسْلِمٍ يُصِيبُهُ أَذًى إِلاَّ حَاتَّ اللَّهُ عَنْهُ خَطَايَاهُ كَمَا تَحَاتُّ وَرَقُ الشَّجَرِ.

540. Rəvayət edilir ki, Abdullah (ibn Məsud) ﷺ demişdir: "Peyğəmbər sallәllahu aleyhi və sәlləm (ağır) xəstələndiyi zaman mən onun yanına gəldim (və baxdım ki,) o, qızdırma içində yanır. Dedim: "(Ey Allahın Elçisi!) Sən qızdırma içində yanırsan! Yəqin bu, sənin iki savab qazanmağına görədir?" O dedi: "Düzdür, başına müsibət gəlmiş elə bir müsəlman yoxdur ki,

---

[706] əl-Buxari "Ədəbul-Mufrad" 494. əl-Albani səhih olduğunu bildirmişdir.

[707] əl-Buxari, 5642, "Ədəbul-Mufrad" 492; Muslim, 2573.

[708] ət-Təbərani "Mucəmul-Kəbir" 7358, 7485. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3436) səhih olduğunu bildirmişdir.

Allah, ağacın yarpaqları töküldüyü kimi, onu günahlarını təmizləmiş olmasın”.[709]

٥٤١ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ النَّبِىَّ ﷺ عَادَ رَجُلاً مِنْ وَعَكٍ كَانَ بِهِ فَقَالَ «أَبْشِرْ فَإِنَّ اللَّهَ يَقُولُ هِىَ نَارِى أُسَلِّطُهَا عَلَى عَبْدِى الْمُذْنِبِ لِتَكُونَ حَظَّهُ مِنَ النَّارِ» «...هِىَ نَارِى أُسَلِّطُهَا عَلَى عَبْدِىَ الْمُؤْمِنِ فِى الدُّنْيَا لِتَكُونَ حَظَّهُ مِنَ النَّارِ فِى الآخِرَةِ»

541. Əbu Hureyra ﷺ demişdir: “Peyğəmbər salləllahu aleyhi və səlləm qızdırma xəstəliyinə tutulmuş bir adamı ziyarət etdi və dedi: “Sevin, çünki Allah buyurur: “O (qızdırma) Mənim atəşimdir, Cəhənnəm atəşindən bir payı olsun deyə, onu günahkar quluma göndərirəm!”[710] Digər rəvayətdə belə deyilir: “...Allah buyurur: “O (qızdırma xəstəliyi) Mənim atəşimdir. Axirətdə atəşdən bir payı olsun deyə, Mən onu mömin quluma dünyada göndərirəm”.[711]

٥٤٢ - عن جابر ﷺ قال دخل النبي ﷺ على أم السائب وهي تزفزف فقال مالك قالت الحمى أحزاها الله فقال النبي ﷺ مه لا تسبيها فإنها تذهب خطايا المؤمن كما يذهب الكير خبث الحديد

542. Cabir ﷺ demişdir: “Peyğəmbər salləllahu aleyhi və səlləm Ummu Saib ﷺ adlı (xəstə) bir qadına baş çəkdi. Qadın titrəyirdi. Peyğəmbər salləllahu aleyhi və səlləm soruşdu: “Sənə nə olub?” O dedi: “Qızdırmam var. Allah onu zəlil etsin!” Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: “Sus, onu söymə! Çünki bu (xəstəlik), körük dəmirin pasını apardığı kimi, möminin günahlarını silib aparır”.[712]

٥٤٣ - عَنْ عَائِشَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: إِذَا اشْتَكَى الْمُؤْمِنُ أَخْلَصَهُ اللهُ كَمَا يُخْلِصُ الْكِيرُ خَبَثَ الْحَدِيدِ.

543. Aişədən ﷺ rəvayət edildiyinə görə Peyğəmbər salləllahu aleyhi və səlləm belə demişdir: “Körük dəmirin pasını necə aparırsa, mömin də xəstələndiyi zaman Allah onun günahlarını eləcə silib aparır”.[713]

٥٤٤ - حدثنا أنس بن مالك ﷺ عن النبي ﷺ قال ما من مسلم ابتلاه الله في جسده إلا كتب له ما كان يعمل في صحته ما كان مريضا فإن عافاه غسله وإن قبضه غفر له

---

[709] əl-Buxari, 5647; Muslim, 2571.
[710] ət-Tirmizi, 2088, 2232. əl-Albani səhih olduğunu bildirmişdir.
[711] İbn Məcə, 3470, 3599. əl-Albani səhih olduğunu bildirmişdir.
[712] əl-Buxari “Ədəbul-Mufrad” 516. əl-Albani səhih olduğunu bildirmişdir.
[713] İbn Hibban, 2936; əl-Buxari “Ədəbul-Mufrad” 497. əl-Albani səhih olduğunu bildirmişdir.

544. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Allahın xəstəliyə saldığı elə bir müsəlman yoxdur ki, xəstəliyi davam etdikcə sağlam vaxtı yerinə yetirdiyi əməllərin savabı ona yazılmasın. Əgər Allah onu sağaltsa, - güman edirəm ki, Peyğəmbər sallallahu aleyhi və səlləm belə dedi: "Onu yaxşı işlər görməyə müvəffəq edər. Yox əgər onun canını alarsa, onu bağışlayar".[714]

٥٤٥ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ العَبْدَ إذا مَرِضَ أَوْحى اللَّهُ إلى مَلائِكَتِهِ يا ملائكتي أنا قَيَّدْتُ عَبْدِي بقَيْدٍ مِنْ قُيُودِي فإنْ أَقْبِضْهُ أغْفِرْ لهُ وإنْ أعافِهِ فجسد مغفور له لا ذنْبَ لهُ»

545. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, müsəlman qul xəstələndikdə Allah mələklərinə belə vəhy edir: "Ey mələklərim! Mən qulumu iplərimdən biri ilə bağladım. Əgər onun ruhunu alsam, onu bağışlayaram, yox əgər onu sağaltsam, günahlarından təmizlənmiş olar!"[715]

٥٤٦ - عَنْ شَدَّادَ بْنَ أَوْسٍ ﷺ فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ إِنَّ اللَّهَ ﷻ يَقُولُ «إِذَا ابْتَلَيْتُ عَبْدًا مِنْ عِبَادِي مُؤْمِنًا فَحَمِدَنِي و صبر عَلَى مَا بَلَيْتُهُ فَإِنَّهُ يَقُومُ مِنْ مَضْجَعِهِ ذَلِكَ كَيَوْمِ وَلَدَتْهُ أُمُّهُ مِنْ الْخَطَايَا وَيَقُولُ الرَّبُّ ﷻ للحفظة إني أَنَا قَيَّدْتُ عَبْدِي هذا وَابْتَلَيْتُهُ فأجْرُوا لَهُ مَا كُنْتُمْ تُجْرُونَ لَهُ قبل ذلك من الأجر وَهُوَ صَحِيحٌ»

546. Şəddad ibn Əus[716] ﷺ demişdir: "Mən Allah Elçisini sallallahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Allah ﷻ buyurur: "Mömin bir qulumu bəlaya düçar etdikdə o, Mənə həmd edərək düçar etdiyim bəlaya səbr etsə, yatağından anadan doğulduğu gündə olduğu kimi xətalardan (təmizlənərək) ayağa qalxar". Rəbb ﷻ qoruyucu mələklərinə buyurur: "Həqiqətən, Mən bu qulumu əməl etməkdən saxlayıb bəlaya düçar etdim. Bundan əvvəl sağlam ikən (etdiyi əməllərə bərabər) yazdığınız əcr qədər onun üçün mükafat yazın!"[717]

٥٤٧ - عَنْ عَطَاءِ بْنِ يَسَارٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ إِذَا مَرِضَ الْعَبْدُ بَعَثَ اللَّهُ تَعَالَى إِلَيْهِ مَلَكَيْنِ فَقَالَ انْظُرَا مَاذَا يَقُولُ لِعُوَّادِهِ فَإِنْ هُوَ إِذَا جَاءُوهُ حَمِدَ اللَّهَ وَأَثْنَى عَلَيْهِ رَفَعَا ذَلِكَ إِلَى اللَّهِ ﷻ وَهُوَ أَعْلَمُ فَيَقُولُ لِعَبْدِي عَلَيَّ إِنْ تَوَفَّيْتُهُ أَنْ أُدْخِلَهُ

---

[714] əl-Buxari "Ədəbul-Mufrad" 501. əl-Albani həsən səhih olduğunu söyləmişdir.

[715] əl-Beyhəqi "Şuabul-İman" 9923. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1673) səhih olduğunu qeyd etmişdir.

[716] Şəddad ibn Əus əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 58-ci ilində Qüdsdə vəfat etmişdir.

[717] ət-Təbərani "Mucəmul-Əvsat" 4709. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4300) həsən olduğunu bildirmişdir.

الْجَنَّةَ وَإِنْ أَنَا شَفَيْتُهُ أَنْ أُبْدِلَ لَهُ لَحْمًا خَيْرًا مِنْ لَحْمِهِ وَدَمًا خَيْرًا مِنْ دَمِهِ وَأَنْ أُكَفِّرَ عَنْهُ سَيِّئَاتِهِ

547. Ata ibn Yəsər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Bir qul xəstələndikdə Uca Allah onun yanına iki mələk göndərərək buyurur: "Onu ziyarət edənlərə nə söylədiyinə baxın!" (Ziyarət edənlər) onun yanına gəldikdə, o, Allaha həmd-səna etsə, mələklər - Allahın daha yaxşı bildiyi halda - bu (sözləri) Allaha yüksəldirlər. Allah buyurur: "Qulumu vəfat etdirəcəyim təqdirdə Cənnətə daxil edəcəyimi, sağaldacağım təqdirdə isə ətini daha yaxşı ət ilə, qanını da daha yaxşı qan ilə dəyişdirəcəyimi və günahlarını bağışlayacağımı Özümə vacib etdim".[718]

٥٤٨ - أبا هريرة ﷺ يحدث قال: دخلت على أم عبد الله بنت أبي ذباب عائدا لها من شكوى فقالت: يا أبا هريرة! إني دخلت على أم سلمة أعودها من شكوى، فنظرت إلى قرحة في يدي فقالت: سمعت رسول الله ﷺ يقول: ما ابتلى الله عبدا ببلاء و هو على طريقة يكرهها، إلا جعل الله ذلك البلاء له كفارة و طهورا، ما لم يترل ما أصابه من البلاء بغير الله، أو يدعو غير الله في كشفه

548. Əbu Hureyra ﷺ demişdir: "Bir dəfə mən Ummu Abdullah bint Əbu Zubab xəstə ikən onu ziyarət etmək üçün yanına daxil oldum və o, mənə dedi: "Ey Əbu Hureyra, mən Ummu Sələmə xəstə ikən onu ziyarət etmək üçün yanına getmişdim. O, mənim əlimdəki yaranı görüb dedi: "Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə buyurduğunu eşitdim: "Allah qulunu onun xoşlamadığı bir şeylə imtahan edərsə, o, bəladan yaxa qurtarmaq üçün Allahdan qeyrisindən yardım diləmədiyi müddətdə həmin bəlanı onun üçün günahlardan təmizlik və kəffarə edər".[719]

٥٤٩ - عَنْ أَبِي مُوسَى ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا مَرِضَ الْعَبْدُ أَوْ سَافَرَ، كُتِبَ لَهُ مِثْلُ مَا كَانَ يَعْمَلُ مُقِيمًا صَحِيحًا».

549. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "(Mömin) bəndə xəstələndiyi və ya səfərdə olduğu zaman ona evində və sağlam olarkən etdiyi əməllərin savabı yazılır".[720]

٥٥٠ - عن أبي سعيد الخدري ﷺ قال: يا رسول الله أرأيت هذه الأمراض التي تصيبنا ماذا لنا بها قال كفارات قال أبي

---

[718] Malik, 3465. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3431) həsən li-ğeyrihi olduğunu bildirib.
[719] İbn Əbud-Dunyə "əl-Mərad vəl Kəffərat" 43. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2500) və "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3401) həsən olduğunu bildirmişdir.
[720] əl-Buxari, 2996.

بن كعب ﷺ يا رسول الله وإن قلت قال شوكة فما فوقها قال فدعا أبي على نفسه ألا يفارقه الوعك حتى يموت في ألا يشغله عن حج ولا عمرة ولا جهاد في سبيل الله ولا صلاة مكتوبة في جماعة قال فما باشر رجل جلده بعدها إلا وجد حرها حتى مات

550. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, bir nəfər: "Ey Allahın Elçisi! De görüm başımıza gələn bu xəstəliklərin bizim üçün nə faydası var?"- deyə soruşdu. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Günahlara kəffarədir". Buna rəğmən Ubeyy ibn Kəb ﷺ soruşdu: "Ey Allahın Elçisi, az da olsa?" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Kiçik bir tikan da olsa". Əbu Səid ﷺ dedi: "Ubeyy ibn Kəb həcc, ümrə, Allah yolunda cihad və camaatla qılınan fərz olan namazlardan ayrılmamaq şərtilə ölənə qədər xəstəliyinin özündən getməməsi üçün dua etdi". Əbu Səid ﷺ sözünə davam edərək dedi: "Bundan sonra onun dərisinə toxunan hər kəs onun hərarətini hiss edirdi. Bu hərarət ölənə qədər davam etdi".[721]

٥٥١ - عَنْ عَبْدِ اللهِ بْنِ الْمُغَفَّلِ ﷺ قَالَ: أَتَى رَجُلٌ النَّبِيَّ ﷺ فَقَالَ: وَاللهِ يَا رَسُوْلَ اللهِ! إِنِّي لأُحِبُّكَ، فَقَالَ لَهُ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ الْبَلاَيَا أَسْرَعُ إِلَى مَنْ يُحِبُّنِي مِنَ السَّيْلِ إِلَى مُنْتَهَاهُ».

551. Abdullah ibn əl-Muğaffəl ﷺ rəvayət edir ki, bir kişi Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: "Vallahi, ey Allahın Elçisi! Həqiqətən, mən səni sevirəm". Allah Elçisi sallallahu aleyhi və səlləm ona buyurdu: "Həqiqətən də, məni sevənə bəlalar selin mənsəbinə axdığından daha tez gəlir".[722]

٥٥٢ - عَنْ كَعْبِ بْنِ عُجْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ الْفَقْرَ أَسْرَعُ إِلَى مَنْ يُحِبُّنِي مِنَ السَّيْلِ إِلَى مَعَادِنِه، وَإِنَّهُ سَيُصِيبُكَ بَلاَء فَأَعِدَّ لَهُ تَجْفَافاً».

552. Kəb ibn Ucrə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, kasıblıq məni sevənə sel mənsəbinə axdığından daha tez gəlir. Şübhəsiz ki, sənə bəla gələcək, elə isə ondan qorunmaq üçün sipər hazırla![723]"[724]

---

[721] İbn Əbi əd-Dunyə "əl-Mərad vəl-Kəffərat" 10; ən-Nəsəi "Sunənul-Kubra" 3/502, 503; Əhməd, 3/23; Əbu Yəala, 995; əl-Beyhəqi "Şuabul-İman" 9970, 9971. Səlim ibn İyd əl-Hilali həsən olduğunu bildirib.

[722] İbn Hibban, 2911. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[723] Yəni sənə gələcək bəlaya səbr et.

[724] ət-Tabərani "Mucəmul-Əvsat" 7157. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3271) həsən olduğunu bildirmişdir.

٥٥٣ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ: أَنَّهُ شَكَا إِلَى رَسُولِ اللَّهِ ﷺ حَاجَتَهُ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «اصْبِرْ أَبَا سَعِيدٍ فَإِنَّ الْفَقْرَ إِلَى مَنْ يُحِبُّنِي مِنْكُمْ أَسْرَعُ مِنْ السَّيْلِ عَلَى أَعْلَى الْوَادِي، وَمِنْ أَعْلَى الْجَبَلِ إِلَى أَسْفَلِهِ».

553. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, (bir gün) o, Allah Elçisinə sallәllahu aleyhi və sәllәm kasıblıqdan şikayət etdi və Allah Elçisi sallәllahu aleyhi və sәllәm ona buyurdu: "Səbr et, ey Əbu Səid! Həqiqətən, məni sevənə kasıblıq, sel vadinin üst hissəsinə çatdığından və dağın üstündən aşağıya doğru axdığından daha tez gəlir".[725]

GÖZLƏRİNİ İTİRƏRƏK BUNA SƏBR EDƏN

٥٥٤ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ «إِنَّ اللَّهَ قَالَ إِذَا ابْتَلَيْتُ عَبْدِي بِحَبِيبَتَيْهِ فَصَبَرَ عَوَّضْتُهُ مِنْهُمَا الْجَنَّةَ». يُرِيدُ عَيْنَيْهِ.

554. Ənəs ibn Məlik ﷺ demişdir: "Mən Peyğəmbərin sallәllahu aleyhi və sәllәm belə dediyini eşitmişəm: "Allah buyurmuşdur: "Əgər Mən Öz qulumu onun sevdiyi iki şeylə imtahana çəksəm və o buna səbr etsə, bunun əvəzində ona Cənnət bəxş edərəm". Allah "sevdiyi iki şeylə" deyəndə gözləri qəsd edirdi".[726]

٥٥٥ - عَنْ أَبِي أُمَامَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ: «يَقول الله يا ابن آدمَ إِذا أَخذتُ كَرِيمَتَيكَ فَصبرتَ عِند الصَّدمةِ واحتَسبتَ لَم أَرضَ لَك ثَواباً دُون الجَنَّة»

555. Əbu Umamə ﷺ Peyğəmbərdən sallәllahu aleyhi və sәllәm rəvayət edir ki, Allah buyurdu: "Ey Adəm oğlu! Sənin iki əzizini (gözlərini) əlindən aldığım zaman ilk anda səbir edib əvəzini (Məndən) umsan, sənə mükafat olaraq Cənnətdən başqa bir şey verməyə razı olmaram".[727]

TAUNDAN ÖLƏN MÜSƏLMAN ŞƏHİDDİR

٥٥٦ - عَن أَبِي عَسِيب ﷺ مَوْلَى رَسُولِ الله ﷺ قَالَ: قَالَ رَسُولُ الله ﷺ: أَتَانِي جِبْرِيلُ عليه السلام بِالْحُمَّى، وَالطَّاعُونِ، فَأَمْسَكْتُ الْحُمَّى بِالْمَدِينَةِ ، وَأَرْسَلْتُ الطَّاعُونَ إِلَى الشَّامِ شَهَادَةٌ لأُمَّتِي، وَرِجْزٌ عَلَى الْكَافِرِ.

---

[725] Əhməd, 11397. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2828) səhih olduğunu bildirmişdir.
[726] əl-Buxari, 5653, 5221; "Ədəbul-Mufrad" 534.
[727] əl-Buxari "Ədəbul-Mufrad" 535. əl-Albani hədisin isnadını həsən olduğunu bildirmişdir.

556. Allah Elçisinin sallәllahu aleyhi və sәllәm azad etdiyi Əbu Asib ﷺ adlı kölə rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Cəbrail عليه السلام qızdırma və taun ilə yanıma gəldi. Qızdırmanı Mədinədə saxlayıb, taunu Şama göndərdim. Taun ümmətim üçün şəhidlik, kafir üçün isə murdarlıqdır".[728]

٥٥٧ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ الطَّاعُونُ شَهَادَةٌ لِكُلِّ مُسْلِمٍ.

557. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Taun xəstəliyindən ölən hər bir müsəlman şəhid sayılır".[729]

٥٥٨ - عَنْ عَائِشَةَ رضي الله عنها زَوْجِ النَّبِيِّ ﷺ قَالَتْ: سَأَلْتُ رَسُولَ اللَّهِ ﷺ عَنِ الطَّاعُونِ، فَأَخْبَرَنِي: «أَنَّهُ عَذَابٌ يَبْعَثُهُ اللَّهُ عَلَى مَنْ يَشَاءُ، وَأَنَّ اللَّهَ جَعَلَهُ رَحْمَةً لِلْمُؤْمِنِينَ، لَيْسَ مِنْ أَحَدٍ يَقَعُ الطَّاعُونُ فَيَمْكُثُ فِي بَلَدِهِ صَابِرًا مُحْتَسِبًا، يَعْلَمُ أَنَّهُ لاَ يُصِيبُهُ إِلاَّ مَا كَتَبَ اللَّهُ لَهُ، إِلاَّ كَانَ لَهُ مِثْلُ أَجْرِ شَهِيدٍ».

558. Rəvayət edilir ki, Peyğəmbərin sallәllahu aleyhi və sәllәm zövcəsi Aişə رضي الله عنها demişdir: "(Bir dəfə) mən Peyğəmbərdən sallәllahu aleyhi və sәllәm taun barəsində soruşdum. O mənə dedi: "Bu bir əzabdır, Allah onu istədiyinə göndərir. (Bununla belə) Allah onu möminlər üçün bir mərhəmət etmişdir. Belə ki, yaşadığı məmləkətdə taun yayılmış bir adam səbir edərək və savabını (Allahdan) diləyərək, üstəlik bu xəstəliyin ona yalnız Allahın qəzavü-qədəri ilə yoluxa biləcəyinə etiqad edərək o yerdə qalarsa, ona şəhidin savabı qədər savab yazılar".[730]

ALLAHDAN SALAMATLIQ DİLƏYİN!

٥٥٩ - أَنَّ مُعَاذَ بْنَ رِفَاعَةَ أَخْبَرَهُ عَنْ أَبِيهِ ﷺ قَالَ قَامَ أَبُو بَكْرٍ الصِّدِّيقُ عَلَى الْمِنْبَرِ ثُمَّ بَكَى فَقَالَ قَامَ رَسُولُ اللَّهِ ﷺ عَامَ الأَوَّلِ عَلَى الْمِنْبَرِ ثُمَّ بَكَى فَقَالَ «سَلُوا اللَّهَ الْعَفْوَ وَالْعَافِيَةَ فَإِنَّ أَحَدًا لَمْ يُعْطَ بَعْدَ الْيَقِينِ خَيْرًا مِنَ الْعَافِيَةِ».

559. Muaz ibn Rifəa ﷺ demişdir: "Əbu Bəkr əs-Siddiq ﷺ minbərə qalxdı, sonra ağlayaraq dedi: "Allah Elçisi sallәllahu aleyhi və sәllәm bir il bundan əvvəl minbərə qalxdı, sonra ağlayaraq belə dedi: "Allahdan əfv və salamat-

---

[728] ət-Tabərani "Mucəmul-Kəbir" 974, 18407. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1401) səhih olduğunu bildirmişdir.
[729] əl-Buxari, 5732; ət-Tayəlisi, 2115.
[730] əl-Buxari, 3474.

lıq diləyin. Çünki heç bir kəsə yəqinlikdən (imandan) sonra salamatlıqdan daha xeyirli bir şey verilməmişdir".[731]

٥٦٠ - عَنِ الْعَبَّاسِ بْنِ عَبْدِ الْمُطَّلِبِ ﷺ قَالَ قُلْتُ يَا رَسُولَ اللَّهِ عَلِّمْنِى شَيْئًا أَسْأَلُهُ اللَّهَ ﷻ. قَالَ "سَلِ اللَّهَ الْعَافِيَةَ». فَمَكَثْتُ أَيَّامًا ثُمَّ جِئْتُ فَقُلْتُ يَا رَسُولَ اللَّهِ عَلِّمْنِى شَيْئًا أَسْأَلُهُ اللَّهَ. فَقَالَ لِى «يَا عَبَّاسُ يَا عَمَّ رَسُولِ اللَّهِ سَلِ اللَّهَ الْعَافِيَةَ فِى الدُّنْيَا وَالآخِرَةِ"..."أتى النبي ﷺ رجل فقال يا رسول الله! أي الدعاء أفضل؟ قال: "سل الله العفو و العافية في الدنيا و الآخرة". ثم أتاه الغد. فقال: يا نبي الله! أي الدعاء أفضل؟ قال: "سل الله العفو و العافية في الدنيا و الآخرة ، فإذا أعطيت العافية في الدنيا و الآخرة ، فقد أفلحت"

560. Abbas ibn Abdulmuttalib ﷺ demişdir: "Mən dedim: "Ey Allahın Elçisi, mənə elə bir şey öyrət ki, onu Allahdan ﷻ istəyim". O buyurdu: "Allahdan salamatlıq dilə!" Bir neçə gün keçdikdən sonra yenə gəlib dedim: "Ey Allahın Elçisi, mənə elə bir şey öyrət ki, onu Allahdan istəyim". O, mənə buyurdu: "Ey Abbas, ey Allah Elçisinin əmisi, Allahdan dünya və Axirətdə salamatlıq dilə!"[732] Digər rəvayətdə deyilir: "Bir kişi Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi! Hansı dua daha fəzilətlidir?" O dedi: "Allahdan dünyada və Axirətdə bağışlanma və salamatlıq dilə". Kişi ertəsi gün yenə gəlib soruşdu: "Ey Allahın Peyğəmbəri! Hansı dua daha fəzilətlidir?" O dedi: "Allahdan dünyada və Axirətdə bağışlanma və salamatlıq dilə. Əgər dünyada və Axirətdə sənə salamatlıq nəsib olsa, nicat tapmış olarsan".[733]

٥٦١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَا مِنْ دَعْوَةٍ يَدْعُو بِهَا الْعَبْدُ أَفْضَلَ مِنْ: اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْمُعَافَاةَ فِي الدُّنْيَا وَالآخِرَةِ.

561. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Qulun "Allahım, Səndən dünya və axirətdə salamatlıq diləyirəm[734]" - duasından daha fəzilətli ediləcək heç bir dua yoxdur".[735]

٥٦٢ - عَنْ عَبْدِ اللهِ بْنِ مِحْصَنٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ أَصْبَحَ مِنْكُمْ آمِناً فِي سِرْبِهِ مُعَافىً فِي جَسَدِهِ، عِنْدَهُ قُوتُ يَوْمِهِ فَكَأَنَّمَا حِيزَتْ لَهُ الدُّنْيَا».

---

[731] ət-Tirmizi, 3558, 3906. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[732] ət-Tirmizi, 3514, 3856; Əhməd 1687. əl-Albani səhih olduğunu bildirmişdir.
[733] əl-Buxari "Ədəbul-Mufrad" 637. əl-Albani səhih olduğunu bildirmişdir.
[734] Transkripsiyası: Allahummə inni əs'əlukəl-muafətə fid-dunyə vəl-əxirati.
[735] İbn Məcə, 3851. əl-Albani səhih olduğunu bildirmişdir.

562. Ubeydullah ibn Mihsan ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim qəlbi rahat, bədəni sağlam, gündəlik yeyəcəyi yanında olduğu halda səhərə çıxarsa, sanki bütün dünya ona verilmiş kimidir".[736]

٥٦٣ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ الْجُهَنِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لاَ تُكْرِهُوا مَرْضَاكُمْ عَلَى الطَّعَامِ وَالشَّرَابِ، فَإِنَّ اللهَ يُطْعِمُهُمْ وَيَسْقِيهِمْ».

563. Uqbə ibn Amir əl-Cuhəni ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Xəstələrinizi yeyib-içməyə məcbur etməyin. Çünki Allah onları yedirdir və içirdir".[737]

XƏSTƏ ZİYARƏTİNİN FƏZİLƏTİ

٥٦٤ - فَقَالَ عَلِيٌّ ﷺ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَا مِنْ مُسْلِمٍ يَعُودُ مُسْلِمًا غُدْوَةً إِلاَّ صَلَّى عَلَيْهِ سَبْعُونَ أَلْفَ مَلَكٍ حَتَّى يُمْسِيَ وَإِنْ عَادَهُ عَشِيَّةً إِلاَّ صَلَّى عَلَيْهِ سَبْعُونَ أَلْفَ مَلَكٍ حَتَّى يُصْبِحَ وَكَانَ لَهُ خَرِيفٌ فِي الْجَنَّةِ».

564. Əli ﷺ demişdir: "Allah Elçisinin sallallahu aleyhi və səlləm belə buyurduğunu eşitdim: "Bir müsəlman digər xəstə müsəlmanı səhər ziyarət edərsə, yetmiş min mələk onun üçün axşama qədər dua edər. Əgər axşam ziyarət edərsə, yetmiş min mələk onun üçün səhərə qədər dua edər və ona Cənnətdə bir bağ verilər".[738]

٥٦٥ - عَنْ عَلِيٍّ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ أَتَى أَخَاهُ الْمُسْلِمَ عَائِدًا مَشَى فِي خِرَافَةِ الْجَنَّةِ حَتَّى يَجْلِسَ فَإِذَا جَلَسَ غَمَرَتْهُ الرَّحْمَةُ فَإِنْ كَانَ غُدْوَةً صَلَّى عَلَيْهِ سَبْعُونَ أَلْفَ مَلَكٍ حَتَّى يُمْسِيَ وَإِنْ كَانَ مَسَاءً صَلَّى عَلَيْهِ سَبْعُونَ أَلْفَ مَلَكٍ حَتَّى يُصْبِحَ».

565. Əli ﷺ rəvayət edir ki, Allah Elçisini sallallahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Kim xəstə müsəlman qardaşını ziyarət etməyə gələrsə, (onun yanına gəlib) oturanadək Cənnət bağlarında yeriyər. Oturduqda isə onu rəhmət bürüyər. Bunu səhər edərsə, axşamadək yetmiş min mələk onun üçün bağışlanma diləyər. Axşam edərsə, səhərədək yetmiş min mələk onun üçün bağışlanma diləyər".[739]

---

[736] ət-Tirmizi, 2346, 2519. əl-Albani həsən olduğunu bildirmişdir.
[737] İbn Məcə, 3444, 3570; ət-Tirmizi, 2040, 2175. əl-Albani həsən olduğunu bildirmişdir.
[738] ət-Tirmizi, 965, 985. əl-Albani səhih olduğunu bildirmişdir.
[739] İbn Məcə, 1442, 1509. əl-Albani səhih olduğunu qeyd etmişdir.

٥٦٦ - عَنْ ثَوْبَانَ ﷺ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ مَنْ عَادَ مَرِيضًا لَمْ يَزَلْ فِي خُرْفَةِ الْجَنَّةِ قِيلَ يَا رَسُولَ اللَّهِ وَمَا خُرْفَةُ الْجَنَّةِ قَالَ جَنَاهَا

566. Səubən ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Kim bir xəstəni ziyarət edərsə, Cənnət bağında gəzişər". Səhabələr: "Ey Allahın Elçisi, Cənnət bağı nədir?"- deyə soruşdular. Allah Elçisi sallәllahu aleyhi və sәlləm: "Onun meyvələridir"- buyurdu".[740]

[740] Muslim, 2568, 4660, 6719.

ƏXLAQ

ÜMMƏTİN ƏN XEYİRLİLƏRİ

٥٦٧ - عن أبي هريرة ﷺ عن النبي ﷺ قال شرار أمتي الثرثارون المتشدقون المتفيهقون وخيار أمتي أحاسنهم أخلاقا

567. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Ümmətimin ən pisləri boşboğazlar, çoxdanışanlar, lovğalardır. Ümmətimin ən xeyirliləri isə əxlaqları ən gözəl olanlardır".[741]

CƏHƏNNƏM ODU KİMƏ HARAMDIR?

٥٦٨ - عَنِ ابْنِ مَسْعُودٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «أَلاَ أُخْبِرُكُمْ بِمَنْ تَحْرُمُ عَلَيْهِ النَّار». قَالُوا: بَلَى يَا رَسُوْلَ اللهِ قَالَ: «عَلَى كُلِّ هَيْنٍ لَيْنٍ قَرِيْبٍ سَهْلٍ».

568. İbn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Cəhənnəm odunun kimə haram olduğunu sizə xəbər verimmi?" Dedilər: "Bəli, ey Allahın Elçisi!" O buyurdu: "Hər mülayim, lütfkar və üzüyola (möminə)".[742]

ƏXLAQI GÖZƏL OLAN MÖMİN

٥٦٩ - عن عمرو بن شعيب عن أبيه عن جده ﷺ أنه سمع النبي ﷺ يقول أخبركم بأحبكم إلى وأقربكم مني مجلسا يوم القيامة فسكت القوم فأعادها مرتين أو ثلاثا قال القوم نعم يا رسول الله قال أحسنكم خلقا

569. Amr ibn Şuayb atasından, o da atasından ﷺ Peyğəmbərin salləllahu aleyhi və səlləm belə dediyini eşitmişdir: "Sizdən mənə ən sevimli olan və Qiyamət günü mənim lap yaxınlığımda oturan kimsə barədə sizə xəbər verimmi?" Camaat susdu. O bunu iki və ya üç dəfə təkrar etdi. Camaat dedi: "Bəli, ey Allahın Elçisi!" O dedi: "Əxlaqı ən gözəl olanınız (buna nail olar)!"[743]

٥٧٠ - عن أبي الدرداء ﷺ عن النبي ﷺ ما من شيء في الميزان أثقل من حسن الخلق

570. Əbu Dərdə ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "(Qiyamət günü) tərəzidə gözəl əxlaqdan daha ağır gələn bir şey yoxdur".[744]

---

[741] əl-Buxari "Ədəbul-Mufrad" 1308. əl-Albani səhih olduğunu bildirmişdir.
[742] İbn Hibban, 470. əl-Albani səhih olduğunu bildirmişdir.
[743] əl-Buxari "Ədəbul-Mufrad" 272. əl-Albani səhih olduğunu bildirmişdir.
[744] əl-Buxari "Ədəbul-Mufrad" 270; əl-Albani səhih olduğunu bildirmişdir.

٥٧١ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ: كُنْتُ مَعَ رَسُوْلِ اللهِ ﷺ فَجَاءَهُ رَجُلٌ مِنَ الأَنْصَارِ، فَسَلَّمَ عَلَى النَّبِيِّ ﷺ ثُمَّ قَالَ: يَا رَسُوْلَ اللهِ! أَيُّ الْمُؤمِنِينَ أَفْضَلُ؟ قَالَ: «أَحْسَنَهُمْ خُلُقاً». قَالَ: فَأَيُّ الْمُؤمِنِينَ أَكْيَسُ؟ قَالَ: «أَكْثَرُهُمْ لِلْمَوتِ ذِكْراً، وَأَحسنهُمْ لِمَا بَعْدَهُ اسْتِعدَاداً، أُولئِكَ الأَكْيَاس».

571. İbn Ömər ﷺ rəvayət edir: "Mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm yanında idim. Ənsarlardan bir kişi onun yanına gəlib Peyğəmbərə sallәllahu aleyhi və sәlləm salam verdikdən sonra dedi: "Ey Allahın Elçisi, möminlərin ən üstünü hansılardır?" Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Əxlaqı ən gözəl olanlar!" Kişi dedi: "Möminlərin ən ağıllısı hansılardır?" Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Ölümü çox yad edənlər və ölümdən sonra olana (Axirətə) ən gözəl şəkildə hazırlaşanlar. Ən ağıllı olanlar onlardır".[745]

٥٧٢ - عَنْ عَائِشَةَ ﷺ قَالَتْ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ الرَّجُلَ لَيُدْرِكُ بِحُسْنِ خُلُقِهِ دَرَجَات قَائِمِ اللَّيْلِ صَائِمِ النَّهَارِ».

572. Aişə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Həqiqətən, kişi gözəl əxlaqına görə gecə namaz qılanın, gündüz oruc tutanın dərəcəsinə çatar".[746]

٥٧٣ - عن أبي هريرة ﷺ يقول سمعت أبا القاسم ﷺ يقول خيركم إسلاما أحاسنكم أخلاقا إذا فقهوا

573. Əbu Hureyra ﷺ deyir: "Mən Əbul-Qasimin (Allah Elçisinin sallәllahu aleyhi və sәlləm) belə buyurduğunu eşitdim: "İslamda sizin ən xeyirliniz (şəriəti) başa düşən və əxlaqı ən gözəl olanınızdır".[747]

٥٧٤ - عن أبي هريرة ﷺ سئل رسول الله ﷺ ما أكثر ما يدخل الجنة قال تقوى الله وحسن الخلق قال وما أكثر ما يدخل النار قال الأجوفان الفم والفرج

574. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisindən sallәllahu aleyhi və sәlləm soruşdular: "Cənnətə girməyə daha çox səbəb olan nədir?" O buyurdu: "Allah qorxusu və gözəl əxlaq!" Yenə soruşdular: "Bəs Cəhənnəm oduna girməyə daha çox səbəb olan nədir?" O buyurdu: "İki boşluq; cinsiyyət üzvü və ağız!"[748]

---

[745] İbn Məcə, 4259, 4400. əl-Albani həsən olduğunu bildirmişdir.
[746] əl-Hakim, 199. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1620) səhih olduğunu bildirmişdir.
[747] əl-Buxari "Ədəbul-Mufrad" 285. əl-Albani səhih olduğunu bildirmişdir.
[748] əl-Buxari "Ədəbul-Mufrad" 294. əl-Albani həsən olduğunu bildirmişdir.

٥٧٥ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَنَا زَعِيمٌ بِبَيْتٍ فِي رَبَضِ الْجَنَّةِ لِمَنْ تَرَكَ الْمِرَاءَ وَإِنْ كَانَ مُحِقًّا وَبِبَيْتٍ فِي وَسَطِ الْجَنَّةِ لِمَنْ تَرَكَ الْكَذِبَ وَإِنْ كَانَ مَازِحًا وَبِبَيْتٍ فِي أَعْلَى الْجَنَّةِ لِمَنْ حَسَّنَ خُلُقَهُ».

575. Əbu Umamə əl-Bəhili ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurdu: "Haqlı olsa belə mübahisəni tərk edən üçün Cənnətin kənarında, zarafatda olsa belə yalanı tərk edən üçün Cənnətin ortasında, əxlaqı gözəl olan üçün də Cənnətin ən ali mərtəbəsində evi olacağına zəmanət verirəm!"[749]

٥٧٦ - عَنْ عَامِرِ بْنِ سَعْدٍ أَبِيهِ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ اللهَ تَعَالَى كَرِيْمٌ يُحِبُّ الْكُرَمَاءَ، جَوَادٌ يُحِبُّ الْجَوَدَةَ، وَيُحِبُّ مَعَالِي الأَخْلاَقِ، وَيَكْرَهُ سَفْسَافَهَا».

576. Amir ibn Səd ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Şübhəsiz ki, Uca Allah Səxavətlidir, səxavətli olanları sevər, Comərddir, comərdləri sevər. Həmçinin, yüksək əxlaqı sevər, pis əxlaqı isə sevməz".[750]

BAĞIŞLANMA YOLUNU TUT!

٥٧٧ - عَنْ عَبْدِ اللَّهِ بْنِ الزُّبَيْرِ ﷺ قَالَ: أَمَرَ اللَّهُ نَبِيَّهُ ﷺ أَنْ يَأْخُذَ الْعَفْوَ مِنْ أَخْلاَقِ النَّاسِ.

577. Rəvayət edilir ki, Abdullah ibn Zubeyr ﷺ demişdir: "Allah Öz peyğəmbərinə sallәllahu aleyhi və sәlləm insani əxlaq içərisindən bağışlanma yolunu tutmağı əmr etmişdir".[751]

İSLAMA GÖZƏL TƏRZDƏ ƏMƏL EDƏN

٥٧٨ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِي ﷺ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: إِذَا أَسْلَمَ الْعَبْدُ فَحَسُنَ إِسْلاَمُهُ يُكَفِّرُ اللَّهُ عَنْهُ كُلَّ سَيِّئَةٍ كَانَ زَلَفَهَا، وَكَانَ بَعْدَ ذَلِكَ الْقِصَاصُ، الْحَسَنَةُ بِعَشْرِ أَمْثَالِهَا إِلَى سَبْعِمِائَةِ ضِعْفٍ، وَالسَّيِّئَةُ بِمِثْلِهَا إِلاَّ أَنْ يَتَجَاوَزَ اللَّهُ عَنْهَا

578. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Bir bəndə müsəlman olub İslamı gözəl yaşayarsa, Allah onun

[749] Əbu Davud, 4800, 4802. əl-Albani həsən olduğunu qeyd etmişdir.
[750] İbn Asakir "Tarixu Dəməşq" 14/ 289. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1800) səhih olduğunu bildirmişdir.
[751] əl-Buxari, 4644.

keçmişdə etdiyi hər bir günahını bağışlayar. Bundan sonra isə (edəcəyi əməllərin) əvəzini alar: hər yaxşılığa, onun on mislindən ta yeddi yüz qatınadək (əvəz verilər); hər pisliyə isə yalnız öz misli qədər (cəza verilər). Yalnız Allahın bunu bağışlaması istisnadır".[752]

MÜLAYİMLİK

٥٧٩ - عن أبي الدرداء ﷺ عن النبي ﷺ قال من أعطى حظه من الرفق فقد أعطى حظه من الخير ومن حرم حظه من الرفق فقد حرم حظه من الخير أثقل شيء في ميزان المؤمن يوم القيامة حسن الخلق وإن الله ليبغض الفاحش البذى

579. Əbu Dərdə ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Kimə mülayimlikdən bir pay verilmişsə, ona xeyirdən bir pay verilmişdir. Kim də mülayimlikdən olan payından məhrum olmuşsa, xeyirdən olan payından məhrum olmuşdur. Qiyamət günü möminin tərəzisində ən ağır gələn şey gözəl əxlaq olacaq. Həqiqətən, Allah kobud, təhqiramiz sözlər danışan adama nifrət edir".[753]

٥٨٠ - عَنْ عَائِشَةَ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ لَهَا: «إِنَّهُ مَنْ أُعْطِيَ حَظَّهُ مِنَ الرِّفْقِ فَقَدْ أُعْطِيَ حَظَّهُ مِنْ خَيْرِ الدُّنْيَا وَالآخِرَةِ، وَصِلَةُ الرَّحِمِ وَحُسْنُ الْخُلُقِ وَحُسْنُ الْجِوَارِ، يَعْمُرَانِ الدِّيَارَ وَيَزِيدانَ فِي الأَعْمَارِ».

580. Aişə ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm ona demişdir: "Kimə mülayimlikdən bir pay verilmişsə, ona dünya və Axirət xeyrindən bir pay verilmişdir. Qohumluq əlaqələrini möhkəmlətmək, gözəl əxlaq və gözəl qonşuluq məmləkətləri abadlaşdırır və ömrü artırır".[754]

٥٨١ - عن عبد الله بن مغفل ﷺ عن النبي ﷺ قال إن الله رفيق يحب الرفق ويعطى عليه ما لا يعطى على العنف

581. Abdullah ibn Muğaffəl ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Həqiqətən, Allah mülayimdir və mülayimliyi sevir. Sərtlikdən dolayı vermədiyi mükafatı mülayimliyə görə verir".[755]

٥٨٢ - عن أنس ﷺ عن النبي ﷺ قال لا يكون الخرق في شيء إلا شانه وان الله رفيق يحب الرفق

---

[752] əl-Buxari, 41; ən-Nəsəi, 4998, 5015.
[753] əl-Buxari "Ədəbul-Mufrad" 464. əl-Albani səhih olduğunu bildirmişdir.
[754] Əhməd, 25298. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2524) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 519) səhih olduğunu bildirmişdir.
[755] əl-Buxari "Ədəbul-Mufrad" 472. əl-Albani səhih olduğunu bildirmişdir.

582. Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "(Hansı) bir şeydə şiddət olarsa, mütləq onu alçaldar. Həqiqətən, Allah mülayimdir və mülayimliyi sevir".[756]

٥٨٣ - عن بن عباس رضي الله عنهما قال قال النبي ﷺ لأشج عبد القيس إن فيك لخصلتين يحبهما الله الحلم والأناة

583. İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm Əşəc Abdulqeysə ﷺ buyurdu: "Səndə iki xislət var ki, Allah onları sevir. (Bunlar) mülayimlik və təmkinli olmaqdır".[757]

٥٨٤ - عَنْ عَائِشَةَ رضي الله عنها أَنَّهَا قَالَتْ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِذَا أَرَادَ اللَّهُ عز وجل بِأَهْلِ بَيْتٍ خَيْرًا أَدْخَلَ عَلَيْهِمْ الرِّفْقَ» «...إنّ اللَّهَ إذا أحَبَّ أهلَ بَيْتٍ أدْخَلَ عليهمُ الرِّفْقَ»

584. Aişə رضي الله عنها rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Əgər Allah ﷻ bir ailəyə xeyir istəyərsə, onlara mülayimlik bəxş edər".[758] Başqa rəvayətdə isə belə buyurur: "Əgər Allah bir ailəni sevərsə, onlara mülayimlik bəxş edər".[759]

٥٨٥ - عَنِ الْحَسَنِ رحمه الله قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَحَبُّ الْعِبَادِ إِلَى اللهِ تَعَالَى أَنْفَعُهُمْ لِعِيَالِهِ».

585. Həsən ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Uca Allahın ən çox sevdiyi qulları ətrafındakı insanlara qayğıkeş olanlardır".[760]

VALİDEYN HAQQLARI

٥٨٦ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو رضي الله عنه قَالَ جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ يَسْتَأْذِنُهُ فِي الْجِهَادِ فَقَالَ أَحَيٌّ وَالِدَاكَ قَالَ نَعَمْ قَالَ فَفِيهِمَا فَجَاهِدْ

586. Abdullah ibn Amr ﷺ demişdir: "Bir kişi Allah Elçisinin sallәllahu aleyhi və sәllәm yanına gələrək cihada getmək etmək üçün izn istədi. Allah Elçisi

---

[756] əl-Buxari "Ədəbul-Mufrad" 466. əl-Albani səhih olduğunu bildirmişdir.
[757] əl-Buxari "Ədəbul-Mufrad" 586. əl-Albani səhih olduğunu bildirmişdir.
[758] Əhməd, 23290, 24427. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1219) və "Sahihul-Cəmius-Sağir"də (№ 303) səhih olduğunu bildirmişdir.
[759] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 2584, 3230. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1704) səhih olduğunu bildirmişdir.
[760] Əhməd ibn Hənbəl "Zuhd"də rəvayət etmiş, əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 172) həsən olduğunu bildirmişdir.

salləllahu aleyhi və səlləm soruşdu: "Valideynlərin sağdır?" O: "Bəli"- deyə cavab verdi. Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Onların (qayğısına qalmaqla) cihad et!"[761]

٥٨٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ لَا يَجْزِي وَلَدٌ وَالِدًا إِلَّا أَنْ يَجِدَهُ مَمْلُوكًا فَيَشْتَرِيَهُ فَيُعْتِقَهُ

587. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allahın Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Övlad atanın haqqını yalnız atası kölə vəziyyətinə düşdükdən sonra onu satın alıb azad etdiyi təqdirdə ödəmiş olar".[762]

٥٨٨ - طيسلة بن مياس قال كنت مع النجدات فاصبت ذنوبا لا أراها الا من الكبائر فذكرت ذلك لابن عمر رضي الله عنهما قال ما هى قلت كذا وكذا قال ليست هذه من الكبائر هن تسع الإشراك بالله وقتل نسمة والفرار من الزحف وقذف المحصنة وأكل الربا وأكل مال اليتيم والحاد في المسجد والذي يستسخر وبكاء الوالدين من العقوق قال لي بن عمر رضي الله عنهما أتفرق من النار وتحب أن تدخل الجنة قلت إى والله قال أحى والدك قلت عندي أمى قال فوالله لو ألنت لها الكلام وأطعمتها الطعام لتدخلن الجنة ما اجتنبت الكبائر

588. Taysələ ibn Məyyas demişdir: "Mən Nəcdatlarla[763] həmrəy idim. Bir gün böyük günahlardan hesab etdiyim bir günah etdim, sonra da bunu İbn Ömərə ﷺ dedim. İbn Ömər ﷺ: "Nədir onlar?"- deyə soruşdu. Mən dedim: "Filan, filan (işləri görmüşəm)". O dedi: "Bunlar ki, böyük günahlardan deyil. Böyük günahlar doqquzdur; Allaha şərik qoşmaq, adam öldürmək, döyüş meydanından qaçmaq, ismətli qadına böhtan atmaq, sələm yemək, yetimin malını yemək, məsciddə günah işlətmək, (dini) məsxərəyə qoymaq və valideynlərin üzünə ağ olub onları ağlatmaq". (Sonra) İbn Ömər ﷺ mənə dedi: "Cəhənnəm odundan çəkinib Cənnətə girmək istəyirsənmi?" Mən: "Bəli, vallahi ki, (istəyirəm)!"- deyə cavab verdim. O soruşdu: "Valideynin sağdırmı?" Dedim: "Yalnız anam yanımdadır!" O dedi: "Allaha and olsun ki, əgər onunla mülayim danışsan və ona yemək-içmək versən, böyük günahlardan çəkinsən, mütləq Cənnətə girəcəksən!"[764]

٥٨٩ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «رِضَى الرَّبِّ فِي رِضَى الْوَالِدِ، وَسَخَطُ الرَّبِّ فِي سَخَطِ الْوَالِدِ».

---

[761] Muslim, 2549, 4623, 6668.

[762] Muslim, 1510, 2779.

[763] Nəcdat - Hərurilərdən (Xavariclərdən) olan Nəcdə ibn Amir əl-Xaricinin havadarlarıdır.

[764] əl-Buxari "Ədəbul-Mufrad" 8. əl-Albani səhih olduğunu bildirmişdir.

589. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "Rəbbin razılığı valideynlərin razılığı ilə, qəzəbi isə valideynlərin qəzəbi ilədir".[765]

٥٩٠ - أَنَّ عَبْدَ اللَّهِ بْنَ عَمْرِو بْنِ الْعَاصِ ﷺ قَالَ أَقْبَلَ رَجُلٌ إِلَى نَبِيِّ اللَّهِ ﷺ فَقَالَ أُبَايِعُكَ عَلَى الْهِجْرَةِ وَالْجِهَادِ أَبْتَغِي الأَجْرَ مِنَ اللَّهِ. قَالَ «فَهَلْ مِنْ وَالِدَيْكَ أَحَدٌ حَيٌّ». قَالَ نَعَمْ بَلْ كِلاَهُمَا. قَالَ «فَتَبْتَغِي الأَجْرَ مِنَ اللَّهِ». قَالَ نَعَمْ. قَالَ «فَارْجِعْ إِلَى وَالِدَيْكَ فَأَحْسِنْ صُحْبَتَهُمَا».

590. Abdullah ibn Amr ibn əl-As ﷺ belə rəvayət edir ki, bir kişi Allahın Peyğəmbərinə sallәllahu aleyhi və sәllәm tərəf gəldi və belə buyurdu: "Mən əcrini Allahdan umaraq hicrət və cihad etmək üçün sənə beyət edirəm". Peyğəmbər sallәllahu aleyhi və sәllәm soruşdu: "Valideynlərindən sağ olanı varmı?" O: "Bəli, hər ikisi"- deyə cavab verdi. Peyğəmbər sallәllahu aleyhi və sәllәm soruşdu: "Sən əcrini Allahdan umursan?" Kişi: "Bəli!"- deyə cavab verdikdə, o belə buyurdu: "Valideynlərinin yanına qayıt və onlarla yaxşı davran!"[766]

ANAYA YAXŞILIQ ETMƏYİN MÜKAFATI

٥٩١ - عَنْ عَائِشَةَ قَالَتْ ﵂ قَالَ رَسُولُ اللَّهِ ﷺ «نِمْتُ فَرَأَيْتُنِى فِى الْجَنَّةِ فَسَمِعْتُ صَوْتَ قَارِئٍ يَقْرَأُ فَقُلْتُ مَنْ هَذَا قَالُوا هَذَا حَارِثَةُ بْنُ النُّعْمَانِ». فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «كَذَاكَ الْبِرُّ كَذَاكَ الْبِرُّ». وَكَانَ أَبَرَّ النَّاسِ بِأُمِّهِ.

591. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Yuxuda özümü Cənnətdə gördüm, orada Quran oxuyan bir kəsin səsini eşitdim və soruşdum: "Bu kimdir?" Dedilər: "Harisə ibn Numan". Allah Elçisi sallәllahu aleyhi və sәllәm dedi: "Yaxşılıq (edənin mükafatı) budur, yaxşılıq (edənin mükafatı) budur!" O, insanlar arasında anasına qarşı ən xeyirxah olanı idi".[767]

HƏYA İMANDANDIR

٥٩٢ - عن أبي بكرة ﷺ عن النبي ﷺ قال الحياء من الإيمان والإيمان في الجنة والبذاء من الجفاء والجفاء في النار

---

[765] ət-Tirmizi, 1899, 2020. əl-Albani səhih olduğunu bildirmişdir.

[766] Muslim, 6671.

[767] Əhməd, 25223, 25926, 24026. Şueyb əl-Arnavut isnadının səhih, ravilərini etibarlı, əl-Buxari və Muslimin ravilərindən olduğunu bildirmişdir.

592. Əbu Bəkrə[768] ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Həya imandandır, iman isə Cənnətdədir. Arsızlıq kobudluqdur, kobudluq isə Cəhənnəmdədir".[769]

٥٩٣ - عن أنس بن مالك ﷺ عن النبي ﷺ قال ما كان الحياء في شيء إلا زانه ولا كان الفحش في شيء إلا شانه

593. Ənəs ibn Mәlik ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Həya olduğu hər bir şeyi gözəlləşdirər. Ədəbsizlik də olduğu hər bir şeyi alçaldar".[770]

٥٩٤ - عن بن عمر رضي الله عنهما قال إن الحياء والإيمان قرنا جميعا فإذا رفع أحدهما رفع الآخر

594. İbn Ömər ﷺ dedi: "Doğrudan da həya ilə iman tamamilə bir-birinə bağlıdırlar. Bunlardan biri aradan qaldırılsa, digəri də qaldırılar".[771]

٥٩٥ - عَنْ زَيدِ بْنِ طَلْحَة بْنِ رَكَانَة ﷺ يَرْفَعُهُ إِلَى النَّبِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لِكُلِّ دِينٍ خُلُق وَخُلُق الإِسْلاَم الْحَيَاء».

595. Zeyd ibn Talhə ibn Rakənə ﷺ mərfu olaraq rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Hər bir dinin əxlaqı vardır, İslam dininin əxlaqı isə həyadır".[772]

٥٩٦ - عَنْ أَنَسٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا كَانَ الْفُحْشُ فِي شَيْءٍ إِلاَّ شَانَهُ، وَمَا كَانَ الْحَيَاءُ فِي شَيْءٍ إِلاَّ زَانَهُ».

596. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Hansı bir işdə çirkinlik olarsa, onu alçaldar, hansı bir işdə həya olarsa, onu gözəlləşdirər".[773]

CAHİLİYYƏTDƏ XEYİRLİ OLANLAR...

٥٩٧ - عن أبي هريرة ﷺ قال سئل رسول الله ﷺ أي الناس أكرم قال أكرمهم عند الله أتقاهم قالوا ليس عن هذا

---

[768] Əbu Bəkrə Nufey ibn Həris əs-Səqafi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. O, hicrətin 51-ci ilində vəfat etmişdir.
[769] əl-Buxari "Ədəbul-Mufrad" 1314. əl-Albani səhih olduğunu bildirmişdir.
[770] əl-Buxari "Ədəbul-Mufrad" 601. əl-Albani səhih olduğunu bildirmişdir.
[771] əl-Buxari "Ədəbul-Mufrad" 1313. əl-Albani səhih olduğunu bildirmişdir.
[772] Malik, 1678; İbn Məcə, 4182. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 940) səhih olduğunu bildirmişdir.
[773] ət-Tirmizi, 1974, 2102. əl-Albani səhih olduğunu bildirmişdir.

نسألك قال فأكرم الناس يوسف نبي الله بن نبي الله بن خليل الله قالوا ليس عن هذا نسألك قال فعن معادن العرب تسألون قالوا نعم قال فخياركم في الجاهلية خياركم في الإسلام إذا فقهوا

597. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisindən sallәllahu aleyhi və sәlləm soruşdular: "İnsanların ən hörmətlisi kimdir?" O dedi: "Allah yanında onların ən hörmətlisi Allahdan ən çox qorxanıdır". (Səhabələr) dedilər: "Biz səndən o haqda soruşmuruq". O dedi: "Ən hörmətli insan, Allahın peyğəmbəri, peyğəmbər oğlu və Allahın sevimli dostunun nəvəsi Yusufdur". Onlar dedilər: "Biz səndən o haqda soruşmuruq". O dedi: "Yəqin ki, siz məndən ərəblərin əcdadı barədə soruşursunuz?" Onlar: "Bəli!"- deyə cavab verdilər. O dedi: "Cahiliyyət dövründə xeyirli olanlarınız, - əgər şəriəti anlasalar - İslamda da xeyirli olacaqlar".[774]

MÜSƏLMAN, MÖMİN, MÜCAHİD VƏ MÜHACİR

٥٩٨ - عن الشعبي قال جاء رجل إلى عبد الله بن عمرو ﷺ وعنده القوم جلوس يتخطى إليه فمنعوه فقال اتركوا الرجل فجاء حتى جلس إليه فقال أخبرني بشيء سمعته من رسول الله ﷺ قال سمعت رسول الله ﷺ يقول المسلم من سلم المسلمون من لسانه ويده والمهاجر من هجر ما نهى الله عنه

598. Şəbi demişdir: "Bir kişi Abdullah ibn Amrın ﷺ yanına gəldi. Onun yanında adamlar var idi. Kişi camaatı yararaq ona doğru gəldikdə camaat onun qarşısını aldı. O dedi: "Buraxın o kişini gəlsin!" O gəlib Abdullahın ﷺ yanında oturub dedi: "Mənə Allah Elçisindən sallәllahu aleyhi və sәlləm eşitdiyin hədislərdən birini danış!?" Abdullah ﷺ dedi: "Mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: "Müsəlman o kimsədir ki,[775] müsəlmanlar onun dilindən və əlindən salamatdırlar. Mühacir də o kimsədir ki, Allahın qadağan etdiyi şeyləri tərk etmişdir".[776]

٥٩٩ - عَنْ فَضَالَةَ بْنِ عُبَيْدٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ فِي حَجَّةِ الْوَدَاعِ: أَلاَ أُخْبِرُكُمْ بِالْمُؤْمِنِ؟ مَنْ أَمِنَهُ النَّاسُ عَلَى أَنْفُسِهِمْ وَأَمْوَالِهِمْ، وَالْمُسْلِمُ مَنْ سَلِمَ الْمُسْلِمُونَ مِنْ لِسَانِهِ وَيَدِهِ، وَالْمُجَاهِدُ مَنْ جَاهَدَ نَفْسَهُ فِي طَاعَةٍ، وَالْمُهَاجِرُ مَنْ هَجَرَ الْخَطَايَا وَالذُّنُوبَ.

---

774 əl-Buxari "Ədəbul-Mufrad" 129. əl-Albani səhih olduğunu bildirmişdir.

775 Burada müsəlman deyildikdə kamil əxlaqlı müsəlman nəzərdə tutulur. Yoxsa, əli ilə və ya dili ilə müsəlman qardaşına əziyyət verən bir müsəlman, bu əməlinə görə kafir sayıla bilməz.

776 əl-Buxari "Ədəbul-Mufrad" 1144. əl-Albani səhih olduğunu bildirmişdir.

599. Fədalə ibn Ubeyd ﷺ rəvayət edir ki, Vida həccində Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Sizə kimin mömin oduğunu bildirimmi? Mömin - insanların canlarına və mallarına görə ondan arxayın olduqları kimsədir. Müsəlman - müsəlmanların onun əlindən və dilindən salamat olduqları kimsədir. Mücahid – itaətdə nəfsilə mübarizə edən kimsədir. Mühacir – asilikləri və günahları tərk edən kimsədir".[777]

٦٠٠ - عن عبد الله ﷺ عن النبي ﷺ قال ليس المؤمن بالطعان ولا اللعان ولا الفاحش ولا البذى

600. Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Mömin nə tənə vuran, nə lənət oxuyan, nə ədəbsiz, nə də təhqir edən deyildir".[778]

SALAMIN FƏZİLƏTİ

٦٠١ - عن أبي هريرة ﷺ أن رجلا مر على رسول الله ﷺ وهو في مجلس فقال السلام عليكم فقال عشر حسنات فمر رجل آخر فقال السلام عليكم و رحمة الله فقال عشرون حسنة فمر رجل آخر فقال السلام عليكم ورحمة الله وبركاته فقال ثلاثون حسنة فقام رجل من المجلس و لم يسلم فقال رسول الله ﷺ ما أوشك ما نسي صاحبكم إذا جاء أحدكم المجلس فليسلم فإن بدا له أن يجلس فليجلس وإذا قام فليسلم ما الأولى بأحق من الآخرة

601. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm bir məclisdə olarkən bir kişi gəlib: "əs-Sələmu aleykum"- (sizə salam olsun!) - dedi. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "(Buna) on savab vardır". Başqa bir kişi gəlib: "əs-Sələmu aleykum və rahmətullah"- (sizə salam olsun və Allahın rəhməti yetişsin!) - dedi. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "(Buna) iyirmi savab vardır". Başqa bir kişi gəlib: "əs-Sələmu aleykum və rahmətullahi və bərakətuhu"- (sizə salam olsun, Allahın rəhməti və bərəkəti yetişsin!) - dedi. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "(Buna) otuz savab vardır". Bir kişi məclisdən qalxıb salam vermədi. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Dostunuz (salamını) nə tez unutdu. Sizdən biriniz məclisə gəldiyi zaman salam versin. Əgər (orada) oturmağı məsləhət bilsə otursun. Məclisdən durub getdikdə də salam versin. Əvvəlki salam sonuncu salamdan daha üstün deyildir".[779]

---

[777] əl-Hakim, 24; əl-Beyhəqi "Şuabul-İman" 11123. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6658) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 549) səhih olduğunu bildirmişdir.

[778] əl-Buxari "Ədəbul-Mufrad" 312. əl-Albani səhih olduğunu bildirmişdir.

[779] əl-Buxari "Ədəbul-Mufrad" 986. əl-Albani səhih olduğunu bildirmişdir.

٦٠٢ - عن البراء بن عازب ﷺ قال من تمام التحية أن تصافح أخاك

602. Bəra ibn Azib ﷺ demişdir: "Qardaşınla əl verib görüşmək salamın tamamlanmasıdır".[780]

٦٠٣ - عن أبي أيوب ﷺ أن رسول الله ﷺ قال لا يحل لامرئ مسلم أن يهجر أخاه فوق ثلاث فيلتقيان فيعرض هذا ويعرض هذا وخيرهما الذي يبدأ بالسلام

603. Əbu Əyyub ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Heç bir kimsəyə üç gündən artıq qardaşı ilə küsülü qalması halal olmaz. Qarşı-qarşıya gəldikdə bu (ondan) üz çevirir, o da (bundan) üz çevirir. Onların ən xeyirlisi salamı birinci verəndir".[781]

٦٠٤ - عن هشام بن عامر الأنصاري بن عم أنس بن مالك وكان قتل أبوه يوم أحد أنه سمع رسول الله ﷺ قال لا يحل لمسلم أن يصارم مسلما فوق ثلاث فإنهما ناكبان عن الحق ما داما على صرامهما وان أولهما فيئا يكون كفارة عنه سبقه بالفيء وإن ماتا على صرامهما لم يدخلا الجنة جميعا ابدا وإن سلم عليه فأبى أن يقبل تسليمه وسلامه رد عليه الملك ورد على الآخر الشيطان

604. Hişam ibn Amir əl-Ənsari ﷺ rəvayət edir ki, Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: "Heç bir müsəlmana üç gündən artıq başqa bir müsəlmanla əlaqələri kəsmək halal olmaz. Onlar küsülü qaldıqca haqdan sapmış olarlar. Onlardan birinci barışanın ilk əvvəl barışığa gəlməsi ona (günahlarının bağışlanmasına) kəffarə olar. Əgər küsülü olduqları halda ölsələr, uzun müddət Cənnətə girə bilməzlər. Onlardan biri digərinə salam versə, o da onun salamını almasa, salam verənin salamını mələk alar, salamı almayanı isə şeytan qarşılayar".[782]

٦٠٥ - عَنْ عَبْدِ اللهِ بْنِ مَسْعُودٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ: «إِنَّ السَّلاَمَ اسمٌ مِنْ أَسْمَاءِ اللهِ وَضَعَهُ فِي الأَرْضِ فَأَفْشُوهُ بَيْنَكُمْ، فَإِنَّ الرَّجُلَ الْمُسْلِمِ إِذَا مَرَّ بِقَومٍ فَسَلَّمَ عَلَيهِم فَرَدُّوا عَلَيهِ، كَانَ لَهُ عَلَيهِم فَضْلُ دَرَجَةٍ بِتَذكِيرِهِ إِيَّاهُمُ السَّلاَمَ، فَإِنْ لَمْ يَرُدُّوا عَلَيهِ، رَدَّ عَلَيهِ مَنْ هُوَ خَيرٌ مِنْهُمْ وَأَطْيب»

605. Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Həqiqətən, "əs-Səlam" Allahın adlarından biridir. O,

[780] əl-Buxari "Ədəbul-Mufrad" 968. əl-Albani isnadının səhih olduğunu bildirmişdir.
[781] əl-Buxari "Ədəbul-Mufrad" 985. əl-Albani səhih olduğunu bildirmişdir.
[782] əl-Buxari "Ədəbul-Mufrad" 402. əl-Albani səhih olduğunu bildirmişdir.

bunu yerdə (bir-birinizlə salamlaşasınız deyə) təyin etmişdir. Elə isə salamı aranızda yayın! Həqiqətən, müsəlman kişi bir qövmün yanından keçərək salam verər, onlar da salamı alarlarsa, o, həmin qövmdən bir dərəcə üstün olar. Çünki, o adam salamı onların yadına saldı. Əgər onun salamını almasalar, onlardan daha xeyirli və pak olan (mələklər) onun salamını alarlar".[783]

٦٠٦ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ أَوْلَى النَّاسِ بِاللَّهِ مَنْ بَدَأَهُمْ بِالسَّلاَمِ»

606. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "İnsanların Allaha ən yaxın olanı ilk salam verəndir".[784]

٦٠٧ - عَنِ الْمِقْدَامِ بن شُرَيْحٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ دُلَّنِي عَلَى عَمَلٍ يُدْخِلُنِي الْجَنَّةَ قَالَ: إِنَّ مِنْ مُوجِبَاتِ الْمَغْفِرَةِ بَذْلُ السَّلاَمِ وَحُسْنُ الْكَلاَمِ.

607. Sufyan əl-Miqdam ibn Şureyh babasından ﷺ rəvayət edir ki, o, Allah Elçisindən sallallahu aleyhi və səlləm soruşdu: "Ey Allahın Elçisi, mənə elə bir əməl bildir ki, məni Cənnətə daxil etsin". O buyurdu: "Həqiqətən, salamı yaymaq və xoş söz söyləmək məğfirəti vacib edən səbəblərdəndir".[785]

٦٠٨ - عَنْ أَبِي أُمَامَةَ ﷺ أَنّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: إِذَا تَصَافَحَ الْمُسْلِمَانِ لَمْ تَفْرُقْ أَكُفُّهُمَا حَتَّى يُغْفَرَ لَهُمْا.

608. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "İki müsəlman əl verib görüşdükdə, əlləri bir-birindən ayrılmadan bağışlanırlar".[786]

٦٠٩ - عَنْ حُذَيْفَةَ بْنِ الْيَمَانِ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَال: إِنَّ الْمُؤْمِنَ إِذَا لَقِيَ الْمُؤْمِنَ فَسَلَّمَ عَلَيْهِ وَأَخَذَ بِيَدِهِ فَصَافَحَهُ تَنَاثَرَتْ خَطَايَاهُمَا كَمَا يَتَنَاثَرُ وَرَقُ الشَّجَرِ

609. Huzeyfə ibn Yəmən ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, bir mömin digər bir möminlə qarşılaşaraq

---

[783] əl-Bəzzar, 1771; əl-Buxari "Ədəbul-Mufrad" 1039. əl-Albani səhih olduğunu bildirmişdir.
[784] Əbu Davud, 5197, 5199. əl-Albani səhih olduğunu bildirmişdir.
[785] ət-Tabərani "Mucəmul-Kəbir" 469, 17920. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1035) səhih olduğunu bildirmişdir.
[786] ət-Tabərani "Mucəmul-Kəbir" 8002. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 433) hədisin səhih olduğunu qeyd etmişdir.

salam verib əl ilə görüşdükdə, ikisinin də günahları ağacın yarpaqları tökküldüyü kimi tökülür".[787]

٦١٠ - عَنْ عَبْدِ اللَّهِ بْنِ سَلاَمٍ ﷺ قَالَ لَمَّا قَدِمَ رَسُولُ اللَّهِ ﷺ الْمَدِينَةَ انْجَفَلَ النَّاسُ إِلَيْهِ وَقِيلَ قَدِمَ رَسُولُ اللَّهِ ﷺ قَدِمَ رَسُولُ اللَّهِ ﷺ قَدِمَ رَسُولُ اللَّهِ ﷺ فَجِئْتُ فِى النَّاسِ لأَنْظُرَ إِلَيْهِ فَلَمَّا اسْتَبَنْتُ وَجْهَ رَسُولِ اللَّهِ ﷺ عَرَفْتُ أَنَّ وَجْهَهُ لَيْسَ بِوَجْهِ كَذَّابٍ وَكَانَ أَوَّلَ شَىْءٍ تَكَلَّمَ بِهِ أَنْ قَالَ «أَيُّهَا النَّاسُ أَفْشُوا السَّلاَمَ وَأَطْعِمُوا الطَّعَامَ وَصَلُّوا وَالنَّاسُ نِيَامٌ تَدْخُلُونَ الْجَنَّةَ بِسَلاَمٍ»

610. Abdullah ibn Səlam ﷺ dedi: "Allah Elçisi sallәllahu aleyhi və sәlləm Mədinəyə gələndə insanlar yanına getdilər. Belə deyildi: "Allah Elçisi gəldi, Allah Elçisi gəldi, Allah Elçisi gəldi!" Mən ona baxmaq üçün insanların arasına gəlib girdim. Mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm üzünə baxanda üzünün yalançı üz olmadığını bildim. Onun ilk söylədiyi sözlər bunlar idi: "Ey insanlar, salamı yayın, yemək yedirdin və insanlar gecə yatarkən namaz qılın, salamatlıqla Cənnətə girərsiniz".[788]

٦١١ - عن جابر ﷺ يقول الماشيان إذا اجتمعا فأيهما بدأ بالسلام فهو أفضل

611. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "İki piyada qarşılaşdığı zaman onlardan hansı biri daha öncə salam verirsə, ən fəzilətlisi də o hesab olunur".[789]

٦١٢ - عَنْ جَابِرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لِيُسَلِّمِ الرَّاكِبُ عَلَى الْمَاشِي، وَالْمَاشِي عَلَى الْقَاعِدِ، وَالْمَاشِيَانِ أَيُّهُمَا بَدَأَ فَهُوَ أَفْضَل».

612. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Minikdə olan piyadaya, piyada isə oturana salam versin. İki piyada qarşılaşdıqda birinci hansı salam verirsə, o daha fəzilətli olur".[790]

٦١٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لاَ تَدْخُلُونَ الْجَنَّةَ حَتَّى تُؤْمِنُوا، وَلاَ تُؤْمِنُوا حَتَّى تَحَابُّوا، أَوَلاَ أَدُلُّكُمْ عَلَى شَيْءٍ إِذَا فَعَلْتُمُوهُ تَحَابَبْتُمْ؟ أَفْشُوا السَّلاَمَ بَيْنَكُمْ».

---

[787] ət-Tabərani "Mucəmul-Əvsat" 245. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2720) səhih liğeyrihi olduğunu bildirmişdir.

[788] ət-Tirmizi, 2485, 2673. əl-Albani səhih olduğunu bildirmişdir.

[789] əl-Buxari "Ədəbul-Mufrad" 994. əl-Albani səhih olduğunu bildirmişdir.

[790] İbn Hibban, 498. əl-Albani səhih olduğunu bildirmişdir.

613. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "İman gətirməyincə Cənnətə girə bilməzsiniz. Biri-birinizi sevməyincə (tamam-kamal) iman gətirmiş olmazsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdikdə biri-birinizi sevəsiniz? Aranızda salamı yayın".[791]

٦١٤ - عن أبي أمامة ﷺ قال قال النبي ﷺ "ثلاثة كلهم ضامن على الله إن عاش كفي وإن مات دخل الجنة من دخل بيته بسلام فهو ضامن على الله ﷻ ومن خرج إلى المسجد فهو ضامن على الله ومن خرج في سبيل الله فهو ضامن على الله"..."يَا بُنَيَّ إِذَا دَخَلْتَ عَلَى أَهْلِكَ فَسَلِّمْ يَكُونُ بَرَكَةً عَلَيْكَ وَعَلَى أَهْلِ بَيْتِكَ"

614. Əbu Umamə ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Üç nəfər vardır ki, onlar Allahın öhdəsindədir; (onlardan hər biri) yaşasa ehtiyacı ödənilər, ölsə Cənnətə girər; Kim öz evinə salamla girsə, Allahın ﷻ öhdəsində olar; Kim (ibadət etmək üçün) məscidə getsə, Allahın öhdəsində olar; Kim Allah yolunda cihada çıxsa, Allahın öhdəsində olar".[792] Digər rəvayətdə deyilir: "Ey oğlum, ailənin yanına daxil olduqda onlara salam ver ki, sənin və ailənin üzərinə bərəkət olsun".[793]

٦١٥ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ أَنَّ رَجُلاً سَأَلَ رَسُولَ اللَّهِ ﷺ: أَيُّ الإِسْلاَمِ خَيْرٌ؟ قَالَ: «تُطْعِمُ الطَّعَامَ وَتَقْرَأُ السَّلاَمَ عَلَى مَنْ عَرَفْتَ وَمَنْ لَمْ تَعْرِفْ».

615. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərdən sallallahu aleyhi və səlləm soruşdu: "İslam (xislətlərindən) ən xeyirlisi hansıdır?" Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Sənin, (ehtiyacı olana) yemək yedirtməyin, tanıdığına və tanımadığına salam verməyindir".[794]

İNSANLARIN ARASINI MÖHKƏMLƏT

٦١٦ - عَن أَنَس ﷺ أَنَّ النَّبِيّ ﷺ قال لأبي أيوب ﷺ: ألا أدلك على تجارة؟ قال: بلي, قال: تسعى في صلح بين الناس إذا تفاسدوا وتقارب بينهم إذا تباعدوا.

---

[791] Muslim, 194.

[792] əl-Buxari "Ədəbul-Mufrad" 1094. əl-Albani səhih olduğunu bildirmişdir.

[793] ət-Tirmizi, 2698; İbn Teymiyyə "Kəlimut-Tayyib" 63. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1608) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[794] Muslim, 160. Yəni qarşına çıxan hər kəsə salam verməlisən. Yalnız tanıdığın adama salam vermək İslam əxlaqına zidd olan bir xasiyyətdir və Qiyamətin əlamətlərindəndir. Peyğəmbər ﷺ demişdir: "Birisinin ancaq tanıdığına salam verməsi Qiyamətin əlamətlərindəndir" (Əhməd, 1/387; əl-Albani "Silsilətul-Əhədisis-Sahiha", 648).

616. Ənəs ﷺ demişdir: “Peyğəmbər sallallahu aleyhi və səlləm Əbu Əyyuba ﷺ dedi: “Sənə bir ticarəti bildirimmi?” Əbu Əyyub ﷺ: “Bəli”- dedi. O buyurdu: “İnsanların arası pozulduqda onların arasında sülh yaratmağa çalış və onlar bir-birilərindən uzaqlaşdıqda, onları yaxınlaşdır”.[795]

٦١٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا عَمِلَ ابنُ آدَمَ شَيْئاً أَفْضَلَ مِنَ الصَلاَةِ، وَصَلاَحُ ذَاتِ الْبَينِ، وَخُلُقٍ حسن».

617. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Adəm oğlu namaz qılmaqdan, insanların arasındakı əlaqələri möhkəmlətməkdən və gözəl əxlaqlı olmaqdan daha fəzilətli bir əməl etməmişdir”.[796]

٦١٨ - عَنْ أُمِّ كُلْثُومٍ بِنْتَ عُقْبَةَ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «لَمْ يَكْذِب، مَنْ نَمَّى بَينَ اثْنَينِ لِيُصْلِح».

618. Ummu Kulsum bint Uqbə ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “İki nəfərin arasını düzəltmək üçün yalan danışan yalançı deyildir”.[797]

DİLİNİ SAXLA

٦١٩ - حَدَّثَنِي أَسْوَدُ بن أَصْرَمَ الْمُحَارِبِيُّ ﷺ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَوْصِنِي، قَالَ: تَمْلِكُ يَدَكَ؟، قُلْتُ: فَمَاذَا أَمْلِكُ إِذَا لَمْ أَمْلِكْ يَدِي؟، قَالَ: تَمْلِكُ لِسَانَكَ؟، قَالَ: فَمَاذَا أَمْلِكُ إِذَا لَمْ أَمْلِكْ لِسَانِي؟، قَالَ: لا تَبْسُطْ يَدَكَ إِلا إِلَى خَيْرٍ، وَلا تَقُلْ بِلِسَانِكَ إِلا مَعْرُوفًا.

619. Əsvəd ibn Əsram əl-Muhəribi ﷺ demişdir: “Dedim: “Ey Allahın Elçisi, mənə nəsihət et!” O buyurdu: “Əlinə yiyəlik edə bilirsənmi?” Dedim: “Əlimə yiyəlik edə bilməsəm, onda nəyə yiyəlik edə bilərəm ki?” O buyurdu: “Dilinə yiyəlik edə bilirsənmi?” Dedim: “Dilimə yiyəlik edə bilməsəm, onda nəyə yiyəlik edə bilərəm ki?” O buyurdu: “Əlini yalnız xeyirə doğru uzat və dilinlə yalnız xeyir söylə!”[798]

---

[795] əl-Bəzzar, 6633. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 2818) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[796] əl-Buxari “Tarixul-Kəbir” 139. əl-Albani“Sahihul-Cəmius-Sağir”də (№ 5645) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 1448) səhih olduğunu bildirmişdir.

[797] Əbu Davud, 4920, 4922. əl-Albani səhih olduğunu bildirmişdir.

[798] ət-Tabərani “Mucəmul-Kəbir” 816, 818. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 2867) səhih olduğunu bildirmişdir.

٦٢٠ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: مَنْ يَضْمَنْ لِي مَا بَيْنَ لَحْيَيْهِ وَمَا بَيْنَ رِجْلَيْهِ أَضْمَنْ لَهُ الْجَنَّةَ.

620. Səhl ibn Səd ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Kim mənə iki çənəsi və iki budu arasındakını qoruyacağına zəmanət verərsə[799], mən onun Cənnətə (girəcəyinə) zəmanət verərəm".[800]

٦٢١ - عَنِ الْحَسَنِ أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «رَحِمَ اللهُ عَبْداً قَالَ فَغَنِمَ، أَوْ سَكَتَ فَسَلِمَ».

621. Həsən ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Danışaraq savab qazanan və ya susaraq salamat qalan quluna Allah rəhm etsin!"[801]

٦٢٢ - عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «قُولُوا خَيْراً تَغْنَمُوا، وَاسْكُتُوا عَنْ شَرٍّ تَسْلَمُوا».

622. Ubadə ibn Samit ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Xeyir söyləyin, savab qazanın və şər deməkdən çəkinin, salamat olun!"[802]

٦٢٣ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ رضي الله عنهما قَالَ اشْتَكَى سَعْدُ بْنُ عُبَادَةَ ﷺ شَكْوَى لَهُ فَأَتَاهُ النَّبِيُّ ﷺ يَعُودُهُ مَعَ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْفٍ وَسَعْدِ بْنِ أَبِى وَقَّاصٍ وَعَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ فَلَمَّا دَخَلَ عَلَيْهِ فَوَجَدَهُ فِى غَاشِيَةِ أَهْلِهِ فَقَالَ: «قَدْ قَضَى؟» قَالُوا لاَ يَا رَسُولَ اللَّهِ. فَبَكَى النَّبِيُّ ﷺ فَلَمَّا رَأَى الْقَوْمُ بُكَاءَ النَّبِيِّ ﷺ بَكَوْا فَقَالَ: «أَلاَ تَسْمَعُونَ إِنَّ اللَّهَ لاَ يُعَذِّبُ بِدَمْعِ الْعَيْنِ، وَلاَ بِحُزْنِ الْقَلْبِ، وَلَكِنْ يُعَذِّبُ بِهَذَا - وَأَشَارَ إِلَى لِسَانِهِ - أَوْ يَرْحَمُ وَإِنَّ الْمَيِّتَ يُعَذَّبُ بِبُكَاءِ أَهْلِهِ عَلَيْهِ».

623. Rəvayət edilir ki, Abdullah ibn Ömər رضي الله عنهما demişdir: "Səd ibn Ubadə xəstələndiyi zaman Peyğəmbər salləllahu aleyhi və səlləm Abdur-Rahmən ibn Auf, Səd ibn Əbu Vəqqas və Abdullah ibn Məsud ilə birlikdə ona baş çəkdi. Xəstənin yanına daxil olduqda ailəsinin onun başına yığışdığını görüb soruşdu: "Öldü?" Onlar: "Xeyr, ey Allahın Elçisi!" - deyə cavab verdilər. Peyğəmbər salləllahu aleyhi və səlləm (Sədi görəndə) ağladı. Oradakılar Peyğəmbərin salləllahu aleyhi və səlləm ağladığını gördükdə ağlamağa başladılar. Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: "Eşitmirsinizmi? Allah gözlərdən axan yaşa və qəlbin kədərlənməsinə görə (heç) kəsə əzab vermir.

---

[799] Burada dili və tənasül orqanını günaha batmaqdan qorumaq nəzərdə tutulur.

[800] əl-Buxari, 6474.

[801] əş-Şihəb "Müsnəd" 581. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3497) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 855) həsən olduğunu bildirmişdir.

[802] əş-Şihəb "Müsnəd" 666. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4419) səhih olduğunu bildirmişdir.

O ancaq buna görə ya əzab verir, ya da rəhm edir”- (deyə) dilinə işarə etdi. “Həqiqətən, ölən adama ailəsinin onun üçün (fəryad edib) ağlamasından dolayı əzab verilir”.[803]

٦٢٤ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ قَالَ أَقْبَلْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ مِنْ غَزْوَةِ تَبُوكَ فَلَمَّا رَأَيْتُهُ حَيِّيًا قُلْتُ يَا رَسُولَ اللَّهِ أَخْبِرْنِى بِعَمَلٍ يُدْخِلُنِى الْجَنَّةَ. قَالَ «بَخٍ لَقَدْ سَأَلْتَ عَنْ عَظِيمٍ وَهُوَ يَسِيرٌ عَلَى مَنْ يَسَّرَهُ اللَّهُ عَلَيْهِ تُقِيمُ الصَّلاَةَ الْمَكْتُوبَةَ وَتُؤَدِّى الزَّكَاةَ الْمَفْرُوضَةَ وَتَلْقَى اللَّهَ ﷻ لاَ تُشْرِكُ بِهِ شَيْئاً أَوَلاَ أَدُلُّكَ عَلَى رَأْسِ الأَمْرِ وَعَمُودِهِ وَذُرْوَةِ سَنَامِهِ أَمَّا رَأْسُ الأَمْرِ فَالإِسْلاَمُ فَمَنْ أَسْلَمَ سَلِمَ وَأَمَّا عَمُودُهُ فَالصَّلاَةُ وَأَمَّا ذُرْوَةُ سَنَامِهِ فَالْجِهَادُ فِى سَبِيلِ اللَّهِ أَوَلاَ أَدُلُّكَ عَلَى أَبْوَابِ الْخَيْرِ الصَّوْمُ جُنَّةٌ وَالصَّدَقَةُ وَقِيَامُ الْعَبْدِ فِى جَوْفِ اللَّيْلِ يُكَفِّرُ الْخَطَايَا». وَتَلاَ هَذِهِ الآيَةَ ﴿**تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفاً وَطَمَعاً وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ**﴾ «أَوَلاَ أَدُلُّكَ عَلَى أَمْلَكِ ذَلِكَ لَكَ كُلِّهِ». قَالَ فَأَقْبَلَ نَفَرٌ. قَالَ فَخَشِيتُ أَنْ يَشْغَلُوا عَنِّى رَسُولَ اللَّهِ ﷺ. قَالَ شُعْبَةُ أَوْ كَلِمَةً نَحْوَهَا. قَالَ فَقُلْتُ يَا رَسُولَ اللَّهِ قَوْلُكَ «أَوَلاَ أَدُلُّكَ عَلَى أَمْلَكِ ذَلِكَ لَكَ كُلِّهِ». قَالَ فَأَشَارَ رَسُولُ اللَّهِ ﷺ بِيَدِهِ إِلَى لِسَانِهِ. قَالَ قُلْتُ يَا رَسُولَ اللَّهِ وَإِنَّا لَنُؤَاخَذُ بِمَا نَتَكَلَّمُ بِهِ قَالَ «ثَكِلَتْكَ أُمُّكَ مُعَاذُ وَهَلْ يَكُبُّ النَّاسَ عَلَى مَنَاخِرِهِمْ إِلاَّ حَصَائِدُ أَلْسِنَتِهِمْ»....«إِنَّكَ لَمْ تَزَلْ سَالِمًا مَا سَكَتَّ، فَإِذَا تَكَلَّمَتَ كُتِبَ لَكَ أَوْ عَلَيْكَ»

624. Muaz ibn Cəbəl ﷺ rəvayət edir: “Mən Allah Elçisinə sallallahu aleyhi və səlləm dedim: “Ey Allahın Elçisi, mənə Cənnətə daxil edəcək bir əməl bildir?” O buyurdu: “Sən əzəmətli bir şey haqda soruşdun, o, Allahın asanlaşdırdığı kimsə üçün asandır. Sən fərz namazını qılmalı, zəkat verməli və Allah ﷻ ilə heç bir şeyi şərik qoşmayaraq görüşməlisən. Sənə işin əsası, sütunları və zirvəsini bildirim? İşin əsası İslamdır. Kim İslamı qəbul etsə, salamat olar. Onun sütunları namaz, zirvəsi isə Allah yolunda cihaddır. Sənə xeyir qapılarını bildirim? Oruc qalxandır, sədəqə vermək və qulun gecə ibadətə qalxması günahların kəffarəsidir”. (Sonra) bu ayəni oxudu: ***“Onlar*** *(gecə namazını qılmaq üçün)* ***böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən*** *(Allah yolunda)* ***xərcləyirlər”*** *(əs-Səcdə, 16).* “Sənə bunların hamısına necə sahib olmağı göstərim?” Bir neçə nəfər gəldi və onların məni Allah Elçisindən sallallahu aleyhi və səlləm yayındıracaqlarından qorxdum. Mən dedim: “Ey Allahın Elçisi, - “Sənə bunların hamısına necə sahib olmağı göstərimmi?”- deyə söylədin”. Allah Elçisi sallallahu aleyhi və səlləm əli ilə dilini göstərdi. Dedim: “Ey Allahın Elçisi, doğrudan da biz danışdıqlarımıza görə cəzalandırılacağıq?” O buyurdu: “Anan səni itirsin, ey Muaz!

[803] əl-Buxari, 1304; Muslim, 924.

Məgər insanlar dillərinin törətdiklərinə görə üzü üstə oda atılmırlarmı?!"[804] Digər rəvayətdə deyilir: "Həqiqətən, sən susduqca salamat olarsan, danışdıqda isə sənin lehinə və ya əleyhinə yazılar".[805]

QONŞU HAQDA

٦٢٥ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ وَهُوَ عَلَى نَاقَتِهِ الْجَدْعَاء فِي حَجَّةِ الْوَدَاعِ يَقُولُ: «أُوْصِيكُمْ بِالْجَارِ». حَتَّى أَكْثَرَ، فَقُلْتُ: إِنَّهُ لَيُورِّثُهُ.

625. Əbu Umamə ﷺ rəvayət edir ki, mən Allah Elçisinin sallallahu aleyhi və səlləm Vida həccində dəvənin üzərində ikən: "Sizə qonşuya yaxşılıq etməyi tövsiyyə edirəm"- buyurduğunu, hətta bunu çox söylədiyini eşitdim və belə dedim: "Həqiqətən, ona da vərəsəlik payı düşəcək".[806]

٦٢٦ - عن عبد الله بن عمرو بن العاص ﷺ عن رسول الله ﷺ أنه قال خير الأصحاب عند الله تعالى خيرهم لصاحبه وخير الجيران عند الله (تعالى) خيرهم لجاره

626. Abdullah ibn Amr ibn As ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Uca Allahın dərgahında ən xeyirli dost öz dostuna yaxşılıq edən kimsədir. Həmçinin, Allah dərgahında ən xeyirli qonşu öz qonşusuna yaxşılıq edən kimsədir".[807]

٦٢٧ - عَنْ جَابِرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «خَيْرُ النَّاسِ أَنْفَعَهُمْ لِلنَّاسِ».

627. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Ən xeyirli insanlar, insanlara ən çox faydalı olanlardır".[808]

MANEƏNİ YOLDAN KƏNAR ETMƏK

٦٢٨ - حدثني معاوية بن قرة قال كنت مع معقل المزني ﷺ فأماط أذى عن الطريق فرأيت شيئا فبادرته فقال ما حملك

---

[804] Əhməd, 22121, 22719. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.
[805] ət-Təbərani "Mucəmul-Kəbir" 16561. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2866) səhih li-ğeyrihi olduğunu bildirmişdir.
[806] əl-Xaraəti "Məkərimul-Əxləq" 209; ət-Təbərani "Mucəmul-Kəbir" 7523. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2548) və "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2573) səhih olduğunu bildirmişdir.
[807] əl-Buxari "Ədəbul-Mufrad" 115. əl-Albani səhih olduğunu bildirmişdir.
[808] əş-Şihəb "Müsnəd" 1234. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3289) həsən olduğunu bildirib.

على ما صنعت يا بن أخى قال رأيتك تصنع شيئا فصنعته قال أحسنت يا بن أخى سمعت النبي ﷺ يقول من أماط أذى عن طريق المسلمين كتب له حسنة ومن تقبلت له حسنة دخل الجنة

628. Muaviyə ibn Qurra ﷺ demişdir: "Mən Məqəl əl-Muzəni ﷺ ilə bir yerdə idim. O, (insanlara) əziyyət verən bir şeyi yoldan kənarlaşdırdı. Mən də (yolçuya əziyyət verən) bir şey gördüm və dərhal onu yoldan kənara atdım. (Məqəl) dedi: "Ey qardaş oğlu! Səni bunu etməyə vadar edən nədir?" Mən dedim: "Sənin belə etdiyini gördüm deyə mən də belə etdim". O dedi: "Əhsən sənə, ey qardaş oğlu! Mən Peyğəmbərin salləllahu aleyhi və səlləm belə dediyini eşitdim: "Kim müsəlmanların yolundan əziyyət verən bir şeyi kənar edərsə, ona bir savab yazılar. Kimin də savabı qəbul olunarsa, Cənnətə daxil olar".[809]

٦٢٩ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: كَانَتْ شَجَرَةٌ فِي طَرِيقِ النَّاسِ تُؤْذِي النَّاسَ، فَأَتَاهَا رَجُلٌ فَعَزَلَهَا عَنْ طَرِيقِ النَّاسِ، قَالَ: قَالَ النَّبِيُّ ﷺ: فَلَقَدْ رَأَيْتُهُ يَتَقَلَّبُ فِي ظِلِّهَا فِي الْجَنَّةِ.

629. Ənəs ibn Məlik ﷺ demişdir: "Bir kişi insanlara əziyyət verən bir ağacı yoldan kənar etdi. Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Mən onun Cənnətdə həmin ağacın kölgəsinin altında gəzib dolaşdığını gördüm".[810]

٦٣٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَرَّ رَجُلٌ بِغُصْنِ شَجَرَةٍ عَلَى ظَهْرِ طَرِيقٍ فَقَالَ وَاللَّهِ لأُنَحِّيَنَّ هَذَا عَنِ الْمُسْلِمِينَ لاَ يُؤْذِيهِمْ. فَأُدْخِلَ الْجَنَّةَ».

630. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Bir kişi yolun üstündə olan bir ağac budağının yanından keçdikdə belə dedi: "Allaha and olsun ki, müsəlmanlara əziyyət verməməsi üçün mən bunu aradan götürəcəyəm!" (Buna görə) o, Cənnətə daxil edildi".[811]

٦٣١ - عن أبي برزة الأسلمى ﷺ قال قلت يا رسول الله دلنى على عمل يدخلنى الجنة قال أمط الأذى عن طريق الناس

631. Əbu Bərzə əl-Əsləmi ﷺ demişdir: "Mən (Allah Elçisinə salləllahu aleyhi və səlləm) dedim: "Ey Allahın Elçisi! Mənə elə bir əməl öyrət ki, o məni Cənnətə daxil etsin?!" O dedi: "Əziyyət verən şeyi insanların yolundan kənar et!"[812]

---

[809] əl-Buxari "Ədəbul-Mufrad" 593. əl-Albani həsən olduğunu bildirmişdir.
[810] Əhməd, 12599. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2977) həsən səhih olduğunu bildirib.
[811] Muslim, 6836.
[812] əl-Buxari "Ədəbul-Mufrad" 228. əl-Albani səhih olduğunu bildirmişdir.

DÜNYADAN İTİRDİYİNİN SƏNƏ ZƏRƏRİ OLMAZ

٦٣٢ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «أَرْبَعٌ إِذَا كُنَّ فِيْكَ فَلاَ عَلَيْكَ مَا فَاتَكَ مِنَ الدُّنْيَا حِفْظُ أَمَانَةٍ، وَصِدْقُ حَدِيثٍ، وَحُسْنُ خَلِيقَةٍ وَعِفَّةٌ فِي طُعْمَةٍ».

632. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Səndə dörd (xislət) olarsa, dünyadan itirdiyinin sənə heç bir zərəri olmaz; əmanəti qorumaq, düz danışmaq, gözəl əxlaqlı olmaq, haram yeməkdən çəkinmək".[813]

YAXŞI İŞLƏR EDƏNİN MİSALI

٦٣٣ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ أَنَّهُ سَمِعَ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «إِنَّ مَثَلَ الَّذِي يَعْمَلُ السَّيِّئَاتِ ثُمَّ يَعْمَلُ الْحَسَنَاتِ، كَمَثَلِ رَجُلٍ كَانَتْ عَلَيهِ دِرعٌ ضَيِّقَةٌ قَدْ خَنَقَتهُ ثُمَّ عَمِلَ حَسَنَةً فَانْفَكتْ حَلَقَةٌ، ثُمَّ عَمِلَ أُخْرَى فَانْفَكتْ حَلَقَةٌ أُخْرَى، حَتَّى يَخْرُجَ إِلَى الأَرْض».

633. Uqbə ibn Amir ﷺ demişdir: "Mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: "Həqiqətən, günahlar etdikdən sonra yaxşı işlər görənin misalı, üzərində onu sıxan dar zirehi olan kişinin misalı kimidir. Sonra o, yaxşı iş gördükdə bir halqa qopur, sonra başqa bir yaxşı iş gördükdə digər halqa qopur, nəhayət, onların (hamısı) yerə tökülür".[814]

YAXŞILIQ GÖZƏL ƏXLAQDIR

٦٣٤ - عَنِ النَّوَّاسِ بْنِ سَمْعَانَ الأَنْصَارِيِّ ﷺ قَالَ سَأَلْتُ رَسُولَ اللَّهِ ﷺ عَنِ الْبِرِّ وَالإِثْمِ فَقَالَ «الْبِرُّ حُسْنُ الْخُلُقِ وَالإِثْمُ مَا حَاكَ فِي صَدْرِكَ وَكَرِهْتَ أَنْ يَطَّلِعَ عَلَيْهِ النَّاسُ».

634. Nəvvas ibn Səman əl-Ənsari ﷺ demişdir: "Allah Elçisindən sallәllahu aleyhi və sәlləm yaxşılıq və günah barədə soruşdum. O buyurdu: "Yaxşılıq gözəl əxlaqdır. Günah isə qəlbində tərəddüd edən, ancaq başqalarının onun barəsində bilmələrini istəmədiyin bir şeydir".[815]

---

[813] İbn Vəhb "əl-Cəmi" 533. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 873), "Silsilətul-Əhədisis-Sahiha"-da (№ 733) və "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1718) səhih olduğunu bildirmişdir.

[814] ət-Tabərani "Mucəmul-Kəbir" 783. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2192) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2854) həsən olduğunu bildirmişdir.

[815] Muslim, 6680.

٦٣٥ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «الْمَعْرُوفُ إِلَى النَّاسِ يَقِي صَاحِبَهَا مَصَارِعَ السُّوءِ وَ الآفَاتِ وَ الْهَلَكَاتِ وَ أَهْلُ الْمَعْرُوفِ فِي الدُّنْيَا هُمْ أَهْلُ الْمَعْرُوفِ فِي الآخِرَة».

635. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "İnsanlara yaxşılıq etmək pis aqibətdən, bəlalardan və həlak olmaqdan qoruyur. Dünyada yaxşılıq edənlər Axirətdə də yaxşılıq edənlərdən sayılırlar".[816]

ALLAHIN İPİNDƏN MÖHKƏM YAPIŞIN!

٦٣٦ - عن أبي هريرة ﷺ أن رسول الله ﷺ قال ان الله يرضى لكم ثلاثا ويسخط لكم ثلاثا يرضى لكم أن تعبدوه ولا تشركوا به شيئا وأن تعتصموا بحبل الله جميعا وأن تناصحوا من ولاه الله أمركم ويكره لكم قيل وقال وكثرة السؤال وإضاعة المال

636. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Allah sizin üç əməlinizdən razı qalır, üç əməlinizə isə qəzəbi tutur. Sizin yalnız Ona ibadət edib heç nəyi Ona şərik qoşmamağınızdan, hamılıqla Allahın ipindən möhkəm yapışmağınızdan və Allahın sizə nəsib etdiyi ixtiyar sahiblərinizlə səmimi davranmanızdan razı qalır. Dedi-qodu yaymağınıza, çox sual verməyinizə və malı israf etməyinizə isə qəzəbi tutur".[817]

SƏNƏ AİD OLMAYAN İŞƏ QARIŞMA

٦٣٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مِنْ حُسْنِ إِسْلاَمِ الْمَرْءِ تَرْكُهُ مَا لاَ يَعْنِيهِ».

637. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kişinin İslamının gözəlliyi, ona aid olmayan şeyləri[818] tərk etməsindədir".[819]

TƏBƏSSÜM

٦٣٨ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ قَالَ لِيَ النَّبِيُّ ﷺ «لاَ تَحْقِرَنَّ مِنَ الْمَعْرُوفِ شَيْئًا وَلَوْ أَنْ تَلْقَى أَخَاكَ بِوَجْهٍ طَلْقٍ».

---

[816] əl-Hakim, 429. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3795) səhih olduğunu bildirmişdir.
[817] əl-Buxari "Ədəbul-Mufrad" 442. əl-Albani səhih olduğunu bildirmişdir.
[818] Burada müsəlmanı dünya və Axirəti barədə maraqlandırmayan işlər nəzərdə tutulur.
[819] ət-Tirmizi, 2317, 2487; İbn Məcə, 3976. əl-Albani bu hədisin səhih olduğunu bildirmişdir.

638. Əbu Zərr ﷺ demişdir: "Peyğəmbər sallallahu aleyhi və səlləm mənə dedi: "Qardaşını gülər üzlə qarşılamaq olsa belə, heç bir yaxşılığı az hesab etmə!"[820]

ÜZÜYOLA OLMAQ

٦٣٩ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ رضي الله عنهما أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «رَحِمَ اللَّهُ رَجُلاً سَمْحًا إِذَا بَاعَ، وَإِذَا اشْتَرَى، وَإِذَا اقْتَضَى».

639. Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Satanda, alanda və haqqını tələb edəndə üzüyola olan kimsəyə Allah mərhəmət etsin!"[821]

KİM ALLAHIN İŞÇİLƏRİNDƏN HESAB OLUNUR

٦٤٠ - عن عبد الله بن عمرو ﷺ قال لابن أخ له خرج من الوهط أيعمل عمالك قال لا أدرى قال أما لو كنت ثقفيا لعلمت ما يعمل عمالك ثم التفت إلينا فقال ان الرجل إذا عمل مع عماله في داره وقال أبو عاصم مرة في ماله كان عاملا من عمال الله عز وجل

640. Abdullah ibn Amr رضي الله عنهما bostandan çıxan qardaşı oğlundan soruşdu: "İşçilərin işləyirmi?" O: "Bilmirəm!"- deyə cavab verdi. (Abdullah ﷺ) dedi: "Əgər sən Səqif qəbiləsindən olsaydın işçilərinin nə işlə məşğul olduğunu bilərdin". Sonra o, bizə tərəf üz tutub dedi: "Əgər kişi işçiləri ilə birgə öz evində işləyərsə, Allahın ﷻ işçilərindən hesab olunar".[822]

MÖTƏDİL OLMAQ

٦٤١ - عَنْ عَبْدِ اللهِ بْنِ سَرْجَس الْمُزَنِيِّ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «السَّمْتُ الْحَسَن وَالتُّؤَدَةُ وَالاقْتِصَادُ جُزْءٌ مِنْ أَرْبَعةٍ وَعِشْرِينَ جُزْءاً مِنَ النُّبُوَّةِ».

641. Abdullah ibn Sərcəs əl-Muzəni ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "(Hər bir işi) gözəl tərzdə etmək, tələsməmək və mötədil olmaq peyğəmbərliyin iyirmi dörddə bir hissəsidir".[823]

---

[820] Muslim, 6857.
[821] əl-Buxari, 2076.
[822] əl-Buxari "Ədəbul-Mufrad" 448. əl-Albani səhih olduğunu bildirmişdir.
[823] ət-Tirmizi, 2010, 2141. əl-Albani həsən olduğunu bildirmişdir.

YAXŞI DOSTLA PİS DOSTUN MİSALI

٦٤٢ - عَنْ أَبِي مُوسَى ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ: مَثَلُ الْجَلِيسِ الصَّالِحِ وَالسَّوْءِ كَحَامِلِ الْمِسْكِ وَنَافِخِ الْكِيرِ فَحَامِلُ الْمِسْكِ إِمَّا أَنْ يُحْذِيَكَ وَإِمَّا أَنْ تَبْتَاعَ مِنْهُ وَإِمَّا أَنْ تَجِدَ مِنْهُ رِيحًا طَيِّبَةً وَنَافِخُ الْكِيرِ إِمَّا أَنْ يُحْرِقَ ثِيَابَكَ وَإِمَّا أَنْ تَجِدَ رِيحًا خَبِيثَةً.

642. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Yaxşı dostla pis dostun məsəli ətir satanla körük vuranın məsəlinə bənzəyir. Ətir satana gəlincə, ya o sənə ətir bağışlayar, ya sən ondan ətir alarsan, ya da ondan gözəl iy gəldiyini duyarsan. Körük vurana gəldikdə isə, ya o sənin paltarını yandırar, ya da ondan pis iy gəldiyini hiss edərsən".[824]

ALLAHIN ŞAHİDLƏRİ KİMLƏRDİR?

٦٤٣ - عَنْ أَبِي بَكْرِ بْنِ أَبِي زُهَيْرٍ الثَّقَفِيِّ عَنْ أَبِيهِ ﷺ قَالَ خَطَبَنَا رَسُولُ اللَّهِ ﷺ بِالنَّبَا أَوِ النَّبَاوَةِ – قَالَ وَالنَّبَاوَةُ مِنَ الطَّائِفِ – قَالَ «يُوشِكُ أَنْ تَعْرِفُوا أَهْلَ الْجَنَّةِ مِنْ أَهْلِ النَّارِ». قَالُوا بِمَ ذَاكَ يَا رَسُولَ اللَّهِ. قَالَ «بِالثَّنَاءِ الْحَسَنِ وَالثَّنَاءِ السَّيِّئِ أَنْتُمْ شُهَدَاءُ اللَّهِ بَعْضُكُمْ عَلَى بَعْضٍ».

643. Əbu Bəkr ibn Əbu Zuheyr əs-Səqafi atasından ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm Taifdə yerləşən ən-Nəbəvat adlanan yerdə bizimlə söhbət edərək buyurdu: "Hardasa Cənnət əhlini Cəhənnəm əhlindən ayırd edib tanıya bilərsiniz". Səhabələr soruşdular: "Ey Allahın Elçisi, onları nə ilə ayırd etmək olar?" Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Yaxşı və pis yad edilməklə, siz öz aranızda Allahın şahidlərisiniz".[825]

٦٤٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ وَقَفَ عَلَى نَاس جُلُوس فَقَالَ: «أَلاَ أُخْبِرُكُمْ بِخَيْرِكُمْ مِنْ شَرِّكُمْ». قَالَ: فَسَكَتُوا فَقَالَ ذَلِكَ ثَلاَثَ مَرَّاتٍ فَقَالَ رَجُلٌ: بَلَى يَا رَسُولَ اللَّهِ أَخْبِرْنَا بِخَيْرِنَا مِنْ شَرِّنَا. قَالَ: «خَيْرُكُمْ مَنْ يُرْجَى خَيْرُهُ وَيُؤْمَنُ شَرُّهُ وَشَرُّكُمْ مَنْ لاَ يُرْجَى خَيْرُهُ وَلاَ يُؤْمَنُ شَرُّهُ».

644. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm bir dəstə oturmuş insanların yanında dayanıb soruşdu: "Sizin ən xeyirli və şər olanlarınız barədə xəbər verimmi?" Hamı susdu. Allah Elçisi salləllahu aleyhi və səlləm bunu üç dəfə təkrar etdi. Bir kişi dedi: "Bəli, ey Allahın Elçisi, bizə

[824] əl-Buxari, 5534; Muslim, 6635.
[825] İbn Məcə, 4221, 4361. əl-Albani həsən olduğunu bildirmişdir.

ən xeyirli və şər olanlarımız barədə xəbər ver!" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Xeyirli olanınız (insanların) ondan yaxşılıq gözlədikləri və şərindən təhlükəsiz olduqları kimsədir. Şər olanınız isə (insanların) ondan yaxşılıq gözləmədikləri və şərindən təhlükəsiz olmadıqları kimsədir".[826]

ƏHDLƏRİNƏ VƏFA EDƏNLƏR

٦٤٥ - عَنْ عَائِشَةَ رضي الله عنها قَالَتْ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ خِيَارَ عِبَادِ اللهِ الْمُوَفُّونَ الْمُطَيَّبونَ».

645. Aişə رضي الله عنها rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, Allahın qulları arasında ən xeyirli olanlar əhdlərinə vəfa edənlər və haqları ödəyənlərdir".[827]

[826] ət-Tirmizi, 2263, 2432. əl-Albani səhih olduğunu bildirmişdir.

[827] Əbu Nueym "Hilyətul-Əuliyə" 10/ 290. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2062) səhih olduğunu bildirmişdir.

ZÜHD

ZAHİD OLMAĞIN FƏZİLƏTİ

٦٤٦ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ السَّاعِدِيِّ ﷺ قَالَ أَتَى النَّبِيَّ ﷺ رَجُلٌ فَقَالَ يَا رَسُولَ اللَّهِ دُلَّنِي عَلَى عَمَلٍ إِذَا أَنَا عَمِلْتُهُ أَحَبَّنِيَ اللَّهُ وَأَحَبَّنِيَ النَّاسُ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «ازْهَدْ فِي الدُّنْيَا يُحِبَّكَ اللَّهُ وَازْهَدْ فِيمَا فِي أَيْدِي النَّاسِ يُحِبُّوكَ».

646. Rəvayət edilir ki, Səhl bin Sə'd əs-Səidi ﷺ demişdir: "Bir kişi Peyğəmbərin sallәllahu aleyhi və sәllәm yanına gəlib dedi: "Ey Allahın Elçisi! Mənə elə bir əməl öyrət ki, onu etdikdə Allah da məni sevsin, insanlar da!" Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Dünyaya göz dikmə[828], Allah səni sevər. İnsanların əlində olana göz dikmə, insanlar da səni sevər".[829]

٦٤٧ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ ﷺ قَالَ: جَاءَ جِبْرِيلُ عليه السلام إِلَى النَّبِيِّ ﷺ فقَالَ: يَا مُحَمَّدُ، عِشْ مَا شِئْتَ فَإِنَّكَ مَيِّتٌ، وَاعْمَلْ مَا شِئْتَ فَإِنَّكَ مَجْزِيٌّ بِهِ، وَأَحْبِبْ مَنْ شِئْتَ فَإِنَّكَ مُفَارِقُهُ، وَاعلم ان شَرَفُ الْمُؤْمِنِ قِيَامُ اللَّيْلِ، وَعِزُّهُ اسْتِغْنَاؤُهُ عَنِ النَّاسِ.

647. Səhl ibn Səd ﷺ rəvayət edərək demişdir: "Cəbrayıl عليه السلام Peyğəmbərin sallәllahu aleyhi və sәllәm yanına gəlib buyurdu: "Ey Muhəmməd, istədiyin qədər yaşa, şübhəsiz ki, sən öləcəksən. İstədiyini et, şübhəsiz ki, sənə əvəzi veriləcək. İstədiyini sev, şübhəsiz ki, sən ondan ayrılacaqsan. Bil ki, möminin şərəfi gecə namazını qılmasında, onun izzəti isə insanlara möhtac olmamasındadır".[830]

٦٤٨ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: مَرَّ رَسُولُ اللهِ ﷺ بِشَاةٍ مَيْتَةٍ قَدْ أَلْقَاهَا أَهْلُهَا، فَقَالَ: وَالَّذِي نَفْسِي بِيَدِهِ لَلدُّنْيَا أَهْوَنُ عَلَى اللهِ مِنْ هَذِهِ عَلَى أَهْلِهَا.

648. İbn Abbas رضي الله عنهما demişdir: "Bir dəfə Allah Elçisi sallәllahu aleyhi və sәllәm yiyəsi tərəfindən atılmış ölü qoyunun yanından keçərək belə buyurdu: "Nəfsim Əlində Olana and olsun ki, bu, yiyəsi üçün dəyərsiz olduğu kimi dünya da Allah üçün dəyərsizdir".[831]

---

[828] Hədisdə göz dikmə ifadəsi ərəbcə "zahid olmaq" kimi ifadə edilir. Zahidlik dünyaya rəğbət bəsləməyin və bağlılığın ziddidir. İbn Qeyyum "Mədaricus-Salikin"də (səh. 285) İbn Teymiyyəyə رحمه الله istinadən belə buyurur: "Zahidlik Axirətdə fayda verməyəcək şeyləri tərk etməkdir".

[829] İbn Məcə, 4102, 4241. əl-Albani səhih olduğunu bildirmişdir.

[830] ət-Tabərani "Mucəmul-Əvsat" 4278 . əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 627) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[831] Əhməd, 3047, 3048. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3236) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

ZÜLM EDƏNİ ƏFV ET!

٦٤٩ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ: لَقِيتُ رَسُولَ اللهِ ﷺ فَقَالَ لِي: يَا عُقْبَةُ بْنَ عَامِرٍ، صِلْ مَنْ قَطَعَكَ، وَأَعْطِ مَنْ حَرَمَكَ، وَاعْفُ عَمَّنْ ظَلَمَكَ.

649. Uqbə ibn Amir ﷺ demişdir: "(Bir gün) Allah Elçisi sallәllahu aleyhi və səlləm ilə görüşdükdə, o mənə buyurdu: "Ey Uqbə ibn Amir, sənинlə əlaqəni kəsənlə əlaqəni möhkəmlət, sənə verməyənə ver və sənə zülm edəni əfv et!"[832]

BU ÜMMƏTİN KASIBLARI

٦٥٠ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «تَجْتَمِعُونَ يَوْمَ الْقِيَامَةِ، فَيُقَالُ: أَيْنَ فُقَرَاءُ هَذِهِ الأُمَّةِ وَمَسَاكِينُهَا، قَالَ: فَيَقُومُونَ، فَيُقَالُ لَهُمْ: مَاذَا عَمِلْتُم؟ فَيَقُولُونَ: رَبَّنَا ابْتَلَيْتَنَا فَصَبَرنَا، وَآتَيْتَ الأَمْوَالَ وَالسُّلْطَانَ غَيْرَنَا، فَيَقُولُ اللهُ: صَدَقْتُمْ، قَالَ: فَيَدْخُلُونَ الْجَنَّةَ قَبْلَ النَّاسِ وَيَبْقَى شِدَّةُ الْحِسَابِ عَلَى ذَوُى الأَمْوَالِ وَالسُّلْطَانِ». قَالُوا: فَأَيْنَ الْمُؤْمِنُونَ يَومَئذ؟ قَالَ: «يُوْضَعُ لَهُمْ كَرَاسِيَ مِنْ نُورٍ وَتُظَلَّلُ عَلَيْهِمُ الْغَمَامُ يَكُونُ ذَلِكَ الْيَوْمُ اقْصَرَ عَلَى الْمُؤْمِنِينَ مِنْ سَاعَةٍ مِنْ نَهَارٍ»

650. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm demişdir: "Siz Qiyamət günü bir yerə toplanacaqsınız. Belə deyiləcək: "Bu ümmətin kasıb və miskinləri hardadır?" Onlar ayağa qalxacaqlar və onlara deyiləcək: "Nə etdiniz?" Onlar deyəcəklər: "Ey Rəbbimiz! Sən bizi sınağa çəkdin, biz də səbr etdik. Sən var-dövləti və hakimiyyəti başqalarına verdin". Allah deyəcək: "Doğru dediniz!" Onlar (bütün) insanlardan qabaq Cənnətə daxil olacaqlar. Var-dövlət və hakimiyyət sahibi olub şiddətli sorğu-sual olunanlar isə qalacaqlar". Səhabələr Peyğəmbərdən sallәllahu aleyhi və səlləm soruşdular: "O gün möminlər harada olacaqlar?" O buyurdu: "Onlar üçün nurdan kürsülər qoyulacaq və buludlar onların üstünə kölgə salacaq. O gün möminlərə günün bir saatı qədər qısa olacaq".[833]

٦٥١ - عَنْ فَضَالَةَ بْنِ عُبَيْدٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ إِذَا صَلَّى بِالنَّاسِ يَخِرُّ رِجَالٌ مِنْ قَامَتِهِمْ فِي الصَّلاَةِ مِنَ الْخَصَاصَةِ وَهُمْ أَصْحَابُ الصُّفَّةِ حَتَّى تَقُولَ الأَعْرَابُ هَؤُلاَءِ مَجَانِينُ أَوْ مَجَانُونَ فَإِذَا صَلَّى رَسُولُ اللَّهِ ﷺ انْصَرَفَ إِلَيْهِمْ

---

[832] Əhməd, 17488, 17589. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

[833] İbn Hibban, 7419; əl-Heysəmi "Məcməuz-Zəvaid" 18350. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3187, 3590) oxşar rəvayətin həsən olduğunu bildirmişdir.

فَقَالَ «لَوْ تَعْلَمُونَ مَا لَكُمْ عِنْدَ اللَّهِ لأَحْبَبْتُمْ أَنْ تَزْدَادُوا فَاقَةً وَحَاجَةً».

651. Fədalə ibn Ubeyd ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm camaatla birgə namaz qılarkən Suffə əhli[834] arasında aclıqdan yıxılanlar olurdu. Hətta bədəvi ərəblər (bunu görüb): "Bunlar dəlidirlər"- deyirdilər. Allahın Elçisi sallәllahu aleyhi və sәllәm namazı bitirdikdən sonra onlara tərəf dönüb buyurdu: "Allahın dərgahında sizin üçün nələr hazırlandığını bilsəydiniz, yoxsul və möhtac olmağınızın artmağını istərdiniz".[835]

٦٥٢ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «انْظُرُوا إِلَى مَنْ أَسْفَلَ مِنْكُمْ وَلاَ تَنْظُرُوا إِلَى مَنْ هُوَ فَوْقَكُمْ فَهُوَ أَجْدَرُ أَنْ لاَ تَزْدَرُوا نِعْمَةَ اللَّهِ». قَالَ أَبُو مُعَاوِيَةَ «عَلَيْكُمْ».

652. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Sizdən aşağı olan kimsələrə baxın, sizdən yuxarı olan kimsələrə baxmayın! Bu, Allahın (sizə bəxş etdiyi) nemətini kiçik hesab etməməyiniz üçün daha münasibdir".[836]

ƏSAS NİYYƏTDİR

٦٥٣ - سَمِعْتُ عَبْدَ الرَّحْمَنِ بْنَ أَبَانَ بْنِ عُثْمَانَ بْنِ عَفَّانَ عَنْ أَبِيهِ ﷺ قَالَ خَرَجَ زَيْدُ بْنُ ثَابِتٍ مِنْ عِنْدِ مَرْوَانَ بِنِصْفِ النَّهَارِ فَقُلْتُ مَا بَعَثَ إِلَيْهِ هَذِهِ السَّاعَةَ إِلاَّ لِشَىْءٍ سَأَلَ عَنْهُ. فَسَأَلْتُهُ فَقَالَ سَأَلَنَا عَنْ أَشْيَاءَ سَمِعْنَاهَا مِنْ رَسُولِ اللَّهِ ﷺ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ كَانَتِ الدُّنْيَا هَمَّهُ فَرَّقَ اللَّهُ عَلَيْهِ أَمْرَهُ وَجَعَلَ فَقْرَهُ بَيْنَ عَيْنَيْهِ وَلَمْ يَأْتِهِ مِنَ الدُّنْيَا إِلاَّ مَا كُتِبَ لَهُ وَمَنْ كَانَتِ الآخِرَةُ نِيَّتَهُ جَمَعَ اللَّهُ لَهُ أَمْرَهُ وَجَعَلَ غِنَاهُ فِى قَلْبِهِ وَأَتَتْهُ الدُّنْيَا وَهِىَ رَاغِمَةٌ».

653. Zeyd ibn Sabit ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kimin məqsədi dünya olarsa, Allah onun işlərini qarışıq edər, insanlara möhtac olmağı onun qismәti edər və dünya malından ona yalnız qədərinə yazılan nəsib olar. Kimin məqsədi Axirəti qazanmaq olarsa, Allah onun işlərini yoluna qoyar, qəlbini zəngin edər, dünya isə ona ram edilmiş halda gələr".[837]

AXİRƏT ƏMƏLLƏRİ

٦٥٤ - عَنْ مُصْعَبِ بْنِ سَعْدٍ عَنْ أَبِيهِ قَالَ الأَعْمَشُ وَلاَ أَعْلَمُهُ إِلاَّ عَنِ النَّبِىِّ ﷺ قَالَ: «التُّؤَدَةُ فِى كُلِّ شَىْءٍ خَيْرٌ إِلاَّ فِى

[834] Suffə əhli-məsciddə Allah Elçisinin ﷺ evsizlər üçün ayırdığı yerdə yaşayan səhabələr.
[835] ət-Tirmizi, 2368, 2542. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[836] Muslim, 7619.
[837] İbn Məcə, 4105, 4244. əl-Albani səhih olduğunu bildirmişdir.

عَمَلِ الآخِرَةِ».

654. Musab ibn Səd atasından rəvayət edərək demişdir: "Aməş ﷺ dedi: "Mən bu hədisi Allah Elçisindən sallallahu aleyhi və səllәm öyrənmişəm: "Axirətə aid olan əməllərdən başqa hər bir şeydə tələsməmək xeyirdir".[838]

٦٥٥ - عَنْ أبي الدرداء ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "الدُّنْيَا مَلْعُونَةٌ، مَلْعُونٌ مَا فِيهَا إلا ما ابتغي به وَجْه الله ﷻ".

655. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səllәm demişdir: "Allahın ﷻ Üzünü diləyərək edilən əməllərdən başqa dünya və onda olan hər şey lənətlənmişdir".[839]

DÜNYADA QƏRİB KİMİ YAŞA

٦٥٦ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ أَخَذَ رَسُولُ اللَّهِ ﷺ بِمِنْكَبِى فَقَالَ: «كُنْ فِى الدُّنْيَا كَأَنَّكَ غَرِيبٌ أَوْ عَابِرُ سَبِيلٍ وَعُدَّ نَفْسَكَ فِى أَهْلِ الْقُبُورِ». فَقَالَ لِى ابْنُ عُمَرَ: إِذَا أَصْبَحْتَ فَلاَ تُحَدِّثْ نَفْسَكَ بِالْمَسَاءِ وَإِذَا أَمْسَيْتَ فَلاَ تُحَدِّثْ نَفْسَكَ بِالصَّبَاحِ وَخُذْ مِنْ صِحَّتِكَ قَبْلَ سَقَمِكَ وَمِنْ حَيَاتِكَ قَبْلَ مَوْتِكَ فَإِنَّكَ لاَ تَدْرِى يَا عَبْدَ اللَّهِ مَا اسْمُكَ غَدًا».

656. İbn Ömər ﷺ demişdir: "Allah Elçisi sallallahu aleyhi və səllәm çiynimdən tutaraq buyurdu: "Dünyada qərib və ya müsafir kimi yaşa[840] və özünü qəbir əhlindən say!" (Ravi dedi) İbn Ömər ﷺ mənə dedi: "Səhərə çıxdıqda axşamı gözləmə, axşamladıqda isə sabahı gözləmə! Xəstəliyin gəlməzdən əvvəl sağlamlığından, ölümün gəlməzdən əvvəl isə həyatından istifadə et! Həqiqətən, sən, ey Allahın qulu! Sabah adının[841] nə olacağını bilmirsən!"[842]

٦٥٧ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ ﷺ قَالَ: أَخَذَ رَسُولُ اللَّهِ ﷺ بِمَنْكِبِي فَقَالَ: كُنْ فِي الدُّنْيَا كَأَنَّكَ غَرِيبٌ أَوْ عَابِرُ

---

[838] əl-Beyhəqi "Sünənul-Kubra" 21324; əl-Hakim 213. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3356) səhih olduğunu bildirmişdir.

[839] ət-Tabərani "Müsnəduş-Şəmiyyin" 612. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 9) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[840] Müsəlman dünyada qəribdir, çünki onun əsl vətəni Cənnətdir. O Cənnət ki, Allah atamız Adəmi oradan bu dünyaya endirmişdir. İnşə-Allah bizim qayıdış yerimiz oradır. Həmçinin, müsəlman dünyada yaxşı əməllər etmək və pis əməlləri tərk etmək üçün müsafirdir. Müsafir yola çıxdıqda özü ilə ona lazım olan azuqəni götürür. Çünki, bu dünya müvəqqəti, Axirət isə əbədi məskəndir. Ona görə də, müvəqqəti məskəninizdən əbədi məskəniniz üçün tədarük edin. "***Ey qövmüm! Bu dünya həyatı ancaq fani bir zövqdür, Axirət isə qərar tutacağımız yurddur***" *(Ğafir, 39).*

[841] Yəni, bu gün səni öz adınla çağırırlarsa, sabah ölsən sənə "meyit" və ya "cənazə" deyə çağıra bilərlər.

[842] ət-Tirmizi, 2333, 2503. əl-Albani səhih olduğunu bildirmişdir.

سَبِيلٍ، وَكَانَ ابْنُ عُمَرَ يَقُولُ إِذَا أَمْسَيْتَ فَلاَ تَنْتَظِرْ الصَّبَاحَ وَإِذَا أَصْبَحْتَ فَلاَ تَنْتَظِرْ الْمَسَاءَ وَخُذْ مِنْ صِحَّتِكَ لِمَرَضِكَ وَمِنْ حَيَاتِكَ لِمَوْتِكَ.

657. Rəvayət edilir ki, Abdullah ibn Ömər ﵄ demişdir: "(Bir dəfə) Peyğəmbər sallәllahu aleyhi və sәlləm mənim çiynimdən tutub dedi: "Dünyada qərib, yaxud müsafir kimi ol!" (Hədisi danışan ravilərdən biri) demişdir: "İbn Ömər ﵄ deyərdi: "Axşama çıxdığın zaman səhərə sağ çıxacağına, səhərə çıxdığın zaman da axşama sağ qalacağına arxayın olma! Xəstələnənədək sağlamlığından və ölənədək həyatından istifadə et!"[843]

٦٥٨ - عَنْ رَجُلٍ، مِنَ النَّخَعِ قَالَ: شَهِدْتُ أَبَا الدَّرْدَاءِ ﵁ حِينَ حَضَرَتْهُ الْوَفَاةُ، قَالَ: أُحَدِّثُكُمْ حَدِيثًا سَمِعْتُهُ مِنْ رَسُولِ اللهِ ﷺ سَمِعْتُ رَسُولَ اللهِ ﷺ يَقُولُ: "اعْبُدِ اللهَ كَأَنَّكَ تَرَاهُ، فَإِنْ كُنْتَ لَا تَرَاهُ فَإِنَّهُ يَرَاكَ، وَاعْدُدْ نَفْسَكَ فِي الْمَوْتَى، وَإِيَّاكَ وَدَعْوَةَ الْمَظْلُومِ فَإِنَّهَا مُسْتَجَابَةٌ، وَمَنِ اسْتَطَاعَ مِنْكُمْ أَنْ يَشْهَدَ الصَّلَاتَيْنِ الْعِشَاءَ وَالصُّبْحَ وَلَوْ حَبْوًا فَلْيَفْعَلْ"

658. Nəxadan olan bir kişinin belə dediyi rəvayət edilir: "Mən Əbud-Dərdənin ﵁ vəfatından öncə belə dediyini eşitmişəm: "Mən sizə Allah Elçisindən sallәllahu aleyhi və sәlləm eşitdiyim bir hədis danışacağam. Mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə buyurduğunu eşitdim: "Allaha elə ibadət et ki, sanki Onu görürsən, sən Onu görməsən belə, O, səni görür. Özünü ölülərdən hesab et və məzlumun duasından qorx, çünki onun duası müstəcəbdir. Sizdən kim İşa və Sübh namazlarını (camaatla) qıla bilirsə, sürünərək getsə belə onları qılsın!"[844]

ALLAH RUZİNİ QARDAŞINA GÖRƏ DƏ VERƏ BİLƏR

٦٥٩ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﵁ قَالَ كَانَ أَخَوَانِ عَلَى عَهْدِ النَّبِيِّ ﷺ فَكَانَ أَحَدُهُمَا يَأْتِي النَّبِيَّ ﷺ وَالآخَرُ يَحْتَرِفُ فَشَكَا الْمُحْتَرِفُ أَخَاهُ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ «لَعَلَّكَ تُرْزَقُ بِهِ».

659. Ənəs ibn Mәlik ﵁ demişdir: "Peyğəmbərin sallәllahu aleyhi və sәlləm zamanında iki qardaş var idi. Onlardan biri Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına gəlib-gedər, o birisi isə qazanc dalınca gedərdi. (Bir dəfə) qazanc dalınca gedən qardaşı barədə Peyğəmbərə sallәllahu aleyhi və sәlləm

[843] əl-Buxari, 6416.

[844] əl-Beyhəqi "Şuabul-İman" 10060, 10544. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 418) həsən liğeyrihi olduğunu bildirmişdir.

şikayət etdi. Peyğəmbər sallallahu aleyhi və səlləm ona dedi: “Ola bilər ki, sən ona görə ruzi qazanırsan”.[845]

QƏLB ZƏNGİNLİYİ

٦٦٠ - عن أبي هريرة ﷺ عن النبي ﷺ قال ليس فلهذا عن كثرة العرض ولكن الغنى غنى النفس

660. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “Zənginlik var-dövlətin çoxluğu ilə bağlı deyil, əsil zənginlik nəfsin zəngin olmasıdır”.[846]

٦٦١ - كَانَ سَعْدُ بْنُ أَبِي وَقَّاصٍ ﷺ فِي إِبِلِهِ فَجَاءَهُ ابْنُهُ عُمَرُ فَلَمَّا رَآهُ سَعْدٌ ﷺ قَالَ أَعُوذُ بِاللَّهِ مِنْ شَرِّ هَذَا الرَّاكِبِ فَنَزَلَ فَقَالَ لَهُ أَنَزَلْتَ فِي إِبِلِكَ وَغَنَمِكَ وَتَرَكْتَ النَّاسَ يَتَنَازَعُونَ الْمُلْكَ بَيْنَهُمْ فَضَرَبَ سَعْدٌ فِي صَدْرِهِ فَقَالَ اسْكُتْ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ إِنَّ اللَّهَ يُحِبُّ الْعَبْدَ التَّقِيَّ الْغَنِيَّ الْخَفِيَّ

661. (Vaxtı ilə) Sad ibn Əbu Vəqqas ﷺ (fitnə-fəsaddan uzaq durmaq məqsədilə) çöldə dəvələrini otararkən oğlu Ömər onun yanına gəldi. Səd ﷺ onu görəndə: “Bu gələn atlının şərindən Allaha sığınıram”- dedi. Oğlu onun yanına gəlib çatdı və atdan enib ona dedi: “Sən (burada) dəvə və qoyun otarırsan, camaat isə öz aralarında var-dövlət üstündə mübahisə edirlər”. Onda Səd (yavaşca) onun sinəsindən vurub dedi: “Sus! Mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: “Şübhəsiz ki, Allah Ondan qorxan, (aza) qane olan və xəlvətə çəkilib (öz işi ilə məşğul olan) qulunu sevər”.[847]

ALLAH BİR QULA XEYİR İSTƏSƏ ONU İSTİFADƏ EDƏR

٦٦٢ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِذَا أَرَادَ اللهُ بِعَبْدٍ خَيْراً يَسْتَعْمِلُهُ». قِيلَ: كَيْفَ يَسْتَعْمِلُهُ يَا رَسُوْلَ اللهِ؟ قَالَ: «يُوَفِّقُهُ لِعَمَلٍ صَالِحٍ قَبْلَ الْمَوْتِ».

662. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Allah bir quluna xeyir istəyərsə, onu istifadə edər”. Soruşdular: “Necə istifadə edər, ey Allahın Elçisi?” O buyurdu: “Ölümdən qabaq onu yaxşı əməllər etməyə müvəffəq edər”.[848]

---

[845] ət-Tirmizi, 2345, 2516. əl-Albani səhih olduğunu bildirmişdir.
[846] əl-Buxari “Ədəbul-Mufrad” 276. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[847] Muslim, 2965, 5266, 7621.
[848] İbn Hibban, 342. əl-Albani səhih olduğunu bildirmişdir.

٦٦٣ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «إِذَا أَرَادَ اللهُ بِعَبْدٍ خَيْراً طَهَّرَهُ قَبْلَ مَوْتِهِ ». قَالُوا: يَا رَسُوْلَ اللهِ! وَمَا طَهُورُ الْعَبْدِ؟ قَالَ: «عَمَلٌ صَالِحٌ يُلْهِمُهُ إِيَّاهُ حَتَّى يَقْبِضَهُ عَلَيهِ».

663. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allah bir quluna xeyir istəyərsə, ölümündən qabaq onu təmizləyər". Soruşdular: "Qul necə təmizlənir, ey Allahın Elçisi?" O buyurdu: "Ruhunu alana qədər Allahın ona yaxşı əməl etməyə ilham verməsi ilə".[849]

ALLAH ELÇİSİNİN SALLƏLLAHU ALEYHİ VƏ SƏLLƏM NƏSİHƏTLƏRİ

٦٦٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «يَا أَبَا هُرَيْرَةَ! كُنْ وَرِعاً تَكُنْ أَعْبَدَ النَّاسِ، وَكُنْ قَنِعاً تَكُنْ أَشْكَرَ النَّاسِ، وَأَحِبَّ لِلنَّاسِ مَا تُحِبُّ لِنَفْسِكَ تَكُنْ مُؤْمِناً، وَأَحْسِنْ جِوَارَ مَنْ جَاوَرَكَ تَكُنْ مُسْلِماً، وَأَقِلَّ الضَّحِكَ ، فَإِنَّ كَثْرَةَ الضَّحِكِ تُمِيتُ الْقَلْب».

664. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Ey Əbu Hureyra! Şübhəli şeylərdən çəkin, insanların ən çox ibadət edəni olarsan. Qane ol, insanların ən çox şükür edəni olarsan. Özün üçün istədiyini insanlar üçün istə, mömin olarsan. Qonşularınla yaxşı qonşuluq et, müsəlman olarsan və az gül, çünki çox gülmək qəlbi öldürür".[850]

٦٦٥ - عن عبد الله ﷺ عن النبي ﷺ قال عليكم بالصدق فإن الصدق يهدى إلى البر وإن البر يهدى إلى الجنة وإن الرجل يصدق حتى يكتب عند الله صديقا وإياكم والكذب فان الكذب يهدى إلى الفجور والفجور يهدى إلى النار وإن الرجل ليكذب حتى يكتب عند الله كذابا

665. Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Doğruluqdan əl çəkməyin! Çünki doğruluq (adamı) yaxşı işlər görməyə yönəldir. Yaxşı işlər isə Cənnətə aparır. Həqiqətən, adam o qədər doğru danışır ki, nəhayət Allah yanında doğruçu sayılır. Yalandan çəkinin! Çünki yalan (adamı) günah işlərə yönəldir. Günah işlər isə Cəhənnəmə aparır. Həqiqətən, adam o qədər yalan danışır ki, nəhayət Allah yanında yalançı sayılır".[851]

---

[849] ət-Tabərani "Mucəmul-Kəbir" 7900. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 306) səhih olduğunu bildirmişdir.

[850] İbn Məcə, 4217, 4357. əl-Albani səhih olduğunu bildirmişdir.

[851] əl-Buxari "Ədəbul-Mufrad" 386. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

٦٦٦ - عن أبي بكر الصديق ﷺ بعد وفاة النبي ﷺ قال قام النبي ﷺ عام أول مقامي هذا ثم بكى أبو بكر ثم قال عليكم بالصدق فإنه مع البر وهما في الجنة وإياكم والكذب فإنه مع الفجور وهما في النار وسلوا الله المعافاة فإنه لم يؤت بعد اليقين خير من المعافاة ولا تقاطعوا ولا تدابروا ولا تحاسدوا ولا تباغضوا وكونوا عباد الله إخوانا

666. Peyğəmbərin salləllahu aleyhi və səlləm vəfatından sonra Əbu Bəkr ﷺ dedi: "Keçən il Peyğəmbər salləllahu aleyhi və səlləm mənim dayandığım bu yerdə durub buyurdu". Bunu deyib Əbu Bəkr ağlamağa başladı. Sonra (Peyğəmbərin salləllahu aleyhi və səlləm dediklərini) söylədi: "Doğruluqdan əl çəkməyin! Çünki doğruluq yaxşı işlərlə bərabərdir və hər ikisi (insanı) Cənnətə aparır. Yalandan çəkinin! Çünki yalan günah işlərlə bərabərdir və hər ikisi (insanı) Cəhənnəmə aparır. Allahdan salamatlıq diləyin. Çünki (kimsəyə) yəqinlikdən sonra salamatlıqdan daha xeyirli bir şey verilməmişdir. Bir-birinizlə əlaqələri kəsməyin, bir-birinizə arxa çevirməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin. Ey Allahın qulları, qardaş olun!"[852]

٦٦٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَجُلاً قَالَ لِلنَّبِيِّ ﷺ أَوْصِنِي قَالَ لاَ تَغْضَبْ فَرَدَّدَ مِرَارًا قَالَ لاَ تَغْضَبْ.

667. Əbu Hureyra ﷺ rəvayət edir ki, (bir dəfə) bir nəfər Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına gəlib: "Mənə nəsihət et!" - dedi. Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Qəzəblənmə!" Adam (dediyini) bir neçə dəfə təkrar etdi. Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: "Qəzəblənmə!"[853]

٦٦٨ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: قُلْتُ: يَا رَسُوْلَ اللهِ! أَوْصِنِي قَالَ ﷺ: «إِذَا عَمِلْتَ سَيِّئَةً، فَأَتْبِعَهَا حَسَنَةً تَمْحُهَا». قَالَ: قُلْتُ: يَا رَسُوْلَ اللهِ! أَمِنَ الْحَسَنَاتِ لاَ إِلَهَ إِلاَّ اللهُ؟ قَالَ: «هِيَ أَفْضَلُ الْحَسَنَاتِ».

668. Rəvayət edilir ki, Əbu Zərr ﷺ demişdir: "Mən dedim: "Ey Allahın Elçisi, mənə nəsihət et!" O buyurdu: "Pislik etdikdə, ardınca yaxşılıq et ki, onu silsin". Mən dedim: "Ey Allahın Elçisi, "lə iləhə illallah" demək yaxşılıqlardan hesab olunur?" O buyurdu: "Bu, yaxşılıqların ən fəzilətlisidir".[854]

٦٦٩ - قَالَ مُعَاذُ بن جَبَلٍ ﷺ قُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَوْصِنِي، فَقَالَ: "اعْبُدِ اللَّهَ كَأَنَّكَ تَرَاهُ، وَاعْدُدْ نَفْسَكَ مِنَ الْمَوْتَى، وَاذْكُرِ اللَّهَ ﷻ عِنْدَ كُلِّ حَجَرٍ وَعِنْدَ كُلِّ شَجَرٍ، وَإِذَا عَمِلْتَ سَيِّئَةً، فَاعْمَلْ بِجَنْبِهَا حَسَنَةً، السِّرُّ بِالسِّرِّ، وَالْعَلانِيَةُ

---

[852] əl-Buxari "Ədəbul-Mufrad" 724. əl-Albani səhih olduğunu bildirmişdir.
[853] əl-Buxari, 6116.
[854] Əhməd, 21525. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3162) səhih olduğunu bildirmişdir.

بِالْعَلاَنِيَةِ"

669. Muaz ibn Cəbəl ﷺ demişdir: "Mən dedim: "Ey Allahın Elçisi, mənə nəsihət et!" O buyurdu: "Allaha elə ibadət et ki, sanki Onu görürsən. Özünü ölümə hazırla və hər bir daşın, hər bir ağacın yanında (hər vaxt) Allahı ﷻ zikr et! Pislik etdikdə ardınca gizlini gizli, aşkarı aşkar yaxşılıq et!"[855]

٦٧٠ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ كُنْتُ خَلْفَ رَسُولِ اللَّهِ ﷺ يَوْمًا فَقَالَ «يَا غُلاَمُ إِنِّى أُعَلِّمُكَ كَلِمَاتٍ احْفَظِ اللَّهَ يَحْفَظْكَ احْفَظِ اللَّهَ تَجِدْهُ تُجَاهَكَ إِذَا سَأَلْتَ فَاسْأَلِ اللَّهَ وَإِذَا اسْتَعَنْتَ فَاسْتَعِنْ بِاللَّهِ وَاعْلَمْ أَنَّ الأُمَّةَ لَوِ اجْتَمَعَتْ عَلَى أَنْ يَنْفَعُوكَ بِشَىْءٍ لَمْ يَنْفَعُوكَ إِلاَّ بِشَىْءٍ قَدْ كَتَبَهُ اللَّهُ لَكَ وَلَوِ اجْتَمَعُوا عَلَى أَنْ يَضُرُّوكَ بِشَىْءٍ لَمْ يَضُرُّوكَ إِلاَّ بِشَىْءٍ قَدْ كَتَبَهُ اللَّهُ عَلَيْكَ رُفِعَتِ الأَقْلاَمُ وَجَفَّتِ الصُّحُفُ».

670. İbn Abbas رضي الله عنهما demişdir: "Bir gün Allah Elçisi sallallahu aleyhi və səlləm mənə buyurdu: "Oğul, gəl sənə bəzi şeyləri öyrədim. Allahı qoru, Allah da səni qorusun. Allahı qorusan, Onu qarşında taparsan. İstədikdə, yalnız Allahdan istə, kömək dilədikdə, yalnız Allahdan kömək dilə. Bil ki, insanlar sənə fayda vermək üçün bir yerə toplansalar belə, sənə Allahın yazdığından başqa bir şeylə fayda verə bilməzlər. Həmçinin sənə zərər vermək üçün bir yerə toplansalar belə, Allahın sənə qarşı yazdığından başqa bir şeylə zərər verə bilməzlər. Qələmlər qaldırılmış, səhifələr qurumuşdur".[856]

٦٧١ - عَنْ الْبَرَاءِ رضي الله عنه قَالَ أَمَرَنَا النَّبِىُّ ﷺ بِسَبْعٍ، وَنَهَانَا عَنْ سَبْعٍ أَمَرَنَا بِاتِّبَاعِ الْجَنَائِزِ، وَعِيَادَةِ الْمَرِيضِ، وَإِجَابَةِ الدَّاعِى، وَنَصْرِ الْمَظْلُومِ، وَإِبْرَارِ الْقَسَمِ، وَرَدِّ السَّلاَمِ، وَتَشْمِيتِ الْعَاطِسِ. وَنَهَانَا عَنْ آنِيَةِ الْفِضَّةِ، وَخَاتَمِ الذَّهَبِ، وَالْحَرِيرِ، وَالدِّيبَاجِ، وَالْقَسِّىِّ، وَالإِسْتَبْرَقِ.

671. Rəvayət edilir ki, Bəra ibn Azib رضي الله عنه demişdir: "Peyğəmbər sallallahu aleyhi və səlləm bizə yeddi şeyi əmr etdi və yeddi şeyi qadağan etdi. O, bizə cənazənin ardınca getməyi, xəstəni ziyarət etməyi, (məclisə) dəvət edənin dəvətini qəbul etməyi, məzluma yardım etməyi, andı yerinə yetirməyi, verilən salamı almağı və asqıran adama rəhmət diləməyi[857] əmr etdi. Və

[855] ət-Tabərani "Mucəmul-Kəbir" 374, 16787. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3342) həsən liğeyrihi olduğunu bildirmişdir.
[856] ət-Tirmizi, 2516, 2706. əl-Albani səhih olduğunu bildirmişdir.
[857] Asqırdıqdan sonra "Əlhəmdulillah" deyən müsəlmana "Yərhəmukəllah" demək vacibdir.

bizə gümüş qabdan (istifadə etməyi), qızıl üzük, ipək, zərxara, ipək qatışığı olan libas və atlas parça (geyməyi) qadağan etdi”[858].[859]

٦٧٢ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﵄ أَنَّ مُعَاذَ بْنَ جَبَلٍ ﵁ أَرَادَ سَفَرًا، فَقَالَ: يَا نَبِيَّ اللَّهِ أَوْصِنِي، قَالَ: اعْبُدِ اللَّهَ لاَ تُشْرِكْ بِهِ شَيْئًا، قَالَ: يَا نَبِيَّ اللَّهِ زِدْنِي، قَالَ: إِذَا أَسَأْتَ، فَأَحْسِنْ، قَالَ: يَا رَسُولَ اللَّهِ زِدْنِي، قَالَ: اسْتَقِمْ وَلْيَحْسُنْ خُلُقُكَ.

672. Abdullah ibn Amr ibn əl-As ﵄ demişdir: “Muaz ibn Cəbəl ﵁ səfər etmək istədi və dedi: “Ey Allahın Peyğəmbəri, mənə nəsihət et?” O buyurdu: “Allaha heç bir şeyi şərik qoşmadan ibadət et!” Muaz ﵁ dedi: “Ey Allahın Peyğəmbəri, yenə nəsihət et!” O buyurdu: “Pislik etdikdə yaxşılıq et!” Muaz ﵁ dedi: “Ey Allahın Elçisi, yenə nəsihət et!” O buyurdu: “Düz ol və əxlaqını gözəlləşdir!”[860]

٦٧٣ - عَنْ أَبِي ذَرٍّ ﵁ قَالَ قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ «اتَّقِ اللَّهَ حَيْثُمَا كُنْتَ وَأَتْبِعِ السَّيِّئَةَ الْحَسَنَةَ تَمْحُهَا وَخَالِقِ النَّاسَ بِخُلُقٍ حَسَنٍ».

673. Əbu Zərr ﵁ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurdu: “Harada olsan Allahdan qorx! Pisliyin ardınca yaxşılıq et ki, onu silsin. İnsanlarla gözəl əxlaqla davran!”[861]

٦٧٤ - حَدَّثَنِي أَبُو كَبْشَةَ الأَنْمَارِيُّ ﵁ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «ثَلاَثَةٌ أُقْسِمُ عَلَيْهِنَّ وَأُحَدِّثُكُمْ حَدِيثًا فَاحْفَظُوهُ». قَالَ: «مَا نَقَصَ مَالُ عَبْدٍ مِنْ صَدَقَةٍ وَلاَ ظُلِمَ عَبْدٌ مَظْلِمَةً فَصَبَرَ عَلَيْهَا إِلاَّ زَادَهُ اللَّهُ عِزًّا وَلاَ فَتَحَ عَبْدٌ بَابَ مَسْأَلَةٍ إِلاَّ فَتَحَ اللَّهُ عَلَيْهِ بَابَ فَقْرٍ أَوْ كَلِمَةً نَحْوَهَا وَأُحَدِّثُكُمْ حَدِيثًا فَاحْفَظُوهُ قَالَ: «إِنَّمَا الدُّنْيَا لأَرْبَعَةِ نَفَرٍ عَبْدٍ رَزَقَهُ اللَّهُ مَالاً وَعِلْمًا فَهُوَ يَتَّقِي فِيهِ رَبَّهُ وَيَصِلُ فِيهِ رَحِمَهُ وَيَعْلَمُ لِلَّهِ فِيهِ حَقًّا فَهَذَا بِأَفْضَلِ الْمَنَازِلِ وَعَبْدٍ رَزَقَهُ اللَّهُ عِلْمًا وَلَمْ يَرْزُقْهُ مَالاً فَهُوَ صَادِقُ النِّيَّةِ يَقُولُ: لَوْ أَنَّ لِي مَالاً لَعَمِلْتُ بِعَمَلِ فُلاَنٍ فَهُوَ بِنِيَّتِهِ فَأَجْرُهُمَا سَوَاءٌ وَعَبْدٍ رَزَقَهُ اللَّهُ مَالاً وَلَمْ يَرْزُقْهُ عِلْمًا فَهُوَ يَخْبِطُ فِي مَالِهِ بِغَيْرِ عِلْمٍ لاَ يَتَّقِي فِيهِ رَبَّهُ وَلاَ يَصِلُ فِيهِ رَحِمَهُ وَلاَ يَعْلَمُ لِلَّهِ فِيهِ حَقًّا فَهَذَا بِأَخْبَثِ الْمَنَازِلِ وَعَبْدٍ لَمْ يَرْزُقْهُ اللَّهُ مَالاً وَلاَ عِلْمًا فَهُوَ يَقُولُ لَوْ أَنَّ لِي مَالاً لَعَمِلْتُ فِيهِ بِعَمَلِ فُلاَنٍ فَهُوَ بِنِيَّتِهِ فَوِزْرُهُمَا سَوَاءٌ»

---

[858] Hədisdə olan qadağalardan yalnız altısı sadalanmışdır. Lakin imam əl-Buxarinin “libas” kitabında rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ ipəkdən olan yəhəri də onlara qadağan etmişdir. Qeyd etmək lazımdır ki, hədisdə qadağan olunmuş yeddi şey bu ümmətin kişilərinə aiddir. Qızıl və gümüş qablardan istifadə etmək isə həm kişilərə, həm də qadınlara aiddir.

[859] əl-Buxari, 1239.

[860] İbn Hibban, 524. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 2654) həsən olduğunu bildirmişdir.

[861] ət-Tirmizi, 1987, 2115. əl-Albani həsən olduğunu qeyd etmişdir.

674. Əbu Kəbşə (Ömər ibn Səd) əl-Ənməri ﷺ rəvayət edir ki, o Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişdir: "Üç şey vardır ki, onlar barəsində and içərəm və sizə bir hədis danışacağam, onu yadınızda saxlayın. Barəsində and içdiyim üç şey isə bunlardır; (birincisi,) sədəqə verməklə qulun malı azalmaz. (İkincisi,) zülm olunaraq buna səbr edən elə bir qul yoxdur ki, Allah bununla onun hörmət və izzətini artırmasın. (Üçüncüsü,) qul başqalarından dilənmək qapısını açdıqca, Allah onun üzünə yoxsulluq qapısını açar. Sizə söyləyəcəyim hədis budur, onu yadınızda yaxşı-yaxşı saxlayın. Dünyada dörd sinif insan var. (Birincisi,) Allahın mal və elm bəxş etdiyi bəndədir ki, o, buna görə Rəbbindən qorxar, qohum-əqrabasına əl-tutar və ona verilən nemətdə Allahın haqqını unutmaz. Bu Allah dərgahında ən üstün dərəcədir. (İkincisi,) Allahın elm verib mal vermədiyi insandır. O: "Əgər malım olsaydı, mən də filankəs etdiyi (yaxşı əməli) edərdim"- deyər və bununla da həmin şəxslə savabı bərabər olar. (Üçüncüsü,) Allahın mal verib elm vermədiyi bəndədir ki, onu hara sərf edəcəyinin lazımlığını bilmədən (nəfsinin istəklərinə uyğun) sərf edər, ona verilən sərvətə görə Rəbbindən qorxmaz, qohumlarına əl tutmaz, malında Allahın haqqını tanımaz. Bu da Allah dərgahında ən pis dərəcədir. (Dördüncüsü,) Allahın nə mal, nə də elm verdiyi bəndədir. O: "Əgər malım olsaydı, mən də filankəs etdiyi (nalayiq hərəkətləri) edərdim"- deyər və bununla da niyyətinin müqabilində həmin şəxslə bərabər olar".[862]

٦٧٥ - عن سليم بن جابر الهجيمي ﷺ قال أتيت النبي ﷺ وهو محتب في بردة وإن هدابها لعلي قدميه فقلت يا رسول الله أوصني قال عليك باتقاء الله ولا تحقرن من المعروف شيئا ولو أن تفرغ للمستسقي من دلوك في إنائه أو تكلم أخاك ووجهك منبسط وإياك وإسبال الإزار فإنها من المخيلة ولا يحبها الله وإن امرؤ عيرك بشيء يعلمه منك فلا تعيره بشيء تعلمه منه دعه يكون وباله عليه وأجره لك ولا تسبن شيئا قال فما سببت بعد دابة ولا إنسانا

675. Suleym ibn Cabir əl-Huceymi ﷺ demişdir: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəldim. O, bir paltarın içində dizlərini qatlayıb baldırlarını bir-birinə keçirərək oturmuşdu. Paltarın ətəyi onun ayaqlarının üstündə idi. Mən dedim: "Ey Allahın Elçisi! Mənə nəsihət et!" Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Allahdan qorx, yaxşı işləri heç vaxt dəyərsiz hesab etmə, hətta su istəyən kimsənin qabına öz qabından su töksən belə və yaxud gülərüzlü halda qardaşınla söhbət etsən belə. Paltarının ətəyini (topuqdan aşağı) uzatmaqdan çəkin. Çünki bu, təkəbbürlükdəndir və Allah

[862] ət-Tirmizi, 2325, 2495. əl-Albani səhih olduğunu bildirmişdir.

bunu sevmir. Əgər bir adam səndə olan nöqsanı bilib sənə eyib tutarsa, sən onda olan nöqsanı bildiyin halda ona eyib tutma. Burax onu, qoy günahı öz boynuna olsun, savab isə sənə qalsın. Onu söymə!" Mən o vaxtdan bəri nə bir heyvanı, nə də bir insanı söymədim".[863]

٦٧٦ - عَنْ ثَوْبَانَ ﷺ قَالَ وَكَانَ ثَوْبَانُ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ تَكَفَّلَ لِي أَنْ لاَ يَسْأَلَ النَّاسَ شَيْئًا وَأَتَكَفَّلَ لَهُ بِالْجَنَّةِ». فَقَالَ ثَوْبَانُ أَنَا. فَكَانَ لاَ يَسْأَلُ أَحَدًا شَيْئًا.

676. Səubən ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim mənə insanlardan heç bir şey istəməyəcəyinə zəmanət verərsə, mən də onun Cənnətə girməsinə zəmanət verərəm!" Səubən ﷺ dedi: "Mən zəmanət verirəm".[864] (Bunu rəvayət edən) demişdir: "Həqiqətən, Səubən ﷺ heç kəsdən heç nə istəməzdi".

٦٧٧ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما أَنَّ رَجُلا جَاءَ إِلَى النَّبِيِّ ﷺ, فَقَالَ: يَا رَسُولَ اللَّهِ, أَيُّ النَّاسِ أَحَبُّ إِلَى اللَّهِ؟ وَأَيُّ الأَعْمَالِ أَحَبُّ إِلَى اللَّهِ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَحَبُّ النَّاسِ إِلَى اللَّهِ أَنْفَعُهُمْ, وَأَحَبُّ الأَعْمَالِ إِلَى اللَّهِ ﷻ سُرُورٌ تُدْخِلُهُ عَلَى مُسْلِمٍ, أَوْ تَكْشِفُ عَنْهُ كُرْبَةً, أَوْ تَقْضِي عَنْهُ دَيْنًا, أَوْ تَطْرُدُ عَنْهُ جُوعًا, وَلأَنْ أَمْشِيَ مَعَ أَخِي المسلم فِي حَاجَةٍ أَحَبُّ إِلَيَّ مِنْ أَنْ أَعْتَكِفَ فِي الْمَسْجِدِ شَهْرًا (أَنْ أَعْتَكِفَ فِي هَذَا الْمَسْجِدِ ، يَعْنِي مَسْجِدَ الْمَدِينَةِ، شَهْرًا), وَمَنَ كَفَّ غَضَبَهُ سَتَرَ اللَّهُ عَوْرَتَهُ, وَمَنْ كَظَمَ غَيْظًا وَلَوْ شَاءَ أَنْ يُمْضِيَهُ أَمْضَاهُ مَلأَ اللَّهُ قَلْبَهُ رَضى يَوْمَ الْقِيَامَةِ, وَمَنْ مَشَى مَعَ أَخِيهِ المسلم فِي حَاجَةٍ حَتَّى يثبتها لَهُ أَثْبَتَ اللَّهُ تعالى قَدَمَهُ يَوْمَ تَزُلُّ الأَقْدَامِ»....«وَإِنَّ سُوَّءَ الْخُلُقِ لَيُفْسِدُ الْعَمَلَ كَمَا يُفْسِدُ الْخَلّ الْعَسَلَ»

677. Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki, bir kişi Peyğəmbərin yanına gəlib soruşdu: "Ey Allahın Elçisi, Allahın ən çox sevdiyi insanlar və ən çox sevdiyi əməllər hansılardır?" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Allahın ən çox sevdiyi insanlar başqalarına ən faydalı olanlardır. Allahın ən çox sevdiyi əməllər isə bir müsəlmanı sevindirmək, onun bir sıxıntısını aradan götürmək, bir borcunu ödəmək və ya aclığını aradan qaldırmaqdır. Bir ehtiyacından ötrü müsəlman qardaşımla getməyim mənim üçün məsciddə bir ay etikaf etməkdən daha sevimlidir. (Bu məsciddə, yəni Mədinə məscidində, bir ay etikafda olmağımdan mənim üçün daha sevimlidir[865]). Hirsini cilovlayanın Allah eyibini örtər. Qəzəbləndiyi halda

---

[863] əl-Buxari "Ədəbul-Mufrad" 1182. əl-Albani səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[864] Əbu Davud, 1643; 1645. əl-Albani səhih olduğunu söyləmişdir.

[865] ət-Təbərani "Mucəmul-Kəbir" 665, 13468. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 906) həsən olduğunu bildirmişdir.

qəzəbini boğan kimsənin qəlbini Qiyamət günü Allah razılıqla doldurar. Kim müsəlman bir qardaşının bir ehtiyacından ötrü onun ehtiyacı təmin edilənədək onunla gedərsə, ayaqların büdrədiyi gündə Allah onun ayağını sabit edər".[866] Digər rəvayətdə bu əlavə vardır: "Həqiqətən, sirkə balı korladığı kimi pis əxlaq da əməli korlayır".[867]

٦٧٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «الْمُؤْمِنُ الْقَوِيُّ خَيْرٌ وَأَحَبُّ إِلَى اللَّهِ مِنَ الْمُؤْمِنِ الضَّعِيفِ وَفِى كُلٍّ خَيْرٌ احْرِصْ عَلَى مَا يَنْفَعُكَ وَاسْتَعِنْ بِاللَّهِ وَلاَ تَعْجِزْ وَإِنْ أَصَابَكَ شَىْءٌ فَلاَ تَقُلْ لَوْ أَنِّى فَعَلْتُ كَانَ كَذَا وَكَذَا. وَلَكِنْ قُلْ قَدَرُ اللَّهِ وَمَا شَاءَ فَعَلَ فَإِنَّ لَوْ تَفْتَحُ عَمَلَ الشَّيْطَانِ».

678. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Güclü mömin zəif mömindən Allah üçün daha xeyirli və daha sevimlidir. Lakin hər ikisində xeyir vardır. Sənə fayda verəcək işlərə can at, Allahdan kömək dilə və aciz olma! Başına bir iş gəlsə demə ki, "əgər belə etsəydim, belə olardı". Əksinə, de: "Bu, Alahın qədəridir, O istədiyini etdi[868]". Çünki "əgər" kəlməsi şeytan əməlinə yol açır".[869]

٦٧٩ - عَنْ سُفْيَانَ بْنِ عَبْدِ اللَّهِ الثَّقَفِيِّ ﷺ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ! قُلْ لِي فِي الإِسْلاَمِ قَوْلاً لاَ أَسْأَلُ عَنْهُ أَحَدًا بَعْدَكَ – وَفِي حَدِيثِ أَبِي أُسَامَةَ: غَيْرَكَ قَالَ: «قُلْ آمَنْتُ بِاللَّهِ ثُمَّ اسْتَقِمْ».

679. Sufyan ibn Abdullah əs-Səqəfi ﷺ demişdir: "(Bir dəfə) mən (Peyğəmbərə salləllahu aleyhi və səlləm) dedim: "Ey Allahın Elçisi! İslam haqqında mənə elə bir söz söylə ki, artıq səndən sonra heç kəsdən bu haqda soruşmayım. (Əbu Usamənin hədisində: "səndən başqa" rəvayət edilmişdir)". Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Allaha iman gətirdim" de, sonra da düz yol tut[870]".[871]

٦٨٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ حَقُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ سِتٌّ قِيلَ مَا هُنَّ يَا رَسُولَ اللَّهِ قَالَ إِذَا لَقِيتَهُ

---

[866] ət-Təbərani "Mucəmul-Kəbir" 13468, 13646. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 176) həsən olduğunu bildirmişdir.

[867] İbn Əbud-Dunyə "Qadaul-Həvəic" 36.

[868] Transkripsiyası: Qadərallahu və mə şaə fəal.

[869] Muslim, 2052, 6945.

[870] Burada "düz yol tut" deyildikdə Allahın haqq ilah olduğunu qəbul edib heç bir şeyi Ona şərik qoşmamaq, habelə Onun buyurduqlarını yerinə yetirib qadağan etdiyi şeylərdən çəkinmək və ölənə qədər bu əqidədə qalmaq qəsd edilir. Belələrinin mükafatı Cənnətdir. Uca Allah buyurur: *"**Şübhəsiz: "Rəbbimiz Allahdır!"– deyib sonra** (əməllərində) **düz olan kəslərə mələklər nazil olub** (deyirlər)**: "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!"** (Fussilət, 30); **"Şübhəsiz: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutan kəslərə heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər"** (əl-Əhqaf, 13).*

[871] Muslim, 159.

فَسَلِّمْ عَلَيْهِ وَإِذَا دَعَاكَ فَأَجِبْهُ وَإِذَا اسْتَنْصَحَكَ فَانْصَحْ لَهُ وَإِذَا عَطَسَ فَحَمِدَ اللَّهَ فَسَمِّتْهُ وَإِذَا مَرِضَ فَعُدْهُ وَإِذَا مَاتَ فَاتَّبِعْهُ

680. Əbu Hureyradan ﷺ rəvayət edildiyinə görə Allah Elçisi sallallahu aleyhi və səllәm buyurdu: "Müsəlmanın müsəlman üzərində altı haqqı vardır". Səhabələr: "Ey Allahın Elçisi, onlar hansılardır?"- deyə soruşdular. O buyurdu: "Sənin lə qarşılaşdıqda ona salam ver, səni (qonaq) çağırdıqda onun dəvətini qəbul et, səndən öyüd-nəsihət istədikdə ona nəsihət ver, asqırıb "Əlhəmdulilləh"- dedikdə, ona "Yərhəmukəllah!" (Allah sənə rəhm etsin!) - de, xəstələndikdə onu ziyarət et və öldükdə onun cənazəsini müşayiət et".[872]

NAMAZI VƏDA EDƏNİN NAMAZI KİMİ QIL!

٦٨١ - عَنْ أَبِي أَيُّوبَ ﷺ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُوْلَ اللهِ! عَلِّمْنِي وَأَوْجِز، قَالَ: «إِذَا قُمتَ فِي صَلَاتِكَ فَصَلِّ صَلَاةَ مُوَدِّعٍ، وَلَا تَكَلَّمْ بِكَلَامٍ تَعْتَذِرُ مِنْهُ، وَأَجْمِعِ الْيَأْسَ عَمَّا فِي أَيْدِي النَّاسِ».

681. Əbu Əyyub ﷺ belə rəvayət edir: "Bir nəfər Peyğəmbərin sallallahu aleyhi və səllәm yanına gəlib dedi: "Ey Allahın Elçisi! Məni qısa şəkildə öyrət!" Allah Elçisi sallallahu aleyhi və səllәm buyurdu: "Namaza durduğun zaman son namaz kimi namaz qıl, üzr istəməli olacağın sözü danışma və insanların əlində olana ümidini kəsməkdə əzmkar ol!"[873]

YOXSULLARI SEV!

٦٨٢ - عَنْ أَنَسٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «اللَّهُمَّ أَحْيِنِى مِسْكِينًا وَأَمِتْنِى مِسْكِينًا وَاحْشُرْنِى فِى زُمْرَةِ الْمَسَاكِينِ يَوْمَ الْقِيَامَةِ». فَقَالَتْ عَائِشَةُ لِمَ يَا رَسُولَ اللَّهِ قَالَ «إِنَّهُمْ يَدْخُلُونَ الْجَنَّةَ قَبْلَ أَغْنِيَائِهِمْ بِأَرْبَعِينَ خَرِيفًا يَا عَائِشَةُ لاَ تَرُدِّى الْمِسْكِينَ وَلَوْ بِشِقِّ تَمْرَةٍ يَا عَائِشَةُ أَحِبِّى الْمَسَاكِينَ وَقَرِّبِيهِمْ فَإِنَّ اللَّهَ يُقَرِّبُكِ يَوْمَ الْقِيَامَةِ».

682. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səllәm buyurdu: "Allahım, məni yoxsul olaraq yaşat, yoxsul olaraq canımı al və Qiyamət günü də yoxsulların zümrəsində həşr et!" Aişə ﷺ dedi: "Nəyə görə, ey Allahın Elçisi?" O dedi: "Həqiqətən, onlar varlılardan qırx il öncə Cənnətə girəcəklər. Ey Aişə, yoxsulu yarım xurma ilə olsa belə əliboş qaytarma! Ey Aişə, yoxsulları sev və onlara yaxın ol, Qiyamət günü Allah səni yaxın edər".[874]

---

[872] Muslim, 4023.
[873] İbn Məcə, 4171, 4310. əl-Albani həsən olduğunu bildirmişdir.
[874] ət-Tirmizi, 2353, 2526. əl-Albani səhih olduğunu bildirmişdir.



ZİKR VƏ DUA

DUANIN FƏZİLƏTİ

٦٨٣ - عَنْ أَبِي مُوسَى ﷺ قَالَ قَالَ النَّبِيُّ ﷺ: "مَثَلُ الَّذِي يَذْكُرُ رَبَّهُ وَالَّذِي لَا يَذْكُرُ رَبَّهُ مَثَلُ الْحَيِّ وَالْمَيِّتِ".

683. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Rəbbini yad edənlə Rəbbini yad etməyənin misalı diri ilə ölünün misalına bənzəyir".[875]

٦٨٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «إِنَّ اللَّهَ ﷻ يَقُولُ أَنَا مَعَ عَبْدِي إِذَا هُوَ ذَكَرَنِي وَتَحَرَّكَتْ بِي شَفَتَاهُ»

684. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Allah ﷻ buyurur: "Qulum dodaqlarını tərpədərək Məni yad etdikcə Mən onunlayam".[876]

٦٨٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ: لَيْسَ شَيْءٌ أَكْرَمَ عَلَى اللهِ سُبْحَانَهُ مِنَ الدُّعَاءِ».

685. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Uca Allah üçün duadan daha əziz heç nə yoxdur".[877]

٦٨٦ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ الدُّعَاءَ يَنْفَعُ مِمَّا نَزَلَ وَمِمَّا لَمْ يَنْزِلْ فَعَلَيْكُمْ عِبَادَ اللَّهِ بِالدُّعَاءِ»...«لاَ يَرُدُّ الْقَضَاءَ إِلاَّ الدُّعَاءُ، وَلاَ يَزِيْدُ فِي الْعُمُرِ إِلاَّ الْبِرُّ»....«لاَ يُغْنِي حَذَرٌ مِنْ قَدَرٍ، وَالدُّعَاءُ يَنْفَعُ مِمَّا نَزَلَ، وَمِمَّا لَمْ يَنْزِلْ، وَإِنَّ الْبَلاَءَ لَيَنْزِلُ فَيَتَلَقَّاهُ الدُّعَاءُ فَيَعْتَلِجَانِ إِلَى يَوْمِ الْقِيَامَةِ»

686. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Dua göndərilən və göndərilməyən bütün bəlalara qarşı faydalıdır. Elə isə Allaha dua edin, ey Allahın qulları!"[878] Digər rəvayətlərdə deyilir: "Qəzavu-qədərin qarşısını yalnız dua alar, ömrü isə yalnız yaxşılıq artırar".[879] "Ehtiyat qədərdən xilas etmir. Dua göndərilən və göndərilməyən bütün bəlalara qarşı faydalıdır. Bəla gəldikdə dua ilə qarşılaşıb Qiyamət gününə qədər mübarizə aparır".[880]

---

[875] əl-Buxari, 6044, 6407.
[876] İbn Məcə, 3792, 3924; Əhməd, 10989, 11267. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[877] ət-Tirmizi, 3370, 3696. əl-Albani həsən olduğunu bildirmişdir.
[878] ət-Tirmizi, 3548, 3893. əl-Albani səhih olduğunu bildirmişdir.
[879] ət-Tirmizi, 2139, 2289. əl-Albani həsən olduğunu bildirmişdir.
[880] əl-Hakim, 1813. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 7739) həsən olduğunu bildirmişdir.

DUA İBADƏTDİR

٦٨٧ - عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ الدُّعَاءَ هُوَ الْعِبَادَةُ». ثُمَّ قَرَأَ ﴿**وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ**﴾

687. Numan ibn Bəşir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm: "Həqiqətən, dua ibadətdir!"- dedi və bu ayəni oxudu: "***Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim"*** *(Ğafir 60)"*.[881]

DUA ETDİKDƏ TƏLƏSMƏ!

٦٨٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: يُسْتَجَابُ لأَحَدِكُمْ مَا لَمْ يَعْجَلْ يَقُولُ دَعَوْتُ فَلَمْ يُسْتَجَبْ لِي.

688. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Mən dua etdim, amma duam qəbul olmadı" deməyən və (dua-sının qəbul olunmasına) tələsməyən kimsənin duası qəbul olar".[882]

HANSI DUA TEZ QƏBUL OLUNUR?

٦٨٩ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ قِيلَ يَا رَسُولَ اللَّهِ أَىُّ الدُّعَاءِ أَسْمَعُ قَالَ «جَوْفُ اللَّيْلِ الآخِرُ وَدُبُرَ الصَّلَوَاتِ الْمَكْتُوبَاتِ». عَنْ أَبِي ذَرٍّ وَابْنِ عُمَرَ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ «جَوْفُ اللَّيْلِ الآخِرُ الدُّعَاءُ فِيهِ أَفْضَلُ أَوْ أَرْجَى».

689. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisindən sallallahu aleyhi və səlləm soruşuldu: "Hansı dua ən tez qəbul olunur?" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Gecənin axırında və fərz namazının sonunda edilən dua". Əbu Zərr və İbn Ömər ﷺ rəvayət edirlər ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Gecənin axırı edilən dua daha fəzilətlidir və (qəbul olunması) daha çox ümüdvericidir".[883]

GECƏNİN AXIRINDA EDİLƏN DUA DAHA FƏZİLƏTLİDİR

٦٩٠ - حَدَّثَنِى عَمْرُو بْنُ عَبَسَةَ ﷺ أَنَّهُ سَمِعَ النَّبِىَّ ﷺ يَقُولُ «أَقْرَبُ مَا يَكُونُ الرَّبُّ مِنَ الْعَبْدِ فِى جَوْفِ اللَّيْلِ الآخِرِ فَإِنِ اسْتَطَعْتَ أَنْ تَكُونَ مِمَّنْ يَذْكُرُ اللَّهَ فِى تِلْكَ السَّاعَةِ فَكُنْ».

---

[881] İbn Məcə, 3828. əl-Albani səhih olduğunu bildirmişdir.

[882] əl-Buxari, 6340.

[883] ət-Tirmizi, 3499, 3838. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.

690. Amr ibn Abəsə ﷺ rəvayət edir ki, Peyğəmbəri sallallahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Rəbbin qula ən yaxın olan vaxtı gecənin axırıdır. Əgər o vaxt Allahı zikr edənlərdən olmağı bacarırsansa, ol!"[884]

٦٩١ - عَنْ جَابِرٍ ﷺ قَالَ سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ إِنَّ فِي اللَّيْلِ لَسَاعَةً لَا يُوَافِقُهَا رَجُلٌ مُسْلِمٌ يَسْأَلُ اللَّهَ خَيْرًا مِنْ أَمْرِ الدُّنْيَا وَالْآخِرَةِ إِلَّا أَعْطَاهُ إِيَّاهُ وَذَلِكَ كُلَّ لَيْلَةٍ

691. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, gecə elə bir vaxt vardır ki, müsəlman kişi o vaxta yetişib Allah-dan dünya və Axirətə aid xeyir istəyərsə, Allah ona istədiyini verər. Bu, hər gecə belədir".[885]

DUA ETMƏYİN QAYDASI

٦٩٢ - عَنْ فَضَالَةَ بْنِ عُبَيْدٍ ﷺ قَالَ بَيْنَا رَسُولُ اللَّهِ ﷺ قَاعِدًا إِذْ دَخَلَ رَجُلٌ فَصَلَّى فَقَالَ اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ "عَجِلْتَ أَيُّهَا الْمُصَلِّي إِذَا صَلَّيْتَ فَقَعَدْتَ فَاحْمَدِ اللَّهَ بِمَا هُوَ أَهْلُهُ وَصَلِّ عَلَيَّ ثُمَّ ادْعُهُ". قَالَ ثُمَّ صَلَّى رَجُلٌ آخَرُ بَعْدَ ذَلِكَ فَحَمِدَ اللَّهَ وَصَلَّى عَلَى النَّبِيِّ ﷺ فَقَالَ لَهُ النَّبِيُّ ﷺ "أَيُّهَا الْمُصَلِّي ادْعُ تُجَبْ"...عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ ﷺ قَالَ: "إِنَّ الدُّعَاءَ مَوْقُوفٌ بَيْنَ السَّمَاءِ وَالْأَرْضِ لَا يَصْعَدُ مِنْهُ شَيْءٌ حَتَّى تُصَلِّيَ عَلَى نَبِيِّكَ ﷺ"

692. Fədalə ibn Ubeyd ﷺ demişdir: "Bir gün Allah Elçisi sallallahu aleyhi və səlləm (məsciddə) oturarkən bir kişi içəri daxil olub namaz qıldı. (Namazı bitirdikdən sonra) belə dua etdi: "Allahım, məni bağışla və mənə rəhm et!" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Sən tələsdin, ey namaz qılan! Namaz qılıb oturduqda Allaha layiqincə həmd et, mənə salavat de, sonra dua et!" Bundan sonra başqa bir kişi namaz qıldı, Allaha həmd etdi və Peyğəmbərə sallallahu aleyhi və səlləm salavat etdi. Peyğəmbər sallallahu aleyhi və səlləm ona dedi: "Ey namaz qılan, dua et, duan qəbul olunacaq".[886] Digər rə-vayətlərdə deyilir: Ömər ibn əl-Xəttab ﷺ buyurdu: "Dua göy ilə yer ara-sında dayanır. Peyğəmbərinə sallallahu aleyhi və səlləm salavat gətirməyənə-dək o duadan heç bir şey Allaha yüksəlməz".[887]

٦٩٣ - عَنْ عَبْدِ اللَّهِ قَالَ كُنْتُ أُصَلِّي وَالنَّبِيُّ ﷺ وَأَبُو بَكْرٍ وَعُمَرُ مَعَهُ فَلَمَّا جَلَسْتُ بَدَأْتُ بِالثَّنَاءِ عَلَى اللَّهِ ثُمَّ الصَّلَاةِ

---

[884] ət-Tirmizi, 3579, 3928. əl-Albani səhih olduğunu bildirmişdir.
[885] Muslim, 757, 1259, 1806.
[886] ət-Tirmizi, 3476, 3814. əl-Albani səhih olduğunu bildirmişdir.
[887] ət-Tirmizi, 486. əl-Albani həsən olduğunu bildirmişdir.

عَلَى النَّبِىِّ ﷺ ثُمَّ دَعَوْتُ لِنَفْسِى فَقَالَ النَّبِىُّ ﷺ «سَلْ تُعْطَهْ سَلْ تُعْطَهْ».

693. İbn Məsud ﷺ deyir: “Namaz qılırdım. Əbu Bəkr və Ömər رضي الله عنهما Peyğəmbərlə sallallahu aleyhi və səlləm birlikdə idilər. Mən oturduqda Allaha həmd-səna etməyə başladım, sonra Peyğəmbərə sallallahu aleyhi və səlləm salavat gətirdim və sonra özüm üçün dua etdim. Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “İstədiyini dilə, sənə veriləcək”.[888]

DUADA ƏLLƏRİNİ ALLAHA DOĞRU QALDIRAN

٦٩٤ - عَنْ سَلْمَانَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ "إِنَّ رَبَّكُمْ تَبَارَكَ وَتَعَالَى حَيِىٌّ كَرِيمٌ يَسْتَحْيِى مِنْ عَبْدِهِ إِذَا رَفَعَ يَدَيْهِ إِلَيْهِ أَنْ يَرُدَّهُمَا صِفْرًا".

694. Salman ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Həqiqətən, sizin Rəbbiniz Həyalı, Səxavətlidir. Əllərini Ona doğru qaldırıb dua edən qulunun əllərini boş qaytarmağa həya edər”.[889]

ALLAHIN ADLARINI SADALAYAN

٦٩٥ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّ لِلَّهِ تِسْعَةً وَتِسْعِينَ اسْمًا مِائَةً إِلاَّ وَاحِدًا مَنْ أَحْصَاهَا دَخَلَ الْجَنَّةَ».

695. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Allahın doxsan doqquz - yüzdən bir əskik - adı vardır. Kim onları sadalayarsa, Cənnətə daxil olar”.[890]

MÜSƏLMAN QARDAŞINA ETDİYİN DUAYA “AMİN” DEYƏN VAR

٦٩٦ - عن صفوان بن عبد الله بن صفوان وكانت تحته الدرداء بنت أبي الدرداء ﷺ قال قدمت عليهم الشام فوجدت أم الدرداء ﷺ في البيت و لم أجد أبا الدرداء ﷺ قالت أتريد الحج العام قلت نعم قالت فادع الله لنا بخير فان النبي ﷺ كان يقول إن دعوة المرء المسلم مستجابة لأخيه بظهر الغيب عند رأسه ملك موكل كلما دعا لأخيه بخير قال آمين ولك بمثل قال فلقيت أبا الدرداء ﷺ في السوق فقال مثل ذلك يأثر عن النبي ﷺ..."دُعَاءُ الأَخِ لأَخِيهِ بِظَهْرِ الْغَيْبِ لاَ يُرَدُّ".

---

888 ət-Tirmizi, 593, 596. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
889 Əbu Davud, 1490; İbn Məcə, 3865, 3998. əl-Albani səhih olduğunu bildirmişdir.
890 əl-Buxari, 2736.

696. Əbu Dərdənin ﷺ kürəkəni Səfvan ibn Abdullah ibn Səfvan ﷺ rəvayət edir: "Mən Şama (yoldaşımın ata-anasının) yanına gəldikdə Ummu Dərdə ﷺ evdə idi. Əbu Dərdə ﷺ isə yox idi. (Qayınanam) soruşdu: "Bu il həcc ziyarətinə getmək istəyirsən?" Mən: "Bəli!"- deyə cavab verdim. O buyurdu: "Elə isə bizim üçün Allaha xeyirli dualar et!" Çünki Peyğəmbər sallallahu aleyhi və səlləm deyərdi: "Həqiqətən, müsəlman bəndənin yanında olmayan qardaşı üçün etdiyi dua qəbuldur. Dua edənin başı üstə təyin olunmuş bir mələk vardır. Qardaşı üçün dua edib hər dəfə xeyir dilədikdə mələk: "Amin! Sənə də onun misli qədər çatsın!"- deyir". Sonra mən bazarda Əbu Dərdə ﷺ ilə rastlaşdım. O da bunu mənə Peyğəmbərdən sallallahu aleyhi və səlləm eynilə rəvayət etdi".[891] Digər rəvayətdə deyilir: "Müsəlman qardaşın yanında olmayan qardaşı üçün etdiyi dua rədd edilməz".[892]

DUA BƏLANIN QARŞISINI ALIR

٦٩٧ - عَنْ عَائِشَةَ ﷺ قَالَتْ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لاَ يُغْنِي حَذَرٌ مِنْ قَدَرٍ، وَالدُّعَاءِ يَنْفَعُ مَمَّا نَزَلَ وَمِمَّا لَمْ يَنْزِلُ، وَإِنَّ البَلاَءِ لَيَنْزِلُ، فَيَتَلَقَّاه الدُّعَاءُ، فَيَعْتَلِجَانِ إِلَى يَوْمِ الْقِيَامَةِ».

697. Aişə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Ehtiyat qədəri dəyişmir, dua isə baş verən və baş verə biləcək (bəlanın qarşısını almaqda) fayda verir. Şübhəsiz ki, bəla gəldikdə dua ilə qarşılaşır və Qiyamət gününədək onlar bir-birilə mübarizə aparırlar".[893]

٦٩٨ - أبو سعيد الخدري ﷺ عن النبي ﷺ ما من مسلم يدعو ليس بإثم ولا بقطيعة رحم الا أعطاه إحدى ثلاث اما أن يعجل له دعوته واما أن يدخرها له في الآخرة واما أن يدفع عنه من السوء مثلها قال إذا نكثر قال الله أكثر

698. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Hansı bir müsəlman, daxilində günah və qohumluq əlaqələrinin kəsilməsi olmayan bir dua edərsə, (Allah) ona üç şeydən birini verər - ya istədiyini ona bu dünyada verər, ya ona verəcəyini Axirət gününə saxlayar, ya da başına gələn bir müsibəti ondan uzaq edər". (Əbu Səid ﷺ) dedi: "Elə isə duaları çoxaldaq!" (Allah Elçisi sallallahu aleyhi və səlləm) dedi: "Allah daha çox verəndir!"[894]

---

[891] əl-Buxari "Ədəbul-Mufrad" 625. əl-Albani səhih olduğunu bildirmişdir.
[892] əl-Bəzzar, 3577. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3379) səhih olduğunu bildirmişdir..
[893] əl-Hakim, 2813. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 7739) həsən olduğunu bildirmişdir.
[894] əl-Buxari "Ədəbul-Mufrad" 710. əl-Albani səhih olduğunu bildirmişdir.

RƏDD OLUNMAYAN DUALAR

٦٩٩ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «ثَلاَثُ دَعَوَاتٍ لاَ تُرَدُّ دَعْوَةُ الْوَالِدِ ، وَدَعْوَةُ الصَّائِمِ وَدَعْوَةُ الْمُسَافِرِ».

699. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Üç dua rədd olunmur; valideynin övladı üçün etdiyi dua, oruc tutanın duası və müsafirin duası".[895]

٧٠٠ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «ثِنْتَانِ لاَ تُرَدَّانِ أَوْ قَلَّمَا تُرَدَّانِ الدُّعَاءُ عِنْدَ النِّدَاءِ وَعِنْدَ الْبَأْسِ حِينَ يُلْحِمُ بَعْضُهُمْ بَعْضًا». عَنْ سَهْلِ بْنِ سَعْدٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «وَوَقْتُ الْمَطَرِ».

700. Səhl ibn Səd ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "İki dua rədd edilməz və ya nadir halda rədd edilər; azan verildikdə və döyüş meydanında düşmənlə qarşılaşdıqda edilən dua". Həmçinin, Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Və yağış vaxtı!"[896]

٧٠١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ «ثَلاَثُ دَعَوَاتٍ مُسْتَجَابَاتٌ لاَ شَكَّ فِيهِنَّ دَعْوَةُ الْوَالِدِ وَدَعْوَةُ الْمُسَافِرِ وَدَعْوَةُ الْمَظْلُومِ».

701. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Üç duanın qəbul olunmasına şübhə yoxdur; atanın, müsafirin və məzlumun duası".[897]

٧٠٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «ثَلاثَةٌ لا يَرُدُّ اللهُ دُعَاءَهُمْ: الذَّاكر الله كَثِيراً، وَدَعْوَةُ الْمَظْلُومِ، وَالإِمَامُ الْمُقْسِط».

702. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Üç nəfərin duası rədd edilməz; Allahı çox xatırlayanın, məzlumun və ədalətli rəhbərin duası".[898]

---

[895] əl-Beyhəqi "Sunənul-Kubra" 6619; əd-Diya "Əhədisul-Muxtəra" 2057. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3032) səhih olduğunu bildirmişdir.

[896] Əbu Davud, 2540, 2542. əl-Albani səhih olduğunu bildirmişdir.

[897] Əbu Davud, 1536, 1538; ət-Tirmizi, 3448. əl-Albani həsən olduğunu bildirmişdir.

[898] əl-Beyhəqi "Şuabul-İman" 7358. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3064) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1211) həsən olduğunu bildirmişdir.

٧٠٣ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «الدُّعَاءُ لاَ يُرَدُّ بَيْنَ الأَذَانِ وَالإِقَامَةِ».

703. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Azan ilə iqamə arası edilən dua rədd olunmaz".[899]

MÖMİNLƏR ÜÇÜN BAĞIŞLANMA DİLƏMƏYİN FƏZİLƏTİ

٧٠٤ - عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنِ اسْتَغْفَرَ لِلْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ كَتَبَ اللهُ لَهُ بِكُلِّ مُؤْمِنٍ وَمُؤْمِنَةٍ حَسَنَةً»

704. Ubədə ibn Samit ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Kim mömin kişi və mömin qadınlar üçün bağışlanma diləyərsə, Allah hər mömin kişi və hər mömin qadına görə ona bir savab yazar".[900]

DUALARI ÇOXALDIN!

٧٠٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ سَرَّهُ أَنْ يَسْتَجِيْبَ اللهُ لَهُ عِنْدَ الشَّدَائِدِ وَالْكُرَبِ فَلْيُكْثِرِ الدُّعَاءَ فِي الرَخَاءِ».

705. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "Kimi sıxıntı və kədər anında duasının qəbul olunması sevindirirsə, qoy xoş günündə duasını çoxaltsın".[901]

٧٠٦ - عَنْ عَائِشَةَ ﷺ قَالَتْ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِذَا سَأَلَ أَحَدُكُمْ فَلْيُكْثِرْ فَإِنَّمَا يَسْأَلُ رَبَّهُ».

706. Aişə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Biriniz Allahdan istədikdə, çox istəsin, çünki o, öz Rəbbindən istəyir".[902]

٧٠٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: "أَقْرَبُ مَا يَكُونُ الْعَبْدُ مِنْ رَبِّهِ وَهُوَ سَاجِدٌ فَأَكْثِرُوا الدُّعَاءَ"..."أَلاَ وَإِنِّى نُهِيتُ أَنْ أَقْرَأَ الْقُرْآنَ رَاكِعًا أَوْ سَاجِدًا, فَأَمَّا الرُّكُوعُ, فَعَظِّمُوا فِيهِ الرَّبَّ ﷻ وَأَمَّا السُّجُودُ فَاجْتَهِدُوا فِى الدُّعَاءِ, فَقَمِنٌ أَنْ يُسْتَجَابَ لَكُمْ".

---

899 ət-Tirmizi, 212. əl-Albani bu hədisin səhih olduğunu bildirmişdir.

900 ət-Tabərani "Müsnəduş-Şəmiyyin" 2155. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6026) həsən olduğunu bildirmişdir.

901 ət-Tirmizi, 3382, 3710. əl-Albani həsən olduğunu bildirmişdir.

902 İbn Hibban, 886. əl-Albani səhih olduğunu bildirmişdir.

707. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səllәm buyurmuşdur: "Bəndənin Rəbbinə ən yaxın olduğu halı onun səcdə vəziyyətidir. Odur ki, (səcdədə) duaları çoxaldın!"[903] Digər rəvayətdə deyilir: "Mənə rukuda və səcdədə Quran oxumaq qadağan edildi. Rukuda siz Rəbbi ﷻ təzim edin, səcdədə isə çoxlu dua edin. Belə etsəniz, dualarınız daha tez qəbul olunar".[904]

PEYĞƏMBƏRƏ SALLƏLLAHU ALEYHI VƏ SƏLLƏM EDİLƏN SALAVATIN[905] FƏZİLƏTİ

٧٠٨ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَا مِنْ أَحَدٍ يُسَلِّمُ عَلَىَّ إِلاَّ رَدَّ اللَّهُ عَلَىَّ رُوحِى حَتَّى أَرُدَّ عَلَيْهِ السَّلاَمَ».

708. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səllәm buyurdu: "Kim mənə salam verərsə, salamını almaq üçün Allah ruhumu geri qaytarar".[906]

٧٠٩ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَامِرِ بْنِ رَبِيعَةَ عَنْ أَبِيهِ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا صَلَّى عَلَىَّ أَحَدٌ صَلاَةً إِلاَّ صَلَّتْ عَلَيْهِ الْمَلاَئِكَةُ مَا دَامَ يُصَلِّى عَلَىَّ فَلْيُقِلَّ عَبْدٌ مِنْ ذَلِكَ أَوْ لِيُكْثِرْ».

709. Abdullah ibn Amir ibn Rabia atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səllәm demişdir: "Mənə bir salavat edən elə bir kəs yoxdur ki, mənə salavat etdiyi müddətdə mələklər ona xeyir-dua etməsinlər. Qul bunu istər çox, istərsə də az etsin".[907]

٧١٠ - حَدَّثَنَا أَنَسُ بْنُ مَالِكٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ صَلَّى عَلَىَّ صَلاَةً وَاحِدَةً صَلَّى اللَّهُ عَلَيْهِ عَشْرَ صَلَوَاتٍ وَحُطَّتْ عَنْهُ عَشْرُ خَطِيئَاتٍ وَرُفِعَتْ لَهُ عَشْرُ دَرَجَاتٍ».

710. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səllәm buyurmuşdur: "Kim mənə bir dəfə salavat edərsə, Allah ona on dəfə salavat edər, onun on günahı silinər və o, on dərəcə yüksələr".[908]

---

[903] Muslim, 482, 744, 1111.
[904] Muslim, 479, 1102; Əbu Davud, 876; ən-Nəsai, 1045; Əhməd, 1900.
[905] Salavat kəlməsi dua mənasındadır. Uca Allahın bəndəsinə salavat etməsi onu tərif etməsi deməkdir.
[906] Əbu Davud, 2043. əl-Albani həsən olduğunu bildirmişdir.
[907] Əhməd, 15727,16097. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5744) həsən olduğunu bildirmişdir.
[908] ən-Nəsəi, 1297, 1305. əl-Albani səhih olduğunu bildirmişdir.

٧١١ - عَنْ أَبِي بَكْرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَكْثِرُوا الصَّلاَةَ عَلَيَّ فَإِنَّ اللهَ وَكَّلَ بِي مَلَكاً عِنْدَ قَبْرِي، فَإِذَا صَلَّى عَلَيَّ رَجُلٌ مِنْ أُمَّتِي، قَالَ لِي ذَلِكَ الْمَلَك: يَا مُحَمَّد! إِنَّ فُلاَنَ ابْنَ فُلاَنٍ صَلَّى عَلَيْكَ السَّاعةَ».

711. Əbu Bəkr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Mənə salavat etməyi çoxaldın! Həqiqətən, Allah qəbrimin yanında mənə bir mələyi müvəkkil etmişdir. Ümmətimdən bir kişi mənə salavat etdikdə həmin mələk mənə deyir: "Ey Muhəmməd! İndicə filankəsin oğlu filankəs sənə salavat etdi".[909]

٧١٢ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ عَنِ النَّبِيِّ ﷺ قال: مَنْ صَلَّى عَلَيَّ حِينَ يُصْبِحُ عَشْراً، وَحِينَ يُمْسِي عَشْراً أَدْرَكَتْهُ شَفَاعَتِي يَوْمَ الْقِيَامَةِ

712. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Kim səhər-axşam mənə on dəfə salavat edərsə, Qiyamət günü şəfaətimə nail olar".[910]

٧١٣ - عن أنس ومالك بن أوس بن الحدثان رضي الله عنهما أن النبي ﷺ خرج يتبرز فلم يجد أحدا يتبعه فخرج عمر فاتبعه بفخارة أو مطهرة فوجده ساجدا في مسرب فتنحى فجلس وراءه حتى رفع النبي ﷺ رأسه فقال أحسنت يا عمر حين وجدتني ساجدا فتنحيت عني ان جبريل جاءني فقال من صلى عليك واحدة صلى الله عليه عشرا ورفع له عشر درجات

713. Ənəs və Malik ibn Əvs əl-Hədəsan رضي الله عنهما rəvayət edirlər ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm subaşına (çölə) çıxdı. Arxasınca kimsənin gəldiyini görmədi. Sonra Ömər ﷺ cürdək, yaxud aftafa götürüb onun arxasınca gəldi. Ömər ﷺ onu su hovuzunun yanında səcdəyə qapanmış gördü. Ömər ﷺ geri çəkilib onun arxa tərəfində oturdu. Nəhayət o, başını səcdədən qaldırıb dedi: "Əhsən sənə, ey Ömər! Mənim səcdəyə qapandığımı görüb məndən aralandın. Cəbrail عليه السلام yanıma gəlib dedi: "Kim bir dəfə sənə salavat etsə, Allah ona on xeyir-dua nəsib edər və onun üçün on dərəcə yüksəldər".[911]

CƏHƏNNƏMDƏN SIĞINIB, CƏNNƏTİ İSTƏYƏN!

٧١٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ:«مَا اسْتَجَارَ عَبْدٌ مِنَ النَّارِ سَبْعَ مَرَّاتٍ فِي يَوْمٍ إِلاَّ قَالَتْ النَّارُ: يَا

---

[909] əd-Deyləmi, 1/ 31. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1207) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1530) həsən olduğunu bildirmişdir.

[910] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 11970 .əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6357) həsən olduğunu bildirmişdir.

[911] əl-Buxari "Ədəbul-Mufrad" 642. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.

رَبِّ! إِنَّ عَبْدَكَ فُلاَناً قَدْ اسْتَجَارَكَ مِنِّي فَأَجِرْهُ، وَلاَ يَسأَلُ اللهَ عَبْد الْجَنَّةَ فِي يَوْمٍ سَبْعَ مَرَّاتٍ إِلاَّ قَالَتْ الْجَنَّةُ: يَا رَبِّ! إِنَّ عَبْدَكَ فُلاَناً سَأَلَنِي فَأَدْخِلْهُ».

714. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Qul bir gündə yeddi dəfə Cəhənnəmdən qorunmağını istəsə, Cəhənnəm belə deyər: "Ey Rəbbim, Sənin filan qulun məndən Sənə sığındı, onu qoru!" Həmçinin, qul bir gündə yeddi dəfə Allahdan Cənnəti istəsə, Cənnət belə deyər: "Ey Rəbbim, Sənin filan qulun məni istədi, onu (Cənnətə) daxil et!"[912]

٧١٥ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ سَأَلَ اللَّهَ الْجَنَّةَ ثَلاَثَ مَرَّاتٍ قَالَتِ الْجَنَّةُ اللَّهُمَّ أَدْخِلْهُ الْجَنَّةَ. وَمَنِ اسْتَجَارَ مِنَ النَّارِ ثَلاَثَ مَرَّاتٍ قَالَتِ النَّارُ اللَّهُمَّ أَجِرْهُ مِنَ النَّارِ».

715. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim Allahdan üç dəfə Cənnəti istəyərsə, Cənnət deyər: "Allahım, onu Cənnətə daxil et!" Kim də üç dəfə Cəhənnəmdən qorunmağını istəyərsə, Cəhənnəm deyər: "Allahım, onu Cəhənnəmdən qoru!"[913]

ZİKRİN FƏZİLƏTİ

٧١٦ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ النَّبِىُّ ﷺ «يَقُولُ اللَّهُ تَعَالَى أَنَا عِنْدَ ظَنِّ عَبْدِى بِى، وَأَنَا مَعَهُ إِذَا ذَكَرَنِى، فَإِنْ ذَكَرَنِى فِى نَفْسِهِ ذَكَرْتُهُ فِى نَفْسِى، وَإِنْ ذَكَرَنِى فِى مَلأٍ ذَكَرْتُهُ فِى مَلأٍ خَيْرٍ مِنْهُمْ، وَإِنْ تَقَرَّبَ إِلَىَّ بِشِبْرٍ تَقَرَّبْتُ إِلَيْهِ ذِرَاعًا، وَإِنْ تَقَرَّبَ إِلَىَّ ذِرَاعًا تَقَرَّبْتُ إِلَيْهِ بَاعًا، وَإِنْ أَتَانِى يَمْشِى أَتَيْتُهُ هَرْوَلَةً»

716. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Uca Allah buyurur: "Qulum mənim barəmdə nə zənn edərsə, onu da edəcəyəm. Məni yad etdikcə onunlayam. O, Məni öz-özlüyündə yad etsə, Mən də onu Öz-Özlüyümdə yad edərəm. O, Məni camaatın yanında yad etsə, Mən onu onlardan daha xeyirli camaatın (mələklərin) yanında yad edərəm. O, Mənə bir qarış yaxınlaşsa, Mən ona bir dirsək yaxınlaşaram. O, Mənə bir dirsək yaxınlaşsa, Mən ona bir qulac yaxınlaşaram. O, Mənə doğru yeriyərək gəlsə, Mən ona doğru yüyürərək gələrəm".[914]

---

[912] İshaq ibn Rahaveyh, 213; ət-Tayəlisi, 2702; Əbu Yəalə, 6192. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2506) səhih olduğunu bildirmişdir.

[913] ət-Tirmizi, 2572, 2772. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6275) səhih olduğunu söyləmişdir.

[914] əl-Buxari, 6856, 7405; Muslim, 4/ 2061.

٧١٧ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ ﵄ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ إِذَا دَخَلَ الرَّجُلُ بَيْتَهُ فَذَكَرَ اللَّهَ عِنْدَ دُخُولِهِ وَعِنْدَ طَعَامِهِ قَالَ الشَّيْطَانُ لَا مَبِيتَ لَكُمْ وَلَا عَشَاءَ وَإِذَا دَخَلَ فَلَمْ يَذْكُرْ اللَّهَ عِنْدَ دُخُولِهِ قَالَ الشَّيْطَانُ أَدْرَكْتُمْ الْمَبِيتَ وَإِذَا لَمْ يَذْكُرْ اللَّهَ عِنْدَ طَعَامِهِ قَالَ أَدْرَكْتُمْ الْمَبِيتَ وَالْعَشَاءَ.

717. Cabir ibn Abdullah ﵄ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: “Kişi evinə daxil olarkən və yemək yeyərkən Allahı zikr etsə, şeytan belə deyir: “Sizin (burada) nə gecələməyə, nə də yaşamağa yeriniz var”. Kişi evinə daxil olarkən Allahı zikr etməzsə, şeytan belə deyir: “Gecəni keçirə bilərsiniz”. Həmçinin, kişi yemək yeyərkən Allahı zikr etməzsə, şeytan belə deyir: “Həm gecələməyə, həm də yaşamağa yeriniz var”.[915]

٧١٨ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﵁ قَالَ خَرَجَ مُعَاوِيَةُ عَلَى حَلْقَةٍ فِي الْمَسْجِدِ فَقَالَ مَا أَجْلَسَكُمْ قَالُوا جَلَسْنَا نَذْكُرُ اللَّهَ. قَالَ آللَّهِ مَا أَجْلَسَكُمْ إِلاَّ ذَاكَ قَالُوا وَاللَّهِ مَا أَجْلَسَنَا إِلاَّ ذَاكَ. قَالَ أَمَا إِنِّي لَمْ أَسْتَحْلِفْكُمْ تُهْمَةً لَكُمْ وَمَا كَانَ أَحَدٌ بِمَنْزِلَتِي مِنْ رَسُولِ اللَّهِ ﷺ أَقَلَّ عَنْهُ حَدِيثًا مِنِّي وَإِنَّ رَسُولَ اللَّهِ ﷺ خَرَجَ عَلَى حَلْقَةٍ مِنْ أَصْحَابِهِ فَقَالَ «مَا أَجْلَسَكُمْ». قَالُوا جَلَسْنَا نَذْكُرُ اللَّهَ وَنَحْمَدُهُ عَلَى مَا هَدَانَا لِلإِسْلاَمِ وَمَنَّ بِهِ عَلَيْنَا. قَالَ «آللَّهِ مَا أَجْلَسَكُمْ إِلاَّ ذَاكَ». قَالُوا وَاللَّهِ مَا أَجْلَسَنَا إِلاَّ ذَاكَ. قَالَ «أَمَا إِنِّي لَمْ أَسْتَحْلِفْكُمْ تُهْمَةً لَكُمْ وَلَكِنَّهُ أَتَانِي جِبْرِيلُ فَأَخْبَرَنِي أَنَّ اللَّهَ ﷻ يُبَاهِي بِكُمُ الْمَلاَئِكَةَ».

718. Əbu Səid əl-Xudri ﵁ demişdir: “Bir gün Müaviyə ﵁ məsciddə (elm üçün) toplanmış bir dəstənin yaına gəldi və dedi: “Sizi belə oturdan nədir?” Onlar dedilər: “Oturub Allahı zikr edirik”. Müaviyə ﵁ dedi: “Deyin: “Allaha and olsun ki, bizi burda oturdan yalnız budur!” Onlar dedilər: “Allaha and olsun ki, bizi burda oturdan yalnız budur!” Müaviyə ﵁ dedi: “Sizə and içdirməyim sizə inanmadığıma görə deyil. Allah Elçisinin salləllahu aleyhi və səlləm yanında tutduğum məqama baxmayaraq, məndən az hədis rəvayət edən bir kəs yoxdur. Bir dəfə Allah Elçisi salləllahu aleyhi və səlləm məsciddə (elm üçün) toplanmış səhabələrin yanına gəlib soruşdu: “Sizi belə oturdan nədir?” Onlar dedilər: “Oturub Allahı zikr edir, bizi İslama hidayət etməsinə və bununla bizə mərhəmət etməsinə qarşılıq olaraq Ona həmd edirik”. Allah Elçisi salləllahu aleyhi və səlləm soruşdu: “Deyin: “Allaha and olsun ki, bizi burda oturdan yalnız budur!” Onlar dedilər: “Allaha and olsun ki, bizi burda oturdan yalnız budur!” Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: “Sizə and içdirməyim sizə inanma-

[915] Muslim, 2018, 3762, 5381.

dığıma görə deyil. Lakin, Cəbrail yanıma gəlib Allahın ﷻ mələklərin qarşısında sizinlə öyündüyünü xəbər verdi”.[916]

٧١٩ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ قَالَ قَالَ النَّبِيُّ ﷺ «أَلاَ أُنَبِّئُكُمْ بِخَيْرِ أَعْمَالِكُمْ وَأَزْكَاهَا عِنْدَ مَلِيكِكُمْ وَأَرْفَعِهَا فِي دَرَجَاتِكُمْ وَخَيْرٌ لَكُمْ مِنْ إِنْفَاقِ الذَّهَبِ وَالْوَرِقِ وَخَيْرٌ لَكُمْ مِنْ أَنْ تَلْقَوْا عَدُوَّكُمْ فَتَضْرِبُوا أَعْنَاقَهُمْ وَيَضْرِبُوا أَعْنَاقَكُمْ». قَالُوا بَلَى. قَالَ «ذِكْرُ اللَّهِ تَعَالَى». فَقَالَ مُعَاذُ بْنُ جَبَلٍ ﷺ مَا شَيْءٌ أَنْجَى مِنْ عَذَابِ اللَّهِ مِنْ ذِكْرِ اللَّهِ.

719. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: “Sizə əməllərinizin ən xeyirlisi, Hökmdarınız dərgahında ən təmizi, dərəcələrinizdən ən yüksəyi, sizin üçün qızıl, gümüş xərcləməkdən, düşmənlərinizlə qarşılaşıb onların boyunlarını vurmağınızdan, onların da sizin boyunlarınızı vurmasından daha xeyirlisini bildirim?” Dedilər: “Bəli”. O buyurdu: “Uca Allahı zikr etmək”. Muaz ibn Cəbəl ﷺ dedi: “Allahın əzabından xilas edən ən yaxşı (vasitə) Allahı zikr etməkdir”.[917]

٧٢٠ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «مَا مِنْ رَاكِبٍ يَخْلُوا فِي مَسِيْرِهِ بِاللهِ وَذِكْرِهِ إِلاَّ كَانَ رَدْفَهُ مَلَكٌ، وَلاَ يَخْلُوا بِشِعرٍ وَنَحْوِهِ إِلاَّ كَانَ رَدْفَهُ شَيْطَانٌ».

720. Uqbə ibn Amir ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: “Miniyə oturub yol gedərkən Allahı zikr etmək üçün vaxt ayıran elə bir kəs yoxdur ki, arxasında bir mələk oturmasın. (Miniyə oturub yol gedərkən) şeir və ona bənzər şeylərə vaxt ayıran elə bir kəs yoxdur ki, arxasında bir şeytan oturmasın”.[918]

٧٢١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ كَانَ رَسُولُ اللَّهِ ﷺ يَسِيرُ فِي طَرِيقِ مَكَّةَ فَمَرَّ عَلَى جَبَلٍ يُقَالُ لَهُ جُمْدَانُ فَقَالَ «سِيرُوا هَذَا جُمْدَانُ سَبَقَ الْمُفَرِّدُونَ». قَالُوا وَمَا الْمُفَرِّدُونَ يَا رَسُولَ اللَّهِ قَالَ «الذَّاكِرُونَ اللَّهَ كَثِيرًا وَالذَّاكِرَاتُ».

721. Əbu Hureyra ﷺ demişdir: “Allah Elçisi sallәllahu aleyhi və sәlləm Məkkə yolunda gedərkən Cumdən adlı bir dağın yanından keçdi və buyurdu: “Gedin, bu Cumdəndir! Mufərridlər (Allahı təkləşdirənlər) hamını geridə qoydular”. Səhabələr: “Mufərridlər kimlərdir, ey Allahın Elçisi?” O buyurdu: “Allahı çox zikr edən kişilər və qadınlardır”.[919]

---

[916] Muslim, 7032.

[917] ət-Tirmizi, 3377, 3704. əl-Albani səhih olduğunu bildirmişdir.

[918] ət-Təbərani “Mucəmul-Kəbir” 895. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 5706) həsən olduğunu bildirib.

[919] Muslim, 6984.

٧٢٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «سَبَقَ الْمُفَرِّدُونَ». قَالُوا: يَا رَسُوْلَ اللهِ وَمَنِ الْمُفَرِّدُون؟ قَالَ: «الَّذِينَ يهترون فِي ذِكْرِ اللهِ».

722. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Təkləşdirənlər önə keçdilər". Dedilər: "Ey Allahın Elçisi, təkləşdirənlər kimlərdir?" O buyurdu: "Özlərini Allahı zikr etməyə həsr edənlər".[920]

٧٢٣ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ رضي الله عنهما عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ كَانَ يَقُولُ: إِنَّ لِكُلِّ شَيْءٍ صِقَالَةً, وَإِنَّ صِقَالَةَ الْقُلُوب ذِكْرُ اللَّهِ ﷻ, وَمَا مِنْ شَيْءٍ أَنْجَى مِنْ عَذَابِ اللَّهِ مِنْ ذِكْرِ اللَّهِ قَالُوا: وَلاَ الْجِهَادُ فِي سَبِيلِ اللَّهِ؟ قَالَ: وَلاَ الْجِهَادُ, إِلاَّ أَنْ يَضْرِبَ بِسَيْفِهِ حَتَّى يَنْقَطِعَ.

723. Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Həqiqətən, hər bir şeyin təmizləyicisi vardır. Qəlblərin təmizləyicisi Allahı ﷻ zikr etməkdir. Allahı zikr etməkdən də Allahın əzabından daha çox xilas edən başqa bir şey yoxdur". Dedilər: "Allah yolunda cihad etməkdən də?" O buyurdu: "Cihad etməkdən də, yalnız öldürülənə qədər qılıncı ilə döyüşən istisnadır".[921]

٧٢٤ - عَنْ عَبْدِ اللهِ بْنِ سَلاَمٍ ﷺ قَالَ: قَالَ مُوسَى عليه السلام: يَا رَبِ، مَا الشُّكْرُ الَّذِي يَنْبَغِي لَك، قَالَ: يَا مُوسَى لاَ يَزَالُ لِسَانُك رَطْبًا مِنْ ذِكْرِي

724. Abdullah ibn Səlamın ﷺ rəvayətinə görə Musa عليه السلام demişdir: "Ey Rəbb! Sənə layiq olan şükür nədir?" Allah buyurdu: "Ey Musa, dilin Məni zikr etməkdən qurumasın!"[922]

٧٢٥ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: مَنْ عَجَزَ مِنْكُمْ عَنْ اللَّيلُ أَنْ يُكَابِدَهُ بَخِلَ بِالْمَالِ أَنْ يُنفِقَهُ وَ جَبُنَ عَنِ الْعَدِوِّ أَنْ يُجَاهِدَهُ فَلْيُكْثِرْ ذِكْرِ اللهِ.

725. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Kim gecə (namaza) qalxmağa çətinlik çəkər, malı xərcləməyə xəsislik edər və ya düşmənlə vuruşmaqdan qorxarsa, Allahı çox zikr

---

920 Əhməd, 8273. Şueyb əl-Arnavut isnadını Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

921 əl-Beyhəqi "Dəavətul-Kəbir" 19. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1495) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

922 İbn Əbud-Dunyə "əş-Şukur" 39; Əbu Yəalə "Tabaqat əl-Hənəbilə" 1/ 194; İbn Mubarək "əz-Zühd" 942. Əbu Usamə Səlim ibn İyd əl-Hilali səhih olduğunu bildirmişdir.

etsin".[923]

٧٢٦ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «لأَنْ أَقْعُدَ مَعَ قَوْمٍ يَذْكُرُونَ اللَّهَ تَعَالَى مِنْ صَلاَةِ الْغَدَاةِ حَتَّى تَطْلُعَ الشَّمْسُ أَحَبُّ إِلَيَّ مِنْ أَنْ أُعْتِقَ أَرْبَعَةً مِنْ وَلَدِ إِسْمَاعِيلَ وَلأَنْ أَقْعُدَ مَعَ قَوْمٍ يَذْكُرُونَ اللَّهَ مِنْ صَلاَةِ الْعَصْرِ إِلَى أَنْ تَغْرُبَ الشَّمْسُ أَحَبُّ إِلَيَّ مِنْ أَنْ أُعْتِقَ أَرْبَعَةً».

726. Ənəs ibn Mələk ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Sübh namazından gün çıxana qədər Uca Allahı zikr edən camaatla oturmaq, mənim üçün İsmayıl övladından dörd qulu azad etməkdən daha sevimlidir. Həmçinin, Əsr namazından gün batana qədər Allahı zikr edən camaatla oturmaq, mənim üçün dörd qul azad etməkdən daha sevimlidir".[924]

DİLİN ALLAHIN ZİKRİNDƏN QURUMASIN!

٧٢٧ - عَنْ عَبْدِ اللهِ بْنِ بُسْرٍ الْمُازَنِي ﷺ قَالَ: جَاءَ أَعْرَابِيَانِ إِلَى رَسُوْلِ اللهِ ﷺ فَقَالَ أَحَدهُمَا: يَا رَسُوْلَ اللهِ أَيُّ النَّاسِ خَيْرٌ قَالَ: «طُوبَى لِمَنْ طَالَ عُمُرُهُ وَحَسُنَ عَمَلُهُ». وَقَالَ الآخَر: أَيُّ الْعَمَلِ خَيْرٌ قَالَ: «أَنْ تُفَارِقَ الدُّنْيَا وَلِسَانُكَ رَطْبٌ مِنْ ذِكْرِ اللهِ».

727. Rəvayət edilir ki, Abdullah ibn Busr əl-Muzəni ﷺ demişdir: "İki bədəvi Allah Elçisinin sallәllahu aleyhi və sәllәm yanına gəldi və onlardan biri soruşdu: "Ey Allahın Elçisi, hansı insan ən xeyirlidir?" O buyurdu: "Ömrü üzün və əməli gözəl olana Tubə olsun!" Digəri dedi: "Hansı əməl ən xeyirlidir?" Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Dilin Allahın zikrindən qurumadığı halda dünyadan ayrıl".[925]

٧٢٨ - أن مُعَاذَ بن جَبَلٍ ﷺ قَالَ لَهُمْ: إِنَّ آخِرَ كَلامٍ فَارَقْتُ عَلَيْهِ رَسُولَ اللَّهِ ﷺ أَنْ قُلْتُ: أَيُّ الأَعْمَالِ أَحَبُّ إِلَى اللَّهِ؟ قَالَ: "أَنْ تَمُوتَ وَلِسَانُكَ رَطْبٌ مِنْ ذِكْرِ اللَّهِ"

728. Muaz ibn Cəbəl ﷺ demişdir: "Allah Elçisindən sallәllahu aleyhi və sәllәm ayrılarkən son eşitdiyim kəlmə, "Hansı əməl Allaha daha sevimlidir?"-

---

[923] əl-Bəzzar, 4904. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1496) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[924] Əbu Davud, 3667, 3669. əl-Albani həsən olduğunu bildirmişdir.

[925] Əbu Nueym "Hilyətul-Əuliyə" 355. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3282) səhih olduğunu bildirmişdir.

sualıma, “Dilin ölənə qədər Allahı zikr etməkdən qurumasın”- cavabını verməsidir”.[926]

٧٢٩ - عَنْ عَبْدِ اللَّهِ بْنِ بُسْرٍ ﷺ أَنَّ رَجُلاً قَالَ يَا رَسُولَ اللَّهِ إِنَّ شَرَائِعَ الإِسْلاَمِ قَدْ كَثُرَتْ عَلَىَّ فَأَخْبِرْنِى بِشَىْءٍ أَتَشَبَّثُ بِهِ. قَالَ «لاَ يَزَالُ لِسَانُكَ رَطْبًا مِنْ ذِكْرِ اللَّهِ».

729. Abdullah ibn Busr ﷺ rəvayət edir ki, bir kişi dedi: “Ey Allahın Elçisi, İslam ayinlərinin çoxluğu mənə ağır gəlir. Mənə elə bir şey öyrət ki, ondan bərk yapışım”. Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: “Dilin Allahı zikr etməkdən qurumasın!”[927]

AZANI EŞİDƏN ZAMAN DEYİLƏN ZİKR

٧٣٠ - عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ مَنْ قَالَ حِينَ يَسْمَعُ الْمُؤَذِّنَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ رَضِيتُ بِاللَّهِ رَبًّا وَبِمُحَمَّدٍ رَسُولًا وَبِالْإِسْلَامِ دِينًا غُفِرَ لَهُ ذَنْبُهُ

730. Səd ibn Əbu Vəqqas ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: “Kim azanı eşidərək: “Əşhədu əl-lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu və ənnə Muhəmmədən abduhu va Rasuluhu. Radıytu billəhi Rabbən və bi Muhəmmədin rasulən, va bil-İsləmi diynən![928]”- deyərsə, günahı bağışlanar”.[929]

٧٣١ - سَمِعَ أَبَا هُرَيْرَةَ ﷺ يَقُولُ كُنَّا مَعَ رَسُولِ اللَّهِ ﷺ فَقَامَ بِلاَلٌ ﷺ يُنَادِى فَلَمَّا سَكَتَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ قَالَ مِثْلَ هَذَا يَقِينًا دَخَلَ الْجَنَّةَ».

731. Əbu Hureyra ﷺ buyurur: “Allah Elçisi salləllahu aleyhi və səlləm ilə birlikdə idik. Bilal ﷺ ayağa qalxaraq azan oxumağa başladı. Azanı bitirdikdə Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: “Kim bunu yəqinliklə təkrar edərsə, Cənnətə girər”.[930]

---

[926] ət-Tabərani “Mucəmul-Kəbir” 208, 16634. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 1492) həsən səhih olduğunu bildirmişdir.

[927] ət-Tirmizi, 3375, 3702. əl-Albani səhih olduğunu bildirmişdir.

[928] Tərcüməsi: Mən də şahidlik edirəm ki, Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir! Allahın Rəbb, Muhəmmədin elçi və İslamın din olduğundan razıyam! (Bu, müəzzinin şəhadət gətirməsinin ardınca deyilir. İbn Xuzeymə, 1/ 220).

[929] Muslim, 386, 579, 877.

[930] ən-Nəsəi, 674, 682; Əhməd 38270. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.

٧٣٢ - عُمَرَ بْنِ الْخَطَّاب ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ إِذَا قَالَ الْمُؤَذِّنُ اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ فَقَالَ أَحَدُكُمْ اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ ثُمَّ قَالَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ قَالَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ ثُمَّ قَالَ أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ قَالَ أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ اللَّهِ ثُمَّ قَالَ حَيَّ عَلَى الصَّلَاةِ قَالَ لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ ثُمَّ قَالَ حَيَّ عَلَى الْفَلَاحِ قَالَ لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ ثُمَّ قَالَ اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ قَالَ اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ ثُمَّ قَالَ لَا إِلَهَ إِلَّا اللَّهُ قَالَ لَا إِلَهَ إِلَّا اللَّهُ مِنْ قَلْبِهِ دَخَلَ الْجَنَّةَ

732. Ömər ibn Xəttab ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Müəzzin: "Allahu Əkbər, Allahu Əkbər"- dedikdə, sizdən biriniz "Allahu Əkbər, Allahu Əkbər"- deyərsə; müəzzin: "Əşhədu əl-lə iləhə illəllah" dedikdə, o da "Əşhədu əl-lə iləhə illəllah"- deyərsə; müəzzin: "Əşhədu ənnə Muhəmmədən Rasulullah"- dedikdə, o da "Əşhədu ənnə Muhəmmədən Rasulullah"- deyərsə; müəzzin: "Həyyə aləs-saləh"- dedikdə, o da: "Lə həulə və lə quvvətə illə billəh" deyərsə; müəzzin: "Həyyə alәl-fələh"- dedikdə, o: "Lə həulə və lə quvvətə illə billəh"- deyərsə; müəzzin: "Allahu Əkbər, Allahu Əkbər"- dedikdə, o da "Allahu Əkbər, Allahu Əkbər"- deyərsə; müəzzin: "Lə iləhə illəllah" dedikdə, o da ürəkdən "Lə iləhə illəllah"- deyərsə, Cənnətə girər".[931]

ƏL-VƏSİLƏ

٧٣٣ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﷺ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ إِذَا سَمِعْتُمْ الْمُؤَذِّنَ فَقُولُوا مِثْلَ مَا يَقُولُ ثُمَّ صَلُّوا عَلَيَّ فَإِنَّهُ مَنْ صَلَّى عَلَيَّ صَلَاةً صَلَّى اللَّهُ عَلَيْهِ بِهَا عَشْرًا ثُمَّ سَلُوا اللَّهَ لِي الْوَسِيلَةَ فَإِنَّهَا مَنْزِلَةٌ فِي الْجَنَّةِ لَا تَنْبَغِي إِلَّا لِعَبْدٍ مِنْ عِبَادِ اللَّهِ وَأَرْجُو أَنْ أَكُونَ أَنَا هُوَ فَمَنْ سَأَلَ لِي الْوَسِيلَةَ حَلَّتْ لَهُ الشَّفَاعَةُ

733. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Müəzzinin azan verdiyini eşitdiyiniz zaman siz də onun dediklərini təkrar edin, sonra da mənə salavat edin. Kim mənə bir salavat edərsə, Allah ona bunun sayəsində on salavat edər. Sonra Allahdan mənim üçün "əl-Vəsilə" istəyin. Həqiqətən o, Cənnətdə Allahın qullarından bir qul üçün layiq görülmüş bir yerdir. Mən ümid edirəm ki, o yer mənə veriləcəkdir. Kim mənim üçün "əl-Vəsilə" istəyərsə, şəfaətimə nail olar".[932]

٧٣٤ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «الْوَسِيلَةُ دَرَجَةٌ عِنْدَ اللهِ، لَيْسَ فَوْقَهَا دَرَجَةٌ، فَسَلوا اللهَ أَنْ يُؤْتِيَنِي الْوَسِيلَةَ».

[931] Muslim, 385, 578, 876.
[932] Muslim, 384, 577, 875.

734. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "əl-Vəsilə" Allahın dərgahında elə bir dərəcədir ki, ondan üstün bir dərəcə yoxdur. Elə isə Allaha dua edin ki, "əl-Vəsilə"ni mənə versin".[933]

٧٣٥ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ رضي الله عنهما ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ قَالَ حِينَ يَسْمَعُ النِّدَاءَ اللَّهُمَّ رَبَّ هَذِهِ الدَّعْوَةِ التَّامَّةِ وَالصَّلاَةِ الْقَائِمَةِ آتِ مُحَمَّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ وَابْعَثْهُ مَقَامًا مَحْمُودًا الَّذِى وَعَدْتَهُ، حَلَّتْ لَهُ شَفَاعَتِى يَوْمَ الْقِيَامَةِ».

735. Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Kim azanı eşitdikdə[934]: "Allahummə Rabbə həzihid-dəvə-tit-tammə, vəs-sәlatil qaimə, ə'ti Muhəmmədənil-vəsilətə vəl-fədilətə, vəb'as-hu məqamən məhmudənilləzi vəadtəhu"[935]- deyərsə, Qiyamət günü mənim şəfaətimə qovuşar".[936] Digər rəvayətdə belə deyilir:

DƏSTƏMAZDAN SONRA DEYİLƏN ZİKR

٧٣٦ - عَنْ أَبِي سَعِيدٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ تَوَضَّأَ فَقَالَ: سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ اسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ كُتِبَ فِي رِقٍّ ثُمَّ طُبِعَ بِطَابِعٍ فَلَمْ يُكْسَرَ إِلَى يَوْمِ الْقِيَامَةِ».

736. Əbu Səid ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demiş-dir: "Kim dəstəmaz alıb bu duanı: "Subhənəkə Allahummə və bihəmdikə, əşhədu əl-lə iləhə illə əntə, əstəğfirukə və ətubu ileyk[937]"- deyərsə, dəri[938] üzərinə yazılıb möhür vurular və Qiyamətə qədər qırılmaz".[939]

٧٣٧ - عَن أبي سعيد الْخُدْرِيّ ﷺ قَالَ: قَالَ رَسُول الله ﷺ: «من قَرَأَ سُورَة الْكَهْف كَمَا أنزلت كَانَت لَهُ نورا يَوْم الْقِيَامَة من مقَامه إِلَى مَكَّة، وَمن قَرَأَ عشر آيَات من آخرهَا ثمَّ خرج الدَّجَّال لم يُسَلط عَلَيْهِ، وَ مَنْ تَوَضَّأَ ثمَّ قَالَ: سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ كُتِبَ فِي رَقٍّ ثُمَّ طُبِعَ بِطَابَعٍ فَلَمْ يُكْسَرْ إِلَى يَوْمِ

---

[933] Əhməd, 11722. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 7151) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3571) səhih olduğunu bildirmişdir.

[934] Yəni azanı tam eşitdikdən sonra deyilir. Belə ki, Muslimin Abdullah ibn Amrdan ﷺ rəvayət ediyi hədisdə belə deyilir: "Müəzzinin dediklərini deyin, sonra mənim üçün (Allahdan) vəsilə istəyin". (Muslim, Namaz, 384).

[935] Tərcüməsi: Bu tam dəvətin və qılınacaq namazın Rəbbi olan Allahım! Muhəmmədə vasitəçilik haqqı və fəzilət ver. Onu vəd etdiyin tərifləndən məqama çatdır!

[936] əl-Buxari, 614.

[937] Tərcüməsi: Ey pak və müqəddəs olan Allahım, Sənə həmd olsun! Şəhadət verirəm ki, Səndən başqa haqq ilah yoxdur. Səndən bağışlanmağımı diləyir və Sənə tövbə edirəm!

[938] Qədimdə yazı üçün dəri işlədirdilər.

[939] əl-Hakim, 564, 2072. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib" (№ 220), "Silsilətul-Əhədisis-Sahiha" (№ 2333) və "Sahihul-Cəmius-Sağir"də (№ 6170) səhih olduğunu bildirmişdir.

الْقِيَامَةِ»

737. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səllәm demişdir: "Kim "əl-Kəhf" surəsini nazil olduğu kimi oxuyarsa, bu, onun üçün Qiyamət günü durduğu yerdən Məkkəyə qədər nur olacaq. Kim onun axırıncı on ayəsini oxuyar, sonra Dəccal peyda olarsa, ona təsir göstərə bilməz. Kim dəstəmaz alıb bu duanı: "Subhənəkə Allahummə və bihəmdikə, əşhədu əl-lə iləhə illə əntə, əstəğfirukə və ətubu ileyk[940]"– deyərsə, dəri[941] üzərinə yazılıb xətmi vurular və Qiyamətə qədər sınmaz".[942]

MƏSCİDƏ GİRƏRKƏN EDİLƏN ZİKR

٧٣٨ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رضي الله عنهما: عَنْ النَّبِيِّ ﷺ أَنَّهُ كَانَ إِذَا دَخَلَ الْمَسْجِدَ قَالَ :«أَعُوذُ بِاللَّهِ الْعَظِيمِ، وَبِوَجْهِهِ الْكَرِيمِ، وَسُلْطَانِهِ الْقَدِيمِ مِنْ الشَّيْطَانِ الرَّجِيمِ». قَالَ: «أَقَطْ؟». قُلْتُ :«نَعَمْ». قَالَ: «فَإِذَا قَالَ ذَلِكَ قَالَ الشَّيْطَانُ: حُفِظَ مِنِّي سَائِرَ الْيَوْمِ».

738. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səllәm məscidə girərkən dedi: "Əuzu billəhil-Azim və bivəchihil-Kərim və sultanihil-qadim minəş-şeytanir-racim[943]". (Məscidə girərkən) bunu söylədikdə şeytan belə deyir: "O, günün qalan hissəsini də məndən qorundu".[944]

NAMAZDA EDİLƏN DUALARIN FƏZİLƏTİ

٧٣٩ - عَنْ أَنَسٍ ﷺ قَالَ جَاءَ رَجُلٌ وَالنَّبِيُّ ﷺ فِي الصَّلاَةِ فَقَالَ الْحَمْدُ لِلَّهِ حَمْداً كَثِيراً طَيِّباً مُبَارَكاً فِيهِ. فَلَمَّا قَضَى النَّبِيُّ ﷺ الصَّلاَةَ قَالَ «أَيُّكُمُ الْقَائِلُ كَلِمَةَ كَذَا وَكَذَا». قَالَ فَأَرَمَّ الْقَوْمُ – قَالَ – فَأَعَادَهَا ثَلاَثَ مِرَارٍ فَقَالَ رَجُلٌ أَنَا قُلْتُهَا وَمَا أَرَدْتُ بِهَا إِلاَّ الْخَيْرَ. قَالَ فَقَالَ النَّبِيُّ ﷺ «لَقَدِ ابْتَدَرَهَا اثْنَا عَشَرَ مَلَكاً فَمَا دَرَوْا كَيْفَ يَكْتُبُونَهَا حَتَّى سَأَلُوا رَبَّهُمْ ﷻ قَالَ اكْتُبُوهَا كَمَا قَالَ عَبْدِى»

739. Ənəs ﷺ demişdir: "Peyğəmbər sallәllahu aleyhi və səllәm namaz qılarkən bir kişi gəlib dedi: "Allaha həmd olsun, (özü də) çoxlu, xoş, mübarək bir

---

940 Tərcüməsi: Ey nöqsansız və pak olan Allahım, Sənə həmd olsun! Şəhadət verirəm ki, Səndən başqa haqq ilah yoxdur. Səndən bağışlanmağımı diləyir və Sənə tövbə edirəm!

941 Qədimdə yazı üçün dəri işlədirdilər.

942 əl-Hakim, 2072. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib" (№ 1473) səhih li-ğeyrihi olduğunu bildirib.

943 Tərcüməsi: Qovulmuş şeytandan Əzəmətli Allaha, Onun kəramətli Üzünə və Onun əzəli hökmranlığına sığınıram.

944 Əbu Davud, 466. əl-Albani səhih olduğunu bildirmişdir.

həmd![945]" Namazı bitirdikdən sonra Peyğəmbər sallәllahu aleyhi və səlləm soruşdu: "Bu kəlməni deyən kimdir!" İnsanlar susdular və o, bunu üç dəfə təkrarladı. Həmin kişi dedi: "Onu mən dedim və onu deməkdə də istəyim yalnız xeyir idi". Peyğəmbər sallәllahu aleyhi və səlləm dedi: "Artıq on iki mələk (onu yazmaq üçün bir-biri ilə) yarışdılar, lakin onu necə yazacaqlarını bilmədilər. Nəhayət Rəbblərindən ﷻ soruşdular, O da: "Qulumun söylədiyi kimi yazın!"- deyə buyurdu".[946]

٧٤٠ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما قَالَ بَيْنَمَا نَحْنُ نُصَلِّى مَعَ رَسُولِ اللَّهِ ﷺ إِذْ قَالَ رَجُلٌ مِنَ الْقَوْمِ اللَّهُ أَكْبَرُ كَبِيرًا وَالْحَمْدُ لِلَّهِ كَثِيرًا وَسُبْحَانَ اللَّهِ بُكْرَةً وَأَصِيلاً. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنِ الْقَائِلُ كَذَا وَكَذَا». فَقَالَ رَجُلٌ مِنَ الْقَوْمِ أَنَا يَا رَسُولَ اللَّهِ. قَالَ «عَجِبْتُ لَهَا فُتِحَتْ لَهَا أَبْوَابُ السَّمَاءِ». قَالَ ابْنُ عُمَرَ مَا تَرَكْتُهُنَّ مُنْذُ سَمِعْتُهُنَّ مِنْ رَسُولِ اللَّهِ ﷺ.

740. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm ilə birlikdə namaz qılarkən camaatdan biri dedi: "Allahu əkbəru kəbiyran, vəlhəmdulilləhi kəsiyran, və subhənəllahi bukratən və əsiylən[947]". Allah Elçisi sallәllahu aleyhi və səlləm soruşdu: "Bunu deyən kimdir?" Həmin kişi dedi: "Mənəm, ey Allahın Elçisi!" Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurdu: "Bu kəlmələrə təəccübləndim, səma qapıları bunun üçün açıldı". İbn Ömər رضي الله عنهما dedi: "Bu kəlmələri Allah Elçisindən sallәllahu aleyhi və səlləm eşitdiyim gündən bəri tərk etmədim".[948]

٧٤١ - عَنْ رِفَاعَةَ بْنِ رَافِعٍ الزُّرَقِىِّ رضي الله عنه قَالَ: كُنَّا يَوْمًا نُصَلِّى وَرَاءَ النَّبِىِّ ﷺ فَلَمَّا رَفَعَ رَأْسَهُ مِنَ الرَّكْعَةِ قَالَ: «سَمِعَ اللَّهُ لِمَنْ حَمِدَهُ». قَالَ رَجُلٌ وَرَاءَهُ رَبَّنَا وَلَكَ الْحَمْدُ، حَمْدًا كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ، فَلَمَّا انْصَرَفَ قَالَ: «مَنِ الْمُتَكَلِّمُ»، قَالَ: أَنَا، قَالَ: «رَأَيْتُ بِضْعَةً وَثَلاَثِينَ مَلَكًا يَبْتَدِرُونَهَا، أَيُّهُمْ يَكْتُبُهَا أَوَّلُ».

741. Rəvayət edilir ki, Rifaa ibn Rafi əz-Zuraqi رضي الله عنه demişdir: "Bir dəfə biz Peyğəmbərin sallәllahu aleyhi və səlləm arxasında namaz qılırdıq. Rukudan başını qaldırıb: "Səmi Allahu limən həmidəh[949]"- dedi. Arxasında duran bir nəfər isə: "Rabbənə və ləkəl-həmd, həmdən, kəsiran, tayyibən, mubarəkən fihi[950]"- dedi. Peyğəmbər sallәllahu aleyhi və səlləm namazı bitirdikdən sonra soruşdu: "Bunu deyən kim idi?" (Əshabə): "Mən"- dedi. (Onda Peyğəmbər

---

[945] Transkripsiyası: Əlhəmdulilləhi həmdən kəsiyran tayyibən mubərakən fihi.

[946] Əhməd, 12988, 13341, 13843. Şueyb əl-Arnavut isnadını əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[947] Tərcüməsi: Allah ən Böyükdür, Allaha çoxlu həmd olsun, səhər-axşam Allaha təriflər olsun!

[948] ət-Tirmizi, 3592, 3941. əl-Albani bu hədisin səhih olduğunu bildirmişdir.

[949] Tərcüməsi: Allah Ona həmd deyənləri eşidir.

[950] Tərcüməsi: Ey Rəbbimiz! Sənə həmd olsun, özü də çoxlu, xoş, mübarək bir həmd!

salləllahu aleyhi və səlləm) buyurdu: “Mən otuzdan çox mələk gördüm ki, bu sözü hansı biri daha tez yazacaq deyə, bir-birini ötməyə çalışırdılar”.[951]

İSTİFTAHDA[952] DEYİLƏN ZİKRİN FƏZİLƏTİ

٧٤٢ - عَنْ عَبْدِ اللهِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: إِنَّ أَحَبَّ الْكَلاَمِ إِلَى اللهِ أَنْ يَقُولَ الْعَبْدُ: سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، وَتَبَارَكَ اسْمُكَ، وَتَعَالَى جَدُّكَ، وَلاَ إِلَهَ غَيْرُكَ، وَإِنَّ أَبْغَضَ الْكَلاَمِ إِلَى اللهِ أَنْ يَقُولَ الرَّجُلُ لِلرَّجُلِ: اتَّقِ اللَّهَ فَيَقُولُ: عَلَيْكَ نَفْسَكَ.

742. Abdullah ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: “Həqiqətən, Allaha ən sevimli kəlmə qulun belə deməsidir: “Subhənəkə Allahummə və bihəmdikə və təbarakə ismukə və təalə cəddukə və lə iləhə ğayrukə[953]”. Həqiqətən, Allahın nifrət etdiyi kəlmə isə bir kişinin digərinə: ”Allahdan qorx!”- dedikdə, onun: “Get, öz işinlə məşğul ol!”- deməsidir”.[954]

NAMAZDAN SONRA EDİLƏN ZİKRLƏR

٧٤٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: جَاءَ الْفُقَرَاءُ إِلَى النَّبِيِّ ﷺ فَقَالُوا ذَهَبَ أَهْلُ الدُّثُورِ مِنَ الأَمْوَالِ بِالدَّرَجَاتِ الْعُلاَ وَالنَّعِيمِ الْمُقِيمِ، يُصَلُّونَ كَمَا نُصَلِّي، وَيَصُومُونَ كَمَا نَصُومُ، وَلَهُمْ فَضْلٌ مِنْ أَمْوَالٍ يَحُجُّونَ بِهَا، وَيَعْتَمِرُونَ، وَيُجَاهِدُونَ، وَيَتَصَدَّقُونَ قَالَ: «أَلاَ أُحَدِّثُكُمْ بِأَمْرٍ إِنْ أَخَذْتُمْ بِهِ أَدْرَكْتُمْ مَنْ سَبَقَكُمْ وَلَمْ يُدْرِكْكُمْ أَحَدٌ بَعْدَكُمْ، وَكُنْتُمْ خَيْرَ مَنْ أَنْتُمْ بَيْنَ ظَهْرَانَيْهِ، إِلاَّ مَنْ عَمِلَ مِثْلَهُ تُسَبِّحُونَ وَتَحْمَدُونَ، وَتُكَبِّرُونَ خَلْفَ كُلِّ صَلاَةٍ ثَلاَثًا وَثَلاَثِينَ». قَالَ الرَاوِي: فَاخْتَلَفْنَا بَيْنَنَا فَقَالَ بَعْضُنَا نُسَبِّحُ ثَلاَثًا وَثَلاَثِينَ، وَنَحْمَدُ ثَلاَثًا وَثَلاَثِينَ، وَنُكَبِّرُ أَرْبَعًا وَثَلاَثِينَ. فَرَجَعْتُ إِلَيْهِ فَقَالَ: «تَقُولُ سُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَاللَّهُ أَكْبَرُ، حَتَّى يَكُونَ مِنْهُنَّ كُلِّهِنَّ ثَلاَثًا وَثَلاَثِينَ». ...«قَالَ أَبُو صَالِحٍ فَرَجَعَ فُقَرَاءُ الْمُهَاجِرِينَ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالُوا سَمِعَ إِخْوَانُنَا أَهْلُ الأَمْوَالِ بِمَا فَعَلْنَا فَفَعَلُوا مِثْلَهُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «ذَلِكَ فَضْلُ اللَّهِ يُؤْتِيهِ مَنْ يَشَاءُ».

743. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: “Kasıblar Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına gəlib dedilər: “Varlılar ən yüksək məqamlara və tükənməz nemətlərə nail olacaqlar. Onlar bizim kimi namaz qılır və

---

951 əl-Buxari, 799.

952 Namaza başlayarkən birinci təkbirdən sonra edilən açılış duası.

953 Tərcüməsi: Allahım, Sən pak və müqəddəssən, Sənə həmd olsun, Sənin adın mübarək, Əzəmətin ucadır. Səndən başqa həqiqi ilah yoxdur!

954 ən-Nəsəi “Sünənul-Kubra” 10619. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 2598, 2939) səhih olduğunu bildirmişdir.

bizim kimi oruc tuturlar, üstəlik onların çoxlu var-dövləti vardır ki, bunun sayəsində həcc və ümrə ziyarətinə gedirlər, (Allah yolunda) cihad edir və sədəqə verirlər". Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Sizə elə bir şey öyrədimmi ki, onu yerinə yetirməklə sizi ötüb keçənlərə çatasınız, sizdən sonra yaşayanlardan heç kəs sizə çata bilməsin və sizin etdiyinizi edənlər istisna olmaqla, aranızda olan kimsələrin ən xeyirlisi siz olasınız? Hər (vacib) namazdan sonra otuz üç dəfə "subhanəllah", "Əlhəmdulilləh" və "Allahu Əkbər" deyin!" Hədisin ravisi demişdir: "(Bu səbəbdən) bizim aramızda fikir ayrılığı düşdü. Bəzilərimiz dedilər: "Biz otuz üç dəfə "subhanəllah", otuz üç dəfə "Əlhəmdulilləh" və otuz dörd dəfə "Allahu Əkbər" deməliyik". Mən (bu haqda Əbu Salehə) sual verdim. O dedi: "Otuz üç dəfə "subhanəllah", otuz üç dəfə "Əlhəmdulilləh" və otuz üç dəfə "Allahu Əkbər" de!"[955] Digər rəvayətdə bu əlavə vardır: "...Əbu Salih ﷺ deyir: "Bir müddət keçdikdən sonra kasıb mühacirlər[956] Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına gəlib dedilər: "Varlı qardaşlarımız bizim dediklərimizi eşitdilər. İndi onlar da bu zikrləri deyirlər". Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Bu, Allahın lütfüdür, onu istədiyinə verər".[957]

٧٤٤ - عَنْ كَعْبِ بْنِ عُجْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مُعَقِّبَاتٌ لاَ يَخِيبُ قَائِلُهُنَّ يُسَبِّحُ اللَّهَ فِى دُبُرِ كُلِّ صَلاَةٍ ثَلاَثًا وَثَلاَثِينَ وَيَحْمَدُهُ ثَلاَثًا وَثَلاَثِينَ وَيُكَبِّرُهُ أَرْبَعًا وَثَلاَثِينَ».

744. Kəb ibn Ucra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Hər namazdan sonra edilən zikrlər vardır ki, onları deyənlər xəsarətə uğramazlar. Otuz üç dəfə təsbih (Subhənallah), otuz üç dəfə təhmid (Əlhəmdulilləh) və otuz dörd dəfə təkbir (Allahu Əkbər) etmək".[958]

٧٤٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ مَنْ سَبَّحَ اللَّهَ فِي دُبُرِ كُلِّ صَلَاةٍ ثَلَاثًا وَثَلَاثِينَ وَحَمِدَ اللَّهَ ثَلَاثًا وَثَلَاثِينَ وَكَبَّرَ اللَّهَ ثَلَاثًا وَثَلَاثِينَ فَتْلِكَ تِسْعَةٌ وَتِسْعُونَ وَقَالَ تَمَامَ الْمِائَةِ لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ غُفِرَتْ خَطَايَاهُ وَإِنْ كَانَتْ مِثْلَ زَبَدِ الْبَحْرِ

745. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm

---

[955] əl-Buxari, 843.

[956] Məkkənin fəthindən, yəni hicrətin səkkizinci ilindən əvvəl Məkkədən Mədinəyə hicrət edənlər (köçənlər).

[957] Muslim, 1346, 1375.

[958] ən-Nəsəi, 1349, 1357. əl-Albani səhih olduğunu bildirmişdir.

buyurdu: “Kim hər namazdan sonra otuz üç dəfə “Subhənəllah”, otuz üç dəfə “Əlhəmdulilləh”, otuz üç dəfə “Allahu Əkbər” deyərsə, bunlar doxsan doqquzdur. Yüzü tamamlayaraq: “Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir[959]”- deyərsə, onun günahları dənizin köpükləri qədər olsa belə bağışlanar”.[960]

٧٤٦ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَخَذَ بِيَدِهِ وَقَالَ «يَا مُعَاذُ وَاللَّهِ إِنِّى لأُحِبُّكَ وَاللَّهِ إِنِّى لأُحِبُّكَ». فَقَالَ «أُوصِيكَ يَا مُعَاذُ لاَ تَدَعَنَّ فِى دُبُرِ كُلِّ صَلاَةٍ تَقُولُ اللَّهُمَّ أَعِنِّى عَلَى ذِكْرِكَ وَشُكْرِكَ وَحُسْنِ عِبَادَتِكَ». وَأَوْصَى بِذَلِكَ مُعَاذٌ الصُّنَابِحِىَّ وَأَوْصَى بِهِ الصُّنَابِحِىُّ أَبَا عَبْدِ الرَّحْمَنِ.

746. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm əlimdən tutub buyurdu: “Ey Muaz, Allaha and olsun ki, həqiqətən, mən səni sevirəm. Allaha and olsun ki, həqiqətən, mən səni sevirəm. Ey Muaz, sənə tövsiyə edirəm ki, hər namazın arxasınca: “Allahummə, əinni alə zikrikə va şukrikə va husni ibədətikə[961]”- deməyi tərk etməyəsən”.[962]

SÜBH NAMAZINDAN SONRA EDİLƏN ZİKRLƏR

٧٤٧ - عَنِ الْمُنَيْذِرِ ﷺ صَاحِبِ رَسُولِ اللَّهِ ﷺ وَكَانَ يَكُونُ بِإِفْرِيقِيَّةَ، قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: مَنْ قَالَ إِذَا أَصْبَحَ: رَضِيتُ بِاللَّهِ رَبًّا، وَبِالإِسْلاَمِ دِينًا، وَبِمُحَمَّدٍ نَبِيًّا، فَأَنَا الزَّعِيمُ لآخُذَ بِيَدِهِ حَتَّى أُدْخِلَهُ الْجَنَّةَ.

747. Allah Elçisinin sallәllahu aleyhi və sәllәm əshabından olan Muneyzir ﷺ rəvayət edir ki, Allah Elçisinin sallәllahu aleyhi və sәllәm belə dediyini eşıtdim: “Kim səhərə çıxaraq: “Radıtu billəhi Rabbən, və bil-İsləmi dinən, və bi Muhəmmədin nəbiyyən[963]”– deyərsə, (Qiyamət günü) mən ona zamin olaraq əlindən tutub Cənnətə daxil edəcəyəm”.[964]

٧٤٨ - عَنْ مُعَاذِ بن جَبَلٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "مَنْ قَالَ حِينَ يَنْصَرِفُ مَنْ صَلاَةِ الْغَدَاةِ قَبْلَ أَنْ يَتَكَلَّمَ: لا إِلَهَ إِلا اللَّهُ وَحْدَهُ لا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ بِيَدِهِ الْخَيْرُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ عَشَرَ مَرَّاتٍ، أُعْطِيَ بِهِنَّ سَبْعًا،

---

[959] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!

[960] Muslim, 597, 1380.

[961] Tərcüməsi: Allahım, Səni zikr etmək, Sənən şükür etmək və gözəl tərzdə Sənə ibadət etmək üçün mənə yardım et!

[962] Əbu Davud, 1522, 1524. əl-Albani səhih olduğunu bildirmişdir.

[963] Tərcüməsi: Allahdan Rəbb, İslamdan din və Muhəmməddən peyğəmbər olaraq razı qaldım.

[964] ət-Tabərani “Mucəmul-Kəbir” 17225. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 657) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 2686) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

كُتِبَ لَهُ بِهِنَّ عَشَرُ حَسَنَاتٍ، وَمُحِيَ عَنْهُ بِهِنَّ عَشَرُ سَيِّئَاتٍ، وَرُفِعَ لَهُ بِهِنَّ عَشَرُ دَرَجَاتٍ، وَكُنَّ لَهُ عَدْلَ عَشْرِ نَسَمَاتٍ، وَكُنَّ لَهُ حِفْظًا مِنَ الشَّيْطَانِ، وَحِرْزًا مِنَ الْمَكْرُوهِ، وَلَمْ يَلْحَقْهُ فِي يَوْمِهِ ذَلِكَ ذَنْبٌ إِلا الشِّرْكَ بِاللَّهِ، وَمَنْ قَالَهُنَّ حِينَ يَنْصَرِفُ مِنْ صَلاةِ الْمَغْرِبِ أُعْطِيَ مِثْلَ ذَلِكَ ليلته"

748. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Kim Sübh namazını qıldıqdan sonra danışmadan on dəfə: "Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu biyədihil-xeyr və huvə alə kulli şeyin qadir[965]"- deyərsə, ona yeddi üstünlük verilər; buna görə ona on savab yazılar, on günahı silinər, on dərəcə yüksəldilər, on qul azad etmiş kimi savab verilər, şeytandan və günahlardan qorunar, Allaha şərik qoşmaq istisna olmaqla həmin gün ona heç bir günah yazılmaz. Kim bunu Məğrib namazından sonra deyərsə, həmin gecə ona bunun misli verilər".[966]

٧٤٩ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "مَنْ قَالَ فِي دُبُرِ صَلاةِ الْغَدَاةِ: لا إِلَهَ إِلا اللَّهُ، وَحْدَهُ لا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَيُحْيِي وَيُمِيتُ بِيَدِهِ الْخَيْرُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ مِئَةَ مَرَّةٍ قَبْلَ أَنْ يَثْنِيَ رِجْلَيْهِ، كَانَ يَوْمَئِذٍ أَفْضَلَ أَهْلِ الأَرْضِ إِلا مَنْ قَالَ مِثْلَ مَا قَالَ أَوْ زَادَ عَلَى مَا قَالَ".

749. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Kim Sübh namazından sonra ayaqlarını uzatmadan: "Lə iləhə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulk və ləhul-həmd, yuhyi və yumit, biyədihil-xayru, və huvə alə kulli şeyin qadir[967]"- yüz dəfə deyərsə, həmin gün o, onun kimi və ya ondan artıq deyəndən başqa yer əhlinin ən fəzilətlisi sayılar".[968]

٧٥٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ سَبَّحَ فِي دُبُرِ صَلاَةِ الْغَدَاةِ مِائَةَ تَسْبِيحَةٍ وَهَلَّلَ مِائَةَ تَهْلِيلَةٍ غُفِرَتْ لَهُ ذُنُوبُهُ وَلَوْ كَانَتْ مِثْلَ زَبَدِ الْبَحْرِ».

750. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Kim Sübh namazından sonra yüz dəfə "subhənallah", yüz dəfə

---

[965] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur, həmd Ona məxsusdur, xeyir Onun Əlindədir və O, hər şeyə Qadirdir!

[966] ət-Tabərani "əd-Dua" 706. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 475) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[967] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur, həmd Ona məxsusdur, dirildir və öldürür, xeyir Onun Əlindədir və O, hər şeyə Qadirdir!

[968] ət-Tabərani "Mucəmul-Kəbir" 8001, 8075. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2664) raviləri-nin etibarlı olduğunu bildirmişdir.

“lə iləhə illəllah” deyərsə, dənizin köpüyü qədər günahları olsa belə bağış-lanar”.[969]

٧٥١ - عَنْ جُوَيْرِيَةَ ﵂ أَنَّ النَّبِيَّ ﷺ خَرَجَ مِنْ عِنْدِهَا بُكْرَةً حِينَ صَلَّى الصُّبْحَ وَهِيَ فِي مَسْجِدِهَا ثُمَّ رَجَعَ بَعْدَ أَنْ أَضْحَى وَهِيَ جَالِسَةٌ فَقَالَ مَا زِلْتِ عَلَى الْحَالِ الَّتِي فَارَقْتُكِ عَلَيْهَا قَالَتْ نَعَمْ قَالَ النَّبِيُّ ﷺ لَقَدْ قُلْتُ بَعْدَكِ أَرْبَعَ كَلِمَاتٍ ثَلَاثَ مَرَّاتٍ لَوْ وُزِنَتْ بِمَا قُلْتِ مُنْذُ الْيَوْمِ لَوَزَنَتْهُنَّ سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ عَدَدَ خَلْقِهِ وَرِضَا نَفْسِهِ وَزِنَةَ عَرْشِهِ وَمِدَادَ كَلِمَاتِهِ

751. Cuveyriyyə ﵂ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm səhər tezdən onun yanından Sübh namazını qılmaq üçün çıxdı. Cuveyriyyə ﵂ namaz qıldığı yerdə idi və Allah Elçisi günəş çıxandan sonra qayıdana qədər orada oturmuşdu. O: “Hələ də səni tərk etdiyim vəziyyətdəsən?”- deyə soruşdu. Cuveyriyyə ﵂: “Bəli”- deyə cavab verdi. O buyurdu: “Səndən ayrıldıqdan sonra üç dəfə dörd kəlmə söylədim. Onlar sənin bu gün söylədiklərindən ağır gəlir: “Subhənəllahi və bihəmdihi, adədə xalqihi va rida nəfsihi va zinətə arşihi va midədə kəlimətihi”.[970]

İSTİĞFARIN AĞASI

٧٥٢ - عَنْ شَدَّادِ بْنِ أَوْسٍ ﵁ أَنَّ النَّبِيَّ ﷺ قَالَ لَهُ «أَلاَ أَدُلُّكَ عَلَى سَيِّدِ الاِسْتِغْفَارِ اللَّهُمَّ أَنْتَ رَبِّى لاَ إِلَهَ إِلاَّ أَنْتَ خَلَقْتَنِى وَأَنَا عَبْدُكَ وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ وَأَبُوءُ إِلَيْكَ بِنِعْمَتِكَ عَلَىَّ وَأَعْتَرِفُ بِذُنُوبِى فَاغْفِرْ لِى ذُنُوبِى إِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ. لاَ يَقُولُهَا أَحَدُكُمْ حِينَ يُمْسِى فَيَأْتِى عَلَيْهِ قَدَرٌ قَبْلَ أَنْ يُصْبِحَ إِلاَّ وَجَبَتْ لَهُ الْجَنَّةُ وَلاَ يَقُولُهَا حِينَ يُصْبِحُ فَيَأْتِى عَلَيْهِ قَدَرٌ قَبْلَ أَنْ يُمْسِىَ إِلاَّ وَجَبَتْ لَهُ الْجَنَّةُ».

752. Şəddad ibn Əvs ﵁ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm ona dedi: “Sənə istiğfarın ağasını öyrədim? Allahummə, əntə rabbiy lə iləhə illə əntə, xaləqtəni və ənə abdukə, və ənə alə ahdikə və va'dikə məs-təta'tu, əuzu bikə min şərri mə sanə'tu, əbu'u ləkə bini'mətikə aleyyə, və əbu'u bizənbiy, fəğfirliy fə innəhu lə yəğfiruz-zunubə illə əntə”.[971] Sizdən biriniz axşam bunu dedikdə sübhə qədər ona ölüm gələrsə, Cənnət ona vacib olar. Səhər dedikdə axşama qədər ona ölüm gələrsə, Cənnət ona vacib olar”.[972]

---

[969] ən-Nəsəi, 1354, 1362. əl-Albani isnadını səhih olduğunu bildirmişdir.

[970] Muslim, 2726, 4905, 7088. Tərcüməsi: Yaratdıqlarının sayı, Özünün razı qaldığı, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər həmd edərək Allaha təriflər deyirik!

[971] Tərcüməsi: Allahım, Sən mənim Rəbbimsən, Səndən başqa haqq ilah yoxdur, məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram, mənə verdiyin neməti etiraf edirəm və günahlarımı boynuma alıram. Məni bağışla, şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!

[972] ət-Tirmizi, 3393, 3721. əl-Albani səhih olduğunu bildirmişdir.

SƏHƏR VƏ AXŞAM EDİLƏN ZİKRLƏR

٧٥٣ - سَمِعْتُ عُثْمَانَ – يَعْنِى ابْنَ عَفَّانَ ﷺ يَقُولُ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ قَالَ بِسْمِ اللَّهِ الَّذِى لاَ يَضُرُّ مَعَ اسْمِهِ شَىْءٌ فِى الأَرْضِ وَلاَ فِى السَّمَاءِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ ثَلاَثَ مَرَّاتٍ لَمْ تُصِبْهُ فَجْأَةُ بَلاَءٍ حَتَّى يُصْبِحَ وَمَنْ قَالَهَا حِينَ يُصْبِحُ ثَلاَثَ مَرَّاتٍ لَمْ تُصِبْهُ فَجْأَةُ بَلاَءٍ حَتَّى يُمْسِىَ»

753. Osman ibn Əffan ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim axşam: "Bismilləhil-ləzi lə yədurru məasmihi şeyun fil-ardı və lə fis-səməi və huvas-Səmiul-Alim![973]"- üç dəfə deyərsə, səhərə qədər ona qəfil bəla gəlməz. Kim də bunu üç dəfə səhər deyərsə, axşama qədər ona qəfil bəla gəlməz".[974]

٧٥٤ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ قَالَ حِينَ يُصْبِحُ سُبْحَانَ اللَّهِ الْعَظِيمِ وَبِحَمْدِهِ مِائَةَ مَرَّةٍ وَإِذَا أَمْسَى كَذَلِكَ لَمْ يُوَافِ أَحَدٌ مِنَ الْخَلاَئِقِ بِمِثْلِ مَا وَافَى».

754. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Kim səhər və axşam yüz dəfə: "Subhənallahil-Azimi və bihəmdihi[975]"- deyərsə, onun nail olduğu (savaba) yaradılmışlardan kimsə nail ola bilməz".[976]

٧٥٥ - عن عمرو بن شعيب عن أبيه عن جده ﷺ قال قال رسول الله ﷺ: من قال سبحان الله مائة مرة قبل طلوع الشمس وقبل غروبها كان أفضل من مائة بدنة ومن قال الحمد لله مائة مرة قبل طلوع الشمس وقبل غروبها كان أفضل من مائة فرس يحمل عليها (في سبيل الله) ومن قال الله أكبر مائة مرة قبل طلوع الشمس وقبل غروبها كان أفضل من عتق مائة رقبة ومن قال لا إله إلا الله وحده لا شريك له له الملك وله الحمد وهو على كل شيء قدير مائة مرة قبل طلوع الشمس وقبل غروبها لم يجيء يوم القيامة أحد بعمل أفضل من عمله إلا من قال مثل قوله أو زاد عليه

755. Amr ibn Şueyb atasından, o da öz atasında ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Günəşin çıxmasından və batmasından əvvəl yüz dəfə "subhənallah" deyən yüz qurban kəsməkdən daha fəzilətli əməl etmişdir. Günəşin çıxmasından və batmasından əvvəl yüz dəfə "Əlhəmdulilləh" deyən yüz atı (Allah yolunda) təchiz etməkdən daha fəzilətli əməl etmişdir. Günəşin çıxmasından və batmasından əvvəl yüz

---

[973] Tərcüməsi: Yerdə və göydə bir şeyin zərər verə bilməyəcəyi Allahın adı ilə! O, Eşidəndir, Biləndir!
[974] Əbu Davud, 5088, 5090. əl-Albani səhih olduğunu bildirmişdir.
[975] Tərcüməsi: Əzəmətli Allah pak və müqəddəsdir, həmd Ona məxsusdur!
[976] Əbu Davud, 5091, 5093. əl-Albani səhih olduğunu bildirmişdir.

dəfə “Allahu Əkbər” deyən yüz qul azad etməkdən daha fəzilətli əməl etmişdir. Kim günəşin çıxmasından və batmasından əvvəl yüz dəfə “lə iləhə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir[977]”- deyərsə, Qiyamət günü heç kəs (Allahın hüzuruna) onun etdiyindən daha fəzilətli əməl ilə gəlməz. Onun kimi və ya ondan artıq deyən istisnadır”.[978]

٧٥٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ قَالَ حِينَ يُمْسِي: أَعُوذُ بِكَلِمَاتِ اللهِ التَّامَاتِ مِنْ شَرِّ مَا خَلَقَ ثَلاَثُ مَرَّاتٍ لَمْ تَضُرَّهُ حَيَّةٌ إِلَى الصَّبَاحِ».

756. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Kim axşam olduqda üç dəfə: “Əuzu bikəlmətil-ləhittəmməti min şərri mə xaləq[979]”- deyərsə, sabaha qədər ona ilan zərər verə bilməz”.[980]

EVDƏN ÇIXARKƏN NƏ DEYİLİR?

٧٥٧ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ «إِذَا خَرَجَ الرَّجُلُ مِنْ بَيْتِهِ فَقَالَ بِسْمِ اللَّهِ تَوَكَّلْتُ عَلَى اللَّهِ لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ». قَالَ «يُقَالُ حِينَئِذٍ هُدِيتَ وَكُفِيتَ وَوُقِيتَ فَتَتَنَحَّى لَهُ الشَّيَاطِينُ فَيَقُولُ لَهُ شَيْطَانٌ آخَرُ كَيْفَ لَكَ بِرَجُلٍ قَدْ هُدِيَ وَكُفِيَ وَوُقِيَ».

757. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: “Kişi evindən çıxarkən: “Bismilləhi təvəkkəltu alallah və lə həulə və lə quvvətə illə billəh[981]”- deyərsə, o zaman ona belə deyilər: “Sən doğru yola yönəldin və qorundun”. Bu zaman şeytanlar qırağa çəkilir və bir şeytan digərinə belə deyir: “Doğru yola yönəldilən və qorunan kişiyə sən nə edə bilərsən?!”[982]

YEMƏK YEYƏRKƏN VƏ PALTAR GEYİNƏRKƏN EDİLƏN DUA

٧٥٨ - عَنْ سَهْلِ بْنِ مُعَاذِ بْنِ أَنَسٍ عَنْ أَبِيهِ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ أَكَلَ طَعَامًا ثُمَّ قَالَ الْحَمْدُ لِلَّهِ الَّذِى أَطْعَمَنِى

---

977 Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur, həmd Ona məxsusdur və O, hər şeyə Qadirdir!

978 ən-Nəsəi “Sunənul-Kubra” 10657. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 658) həsən olduğunu bildirmişdir.

979 Tərcüməsi: Yaratdıqlarının şərindən Allahın tam kəlamlarına sığınıram!

980 İbn Hibban, 118. əl-Albani səhih olduğunu bildirmişdir.

981 Tərcüməsi: Allahın adı ilə, Allaha təvəkkül etdim, güc və qüdrət yalnız Allahdadır!

982 Əbu Davud, 5095, 5097; ət-Tirmizi, 3426. əl-Albani səhih olduğunu bildirmişdir.

هَذَا الطَّعَامَ وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّى وَلاَ قُوَّةٍ غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ وَمَا تَأَخَّرَ وَمَنْ لَبِسَ ثَوْبًا فَقَالَ الْحَمْدُ لِلَّهِ الَّذِى كَسَانِى هَذَا الثَّوْبَ وَرَزَقَنِيهِ مِنْ غَيْرِ حَوْلٍ مِنِّى وَلاَ قُوَّةٍ غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ وَمَا تَأَخَّرَ».

758. Səhl ibn Muaz ibn Ənəs atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Kim yemək yedikdən sonra: "Əlhəmdulilləhil-ləzi ət'aməni həzət-taəmə va razəqanihi min ğeyri həulin minni va lə quvvətin[983]"- deyərsə, keçmiş və gələcək günahları bağışlanar. Hər kim də paltar geyinərkən: "Əlhəmdulilləhil-ləzi kəsəni həzəs-səubə və razəqanihi min ğeyri həulin minni və lə quvvətin[984]"- deyərsə, keçmiş və gələcək günahları bağışlanar".[985]

QONAQ QALINACAQ YERDƏ OXUNAN DUA

٧٥٩ - عَنْ خَوْلَةَ بِنْتِ حَكِيمٍ السُّلَمِيَّةِ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ «مَنْ نَزَلَ مَنْزِلاً ثُمَّ قَالَ أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ لَمْ يَضُرَّهُ شَىْءٌ حَتَّى يَرْتَحِلَ مِنْ مَنْزِلِهِ ذَلِكَ».

759. Xaulə bint Həkim əs-Suləmi ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Kim qonaq qalacağı bir yerə gələr: "Əuzu bikəlmətilləhit-təmməti min şərri mə xaləq[986]"- deyərsə, oradan ayrılana qədər ona heç bir şey zərər verməz".[987]

MİNİKDƏ DEYİLƏN ZİKR

٧٦٠ - عَنْ عَلِىِّ بْنِ رَبِيعَةَ قَالَ كُنْتُ رِدْفَ عَلِىٍّ فَلَمَّا وَضَعَ رِجْلَهُ فِى الرِّكَابِ قَالَ بِسْمِ اللَّهِ. فَلَمَّا اسْتَوَى قَالَ الْحَمْدُ لِلَّهِ **﴿سُبْحَانَ الَّذِى سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ﴾**. وَقَالَ أَبُو سَعِيدٍ مَوْلَى بَنِى هَاشِمٍ ثُمَّ حَمِدَ اللَّهَ ثَلاَثًا. وَاللَّهُ أَكْبَرُ ثَلاَثًا ثُمَّ قَالَ سُبْحَانَ اللَّهِ ثَلاَثًا ثُمَّ قَالَ لاَ إِلَهَ إِلاَّ أَنْتَ. ثُمَّ رَجَعَ إِلَى حَدِيثِ وَكِيعٍ سُبْحَانَكَ إِنِّى ظَلَمْتُ نَفْسِى فَاغْفِرْ لِى إِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ. ثُمَّ ضَحِكَ قُلْتُ مَا يُضْحِكُكَ قَالَ كُنْتُ رِدْفاً لِرَسُولِ اللَّهِ ﷺ فَفَعَلَ كَالَّذِى رَأَيْتَنِى فَعَلْتُ. ثُمَّ ضَحِكَ قُلْتُ يَا رَسُولَ اللَّهِ مَا يُضْحِكُكَ قَالَ «قَالَ اللَّهُ تَبَارَكَ وَتَعَالَى عَجَبٌ لِعَبْدِى يَعْلَمُ أَنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ غَيْرِى». «...إنّ الله لَيَعْجَبُ مِنَ العَبْدِ إذا قالَ لا إله إلاّ أنتَ إنِّي قد ظَلَمْتُ نَفْسِي فاغْفِرْ لِي ذُنُوبِي إنهُ لا يَغْفِرُ الذُّنوبَ إلاّ أنْتَ قال عَبْدِي عَرفَ أنَّ لهُ رَبّاً يَغْفِرُ ويُعاقِبُ»

---

983 Tərcüməsi: Bu yeməyi mənə yedirdən və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!
984 Tərcüməsi: Bu paltarı mənə geyindirən və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!
985 Əbu Davud, 4023, 4025. əl-Albani "gələcək günahları" kəlməsindən başqa hədisin həsən olduğunu qeyd etmişdir.
986 Tərcüməsi: Yaratdıqlarının şərindən Allahın tam kəlamlarına sığınıram!
987 ət-Tirmizi, 3437; İbn Məcə, 3547. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

760. Əli ibn Rabiə demişdir: "Mən Əlinin ﷺ miniyinin tərkində yol getmişəm. O, ayağını miniyinin üzəngisinə qoyanda: "Allahın adı ilə!"- dedi. Oturanda isə dedi: "Allaha həmd olsun! ***Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq"*** *(əz-Zuxruf, 13-14)*. Sonra o, üç dəfə "Əlhəmdulilləh", üç dəfə "Allahu Əkbər", üç dəfə "Subhənallah" və "Səndən başqa həqiqi məbud yoxdur"- dedi. Bundan sonra: "Sən pak və müqəddəssən! Mən özümə zülm etdim. Məni bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlayırsan[988]"- dedi və güldü. Mən soruşdum: "Səni güldürən nədir?" O dedi: "Mən Allah Elçisinin salləllahu aleyhi və səlləm miniyinin tərkində yol getmişəm. O da mənim etdiyim kimi etdi və güldü". Mən də: "Ey Allahın Elçisi! Səni güldürən nədir?"- deyə soruşdum. O dedi: "Uca Allah buyurur: "Məndən qeyrisinin günahları bağışlamayacağını bilən quluma təəccüblənirəm[989]".[990] Digər rəvayətdə isə belə deyilir: "Həqiqətən, Allah qulun belə deməsinə təəccüblənir: "Səndən başqa həqiqi məbud yoxdur. Həqiqətən, mən özümə zülm etdim. Mənim günahlarımı bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan". (Bu zaman) Allah buyurur: "Qulum bilir ki, onun bağışlayan və cəzalandıran Rəbbi vardır".[991]

BAZARA GİRDİKDƏ EDİLƏN ZİKR

٧٦١ - عَنْ عُمَرَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ قَالَ حِينَ يَدْخُلُ السُّوقَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ يُحْيِى وَيُمِيتُ وَهُوَ حَىٌّ لاَ يَمُوتُ بِيَدِهِ الْخَيْرُ كُلُّهُ وَهُوَ عَلَى كُلِّ شَىْءٍ قَدِيرٌ – كَتَبَ اللَّهُ لَهُ أَلْفَ أَلْفِ حَسَنَةٍ وَمَحَا عَنْهُ أَلْفَ أَلْفِ سَيِّئَةٍ (وَرَفَعَ لَهُ أَلْفَ أَلْفِ دَرَجَةٍ) وَبَنَى لَهُ بَيْتًا فِى الْجَنَّةِ».

761. Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Kim bazara girəndə: "Lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu, yuhyi və yumiytu və huvə həyyun lə yəmutu, biyədihil-xayru kulluhu və huvə alə kulli şeyin qadir[992]"- deyərsə,

---

[988] Transkripsiyası: Bismilləh, əlhəmdulilləh. Subhənəlləzi səxxara lənə həzə və mə kunnə ləhu muqrininə və innə ilə Rabbinə ləmunqalibun. Əlhəmdulilləh (üç dəfə), Allahu Əkbər (üç dəfə), Subhənəllah (üç dəfə), lə iləhə illə əntə, subhənəkə inni zaləmtu nəfsi, fəğfirli, innəhu lə yəğfiruz-zunubə illə əntə.

[989] Allahın sifətlərinin necəliyi barəsində fikir yürütmək olmaz.

[990] Əhməd, 1004, 1056, 1068. Şueyb əl-Arnavut hədisi həsən li-ğeyrihidir.

[991] əl-Hakim, 2482. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1653) səhih olduğunu bildirmişdir.

[992] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Onadır! Dirildir və Öldürür, O, Diridir və Ölməzdir! Xeyir bütünlüklə Onun Əlindədir və O, hər şeyə Qadirdir!

Allah ona milyon savab yazar, milyon günahını silər, (onu milyon dərəcə yüksəldər[993]) və Cənnətdə onun üçün bir ev tikər".[994]

DÖYÜŞDƏN QAÇAN DA BAĞIŞLANAR

٧٦٢ - سَمِعْتُ بِلاَلَ بْنَ يَسَارِ بْنِ زَيْدٍ مَوْلَى النَّبِيِّ ﷺ قَالَ سَمِعْتُ أَبِى يُحَدِّثُنِيهِ عَنْ جَدِّى أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ قَالَ أَسْتَغْفِرُ اللَّهَ الَّذِى لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَىُّ الْقَيُّومُ وَأَتُوبُ إِلَيْهِ غُفِرَ لَهُ وَإِنْ كَانَ فَرَّ مِنَ الزَّحْفِ».

762. Peyğəmbərin salləllahu aleyhi və səlləm azad etdiyi kölə Bilal ibn Yəsər ibn Zeyd demişdir: "Bu hədisi atam babamdan mənə rəvayət etmişdir: "Allah Elçisini salləllahu aleyhi və səlləm belə buyurarkən eşitdim: "Kim: "Əstəğfirullahəlləzi lə iləhə illə huvəl-Həyyul-Qayyum və ətubu ileyhi[995]"- deyərsə, döyüş meydanından qaçmış olsa belə günahları bağışlanar".[996]

QƏDR GECƏSİNDƏ EDİLƏN DUA

٧٦٣ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ قُلْتُ يَا رَسُولَ اللَّهِ أَرَأَيْتَ إِنْ عَلِمْتُ أَىُّ لَيْلَةٍ لَيْلَةُ الْقَدْرِ مَا أَقُولُ فِيهَا قَالَ «قُولِى اللَّهُمَّ إِنَّكَ عَفُوٌّ كَرِيمٌ تُحِبُّ الْعَفْوَ فَاعْفُ عَنِّى».

763. Aişə ﵂ deyir: "Mən dedim: "Ey Allahın Elçisi, de görüm, hansı gecənin Qədr gecəsi olduğunu bilsəm, nə deyim?" Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "De: "Allahummə innəkə afuvvun kərimun tuhibbul-afva fə'fu-anni[997]".[998]

MƏCLİSİN KƏFFARƏSİ

٧٦٤ - عَنْ جُبَيْرِ بْنِ مُطْعِمٍ ﵁ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ قَالَ: سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ أَسْتَغْفِرُكَ وَأَتُوبُ إِلَيْكَ، فَإِن قَالَهَا فِي مَجْلِسِ ذِكْرٍ كَانَتْ كَالطَّابِعِ يُطْبَعُ عَلَيْهِ، وَمَنْ قَالَهَا فِي مَجْلِسِ لَغْوٍ كَانَتْ كَفَّارَةً لَهُ».

---

[993] ət-Tirmizi, 3428, 3756. əl-Albani həsən olduğunu bildirmişdir.

[994] İbn Məcə, 2235, 2320. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6231) və Şeyx Muqbil Hadi əl-Vadii həsən olduğunu söyləmişlər.

[995] Tərcüməsi: Özündən başqa haqq ilah olmayan, Yaşayan, Qəyyum olan Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!

[996] Əbu Davud, 1517, 1519. əl-Albani səhih olduğunu bildirmişdir.

[997] Tərcüməsi: Allahım, Sən Bağışlayan, Səxavətlisən və bağışlamağı sevirsən, məni bağışla!

[998] ət-Tirmizi, 3513, 3855. əl-Albani "Sahihu Sunənit-Tirmizi"də (3/ 170) səhih olduğunu bildirmişdir.

764. Cubeyr ibn Mutim ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Kim bunu: "Subhənəllahi və bihəmdihi, subhənəkə Allahummə və bihəmdik, əşhədu əl-lə iləhə illə əntə, əstəğfirukə və ətubu ileykə[999]"- zikr məclisində söyləyərsə, üzərinə möhür vurulmuş kimi olar. Kim də bunu boş şeylərin danışıldığı bir məclisdə söyləyərsə, bu, onun üçün kəffarə olar".[1000]

XƏSTƏLİYƏ QARŞI EDİLƏN DUALAR

٧٦٥ - عَنْ عُثْمَانَ بْنِ أَبِي الْعَاصِ الثَّقَفِيِّ ﷺ أَنَّهُ شَكَا إِلَى رَسُولِ اللَّهِ ﷺ وَجَعًا يَجِدُهُ فِي جَسَدِهِ مُنْذُ أَسْلَمَ فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ ضَعْ يَدَكَ عَلَى الَّذِي تَأَلَّمَ مِنْ جَسَدِكَ وَقُلْ بِاسْمِ اللَّهِ ثَلَاثًا وَقُلْ سَبْعَ مَرَّاتٍ أَعُوذُ بِاللَّهِ وَقُدْرَتِهِ مِنْ شَرِّ مَا أَجِدُ وَأُحَاذِرُ

765. Osman ibn Əbu əl-As əs-Saqafi ﷺ belə rəvayət edir: "O, İslamı qəbul etdiyindən bəri bədənindəki ağrıdan Peyğəmbərə sallәllahu aleyhi və sәllәm şikayət etdi. Peyğəmbər sallәllahu aleyhi və sәllәm ona belə buyurdu: "Əlini bədənində ağrı hiss etdiyin yerə qoy! Sonra üç dəfə "Bismilləh" və yeddi dəfə "Əuzu billəhi və qudratihi min şərri mə əcidu və uhəziru"[1001]- de!"[1002]

٧٦٦ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ «مَا مِنْ عَبْدٍ مُسْلِمٍ يَعُودُ مَرِيضًا لَمْ يَحْضُرْ أَجَلُهُ فَيَقُولُ سَبْعَ مَرَّاتٍ أَسْأَلُ اللَّهَ الْعَظِيمَ رَبَّ الْعَرْشِ الْعَظِيمِ أَنْ يَشْفِيَكَ إِلاَّ عُوفِيَ»

766. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Elə bir müsəlman qul yoxdur ki, əcəli çatmayan bir xəstəyə baş çəkib yeddi dəfə: "Əs'əlullahəl-aziymə Rabbəl-arşil-aziymi ən-yəşfiyəkə[1003]"- deyə dua etmiş olmasın və o xəstə sağalmasın".[1004]

٧٦٧ - عَنْ أَبِي سَعِيدٍ ﷺ أَنَّ جِبْرِيلَ أَتَى النَّبِيَّ ﷺ فَقَالَ يَا مُحَمَّدُ اشْتَكَيْتَ فَقَالَ «نَعَمْ». قَالَ بِاسْمِ اللَّهِ أَرْقِيكَ مِنْ كُلِّ

---

[999] Tərcüməsi: Allah pak və müqəddəsdir, Ona həmd olsun! Allahım, Sən pak və muqəddəssən! Sənə həmd olsun! Mən şahidlik edirəm ki, Səndən başqa həqiqi ilah yoxdur! Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm! (Digər səhih rəvayətdə məclisdən "subhənallahi və bihəmdihi" sözü deyilmədən bu zikr deyilir).

[1000] əl-Hakim, 1970. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6430) və "Silsilətul-Əhədisis-Sahiha" (№ 81) səhih olduğunu bildirmişdir.

[1001] Tərcüməsi: Hiss etdiyim və çəkdiyim ağrıların şərindən Allaha sığınıram.

[1002] Muslim, 4082.

[1003] Tərcüməsi: Böyük Ərşin Rəbbi olan Əzəmətli Allahdan diləyirəm ki, sənə şəfa versin!

[1004] ət-Tirmizi, 2083. əl-Albani səhih olduğunu bildirmişdir.

شَىْءٍ يُؤْذِيكَ مِنْ شَرِّ كُلِّ نَفْسٍ أَوْ عَيْنِ حَاسِدٍ اللَّهُ يَشْفِيكَ بِاسْمِ اللَّهِ أَرْقِيكَ.

767. Əbu Səid ﷺ demişdir: "Cəbrail Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gələrək belə dedi: "Ey Muhəmməd, xəstələnmisən?" O: "Bəli!"-deyə cavab verdikdə, Cəbrail belə dedi: "Bismilləhi ərqikə, min kulli şeyin yuzikə, min şərri kulli nəfsin əu ayni həsidin. Allahu yəşfikə bismilləhi ərqikə[1005]".[1006]

٧٦٨ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا أَتَى الْمَرِيضَ (أَوْ أُتِيَ بِهِ) يَدْعُو لَهُ قَالَ «أَذْهِبِ الْبَاسَ رَبَّ النَّاسِ وَاشْفِ أَنْتَ الشَّافِى لاَ شِفَاءَ إِلاَّ شِفَاؤُكَ شِفَاءً لاَ يُغَادِرُ سَقَمًا».

768. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm xəstə yanına gəldikdə və ya onun yanına xəstə gətirildiyi zaman bu duanı söyləyərdi: "Əzhibil-bəs, Rabbən-nəs, vəşfi əntəş-Şəfi lə şifəə illə şifəukə şifəən lə yuğadiru səqamən[1007]".[1008]

٧٦٩ - عَنْ عَائِشَةَ ﵂ زَوْجِ النَّبِىِّ ﷺ أَنَّهَا قَالَتْ كَانَ إِذَا اشْتَكَى رَسُولُ اللَّهِ ﷺ رَقَاهُ جِبْرِيلُ قَالَ بِاسْمِ اللَّهِ يُبْرِيكَ وَمِنْ كُلِّ دَاءٍ يَشْفِيكَ وَمِنْ شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ وَشَرِّ كُلِّ ذِى عَيْنٍ.

769. Peyğəmbərin sallallahu aleyhi və səlləm zövcəsi Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm xəstələndiyi zaman Cəbrail ﵇ ruqyə oxuyaraq deyərdi: "Bismilləhi yubriykə və min kulli dəin yəşfiykə, və min şərri həsidin izə həsəd, və şərri kulli zi aynin[1009]".[1010]

BƏLAYA DÜÇAR OLANI GÖRƏRKƏN EDİLƏN DUA

٧٧٠ - عَنْ عُمَرَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ رَأَى صَاحِبَ بَلاَءٍ فَقَالَ الْحَمْدُ لِلَّهِ الَّذِى عَافَانِى مِمَّا ابْتَلاَكَ بِهِ وَفَضَّلَنِى عَلَى كَثِيرٍ مِمَّنْ خَلَقَ تَفْضِيلاً إِلاَّ عُوفِىَ مِنْ ذَلِكَ الْبَلاَءِ كَائِنًا مَا كَانَ مَا عَاشَ».

[1005] Tərcüməsi: Allahın adıyla səni sənə əziyyət verən hər bir nəfsin şərindən, nəzərindən və həsədindən ruqyə edirəm. Allah sənə şəfa verər. Allahın adıyla səni ruqyə edirəm!
[1006] Muslim, 5829.
[1007] Tərcüməsi: Xəstəliyi apar, ey insanların Rəbbi, Sənin şəfandan başqa şəfa yoxdur, Ona elə bir şəfa ver ki, bundan sonra heç bir xəstəlik qalmasın!
[1008] əl-Buxari, 5675; Muslim, 5839, 2191; İbn Məcə, 3520.
[1009] Tərcüməsi: Hər bir xəstəlikdən sənə şəfa verən, həsəd aparanın həsədinin şərrindən və hər bir nəzəri dəyənin şərrindən qoruyan Allahın adı ilə!
[1010] Muslim, 4055, 5828; İbn Məcə, 3523.

770. Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kim bəlaya düçar olmuş bir kimsəni gördükdə: "Əlhəmdulillahilləzi afəni mim-məbtələkə bihi və fəddaləni alə kəsirin mimmən xaləqa təfdilən[1011]"- deyərsə, yaşadığı müddətdə o bəladan salamat olar".[1012]

٧٧١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ : قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِذَا رَأَى أَحَدُكُمْ مُبْتَلَى فَقَالَ: الْحَمْدُ للهِ الَّذِي عَافَانِي مِمَّا ابْتَلاَكَ بِهِ، وَفَضَّلَنِي عَلَيْكَ وَعَلَى كَثِيرٍ مِنْ عِبَادِهِ تَفْضِيلاً،كَانَ شَكَرَ تِلكَ النِّعْمةِ».

771. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Biriniz bəlaya düçar olmuş bir kimsəni gördükdə: "Əlhəmdulillahilləzi afəni mim-məbtələkə bihi və fəddaləni aleykə və alə kəsirin min ibədihi təfdilən[1013]"- deyərsə, həmin nemətə görə şükür etmiş olar".[1014]

YATAĞA GİRƏRKƏN EDİLƏN ZİKR

٧٧٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: مَنْ قَالَ حِينَ يَأْوِي إِلَى فِرَاشِهِ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ، سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ، غَفَرَ اللَّهُ ذُنُوبَهُ أَوْ خَطَايَاهُ – شَكَّ مِسْعَرٌ – وَإِنْ كَانَ مِثْلَ زَبَدِ الْبَحْرِ.

772. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Kim yatağına girərkən: "Lə iləhə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu, və huvə alə kulli şeyin qadir, lə həulə və lə quvvətə illə billəh, subhənallah, vəlhəmdulilləh və lə iləhə illəllah, Vallahu Əkbər"- deyərsə, Allah onun günahlarını "və ya xətalarını"[1015] dənizin köpüyü qədər olsa belə bağışlayar".[1016]

٧٧٣ - عَنْ الْبَرَاءِ بْنِ عَازِبٍ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ «إِذَا أَتَيْتَ مَضْجَعَكَ فَتَوَضَّأْ وُضُوءَكَ لِلصَّلاَةِ، ثُمَّ اضْطَجِعْ عَلَى شِقِّكَ الأَيْمَنِ، ثُمَّ قُلِ اللَّهُمَّ أَسْلَمْتُ وَجْهِي إِلَيْكَ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لاَ مَلْجَأَ وَلاَ مَنْجَا مِنْكَ إِلاَّ إِلَيْكَ، اللَّهُمَّ آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَبِنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ. فَإِنْ مُتَّ مِنْ لَيْلَتِكَ فَأَنْتَ عَلَى

[1011] Tərcüməsi: Məni sənin düçar olduğun bu bəladan salamat edən və məni yaratdıqlarının çoxundan üstün edən Allaha həmd olsun!

[1012] ət-Tirmizi, 3431, 3760. əl-Albani həsən olduğunu bildirmişdir.

[1013] Tərcüməsi: Məni sənin düçar olduğun bu bəladan salamat edən və məni səndən və bir çox qullarından üstün edən Allaha həmd olsun!

[1014] əl-Beyhəqi "Şuabul-İman" 4443. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 555) həsən olduğunu bildiribmişdir.

[1015] Bu rəvayət edənin şəkkidir. O, günah və ya xəta olduğunda şəkk etmişdir.

[1016] İbn Hibban, 5528. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3414) səhih olduğunu bildirmişdir.

الْفِطْرَةِ، وَاجْعَلْهُنَّ آخِرَ مَا تَتَكَلَّمُ بِهِ». قَالَ فَرَدَّدْتُهَا عَلَى النَّبِيِّ ﷺ فَلَمَّا بَلَغْتُ «اللَّهُمَّ آمَنْتُ بِكِتَابِكَ الَّذِى أَنْزَلْتَ». قُلْتُ وَرَسُولِكَ. قَالَ: «لاَ، وَنَبِيِّكَ الَّذِى أَرْسَلْتَ»

773. Bəra ibn Azib ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm belə buyurmuşdur: "Yatmaq istədikdə namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al, sonra sağ böyrün üstə uzan, sonra de: "Allahummə, əsləmtu vəchi ileykə, və fəvvədtu əmri ileykə, və əlcə'tu zahri ileykə, rağbətən və rahbətən ileyk. Lə məlcə'ə və lə məncəə minkə illə ileyk. Allahummə, ə'məntu bikitəbikəl-ləzi ənzəltə və binəbiyyikəl-ləzi ərsəltə![1017]" Əgər o gecə ölsən, fitrət üzərində (müsəlman olaraq) öləcəksən. Sən bu sözləri, dediyin sözlərin axırıncısı et". (Bəra ibn Azib ﷺ) deyir ki, mən bu duanı Peyğəmbərə sallallahu aleyhi və səlləm oxudum və gəlib: "Sənin nazil etdiyin Kitaba iman gətirdim" sözünə yetişdikdə "və göndərdiyin Elçiyə"- dedim. O buyurdu: "Xeyr, göndərdiyin Peyğəmbərə"- (de)".[1018]

٧٧٤ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ قَالَ إِذَا أَوَى إِلَى فِرَاشِهِ: الْحَمْدُ لِلَّهِ الَّذِي كَفَانِي وَآوَانِي، الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعِمْنِي وَسَقَانِي، الْحَمْدُ لِلَّهِ الَّذِي مَنَّ عَلَيَّ فَأَفْضَلَ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِعِزَّتِكَ أَنْ تُنَجِّيَنِي مِنَ النَّارِ، فَقَدْ حَمِدَ اللَّهَ بِجَمِيعِ مَحَامِدِ الْخَلْقِ كُلِّهِمْ.

774. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim yatağına girərkən: "Əlhəmdulilləhilləzi kəfəni və əvəni, əlhəmdulilləhilləzi ət'imni və səqani, əlhəmdulilləhilləzi mənnə aleyyə fəəfdalə. Allahummə inni əsəlukə bi İzzətikə tunəcciyəniy minən-nər[1019]"- deyərsə, bütün məxluqatın həmd-sənası ilə Allahı həmd etmiş olar".[1020]

٧٧٥ - عَنْ عَلِيٍّ ﷺ أَنَّ فَاطِمَةَ ﵂ شَكَتْ مَا تَلْقَى مِنْ أَثَرِ الرَّحَا، فَأَتَى النَّبِيَّ ﷺ سَبْيٌ، فَانْطَلَقَتْ فَلَمْ تَجِدْهُ، فَوَجَدَتْ عَائِشَةَ، فَأَخْبَرَتْهَا، فَلَمَّا جَاءَ النَّبِيُّ ﷺ أَخْبَرَتْهُ عَائِشَةُ بِمَجِيءِ فَاطِمَةَ، فَجَاءَ النَّبِيُّ ﷺ إِلَيْنَا، وَقَدْ أَخَذْنَا مَضَاجِعَنَا، فَذَهَبْتُ لأَقُومَ فَقَالَ: «عَلَى مَكَانِكُمَا». فَقَعَدَ بَيْنَنَا حَتَّى وَجَدْتُ بَرْدَ قَدَمَيْهِ عَلَى صَدْرِى وَقَالَ: «أَلاَ أُعَلِّمُكُمَا خَيْرًا مِمَّا سَأَلْتُمَانِى إِذَا أَخَذْتُمَا مَضَاجِعَكُمَا تُكَبِّرَا أَرْبَعًا وَثَلاَثِينَ، وَتُسَبِّحَا ثَلاَثًا وَثَلاَثِينَ، وَتَحْمَدَا ثَلاَثَةً وَثَلاَثِينَ، فَهْوَ خَيْرٌ لَكُمَا مِنْ

[1017] Tərcüməsi: Allahım, Sənə ümid edərək və Səndən qorxaraq üzümü Sənə təslim etdim, işimi Sənə həvalə etdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Sənin (əzabından) xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Allahım, Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!

[1018] əl-Buxari, 247; Muslim, 7057.

[1019] Tərcüməsi: Məni qoruyan və mənə sığınacaq verən Allaha həmd olsun, məni yedirdən və içirdən Allaha həmd olsun, mənə qarşı lütfkar olan və məni üstün edən Allaha həmd olsun! Allahım, İzzətinlə məni Cəhənnəm odundan xilas etməyini Səndən diləyirəm!

[1020] əl-Hakim, 2001; əl-Beyhəqi "Şuabul-İman" 4382. əl-Albani "Səhihut-Tərğib vət-Tərhib"də (№ 609) "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3444) həsən olduğunu bildirmişdir.

خَادِمٍ». قَالَ عَلِيٌّ مَا تَرَكْتُهُ مُنْذُ سَمِعْتُهُ مِنَ النَّبِيِّ ﷺ. قِيلَ لَهُ وَلاَ لَيْلَةَ صِفِّينَ قَالَ وَلاَ لَيْلَةَ صِفِّينَ.

775. Əli ﷺ rəvayət edir ki, Fatimə ﷺ kirkirənin (onun əllərində) iz buraxdığından şikayət etdi. (Bir müddətdən sonra) Peyğəmbərə sallallahu aleyhi və səlləm (bir neçə) əsir gətirdilər. Fatimə (bu əsirlərdən birini özünə köməkçi götürmək məqsədilə) Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına getdi, lakin onu (evdə) tapa bilmədi, Aişəni görüb (nə istədiyini) ona bildirdi. Peyğəmbər sallallahu aleyhi və səlləm (evə) gəldikdə Aişə ona Fatimənin gəldiyini xəbər verdi. Bundan sonra Peyğəmbər sallallahu aleyhi və səlləm bizə gəldi. Həmin vaxt biz artıq yatağımıza uzanmışdıq. Mən (onu görəndə) ayağa qalxmaq istədim, lakin o: "Qalxmayın!"- dedi və (gəlib) aramızda oturdu. Mən hətta onun soyuq ayaqlarının sinəmə toxunduğunu hiss etdim. O buyurdu: "Məndən istədiyinizdən daha xeyirlisini sizə öyrədimmi? Yatağınıza uzandığınız zaman otuz dörd dəfə "Allahu Əkbər", otuz üç dəfə "subhənallah" və otuz üç dəfə "əlhəmdulillah" deyin. Bu sizin üçün xidmətçidən daha xeyirli olar".[1021] Başqa rəvayətdə bu əlavə vardır: "Əli ﷺ belə dedi: "Peyğəmbərdən sallallahu aleyhi və səlləm eşitdikdən bəri onu tərk etmədim". Ondan soruşuldu: "Hətta Siffeyn gecəsi də (tərk etmədin)?" O belə buyurdu: "Hətta Siffeyn gecəsi də (tərk etmədim)".[1022]

٧٧٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: مَنْ قَالَ حِينَ يَأْوِي إِلَى فِرَاشِهِ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ، سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ، غَفَرَ اللَّهُ ذُنُوبَهُ أَوْ خَطَايَاهُ – شَكَّ مِسْعَرٌ – وَإِنْ كَانَ مِثْلَ زَبَدِ الْبَحْرِ.

776. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Kim yatağına girərkən: "Lə iləhə illəllahu, vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, lə həulə və lə quvvətə illə billəh, subhənallah, vəlhəmdulilləh, və lə ilahə illəllah, Vallahu əkbər[1023]"- deyərsə, günahları və ya xətaları dəniz köpükləri qədər olsa belə bağışlanar".[1024]

[1021] əl-Buxari, 3705.

[1022] Muslim, 7093.

[1023] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Qüdrət və güc yalnız Allahdadır! Allah pak və müqəddəsdir. Həmd Allahadır. Allahdan başqa haqq ilah yoxdur. Allah ən Böyükdür.

[1024] İbn Hibban, 5528. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3414) səhih olduğunu bildirmişdir.

QORXUYA QARŞI EDİLƏN DUA

٧٧٧ - عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ ﵄ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يُعَلِّمُهُمْ مِنَ الْفَزَعِ كَلِمَاتٍ «أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّةِ مِنْ غَضَبِهِ وَشَرِّ عِبَادِهِ وَمِنْ هَمَزَاتِ الشَّيَاطِينِ وَأَنْ يَحْضُرُونِ».

777. Amr ibn Şueyb atasından, o da babasından ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm ona qorxuya qarşı bəzi kəlmələri öyrətdi: "Əuzu bikəlimətilləhit-təmməti min ğadabihi, və şərri ibədihi, və min həməzətiş-şəyatin və ən yəhdurun[1025]".[1026]

٧٧٨ - عَنْ خَالِدِ بْنِ الْوَلِيدِ ﵁ أَنَّهُ شَكَا إِلَى رَسُولِ اللهِ ﷺ فَقَالَ إِنِّي أَجِدُ فَزَعًا بِاللَّيْلِ فَقَالَ أَلا أُعَلِّمُكَ كَلِمَاتٍ عَلَّمَنِيهِنَّ جِبْرِيلُ عَلَيْهِ السَّلامُ وَزَعَمَ أَنَّ عِفْرِيتًا مِنَ الْجِنِّ يَكِيدُنِي قَالَ قُلْ أَعُوذُ بِكَلِمَاتِ اللهِ التَّامَّاتِ الَّتِي لاَ يُجَاوِزُهُنَّ بَرٌّ وَلا فَاجِرٌ مِنْ شَرِّ مَا يَنْزِلُ مِنَ السَّمَاءِ وَمَا يَعْرُجُ فِيهَا وَمِنْ شَرِّ مَا ذَرَأَ فِي الأَرْضِ وَمَا يَخْرُجُ مِنْهَا وَمِنْ شَرِّ فِتَنِ اللَّيْلِ وَفِتَنِ النَّهَارِ وَمِنْ شَرِّ طَوَارِقِ اللَّيْلِ وَالنَّهَارِ إِلا طَارِقٍ يَطْرُقُ بِخَيْرٍ يَا رَحْمَنُ

778. Xalid ibn əl-Vəlid ﵁ deyir ki, o, Allah Elçisinə sallallahu aleyhi və səlləm şikayət edərək belə dedi: "Mən gecələr qorxu hiss edirəm". O buyurdu: "Sənə Cəbrailin mənə öyrətdiyi kəlmələri öyrədimmi? Bu kəlmələr cinlərdən olan ifritin üstümə hücum etməsindən məni qorudu". Mən dedim: "Bəli". O: "Əuzu bi-kəlimətilləhit-təmmətil-ləti lə yucəvizuhunnə bərrun, və lə fəcirun, min şərri mə yənzilu minəs-səmai, və mə yəarucu fihə, və min şərri mə zəraə fil-ardi və mə yəxrucu minhə və min şərri fitənil-leyli və fitənin-nəhər, və min şərri tavariqil-leyli vən-nəhər illə tariqin yətruqu bi-xeyrin, yə Rahmən[1027]".[1028]

٧٧٩ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ: كَانَ رَسُولُ اللهِ ﷺ إِذَا تَضَوَّرَ عَنِ اللَّيْلِ، قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ الْوَاحِدُ الْقَهَّارُ رَبُّ السَّمَاوَاتِ وَالأَرْضِ، وَمَا بَيْنَهُمَا الْعَزِيزُ الْغَفَّارُ.

[1025] Tərcüməsi: Qəzəbindən və cəzasından, qullarının şərindən, şeytanların vəsvəsələrindən və mənə yaxın gəlmələrindən Allahın tam kəlmələrinə sığınıram!

[1026] Əbu Davud, 3893, 3895. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3414) səhih olduğunu bildirmişdir.

[1027] Tərcüməsi: Yaratdıqlarının, düzəltdiklərinin və icad etdiklərinin şərindən, səmadan nazil olanların və orada yüksələnlərin şərindən, yerə əkdiklərinin və oradan çıxanların şərindən, gecənin və gündüzün fitnələrinin şərindən, – gecə xoş xəbərlə gələn müstəsna olmaqla – gecə gələnlərin hər birinin şərindən, həm itaətkarın, həm də günahkarın möhtac olduğu Allahın tam kəlamlarına sığınıram! Ey Rahmən!

[1028] ət-Təbərani "Mucəmul-Kəbir" 3746, "əd-Dua" 1083. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 74) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 840) səhih olduğunu bildirmişdir.

779. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm gecə yatarkən bir tərəfdən digər tərəfə çevrildikdə deyərdi: “Lə ilahə illəllahul-Vahidul-Qahhar, Rabbus-səməvati vəl-ard və mə beynəhuməl-Azizul-Ğaffər[1029]”.[1030]

GECƏ OYANARKƏN EDİLƏN ZİKR

٧٨٠ - عَنْ عُبَادَةَ بْنِ الصَّامِتِ ﵁ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ تَعَارَّ مِنَ اللَّيْلِ فَقَالَ حِينَ يَسْتَيْقِظُ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، سُبْحَانَ اللهِ، وَالْحَمْدُ لِلَّهِ، وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَاللَّهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ الْعَلِيِّ الْعَظِيمِ، ثُمَّ دَعَا رَبِّ اغْفِرْ لِي، غُفِرَ لَهُ. – قَالَ الْوَلِيدُ: أَوْ قَالَ: دَعَا اسْتُجِيبَ لَهُ، فَإِنْ قَامَ فَتَوَضَّأَ ثُمَّ صَلَّى، قُبِلَتْ صَلاَتُهُ.

780. Ubadə ibn Samit ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kim gecə oyanarkən: “Lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Subhənəllahi, vəlhəmdulilləhi, və lə iləhə illəllahu, Vallahu Əkbər, və lə həulə və lə quvvətə illə billəhil-Aliyyil-Azim[1031]”– deyər, sonra dua edib: “Ey Rəbbim, məni bağışla!”– desə, bağışlanar. Dua etsə, duası qəbul olunar, qalxıb dəstəmaz aldıqdan sonra namaz qılsa, namazı qəbul olunar”.[1032]

ÇALIŞ QISA VƏ MƏNALI DUALAR EDƏSƏN

٧٨١ - عن عائشة ﵂ قالت دخل علي النبي ﷺ وأنا أصلي وله حاجة فأبطأت عليه قال يا عائشة عليك بجمل الدعاء وجوامعه فلما انصرفت قلت يا رسول الله وما جمل الدعاء وجوامعه قال قولي اللهم اني أسألك من الخير كله عاجله وآجله ما علمت منه وما لم أعلم وأعوذ بك من الشر كله عاجله وآجله ما علمت منه وما لم أعلم وأسألك الجنة وما قرب إليها من قول أو عمل وأعوذ بك من النار وما قرب إليها من قول أو عمل وأسألك مما سألك به محمد وأعوذ بك مما تعوذ منه محمد وما قضيت لي من قضاء فاجعل عاقبته رشدا

[1029] Tərcüməsi: Hər şeyə Qalib gələn, Tək Allahdan başqa haqq ilah yoxdur! O, göylərin, yerin və onların arasında olanların Qüdrətli və Bağışlayan Rəbbidir!

[1030] əl-Hakim, 1980; ən-Nəsəi “Sunənul-Kubra” 7688. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 2066) səhih olduğunu bildirmişdir.

[1031] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O hər şeyə Qadirdir. Həmd Allahadır. Allah pak və müqəddəsdir. Allahdan başqa haqq ilah yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Allahdadir!

[1032] İbn Macə, 3878. əl-Albani səhih olduğunu bildirib. Oxşar rəvayətlər bu mənbələrdə keçir; əl-Buxari, 1154; ət-Tirmizi, 3414, 3743.

781. Aişə ﵂ rəvayət edir: "Mən namaz qılarkən Peyğəmbər sallallahu aleyhi və səlləm bir işdən ötrü yanıma gəldi. Mən ləng tərpəndim. O dedi: "Ey Aişə! Çalış qısa və mənalı dualar edəsən!" O çıxıb gedərkən dedim: "Ey Allahın Elçisi! Qısa və mənalı dualar nədir?" O buyurdu: "De: "Allahummə inni əs'ələukə minəl-xeyri kullihi acilihi və əcilihi mə alimtu minhu və mə ləm ə'ləm və əuzu bikə minəş-şərri kullihi acilihi və əcilihi mə alimtu minhu və mə ləm ə'ləm və əs'ələukəl-cənnətə və mə qarrabə iləyhə min qaulin au aməl və əuzu bikə minən-nəri və mə qarrabə iləyhə min qaulin əu aməl və əs'ələukə mimmə səələkə bihi Muhəmmədun və əuzu bikə mimmə təuzu minhu Muhəmmədun və mə qadəytə li min qadai, fəc'əl aqibətəhu ruşdən[1033]".[1034]

KİMİN SÖZÜ MƏLƏKLƏRİN SÖZÜ İLƏ ÜST-ÜSTƏ DÜŞƏRSƏ

٧٨٢ - عَنْ أَبِى هُرَيْرَةَ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا قَالَ الإِمَامُ سَمِعَ اللَّهُ لِمَنْ حَمِدَهُ، فَقُولُوا اللَّهُمَّ رَبَّنَا لَكَ الْحَمْدُ، فَإِنَّهُ مَنْ وَافَقَ قَوْلُهُ قَوْلَ الْمَلاَئِكَةِ غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ».

782. Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "İmam: "Səmi Allahu limən həmidəh"- deyəndə siz: "Allahummə, Rabbənə ləkəl-həmd"- deyin. Bilin ki, kimin sözü mələklərin sözü ilə üst-üstə düşərsə, onun keçmiş günahları bağışlanar".[1035]

YUNUSUN ﵇ DUASI

٧٨٣ - عَنْ سَعْدٍ ﵁ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «دَعْوَةُ ذِى النُّونِ إِذْ دَعَا وَهُوَ فِى بَطْنِ الْحُوتِ لاَ إِلَهَ إِلاَّ أَنْتَ سُبْحَانَكَ إِنِّى كُنْتُ مِنَ الظَّالِمِينَ. فَإِنَّهُ لَمْ يَدْعُ بِهَا رَجُلٌ مُسْلِمٌ فِى شَىْءٍ قَطُّ إِلاَّ اسْتَجَابَ اللَّهُ لَهُ».

783. Səd ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Zun-Nun (Yunus ﵇) balığın qarnında olarkən belə dua etmişdir: "Lə

[1033] Tərcüməsi: Allahım! Xeyrin hamısını, istər dünyadakını, istərsə də Axirətdəkini, istər bildiklərimi, istərsə də bilmədiklərimi Səndən diləyirəm. Şərin hamısından, istər dünyadakından, istərsə də Axirətdəkindən, istər bildiklərimdən, istərsə də bilmədiklərimdən Sənə sığınıram. Cənnəti və ona yaxınlaşdıran hər bir sözü və əməli Səndən diləyirəm. Cəhənnəmdən və ona yaxınlaşdıran hər bir sözdən və əməldən Sənə sığınıram. Muhəmmədin ﷺ Səndən istədiyini mən də Səndən istəyirəm və Muhəmmədin ﷺ Sənə sığındığı şeydən mən də Sənə sığınıram. Mənim üçün qəzavü-qədərdən nə hazırlamısansa, onun aqibətini gözəl et!

[1034] əl-Buxari "Ədəbul-Mufrad" 639. əl-Albani səhih olduğunu bildirmişdir.

[1035] əl-Buxari, 796.

iləhə illə əntə! Subhənəkə, inni kuntu minəz-zalimin[1036]". Bir şey istəyərək bu duanı edən elə bir müsəlman kişi yoxdur ki, Allah onun duasını qəbul etməsin".[1037]

ƏN FƏZİLƏTLİ ZİKR HANSIDIR?

٧٨٤ - سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ ﵄ يَقُولُ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «أَفْضَلُ الذِّكْرِ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَفْضَلُ الدُّعَاءِ الْحَمْدُ لِلَّهِ»

784. Cabir ibn Abdullah ﵄ deyir ki, Allah Elçisinin ﷺ belə buyurduğunu eşitdim: "Ən fəzilətli zikr "lə iləhə illəllah", ən fəzilətli dua isə "Əlhəmdulilləh"dir".[1038]

DÜNYA VƏ AXİRƏT SALAMATLIĞI

٧٨٥ - عَنْ أَبِى هُرَيْرَةَ ﵁ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا مِنْ دَعْوَةٍ يَدْعُو بِهَا الْعَبْدُ أَفْضَلَ مِنَ – اللَّهُمَّ إِنِّى أَسْأَلُكَ الْمُعَافَاةَ فِى الدُّنْيَا وَالآخِرَةِ».

785. Əbu Hureyra ﵁ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Qulun: "Allahım, Səndən dünyada və Axirətdə salamatlıq istəyirəm!"- dua etməsindən daha fəzilətli dua yoxdur".[1039]

DİNİNİ VƏ DÜNYANI CƏM EDƏN DUA

٧٨٦ - حَدَّثَنِي أَبِي طَارِقُ بْنُ أَشْيَمَ ﵁ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يُعَلِّمُ مَنْ أَسْلَمَ يَقُولُ اللَّهُمَّ اغْفِرْ لِي وَارْحَمْنِي وَارْزُقْنِي وَهُوَ يَقُولُ هَؤُلَاءِ يَجْمَعْنَ لَكَ خَيْرَ الدُّنْيَا وَالْآخِرَةِ

786. Əbu Tariq ibn Əşyəmə ﵁ demişdir: "Mən eşitdim ki, Allah Elçisi sallallahu aleyhi və səlləm İslamı qəbul edənə bu duanı: "Allahummə-ğfirli varhəmni varzuqni"[1040]- öyrədirdi və belə deyirdi: "Bu, sənin üçün dünya və Axirət xeyirini əhatə edir".[1041]

[1036] Tərcüməsi: Səndən başqa həqiqi ilah yoxdur, Sən pak və müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!

[1037] ət-Tirmizi, 3505, 3845. əl-Albani bu hədisin səhih olduğunu bildirmişdir.

[1038] ət-Tirmizi, 3383, 3711. əl-Albani həsən olduğunu bildirmişdir.

[1039] İbn Məcə, 3851, 3983. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3388) səhih olduğunu bildirib.

[1040] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et və mənə ruzi ver!

[1041] Əhməd, 15881, 16301. Şueyb əl-Arnavut isnadını Muslimin şərtlərinə görə səhih olduğunu bildirib.

٧٨٧ - أَبُو مَالِكٍ سَعْدُ بْنُ طَارِقٍ عَنْ أَبِيهِ ﷺ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ وَقَدْ أَتَاهُ رَجُلٌ فَقَالَ يَا رَسُولَ اللَّهِ كَيْفَ أَقُولُ حِينَ أَسْأَلُ رَبِّى قَالَ «قُلِ اللَّهُمَّ اغْفِرْ لِى وَارْحَمْنِى وَعَافِنِى وَارْزُقْنِى». وَجَمَعَ أَصَابِعَهُ الأَرْبَعَ إِلاَّ الإِبْهَامَ «فَإِنَّ هَؤُلاَءِ يَجْمَعْنَ لَكَ دِينَكَ وَدُنْيَاكَ».

787. Əbu Malik Səd ibn Tariq atasından ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi, mən Rəbbimdən istədikdə nə deyim?" Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "De: "Allahummə-ğfirli varhəmni va afini varzuqni".[1042] Allah Elçisi sallәllahu aleyhi və sәlləm baş barmaqdan başqa dörd barmağını qatlayaraq dedi: "Həqiqətən, bunlar sənin üçün dinini və dünyanı əhatə edir".[1043]

٧٨٨ - حَدَّثَنِى مُصْعَبُ بْنُ سَعْدٍ عَنْ أَبِيهِ ﷺ أَنَّ أَعْرَابِيًّا أَتَى النَّبِيَّ ﷺ فَقَالَ عَلِّمْنِى كَلاَماً أَقُولُهُ. قَالَ «قُلْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ اللَّهُ أَكْبَرُ كَبِيراً وَالْحَمْدُ لِلَّهِ كَثِيراً وَسُبْحَانَ اللَّهِ رَبِّ الْعَالَمِينَ وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ الْعَزِيزِ الْحَكِيمِ خَمْساً». قَالَ هَؤُلاَءِ لِرَبِّى فَمَا لِى قَالَ «قُلِ اللَّهُمَّ اغْفِرْ لِى وَارْحَمْنِى وَارْزُقْنِى وَاهْدِنِى وَعَافِنِى»

788. Musab ibn Səd atasından ﷺ rəvayət edir ki, (bir dəfə) bir bədəvi Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına gəlib dedi: "Mənə zikr edə biləcəyim bir kəlmə öyrət". Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "Beş dəfə de: "Lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu, Allahu Əkbər Kəbiyran, vəlhəmdulilləhi kəsiyran, və subhənallahi Rabbil-aləmin, və lə haulə və lə quvvətə illə billəhil-Azizil-Həkim[1044]". Bədəvi dedi: "Bunlar Rəbbim üçündür, bəs mənim üçün nədir?" Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "De: "Allahummə-ğfirli varhəmni varzuqni vahdini va afini[1045]".[1046]

ƏMİRİN ZÜLMÜNƏ QARŞI EDİLƏN DUA

٧٨٩ - عَنْ أَبِي مِجْلَزٍ قَالَ: مَنْ خَافَ مِنْ أَمِيرٍ ظُلْمًا فَقَالَ: رَضِيت بِاللهِ رَبًّا وَبِالإِسْلامِ دِينًا وَبِمُحَمَّدٍ نَبِيًّا وَبِالْقُرْآنِ حَكَمًا وَإِمَامًا أَنْجَاهُ اللَّهُ مِنْهُ.

1042 Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et, mənə salamatlıq nəsib et və mənə ruzi ver!

1043 İbn Məcə, 3845, 3977. əl-Albani səhih olduğunu bildirmişdir.

1044 Tərcüməsi: Allahdan başqa ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur, Allah ən Böyükdür, Allaha çoxlu həmd olsun, aləmlərin Rəbbi olan Allah pak və müqəddəsdir, qüdrət və güc yalnız Qüdrətli və Müdrik olan Allaha məxsusdur.

1045 Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et, mənə ruzi ver, məni doğru yola yönəlt və mənə salamatlıq ver!

1046 Əhməd, 1561, 1581. Şueyb əl-Arnavut isnadını Muslimin şərtinə görə səhih, ravilərini əl-Buxari və Muslimin ravilərindən olduğunu və etibarlı olduğunu bildirmişdir.

789. Əbu Micləz ﷺ demişdir: "Kim əmirin zülmündən qorxub: "Radıytu billəhi Rabbən və bil-İsləmi dinən və bi-Muhəmmədin nəbiyyən və bil-Qurani hukmən və iməmən[1047]"- desə, Allah onu əmirin zülmündən xilas edər".[1048]

ŞİRKİN AZINDAN DA, ÇOXUNDAN DA ÇƏKİNİN!

٧٩٠ - عن معقل بن يسار يقول انطلقت مع أبي بكر الصديق ﷺ الى النبي ﷺ فقال يا أبا بكر للشرك فيكم أخفى من دبيب النمل فقال أبو بكر وهل الشرك إلا من جعل مع الله الها آخر قال النبي ﷺ والذي نفسي بيده للشرك أخفى من دبيب النمل ألا أدلك على شيء إذا قلته ذهب عنك قليله وكثيره قال قل اللهم إني أعوذ بك أن أشرك بك وأنا أعلم وأستغفرك لما لا أعلم

790. Məqil ibn Yəsar ﷺ demişdir: "Mən Əbu Bəkr əs-Siddiq ﷺ ilə birlikdə Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəldim. O buyurdu: "Ey Əbu Bəkr, şirk (riya) sizin aranızda qarışqanın yerişindən də gizlindir". Əbu Bəkr ﷺ dedi: "Məgər şirk Allahla yanaşı başqa bir tanrı qəbul etmək deyilmi?" Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Canım Əlində Olana and olsun ki, şirk qarışqanın yerişindən də gizlindir. Sənə elə bir şey öyrədimmi ki, onu dediyin zaman şirkin azı da, çoxu da səndən uzaq olsun?" (Sonra sözünə davam edib) buyurdu: "De: "Allahummə inni əuzu bikə ən uşrikə bikə və ənə əaləmu va əstəğfirukə limə lə əaləmu![1049]".[1050]

ALLAHIN ƏZƏMƏTLİ ADLARI

٧٩١ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ كُنْتُ مَعَ رَسُولِ اللَّهِ ﷺ جَالِسًا - يَعْنِى - وَرَجُلٌ قَائِمٌ يُصَلِّى فَلَمَّا رَكَعَ وَسَجَدَ وَتَشَهَّدَ دَعَا فَقَالَ فِى دُعَائِهِ اللَّهُمَّ إِنِّى أَسْأَلُكَ بِأَنَّ لَكَ الْحَمْدَ لاَ إِلَهَ إِلاَّ أَنْتَ الْمَنَّانُ بَدِيعُ السَّمَوَاتِ وَالأَرْضِ يَا ذَا الْجَلاَلِ وَالإِكْرَامِ يَا حَىُّ يَا قَيُّومُ إِنِّى أَسْأَلُكَ. فَقَالَ النَّبِىُّ ﷺ لأَصْحَابِهِ «تَدْرُونَ بِمَا دَعَا». قَالُوا اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ. قَالَ «وَالَّذِى نَفْسِى بِيَدِهِ لَقَدْ دَعَا اللَّهَ بِاسْمِهِ الْعَظِيمِ الَّذِى إِذَا دُعِىَ بِهِ أَجَابَ وَإِذَا سُئِلَ بِهِ أَعْطَى».

[1047] Tərcüməsi: Allahdan Rəbb, İslamdan din, Muhəmməddən peyğəmbər, Qurandan hökm və rəhbər olaraq razı qaldım.

[1048] İbn Əbu Şeybə "Musannəf" 29791. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2239) səhih məuquf olduğunu bildirmişdir.

[1049] Tərcüməsi: Allahım, bilərəkdən Sənə şərik qoşmaqdan Sənə sığınıram və bilmədən (Sənə şərik qoşduğuma) görə Səndən bağışlanma diləyirəm!

[1050] əl-Buxari "Ədəbul-Mufrad" 716. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3731) səhih olduğunu bildirmişdir.

791. Ənəs ibn Mələk ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm ilə birlikdə oturmuşduq. Bir kişi namaz qılarkən ruku, səcdə və təşəhhüddə belə dua etdi: "Allahummə inni əsəlukə biənnə ləkəl-həmd, lə iləhə illə əntəl-Mənnən, bədius-səməvəti vəl-ard, yə Zəl-Cələli vəl-İkram, yə Həyyu, yə Qayyum, inni əsəlukə[1051]". Peyğəmbər sallәllahu aleyhi və sәlləm səhabələrinə buyurdu: "Onun necə dua etdiyini bilirsiniz?" Dedilər: "Allah və Onun Elçisi daha yaxşı bilir!" Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Canım əlində Olana and olsun ki, o, Allahın ən əzəmətli adı ilə dua etdi. Bu adla dua edənin duası qəbul edilər və istədiyi verilər".[1052]

٧٩٢ - أَنَّ مِحْجَنَ بْنَ الأَدْرَعِ ﷺ حَدَّثَهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ دَخَلَ الْمَسْجِدَ إِذَا رَجُلٌ قَدْ قَضَى صَلاَتَهُ وَهُوَ يَتَشَهَّدُ فَقَالَ اللَّهُمَّ إِنِّى أَسْأَلُكَ يَا اللَّهُ بِأَنَّكَ الْوَاحِدُ الأَحَدُ الصَّمَدُ الَّذِى لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ أَنْ تَغْفِرَ لِى ذُنُوبِى إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «قَدْ غُفِرَ لَهُ». ثَلاَثًا. «لَقَدْ سَأَلَ اللَّهَ بِاسْمِهِ الْأَعْظَمِ الَّذِي إِذَا سُئِلَ بِهِ أَعْطَى وَإِذَا دُعِيَ بِهِ أَجَابَ».

792. Mihcən ibn əl-Ədrai ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm məscidə girdikdə bir kişinin namazını bitirərkən təşəhhüddə belə dua etdiyini eşitdi: "Allahummə inni əs'ələukə yə Allahu bi ənnəkəl-Vahidul-Əhədus-Saməd əlləzi ləm yəlid və ləm yuləd və ləm yəkun ləhu kufuvən əhəd, ən təğfirə liy zunubiy, innəkə əntəl-Ğafurur-Rahim[1053]". Allah Elçisi sallәllahu aleyhi və sәlləm üç dəfə dedi: "Artıq o bağışlandı!" [1054] Digər rəvayətdə deyilir: "...O, Allahın ən əzəmətli adı ilə dua etdi. Bu adla dua edənin duası qəbul edilər və istədiyi verilər".[1055]

٧٩٣ - عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ ﷺ أَنَّ النَّبِىَّ ﷺ قَالَ «اسْمُ اللَّهِ الأَعْظَمُ فِى هَاتَيْنِ الآيَتَيْنِ ﴿**وَإِلَهُكُمْ إِلَهٌ وَاحِدٌ لاَ إِلَهَ إِلاَّ هُوَ الرَّحْمَنُ الرَّحِيمُ**﴾ وَفَاتِحَةُ سُورَةِ آلِ عِمْرَانَ ﴿**الم اللَّهُ لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَىُّ الْقَيُّومُ**﴾.

793. Əsmə bint Yəzid ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Allahın ən əzəmətli adı bu iki ayədədir: ***"Sizin məbudunuz Tək olan İlahdır. Ondan başqa məbud yoxdur, Mərhəmətlidir, Rəhmlidir*** *(ər-*

[1051] Tərcüməsi: Allahım, Sənə yalvarıram, həmd Sənə məxsusdur, Səndən başqa həqiqi yoxdur, Sən lütf edən, yeri göyü icad edənsən! Ey Ucalıq və Kəramət Sahibi, ey əbədi Yaşayan, ey Qəyyum olan, Sənə yalvarıram!

[1052] ən-Nəsəi, 1300, 1308. əl-Albani səhih olduğunu bildirmişdir.

[1053] Tərcüməsi: Allahım, Sənə yalvarıram, ey Allah! Sən Vahid, Tək, Möhtac olmayan, doğmayan, doğulmayan, bənzəri olmayansan! Günahlarımı bağışla, şübhəsiz ki, Sən Bağışlayan, Rəhmlisən!

[1054] ən-Nəsəi, 1301, 1309. əl-Albani səhih olduğunu bildirmişdir.

[1055] İbn Məcə, 3847, 3857; Əhməd, 23041, 23091. əl-Albani səhih olduğunu bildirmişdir.

Rahmən, ər-Rahim)" (əl-Bəqərə, 163). Ali-İmran surəsinin əvvəli: ***"Əlif. Ləm. Mim. Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaradılanların Qəyyumudur*** *(əl-Həyy, əl-Qayyum)" (Ali İmran, 1-2)".*[1056]

٧٩٤ - عن أنس ﷺ كنت مع النبي ﷺ فدعا رجل فقال يَا بَدِيعَ السَّمَاوَاتِ، يَا حَيُّ يَا قَيُّومُ إِنِّي أَسْأَلُكَ فقال أتدرون بما دعا والذي نفسي بيده دعا الله باسمه الذي إذا دعي به أجاب.

794. Ənəs ﷺ deyir: "Mən Peyğəmbər sallallahu aleyhi və səlləm ilə bir yerdə idim. Bir kişi belə dua etdi: "Yə Bədi'əs-Səməvəti, Yə Həyyu, Yə Qayyumu, inni əsəlukə[1057]". Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Bilirsinizmi nə dua etdi? Canım əlində Olana and olsun! O, Allahın elə bir adı ilə dua etdi ki, onunla nə dua edilərsə, qəbul olunar".[1058]

CƏNNƏTİ VACİB EDƏN ZİKR

٧٩٥ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيَّ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ "مَنْ قَالَ رَضِيتُ بِاللَّهِ رَبًّا وَبِالإِسْلاَمِ دِينًا وَبِمُحَمَّدٍ ﷺ نبيا وَجَبَتْ لَهُ الْجَنَّةُ"...."فأنا الزعيمُ, لآخذنّ بيدِه حتى أُدْخِلَه الجنّةَ".

795. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurmuşdur: "Kim: "Radıytu billəhi Rabbən, və bil-İsləmi dinən və bi-Muhəmmədin sallallahu aleyhi və səlləm nəbiyyən[1059]"- deyərsə, Cənnət ona vacib olar".[1060] Digər rəvayətdə deyilir: "...mən o kimsənin əlindən tutub Cənnətə daxil etməyimə zəmanət verirəm".[1061]

BİSMİLLƏH KƏLMƏSİ

٧٩٦ - عَنْ أَبِي الْمَلِيحِ، عَنْ رَجُلٍ قَالَ: كُنْتُ رَدِيفَ النَّبِيِّ ﷺ فَعَثَرَتْ دَابَّتُهُ، فَقُلتُ: تَعِسَ الشَّيْطَانُ فَقَالَ: «لا تَقُلْ تَعِسَ الشَّيْطَانُ فَإِنَّكَ إِذَا قُلتَ ذَلِكَ تَعَاظَمَ حَتَّى يَكُونَ مِثلَ الْبَيتِ وَيَقُولُ: بِقُوَّتِي، وَلَكِن قُلْ: بِسْمِ اللهِ فَإِنَّكَ إِذَا قُلتَ ذَلِكَ تَصَاغَرَ حَتَّى يَكُونَ مِثلَ الذُّبَابِ».

[1056] Əbu Davud, 1498; İbn Məcə, 3855. əl-Albani həsən olduğunu bildirmişdir.

[1057] Tərcüməsi: Ey göyləri Yaradan! Ey əbədi Yaşayan, ey Qəyyum! (Kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan!) Mən yalnız Sənə yalvarıram!

[1058] əl-Buxari "Ədəbul Mufrad" 705. əl-Albani səhih olduğunu bildirmişdir.

[1059] Tərcüməsi: Allahdan Rəbb, İslamdan din və Muhəmməddən ﷺ peyğəmbər olaraq razı oldum!

[1060] İbn Hibban, 863. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6428) səhih olduğunu bildirmişdir.

[1061] Əbu Nueym əl-Əsbəhəni "əl-Məarifətus-Sahabə" 5521; əl-Heysəmi "Məcməuz-Zəvaid" 17005. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2686) səhih olduğunu bildirmişdir.

796. Əbul-Məlih rəvayət edir ki, bir kişi dedi: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm miniyinin tərkində yol gedirdim. Birdən heyvanın ayağı sürüşdü. Mən: "Məhv olsun şeytan"- dedim. Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Məhv olsun şeytan"- demə, çünki sən bunu söylədikdə, o, ev boyda olana qədər şişir və deyir: "Bu iş mənim qüvvətimlə olur". Lakin sən: "Allahın adı ilə (Bismilləh)"- de, çünki sən bunu söylədikdə, o, milçək boyda olana qədər kiçilir".[1062]

ƏN GÖZƏL TƏŞƏKKÜR

٧٩٧ - عَنْ أُسَامَةَ بْنِ زَيْدٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ صُنِعَ إِلَيْهِ مَعْرُوفٌ فَقَالَ لِفَاعِلِهِ : جَزَاكَ اللهُ خَيْراً، فَقَدْ أَبْلَغَ فِي الثَّنَاءِ».

797. Usəmə ibn Zeyd ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Kimə bir yaxşılıq edilərsə, o yaxşılıq edənə: "Cəzəkəllahu xayran[1063]"- deyərsə, ən gözəl şəkildə təşəkkür etmiş olar".[1064]

HANSI ZİKRİ ETDİKDƏ ALLAH İNSANI ODDAN AZAD EDİR

٧٩٨ - عَنْ سَلْمَانَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "مَنْ قَالَ: اللَّهُمَّ إِنِّي أُشْهِدُكَ، وَأُشْهِدُ مَلائِكَتَكَ، وَحَمَلَةَ عَرْشِكَ، وَأُشْهِدُ مَنْ فِي السَّمَاوَاتِ وَالأَرْضِ أَنَّكَ أَنْتَ اللَّهُ لا إِلَهَ إِلا أَنْتَ، وَحْدَكَ لا شَرِيكَ لَكَ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُكَ وَرَسُولُكَ، مَنْ قَالَهَا مَرَّةً أَعْتَقَ اللَّهُ ثُلُثَهُ مِنَ النَّارِ، وَمَنْ قَالَهَا مَرَّتَيْنِ أَعْتَقَ اللَّهُ ثُلُثَيْهِ مِنَ النَّارِ، وَمَنْ قَالَهَا ثَلاثًا أَعْتَقَ كُلَّهُ مِنَ النَّارِ".

798. Salman ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Kim bir dəfə: "Allahummə inni uşhidukə, və uşhidu mələikətəkə, və həmələtə arşikə, və uşhidu mən fis-səməvəti vəl-ardı, ənnəkə əntəllahu lə iləhə illə əntə, vahdəkə lə şəriykə ləkə, və əşhədu ənnə Muhəmmədən abdukə və rasulukə[1065]"- deyərsə, Allah onun üçdə biri hissəsini Oddan azad edər.

[1062] Əbu Davud, 4982, 4984. əl-Albani səhih olduğunu bildirmişdir.

[1063] Tərcüməsi: Allah səni xeyirlə mükafatlandırsın!

[1064] ət-Tirmizi, 2035, 2167. əl-Albani səhih olduğunu bildirmişdir.

[1065] Tərcüməsi: Allahım, mən Səni, mələklərini, Ərşini daşıyanları, göydə və yerdə olanların hamısını şahid tuturam ki, Səndən başqa haqq ilah olmayan Allah Sənsən! Sən təksən, şərikin yoxdur! Həmçinin, şahidlik edirəm ki, Muhəmməd Sənin qulun və rəsulundur!

Kim bunu iki dəfə deyərsə, Allah onun üçdə iki hissəsini Oddan azad edər. Kim də bunu üç dəfə deyərsə, Allah onu bütövlükdə Oddan azad edər".[1066]

ŞEYTANLARIN ORDULARINI DARMADAĞIN EDƏN ZİKR

٧٩٩ - حَدَّثَنَا أَبُو التَّيَّاحِ قَالَ قُلْتُ لِعَبْدِ الرَّحْمَنِ بْنِ خَنْبَشٍ التَّمِيمِيِّ وَكَانَ كَبِيرًا: أَدْرَكْتَ رَسُولَ اللَّهِ ﷺ قَالَ: نَعَمْ قَالَ قُلْتُ كَيْفَ صَنَعَ رَسُولُ اللَّهِ ﷺ لَيْلَةَ كَادَتْهُ الشَّيَاطِينُ فَقَالَ إِنَّ الشَّيَاطِينَ تَحَدَّرَتْ تِلْكَ اللَّيْلَةَ عَلَى رَسُولِ اللَّهِ ﷺ مِنْ الْأَوْدِيَةِ وَالشِّعَابِ وَفِيهِمْ شَيْطَانٌ بِيَدِهِ شُعْلَةُ نَارٍ يُرِيدُ أَنْ يُحْرِقَ بِهَا وَجْهَ رَسُولِ اللَّهِ ﷺ فَهَبَطَ إِلَيْهِ جِبْرِيلُ عليه السلام فَقَالَ يَا مُحَمَّدُ قُلْ قَالَ مَا أَقُولُ قَالَ قُلْ أَعُوذُ بِكَلِمَاتِ اللَّهِ التَّامَّةِ مِنْ شَرِّ مَا خَلَقَ وَذَرَأَ وَبَرَأَ وَمِنْ شَرِّ مَا يَنْزِلُ مِنْ السَّمَاءِ وَمِنْ شَرِّ مَا يَعْرُجُ فِيهَا وَمِنْ شَرِّ فِتَنِ اللَّيْلِ وَالنَّهَارِ وَمِنْ شَرِّ كُلِّ طَارِقٍ إِلَّا طَارِقًا يَطْرُقُ بِخَيْرٍ يَا رَحْمَنُ قَالَ فَطَفِئَتْ نَارُهُمْ وَهَزَمَهُمْ اللَّهُ تَبَارَكَ وَتَعَالَى

799. Əbu ət-Təyyah rəvayət edir: "Mən Abdur-Rahmən ibn Xanbəş ət-Təmimi ﷺ yaşlı ikən ondan soruşdum: "Sən Allah Elçisini sallallahu aleyhi və səlləm görmüsən?" O: "Bəli"– dedi. Mən soruşdum: "Şeytanların Allahın Elçisinə ﷺ hiylə qurduğu gecə o nə etdi?" O dedi: "Həqiqətən, o gecə şeytanlar vadilərdən və dərələrdən axışaraq Allah Elçisinə sallallahu aleyhi və səlləm hücum etdilər. Onların arasında olan bir şeytan əlində məşəl tutaraq Allah Elçisinin sallallahu aleyhi və səlləm üzünü yandırmaq istəyirdi. (Belə olan təqdirdə) Cəbrayıl عليه السلام onun yanına enərək buyurdu: "Ey Muhəmməd, de!" O da: "Nə deyim?"– deyə soruşdu. Cəbrayıl buyurdu: "De: "Əuzu bikəli-mətil-ləhit-təmməti min şərri mə xaləqa və zəraə və bəraə və min şərri mə yənzilu minəs-səməi və min şərri mə ya'rucu fihə və min şərri fitənil-leyli vən-nəhəri və min şərri kulli tariqin illə tariqan yətruqu bi xayrin, yə Rahmən![1067]" (Bundan sonra) onların alovları söndü və Uca Allah onları darmadağın etdi".[1068]

MÜSİBƏT HALINDA DEYİLƏN DUA

٨٠٠ - سَمِعَ أُمَّ سَلَمَةَ رضي الله عنها زَوْجَ النَّبِيِّ ﷺ تَقُولُ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَا مِنْ عَبْدٍ تُصِيبُهُ مُصِيبَةٌ فَيَقُولُ إِنَّا

[1066] ət-Təbərani "Mucəmul-Kəbir" 5939, 6062. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 267) səhih olduğunu bildirmişdir.

[1067] Tərcüməsi: Yaratdıqlarının, düzəltdiklərinin və icad etdiklərinin şərindən, səmadan nazil olanların və orada yüksələnlərin şərindən, gecənin və gündüzün fitnələrinin şərindən, – gecə xoş xəbərlə gələn müstəsna olmaqla – gecə gələnlərin hər birinin şərindən Allahın tam kəlamlarına sığınıram! Ey Rahmən!

[1068] Əhməd, 15460, 15498. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1602) həsən olduğunu bildirib.

لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ اللَّهُمَّ أْجُرْنِى فِى مُصِيبَتِى وَأَخْلِفْ لِى خَيْرًا مِنْهَا إِلاَّ أَجَرَهُ اللَّهُ فِى مُصِيبَتِهِ وَأَخْلَفَ لَهُ خَيْرًا مِنْهَا».
قَالَتْ فَلَمَّا تُوُفِّىَ أَبُو سَلَمَةَ قُلْتُ كَمَا أَمَرَنِى رَسُولُ اللَّهِ ﷺ فَأَخْلَفَ اللَّهُ لِى خَيْرًا مِنْهُ رَسُولَ اللَّهِ ﷺ.

800. Ummu Sələmə رضي الله عنها rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Müsibətə düçar olub: "İnnə lilləhi və innə ileyhi raciun. Allahummə əcirni fi musibəti. Vaxlufli xayran minhə[1069]"- deyən elə bir qul yoxdur ki, Allah müsibətinə görə onu mükafatlandırmasın və ondan daha xeyirli olanı ilə əvəz etməsin". Əbu Sələmə ﷺ vəfat etdiyi vaxt Allah Elçisinin sallәllahu aleyhi və sәlləm mənə buyurduğu kimi dedim və Allah mənə ondan da xeyirli olan Allah Elçisi sallәllahu aleyhi və sәlləm ilə əvəz etdi".[1070]

YƏ ZƏL-CƏLƏLİ VƏL-İKRAM

٨٠١ - عَنْ أَنَسٍ ﷺ أَنَّ النَّبِىَّ ﷺ قَالَ «أَلِظُّوا بِيَا ذَا الْجَلاَلِ وَالإِكْرَامِ».

801. Ənəs ﷺ dedi ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Yə Zəl-Cələli vəl-İkram!" (Ey əzəmət və ehtiram Sahibi!) - duasını tez-tez təkrar edin".[1071]

LƏ İLƏHƏ İLLƏLLAH KƏLMƏSİNİ DEMƏYİ ÇOXALDIN

٨٠٢ - عن أبي هريرة ﷺ قال قال رسول الله ﷺ أكثروا من شهادة أن لا إله إلا الله قبل أن يحال بينكم وبينها

802. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Ölüm sizə gəlmədən öncə "lə iləhə illəllah" şəhadət kəlməsini söyləməyi çoxaldın!"[1072]

LƏ İLƏHƏ İLLƏLLAHU VAHDƏHU LƏ ŞƏRİKƏ LƏHU, LƏHUL-MULKU VƏ LƏHUL-HƏMDU VƏ HUVƏ ALƏ KULLİ ŞEYİN QADİR

٨٠٣ - عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيْكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحُمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيْر، أَوْ مَنَحَ مَنِيحَةً أَوْ هَدَى زُقَاقاً كَانَ كَمَنْ أَعْتَقَ رَقَبَة».

[1069] Tərcüməsi: Biz Allaha məxsusuq və Ona da qayıdacağıq! Allahım! Başıma gələn müsibət sayəsində məni mükafatlandır və əvəzinə ondan da xeyirlisini ver!
[1070] Muslim, 2166.
[1071] ət-Tirmizi, 3525, 3868. əl-Albani səhih olduğunu bildirmişdir.
[1072] Əbu Yəalə, 6147. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1529) həsən olduğunu bildirmişdir.

803. Bəra ibn Azib ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səllləm demişdir: "Kim: "Lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu, və huvə alə kulli şeyin qadir[1073]"- deyər və ya bir dişi dəvəni hədiyyə edər və ya bir kimsəyə yol göstərərsə, qul azad etmiş kimidir".[1074]

٨٠٤ - عَنْ أَبِي عَيَّاشٍ الزُّرَقِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ قَالَ حِينَ يُصْبِحُ: لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيْكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، كَانَ لَهُ عَدْلَ رَقَبَةٍ مِنْ وَلَدِ إِسْمَاعِيلَ، وَحُطَّ عَنْهُ عَشْرُ خَطِيئاتٍ، وَرُفِعَ لَهُ عَشْرُ دَرَجَاتٍ، وَكَانَ فِي حِرْزٍ مِنَ الشَّيطَانِ حَتَّى يُمْسِي، وَإِذَا أَمْسَى فَمِثْلُ ذَلِكَ حَتَّى يُصْبِحَ». قَالَ: فَرأَى رَجُلٌ رَسُوْلَ اللهِ ﷺ فِيمَا يَرَى النَّائِمُ فَقَالَ: يَا رَسُوْلَ اللهِ! إِنَّ أَبَا عَيَّاشٍ يَرْوُي عَنْكَ كَذَا وَكَذَا فَقَالَ: «صَدَقَ أَبُو عَيَّاشٍ».

804. Əbu Əyyəş əz-Zuraqi ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səllləm buyurmuşdur: "Kim səhər: "Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh, ləhul-mulk və ləhul-həmdu və huvə alə kulli şeyin qadir[1075]"- deyərsə, bu onun üçün İsmayıl övladından bir köləni azad etməyə bərabərdir. Həmçinin, onun on günahı silinər, on dərəcə yüksələr və o gün axşama qədər şeytandan qorunmuş olar. Axşam dedikdə səhərə qədər bunları qazanmış olar". Sonra bir nəfər Allah Elçisini sallallahu aleyhi və səllləm yuxusunda görüb ondan soruşdu: "Ey Allahın Elçisi, Əbu Əyyəş səndən belə bir hədis rəvayət edir". Allah Elçisi sallallahu aleyhi və səllləm: "Əbu Əyyəş doğru söylədi!"- deyə buyurdu".[1076]

٨٠٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ فِي يَوْمٍ مِائَةَ مَرَّةٍ كَانَتْ لَهُ عَدْلَ عَشْرِ رِقَابٍ وَكُتِبَ لَهُ مِائَةُ حَسَنَةٍ وَمُحِيَتْ عَنْهُ مِائَةُ سَيِّئَةٍ وَكَانَتْ لَهُ حِرْزًا مِنْ الشَّيْطَانِ يَوْمَهُ ذَلِكَ حَتَّى يُمْسِيَ وَلَمْ يَأْتِ أَحَدٌ بِأَفْضَلَ مِمَّا جَاءَ إِلاَّ رَجُلٌ عَمِلَ أَكْثَرَ مِنْهُ.

805. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səllləm demişdir: "Kim gün ərzində yüz dəfə: "Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir[1077]"- deyərsə, on kölə azad etmiş sayılar, üstəlik ona yüz savab yazılar və onun yüz günahı silinər, (bundan başqa bu dualar) həmin gün axşama qədər onu

---

[1073] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir!

[1074] Əhməd, 18554. əl-Albani "Səhihut-Tərğib vət-Tərhib"də (№ 1535) səhih olduğunu bildirmişdir

[1075] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur, həmd Ona məxsusdur və O, hər şeyə Qadirdir!

[1076] İbn Məcə, 3867, 4000. əl-Albani səhih olduğunu bildirmişdir.

[1077] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Ona məxsusdur və O hər şeyə Qadirdir!

şeytandan qoruyar və (bu duanı) ondan çox deyən kimsə istisna olmaqla heç kəs onun gətirdiyindən üstün başqa bir şey gətirə bilməz".[1078]

٨٠٦ - عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ «خَيْرُ الدُّعَاءِ دُعَاءُ يَوْمِ عَرَفَةَ وَخَيْرُ مَا قُلْتُ أَنَا وَالنَّبِيُّونَ مِنْ قَبْلِى لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَىْءٍ قَدِيرٌ».

806. Amr ibn Şueyb atasından ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Ən xeyirli dua Ərafa günü edilən duadır. Mən və məndən öncəki peyğəmbərlərin söylədikləri ən xeyirli kəlmə budur: "Lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir[1079]".[1080]

٨٠٧ - قَالَ مِنْ أَبِى أَيُّوبَ الأَنْصَارِىِّ ﷺ يُحَدِّثُهُ عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ «مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَىْءٍ قَدِيرٌ عَشْرَ مِرَارٍ كَانَ كَمَنْ أَعْتَقَ أَرْبَعَةَ أَنْفُسٍ مِنْ وَلَدِ إِسْمَاعِيلَ».

807. Əbu Əyyub əl-Ənsari ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Kim gündə on dəfə: "Lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir[1081]"-deyərsə, İsmayıl övladından dörd nəfəri azad etmiş kimi olar".[1082]

٨٠٨ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَىْءٍ قَدِيرٌ. فِى يَوْمٍ مِائَةَ مَرَّةٍ. كَانَتْ لَهُ عَدْلَ عَشْرِ رِقَابٍ وَكُتِبَتْ لَهُ مِائَةُ حَسَنَةٍ وَمُحِيَتْ عَنْهُ مِائَةُ سَيِّئَةٍ وَكَانَتْ لَهُ حِرْزًا مِنَ الشَّيْطَانِ يَوْمَهُ ذَلِكَ حَتَّى يُمْسِىَ وَلَمْ يَأْتِ أَحَدٌ أَفْضَلَ مِمَّا جَاءَ بِهِ إِلاَّ أَحَدٌ عَمِلَ أَكْثَرَ مِنْ ذَلِكَ. وَمَنْ قَالَ سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ فِى يَوْمٍ مِائَةَ مَرَّةٍ حُطَّتْ خَطَايَاهُ وَلَوْ كَانَتْ مِثْلَ زَبَدِ الْبَحْرِ».

808. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Kim gündə yüz dəfə: "Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir[1083]"-deyərsə, bu, onun üçün on köləni azad etməyə bərabər olar. Ona yüz savab

---

[1078] əl-Buxari, 6403.

[1079] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Onadır, O, hər şeyə Qadirdir!

[1080] ət-Tirmizi, 3585, 3934. əl-Albani həsən olduğunu bildirmişdir.

[1081] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur! Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!

[1082] Muslim, 7020.

[1083] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!

yazılar və onun yüz günahı silinər. O gün axşama qədər şeytandan qorunar. (Qiyamət günü) ondan daha çox söyləyəndən başqa, heç kəs onun gətirdiyindən fəzilətli bir şey gətirə bilməz. Kim də gün ərzində yüz dəfə: "Subhənəllahi və bihəmdihi[1084]"- deyərsə, onun günahları dənizin köpükləri qədər olsa belə silinər".[1085]

٨٠٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ مَنْ قَالَ لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ مَنْ قَالَهَا عَشْرَ مَرَّاتٍ حِينَ يُصْبِحُ كُتِبَ لَهُ بِهَا مِائَةُ حَسَنَةٍ وَمُحِيَ عَنْهُ بِهَا مِائَةُ سَيِّئَةٍ وَكَانَتْ لَهُ عَدْلَ رَقَبَةٍ وَحُفِظَ بِهَا يَوْمَئِذٍ حَتَّى يُمْسِيَ وَمَنْ قَالَ مِثْلَ ذَلِكَ حِينَ يُمْسِي كَانَ لَهُ مِثْلُ ذَلِكَ

809. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Kim səhər on dəfə: "Lə ilahə illəllahu, vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir[1086]"- deyərsə, ona yüz savab yazılar, yüz günahı silinər, onun üçün bir kölə azad etməyə bərabər olar və o gün axşama qədər (şeytandan) qorunar. Kim bunları axşam söyləyərsə, onun üçün bunun eynisi verilər".[1087]

٨١٠ - عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ ، عَنْ أَبِيهِ ، عَنْ جَدِّهِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: مَنْ قَالَ: سُبْحَانَ اللهِ مِائَةَ مَرَّةٍ قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ غُرُوبِهَا كَانَ أَفْضَلَ مِنْ مِائَةِ بَدَنَةٍ، وَمَنْ قَالَ: الْحَمْدُ لِلَّهِ مِائَةَ مَرَّةٍ قَبْلَ طُلُوعِ الشَّمْسِ، وَقَبْلَ غُرُوبِهَا كَانَ أَفْضَلَ مِنْ مِائَةِ فَرَسٍ يُحْمَلُ عَلَيْهَا، وَمَنْ قَالَ: اللَّهُ أَكْبَرُ مِائَةَ مَرَّةٍ قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ غُرُوبِهَا، كَانَ أَفْضَلَ مِنْ عِتْقِ مِائَةِ رَقَبَةٍ، وَمَنْ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ مِائَةَ مَرَّةٍ قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ غُرُوبِهَا، لَمْ يَجِئْ يَوْمَ الْقِيَامَةِ أَحَدٌ بِعَمَلٍ أَفْضَلَ مِنْ عَمَلِهِ إِلاَّ مَنْ قَالَ قَوْلَهُ أَوْ زَادَ.

810. Amr ibn Şuayb öz atasından, o da babasından rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Kim günəş çıxmadan və batmadan əvvəl əvvəl yüz dəfə "Subhənəllah"- deyərsə, yüz qurbanlıq heyvandan daha əfzəldir. Kim günəş çıxmadan və batmadan əvvəl əvvəl yüz dəfə "Əlhəmdulilləh"- deyərsə, yüz atı (Allah yolunda) istifadəyə verməkdən daha əfzəldir. Kim günəş çıxmadan və batmadan əvvəl əvvəl yüz dəfə "Allahu Əkbər"- deyərsə, yüz qul azad etməkdən əfzəldir. Kim günəş çıxmadan və batmadan əvvəl əvvəl yüz dəfə "Lə ilahə illəllahu, vəhdahu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu və Huvə alə kulli

---

[1084] Tərcüməsi: Allah pak və müqəddəsdir! Ona həmd olsun!
[1085] Muslim, 2691, 7018.
[1086] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!
[1087] Əhməd, 8704, 8719. Şueyb əl-Arnavut isnadını əl-Buxari və Muslimin şərtlərinə əsasən səhih olduğunu bildirib.

şeyin qadir[1088]"- deyərsə, Qiyamət günü onun bu dediyinə bərabər və ya artıq deyəndən başqa heç kəs onun gətirdiyi əməldən daha əfzəl əməl gətirə bilməz".[1089]

LƏ İLƏHƏ İLLƏLLAHU, VAHDƏHU LƏ ŞƏRIKƏ LƏHU, LƏHUL-MULKU VƏ LƏHUL-HƏMDU, YUHYİ VƏ YUMİT VƏ HUVƏ ALƏ KULLİ ŞEYİN QADİR

٨١١ - عَنْ أَبِي أَيُّوبَ الأَنْصَارِيِّ ﷺ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ: مَنْ قَالَ حِينَ يُصْبِحُ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، عَشْرَ مَرَّاتٍ، كَتَبَ اللَّهُ لَهُ بِكُلِّ وَاحِدَةٍ قَالَهَا عَشْرَ حَسَنَاتٍ، وَحَطَّ اللَّهُ عَنْهُ بِهَا عَشْرَ سَيِّئَاتٍ، وَرَفَعَهُ اللَّهُ بِهَا عَشْرَ دَرَجَاتٍ، وَكُنَّ لَهُ كَعَشْرِ رِقَابٍ، وَكُنَّ لَهُ مَسْلَحَةً مِنْ أَوَّلِ النَّهَارِ إِلَى آخِرِهِ، وَلَمْ يَعْمَلْ يَوْمَئِذٍ عَمَلاً يَقْهَرُهُنَّ، فَإِنْ قَالَ حِينَ يُمْسِي، فَمِثْلُ ذَلِكَ.

811. Əbu Əyyub əl-Ənsari ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm demişdir: "Kim səhər açıldıqda on dəfə: "Lə iləhə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulk və ləhul-həmd, yuhyi və yumit və huvə alə kulli şeyin qadir[1090]"- deyərsə, Allah bu zikrin hər birinə görə ona on savab yazar, on günahını silər, on dərəcə yüksəldər, on qul azad etmək savabı verilər, bu sözlər günün əvvəlindən sonunadək onu qoruyan silahlı dəstə olar, bu əməl o gün edilən əməllərdən ən üstünü olar. Bunu axşam deyərsə, eyni savaba nail olar".[1091]

٨١٢ - عَنْ عُمَارَةَ بْنِ شَبِيبٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ قَالَ: لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيْكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ يُحْيِي وَيُمِيْتُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٍ، عَشْرَ مَرَّاتٍ عَلَى إِثْرِ الْمَغْرِبِ، بَعَثَ اللهُ لَهُ مَسْلَحةً يَحْفَظُونَهُ مِنَ الشَّيْطَانِ حَتَّى يُصْبِحَ، وَكَتَبَ اللهُ لَهُ بَهَا عَشْرَ حَسَنَاتٍ مُوجِبَاتٍ وَمَحَى عَنْهُ عَشْرَ سَيِّئَاتٍ مُوْبِقَاتٍ وَكَانَتْ لَهُ بِعَدْلِ عَشْرِ رِقَابٍ مُؤْمِنَاتٍ».

812. Uməra ibn Şəbib ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurdu: "Kim məğribdən sonra on dəfə: "Lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu, yuhyi və yumitu və huvə alə

[1088] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur, həmd Ona məxsusdur, dirildir və öldürür və O, hər şeyə Qadirdir!

[1089] ən-Nəsai "Sunənul-Kubra" 10657. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 658) həsən olduğunu bildirmişdir.

[1090] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O təkdir, Onun şəriki yoxdur, mülk Onundur, həmd Ona məxsusdur, dirildir və öldürür və O, hər şeyə Qadirdir!

[1091] Əhməd, 23401, 23614. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 114) isnadının səhih olduğunu bildirmişdir.

kulli şeyin qadir[1092]"- deyərsə, Allah səhərədək onu şeytandan qoruyan silahlı mühafizəçilər göndərər, onun üçün (Cənnəti) vacib edən on savab yazılar, onu həlak edən on günahı silinər və ona on mömin köləni azad etməyə bərabər savab verilər".[1093]

٨١٣ - عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «مَنْ قالَ لاَ إله إِلاَّ اللهُ، وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ يُحْيِي وَيُمِيتُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ عَشْرَ مَرَّاتٍ كَانَ لَهُ بِعَدْلِ نَسَمَةٍ»

813. Bəra ibn Azib ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Kim on dəfə: "Lə iləhə illəllahu vahdəhu lə şəriykə ləhu, ləhul-mulku və ləhul-həmdu, yuhyu və yumit və huvə alə kulli şeyin qadir[1094]"- deyərsə, bir canı azad etmiş kimi olar".[1095]

LƏ İLƏHƏ İLLƏLLAHU VAHDƏHU LƏ ŞƏRİKƏ LƏHU, LƏHUL-MULKU VƏ LƏHUL-HƏMDU, YUHYİ VƏ YUMİT, BİYƏDİHİL-XEYRU VƏ HUVƏ ALƏ KULLİ ŞEYİN QADİR

٨١٤ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "مَنْ قَالَ فِي دُبُرِ صَلاةِ الْغَدَاةِ: لا إِلَهَ إِلا اللَّهُ، وَحْدَهُ لا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَيُحْيِي وَيُمِيتُ بِيَدِهِ الْخَيْرُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ مِئَةَ مَرَّةٍ قَبْلَ أَنْ يَثْنِيَ رِجْلَيْهِ، كَانَ يَوْمَئِذٍ أَفْضَلَ أَهْلِ الأَرْضِ عملا إِلا مَنْ قَالَ مِثْلَ مَا قَالَ أَوْ زَادَ عَلَى مَا قَالَ".

814. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Kim Sübh namazından sonra oturduğu halda yüz dəfə: "Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu, yuhyi və yumit, biyədihil-xeyru və huvə alə kulli şeyin qadir[1096]"- deyərsə, o gün yer əhli arasında ən fəzilətli əməl etmiş sayılar, onun kimi və ya ondan artığını deyən istisnadır".[1097]

[1092] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Ona məxsusdur, dirildir və öldürür. O, hər şeyə Qadirdir!

[1093] ət-Tirmizi, 3534, 3877. əl-Albani həsən olduğunu bildirmişdir.

[1094] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, Onun şəriki yoxdur, mülk Onundur və həmd Onadır, dirildir və öldürür! O, hər şeyə Qadirdir!

[1095] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 12120. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6436) səhih olduğunu bildirmişdir.

[1096] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, O, təkdir, Onun şəriki yoxdur, mülk Onundur və həmd Ona məxsusdur, Dirildir və öldürür. Xeyir Onun Əlindədir. O, hər şeyə Qadirdir!

[1097] ət-Tabərani "Mucəmul-Əvsat" 7200, "Mucəmul-Kəbir" 8001, 8075. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 476) həsən olduğunu bildirmişdir.

LƏ HƏULƏ VƏ LƏ QUVVƏTƏ İLLƏ BİLLƏH

٨١٥ - عَنْ مُعَاذٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ أَلَا أَدُلُّكَ عَلَى بَابٍ مِنْ أَبْوَابِ الْجَنَّةِ قَالَ وَمَا هُوَ قَالَ لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ

815. Muaz ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm (ona) demişdir: "Sənə Cənnət qapılarından birini göstərim?" Mən dedim: "O hansıdır?" Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Lə həulə və lə quvvətə illə billəh".[1098]

٨١٦ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: أَوْصَانِي خَلِيلِي ﷺ بخصال من الخير أوصاني أن لاَ أَنْظُرَ إِلَى مَنْ هُوَ فَوْقِي و أَنْ أَنْظُرَ إِلَى مَنْ هُوَ دُونِي وأوصاني بِحُبِّ الْمَسَاكِينِ وَالدُّنُوِّ مِنْهُمْ وأوصاني أن أصل رحمي وَإِنْ أَدْبَرَتْ وأوصاني أن لا أخاف في الله لومة لائم وأوصاني أن أَقُولَ الْحَقَّ وَإِنْ كَانَ مُرًّا وأوصاني أَنْ أُكْثِرَ مِنْ: لاَ حَوْلَ، وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ، فَإِنَّهَا كَنْزٌ مِنْ كُنُوزِ الْجَنَّةِ.

816. Əbu Zərr ﷺ demişdir: "Mənim sevimli dostum salləllahu aleyhi və səlləm mənə bu xeyirli xislətlərə (sahib olmağı) nəsihət etmişdir. O, (nemət baxımından) məndən üstün olana baxmamağı, məndən aşağı olana baxmağı, yoxsulları sevməyi və onlara yaxın olmağı, (qohumlarım məndən) üz çevirsələr belə qohumluq əlaqələrimi möhkəmlətməyi, Allah yolunda qınayanın qınağından qorxmamağı, acı olsa belə haqqı söyləməyi və Cənnət xəzinəsindən biri olan "lə haulə va lə quvvətə illə billəh" kəlməsini çox söyləməyi mənə nəsihət etmişdir".[1099]

٨١٧ - عَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ ﷺ قَالَ: لَمَّا غَزَا رَسُولُ اللَّهِ ﷺ خَيْبَرَ - أَوْ قَالَ لَمَّا تَوَجَّهَ رَسُولُ اللَّهِ ﷺ أَشْرَفَ النَّاسُ عَلَى وَادٍ، فَرَفَعُوا أَصْوَاتَهُمْ بِالتَّكْبِيرِ اللَّهُ أَكْبَرُ اللَّهُ أَكْبَرُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «ارْبَعُوا عَلَى أَنْفُسِكُمْ، إِنَّكُمْ لاَ تَدْعُونَ أَصَمَّ وَلاَ غَائِبًا، إِنَّكُمْ تَدْعُونَ سَمِيعًا قَرِيبًا وَهُوَ مَعَكُمْ». وَأَنَا خَلْفَ دَابَّةِ رَسُولِ اللَّهِ ﷺ فَسَمِعَنِي وَأَنَا أَقُولُ لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ، فَقَالَ لِي: «يَا عَبْدَ اللَّهِ بْنَ قَيْسٍ». قُلْتُ لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ. قَالَ: «أَلاَ أَدُلُّكَ عَلَى كَلِمَةٍ مِنْ كَنْزٍ مِنْ كُنُوزِ الْجَنَّةِ». قُلْتُ بَلَى يَا رَسُولَ اللَّهِ فِدَاكَ أَبِي وَأُمِّي. قَالَ: «لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ».

817. Rəvayət edilir ki, Əbu Musa əl-Əşari (Abdullah ibn Qeys) ﷺ demişdir: "Allah Elçisi salləllahu aleyhi və səlləm Xeybərə yürüş etdikdə (yaxud o istiqamətə getdikdə) və insanlar (hər hansı bir) vadiyə yaxınlaşdıqda uca səslə təkbir gətirib deyərdilər: "Allahu Əkbər, Allahu Əkbər, lə iləhə

[1098] Əhməd, 21996. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1581) səhih li-ğeyrihi olduğunu bildirib.
[1099] İbn Hibban, 449. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2525) səhih olduğunu bildirmişdir.

illəllah". Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Özünüzə yazığınız gəlsin! Axı, siz kar və uzaqda olan (bir tanrını) çağırmırsınız. Həqiqətən, O, Eşidəndir, Yaxındır və O, (həmişə) sizinlədir". Həmin vaxt mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm dəvəsinin arxa tərəfində idim. O mənim: "Lə həulə və lə quvvətə illə billəh[1100]"- dediyimi eşitdi və mənə belə buyurdu: "Ey Abdullah ibn Qeys!" Dedim: "Hüzurundayam, ey Allahın Elçisi!" Dedi: "Cənnət xəzinələrindən sayılan bir kəlməni[1101] sənə öyrədimmi?" Dedim: "Bəli, ey Allahın Elçisi, atam-anam sənə fəda olsun!" Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Lə həulə və lə quvvətə illə billəh".[1102]

SUBHƏNƏLLAH, ƏLHƏMDULİLLƏH, LƏ İLƏHƏ İLLƏLLAH VƏ ALLAHU ƏKBƏR

٨١٨ - عن أنس قال: جاء أعرابي إلى النبي ﷺ فقال يا رسول الله علمني خيرا فأخذ النبي ﷺ بيده فقال: قل سبحان الله و الحمد لله و لا إله إلا الله و الله أكبر قال: فعقد الأعرابي على يده و مضى فتفكر ثم رجع فتبسم النبي ﷺ قال: تفكر البائس فجاء فقال يا رسول الله سبحان الله و الحمد لله و لا إله إلا الله و الله أكبر هذا لله فمالي؟ فقال له النبي ﷺ: يا أعرابي إذا قلت سبحان الله قال الله: صدقت و إذا قلت الحمد لله قال الله: صدقت و إذا قلت لا إله إلا الله قال الله: صدقت و إذا قلت الله أكبر قال الله: صدقت و إذا قلت اللهم اغفر لي قال الله: قد فعلت و إذا قلت اللهم ارحمني قال الله: فعلت و إذا قلت اللهم ارزقني قال الله: قد فعلت قال : فعقد الأعرابي على سبع في يده ثم ولى

818. Ənəs ﷺ demişdir: "Bir bədəvi ərəb Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi! Mənə xeyir öyrət". Peyğəmbər sallәllahu aleyhi və sәlləm onun əlindən tutub dedi: "De: "Subhənallah, vəlhəmdulilləh, və lə iləhə illəllah, va Allahu Əkbər". Bədəvi barmaqları ilə zikr edə-edə getdi. Sonra nəsə fikirləşib geri qayıtdı. Peyğəmbər sallәllahu aleyhi və sәlləm gülümsəyərək dedi: "Biçarə qul nəsə fikirləşib gəldi". Bədəvi dedi: "Ey Allahın Elçisi! Subhənallah, vəlhəmdulilləh, və lə iləhə illəllah, va Allahu Əkbər" Allah üçündür, bəs mənə nə çatacaq?" Peyğəmbər sallәllahu aleyhi və sәlləm ona dedi: "Ey bədəvi, sən: "subhənallah"- dedikdə, Allah buyurur: "Doğru söylədi". Sən: "əlhəmdulilləh"- dedikdə, Allah buyurur: "Doğru söylədi". Sən: "lə iləhə illəllah"- dedikdə, Allah buyurur: "Doğru

[1100] Tərcüməsi: Qüdrət və güc yalnız Allaha məxsusdur!

[1101] Burada Peyğəmbərin ﷺ cümləyə kəlmə deməsi qeyri-adi bir şey deyildir. Belə ki, ərəbcə bir və ya bundan da artıq cümlələrə "kəlmə" və ya "söz" demək olar. Uca Allah buyurur: ***"Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm". Xeyr! Onun bu dedikləri ancaq boş bir sözdür"*** *(əl-Muminun, 99-100).*

[1102] əl-Buxari, 4205; Muslim, 2704, 6120, 7037.

söylədi". Sən: "Allahu Əkbər"- dedikdə, Allah buyurur: "Doğru söylədi". Sən: "Allahım, məni bağışla!"- dedikdə, Allah buyurur: "Artıq bağışladım!" Sən: "Allahım, mənə rəhm et!"- dedikdə, Allah buyurur: "(Rəhm) etdim!" Sən: "Allahım, məni ruziləndir!"- dedikdə, Allah buyurur: "Artıq (istədiyini) etdim". Bədəvi yeddi barmağı ilə sayarıb sonra getdi".[1103]

٨١٩ - عَنْ سَلْمَى أُمِّ بنِي أَبِي رَافِعٍ ﵂ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ أَنَّهَا قَالَتْ: يَا رَسُولَ اللَّهِ أَخْبِرْنِي بِكَلِمَاتٍ وَلا تُكْثِرْ عَلَيَّ، فَقَالَ:قُولِي: اللَّهُ أَكْبَرُ عَشَرَ مِرَارٍ يَقُولُ اللَّهُ: هَذَا لِي، وَقُولِي سُبْحَانَ اللَّهِ عَشْرَ مِرَارٍ يَقُولُ اللَّهُ: هَذَا لِي، وَقُولِي اللَّهُمَّ اغْفِرْ لِي يَقُولُ: قَدْ فَعَلْتُ، فَتَقُولِينَ عَشْرَ مِرَارٍ وَيَقُولُ: قَدْ فَعَلْتُ.

819. Allah Elçisinin salləllahu aleyhi və səlləm azad etdiyi Səlmə Ummi Bəni Əbu Rafi ﵂ demişdir: "Ey Allahın Elçisi! Mənə uzun olmayan kəlmələr öyrət". Allahın Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "On dəfə: "Allahu Əkbər"- de. Allah buyurar: "Bu Mənim üçündür". On dəfə: "Subhənallah"- de. Allah buyurar: "Bu Mənim üçündür". De: "Allahım, məni bağışla!" Allah buyurar: "Artıq bağışladım". Bunu on dəfə desən, Allah da on dəfə: "Artıq bağışladım"- deyər".[1104]

٨٢٠ - عَنْ عَبْدِ اللَّهِ ﵁ قَالَ: "إِنَّ اللَّهَ ﷻ قَسَمَ بَيْنَكُمْ أَخْلاقَكُمْ كَمَا قَسِمَتْ بَيْنَكُمْ أَرْزَاقَكُمْ، وَإِنَّ اللَّهَ يُعْطِي الْمَالَ مَنْ يُحِبُّ وَمَنْ لا يُحِبُّ، وَلا يُعْطِي الإِيمَانَ إِلا مَنْ يُحِبُّ، فَإِذَا أَحَبَّ اللَّهُ عَبْدًا أَعْطَاهُ الإِيمَانَ، فَمَنْ ضَمِنَ بِالْمَالِ أَنْ يُنْفِقَهُ، وَهَابَ الْعَدُوَّ أَنْ يُجَاهِدَهُ، وَاللَّيْلَ أَنْ يُكَابِدَهُ فَلْيُكْثِرْ مِنْ قَوْلِ لا إِلَهَ إِلا اللَّهُ، وَاللَّهُ أَكْبَرُ، وَالْحَمْدُ لِلَّهِ، وَسُبْحَانَ اللَّهِ".

820. Abdullah ﵁ demişdir: "Uca Allah ruzini sizin aranızda bölüşdürdüyü kimi əxlaqı da sizin aranızda bölüşdürmüşdür. Uca Allah mal-dövləti istədiyinə də, istəmədiyinə də verir. İmanı isə yalnız sevdiyi adama verir. Kim malını xərcləməyə xəsislik etsə, düşmənlə cihad etməkdən qorxsa, gecə olanda həyəcan keçirsə, qoy: "Lə iləhə illəllah, subhənəllah, əlhəmdulilləh, Allahu Əkbər"- kəlmələrini çox desin".[1105]

٨٢١ - عن عبد الله بن عمرو ﵁ عن النبي ﷺ قال خلتان لا يحصيهما رجل مسلم إلا دخل الجنة وهما يسير ومن يعمل

[1103] əl-Beyhəqi "Şuabul-İman" 619; əd-Diya "Əhədisul-Muxtəra" 1613. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3336) səhih adlandırıb.

[1104] ət-Tabərani "Mucəmul-Kəbir" 766, 20222. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1566) səhih li-ğeyrihi adlandırıb.

[1105] ət-Tabərani "Mucəmul-Kəbir" 8897, 8990. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1571) səhih olduğunu bildirmişdir.

بهما قليل قيل وما هما يا رسول الله قال يكبر أحدكم في دبر كل صلاة عشرا ويحمد عشرا ويسبح عشرا فذلك خمسون ومائة على اللسان وألف وخمسمائة في الميزان فرأيت النبي ﷺ يعدهن بيده وإذا أوى إلى فراشه سبحه وحمده وكبره فتلك مائة على اللسان وألف في الميزان فأيكم يعمل في اليوم والليلة ألفين وخمسمائة سيئة قيل يا رسول الله كيف لا يحصيهما قال يأتي أحدكم الشيطان في صلاته فيذكره حاجة كذا وكذا فلا يذكره ...قَالَ «يَأْتِى أَحَدَكُمْ - يَعْنِى الشَّيْطَانَ - فِى مَنَامِهِ فَيُنَوِّمُهُ قَبْلَ أَنْ يَقُولَهُ وَيَأْتِيهِ فِى صَلاَتِهِ فَيُذَكِّرُهُ حَاجَةً قَبْلَ أَنْ يَقُولَهَا».

821. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm dedi: "İki xislət vardır ki, onlara daim əməl edən müsəlman kimsə mütləq Cənnətə girər. Bu iki şey çox asan şeylərdir, lakin onlara əməl edən çox azdır". Soruşdular: "Bu iki şey nədir, ey Allahın Elçisi?" O dedi: "Qoy sizdən hər biriniz hər namazın sonunda on dəfə "Allahu Əkbər", on dəfə "Əlhəmdulilləh" və on dəfə "Subhənallah" desin. Bu deyilənlər dildə yüz əllidir, tərəzidə isə min beş yüzdür". Mən Allah Elçisinin sallәllahu aleyhi və sәllәm bunları barmaqları ilə saydığını gördüm. (İkinci xislət: Qoy sizdən hər biriniz) yatağına girdiyi zaman (otuz üç dəfə) "Subhənəllah", (otuz üç dəfə) "Əlhəmdulilləh" və (otuz dörd dəfə) "Allahu Əkbər" desin. Bu deyilənlər dildə yüzdür, tərəzidə isə mindir. Elə isə sizdən hansı biriniz gecə-gündüz iki min beş yüz günah iş görür?" (Səhabələrdən biri) dedi: "Ey Allahın Elçisi! Necə ola bilər ki, adam bunlara daim əməl etməsin?" O dedi: "Sizdən biriniz namaz qılarkən şeytan gəlib ona filan və filan işi xatırladar və o, bunları zikr etməz".[1106] Digər rəvayətdə belə əlavə vardır: "Şeytan biriniz yatarkən yanına gəlib təsbih etmədən yatızdırır. Həmçinin, namazında gəlib təsbih etmədən əvvəl bir ehtiyacını xatırladır".[1107]

٨٢٢ - الْحَارِثَ مَوْلَى عُثْمَانَ يَقُولُ جَلَسَ عُثْمَانُ يَوْماً وَجَلَسْنَا مَعَهُ فَجَاءَهُ الْمُؤَذِّنُ فَدَعَا بِمَاءٍ فِى إِنَاءٍ أَظُنُّهُ سَيَكُونُ فِيهِ مُدٌّ فَتَوَضَّأَ ثُمَّ قَالَ رَأَيْتُ رَسُو لَ اللَّهِ ﷺ يَتَوَضَّأُ وُضُوئِى هَذَا ثُمَّ قَالَ «وَمَنْ تَوَضَّأَ وُضُوئِى ثُمَّ قَامَ فَصَلَّى صَلاَةَ الظُّهْرِ غُفِرَ لَهُ مَا كَانَ بَيْنَهَا وَبَيْنَ الصُّبْحِ ثُمَّ صَلَّى الْعَصْرَ غُفِرَ لَهُ مَا بَيْنَهَا وَبَيْنَ صَلاَةِ الظُّهْرِ ثُمَّ صَلَّى الْمَغْرِبَ غُفِرَ لَهُ مَا بَيْنَهَا وَبَيْنَ صَلاَةِ الْعَصْرِ ثُمَّ صَلَّى الْعِشَاءَ غُفِرَ لَهُ مَا بَيْنَهَا وَبَيْنَ صَلاَةِ الْمَغْرِبِ ثُمَّ لَعَلَّهُ أَنْ يَبِيتَ يَتَمَرَّغُ لَيْلَتَهُ ثُمَّ إِنْ قَامَ فَتَوَضَّأَ وَصَلَّى الصُّبْحَ غُفِرَ لَهُ مَا بَيْنَهَا وَبَيْنَ صَلاَةِ الْعِشَاءِ وَهُنَّ الْحَسَنَاتُ يُذْهِبْنَ السَّيِّئَاتِ». قَالُوا هَذِهِ الْحَسَنَاتُ فَمَا الْبَاقِيَاتُ الصَّالِحَاتُ يَا عُثْمَانُ قَالَ هُنَّ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَسُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَاللَّهُ أَكْبَرُ وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ.

822. Osmanın ﷺ azad etdiyi köləsi əl-Haris demişdir: "Bir gün Osman oturdu, biz də onunla oturduq. Sonra müəzzin onun yanına gəldi və

[1106] əl-Buxari "Ədəbul-Mufrad" 1216. əl-Albani səhih olduğunu bildirmişdir.
[1107] Əbu Davud, 5065, 5067; İbn Hibban, 2018. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

Osman bir qab su istədi. Mən güman edirəm ki, qabda bir mudd[1108] su var idi. O dəstəmaz aldı və buyurdu: "Allah Elçisinin sallallahu aleyhi və səlləm mənim dəstəmaz aldığım kimi dəstəmaz aldığını gördüm. Sonra o buyurdu: "Kim mənim aldığım kimi dəstəmaz alar və Zöhr namazını qılar, Sübh namazı ilə Zöhr namazı arasında etdiyi günahları bağışlanar. Sonra Əsr namazını qılarsa, Zöhr ilə Əsr arası etdiyi günahları bağışlanar. Məğrib namazını qılarsa, Əsrlə Məğrib arası etdiyi günahları bağışlanar. İşa namazını qılarsa, Məğriblə İşa arası etdiyi günahları bağışlanar. Bunlar pis əməlləri silib aparan yaxşı işlərdir". Dedilər: "Ey Osman, bu yaxşılıqlardır, bəs əbədi qalan yaxşılıqlar hansılardır?" Osman ﷺ dedi: "Onlar "Lə iləhə illəllah", "Subhənallah", "Əlhəmdulilləh", "Allahu Əkbər" və "Lə həulə və lə quvvətə illə billəhdir".[1109]

٨٢٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «لأَنْ أَقُولَ سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ أَحَبُّ إِلَيَّ مِمَّا طَلَعَتْ عَلَيْهِ الشَّمْسُ»

823. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Subhənəllahi, vəlhəmdulilləhi, və lə iləhə illəllahu, və Allahu Əkbər"- deməyim, mənim üçün günəşin üzərinə doğduğu hər şeydən daha sevimlidir".[1110]

٨٢٤ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: رَأَنِي النَّبِيُّ ﷺ وَأَنَا أُحَرِّكُ شَفَتَيَّ، فَقَالَ :«مَا تَقُوْلُ يَا أَبَا أُمَامَةَ؟». قُلْتُ: أَذْكُرُ اللهَ، قَالَ: «أَفَلاَ أَدُلُّكَ عَلَى مَا هُوَ أَكْثَرُ مِنْ ذِكْرِكَ اللهُ اللَّيْلَ مَعَ النَّهَار، تَقُولُ: الْحَمْدُ للهِ عَدَدَ مَا خَلَقَ، وَالْحَمْدُ للهِ مِلءَ مَا خَلَقْ، وَالْحَمْدُ للهِ عَدَدَ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْض، وَالْحَمْدُ للهِ عَدَدَ مَا أَحْصَى كِتَابهُ، وَالْحَمْدُ للهِ مَلءَ مَا أَحْصَى كِتَابهُ، وَالْحَمْدُ للهِ عَدَدَ كُلِّ شَيْءٍ، وَالْحَمْدُ للهِ مِلءَ كُلِّ شَيْءٍ، وَتُسَبِّحُ اللهَ مِثْلَهُنَّ». ثُمَّ قَالَ: «تُعَلِّمُهُنَّ عَقِبَكَ مِنْ بَعْدِكَ».

824. Rəvayət edilir ki, Əbu Umamə ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər sallallahu aleyhi və səlləm mənim dodaqlarımı tərpətdiyimi görüb buyurdu: "Nə söyləyirsən, ey Əbu Umamə?" Mən dedim: "Allahı zikr edirəm". O buyurdu: "Gecə-gündüz Allahı zikr etməyindən daha çox (savabı olan) bir şeyi sənə öyrədimmi? De: "Əlhəmdulilləhi adədə mə xaləqa, vəlhəmdulilləhi mil'ə mə xaləqa, vəlhəmdulilləhi adədə mə fis-səməvəti və mə fil-

[1108] Bir mudd 0,688 litrə bərabərdir.
[1109] Əhməd, 513, 523. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.
[1110] ət-Tirmizi, 3597, 3946. əl-Albani səhih olduğunu bildirmişdir.

ardı, vəlhəmdulilləhi adədə mə əhsa kitəbuhu, vəlhəmdulilləhi mil'ə mə əhsa kitəbuhu, vəlhəmdulilləhi adədə kulli şeyin, vəlhəmdulilləhi mil'ə kulli şeyin[1111]"- və bu qaydada "subhənallahi..." de. Özündən sonra gələn zürriyyətinə də öyrət!"[1112]

٨٢٥ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ مَرَّ بِشَجَرَةٍ يَابِسَةِ الْوَرَقِ فَضَرَبَهَا بِعَصَاهُ فَتَنَاثَرَ الْوَرَقُ، فَقَالَ: «إِنَّ الْحَمْدَ للهِ وَسُبْحَانَ اللهِ وَلاَ إِلَهَ إِلاَّ اللهُ وَاللهُ اكْبَرُ، لَتُسَاقِطُ مِنْ ذُنُوبِ الْعَبْدِ، كَمَا تَسَاقَطَ وَرَقُ هَذِهِ الشَّجَرَةِ».

825. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, (bir dəfə) Allah Elçisi salləllahu aleyhi və səlləm yarpaqları qurumuş bir ağacın yanından keçərkən əsa ilə ağaca vurdu və onun yarpaqları yerə töküldü. O buyurdu: "Həqiqətən, "əlhəmdulilləh, subhənəllah, lə iləhə illəllah və Allahu Əkbər" sözləri, bu ağacın yarpaqları töküldüyü kimi qulun günahlarını tökür".[1113]

٨٢٦ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا عَلَى الأَرْضِ رَجُلٌ يَقُولُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ وَسُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ إِلاَّ كُفِّرَتْ عَنْهُ ذُنُوبُهُ وَلَوْ كَانَتْ أَكْثَرَ مِنْ زَبَدِ الْبَحْرِ».

826. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Yer üzərində olan bir kimsə: "Lə iləhə illəllah, və Allahu Əkbər, və subhənallah, vəlhəmdulilləh, və lə həulə və lə quvvətə illə billəh[1114]"- deyərsə, günahları dənizin köpüyü qədər çox olsa belə silinər".[1115]

٨٢٧ - عَنِ ابْنِ عُمَرَ ﷺ أَنَّ رَجُلاً رَأَى فِيمَا يَرَى النَّائِمُ قِيلَ لَهُ بِأَيِّ شَيْءٍ أَمَرَكُمْ نَبِيُّكُمْ ﷺ قَالَ أَمَرَنَا أَنْ نُسَبِّحَ ثَلاَثًا وَثَلاَثِينَ وَنَحْمَدَ ثَلاَثًا وَثَلاَثِينَ وَنُكَبِّرَ أَرْبَعًا وَثَلاَثِينَ فَتِلْكَ مِائَةٌ. قَالَ سَبِّحُوا خَمْسًا وَعِشْرِينَ وَاحْمَدُوا خَمْسًا وَعِشْرِينَ وَكَبِّرُوا خَمْسًا وَعِشْرِينَ وَهَلِّلُوا خَمْسًا وَعِشْرِينَ فَتِلْكَ مِائَةٌ فَلَمَّا أَصْبَحَ ذَكَرَ ذَلِكَ لِلنَّبِيِّ ﷺ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «افْعَلُوا كَمَا قَالَ الأَنْصَارِيُّ».

[1111] Tərcüməsi: Yaratdıqlarının sayı qədər Allaha həmd olsun! Yaratdıqlarının sayının çoxluğu qədər Allaha həmd olsun! Göydə və yerdə olanların sayı qədər Allaha Həmd olsun! Kitabının saydığı qədər Allaha həmd olsun! Kitabının saydığının çoxluğu qədər Allaha həmd olsun! Hər şeyin sayı qədər Allaha həmd olsun! Hər şeyin sayının çoxluğu qədər Allaha həmd olsun!

[1112] Əhməd, 22198; ət-Tabərani "Mucəmul-Kəbir" 7930. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1615) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2578) səhih olduğunu bildirmişdir.

[1113] ət-Tirmizi, 3533, 3876. əl-Albani həsən olduğunu bildirmişdir.

[1114] Tərcüməsi: Allahdan başqa haqq ilah yoxdur, Allah ən böyükdür, Allah pak və müqəddəsdir, Həmd Allaha məxsusdur, qüdrət və güc yalnız Allahdadır!

[1115] ət-Tirmizi, 3460, 3794. əl-Albani həsən olduğunu söyləmişdir.

827. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, bir kişiyə yuxuda belə deyildi: “Peyğəmbəriniz sizə nəyi əmr etdi?” O da belə cavab verdi: “Otuz üç dəfə “subhənallah”, otuz üç dəfə “Əlhəmdulilləh”, otuz dörd dəfə “Allahu Əkbər” deməyimizi əmr etdi. Bununla sayı yüz olur”. Adam dedi: “İyirmi beş dəfə “subhənallah”, iyirmi beş dəfə “Əlhəmdulilləh”, iyirmi beş dəfə “Allahu Əkbər”, iyirmi beş dəfə də “Lə iləhə illəllah” deyin ki, yüz olsun!” Səhər açıldıqda, o, bunu Peyğəmbərə sallәllahu aleyhi və səlləm danışdı. Allah Elçisi sallәllahu aleyhi və səlləm də belə buyurdu: “Ənsarın dediyi kimi edin!”[1116]

٨٢٨ - عَنْ أَبِى سَعِيدٍ الْخُدْرِىِّ وَأَبِى هُرَيْرَةَ رضي الله عنهما أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «إِنَّ اللَّهَ اصْطَفَى مِنَ الْكَلاَمِ أَرْبَعاً سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ فَمَنْ قَالَ سُبْحَانَ اللَّهِ كَتَبَ اللَّهُ لَهُ عِشْرِينَ حَسَنَةً أَوْ حَطَّ عَنْهُ عِشْرِينَ سَيِّئَةً وَمَنْ قَالَ اللَّهُ أَكْبَرُ فَمِثْلُ ذَلِكَ وَمَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ فَمِثْلُ ذَلِكَ وَمَنْ قَالَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ مِنْ قِبَلِ نَفْسِهِ كُتِبَتْ لَهُ ثَلاَثُونَ حَسَنَةً وَحُطَّ عَنْهُ ثَلاَثُونَ سَيِّئَةً».

828. Əbu Səid əl-Xudri və Əbu Hureyra رضي الله عنهما rəvayət edirlər ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm belə buyurmuşdur: “Allah kəlmələrdən dördünü seçdi: “Subhənəllah, əlhəmdulilləh, lə iləhə illəllah, Allahu Əkbər”. Kim “Subhənəllah”- deyərsə, Allah ona iyirmi savab yazar və iyirmi günahını silər. Kim “Allahu Əkbər”- deyərsə, eynilə olar. Kim “Lə iləhə illəllah”- deyərsə, eynilə olar. Kim ürəkdən “Aləmlərin Rəbbi olan Allaha həmd olsun (Əlhəmdulilləhi Rabbil-aləmin)”- deyərsə, ona otuz savab yazılar və otuz günahı silinər”.[1117]

٨٢٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ، عَنِ النَّبِيِّ ﷺ، قَالَ :"مَا أَهَلَّ مُهِلٌّ قَطُّ وَلا كَبَّرَ مُكَبِّرٌ قَطُّ إِلا بُشِّرَ بِالْجَنَّةِ

829. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurmuşdur: “Lə iləhə illəllah” və “Allahu Əkbər” deyən elə bir kəs yoxdur ki, Cənnətlə müjdələnməsin”.[1118]

٨٣٠ - عَنْ عَائِشَةَ رضي الله عنها تَقُولُ إِنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «إِنَّهُ خُلِقَ كُلُّ إِنْسَانٍ مِنْ بَنِى آدَمَ عَلَى سِتِّينَ وَثَلاَثِمِائَةِ مَفْصِلٍ فَمَنْ كَبَّرَ اللَّهَ وَحَمِدَ اللَّهَ وَهَلَّلَ اللَّهَ وَسَبَّحَ اللَّهَ وَاسْتَغْفَرَ اللَّهَ وَعَزَلَ حَجَرًا عَنْ طَرِيقِ النَّاسِ أَوْ شَوْكَةً أَوْ عَظْمًا عَنْ طَرِيقِ النَّاسِ وَأَمَرَ بِمَعْرُوفٍ أَوْ نَهَى عَنْ مُنْكَرٍ عَدَدَ تِلْكَ السِّتِّينَ وَالثَّلاَثِمِائَةِ السُّلاَمَى فَإِنَّهُ يَمْشِى يَوْمَئِذٍ وَقَدْ زَحْزَحَ نَفْسَهُ عَنِ

[1116] ən-Nəsəi, 1351, 1359. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[1117] Əhməd, 7999, 11610. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 1718) səhih olduğunu bildirmişdir.

[1118] ət-Tabərani “Mucəmul-Kəbir” 974. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 5569) həsən olduğunu qeyd etmişdir.

النَّارِ». قَالَ أَبُو تَوْبَةَ وَرُبَّمَا قَالَ «يُمْسِى».

830. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: “Həqiqətən, Adəm oğullarından olan hər bir insanda üç yüz altmış oynaq yaradılmışdır. Kim üç yüz altmış oynağın sayı qədər “Allahu Əkbər”, “Əlhəmdulilləh”, “Lə iləhə illəllah”, “Subhənəllah” desə, Allahdan bağışlanma diləsə, daşı və ya tikanı, ya da sümüyü insanların yolundan kənar etsə, yaxşı işləri əmr edib pis işlərdən çəkindirsə, o gün o, özünü Cəhənnəmdən uzaqlaşdırılaraq gəzər”. Əbu Talhə ﵁ belə dedi: “Bəlkə də: “Uzaqlaşdırılaraq gecələyər”- demişdir”.[1119]

٨٣١ - عَنْ أَبِي ذَرٍّ ﵁ أَنَّ نَاسًا مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ قَالُوا لِلنَّبِيِّ ﷺ يَا رَسُولَ اللَّهِ ذَهَبَ أَهْلُ الدُّثُورِ بِالْأُجُورِ يُصَلُّونَ كَمَا نُصَلِّي وَيَصُومُونَ كَمَا نَصُومُ وَيَتَصَدَّقُونَ بِفُضُولِ أَمْوَالِهِمْ قَالَ أَوَ لَيْسَ قَدْ جَعَلَ اللَّهُ لَكُمْ مَا تَصَّدَّقُونَ إِنَّ بِكُلِّ تَسْبِيحَةٍ صَدَقَةً وَكُلِّ تَكْبِيرَةٍ صَدَقَةً وَكُلِّ تَحْمِيدَةٍ صَدَقَةً وَكُلِّ تَهْلِيلَةٍ صَدَقَةً وَأَمْرٌ بِالْمَعْرُوفِ صَدَقَةٌ وَنَهْيٌ عَنْ مُنْكَرٍ صَدَقَةٌ وَفِي بُضْعِ أَحَدِكُمْ صَدَقَةٌ قَالُوا يَا رَسُولَ اللَّهِ أَيَأْتِي أَحَدُنَا شَهْوَتَهُ وَيَكُونُ لَهُ فِيهَا أَجْرٌ قَالَ أَرَأَيْتُمْ لَوْ وَضَعَهَا فِي حَرَامٍ أَكَانَ عَلَيْهِ فِيهَا وِزْرٌ فَكَذَلِكَ إِذَا وَضَعَهَا فِي الْحَلَالِ كَانَ لَهُ أَجْرًا

831. Əbu Zərr ﵁ rəvayət edildiyinə görə, səhabələrdən olan bir dəstə insan Allah Elçisinə sallәllahu aleyhi və sәllәm dedilər: “Ey Allahın Elçisi! Sərvət sahibləri çoxlu savab qazanırlar. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur və həm də mallarının artıq olanını sədəqə verirlər”. Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: “Məgər Allah sizin üçün sədəqələr təyin etməyibmi? Həqiqətən, hər təsbih (Subhənəllah) sədəqədir, hər təkbir (Allahu Əkbər) sədəqədir, hər təhmid (Əlhəmdulilləh) sədəqədir və hər təhlil (Lə iləhə illəllah) sədəqədir. Yaxşılığı əmr etmək və pislikdən çəkindirmək də sədəqədir. Hətta sizdən birinizin (zövcəsilə) yaxınlıq etməsində sədəqə əcri vardır”. Dedilər: “Ey Allahın Elçisi! Birimiz öz şəhvətinin istədiyini yerinə yetirərkən əcr qazanmış olur?” Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: “Söyləyin görüm!? O kimsə şəhvətinin istədiyini haram ilə yerinə yetirərsə ona günah olmayacaqdımı? Eləcə də şəhvətinin istədiyini halal ilə yerinə yetirərsə əcr qazanmış olur”.[1120]

٨٣٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ قَالَ النَّبِيُّ ﷺ قال ذات يوم لجلسائه خذوا جنتكم قالوا بأبينا أنت وأمنا يا رسول الله أحضر عدو قال خذوا خُذُوا جُنَّتَكُمْ مِنَ النَّارِ قُولُوا سُبْحانَ الله والحَمْدُ لله ولا إله إلا الله والله أَكْبَرُ فإِنَّهُنَّ يأْتِينَ يَوْمَ

[1119] Muslim, 1007, 2377.
[1120] Muslim, 1006, 2376.

القِيامَةِ مُقَدِّماتٍ ومُعَقِّباتٍ ومُجنِباتٍ وهُنَّ الباقِياتُ الصَّالِحاتُ

832. Əbu Hureyra ﷺ demişdir: “Bir gün Allah Elçisi sallallahu aleyhi və səlləm yanında oturanlara buyurdu: “Qalxanınızı götürün!” Onlar dedilər: “Ata-anamız sənə fəda olsun, ey Allahın Elçisi, düşmən gəlir?” O buyurdu: “Götürün, götürün oda qarşı qalxanınızı! Deyin: “Subhənəllah, vəlhəmdulilləh, lə iləhə illəllah, Allahu Əkbər”. Bunlar Qiyamət günü öndən, arxadan və yanlardan qoruyan olaraq gələcəklər. Əbədi qalacaq saleh əməllər də elə bunlardır”.[1121]

٨٣٣ - عَنْ أَبِى سَلاَّمٍ عَنْ مَوْلًى لِرَسُولِ اللَّهِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «بَخٍ بَخٍ لِخَمْسٍ مَا أَثْقَلَهُنَّ فِى الْمِيزَانِ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ وَسُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَالْوَلَدُ الصَّالِحُ يُتَوَفَّى فَيَحْتَسِبُهُ وَالِدُهُ». وَقَالَ «بَخٍ بَخٍ لِخَمْسٍ مَنْ لَقِىَ اللَّهَ ﷻ مُسْتَيْقِناً بِهِنَّ دَخَلَ الْجَنَّةَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ وَبِالْجَنَّةِ وَالنَّارِ وَبِالْبَعْثِ بَعْدَ الْمَوْتِ وَالْحِسَابِ». «...مَنْ شَهِدَ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ وَأَيْقَنَ بِالْمَوْتِ وَالْبَعْثِ وَالْحِسَابِ».

833. Allah Elçisinin sallallahu aleyhi və səlləm azad etdiyi köləsi Əbu Səlləm ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Beş şeyə afərin olsun! Onlar Mizan-tərəzidə necə də ağırdırlar: “Lə iləhə illəllah, Allahu Əkbər, subhənallah, əlhəmdulilləh və əməlisaleh övladının ölümünə Allahdan savab umaraq səbr edən valideyn!” Sonra buyurdu: “Həmçinin, beş şeyə də afərin olsun! Kim bu beş şeyə yəqinliklə inanaraq Allahla ﷻ görüşərsə, Cənnətə daxil olar: Allaha, Axirət gününə, Cənnətə, Cəhənnəmə, ölümdən sonra dirilməyə və haqq-hesab (olunmağa) iman etmək”.[1122] Digər rəvayətdə deyilir: “Allahdan başqa haqq ilahın olmadığına və Muhəmmədin Allahın qulu və elçisi olduğuna şəhadət verən, ölümə, ölümdən sonra dirilməyə və haqq-hesab olunmağa yəqinliklə inanan...”.[1123]

٨٣٤ - عَنْ عَبْدِ اللَّهِ بْنِ أَبِى أَوْفَى ﷺ قَالَ: جَاءَ رَجُلٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: إِنِّى لاَ أُحْسِنُ الْقُرْآنَ، فَعَلِّمْنِى شَيْئًا يُجْزِينِى مِنَ الْقُرْآنِ. قَالَ: «الْحَمْدُ لِلَّهِ وَسُبْحَانَ اللَّهِ، وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ». فَلَمَّا عَقَدَ عَلَيْهِنَّ قَالَ: يَا رَسُولَ اللَّهِ هَذِهِ لِرَبِّى، فَمَاذَا أَقُولُ لِنَفْسِى؟ قَالَ: «قُلِ اللَّهُمَّ اغْفِرْ لِى وَارْحَمْنِى وَاهْدِنِى وَارْزُقْنِى وَعَافِنِى». قَالَ: فَقَبَضَ عَلَيْهِنَّ ثُمَّ وَلَّى فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «قَدْ مَلأَ هَذَا يَدَيْهِ مِنَ الْخَيْرِ».

[1121] ət-Təbərani “Mucəmul-Əvsat” 3179. əl-Albani "Sahihul-Cəmius-Sağir”də (№ 3214) səhih olduğunu bildirmişdir.

[1122] Əhməd, 18101, 18563. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

[1123] Əhməd, 23149, 23801. Şueyb əl-Arnavut səhih olduğunu bildirmişdir.

834. İbn Əbu Əvfə ﷺ demişdir: “Bir kişi Allah Elçisinin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: “Ey Allahın Elçisi, mən Quranı yaxşı oxuya bilmirəm. Mənə Quranı əvəz edəcək bir şey öyrət!” O buyurdu: “De: “Subhənallah, əlhəmdulilləh, lə iləhə illəllah, Allahu Əkbər”. Bədəvi barmaqlarını qatlayaraq bu sözləri dedi və soruşdu: “Ey Allahın Elçisi, bu, Rəbbim üçündür, bəs mənim üçün nədir?” O buyurdu: “De: “Allahummə ğfirli, vərhəmni, vahdini, varzuqni, vəafini![1124]” (Bədəvi çıxıb getdi) və Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Bədəvi, əlləri xeyirlə dolu olduğu halda getdi”.[1125]

٨٣٥ - عَنْ سَمُرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ أَفْضَلُ الْكَلَامِ بَعْدَ الْقُرْآنِ أَرْبَعٌ وَهِيَ مِنْ الْقُرْآنِ لَا يَضُرُّكَ بِأَيِّهِنَّ بَدَأْتَ سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلَا إِلَهَ إِلَّا اللَّهُ وَاللَّهُ أَكْبَرُ

835. Səmurə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Qurandan sonra ən fəzilətli kəlmələr bu dörd kəlmədir. Bu kəlmələr Qurandan sayılır, hansı birisi ilə başlamağının sənə zərəri yoxdur: “Subhənallah, əlhəmdulilləh, lə iləhə illəllah və Allahu Əkbər”.[1126]

٨٣٦ - عَنْ أُمِّ هَانِئٍ بِنْتِ أَبِي طَالِبٍ ﷺ قَالَ قَالَتْ مَرَّ بِي ذَاتَ يَوْمٍ رَسُولُ اللَّهِ ﷺ فَقُلْتُ يَا رَسُولَ اللَّهِ إِنِّي قَدْ كَبِرْتُ وَضَعُفْتُ – أَوْ كَمَا قَالَتْ – فَمُرْنِي بِعَمَلٍ أَعْمَلُهُ وَأَنَا جَالِسَةٌ. قَالَ «سَبِّحِي اللَّهَ مِائَةَ تَسْبِيحَةٍ فَإِنَّهَا تَعْدِلُ لَكِ مِائَةَ رَقَبَةٍ تُعْتِقِيهَا مِنْ وَلَدِ إِسْمَاعِيلَ وَاحْمَدِي اللَّهَ مِائَةَ تَحْمِيدَةٍ تَعْدِلُ لَكِ مِائَةَ فَرَسٍ مُسْرَجَةٍ مُلْجَمَةٍ تَحْمِلِينَ عَلَيْهَا فِي سَبِيلِ اللَّهِ وَكَبِّرِي اللَّهَ مِائَةَ تَكْبِيرَةٍ فَإِنَّهَا تَعْدِلُ لَكِ مِائَةَ بَدَنَةٍ مُقَلَّدَةٍ مُتَقَبَّلَةٍ وَهَلِّلِي اللَّهَ مِائَةَ تَهْلِيلَةٍ – قَالَ ابْنُ خَلَفٍ أَحْسِبُهُ قَالَ – تَمْلأُ مَا بَيْنَ السَّمَاءِ وَالأَرْضِ وَلاَ يُرْفَعُ يَوْمَئِذٍ لأَحَدٍ عَمَلٌ إِلاَّ أَنْ يَأْتِيَ بِمِثْلِ مَا أَتَيْتِ بِهِ».

836. Ummu Həni bint Əbu Talib ﷺ rəvayət edir ki, bir gün Allah Elçisi sallallahu aleyhi və səlləm yanıma gəldi. Mən dedim: “Ey Allahın Elçisi, qocalmışam, taqətim qalmayıb. Oturduğum halda bir əməl etməyi mənə tövsiyə et”. O buyurdu: “Yüz dəfə “Subhənəllah” de, çünki belə deməyin, sənin üçün İsmayıl övladından yüz köləni azad etməyə bərabərdir. Yüz dəfə “Əlhəmdulilləh” de, çünki belə deməyin sənin üçün belinə yəhər, ağzına noxta vurulmuş yüz atı Allah yolunda istifadə etməyə bərabərdir. Yüz dəfə “Allahu Əkbər” de, çünki belə deməyin sənin üçün qurban edilməyə

[1124] Tərcüməsi: Allahım, məni bağışla, mənə rəhm et, mənə salamatlıq nəsib et, mənə ruzi və hidayət ver!

[1125] əl-Beyhəqi “Sunənul-Kubra” 4147. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 1561) həsən olduğunu bildirmişdir.

[1126] Əhməd, 20236, 20223. Şueyb əl-Arnavut hədisin isnadını səhih olduğunu bildirmişdir.

təqdim olunan və Allah tərəfindən qəbul olunan yüz dəvəyə bərabərdir. Yüz dəfə "lə iləhə illəllah" de!" İbn Xələf dedi: "Zənnimcə Allah Elçisi sallәllahu aleyhi və səlləm belə demişdir: "O, göy ilə yer arasındakı məsafəni doldurur. Həmin gün sənin etdiyin əməlin mislini edən istisna olmaqla, Allah qatında daha üstün əməl olmaz".[1127]

HANSI KƏLMƏLƏRƏ GÖRƏ CƏNNƏTDƏ AĞAC ƏKİLİR

٨٣٧ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ بِهِ وَهُوَ يَغْرِسُ غَرْسًا فَقَالَ: «يَا أَبَا هُرَيْرَةَ مَا الَّذِى تَغْرِسُ؟». قُلْتُ: غِرَاسًا لِى. قَالَ: «أَلاَ أَدُلُّكَ عَلَى غِرَاسٍ خَيْرٍ لَكَ مِنْ هَذَا؟». قَالَ: بَلَى يَا رَسُولَ اللَّهِ. قَالَ: «قُلْ: سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ، يُغْرَسْ لَكَ بِكُلِّ وَاحِدَةٍ شَجَرَةٌ فِى الْجَنَّةِ».

837. Əbu Hureyra ﷺ rəvayət edir ki, o, ağac əkərkən Allah Elçisi sallәllahu aleyhi və səlləm onun yanından keçərək belə buyurdu: "Ey Əbu Hureyra, əkdiyin nədir?" Əbu Hureyra ﷺ dedi: "Özüm üçün ağac əkirəm". Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurdu: "Sənin üçün bundan daha xeyirli əkiləcək ağac göstərim?" Əbu Hureyra ﷺ dedi: "Göstər, ey Allahın Elçisi!" Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurdu: "De: "Subhənəllah, əlhəmdulilləh, lə iləhə illəllah, Allahu Əkbər! (Belə desən) hər kəlməyə görə Cənnətdə sənin üçün bir ağac əkilər".[1128]

٨٣٨ - عَنْ جَابِرٍ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ «مَنْ قَالَ سُبْحَانَ اللَّهِ الْعَظِيمِ وَبِحَمْدِهِ. غُرِسَتْ لَهُ نَخْلَةٌ فِى الْجَنَّةِ».

838. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurmuşdur: "Kim: "Subhənəllahil-Azimi və bihəmdihi[1129]"- deyərsə, onun üçün Cənnətdə bir xurma ağacı əkilər".[1130]

٨٣٩ - عَنْ جَابِرٍ ﷺ: أَنَّ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ قَالَ: سُبْحَانَ اللهِ الْعَظِيمَ غُرِسَ لَهُ شَجَرَة فِي الْجَنَّةِ».

839. Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm demişdir: "Kim: "Subhənəllahil-Azim[1131]"- deyərsə, Cənnətdə onun üçün bir ağac əkilər".[1132]

[1127] Əhməd, 26956, 27670. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1316) həsən olduğunu bildirib.
[1128] İbn Məcə, 3807, 3939. əl-Albani səhih olduğunu bildirmişdir.
[1129] Tərcüməsi: Böyük Allah pak və müqəddəsdir, həmd Ona məxsusdur!
[1130] ət-Tirmizi, 3464, 3800. əl-Albani səhih olduğunu bildirmişdir.
[1131] Tərcüməsi: Əzəmətli Allah pak və müqəddəsdir.

٨٤٠ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَكْثِرُوا مِنْ غِرَسِ الْجَنَّةِ فَإِنَّهُ عَذْبٌ مَاؤُهَا، طَيِّبٌ تُرَابُهَا، فَأَكْثِرُوا مِنْ غِرَاسِهَا: لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ».

840. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Cənnətin bitkilərini çoxaldın! Həqiqətən, onun suyu şirin, torpağı isə xoşagəlimlidir. Elə isə "lə həulə və lə quvvətə illə billəh[1133]" (deməklə) onun bitkilərini çoxaldın!"[1134]

YÜZ TƏSBİHƏ MİN SAVAB!

٨٤١ - حَدَّثَنِي مُصْعَبُ بْنُ سَعْدٍ عَنْ أَبِيهِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ لِجُلَسَائِهِ «أَيَعْجِزُ أَحَدُكُمْ أَنْ يَكْسِبَ أَلْفَ حَسَنَةٍ». فَسَأَلَهُ سَائِلٌ مِنْ جُلَسَائِهِ كَيْفَ يَكْسِبُ أَحَدُنَا أَلْفَ حَسَنَةٍ قَالَ «يُسَبِّحُ أَحَدُكُمْ مِائَةَ تَسْبِيحَةٍ تُكْتَبُ لَهُ أَلْفُ حَسَنَةٍ وَتُحَطُّ عَنْهُ أَلْفُ سَيِّئَةٍ».

841. Musab ibn Səd atasından ﷺ rəvayət edərək belə demişdir: "Allah Elçisi sallallahu aleyhi və səlləm yanında oturanlara buyurdu: "Sizdən biriniz min savab qazanmağa acizsiniz?" Yanında oturanlardan biri soruşdu: "Biz min savabı necə qazana bilərik?" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Biriniz yüz dəfə "təsbih" (Subhənallah demək) etdikdə, onun üçün min savab yazılar və min günahı silinər".[1135]

TƏSBİH, TƏHLİL VƏ TƏHMİD – ƏRŞİN ƏTRAFINDA

٨٤٢ - عَنِ النُّعْمَانِ بْنِ بَشِيرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ مِمَّا تَذْكُرُونَ مِنْ جَلاَلِ اللهِ التَّسْبِيحَ وَالتَّهْلِيلَ وَالتَّحْمِيدَ، يَنْعَطِفْنَ حَولَ الْعَرْشِ، لَهُنَّ دَوِيٌّ كَدَوِيِّ النَّحْلِ، تُذَكِّرُ بِصَاحِبِهَا، أَمَا يُحِبُّ أَحَدُكُمْ أَنْ يَكُونَ لَهُ أَوْ: لاَ يَزَالُ لَهُ مَنْ يُذَكِّرُ بِهِ».

842. Numan ibn Bəşir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Həqiqətən, söylədiyiniz təsbih (Subhənallah), təhlil (Lə iləhə illəllah) və təhmid (Əlhəmdulilləh) kəlmələri Allahın ucalığını ifadə edən zikrlərdir. Onlar Ərşin ətrafında fırlanır, bal arısının vızıltısı kimi

---

1132 İbn Hibban, 824. əl-Albani səhih olduğunu bildirmişdir.

1133 Tərcüməsi: Qüdrət və güc yalnız Allahdadır.

1134 ət-Tabərani "Mucəmul-Kəbir" 13354. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1213) həsən olduğunu bildirmişdir.

1135 ət-Tirmizi, 3463, 3799. əl-Albani səhih olduğunu bildirmişdir.

səsləri olur və öz sahiblərini yad edirlər. Sizdən biri onu yad edən bir kimsənin olmasını istəməzmi?”[1136]

RAHMƏNƏ SEVİMLİ OLAN KƏLMƏLƏR

٨٤٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ كَلِمَتَانِ حَبِيبَتَانِ إِلَى الرَّحْمَنِ خَفِيفَتَانِ عَلَى اللِّسَانِ ثَقِيلَتَانِ فِي الْمِيزَانِ سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ سُبْحَانَ اللَّهِ الْعَظِيمِ.

843. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: “Rahmənə sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə (vardır ki, bunlar): “Subhanəllahi və bihəmdihi, subhanəllahil-Azim![1137]” (kəlmələridir)”.[1138]

SUBHƏNALLAHİ VƏ BİHƏMDİHİ

٨٤٤ - عَنْ عَبْدِ اللهِ بْنِ حَبِيبٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ ضَنَّ بِالْمَالِ أَنْ يُنْفِقَهُ، وَبِاللَّيْلِ أَنْ يُكَابِدَهُ، فَعَلَيْهِ بِسُبْحَانَ اللهِ وَبِحَمْدِهِ».

844. Abdullah ibn Həbib ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Kim malı xərcləməyə xəsislik edər və gecə qalxmağa çətinlik çəkərsə: “Subhənəllahi və bihəmdihi”- desin”.[1139]

٨٤٥ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ هَالَهُ اللَّيلُ أَنْ يُكَابِدَهُ، أَوْ بَخِلَ بِالْمَالِ أَنْ يُنفِقَهُ، أَوْ جَبُنَ عَنِ الْعَدُوِّ أَنْ يُقَاتِلَهُ، فَلْيُكْثِرْ مِنْ سُبْحَانَ اللهِ وَبِحَمدِهِ، فَإِنَّهَا أَحَبُّ إِلَى اللهِ مِنْ جَبَلِ ذَهَبٍ يُنْفِقُهُ فِي سَبِيلِ اللهِ ﷻ».

845. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Kim gecə qalxmağa çətinlik çəkər, malı xərcləməyə xəsislik edər və ya düşmənlə vuruşmaqdan qorxarsa, “Subhənəllahi və bihəmdihi”- deməyi çoxaltsın. Şübhəsiz ki, bu kəlmə Allaha ﷻ Onun yolunda dağ boyda qızılı xərcləməkdən daha sevimlidir”.[1140]

[1136] İbn Məcə, 3809, 3941. əl-Albani səhih olduğunu bildirmişdir.

[1137] Tərcüməsi: Allah pak və müqəddəsdir! Həmd Ona məxsusdur! Böyük Allah pak və müqəddəsdir!

[1138] əl-Buxari, 7563.

[1139] Əbu Nueym əl-Əsbəhəni “Məarifətus-Sahabə” 3627. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 6377) səhih olduğunu bildirmişdir.

[1140] ət-Tabərani “Mucəmul-Kəbir” 7800. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 1541) səhih liğeyrihi olduğunu bildirmişdir.

٨٤٦ - عن عبد الله بن عمرو ﷺ قال كنا جلوسا عند رسول الله ﷺ فجاء رجل من أهل البادية عليه جبة سيجان حتى قام على رأس النبي ﷺ فقال إن صاحبكم قد وضع كل فارس أو قال يريد أن يضع كل فارس ويرفع كل راع فأخذ النبي ﷺ بمجامع جبته فقال ألا أرى عليك لباس من لا يعقل ثم قال إن نبي الله نوحا ﷺ لما حضرته الوفاة قال لابنه إني قاص عليك الوصية آمرك باثنتين وأنهاك عن اثنتين آمرك بلا إله إلا الله فإن السماوات السبع والأرضين السبع لو وضعن في كفة ووضعت لا إله إلا الله في كفة لرجحت بهن ولو أن السماوات السبع والأرضين السبع كن حلقة مبهمه لقصمتهن لا إله إلا الله وسبحان الله وبحمده فإنها صلاة كل شيء وبها يرزق كل شيء وأنهاك عن الشرك والكبر فقلت أو قيل يا رسول الله هذا الشرك قد عرفناه فما الكبر هو أن يكون لأحدنا حلة يلبسها قال لا قال فهو أن يكون لأحدنا نعلان حسنتان لهما شرا كان حسنان قال لا قال فهو أن يكون لأحدنا دابة يركبها قال لا قال فهو أن يكون لأحدنا أصحاب يجلسون إليه قال لا قال يا رسول الله فما الكبر قال سفه الحق وغمص الناس"

846. Abdullah ibn Amr رضي الله عنهما demişdir: “Biz Peyğəmbərin sallallahu aleyhi və səlləm yanında oturmuşduq. Bədəvilərdən olan bir kişi gəldi. Onun əynində yaşıl atlasdan bir cübbə var idi. O gəlib Peyğəmbərin sallallahu aleyhi və səlləm başının üstdə durub dedi: “Sizin qardaşınız hər bir adlı-sanlı adamı alçaldır, yaxud hər bir adlı-sanlı adamı alçaltmaq istəyir və hər bir çobanı ucaldır”. Peyğəmbər sallallahu aleyhi və səlləm onun cübbəsinin ətəyindən tutub dedi: “Məgər mən sənin əynində ağılsız adamın geydiyi libasın olduğunu görmürəm?” Sonra (sözünə davam edib) dedi: “Allahın peyğəmbəri Nuh عليه السلام vəfat edərkən oğluna belə demişdi: “Mən sənə vəsiyyətimi söyləyirəm; sənə iki şeyi əmr edir və iki şeyi qadağan edirəm. Sənə “lə iləhə illəllahı” əmr edirəm. Əgər yeddi göy və yeddi yer tərəzinin bir gözünə və “lə iləhə illəllah” digər gözünə qoyulsaydı, bu tövhid kəlməsi ağır gələrdi. Və əgər yeddi göy və yeddi yer ucsuz bucaqsız bir halqa olsaydı, “lə iləhə illəllah” onu yarardı. (Həmçinin,) “subhənallahi və bihəmdihi”[1141] kəlmələrini (əmr edirəm). Çünki bu kəlmələr hər şeyin duasıdır. Bunun sayəsində hər şeyə ruzi verilir. Və iki şeyi sənə qadağan edirəm: (Allaha) şərik qoşmağı və təkəbbürlük etməyi. (Peyğəmbərə sallallahu aleyhi və səlləm) dedilər: “Ey Allahın Elçisi! Bu şirki bildik. Bəs təkəbbürlük nədir? Məgər birimizin özündə olan (gözəl) əbasını geyməsi təkəbbürlükdürmü?” (Peyğəmbər sallallahu aleyhi və səlləm): “Xeyr”- deyə cavab verdi. (Kişi) dedi: “Məgər birimizdə gözəl qaytanlı gözəl ayaqqabıların olması təkəbbürlükdürmü?” (Peyğəmbər sallallahu aleyhi və səlləm): “Xeyr”- deyə cavab verdi. (Kişi) dedi: “Məgər birimizin minəcək heyvana sahib olması təkəbbürlükdürmü?” (Peyğəmbər sallallahu aleyhi və səlləm): “Xeyr”- deyə cavab verdi.

[1141] Tərcüməsi: Allah pak və müqəddəsdir, həmd Ona məxsusdur.

(Kişi) dedi: "Məgər birimizlə oturub-duran dostların olması təkəbbürlük-dürmü?" (Peyğəmbər sallәllahu aleyhi və sәllәm): "Xeyr"- deyə cavab verdi. (Kişi) dedi: "Bəs təkəbbürlük nədir, ey Allahın Elçisi?" (Peyğəmbər sallәllahu aleyhi və sәllәm) dedi: "Haqqı danmaq və insanlara xor baxmaqdır".[1142]

٨٤٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ مَنْ قَالَ حِينَ يُصْبِحُ وَحِينَ يُمْسِي سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ مِائَةَ مَرَّةٍ لَمْ يَأْتِ أَحَدٌ يَوْمَ الْقِيَامَةِ بِأَفْضَلَ مِمَّا جَاءَ بِهِ إِلَّا أَحَدٌ قَالَ مِثْلَ مَا قَالَ أَوْ زَادَ عَلَيْهِ

847. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Kim səhər və axşam yüz dəfə: "Subhənəllahi və bihəmdihi[1143]"- deyərsə, Qiyamət günü onun dediyi kimi və ya ondan daha çox söyləyəndən başqa heç kəs onun gətirdiyindən daha fəzilətli bir şey gətirə bilməz".[1144]

٨٤٨ - عَنْ أَبِي ذَرٍّ ﷺ عَنْ نَبِيِّ اللَّهِ ﷺ أَنَّهُ قَالَ إِنَّ أَحَبَّ الْكَلَامِ إِلَى اللَّهِ أَنْ يَقُولَ الْعَبْدُ سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ

848. Əbu Zərr ﷺ rəvayət edir ki, Allahın Peyğəmbəri sallәllahu aleyhi və sәllәm demişdir: "Həqiqətən, Allaha ən sevimli kəlmə qulun belə deməsidir: "Subhənallahi və bihəmdihi".[1145]

٨٤٩ - عَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَلاَ أُخْبِرُكَ بِأَحَبِّ الْكَلاَمِ إِلَى اللهِ؟». قُلْتُ: يَا رَسُوْلَ اللهِ! أَخْبِرْنِي بِأَحَبِّ الْكَلاَمِ إِلَى اللهِ، فَقَالَ: «إِنَّ أَحَبَّ الْكَلاَمِ إِلَى اللهِ، سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ».

849. Əbu Zərr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Allah üçün ən sevimli kəlməni sənə bildirim?" Mən dedim: "Ey Allahın Elçisi, Allaha ən sevimli kəlməni mənə bildir!" Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "Allaha ən sevimli kəlmə: "Subhənallahi və bihəmdihi"- (kəlməsidir)".[1146]

٨٥٠ - عَنْ أَبِي ذَرٍّ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ سُئِلَ: أَيُّ الْكَلاَمِ أَفْضَلُ؟ قَالَ: «مَا اصْطَفَى اللهُ لِمَلاَئِكَتِهِ أَوْ لِعِبَادِهِ: سُبْحَانَ اللهِ وَبِحَمْدِهِ».

[1142] əl-Buxari "Ədəbul-Mufrad" 548. əl-Albani səhih olduğunu bildirmişdir.
[1143] Tərcüməsi: Allah pak və müqəddəsdir! Ona həmd olsun!
[1144] Muslim, 2692, 4858.
[1145] Əhməd, 20459, 21446. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 174) səhih olduğunu bildirmişdir.
[1146] Muslim, 7102.

850. Əbu Zərr ﷺ rəvayət edir ki, Allah Elçisindən sallallahu aleyhi və səlləm soruşdular: "Hansı kəlmə ən fəzilətlidir?" Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Allahın mələkləri və qulları üçün seçdiyi: "Subhənallahi və bihəmdihi"- kəlməsidir".[1147]

٨٥١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: مَنْ قَالَ سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ فِي يَوْمٍ مِائَةَ مَرَّةٍ حُطَّتْ خَطَايَاهُ وَإِنْ كَانَتْ مِثْلَ زَبَدِ الْبَحْرِ.

851. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Kim gün ərzində yüz dəfə: "Subhənallahi və bihəmdihi"- deyərsə, günahları dəniz köpüyü qədər olsa belə silinər".[1148]

RAHATLIQ KƏLMƏLƏRİ

٨٥٢ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما مَا قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «كَلِمَاتُ الْفَرَجِ: لاَ إِلَه إِلاَّ اللهُ الْحَلِيْمُ الْكَرِيْمُ، لاَ إِلَهَ إِلاَّ اللهُ الْعَلِيُّ الْعَظِيمُ، لاَ إِلَهَ إِلاَّ اللهُ رُبُّ السَّمَواتِ السَّبْعِ وَرَبُّ الْعَرشِ الْكَرِيمِ».

852. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Rahatlıq kəlmələri bunlardır: "Lə iləhə illəllahul-Həlimul-Kərim, lə iləhə illəllahul-Aliyyul-Azim, lə iləhə illəllahu Rabbus-səməvətis-səbi və Rabbul-Arşil-Kərim[1149]"[1150]

SIXINTI VƏ KƏDƏR ANINDA EDİLƏN DUA

٨٥٣ - عَنْ عَبْدِ اللَّهِ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا قَالَ عَبْدٌ قَطُّ إِذَا أَصَابَهُ هَمٌّ وَحَزَنٌ اللَّهُمَّ إِنِّى عَبْدُكَ وَابْنُ عَبْدِكَ وَابْنُ أَمَتِكَ نَاصِيَتِى بِيَدِكَ مَاضٍ فِىَّ حُكْمُكَ عَدْلٌ فِىَّ قَضَاؤُكَ أَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ سَمَّيْتَ بِهِ نَفْسَكَ أَوْ أَنْزَلْتَهُ فِى كِتَابِكَ أَوْ عَلَّمْتَهُ أَحَداً مِنْ خَلْقِكَ أَوِ اسْتَأْثَرْتَ بِهِ فِى عِلْمِ الْغَيْبِ عِنْدَكَ أَنْ تَجْعَلَ الْقُرْآنَ رَبِيعَ قَلْبِى وَنُورَ صَدْرِى وَجَلاَءَ حُزْنِى وَذَهَابَ هَمِّى. إِلاَّ أَذْهَبَ اللَّهُ عَزَّ وَجَلَّ هَمَّهُ وَأَبْدَلَهُ مَكَانَ حُزْنِهِ فَرَحاً». قَالُوا يَا رَسُولَ اللَّهِ يَنْبَغِى لَنَا أَنْ نَتَعَلَّمَ هَؤُلاَءِ الْكَلِمَاتِ. قَالَ «أَجَلْ يَنْبَغِى لِمَنْ سَمِعَهُنَّ أَنْ يَتَعَلَّمَهُنَّ».

[1147] Muslim, 2731.

[1148] əl-Buxari, 6405.

[1149] Tərcüməsi: Həlim, Səxavətli olan Allahdan başqa haqq ilah yoxdur, Uca, Əzəmətli olan Allahdan başqa haqq ilah yoxdur, yeddi göyün Rəbbi və Ərşin Səxavətli Rəbbi olan Allahdan başqa haqq ilah yoxdur!

[1150] İbn Əbud-Dunyə "Fərac Bəadəş-Şiddə" 47. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4571) səhih olduğunu bildirmişdir.

853. Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Üzüntü və kədərə düçar olub bu duanı: "Allahummə inni abdukə, ibnu abdikə, ibnu əmətikə, nəsıyəti biyədikə, mədın fiyyə hukmukə, adlun fiyyə qadaukə, əsəlukə bikulli ismin huvə ləkə, səmmeytə bihi nəfsəkə, əu ənzəltəhu fi kitəbikə, əu alləmtəhu əhədən min xalqikə, əu istə'sərtə bihi fi ilmil-ğaybi indəkə, ən təca'ləl-Qurənə rabia qalbi, va nura sadri, va cələə huzni və zəhəbə həmmi"[1151]- deyən elə bir qul yoxdur ki, Allah onun üzüntüsünü aparmasın və kədərini sevinclə əvəz etməsin". Dedilər: "Ey Allahın Elçisi, biz bu kəlmələri öyrənməliyikmi?" O dedi: "Bəli, eşidən bunları öyrənməlidir".[1152]

٨٥٤ - عَنْ أَسْمَاءَ بِنْتِ عُمَيْسٍ ﵂ قَالَتْ قَالَ لِى رَسُولُ اللَّهِ ﷺ «أَلاَ أُعَلِّمُكِ كَلِمَاتٍ تَقُولِينَهُنَّ عِنْدَ الْكَرْبِ أَوْ فِى الْكَرْبِ اللَّهُ اللَّهُ رَبِّى لاَ أُشْرِكُ بِهِ شَيْئًا»...«مَنْ أَصَابَهُ هَمٌّ أَوْ غَمٌّ أَوْ سُقْمٌ أَوْ شِدَّةٌ، فَقَالَ: اللهُ رَبِّي لاَ شَرِيْكَ لَهُ كُشِفَ ذَلِكَ عَنْهُ».

854. Əsmə bint Umeys ﵂ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Sənə sıxıntı anında və ya sıxıntıda söyləyəcəyin kəlmələr öyrədim? Allahu, Allahu Rabbi, lə uşriku bihi şeyən[1153]".[1154] Digər rəvayətdə deyilir: "Kimə qəm-qüssə, xəstəlik və ya çətinlik üz verdikdə: "Allahu Rabbi, lə şərikə ləhu[1155]"– deyərsə, bunlar ondan götürülər".[1156]

٨٥٥ - عَنْ ابْنِ عَبَّاسٍ ﵄ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَقُولُ عِنْدَ الْكَرْبِ لاَ إِلَهَ إِلاَّ اللَّهُ الْعَظِيمُ الْحَلِيمُ لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ الْعَرْشِ الْعَظِيمِ لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ السَّمَوَاتِ وَرَبُّ الأَرْضِ وَرَبُّ الْعَرْشِ الْكَرِيمِ.

855. İbn Abbas ﵄ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm sıxıntı anında deyərdi: "Lə iləhə illəllahul-Aziymul-Həlim, lə iləhə illəllahu

---

[1151] Tərcüməsi: Allahım, mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam, kəkilim (məni idarə etmək) Sənin Əlindədir. Barəmdə verdiyin hökm yerinə yetəndir, mənə yazdığın qədər ədalətlidir. Sənə, Özünə verdiyin və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kimsəyə öyrətdiyin, yaxud Öz dərgahındakı qeyb elmində saxladığın Özünə aid olan hər bir adla Sənə yalvarıram ki, Quranı qəlbimin baharı və köksümün nuru et, üzüntümün aradan qalxması və kədərimin getməsi üçün səbəb et!

[1152] Əhməd, 4318, 4406. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 199) səhih olduğunu bildirib.

[1153] Tərcüməsi: Allah, Allah mənim Rəbbimdir! Mən Ona heç bir şeyi şərik qoşmuram!

[1154] Əbu Davud, 1525, 1527. əl-Albani səhih olduğunu bildirmişdir.

[1155] Tərcüməsi: Allah mənim Rəbbimdir, Onun şəriki yoxdur!

[1156] ət-Tabərani "Mucəmul-Kəbir" 396. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6040) həsən olduğunu bildirmişdir.

Rabbul-arşil-azim, lə ilahə illəllahu Rabbus-səməvati və Rabbul-ardı və Rabbul-arşil-kərim[1157]".[1158]

٨٥٦ - حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي بَكْرَةَ عن أبيه قال وَقَالَ رَسُولُ اللَّهِ ﷺ «دَعَوَاتُ الْمَكْرُوبِ اللَّهُمَّ رَحْمَتَكَ أَرْجُو فَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ وَأَصْلِحْ لِي شَأْنِي كُلَّهُ لاَ إِلَهَ إِلاَّ أَنْتَ».

856. Abdur-Rahmən ibn Əbu Bəkrə atasından rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm buyurdu: "Sıxıntıda olanın duası: "Allahummə rahmətəkə ərcu, fələ təkilniy ilə nəfsiy tarfətə aynin, və əslih liy şə'niy kulləhu, lə ilahə illə əntə[1159]".[1160]

٨٥٧ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ كَانَ النَّبِيُّ ﷺ إِذَا كَرَبَهُ أَمْرٌ قَالَ «يَا حَيُّ يَا قَيُّومُ بِرَحْمَتِكَ أَسْتَغِيثُ»

857. Ənəs ibn Mələk ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm bir şey onu kədərləndirdikdə belə deyərdi: "Yə Həyyu, Yə Qayyumu, bi-Rahmətikə əstəğiysu[1161]".[1162]

٨٥٨ - عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ ﷺ أَنَّهُ قَالَ: لَقَّنَنِي رَسُولُ اللَّهِ ﷺ هَؤُلاَءِ الْكَلِمَاتِ، وَأَمَرَنِي إِنْ أَصَابَنِي كَرْبٌ أَوْ شِدَّةٌ أَقُولُهُنَّ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ الْحَلِيمُ الْكَرِيمُ، سُبْحَانَهُ وَتَبَارَكَ اللَّهُ رَبُّ الْعَرْشِ الْعَظِيمِ، وَالْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ.

858. Əli ibn Əbu Talib ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm mənə nəsihət edərək sıxıntıya məruz qaldıqda bu kəlmələri deməyi buyurdu: "Lə ilahə illəllahul-Həliymul-Kəriym, və təbərakəllahu Rabbul-arşil-aziym, vəlhəmdulilləhi Rabbil-aləmin[1163]".[1164]

BU ZİKRİ DEYƏNİN GÜNAHLARI BAĞIŞLANAR

٨٥٩ - عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ ﷺ قَالَ: قَالَ لِي رَسُولُ اللهِ ﷺ: يَا عَلِيُّ أَلا أُعَلِّمُكَ كَلِمَاتٍ إِذَا قُلْتَهُنَّ غُفِرَ لَكَ مَعَ أَنَّهُ

[1157] Tərcüməsi: Əzəmətli, Həlim olan Allahdan başqa ilah yoxdur! Əzəmətli Ərşin Rəbbi olan Allahdan başqa ilah yoxdur! Göylərin Rəbbi, yerin Rəbbi və kəramətli Ərşin Rəbbi olan Allahdan başqa ilah yoxdur!

[1158] əl-Buxari, 6346.

[1159] Tərcüməsi: Allahım! Sənin rəhmətini diləyirəm! Məni bir göz qırpımı belə başlı-başına buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa ilah yoxdur!

[1160] Əbu Davud, 5090, 5092; ən-Nəsəi, 10412. əl-Albani hədisin isnadının həsən olduğunu bildirmişdir.

[1161] Tərcüməsi: Ey əbədi Yaşayan, ey Qəyyum! Mərhəmətinlə kömək diləyirəm!

[1162] ət-Tirmizi, 3524, 3866. əl-Albani həsən olduğunu bildirmişdir.

[1163] Tərcüməsi: Səxavətli və Həlim olan Allahdan başqa haqq ilah yoxdur! Əzəmətli Ərşin Rəbbi olan Allah nə qədər xeyirxahdır, həmd olsun aləmlərin Rəbbi olan Allaha!

[1164] İbn Hibban, 865; Əhməd, 726. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

مَغْفُورٌ لَكَ: لا إِلَهَ إِلَّااللهُ الْعَلِيُّ الْعَظِيمُ لا إِلَهَ إِلَّااللهُ الْحَلِيمُ الْكَرِيمُ سُبْحَانَ اللهِ رَبِّ السَّمَوَاتِ السَّبْعِ وَ رَبِّ الْعَرْشِ الْعَظِيمِ وَ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

859. Əli ibn Əbu Talib ﷺ demişdir: "Allah Elçisi sallәllahu aleyhi və sәllәm mənə dedi: "Ey Əli, sənə deyəcəyin təqdirdə günahların bağışlanacağı - baxmayaraq ki, o, bağışlanmış bəndələrdəndir - kəlmələr öyrədimmi? Lə iləhə illəllahul-Aliyyul-Azim, lə iləhə illəllahul-Həlimul-Kərim, subhənallahi Rabbis-səməvətis-səbi və Rabbul-Arşil-azim, vəlhəmdulilləhi Rabbil-aləmin[1165]".[1166]

[1165] Tərcüməsi: Uca, Əzəmətli Allahdan başqa haqq ilah yoxdur, Həlim, Səxavətli Allahdan başqa haqq ilah yoxdur, yeddi səmanın və əzəmətli Ərşin Rəbbi Allah pak və müqəddəsdir, aləmlərin Rəbbi Allaha həmd olsun!

[1166] İbn Hibban, 6928; əl-Bəzzar, 705. Şueyb əl-Arnavut hədisin səhih olduğunu bildirmişdir.

SƏBİR VƏ ŞÜKÜR

ƏN ÜSTÜN İMAN

٨٦٠ - عَنِ الْحَسَنِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: «أَفْضَلُ الْإِيمَانِ الصَّبْرُ وَالسَّمَاحَةُ».

860. Həsən ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Ən üstün iman səbir və səxavətdir".[1167]

SARSINTININ İLK ANINDA OLAN SƏBR

٨٦١ - عَنْ أَبِي أُمَامَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «يَقُولُ اللَّهُ سُبْحَانَهُ ابْنَ آدَمَ إِنْ صَبَرْتَ وَاحْتَسَبْتَ عِنْدَ الصَّدْمَةِ الْأُولَى لَمْ أَرْضَ لَكَ ثَوَابًا دُونَ الْجَنَّةِ»

861. Əbu Umamə ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Allah ﷻ buyurur: "Ey Adəm oğlu! Əgər sən sarsıntının ilk anında səbr edib savab umarsansa, sənin üçün Cənnətdən başqa mükafata razı olmaram".[1168]

HÖVSƏLƏLİ OL!

٨٦٢ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ :«التَّأَنِّي مِنَ اللهِ وَالْعَجَلَةُ مِنَ الشَّيْطَانِ، وَمَا شَيْءٌ أَكْثَرُ مَعَاذِيرَ مِنَ اللهِ، وَمَا مِنْ شَيءٍ أَحَبُّ إِلَى اللهِ مِنَ الْحَمْدِ».

862. Ənəs ibn Mələk ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Hövsələ Allahdan, tələsmək isə şeytandandır. Allahdan daha çox üzr qəbul edən yoxdur[1169]. Həmd etməkdən daha çox Allaha sevimli olan bir şey yoxdur".[1170]

ÖVLADLARINA QARŞI SƏBİRLİ OLANIN FƏZİLƏTİ

٨٦٣ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ يَقُولُ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «مَنْ كَانَ لَهُ ثَلَاثُ بَنَاتٍ فَصَبَرَ عَلَيْهِنَّ وَأَطْعَمَهُنَّ وَسَقَاهُنَّ وَكَسَاهُنَّ مِنْ جِدَتِهِ – كُنَّ لَهُ حِجَابًا مِنَ النَّارِ يَوْمَ الْقِيَامَةِ».

[1167] əl-Beyhəqi "Şuabul-İman" 10344, 10838. əl-Alabani "Sahihul-Cəmius-Sağir"də (№ 1097) səhih olduğunu bildirmişdir.

[1168] İbn Məcə, 1586, 1597. əl-Albani həsən olduğunu bildirmişdir.

[1169] Yəni Allah quluna möhlət verib, ona xəbər verən peyğəmbər göndərməyincə əzab verməz. Bu da Allahın səxavətinin kamilliyinə və adilliyinə dəlalət edir.

[1170] Əbu Yəalə, 4256. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1572, 2677) həsən olduğunu bildirib.

863. Uqbə bin Amir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurmuşdur: "Üç qızı olan kimsə qızlarına qarşı səbirli olarsa, onları imkanı daxilində yedirdib-içirdər və geyindirərsə, Qiyamət günü qızları Cəhənnəmlə onun arasında pərdə olarlar".[1171]

٨٦٤ - عن جابر بن عبد الله رضي الله عنهما حدثهم قال قال رسول الله ﷺ من كان له ثلاث بنات يؤويهن ويكفيهن ويرحمهن فقد وجبت له الجنة البتة فقال رجل من بعض القوم وثنتين يا رسول الله قال وثنتين

864. Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Kimin üç qızı olsa, onlara qayğı göstərsə, onlara yaxşı baxsa və onlara rəhm etsə, Cənnətə daxil olmaq ona vacib olar". Camaatın arasından bir kişi dedi: "Ey Allahın Elçisi! İki qızı olana da?" O dedi: "İki qızı olana da!"[1172]

٨٦٥ - عن أبي سعيد الخدري ﷺ أن رسول الله ﷺ قال ثم لا يكون لأحد ثلاث بنات أو ثلاث أخوات فيحسن إليهن إلا دخل الجنة

865. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Elə bir kimsə yoxdur ki, onun üç qızı və ya üç bacısı olsun, onlara yaxşı baxsın və Cənnətə daxil olmasın".[1173]

٨٦٦ - عَنْ عَائِشَةَ قَالَتْ رضي الله عنها قَالَ رَسُولُ اللَّهِ ﷺ لَيْسَ أَحَدٌ مِنْ أُمَّتِي يَعُولُ ثَلاَثَ بَنَاتٍ أَوْ ثَلاَثَ أَخَوَاتٍ فَيُحْسِنُ إِلَيْهِنَّ إِلاَّ كُنَّ لَهُ سِتْراً مِنَ النَّارِ

866. Aişə رضي الله عنها rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurdu: "Ümmətimdən hər kim üç qızının və ya üç bacısının qeydinə qalarsa, bunlar onun üçün Cəhənnəmə qarşı bir maneə olarlar".[1174]

XƏSTƏLİYƏ SƏBR ET!

٨٦٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: جَاءَتِ امْرَأَةٌ بِهَا لَمَمٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ، فَقَالَتْ: يَا رَسُولَ اللَّهِ ادْعُ اللَّهَ لِي، فَقَالَ: إِنْ

[1171] İbn Məcə, 3669, 3800; Əhməd 17403, 17865. əl-Albani səhih olduğunu qeyd etmişdir.
[1172] əl-Buxari "Ədəbul-Mufrad" 78. əl-Albani həsən olduğunu bildirmişdir.
[1173] əl-Buxari "Ədəbul-Mufrad" 79. əl-Albani həsən olduğunu bildirmişdir.
[1174] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 10191; əl-Beyhəqi "Şuabul-İman" 11023. əl-Albani "Sahihul-Cəmius-Sağir" (№ 5372) əsərində səhih olduğunu söyləmişdir.

شِئْتِ دَعَوْتُ اللَّهَ لَكِ فَشَفَاكَ، وَإِنْ شِئْتِ صبرت وَلاَ حِسَابَ عَلَيْكِ فَقَالَتْ: بَلْ أَصْبِرُ وَلاَ حِسَابَ عَلَيَّ.

867. Əbu Hureyra ﷺ demişdir: "Ürəkgetmədən əziyyət çəkən bir qadın Allah Elçisinin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi, mənim üçün Allaha dua et!" O buyurdu: "İstəyirsənsə, Allaha dua edim, O da sənə şəfa versin, istəyirsənsə, səbr et, (Cənnətə girmək üçün) sənə sorğu-sual olmaz". Qadın dedi: "Mənə sorğu-sual olmasın deyə səbr edərəm".[1175]

٨٦٨ - عَنْ يَحْيَى بْنِ وَثَّاب وَأَبِي صَالِحٍ: عَنْ شَيْخٍ مَنْ أَصْحَاب مُحَمَّدٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «الْمُؤْمِنُ الَّذِي يُخَالِطُ النَّاسَ وَيَصْبِر عَلَى أَذَاهُمْ، أَعْظَمُ أَجْراً مِنَ الْمُؤْمِن الَّذِي لاَ يُخَالِطُ النَّاس وَلاَ يَصْبِر عَلَى أَذَاهُمْ».

868. Yəhya ibn Vəssəb və Əbu Salih Muhəmmədin sallallahu aleyhi və səlləm bir səhabəsindən rəvayət edirlər ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "İnsanlara qaynayıb-qarışan və onların əzab-əziyyətlərinə dözən möminin mükafatı, insanlara qaynayıb-qarışmayan və onların əzab-əziyyətlərinə dözməyən möminin mükafatından daha böyükdür".[1176]

٨٦٩ - عن ابن عمر رضي الله عنهما عن النبي ﷺ قال المؤمن الذي يخالط الناس ويصبر على أذاهم خير من الذي لا يخالط الناس ولا يصبر على اذاهم

869. İbn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "İnsanlarla ünsiyyətdə olub onların əziyyətlərinə səbir edən mömin, insanlarla qaynayıb-qarışmayan və onların əziyyətlərinə dözməyən kimsədən daha xeyirlidir".[1177]

ALLAHIN NEMƏTLƏRİNƏ ŞÜKÜR ET!

٨٧٠ - عَنْ أَنَسٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا أَنْعَمَ اللهُ عَلَى عَبْدٍ نِعْمَةً فَقَالَ: الْحَمْدُ للهِ إِلاَّ كَانَ الَّذِي أَعْطَاهُ أَفْضَلُ مِمَّا أَخَذَ».

870. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Allah qula bir nemət verdikdə, o: "Əlhəmdulilləh"- deyərsə,

---

[1175] əl-Bəzzar, 7980; İbn Hibban, 2909. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3419) həsən səhih olduğunu bildirmişdir.

[1176] Əhməd, 5022; əl-Beyhəqi "Sunənul-Kubra" 19962. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6651) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 939) həsən olduğunu bildirmişdir.

[1177] əl-Buxari "Ədəbul-Mufrad" 388. əl-Albani səhih olduğunu bildirmişdir.

qulun (bu nemətə görə) həmd etməsi, əldə etdiyi nemətdən daha xeyirlidir".[1178]

٨٧١ - عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ رضي الله عنهما: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ أُبْلِيَ بَلاَءً فَذَكَرَهُ فَقَدْ شَكَرَهُ، وَإِنْ كَتَمَهُ فَقَدْ كَفَرَهُ».

871. Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Kimə bir nemət verilər və o, bu neməti dilə gətirərsə, şükür etmiş olar, onu dilə gətirməzsə, nankorluq etmiş olar".[1179]

٨٧٢ - عَنْ سِنَانِ بْنِ سَنَّةَ الأَسْلَمِيِّ رضي الله عنه صَاحِبِ النَّبِيِّ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «الطَّاعِمُ الشَّاكِرُ لَهُ مِثْلُ أَجْرِ الصَّائِمِ الصَّابِرِ».

872. Peyğəmbərin sallallahu aleyhi və səlləm səhabələrindən olan Sinan ibn Sənnə əl-Əsləmi رضي الله عنه rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Yemək yeyərək şükür edən səbir edərək oruc tutanın savabının mislini qazanır".[1180]

٨٧٣ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ رضي الله عنه أَنَّ النَّبِيَّ ﷺ قَالَ «إِنَّ اللَّهَ لَيَرْضَى عَنِ الْعَبْدِ أَنْ يَأْكُلَ الأَكْلَةَ أَوْ يَشْرَبَ الشَّرْبَةَ فَيَحْمَدَهُ عَلَيْهَا».

873. Ənəs ibn Məlik رضي الله عنه rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Həqiqətən, yeyib-içdikdən sonra Allaha həmd edən qulundan Allah razı olur".[1181]

٨٧٤ - عَنْ فُضَالَةَ بْنِ عُبَيْدٍ رضي الله عنه: أَنَّهُ سَمِعَ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «طُوبَى لِمَنْ هُدِيَ لِلإِسْلاَمِ وَكَانَ عَيْشُهُ كَفَافاً وَقَنَعَ».

874. Fədalə ibn Ubeyd رضي الله عنه rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "İslama hidayət olunan, güzəranı ona kifayət edən və qane olan kimsəyə Tubə olsun!"[1182]

٨٧٥ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «قَدْ أَفْلَحَ مَنْ أَسْلَمَ وَرُزِقَ كَفَافًا وَقَنَّعَهُ اللَّهُ بِمَا آتَاهُ».

[1178] İbn Məcə, 3805, 3937. əl-Albani həsən olduğunu bildirmişdir.
[1179] Əbu Davud, 4814, 4816. əl-Albani səhih olduğunu bildirmişdir.
[1180] İbn Məcə, 1765, 1837. əl-Albani səhih olduğunu bildirmişdir.
[1181] ət-Tirmizi, 1816, 1929; Muslim, 2734.
[1182] ət-Tirmizi, 2349, 2522. əl-Albani səhih olduğunu bildirmişdir.

875. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Müsəlman olan, kifayət qədər ruzi verilən və Allahın verdiyinə qane olan kəs nicata çatmışdır”.[1183]

٨٧٦ - عَنْ أَبِى الأَحْوَصِ عَنْ أَبِيهِ قَالَ أَتَيْتُ النَّبِىَّ ﷺ فِى ثَوْبِ دُونٍ فَقَالَ «أَلَكَ مَالٌ». قَالَ نَعَمْ. قَالَ «مِنْ أَىِّ الْمَالِ». قَالَ قَدْ أَتَانِىَ اللَّهُ مِنَ الإِبِلِ وَالْغَنَمِ وَالْخَيْلِ وَالرَّقِيقِ. قَالَ «فَإِذَا أَتَاكَ اللَّهُ مَالاً فَلْيُرَ أَثَرُ نِعْمَةِ اللَّهِ عَلَيْكَ وَكَرَامَتِهِ».

876. Əbul-Əhvas atasından rəvayət edərək demişdir: “Mən pis paltarda Allah Elçisinin sallallahu aleyhi və səlləm yanına gəldim. O, məndən soruşdu: “Malın varmı?” Mən: “Bəli”- deyə cavab verdim. O soruşdu: “Hansı maldan?” Mən: “Allah mənə dəvə, qoyun, at və kölələr vermişdir”- dedim. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Allah sənə mal-dövlət veribsə, qoy Allahın nemətinin və lütfünün əlaməti sənin üstündə görünsün”.[1184]

٨٧٧ - عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ يُحِبُّ أَنْ يُرَى أَثَرُ نِعْمَتِهِ عَلَى عَبْدِهِ».

877. Amr bin Şuayb atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Həqiqətən, Allah nemətinin əlamətini qulunun üzərində görünməsini sevir”.[1185]

ALLAH RİZASINA GÖRƏ QƏZƏBİ BOĞMAQ

٨٧٨ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا مِنْ جُرْعَةٍ أَعْظَمَ أَجْراً عِنْدَ اللهِ مِنْ جُرْعَةِ غَيْظٍ، كَظَمَهَا عَبْدٌ ابْتِغَاءَ وَجْهِ اللهِ ﷻ».

878. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Allah dərgahında, Allahın ﷻ Üzünü diləyərək qulun qəzəbini boğmasından daha böyük mükafat yoxdur”.[1186]

٨٧٩ - عَنْ سَهْلِ بْنِ مُعَاذٍ عَنْ أَبِيهِ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ كَظَمَ غَيْظًا - وَهُوَ قَادِرٌ عَلَى أَنْ يُنْفِذَهُ - دَعَاهُ اللَّهُ ﷻ عَلَى رُءُوسِ الْخَلاَئِقِ يَوْمَ الْقِيَامَةِ حَتَّى يُخَيِّرَهُ اللَّهُ مِنَ الْحُورِ مَا شَاءَ».

[1183] Muslim, 2473; Əhməd, 6572, 6729. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 4368) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 129) səhih olduğunu söyləmişdir.

[1184] Əbu Davud, 4063, 4365. əl-Albani səhih olduğunu bildirmişdir.

[1185] ət-Tirmizi, 2819, 3051. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[1186] İbn Məcə, 4189, 4329. əl-Albani səhih olduğunu bildirmişdir.

879. Səhl ibn Muaz atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kim qəzəblənərək özündən çıxa biləcəyi halda qəzəbini boğarsa, Allah ﷻ Qiyamət günü onu məxluqlarının qarşısına çağıracaq və hurilərdən istədiyini seçməkdə onu sərbəst buraxacaq".[1187]

٨٨٠ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، دُلَّنِي عَلَى عَمَلٍ يُدْخِلُنِي الْجَنَّةَ، قَالَ: لا تَغْضَبْ، وَلَكَ الْجَنَّةُ

880. Əbu Dərdədən ﷺ rəvayət edir ki, bir nəfər gəlib Allah Elçisinə sallallahu aleyhi və səlləm dedi: "Ey Allahın Elçisi! Məni Cənnətə salacaq bir əməl göstər!" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Qəzəblənmə, sənə Cənnət verilər!"[1188]

٨٨١ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو ﷺ قَالَ: قُلْتُ: يَا رَسُوْلَ اللهِ! مَا يَمْنَعُنِي مِنْ غَضَبِ اللهِ؟ قَالَ: «لا تَغْضَبْ».

881. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, mən dedim: "Ey Allahın Elçisi! Məni Allahın qəzəbindən nə qoruyar?" O buyurdu: "Qəzəblənmə!"[1189]

٨٨٢ - عن بن عباس ﷺ قال قال رسول الله ﷺ علموا ويسروا علموا ويسروا ثلاث مرات وإذا غضبت فاسكت مرتين

882. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Öyrədin və asanlaşdırın, öyrədin və asanlaşdırın!" (O bunu) üç dəfə təkrar etdi. Yenə buyurdu: "Qəzəbləndiyin zaman sus!" (Bunu da) iki dəfə təkrar etdi".[1190]

٨٨٣ - عن أبي هريرة ﷺ أن رسول الله ﷺ قال ليس الشديد بالصرعة إنما الشديد الذي يملك نفسه عند الغضب

883. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "(Hamını) yıxmaq güclü olmaq demək deyil. Güclü o kəsdir ki, qəzəbləndikdə özünü saxlaya bilsin".[1191]

[1187] Əbu Davud, 4777, 4779. əl-Albani səhih olduğunu bildirmişdir.
[1188] ət-Təbərani "Mucəmul-Kəbir" 1762. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 7374) səhih olduğunu bildirmişdir.
[1189] İbn Hibban, 296. əl-Albani həsən olduğunu bildirmişdir.
[1190] əl-Buxari "Ədəbul-Mufrad" 1320. əl-Albani səhih li-ğeyrihi olduğunu bildirmişdir.
[1191] əl-Buxari "Ədəbul-Mufrad" 1317. əl-Albani səhih olduğunu bildirmişdir.

٨٨٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «لَيْسَ الشَّدِيدُ مَنْ غَلَبَ (النَّاس) إِنَّمَا الشَّدِيدُ مَنْ غَلَبَ نَفْسَهُ».

884. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "İnsanlara qalib gəlmək güclü olmaq demək deyildir. Həqiqətən, güclü olan nəfsinə qalib gələndir".[1192]

ƏLLİ NƏFƏRİN SAVABI

٨٨٥ - عَنْ عُتْبَةَ بن غَزْوَانَ أَخِي بنِي مَازِنِ بن صَعْصَعَةَ، وَكَانَ مِنَ الصَّحَابَةِ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: "إِنَّ مِنْ وَرَائِكُمْ أَيَّامَ الصَّبْرِ، الْمُتَمَسِّكُ فِيهِنَّ يَوْمَئِذٍ بِمَا أَنْتُمْ عَلَيْهِ أَجْرُ خَمْسِينَ مِنْكُمْ" قَالُوا: يَا نَبِيَّ اللَّهِ، أَوْ مِنْهُمْ؟ قَالَ: "بَلْ مِنْكُمْ".

885. Utbə ibn Ğazvan ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "İrəlidə səbir günləri vardır. O günlərdə sizin üzərində dur-duğunuz yolu izləyənlərə sizdən əlli nəfərinizin savabı vardır". Səhabələr: "Ey Allahın Peyğəmbəri! Onlardan (əlli nəfərin)?"- deyə soruşdular. Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Əksinə, sizdən!"[1193]

٨٨٦ - عَنْ عَبْدِ اللَّهِ بن مَسْعُودٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: إِنَّ مِنْ وَرَائِكُمْ زَمَانَ صَبْرٍ، لِلْمُتَمَسِّكِ فِيهِ أَجْرُ خَمْسِينَ شَهِيدًا، فَقَالَ عُمَرُ: يَا رَسُولَ اللَّهِ، مِنَّا أَوْ مِنْهُمْ؟ قَالَ:مِنْكُمْ.

886. Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "İrəlidə səbir zamanı var. O vaxt (sünnətə) sarılan kimsəyə əlli şəhid savabı var". Ömər ﷺ soruşdu: "Ey Allahın Elçisi! Bizdən, yoxsa onlardan?" O buyurdu: "Sizdən!"[1194]

DİNİNƏ GÖRƏ SƏBR EDƏNLƏR

٨٨٧ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ : قَالَ رَسُوْلُ اللهِ ﷺ: «يَأْتِي عَلَى النَّاسِ زَمَانٌ الصَّابِرُ فِيهِمْ عَلَى دِيْنِهِ كَالْقَابِضِ عَلَى الْجَمْرِ».

887. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "İnsanlara elə bir zaman gələcək ki, onda dininə görə səbir etmək, əldə köz tutmaq kimi (çətin) olacaq".[1195]

[1192] İbn Hibban, 715. əl-Albani səhih olduğunu bildirmişdir.
[1193] ət-Tabərani "Mucəmul-Kəbir" 289, 10394. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 494) səhih olduğunu bildirmişdir.
[1194] ət-Tabərani "Mucəmul-Kəbir" 10240. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2234) səhih olduğunu söyləmişdir.
[1195] ət-Tirmizi, 2260, 2428. əl-Albani səhih olduğunu bildirmişdir.

ALLAH SƏBİR DİLƏYƏNƏ SƏBR VERƏR

٨٨٨ - عَنْ أَبِى سَعِيدٍ الْخُدْرِىِّ ﷺ أَنَّ نَاسًا مِنَ الأَنْصَارِ سَأَلُوا رَسُولَ اللَّهِ ﷺ فَأَعْطَاهُمْ، ثُمَّ سَأَلُوهُ فَأَعْطَاهُمْ، حَتَّى نَفِدَ مَا عِنْدَهُ فَقَالَ: «مَا يَكُونُ عِنْدِى مِنْ خَيْرٍ فَلَنْ أَدَّخِرَهُ عَنْكُمْ، وَمَنْ يَسْتَعْفِفْ يُعِفَّهُ اللَّهُ، وَمَنْ يَسْتَغْنِ يُغْنِهِ اللَّهُ، وَمَنْ يَتَصَبَّرْ يُصَبِّرْهُ اللَّهُ، وَمَا أُعْطِىَ أَحَدٌ عَطَاءً خَيْرًا وَأَوْسَعَ مِنَ الصَّبْرِ».

888. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, ənsardan bəzi adamlar Peyğəmbərdən sallәllahu aleyhi və sәllәm (yardım) istədilər, o da onlara (istədiklərini) verdi. Sonra yenə istədilər, o, yenə onlara (istədiklərini) verdi. Nəhayət, əlində olanlar qurtardıqdan sonra dedi: "Əlimdə nə qədər nemət olursa-olsun, heç vaxt onu sizdən əsirgəməyəcəyəm. İffətli olmaq istəyəni Allah iffətli[1196] edər. (İnsanlara) möhtac olmaq istəməyən kimsəni Allah heç kəsə möhtac etməz. Səbir etməyə çalışan kimsəni Allah səbirli olmağa müvəffəq edər. Heç kəsə səbirdən daha xeyirli və daha böyük nemət verilməmişdir".[1197]

MÖMİN QARDAŞINA TƏSƏLLİ VERƏN

٨٨٩ - عَنْ أَنَس ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ عَزَّى أَخَاهُ الْمُؤمِن مِنْ مُصِيبَة كَسَاهُ اللهُ حُلَّة خَضْرَاء يُحْبَرُ بِهَا يَوْمَ الْقِيَامَة». قِيلَ: يَا رَسُوْلَ اللهِ مَا يُحْبَرُ؟ قَالَ: «يُغْبَطُ بِهَا يَوْمَ الْقِيَامَة».

889. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Kim müsibətə düçar olmuş mömin qardaşına təsəlli verərsə, Qiyamət günü Allah onu fərəhləndirəcək yaşıl paltar geyindirər". Soruşdular: "Ey Allahın Elçisi, onu nə fərəhləndirəcək?" O buyurdu: "Qiyamət günü ona qibtə ediləcək".[1198]

٨٩٠ - عَنْ عَمْرِو بْنِ حَزْمٍ يُحَدِّثُ عَنْ أَبِيهِ ﷺ عَنْ جَدِّهِ عَنِ النَّبِىِّ ﷺ أَنَّهُ قَالَ «مَا مِنْ مُؤْمِنٍ يُعَزِّى أَخَاهُ بِمُصِيبَةٍ إِلاَّ كَسَاهُ اللَّهُ سُبْحَانَهُ مِنْ حُلَلِ الْكَرَامَةِ يَوْمَ الْقِيَامَةِ».

890. Amr ibn Həzm babasından ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "Hər hansı bir mömin başına gələn müsibətə görə öz

---

[1196] İffətli – namuslu, ismətli, həyalı.

[1197] əl-Buxari, 1469.

[1198] Xatib əl-Bağdadi "Tarixu Bağdad" 7/ 397. əl-Albani "İrvaul-Ğalil" əsərində (№ 3/ 217) həsən olduğunu bildirmişdir.

qardaşına təsəlli verərsə, Allah ﷻ Qiyamət günü ona kəramət libasları geyindirər".[1199]

DÜŞƏN UŞAQ İTGİ DEYİL

٨٩١ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «وَالَّذِي نَفْسِي بِيَدِهِ! إِنَّ السِّقْطَ لَيَجُرُّ أُمَّهُ بِسَرَرِهِ إِلَى الْجَنَّةِ إِذَا احتَسَبَتْهُ».

891. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Canım Əlində Olana and olsun! Həqiqətən, (Qiyamət günü) düşmüş uşaq, səbir edərək mükafatını Allahdan uman anasını göbəyindən dartaraq Cənnətə aparacaq".[1200]

QARIŞIQLIQ ZAMANI İBADƏTİNİ ÇOXALT!

٨٩٢ - عَنْ مَعْقِلِ بن يَسَارٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: عُبَادَةٌ فِي الْهَرْجِ، أَوِ الْفِتْنَةِ كَهِجْرَةٍ إِلَيَّ

892. Məqil ibn Yəsar ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Hərc-mərclik və fitnə zamanı ibadət etmək mənə doğru hicrət etmək[1201] kimidir".[1202]

HƏR BİR SƏBİRDƏN SONRA ZƏFƏR GƏLİR

٨٩٣ - عَنْ أَنَسٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «النَّصْرُ مَعَ الصَّبْرِ، وَالْفَرَجُ مَعَ الْكَرْبِ، وَإِنَّ مَعَ الْعُسْرِ يُسراً، إِنَّ مَعَ الْعُسْرِ يُسراً».

893. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Hər bir səbirdən sonra zəfər, hər bir sıxıntıdan sonra yüngüllük, hər bir çətinlikdən sonra asanlıq, hər bir çətinlikdən sonra asanlıq gəlir".[1203]

[1199] İbn Məcə, 1601, 1669. əl-Albani həsən olduğunu qeyd etmişdir.
[1200] İbn Məcə, 1609, 1677. əl-Albani səhih olduğunu bildirmişdir.
[1201] Küfr ölkəsindən İslam yurduna köçmək, həmçinin Allahın qadağalarını tərk etmək də hicrət adlanır.
[1202] ət-Təbərani "Mucəmul-Kəbir" 16888. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3974) səhih olduğunu bildirmişdir.
[1203] Xatib əl-Bağdadi "Tarixu Bağdad" 5411. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 686) səhih olduğunu bildirmişdir.

KASIBLIĞA SƏBR EDƏNLƏR

٨٩٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «يَدْخُلُ فُقَرَاءُ الْمُسْلِمِينَ الْجَنَّةَ قَبْلَ أَغْنِيَائِهِم بِنِصفِ يَومٍ وَهُوَ خَمْسُ مِئَةِ عَامٍ».

894. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kasıb müsəlmanlar varlılardan yarım gün əvvəl Cənnətə girəcəklər. Bu da beş yüz ilə bərabərdir".[1204]

MÖMİNİN HALI

٨٩٥ - عَنْ صُهَيْبٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ عَجَبًا لِأَمْرِ الْمُؤْمِنِ إِنَّ أَمْرَهُ كُلَّهُ خَيْرٌ وَلَيْسَ ذَاكَ لِأَحَدٍ إِلَّا لِلْمُؤْمِنِ إِنْ أَصَابَتْهُ سَرَّاءُ شَكَرَ فَكَانَ خَيْرًا لَهُ وَإِنْ أَصَابَتْهُ ضَرَّاءُ صَبَرَ فَكَانَ خَيْرًا لَهُ

895. Suheyb ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Möminin işi qəribədir! Həqiqətən, onun bütün işləri xeyirdir. Bu, mömindən başqa bir kəsə məxsus deyildir. Ona sevindirici bir şey gəldikdə, şükür edər, bu, onun üçün xeyir olar. Ona xoşagəlməz bir şey gəldikdə isə səbir edər, bu, onun üçün xeyir olar".[1205]

[1204] ət-Tirmizi, 2354, 2527. əl-Albani həsən səhih olduğunu bildirmişdir.
[1205] Muslim, 2999, 7692.

TÖVBƏ VƏ MƏRHƏMƏT

TÖVBƏ

٨٩٦ - عَنْ أَبِى سَعِيدٍ الْخُدْرِىِّ ﷺ أَنَّ نَبِىَّ اللَّهِ ﷺ قَالَ «كَانَ فِيمَنْ كَانَ قَبْلَكُمْ رَجُلٌ قَتَلَ تِسْعَةً وَتِسْعِينَ نَفْسًا فَسَأَلَ عَنْ أَعْلَمِ أَهْلِ الأَرْضِ فَدُلَّ عَلَى رَاهِبٍ فَأَتَاهُ فَقَالَ إِنَّهُ قَتَلَ تِسْعَةً وَتِسْعِينَ نَفْسًا فَهَلْ لَهُ مِنَ تَوْبَةٍ فَقَالَ لاَ. فَقَتَلَهُ فَكَمَّلَ بِهِ مِائَةً ثُمَّ سَأَلَ عَنْ أَعْلَمِ أَهْلِ الأَرْضِ فَدُلَّ عَلَى رَجُلٍ عَالِمٍ فَقَالَ إِنَّهُ قَتَلَ مِائَةَ نَفْسٍ فَهَلْ لَهُ مِنْ تَوْبَةٍ فَقَالَ نَعَمْ وَمَنْ يَحُولُ بَيْنَهُ وَبَيْنَ التَّوْبَةِ انْطَلِقْ إِلَى أَرْضِ كَذَا وَكَذَا فَإِنَّ بِهَا أُنَاسًا يَعْبُدُونَ اللَّهَ فَاعْبُدِ اللَّهَ مَعَهُمْ وَلاَ تَرْجِعْ إِلَى أَرْضِكَ فَإِنَّهَا أَرْضُ سَوْءٍ. فَانْطَلَقَ حَتَّى إِذَا نَصَفَ الطَّرِيقَ أَتَاهُ الْمَوْتُ فَاخْتَصَمَتْ فِيهِ مَلاَئِكَةُ الرَّحْمَةِ وَمَلاَئِكَةُ الْعَذَابِ فَقَالَتْ مَلاَئِكَةُ الرَّحْمَةِ جَاءَ تَائِبًا مُقْبِلاً بِقَلْبِهِ إِلَى اللَّهِ. وَقَالَتْ مَلاَئِكَةُ الْعَذَابِ إِنَّهُ لَمْ يَعْمَلْ خَيْرًا قَطُّ. فَأَتَاهُمْ مَلَكٌ فِى صُورَةِ آدَمِىٍّ فَجَعَلُوهُ بَيْنَهُمْ فَقَالَ قِيسُوا مَا بَيْنَ الأَرْضَيْنِ فَإِلَى أَيَّتِهِمَا كَانَ أَدْنَى فَهُوَ لَهُ. فَقَاسُوهُ فَوَجَدُوهُ أَدْنَى إِلَى الأَرْضِ الَّتِى أَرَادَ فَقَبَضَتْهُ مَلاَئِكَةُ الرَّحْمَةِ». قَالَ قَتَادَةُ فَقَالَ الْحَسَنُ ذُكِرَ لَنَا أَنَّهُ لَمَّا أَتَاهُ الْمَوْتُ نَأَى بِصَدْرِهِ.

896. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allahın Peyğəmbəri sallallahu aleyhi və səlləm demişdir: “Sizdən əvvəlkilərdən (ümmətlərdən) biri doxsan doqquz adam öldürdü. Dünyada ən çox bilənin kim olduğunu soruşdu və ona bir rahibi göstərdilər. Onun yanına gəlib belə dedi: “Mən doxsan doqquz adam öldürmüşəm”. (Həmçinin) soruşdu: “Buna tövbə varmı?” O dedi: “Xeyr!” Həmin adam rahibi də öldürərək bununla sayı yüzə tamamladı. Sonra dünyada ən çox bilənin kim olduğunu soruşdu və ona bir alimi göstərdilər. Onun yanına gəlib dedi ki, yüz adam öldürmüşəm”. (Həmçinin,) soruşdu: “Buna tövbə varmı?” O dedi: “Bəli! Kim tövbə edənlə tövbəsi arasına girə (tövbə edənə mane ola) bilər? İnsanların Uca Allaha ibadət etdikləri (filan) yerə get, onlarla birgə Allaha ibadət elə və öz torpağına qayıtma, çünki ora pis yerdir”. O yola düşüb yolun yarısına çatmışdı ki, ölüm onu haqladı. Onun görə rəhmət və əzab mələkləri öz aralarında mübahisə etməli oldular. Rəhmət mələkləri dedilər: “O tövbə edərək qəlbi ilə Uca Allaha tərəf gəlmişdir!” Əzab mələkləri isə dedilər: “O həqiqətən heç bir xeyir iş görməmişdir”. Onların yanına insan qiyafəsində bir mələk gəldi. Onu öz aralarında hakim təyin etdilər. O dedi: “Bu iki (gəldiyi yerdən bura və buradan gedəcəyi yerə qədər) məsafəni ölçün, hansına yaxın olarsa, ora da aiddir. Ölçdükdə gördülər ki, gedəcəyi yerə yaxındır və onu (onun ruhunu) rəhmət mələkləri aldılar”. Qatədə Həsənin belə dediyini rəvayət edir: “Bizə deyildiyinə görə: “Bu adama ölüm gəlincə, o, sinəsiylə (o tərəfə doğru) irəliləmişdir (sürünmüşdür)”.[1206]

[1206] Muslim, 7184.

٨٩٧ - عَنْ أَبِي مُوسَى ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ إِنَّ اللَّهَ ﷻ يَبْسُطُ يَدَهُ بِاللَّيْلِ لِيَتُوبَ مُسِيءُ النَّهَارِ وَيَبْسُطُ يَدَهُ بِالنَّهَارِ لِيَتُوبَ مُسِيءُ اللَّيْلِ حَتَّى تَطْلُعَ الشَّمْسُ مِنْ مَغْرِبِهَا"

897. Əbu Musa ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Allah ﷻ gündüz günah edənlərin tövbələrini qəbul etmək üçün gecə Əlini uzadır. Gecə günah edənlərin tövbələrini qəbul etmək üçün də gündüz Əlini uzadır. Bu günəşin şərqdən doğma (əks tərəfdən çıxma) vaxtına qədər belədir".[1207]

İSTİĞFAR ETMƏYİN FƏZİLƏTİ

٨٩٨ - عَنْ عَبْدِ اللهِ بْنِ بُسْرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: "طُوبَى لِمَنْ وَجَدَ فِي كِتَابِهِ اسْتِغْفَاراً كَثِيراً"...."مَنْ أَحَبَّ أَنْ تَسُرَّهُ صَحِيفَتُهُ فَلْيُكْثِرْ فِيهَا مِنَ الاسْتِغْفَارِ"

898. Abdullah ibn Busr ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "(Qiyamət günü) əməl dəftərində çox istiğfar görənə Tubə olsun!" [1208] Digər rəvayətdə deyilir: "Kim əməl səhifəsinin onu sevindirməsini istəyirsə, onu istiğfarla çoxaltsın!"[1209]

٨٩٩ - عَنْ أَبِي بَكْرٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ قَالَ: «مَا مِنْ عَبْدٍ يُذْنِبُ ذَنباً، ثُمَّ يَتَوَضَّأُ، ثُمَّ يُصَلِّي رَكْعَتَيْنِ، ثُمَّ يَسْتَغْفِرُ اللهَ لِذَلِكَ الذَّنْبِ، إِلاَّ غَفَرَ اللهُ لَهُ».

899. Əbu Bəkr ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demiş-dir: "Günah işlətdikdən sonra dəstəmaz alıb iki rükət namaz qılaraq Allahdan günahına görə bağışlanma diləyən elə bir qul yoxdur ki, Allah onu bağışlamasın".[1210]

٩٠٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «لَوْلاَ أَنْ أَشُقَّ عَلَى أُمَّتِي لأَمَرْتُهُمْ بِالسِّوَاكِ مَعَ الْوُضُوءِ وَلأَخَّرْتُ الْعِشَاءَ إِلَى ثُلُثِ اللَّيْلِ أَوْ نِصْفِ اللَّيْلِ فَإِذَا مَضَى ثُلُثُ اللَّيْلِ أَوْ نِصْفُ اللَّيْلِ نَزَلَ إِلَى السَّمَاءِ الدُّنْيَا ﷻ فَقَالَ هَلْ مِنْ سَائِلٍ فَأُعْطِيَهُ هَلْ مِنْ مُسْتَغْفِرٍ فَأَغْفِرَ لَهُ هَلْ مِنْ تَائِبٍ فَأَتُوبَ عَلَيْهِ هَلْ مِنْ دَاعٍ فَأُجِيبَهُ»

[1207] Muslim, 2759, 4954, 7165.

[1208] ən-Nəsəi "Sunənul-Kubra" 1289. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3930) səhih olduğunu bildirmişdir.

[1209] əl-Beyhəqi "Şuabul-İman" 648. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 5955) həsən olduğunu bildirmişdir.

[1210] İbn Hibban, 623; Əbu Yəalə, 13. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

900. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Əgər ümmətim üçün çətin olmasaydı, mən onlara dəstəmazla yanaşı misvakdan istifadə etməyi əmr edərdim və İşa namazını gecənin üçdə birinə və ya yarısına qədər gecikdirərdim. Gecənin üçdə biri və ya yarısı keçdikdə Allah ﷻ dünya səmasına enir və belə deyir: "İstəyən varmı ona verim, bağışlanma diləyən varmı onu bağışlayım, tövbə edən varmı onun tövbəsini qəbul edim, dua edən varmı onun duasını qəbul edim".[1211]

٩٠١ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ سَمِعْتُ النَّبِىَّ ﷺ قَالَ «إِنَّ عَبْدًا أَصَابَ ذَنْبًا – وَرُبَّمَا قَالَ أَذْنَبَ ذَنْبًا – فَقَالَ رَبِّ أَذْنَبْتُ – وَرُبَّمَا قَالَ أَصَبْتُ – فَاغْفِرْ لِى فَقَالَ رَبُّهُ أَعَلِمَ عَبْدِى أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ وَيَأْخُذُ بِهِ غَفَرْتُ لِعَبْدِى. ثُمَّ مَكَثَ مَا شَاءَ اللَّهُ، ثُمَّ أَصَابَ ذَنْبًا أَوْ أَذْنَبَ ذَنْبًا، فَقَالَ رَبِّ أَذْنَبْتُ – أَوْ أَصَبْتُ – آخَرَ فَاغْفِرْهُ. فَقَالَ أَعَلِمَ عَبْدِى أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ وَيَأْخُذُ بِهِ غَفَرْتُ لِعَبْدِى، ثُمَّ مَكَثَ مَا شَاءَ اللَّهُ ثُمَّ أَذْنَبَ ذَنْبًا – وَرُبَّمَا قَالَ أَصَابَ ذَنْبًا – قَالَ قَالَ رَبِّ أَصَبْتُ – أَوْ أَذْنَبْتُ – آخَرَ فَاغْفِرْهُ لِى. فَقَالَ أَعَلِمَ عَبْدِى أَنَّ لَهُ رَبًّا يَغْفِرُ الذَّنْبَ وَيَأْخُذُ بِهِ غَفَرْتُ لِعَبْدِى – ثَلاَثًا – فَلْيَعْمَلْ مَا شَاءَ»

901. Əbu Hureyra ﷺ demişdir: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: "(Bir dəfə Allahın qullarından) biri günah iş gördü və: "Ey Rəbbim, mən günah iş gördüm, məni bağışla!"- dedi. Rəbbi buyurdu: "Mənim qulum bilir ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Mən onu bağışlayıram". Bu adam Allahın istədiyi qədər (günah işlətmədən) yaşadıqdan sonra yenə günah iş gördü və: "Ey Rəbbim, mən yenə günah iş gördüm, günahımı bağışla!"- dedi. Allah buyurdu: "Mənim qulum bilir ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Mən onu bağışlayıram". Bu adam Allahın istədiyi qədər yaşadıqdan sonra bir daha günah iş gördü və: "Ey Rəbbim, mən yenə günah iş gördüm, günahımı bağışla!"- dedi. Allah buyurdu: "Mənim qulum bilir ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Mən onu üç dəfə bağışladım. (Bundan sonra) istədiyini edə bilər".[1212]

٩٠٢ - عَنْ أَبِى سَعِيدٍ الْخُدْرِىِّ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «إِنَّ إِبْلِيسَ قَالَ لِرَبِّهِ بِعِزَّتِكَ وَجَلاَلِكَ لاَ أَبْرَحُ أُغْوِى بَنِى آدَمَ مَا دَامَتِ الأَرْوَاحُ فِيهِمْ. فَقَالَ اللَّهُ فَبِعِزَّتِى وَجَلاَلِى لاَ أَبْرَحُ أَغْفِرُ لَهُمْ مَا اسْتَغْفَرُونِى»

[1211] Əhməd, 9589, 9591, 9220, 9841. Şueyb əl-Arnavut isnadını əl-Buxari və Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[1212] əl-Buxari, 6953, 7507; Muslim, 2758.

902. Əbu Səid əl-Xudri ﷺ demişdir: “Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitdim: “İblis Rəbbinə dedi: “İzzətinə və Ucalığına and olsun! Nə qədər ki, Adəm övladlarının ruhları bədənlərindədir, mən onları azdırmaqdan əl çəkməyəcəyəm”. Allah buyurdu: “İzzətimə və Ucalığıma and olsun! Nə qədər ki, onlar Məndən bağışlanma diləyəcək, Mən onları bağışlayacağam!”[1213]

٩٠٣ - عَنْ أَنَسُ بْنُ مَالِكٍ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «قَالَ اللَّهُ يَا ابْنَ آدَمَ إِنَّكَ مَا دَعَوْتَنِى وَرَجَوْتَنِى غَفَرْتُ لَكَ عَلَى مَا كَانَ فِيكَ وَلاَ أُبَالِى يَا ابْنَ آدَمَ لَوْ بَلَغَتْ ذُنُوبُكَ عَنَانَ السَّمَاءِ ثُمَّ اسْتَغْفَرْتَنِى غَفَرْتُ لَكَ وَلاَ أُبَالِى يَا ابْنَ آدَمَ إِنَّكَ لَوْ أَتَيْتَنِى بِقُرَابِ الأَرْضِ خَطَايَا ثُمَّ لَقِيتَنِى لاَ تُشْرِكُ بِى شَيْئًا لأَتَيْتُكَ بِقُرَابِهَا مَغْفِرَةً»

903. Ənəs ibn Məlik ﷺ demişdir: “Mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: “Allah buyurur: “Ey Adəm oğlu! Nə qədər ki, sən Mənə dua (istiğfar) edib Mənə ümid bəsləyirsən, sənin nələr etdiyinə baxmayaraq səni bağışlayaram. Ey Adəm oğlu! Əgər sənin günahların göyün buludlarına qədər çatsa, sonra Məndən bağışlanma diləsən, Mən səni bağışlayaram. Ey Adəm oğlu! Əgər sən Mənim hüzuruma yer boyda günahla Mənə heç bir şeyi şərik qoşmadan gəlsən, Mən də yer boyda bağışlanma ilə səni qarşılayaram”.[1214]

٩٠٤ - عَنْ أَبِي طَوِيلٍ شَطَبِ الْمَمْدُودِ ﷺ أَنَّهُ أَتَى رَسُولَ اللَّهِ ﷺ فَقَالَ: أَرَأَيْتَ رَجُلا عَمِلَ الذُّنُوبَ كُلَّهَا، فَلَمْ يَتْرُكْ مِنْهَا شَيْئًا، وَهُوَ فِي ذَلِكَ لَمْ يَتْرُكْ حَاجَةً وَلا دَاجَةً إِلا أَتَاهَا، فَهَلْ لَهُ مِنْ تَوْبَةٍ؟ قَالَ: "فَهَلْ أَسْلَمْتَ؟" قَالَ: أَمَّا أَنَا فَأَشْهَدُ أَنْ لا إِلَهَ إِلا اللَّهُ، وَحْدَهُ لا شَرِيكَ لَهُ، وَأَنَّكَ رَسُولُ اللَّهِ، قَالَ: "نَعَمْ, تَفْعَلُ الْخَيْرَاتِ، وَتَتْرُكُ السَّيِّئَاتِ، فَيَجْعَلُهُنَّ اللَّهُ لَكَ خَيْرَاتٍ كُلَّهُنَّ"، قَالَ: وَغَدَرَاتِي وَفَجَرَاتِي؟ قَالَ: "نَعَمْ"، قَالَ: اللَّهُ أَكْبَرُ، فَمَا زَالَ يُكَبِّرُ حَتَّى تَوَارَى.

904. Əbu Tavil Şətab əl-Məmdud ﷺ rəvayət edir ki, o, Allah Elçisinin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: “Sən heç bir günah buraxmadan bütün günahları edən kişi görmüsənmi? O, nəfsinin istədiyi elə bir günah yoxdur ki, onu etməsin. Ona tövbə varmı?” Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Sən İslamı qəbul etmisən?” O dedi: “Mənə gəlincə, mən şahidlik edirəm ki, Allahdan başqa haqq ilah yoxdur, O təkdir, şəriki yoxdur və sən Allahın Elçisisən!” Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Bəli, xeyir əməllər et, pis əməlləri tərk et! (Belə etsən) Allah pis əməl-

[1213] Əhməd, 11240, 11262, 11548, 11677. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 104) və “Sahihul-Cəmius-Sağir”də (№ 1650) səhih olduğunu bildirmişdir.
[1214] ət-Tirmizi, 3540, 3885. əl-Albani səhih olduğunu qeyd etmişdir.

lərinin hamısını sənin üçün xeyir əməllərə çevirər". O dedi: "Fırıldaq və günah əməllərimi də?" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Bəli". O da: "Allahu Əkbər!"– deyə-deyə gözdən itdi".[1215]

٩٠٥ - عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ ﷺ: أَنَّ رَجُلاً جَاءَ إِلَى رَسُوْلِ اللهِ ﷺ فَقَالَ: أَحَدُنَا يُذْنِبُ قَالَ: «يُكْتَبُ عَلَيْهِ». قَالَ: ثُمَّ يَسْتَغْفِرُ مِنْهُ وَيَتُوبُ قَالَ: «يُغْفَرُ لَهُ وَيُتَابُ عَلَيْهِ». قَالَ: فَيَعُودُ فَيُذْنِبُ قَالَ: «يُكْتَبُ عَلَيْهِ». قَالَ: ثُمَّ يَسْتَغْفِرُ مِنْهُ وَيَتُوبُ قَالَ: «يُغْفَرُ لَهُ وَيُتَابُ عَلَيْهِ، وَلاَ يَمَلُّ اللهُ حَتَّى تَمَلُّوا».

905. Uqbə ibn Amir ﷺ demişdir: "Bir kişi Allah Elçisinin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: "Birimiz günah etikdə (nə olur)?" O buyurdu: "Ona günah yazılır". Kişi dedi: "Sonra o günahdan bağışlanma diləyib tövbə etdikdə (nə olur)?" O buyurdu: "Günahı bağışlanır və tövbəsi qəbul olunur". Kişi dedi: "Həmin günaha qayıtdıqda, (nə olur)?" O buyurdu: "Ona günah yazılır". Kişi dedi: "Sonra o günahdan bağışlanma diləyib tövbə etdikdə (nə olur)?" O buyurdu: "Günahı bağışlanır və tövbəsi qəbul olunur. Siz usanmadıqca, Allah usanmaz".[1216]

٩٠٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لَوْ أَخْطَأْتُمْ حَتَّى تَبْلُغَ خَطَايَاكُمُ السَّمَاءَ ثُمَّ تُبْتُمْ لَتَابَ عَلَيْكُمْ».

906. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Əgər sizin günahlarınız səmaya çatsa belə, sonra tövbə etsəniz, Allah tövbənizi qəbul edər".[1217]

٩٠٧ - عَنْ أَبِي أُمَامَةَ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ قَالَ: «إِنَّ صَاحِبَ الشِّمَالِ لَيَرفَعُ الْقَلَمَ سِتَّ سَاعَاتٍ عَنِ الْعَبْدِ الْمُسْلِمِ الْمُخْطِئِ أَوْ الْمُسِيءِ، فَإِنْ نَدِمَ وَاسْتَغْفَرَ اللهَ مِنْهَا أَلْقَاهَا، وَإِلاَّ كُتِبَتْ وَاحِدَةً».

907. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, sol tərəfdə olan mələk günah etmiş müsəlman bəndədən qələmi altı saat qaldıraraq (heç nə yazmır). Əgər o, (bu müddətdə) peşman olub Allahdan bağışlanmağını diləsə, istəyinə çatar. Yox, əgər bunu etməsə, ona bir günah yazılar".[1218]

[1215] ət-Təbərani "Mucəmul-Kəbir" 7085, 7235. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3164) səhih olduğunu bildirmişdir.

[1216] əl-Hakim, 7658. əl-Hakim "Bu hədisi əl-Buxari və Muslim rəvayət etməsələr də, onların şərtlərinə görə səhihdir" demiş, əz-Zəhəbi də onunla razılaşmışdır.

[1217] İbn Məcə, 4248, 4389. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[1218] ət-Təbərani "Mucəmul-Kəbir" 7765. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2097) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1209) həsən olduğunu bildirmişdir.

٩٠٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «الْمَلاَئِكَةُ تُصَلِّي عَلَى أَحَدِكُمْ مَا دَامَ فِي مُصَلاَّهُ الَّذِي صَلَّى فِيهِ مَا لَمْ يُحْدِثْ أَوْ يَقُمِ اللَّهُمَّ اغْفِرْ لَهُ اللَّهُمَّ ارْحَمْهُ» «...اللَّهُمَّ اغْفِرْ لَهُ اللَّهُمَّ ارْحَمْهُ اللَّهُمَّ تُبْ عَلَيْهِ»

908. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Biriniz namazgahında namaz qıldığı müddətdə dəstəmazı pozulmayınca (və ya boş söhbətlər etməyincə) və ayağa qalxmayınca mələklər onun üçün dua edərək deyirlər: "Allahım, onu bağışla, Allahım, ona rəhm et!" [1219] Digər rəvayətdə belə əlavə vardır: "...Allahım, onu bağışla! Allahım, ona rəhm et! Allahım onun tövbəsini qəbul et!" [1220]

٩٠٩ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو رضي الله عنهما عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ اللَّهَ ﷻ لَيَقْبَلُ تَوْبَةَ الْعَبْدِ مَا لَمْ يُغَرْغِرْ».

909. Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, Allah ﷻ qulun tövbəsini ölüm xırıltısı gələnə qədər qəbul edir".[1221]

٩١٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لا يَسْتُرُ اللهُ عَلَى عَبْدٍ فِي الدُّنْيَا إِلاَّ سَتَرَهُ اللهُ يَوْمَ الْقِيَامَةِ».

910. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Allah dünyada bir qulunun günahını örtərsə, Qiyamət günündə də onun günahını örtər".[1222]

٩١١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ لَنْ يُدْخِلَ أَحَدًا عَمَلُهُ الْجَنَّةَ قَالُوا وَلاَ أَنْتَ يَا رَسُولَ اللَّهِ قَالَ: لاَ وَلاَ أَنَا إِلاَّ أَنْ يَتَغَمَّدَنِي اللَّهُ بِفَضْلٍ وَرَحْمَةٍ فَسَدِّدُوا وَقَارِبُوا وَلاَ يَتَمَنَّيَنَّ أَحَدُكُمُ الْمَوْتَ إِمَّا مُحْسِنًا فَلَعَلَّهُ أَنْ يَزْدَادَ خَيْرًا وَإِمَّا مُسِيئًا فَلَعَلَّهُ أَنْ يَسْتَعْتِبَ.

911. Əbu Hureyra ﷺ demişdir: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: "Heç bir kəsi əməlləri Cənnətə daxil edə bilməz." (Əshabələr): "Səni də, ey Allahın Elçisi?"– deyə soruşdular. Dedi: "Hətta məni də. Yalnız Allahın mənə mərhəmət göstərməsi və mənə rəhm etməsi istisnadır. Elə isə doğru yol tutun, (ən kamil olanı yerinə yetirə bilməsəniz, heç olmasa ona) yaxınlaşın! Sizdən heç kəs özünə ölüm diləməsin. (Əgər o, həyatda qalarsa,) əməlisaleh adamdırsa, yaxşı işlər görüb savabını artırar,

---

[1219] Əbu Davud, 469. əl-Albani səhih olduğunu bildirmişdir.
[1220] Əhməd, 7424, 7637. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3823) səhih olduğunu bildirmişdir.
[1221] İbn Məcə, 4243, 4394. əl-Albani həsən olduğunu bildirmişdir.
[1222] Muslim, 2950, 6759.

yox günahkar adamdırsa, ola bilər ki, tövbə etsin".[1223]

٩١٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ مَنْ تَابَ قَبْلَ أَنْ تَطْلُعَ الشَّمْسُ مِنْ مَغْرِبِهَا تَابَ اللَّهُ عَلَيْهِ

912. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim günəş batdığı yerdən çıxmadan əvvəl tövbə edərsə, Allah onun tövbəsini qəbul edər".[1224]

٩١٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «لَلَّهُ أَفْرَحُ بِتَوْبَةِ أَحَدِكُمْ مِنْ أَحَدِكُمْ بِضَالَّتِهِ إِذَا وَجَدَهَا».

913. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "İtirdiyini tapan necə sevinirsə, Allah sizdən birinizin tövbə etməsinə ondan çox sevinir".[1225]

٩١٤ - عَنْ أَنَسٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ «كُلُّ ابْنِ آدَمَ خَطَّاءٌ وَخَيْرُ الْخَطَّائِينَ التَّوَّابُونَ».

914. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Hər bir Adəm oğlu günah edəndir. Günah edənlərin ən xeyirliləri isə tövbə edənlərdir".[1226]

٩١٥ - عَنْ عَائِشَةَ ﷺ قَالَتْ قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ قَالَ إِنْ كُنْتِ أَلْمَمْتِ بِذَنْبٍ فاسْتَغْفِرِي اللَّهَ وتُوبِي إِلَيْهِ فإنّ التَّوْبَةَ مِنَ الذَّنْبِ النَّدَمُ والاسْتِغْفارُ

915. Aişə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm mənə buyurdu: "Bir günah etmiş olsan, Allahdan bağışlanma dilə və Ona tövbə et! Çünki tövbə peşman olmaq və bağışlanma diləməklə olur".[1227]

٩١٦ - عَنْ أَبِي سَعِيدٍ الأَنْصَارِيُّ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: النَّدَمُ تَوْبَةٌ و التَّائِبُ مِنَ الذَّنْبِ كَمَنْ لا ذَنْبَ لَهُ.

916. Əbu Səid əl-Ənsari ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Peşmançılıq tövbədir. Günahdan tövbə edən, günah etməyən kimidir".[1228]

[1223] əl-Buxari, 5673.
[1224] Muslim, 2703, 4872.
[1225] ət-Tirmizi, 3538, 3882; İbn Məcə, 4247. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[1226] ət-Tirmizi, 2499, 2687. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4515) həsən olduğunu söyləmişdir.
[1227] İbn Hibban, 624. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1433) səhih olduğunu bildirmişdir.
[1228] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 9316, 12730; ət-Tabərani "Mucəmul-Kəbir" 10128, 10281. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6803) həsən olduğunu qeyd etmişdir.

ALLAHI RAZI SALMAQ İSTƏYİ

٩١٧ - عَنْ ثَوْبَانَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «إِنَّ الْعَبْدَ لَيَلْتَمِسُ مَرْضَاةَ اللَّهِ وَلاَ يَزَالُ بِذَلِكَ فَيَقُولُ اللَّهُ ﷻ لِجِبْرِيلَ إِنَّ فُلاَنًا عَبْدِى يَلْتَمِسُ أَنْ يُرْضِيَنِى أَلاَ وَإِنَّ رَحْمَتِى عَلَيْهِ. فَيَقُولُ جِبْرِيلُ رَحْمَةُ اللَّهِ عَلَى فُلاَنٍ. وَيَقُولُهَا حَمَلَةُ الْعَرْشِ وَيَقُولُهَا مَنْ حَوْلَهُمْ حَتَّى يَقُولَهَا أَهْلُ السَّمَوَاتِ السَّبْعِ ثُمَّ تَهْبِطُ لَهُ إِلَى الأَرْضِ»

917. Səubən ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Həqiqətən, qul daim Allahın razılığını axtarır. Allah ﷻ Cəbrailə buyurur: "Filan qulum Məni razı salmaq istəyir. Sözsüz ki, Mən ona rəhm etdim". Cəbrail: "Allah filankəsə rəhm etdi"- deyir. Ərşi daşıyan və onun ətrafında olanlar, hətta yeddi səma əhli də bunu söyləyirlər. Sonra bu onun üçün yer üzərinə enir".[1229]

ALLAH KİMİ SEVƏRSƏ...

٩١٨ - عَنْ قَتَادَةَ بْنِ النُّعْمَانِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «إِذَا أَحَبَّ اللَّهُ عَبْدًا حَمَاهُ الدُّنْيَا كَمَا يَظَلُّ أَحَدُكُمْ يَحْمِى سَقِيمَهُ الْمَاءَ».

918. Qatədə ibn Numan ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Siz, xəstənizin vəziyyətinin ağırlaşmasından qorxaraq onu su içməkdən qoruduğunuz kimi, Allah da bir qulu sevdikdə onu dünyadan qoruyur".[1230]

٩١٩ - عَنْ عَمْرِو بْنِ الْحَمِقِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: إِذَا أَحَبَّ اللَّهُ عَبْدًا عَسَلَهُ. قَالَ: يَا رَسُولَ اللهِ وَمَا عَسَلَهُ؟ قَالَ: يُوَفِّقُ لَهُ عَمَلاً صَالِحًا بَيْنَ يَدَيْ أَجَلِهِ حَتَّى يَرْضَى عَنْهُ جِيرَانُهُ أَوْ قَالَ: مَنْ حَوْلَهُ.

919. Amr ibn əl-Həmiq ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allah bir qulu sevdikdə, onu insanlara sevdirər". Soruşdular: "Ey Allahın Elçisi, necə sevdirər?" O buyurdu: "Onu ölümündən qabaq qonşuları və ya ətrafındakı insanları ondan razı edənədək yaxşı əməl etməyə müvəffəq edər".[1231]

[1229] Əhməd, 21367, 22401, 22454. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.
[1230] ət-Tirmizi, 2036, 2168. əl-Albani səhih olduğunu bildirmişdir.
[1231] əl-Hakim, 1258. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3358) səhih olduğunu bildirmişdir.

HƏR HANSI BİR CANLIYA EDİLƏN YAXŞILIQ BAĞIŞLANMAĞA SƏBƏB OLA BİLƏR

٩٢٠ - عن أبي هريرة ﷺ أن رسول الله ﷺ قال بينما رجل يمشي بطريق اشتد به العطش فوجد بئرا فنزل فيها فشرب ثم خرج فإذا كلب يلهث يأكل الثرى من العطش فقال الرجل لقد بلغ هذا الكلب من العطش مثل الذي كان بلغني فنزل البئر فملأ خفاه ثم أمسكها بفيه فسقى الكلب فشكر الله له فغفر له قالوا يا رسول الله وإن لنا في البهائم أجرا قال في كل كبد رطبة أجر

920. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Bir kişi yolla gedərkən susadı. O, bir quyu tapıb içinə girdi. Doyunca su içib bayıra çıxdıqda bir itin ləhlədiyini, susuzluqdan yaş torpaq yediyini görüb, öz-özünə: "Mən susadığım kimi bu it də susamışdır"- dedi və quyuya düşüb ayaqqabılarını su ilə doldurdu. Sonra onu ağzı ilə tutub (quyunun divarlarından yapışaraq yuxarı qalxıb) itə su verdi. Allah ona təşəkkür etdi və onu bağışladı". (Səhabələr) dedilər: "Ey Allahın elçisi! Məgər heyvanlara görə də bizə savab var?" O dedi: "Hər bir canlıya edilən yaxşılıqda savab vardır".[1232]

٩٢١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «بَيْنَمَا كَلْبٌ يُطِيفُ بِرَكِيَّةٍ قَدْ كَادَ يَقْتُلُهُ الْعَطَشُ إِذْ رَأَتْهُ بَغِيٌّ مِنْ بَغَايَا بَنِي إِسْرَائِيلَ فَنَزَعَتْ مُوقَهَا فَاسْتَقَتْ لَهُ بِهِ فَسَقَتْهُ إِيَّاهُ فَغُفِرَ لَهَا بِهِ».

921. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Az qala susuzluqdan oləcək bir it quyunun ətrafında fırlanırdı. Bu zaman onu İsrail övladlarından olan zinakar bir qadın gördü. Qadın dəri corabını çıxarıb su ilə doldurdu və sonra da itə su verdi. Bununla da onun günahları bağışlandı".[1233]

ALLAH SEVGİSİ

٩٢٢ - عَنْ مُعَاذِ بن جَبَلٍ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: «إِنَّ الْمُتَحَابِّينَ فِي اللَّهِ فِي ظِلِّ الْعَرْشِ».

922. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Şübhəsiz ki, Allah rizası üçün bir-birlərini sevənlər (Qiyamət günü) Ərşin kölgəsində olacaqlar".[1234]

[1232] əl-Buxari "Ədəbul-Mufrad" 378. əl-Albani səhih olduğunu bildirmişdir.

[1233] Muslim, 5998; əl-Buxari, 3467.

[1234] ət-Tabərani "Mucəmul-Kəbir" 147, 16572. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1937) səhih olduğunu bildirmişdir.

٩٢٣ - يَرْفَعُهُ أَبُو الدَّرْدَاءِ ﷺ قَالَ: "مَا مِنْ رَجُلَيْنِ تَحَابَّا فِي اللَّهِ بِظَهْرِ الْغَيْبِ إِلا كَانَ أَحَبُّهُمَا إِلَى اللَّهِ أَشَدَّهُمَا حُبًّا لِصَاحِبِهِ".

923. Əbud-Dərdə ﷺ mərfu olaraq rəvayət edir: "Allah xatirinə bir-birilərini görmədən sevən iki kişidən Allaha ən sevimli olanı dostunu ən çox sevəndir".[1235]

٩٢٤ - عن أنس ﷺ قال قال النبي ﷺ ما تحابا الرجلان إلا كان أفضلهما أشدهما حبا لصاحبه

924. Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm dedi: "Bir-birini sevən iki kişinin ən fəzilətlisi, əlbəttə ki, qardaşına sevgisi daha çox olanıdır".[1236]

٩٢٥ - عن أبي الدرداء ﷺ قال: قال رسول الله ﷺ: "ليبعثن الله أقواماً يوم القيامة في وجوههم النور على منابر اللؤلؤ، يغبطهم الناس، ليسوا بأنبياء ولا شهداء". قال: فجثا أعرابي على ركبتيه فقال: يا رسول الله حلهم لنا نعرفهم. قال: هم المتحابون في الله، من قبائل شتى وبلاد شتى، يجتمعون على ذكر الله يذكرونه.

925. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Qiyamət günü Allah üzləri nur saçan qövmlər həşr edəcək. Onlar mirvaridən düzəldilən minbərlərin üzərində duracaqlar, insanlar onlara qibtə edəcəklər, halbuki, onlar nə peyğəmbərlər, nə də şəhidlər olacaqlar". Bir bədəvi diz üstə çökərək dedi: "Ey Allahın Elçisi, onları vəsf et ki, biz onları tanıyaq". O buyurdu: "Onlar müxtəlif tayfalardan və ölkələrdən olub, bir-birilərini Allaha görə sevənlərdir. Onlar bir yerə toplanaraq Allahı zikr edirlər".[1237]

٩٢٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ مِنْ عِبَادِ اللهِ عِبَاداً لَيْسُوا بِأَنْبِيَاءَ، يَغْبِطهُمْ الأَنْبِيَاءُ وَالشُّهَدَاءُ». قِيْلَ: مَنْ هُمْ لَعَلَّنَا نُحِبَّهُمْ؟ قَالَ: «هُمْ قَوْمٌ تَحَابُوا بِنُورِ اللهِ مِنْ غَيْرِ أَرْحَامٍ وَلاَ انْتِسَابٍ، وُجُوْهُهُمْ نُورٌ عَلَى مَنَابِرَ مِنْ نُورٍ، لاَ يَخَافُونَ إِذَا خَافَ النَّاسُ وَلاَ يَحْزَنُونَ إِذَا حزِنَ النَّاس ثُمَّ قَرَأَ ﴿**أَلا إِنَّ أَوْلِيَاءَ اللهِ لاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونْ**﴾».

926. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm

---

[1235] ət-Təbərani "Mucəmul-Kəbir" 1798. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3016) səhih olduğunu bildirmişdir.

[1236] əl-Buxari "Ədəbul-Mufrad" 544. əl-Albani səhih olduğunu bildirmişdir.

[1237] əl-Heysəmi "Məcməuz-Zəvaid" 16770. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1509) səhih olduğunu bildirmişdir.

demişdir: “Həqiqətən, Allahın elə qulları vardır ki, onlar peyğəmbər deyillər, (lakin) peyğəmbərlər və şəhidlər onlara qibtə edirlər”. Dedilər: “Onları bizə bildir, biz də onları sevək”. O buyurdu: “Onlar, aralarında qohumluq əlaqələri olmadan Allahın nuru ilə bir-birlərini sevən bir qövmdür. (Qiyamət günü) onlar nurdan düzəldilən minbərlərin üzərində üzləri nur saçaraq duracaqlar. Onlar, insanlar qorxduğu zaman qorxmazlar və insanlar kədərləndiyi zaman da kədərlənməzlər”. Sonra Allah Elçisi sallallahu aleyhi və səlləm bu ayəni oxudu: “***Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər***” *(Yunus, 62)*”.[1238]

٩٢٧ - عن أنس ﷺ أن رَسُوْلُ اللهِ ﷺ قال ما تواد اثنان في الله ﷻ أو في الإسلام فيفرق بينهما أول ذنب يحدثه أحدهما

927. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: “İki nəfərdən birinin etdiyi günah onların arasını vursa, bu iki nəfər bir-birini Allah ﷻ xatirinə və yaxud din yolunda sevmiş sayılmazlar”.[1239]

ALLAH RİZASI ÜÇÜN SEVƏN BUNU BİLDİRMƏLİDİR

٩٢٨ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ أَنَّ رَجُلاً كَانَ عِنْدَ النَّبِىِّ ﷺ فَمَرَّ بِهِ رَجُلٌ فَقَالَ يَا رَسُولَ اللَّهِ إِنِّى لأُحِبُّ هَذَا. فَقَالَ لَهُ النَّبِىُّ ﷺ «أَعْلَمْتَهُ». قَالَ لاَ قَالَ «أَعْلِمْهُ». قَالَ فَلَحِقَهُ فَقَالَ إِنِّى أُحِبُّكَ فِى اللَّهِ. فَقَالَ أَحَبَّكَ الَّذِى أَحْبَبْتَنِى لَهُ.

928. Rəvayət edilir ki, Ənəs ibn Məlik ﷺ demişdir: “(Bir gün) Peyğəmbərin sallallahu aleyhi və səlləm yanında olan bir kişi yaxından keçən bir adamı görüb dedi: “Ey Allahın Elçisi, mən bu adamı sevirəm!” Peyğəmbər sallallahu aleyhi və səlləm ondan soruşdu: “(Bunu) ona bildirmisən?” O: “Xeyr!”- deyə cavab verdikdə, Peyğəmbər sallallahu aleyhi və səlləm: “Get ona bildir!”- deyə buyurdu. O, həmin adamın yanına çatıb dedi: “Həqiqətən, mən səni Allah xatirinə sevirəm![1240]” O: “Məni kimin xatirinə sevirsənsə, O da səni sevsin![1241]”- dedi”.[1242]

[1238] İbn Hibban, 572. əl-Albani səhih olduğunu bildirmişdir.
[1239] əl-Buxari “Ədəbul-Mufrad” 401. əl-Albani səhih olduğunu bildirmişdir.
[1240] Transkripsiyası: İnni uhibbukə filləh.
[1241] Transkripsiyası: Əhəbbəkəlləzi əhbəbtəni ləhu.
[1242] Əbu Davud, 5125, 5127. əl-Albani hədisin həsən olduğunu bildirmişdir.

RƏHMLİ OL Kİ, ALLAH DA SƏNƏ RƏHM ETSİN

٩٢٩ - عن أبي هريرة ﷺ قال أتى النبي ﷺ رجل ومعه صبي فجعل يضمه إليه فقال النبي ﷺ أترحمه قال نعم قال فالله ارحم بك منك به وهو ارحم الراحمين

929. Əbu Hureyra ﷺ deyir ki, bir kişi qucağındakı körpə uşaqla Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəldi. O, körpəni bərk-bərk qucaqlamışdı. Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Ona rəhm edirsənmi?" Kişi: "Bəli"- deyə cavab verdi. Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Sən ona rəhm etdiyindən daha çox Allah ona rəhm edir. O rəhmlilərin ən Rəhmlisidir".[1243]

٩٣٠ - عَنْ عَائِشَةَ ﷺ أَنَّهَا قَالَتْ جَاءَتْنِي مِسْكِينَةٌ تَحْمِلُ ابْنَتَيْنِ لَهَا فَأَطْعَمْتُهَا ثَلَاثَ تَمَرَاتٍ فَأَعْطَتْ كُلَّ وَاحِدَةٍ مِنْهُمَا تَمْرَةً وَرَفَعَتْ إِلَى فِيهَا تَمْرَةً لِتَأْكُلَهَا فَاسْتَطْعَمَتْهَا ابْنَتَاهَا فَشَقَّتْ التَّمْرَةَ الَّتِي كَانَتْ تُرِيدُ أَنْ تَأْكُلَهَا بَيْنَهُمَا فَأَعْجَبَنِي شَأْنُهَا فَذَكَرْتُ الَّذِي صَنَعَتْ لِرَسُولِ اللَّهِ ﷺ فَقَالَ إِنَّ اللَّهَ قَدْ أَوْجَبَ لَهَا بِهَا الْجَنَّةَ أَوْ أَعْتَقَهَا بِهَا مِنْ النَّارِ ....فقال وما يعجبك من ذلك لقد رحمها الله برحمتها صبيبها

930. Aişə ﷺ rəvayət edir: "(Bir gün) mənim yanıma iki qızını üstündə gəzdirən yoxsul bir qadın gəldi. Mən də ona üç dənə xurma verdim. O da qızlarının hərəsinə bir xurma verdi. Qalan bir xurmanı yemək üçün ağzına apardıqda, qızlarının onu da yemək istədiklərini görüb xurmanı aralarında bölüşdürdü. Qadının bu hərəkəti çox xoşuma gəldi və onun etdiyi bu əməli haqqında Allah Elçisinə sallallahu aleyhi və səlləm söylədim. O da belə buyurdu: "Həqiqətən, Allah bu əməlinə görə onun üçün Cənnəti vacib etmişdir və ya Cəhənnəm odundan azad etmişdir".[1244] Digər rəvayətdə deyilir: "...(Allah Elçisi sallallahu aleyhi və səlləm) dedi: "Səni təəccübləndirən nədir? O, körpələrinə rəhm etdiyinə görə, Allah da ona rəhm etdi".[1245]

٩٣١ - عن عبد الله بن عمرو بن العاص ﷺ عن النبي ﷺ قال ارحموا ترحموا واغفروا يغفر الله لكم ويل لأقماع القول ويل للمصرين الذين يصرون على ما فعلوا وهم يعلمون

931. Abdullah ibn Amr ibn As ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Rəhm edin ki, sizə də rəhm edilsin, bağışlayın ki, Allah da

---

[1243] əl-Buxari "Ədəbul-Mufrad" 377. əl-Albani isnadının səhih olduğunu bildirmişdir.
[1244] Muslim, 2630, 4764, 6863.
[1245] əl-Buxari "Ədəbul-Mufrad" 89. əl-Albani səhih olduğunu bildirmişdir.

sizi bağışlasın. Söz qıflarının[1246] vay halına. Bilə-bilə etdikləri şeylərdə inadkarlıq göstərən inadkarların vay halına".[1247]

٩٣٢ - عن أبي أمامة ﷺ قال قال رسول الله ﷺ من رحم ولو ذبيحة رحمه الله يوم القيامة

932. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Kim bir qurbanlıq heyvanına rəhm etsə, Allah da ona Qiyamət günü rəhm edər".[1248]

٩٣٣ - عن معاوية بن قرة عن أبيه ﷺ قال قال رجل يا رسول الله إني لأذبح الشاة فأرحمها أو قال إني لأرحم الشاة أن أذبحها قال والشاة ان رحمتها رحمك الله مرتين

933. Muaviyə ibn Qurra atasından ﷺ rəvayət edir ki, bir kişi (Allah Elçisinə sallәllahu aleyhi və sәlləm) dedi: "Ey Allahın Elçisi! Mən qoç kəsdikdə ona yazığım gəlir", yaxud: "Mənim qoç kəsməyə əlim gəlmir". Allah Elçisi sallәllahu aleyhi və sәlləm iki dəfə təkrar edərək dedi: "Sənin qoça yazığın gəlsə, Allahın da sənə yazığı gələr".[1249]

٩٣٤ - عَنْ جَرِيْرٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ لاَ يَرْحَمْ لاَ يُرحَمْ، وَمَنْ لاَ يَغْفِرْ لاَ يُغْفَرُ لَهُ، وَمَنْ لاَ يَتُوبُ لاَ يُتَابُ عَلَيْهِ».

934. Cərir ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Rəhm etməyənə rəhm edilməz, bağışlamayan bağışlanmaz, tövbə etməyənin də tövbəsi qəbul olunmaz!"[1250]

٩٣٥ - عن أبي عثمان أن عمر ﷺ استعمل رجلا فقال العامل أن لي كذا وكذا من الولد ما قبلت واحدا منهم فزعم عمر أو قال عمر إن الله ﷻ لا يرحم من عباده إلا أبرهم

935. Əbu Osman rəvayət edir ki, Ömər ﷺ bir kişiyə iş tapşırdı. Kişi dedi: "Mənim filan qədər övladım var, amma onlardan heç birini öpməmişəm". Ömər ﷺ dedi: "Allah ﷻ qullarından yalnız qayğıkeş olanlara rəhm edir".[1251]

[1246] "Söz qıfı" dedikdə sözü bu qulağından alıb, o biri qulağından ötürənlər nəzərdə tutulur.
[1247] əl-Buxari "Ədəbul-Mufrad" 380. əl-Albani səhih olduğunu bildirmişdir.
[1248] əl-Buxari "Ədəbul-Mufrad" 381. əl-Albani həsən olduğunu bildirmişdir.
[1249] əl-Buxari "Ədəbul-Mufrad" 373. əl-Albani səhih olduğunu bildirmişdir.
[1250] ət-Təbərani "Mucəmul-Kəbir" 2476. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6600) səhih olduğunu bildirmişdir.

٩٣٦ - عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ ﷺ قَدِمَ عَلَى النَّبِيِّ ﷺ سَبْيٌ فَإِذَا امْرَأَةٌ مِنْ السَّبْيِ قَدْ تَحْلُبُ ثَدْيَهَا تَسْقِي إِذَا وَجَدَتْ صَبِيًّا فِي السَّبْيِ أَخَذَتْهُ فَأَلْصَقَتْهُ بِبَطْنِهَا وَأَرْضَعَتْهُ فَقَالَ لَنَا النَّبِيُّ ﷺ أَتُرَوْنَ هَذِهِ طَارِحَةً وَلَدَهَا فِي النَّارِ قُلْنَا لاَ وَهِيَ تَقْدِرُ عَلَى أَنْ لاَ تَطْرَحَهُ فَقَالَ لَلَّهُ أَرْحَمُ بِعِبَادِهِ مِنْ هَذِهِ بِوَلَدِهَا.

936. Ömər ibn Xəttab ﷺ rəvayət edir ki, (bir dəfə döyüşdə götürülmüş) əsirləri Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gətirdilər. Əsirlər arasında olan bir qadın döşündən süd sağıb (körpələrə) içirdirdi. Əsirlər arasında körpə uşaq tapan kimi onu qucağına alıb əmizdirirdi". Onda Peyğəmbər sallallahu aleyhi və səlləm bizdən soruşdu: "Sizcə bu qadın körpəsini oda atarmı?" Biz dedik: "Əgər bu ixtiyar onun əlində olsa, xeyr, (atmaz)". Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Allahın Öz qullarına olan mərhəməti bu qadının körpəsinə olan mərhəmətindən (qat-qat) üstündür".[1252]

٩٣٧ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ رَحِمَ وَلَوْ ذَبِيْحَةَ عَصْفُورٍ، رَحِمَهُ اللهُ يَومَ الْقِيَامَةِ».

937. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kim bir balaca quşun belə kəsilməsinə rəhm edərsə, Qiyamət günü Allah ona rəhm edər".[1253]

ALLAH RİZASININ FƏZİLƏTİ

٩٣٨ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنِ اسْتَعَاذَ بِاللَّهِ فَأَعِيذُوهُ وَمَنْ سَأَلَكُمْ بِاللَّهِ فَأَعْطُوهُ وَمَنِ اسْتَجَارَ بِاللَّهِ فَأَجِيرُوهُ وَمَنْ آتَى إِلَيْكُمْ مَعْرُوفًا فَكَافِئُوهُ فَإِنْ لَمْ تَجِدُوا فَادْعُوا لَهُ حَتَّى تَعْلَمُوا أَنْ قَدْ كَافَأْتُمُوهُ»....«وَمَنْ دَعَاكُمْ فَأَجِيبُوهُ»

938. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: "Kim Allaha sığınaraq sizdən sığınacaq istəyərsə, ona sığınacaq verin! Kim Allah xatirinə sizdən istəyərsə, ona istədiyini verin! Kim Allah xatirinə sizdən aman diləyərsə, ona aman verin! Kim də sizə bir yaxşılıq edərsə, onun əvəzini verin! Əgər əvəzini verəcək bir şey tapmasanız, ona əvəz verdyinizə əmin olana qədər onun üçün dua edin!"[1254] Digər rəva-

---

[1251] əl-Buxari "Ədəbul-Mufrad" 99. əl-Albani olduğunu bildirmişdir.

[1252] əl-Buxari, 5999.

[1253] ət-Təbərani "Mucəmul-Kəbir" 7915. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6261) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 27) həsən olduğunu bildirmişdir.

[1254] Nəsəi, 2566, 2579. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

yətdə bu əlavə vardır: “Kim sizi (Allah xatirinə) çağırarsa, onun çağırışını qəbul edin”.[1255]

٩٣٩ - عن أنس بن مالك ﷺ يقول كان النبي ﷺ رحيما وكان لا يأتيه أحد إلا وعده وأنجز له إن كان عنده وأقيمت الصلاة وجاءه أعرابى فأخذ بثوبه فقال إنما بقى من حاجتي يسيرة وأخاف أنساها فقام معه حتى فرغ من حاجته ثم اقبل فصلى

939. Ənəs ﷺ demişdir: “Peyğəmbər sallәllahu aleyhi və sәlləm rəhmli idi. Onun yanına kim gələrdisə ona söz verər, sonra da imkan daxilində ona köməklik edərdi. Namaza iqamə verildiyi zaman bir bədəvi gəlib onun ətəyindən tutdu və dedi: “Mənim bir az ehtiyacım var, qorxuram yadımdan çıxa”. Peyğəmbər sallәllahu aleyhi və sәlləm gedib onun ehtiyacını ödədikdən sonra qayıdıb namazı qıldırdı”.[1256]

ALLAHIN VERDİYİ RÜXSƏTLƏRDƏN İSTİFADƏ EDİN!

٩٤٠ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ يُحِبُّ أَنَ تُؤْتَى رُخَصُهُ كَمَا يَكْرَهُ أَنْ تُؤْتَى مَعْصِيَتُهُ».

940. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: “Allah günah edilməsini sevmədiyi kimi rüsxətlərinə də əməl edilməsini sevir”.[1257]

ALLAH RİZASI ÜÇÜN BİR-BİRLƏRİNİ SEVƏNLƏR

٩٤١ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ قَالَ مَنْ عَادَى لِى وَلِيًّا فَقَدْ آذَنْتُهُ بِالْحَرْبِ، وَمَا تَقَرَّبَ إِلَىَّ عَبْدِى بِشَىْءٍ أَحَبَّ إِلَىَّ مِمَّا افْتَرَضْتُ عَلَيْهِ، وَمَا يَزَالُ عَبْدِى يَتَقَرَّبُ إِلَىَّ بِالنَّوَافِلِ حَتَّى أُحِبَّهُ، فَإِذَا أَحْبَبْتُهُ كُنْتُ سَمْعَهُ الَّذِى يَسْمَعُ بِهِ، وَبَصَرَهُ الَّذِى يُبْصِرُ بِهِ، وَيَدَهُ الَّتِى يَبْطُشُ بِهَا وَرِجْلَهُ الَّتِى يَمْشِى بِهَا، وَإِنْ سَأَلَنِى لأُعْطِيَنَّهُ، وَلَئِنِ اسْتَعَاذَنِى لأُعِيذَنَّهُ، وَمَا تَرَدَّدْتُ عَنْ شَىْءٍ أَنَا فَاعِلُهُ تَرَدُّدِى عَنْ نَفْسِ الْمُؤْمِنِ، يَكْرَهُ الْمَوْتَ وَأَنَا أَكْرَهُ مَسَاءَتَهُ»

941. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: “Allah buyurur: “Kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm. Qulumun Mənə sevimli olan və onun vasitəsilə Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir.

[1255] Əbu Davud, 5111. əl-Albani səhih olduğunu bildirmişdir.

[1256] əl-Buxari “Ədəbul-Mufrad” 278. əl-Albani həsən olduğunu bildirmişdir.

[1257] Əhməd, 5866, 5873, 6004, 6012. əl-Albani “İrvaul-Ğalil”də (№ 564) səhih olduğunu bildirmişdir.

Qulum nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Onu sevdiyim təqdirdə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən diləsə, ona dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm. Mən görəcəyim bir işdə, ölmək istəməyən möminin canını aldıqda tərəddüd etdiyim kimi heç bir şeydə tərəddüd etmirəm. Çünki Mən ona yamanlıq etmək istəmirəm".[1258]

٩٤٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ يَقُولُ يَوْمَ الْقِيَامَةِ أَيْنَ الْمُتَحَابُّونَ بِجَلاَلِي الْيَوْمَ أُظِلُّهُمْ فِي ظِلِّي يَوْمَ لاَ ظِلَّ إِلاَّ ظِلِّي»

942. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Allah Qiyamət günü buyuracaq: "Ucalığıma görə bir-birlərini sevənlər hanı? Bu gün - Mənim kölgəmdən başqa heç bir kölgənin olmadığı gündə - Mən onları Öz kölgəmdə kölgələndirəcəyəm".[1259]

٩٤٣ - عَنْ عُبَادَةُ ﷺ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ قَالَ «قالَ اللهُ تَعَالى: حَقَّتْ مَحَبَّتِي لِلْمُتَحَابِّينَ فِيَّ وَحَقَّتْ مَحَبَّتِي لِلْمُتَوَاصِلِينَ فِيَّ وَحَقَّتْ مَحَبَّتِي لِلْمُتَنَاصِحِينَ فِيَّ وَحَقَّتْ مَحَبَّتِي لِلْمُتَزَاوِرِينَ فِيَّ وَحَقَّتْ مَحَبَّتِي لِلْمُتَبَاذِلِينَ فِيَّ. الْمُتَحَابُّونَ فِيَّ عَلَى مَنَابِرَ مِنْ نُورٍ يَغْبِطُهُمْ بِمَكانِهِمْ النَّبِيُّونَ وَالصِّدِّيقُونَ وَالشُّهَدَاءُ»

943. Ubədə ibn Samit ﷺ demişdir: "Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitdim: "Uca Allah buyurdu: "Mənə görə bir-birlərini sevənlərə məhəbbətim vacib olmuşdur. Mənə görə bir-birlərinə bağlı olanlara məhəbbətim vacib olmuşdur. Mənə görə bir-birlərinə nəsihət edənlərə (və səmimi olanlara) məhəbbətim vacib olmuşdur. Mənə görə bir-birlərini ziyarət edənlərə məhəbbətim vacib olmuşdur. Mənə görə bir-birlərinə qarşı fədakar olanlara məhəbbətim vacib olmuşdur. Mənə görə bir-birlərini sevənlərə nurdan minbərlər vardır. Nəbilər, siddiqlər və şəhidlər onların olduqları yerə qibtə edərlər".[1260]

٩٤٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنْ النَّبِيِّ ﷺ أَنَّ رَجُلًا زَارَ أَخًا لَهُ فِي قَرْيَةٍ أُخْرَى فَأَرْصَدَ اللَّهُ لَهُ عَلَى مَدْرَجَتِهِ مَلَكًا فَلَمَّا أَتَى عَلَيْهِ قَالَ أَيْنَ تُرِيدُ قَالَ أُرِيدُ أَخًا لِي فِي هَذِهِ الْقَرْيَةِ قَالَ هَلْ لَكَ عَلَيْهِ مِنْ نِعْمَةٍ تَرُبُّهَا قَالَ لَا غَيْرَ أَنِّي أَحْبَبْتُهُ فِي اللَّهِ ﷻ قَالَ فَإِنِّي رَسُولُ اللَّهِ إِلَيْكَ بِأَنَّ اللَّهَ قَدْ أَحَبَّكَ كَمَا أَحْبَبْتَهُ فِيهِ قَالَ الشَّيْخُ أَبُو أَحْمَدَ أَخْبَرَنِي أَبُو بَكْرٍ مُحَمَّدُ بْنُ زَنْجُوَيَهَ

[1258] əl-Buxari, 6021, 6502.

[1259] Muslim, 2566, 4655, 6713.

[1260] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 6044. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4321) səhih olduğunu söyləmişdir.

الْقُشَيْرِيُّ حَدَّثَنَا عَبْدُ الْأَعْلَى بْنُ حَمَّادٍ حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ بِهَذَا الْإِسْنَادِ نَحْوَهُ

944. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: "(Bir gün) bir kişi başqa kənddə olan bir (din) qardaşını ziyarət etməyə getdi. Allah onu güdmək üçün onun yoluna bir mələk göndərdi. (Mələk) onun yanına gəldikdə dedi: "Hara (getmək) istəyirsən?" (Kişi) dedi: "Bu kənddəki qardaşımı (ziyarət etmək) istəyirəm". (Mələk) dedi: "Sənin onun arasında bir nemətmi var?" (Adam) dedi: "Xeyr, mən onu Allah ﷻ üçün sevdim". (Mələk) dedi: "Mən Allahın sənə göndərdiyi elçisiyəm. Sən onu Allah üçün sevdiyin kimi, Allah da səni sevdi".[1261]

٩٤٥ - عَنْ أَنَسٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَا مِنْ عَبْدٍ أَتَى أَخًا لَهُ يَزُورُهُ فِي اللَّهِ، إِلا نادى مُنَادٍ مِنَ السَّمَاءِ: أَنْ طِبْتَ، وَطَابَتْ لَكَ الْجَنَّةُ، وَإِلا قَالَ اللَّهُ فِي مَلَكُوتِ عَرْشِهِ: عبدي زَارَ فِيَّ، وَعَلَيَّ قِرَاهُ، فَلَمْ أَرْضَ لَهُ بِقِرًى دُونَ الْجَنَّةِ»

945. Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Hər hansı bir bəndə öz qardaşını Allah rizası üçün ziyarət etməyə getdiyi zaman səmadan bir carçı belə deyir: "Xoş gəldin. Sənin üçün Cənnət uğurlu oldu". Allah Öz Ərşinin səltənətində isə belə buyurur: "Qulum Mənim üçün (qardaşını) ziyarət etdi, ona ziyafət vermək Mənə aiddir. Mən ona Cənnətdən başqa bir ziyafətə razı olmaram".[1262]

٩٤٦ - عن أبي هريرة ﷺ عن النبي ﷺ قال المؤمن مرآة أخيه والمؤمن أخو المؤمن يكف عليه ضيعته ويحوطه من ورائه

946. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: "Mömin öz qardaşının güzgüsüdür. Mömin möminin qardaşıdır. Onu azmağa (həlak olmağa) qoymaz və onu arxasından əhatə edib qoruyar".[1263]

٩٤٧ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ رضي الله عنهما أَخْبَرَهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «الْمُسْلِمُ أَخُو الْمُسْلِمِ، لاَ يَظْلِمُهُ وَلاَ يُسْلِمُهُ، وَمَنْ كَانَ فِى حَاجَةِ أَخِيهِ كَانَ اللَّهُ فِى حَاجَتِهِ، وَمَنْ فَرَّجَ عَنْ مُسْلِمٍ كُرْبَةً فَرَّجَ اللَّهُ عَنْهُ كُرْبَةً مِنْ كُرُبَاتِ يَوْمِ الْقِيَامَةِ، وَمَنْ سَتَرَ مُسْلِمًا سَتَرَهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ».

[1261] Muslim, 2567, 4656.

[1262] Əbu Yəalə, 4140. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2632) səhih olduğunu bildirmişdir.

[1263] əl-Buxari "Ədəbul-Mufrad" 239. əl-Albani həsən olduğunu bildirmişdir.

947. Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: “Müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməz və onu ələ verməz. Kim qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər. Kim bir müsəlmanı bir sıxıntıdan qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar. Kim bir müsəlmanın eyiblərini örtərsə, Allah da Qiyamət günü onun eyiblərini örtər”.[1264]

٩٤٨ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «الْمُسْلِمُ أَخُو الْمُسْلِمِ لاَ يَخُونُهُ وَلاَ يَكْذِبُهُ وَلاَ يَخْذُلُهُ كُلُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ حَرَامٌ عِرْضُهُ وَمَالُهُ وَدَمُهُ التَّقْوَى هَا هُنَا بِحَسْبِ امْرِئٍ مِنَ الشَّرِّ أَنْ يَحْتَقِرَ أَخَاهُ الْمُسْلِمَ».

948. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: “Müsəlman müsəlmanın qardaşıdır. Ona xəyanət etməz, ona yalan danışmaz, öz dəstək və köməyini ondan əsirgəməz. Hər bir müsəlmanın namusu, malı və qanı digər müsəlmana haramdır. İnsanın pis adam olması üçün müsəlman qardaşına nifrət etməsi kifayətdir”.[1265]

[1264] əl-Buxari, 2442; Muslim, 2580; Əbu Davud, 4893.
[1265] ət-Tirmizi, 1927, 2052. əl-Albani səhih olduğunu bildirmişdir.



ÖLÜM

ÖLƏN MÜSƏLMAN HAQDA OLAN ŞAHİDLİKLƏR

٩٤٩ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: «مَا مِنْ مُسْلِمٍ يَمُوتُ فَيَشْهَدُ لَهُ أَرْبَعَةُ أَهْلِ أَبْيَاتٍ مِنْ جِيرَانِهِ الأَدْنَيْنِ أَنَّهُمْ لاَ يَعْلَمُونَ إِلاَّ خَيْرًا إِلاَّ قَالَ اللهُ قَدْ قَبِلْتُ عِلْمَكُمْ وَغَفَرْتُ لَهُ مَا لاَ تَعْلَمُونَ»

949. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Bir müsəlman öldükdə, ən yaxın qonşularından dörd nəfər onun xeyirli (insan olduğunu) bildiklərinə şahidlik edərlərsə, Allah belə buyurar: "Mən sizin bildiklərinizi qəbul etdim və sizin bilmədiklərinizi də ona bağışladım".[1266]

٩٥٠ - عَنِ الرُّبَيِّعِ بِنْتَ مُعَوِّذ ﷺ قَالَتْ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِذَا صَلَّوا عَلَى جَنَازَةٍ فَأَثْنَوا خَيْراً، يَقُولُ الرَبُّ: أَجَزْتُ شَهَادَتَهُمْ فِيْمَا يَعلَمُونَ، وَأَغْفِرُ لَهُ مَالاَ يَعْلَمُونَ».

950. Rubeyyi bint Muəvviz[1267] ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Bir cənazə xeyirlə yad edilirsə, Allah buyurur: "Onların bilib şahidlik etdiklərini qəbul etdim, onların bilmədiklərini isə ona bağışladım".[1268]

٩٥١ - عَنْ عُمَرَ بْنِ الْخَطَّاب ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «أَيُّمَا مُسْلِمٍ شَهِدَ لَهُ أَرْبَعَةٌ بِخَيْرٍ أَدْخَلَهُ اللَّهُ الْجَنَّةَ». فَقُلْنَا: وَثَلاَثَةٌ، قَالَ: «وَثَلاَثَةٌ». فَقُلْنَا: وَاثْنَانِ قَالَ: «وَاثْنَانِ». ثُمَّ لَمْ نَسْأَلْهُ عَنِ الْوَاحِدِ.

951. Ömər ibn Xəttab ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Hansı bir müsəlmanın yaxşı əməl sahibi olduğuna dörd nəfər (müsəlman) şahidlik etsə, Allah onu Cənnətə daxil edər. Biz: "Bəs üç nəfər (olsa)?"- deyə soruşduq. O: "Üç nəfər də (olsa)"- deyə cavab verdi. Biz: "Bəs iki nəfər (olsa)?" - deyə soruşduq. O: "İki nəfər də (olsa)"- deyə cavab verdi. Bundan sonra biz artıq bir nəfər haqqında soruşmadıq".[1269]

[1266] Əhməd, 13052, 13889; Əbu Yəalə, 3481; İbn Hibban, 3026; əl-Hakim, 1398. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3515) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[1267] Rubeyyi bint Muəvviz ibn Haris əl-Ənsariyyə ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Abdul-Məlik ibn Mərvanın xilafəti dövründə, təqribən hicrətin 70-ci illərində vəfat etmişdir.

[1268] əl-Buxari "Tarixul-Kəbir" 574. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 662) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1364) səhih olduğunu bildirmişdir.

[1269] əl-Buxari, 1368.

ÖLÜM AYAĞINDA MÖMİNİN QƏLBİNDƏ OLANLAR

٩٥٢ - عَنْ أَنَسٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ دَخَلَ عَلَى شَابٍّ وَهُوَ فِى الْمَوْتِ فَقَالَ «كَيْفَ تَجِدُكَ». قَالَ وَاللَّهِ يَا رَسُولَ اللَّهِ إِنِّى أَرْجُو اللَّهَ وَإِنِّى أَخَافُ ذُنُوبِى. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «لاَ يَجْتَمِعَانِ فِى قَلْبِ عَبْدٍ فِى مِثْلِ هَذَا الْمَوْطِنِ إِلاَّ أَعْطَاهُ اللَّهُ مَا يَرْجُو وَآمَنَهُ مِمَّا يَخَافُ».

952. Ənəs ﷺ demişdir: “Peyğəmbər sallallahu aleyhi və səlləm ölüm ayağında olan bir gəncin yanına daxil oldu və ondan soruşdu: “Özünü necə hiss edirsən?” Gənc dedi: “Vallahi, ey Allahın Elçisi! Mən Allaha ümid edirəm və günahlarımdan qorxuram”. Allah Elçisi sallallahu aleyhi və səlləm belə buyurdu: “Belə bir vaxtda qulun qəlbində bu iki şey birləşsə, Allah ona umid etdiyini verər və qorxduğundan da əmin edər”.[1270]

ÖVLADI ÖLƏN SƏBİR EDƏRSƏ

٩٥٣ - عَنْ قُرَّةَ بن إِيَاس ﷺ إِنَّ رَجُلاً كَانَ يَأْتِى النَّبِيَّ ﷺ وَمَعَهُ ابْنٌ لَهُ فَقَالَ لَهُ النَّبِيُّ ﷺ «أَتُحِبُّهُ». فَقَالَ يَا رَسُولَ اللَّهِ أَحَبَّكَ اللَّهُ كَمَا أُحِبُّهُ. فَفَقَدَهُ النَّبِيُّ ﷺ فَقَالَ «مَا فَعَلَ ابْنُ فُلاَنٍ». قَالُوا يَا رَسُولَ اللَّهِ مَاتَ. فَقَالَ النَّبِيُّ ﷺ لأَبِيهِ «أَمَا تُحِبُّ أَنْ لاَ تَأْتِىَ بَاباً مِنْ أَبْوَابِ الْجَنَّةِ إِلاَ وَجَدْتَهُ يَنْتَظِرُكَ». فَقَالَ الرَّجُلُ يَا رَسُولَ اللَّهِ أَلَهُ خَاصَّةً أَوْ لِكُلِّنا قَالَ «بَلْ لِكُلِّكُمْ».

953. Qurra ibn İyəs ﷺ demişdir: “Bir kişi oğlu ilə birlikdə Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlirdi. Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: “Sən onu sevirsən?” O dedi: “Bəli, ey Allahın Elçisi, mən onu sevdiyim kimi Allah da səni sevsin”. Peyğəmbər sallallahu aleyhi və səlləm onu bir müddət görmədikdə dedi: “Filankəsin oğlu necədir?” Dedilər: “Ey Allahın Elçisi, o öldü”. Peyğəmbər sallallahu aleyhi və səlləm onun atasına dedi: “Məgər sən Cənnətin qapılarından istədiyinə gəldikdə, onun orada səni gözlədiyini görmək istəməzsənmi?” O kişi dedi: “Ey Allahın Elçisi, bu, yalnız ona, yoxsa hamımıza aiddir?” Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: “Əksinə, hamınıza”.[1271]

٩٥٤ - عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: «أَيُّمَا مُسْلِمٍ شَهِدَ لَهُ أَرْبَعَةٌ بِخَيْرٍ أَدْخَلَهُ اللَّهُ الْجَنَّةَ». فَقُلْنَا: وَثَلاَثَةٌ، قَالَ: «وَثَلاَثَةٌ». فَقُلْنَا: وَاثْنَانِ قَالَ: «وَاثْنَانِ». ثُمَّ لَمْ نَسْأَلْهُ عَنِ الْوَاحِدِ.

[1270] ət-Tirmizi, 983, 999; əl-Albani “əl-Mişkət”də (№ 1612) hədisin həsən olduğunu bildirmişdir.

[1271] Əhməd, 20365, 20381. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 2007) səhih olduğunu bildirib.

954. Ömər ibn Xəttab ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Hansı bir müsəlmanın yaxşı əməl sahibi olduğuna dörd nəfər (müsəlman) şahidlik etsə, Allah onu Cənnətə daxil edər. Biz: "Bəs üç nəfər (olsa)?"– deyə soruşduq. O: "Üç nəfər də (olsa)"- deyə cavab verdi. Biz: "Bəs iki nəfər (olsa)?"- deyə soruşduq. O: "İki nəfər də (olsa)"- deyə cavab verdi. Bundan sonra biz artıq bir nəfər haqqında soruşmadıq".[1272]

٩٥٥ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «يَقُولُ اللَّهُ تَعَالَى مَا لِعَبْدِى الْمُؤْمِنِ عِنْدِى جَزَاءٌ، إِذَا قَبَضْتُ صَفِيَّهُ مِنْ أَهْلِ الدُّنْيَا، ثُمَّ احْتَسَبَهُ إِلاَّ الْجَنَّةُ»

955. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Uca Allah buyurur: "Mən mömin qulumun sevdiyi yaxın bir adamının canını aldıqdan sonra o buna (səbir edib Axirətdə əvəzini alacağına) ümid edərsə, Mənim ona verəcəyim mükafat ancaq Cənnət olar".[1273]

٩٥٦ - حدثتني أم سليم ﵂ قالت كنت عند النبي ﷺ يوما فقال يا أم سليم ما من مسلمين يموت لهما ثلاثة أولاد إلا أدخلهما الله الجنة بفضل رحمته إياهم قلت واثنان قال واثنان

956. Ummu Suleym ﵂ rəvayət edir: "Bir gün mən Peyğəmbərin sallәllahu aleyhi və sәlləm yanında idim. O dedi: "Ey Ummu Suleym! Üç uşağı ölmüş elə iki müsəlman yoxdur ki, Allah onları uşaqlara olan mərhəmətinin lütfü sayəsində Cənnətə salmasın!" Mən dedim: "Bəs ikisi necə?" O dedi: "İkisi olsa da!"[1274]

٩٥٧ - عن صعصعة بن معاوية حدثه أنه لقى أبا ذر متوشحا قربة قال ما لك من الولد يا أبا ذر قال ألا أحدثك قلت بلى قال سمعت رسول الله صلى الله عليه وسلم يقول ما من مسلم يموت له ثلاثة من الولد لم يبلغوا الحنث إلا أدخله الله الجنة بفضل رحمته إياهم وما من رجل أعتق مسلما إلا جعل الله ﷻ كل عضو منه فكاكه لكل عضو منه

957. Sa'sa'ə ibn Muaviyə ﷺ deyir: "Mən xəz kürkə bürünmüş Əbu Zərə ﷺ rast gəldim. Dedim: "Ey Əbu Zərr! Sənin övladın varmı?" O dedi: "Sənə hədis danışımmı?" Mən: "Bəli!"- deyə cavab verdim. O dedi: "Mən Peyğəmbərin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: "Həddi buluğa çatmamış üç uşağı ölən elə müsəlman yoxdur ki, Allah onu uşaqlara olan

[1272] əl-Buxari, 1368.
[1273] əl-Buxari, 5944, 6424.
[1274] əl-Buxari "Ədəbul-Mufrad" 149. əl-Albani səhih olduğunu bildirmişdir.

mərhəmətinin lütfü sayəsində Cənnətə salmasın. Müsəlmanı köləlikdən azad edən elə bir adam yoxdur ki, Allah ﷻ (həmin) müsəlmanın əzalarının müqabilində onun əzalarını (Cəhənnəm əzabından) xilas etməsin".[1275]

٩٥٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَوْلَاد الْمُؤمِنِينَ فِي جَبَلٍ فِي الْجَنَّةِ، يَكْفُلهُمْ إِبْرَاهِيمُ وَسَارة، حَتَّى يَرُدَّهُمْ إِلَى آبَائِهِمْ يَومَ الْقِيَامَةِ».

958. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Möminlərin (həddi-buluğa çatmadan ölən) uşaqları Cənnətdəki dağdadır. Qiyamət günü valideynlərinə qaytarılana qədər İbrahim və Sara onlara himayədarlıq edirlər".[1276]

٩٥٩ - عَنْ أَبِى مُوسَى الأَشْعَرِىِّ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «إِذَا مَاتَ وَلَدُ الْعَبْدِ قَالَ اللَّهُ لِمَلاَئِكَتِهِ قَبَضْتُمْ وَلَدَ عَبْدِى. فَيَقُولُونَ نَعَمْ. فَيَقُولُ قَبَضْتُمْ ثَمَرَةَ فُؤَادِهِ. فَيَقُولُونَ نَعَمْ. فَيَقُولُ مَاذَا قَالَ عَبْدِى فَيَقُولُونَ حَمِدَكَ وَاسْتَرْجَعَ. فَيَقُولُ اللَّهُ ابْنُوا لِعَبْدِى بَيْتًا فِى الْجَنَّةِ وَسَمُّوهُ بَيْتَ الْحَمْدِ»

959. Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Bir qulun uşağı öldükdə Allah mələklərindən soruşur: "Qulumun uşağını aldınız?" Onlar: "Bəli"- deyə cavab verirlər. Allah soruşur: "Qulumun ürəyinin meyvəsini aldınız?" Onlar: "Bəli"- deyə cavab verirlər. Sonra Allah buyurur: "Qulum nə dedi?" Onlar deyirlər: "Sənə həmd və istirca[1277] etdi". Allah buyurur: "Quluma Cənnətdə bir ev tikin və adını da "Həmd evi" qoyun!"[1278]

٩٦٠ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ «مَا مِنْ مُسْلِمَيْنِ يَمُوتُ بَيْنَهُمَا ثَلاَثَةُ أَوْلاَدٍ لَمْ يَبْلُغُوا الْحِنْثَ إِلاَّ أَدْخَلَهُمَا اللَّهُ بِفَضْلِ رَحْمَتِهِ إِيَّاهُمُ الْجَنَّةَ». قَالَ «يُقَالُ لَهُمُ ادْخُلُوا الْجَنَّةَ فَيَقُولُونَ حَتَّى يَدْخُلَ آبَاؤُنَا فَيُقَالُ ادْخُلُوا الْجَنَّةَ أَنْتُمْ وَآبَاؤُكُمْ»

960. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Həddi buluğa çatmamış üç övladı vəfat edən elə bir müsəlman valideyn yoxdur ki, Allah onları Öz mərhəməti sayəsində Cənnətə daxil etməsin. (Qiyamət günü) onların övladlarına deyiləcək: "Cənnətə girin!"

[1275] əl-Buxari "Ədəbul-Mufrad" 150. əl-Albani səhih olduğunu bildirmişdir.

[1276] əl-Hakim, 1418. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 1023) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1467) səhih olduğunu bildirmişdir.

[1277] Yəni belə demək: "İnnə lilləhi və innə ileyhi raciun"- biz Allaha məxsusuq və Ona da qayıdacağıq!

[1278] ət-Tirmizi, 1021, 1037. əl-Albani səhih olduğunu söyləmişdir.

Onlar deyəcəklər: “Valideynlərimiz daxil olmayınca (biz girmərik)”. Onlara deyiləcək: “Siz də, valideynləriniz də Cənnətə girin!”[1279]

٩٦١ - عن جابر بن عبد الله ﷺ قال سمعت رسول الله ﷺ يقول من مات له ثلاثة من الولد فاحتسبهم دخل الجنة قلنا يا رسول الله واثنان قال واثنان قلت لجابر والله أرى لو قلتم وواحد لقال قال وأنا أظنه والله

961. Cabir ibn Abdullah ﷺ rəvayət edir: “Mən Allah Elçisinin sallallahu aleyhi və səlləm belə dediyini eşitdim: “Kimin üç uşağı ölsə, (bu itkiyə) dözüb savabını (Allahdan) diləsə, Cənnətə daxil olar”. Biz dedik: “Ey Allahın Elçisi! Bəs ikisi necə?” O dedi: “İkisi olsa da!” Mahmud ibn Ləbid deyir: “Mən Cabirə dedim: “Allaha and olsun! Əgər birini desəydiniz, ona da razılıq bildirərdi”. Cabir dedi: “Vallahi ki, mən də belə güman edirəm”.[1280]

٩٦٢ - عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ لاَ يَرْضَى لِعَبْدِهِ الْمُؤْمِنِ إِذَا ذَهَبَ بِصَفِيِّهِ مِنْ أَهْلِ الأَرْضِ فَصَبَرَ وَاحْتَسَبَ وَقَالَ مَا أُمِرَ بِهِ بِثَوَابٍ دُونَ الْجَنَّةِ».

962. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Allahın Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Allah mömin qulundan övladını itirən və səbir edib mükafatını Allahdan gözləyən kimsəyə mükafat olaraq Cənnət-dən başqa bir şey verməyə razı olmaz”.[1281]

MEYİTİN QƏBİRDƏKİ HALI

٩٦٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: إِنَّ الْمَيِّتَ إِذَا وُضِعَ فِي قَبْرِهِ إِنَّهُ يَسْمَعُ خَفْقَ نِعَالِهِمْ حِينَ يُوَلُّونَ عَنْهُ، فَإِنْ كَانَ مُؤْمِنًا، كَانَتِ الصَّلاَةُ عِنْدَ رَأْسِهِ، وَكَانَ الصِّيَامُ عَنْ يَمِينِهِ، وَكَانَتِ الزَّكَاةُ عَنْ شِمَالِهِ، وَكَانَ فِعْلُ الْخَيْرَاتِ مِنَ الصَّدَقَةِ وَالصِّلَةِ وَالْمَعْرُوفِ وَالْإِحْسَانِ إِلَى النَّاسِ عِنْدَ رِجْلَيْهِ. فَيُؤْتَى مِنْ قِبَلِ رَأْسِهِ، فَتَقُولُ الصَّلاَةُ: مَا قِبَلِي مَدْخَلٌ، ثُمَّ يُؤْتَى عَنْ يَمِينِهِ، فَيَقُولُ الصِّيَامُ: مَا قِبَلِي مَدْخَلٌ، ثُمَّ يُؤْتَى عَنْ يَسَارِهِ، فَتَقُولُ الزَّكَاةُ: مَا قِبَلِي مَدْخَلٌ، ثُمَّ يُؤْتَى مِنْ قِبَلِ رِجْلَيْهِ، فَتَقُولُ فِعْلُ الْخَيْرَاتِ مِنَ الصَّدَقَةِ وَالصِّلَةِ وَالْمَعْرُوفِ وَالْإِحْسَانِ إِلَى النَّاسِ: مَا قِبَلِي مَدْخَلٌ، فَيُقَالُ لَهُ: اجْلِسْ فَيَجْلِسُ، وَقَدْ مُثِّلَتْ لَهُ الشَّمْسُ وَقَدْ أُدْنِيَتْ لِلْغُرُوبِ، فَيُقَالُ لَهُ: أَرَأَيْتَكَ هَذَا الرَّجُلَ الَّذِي كَانَ فِيكُمْ مَا تَقُولُ فِيهِ، وَمَاذَا تَشْهَدُ بِهِ عَلَيْهِ؟ فَيَقُولُ: دَعُونِي حَتَّى أُصَلِّيَ، فَيَقُولُونَ: إِنَّكَ سَتَفْعَلُ، أَخْبِرْنِي عَمَّا نَسْأَلُكَ عَنْهُ، أَرَأَيْتَكَ هَذَا الرَّجُلَ الَّذِي كَانَ فِيكُمْ مَا تَقُولُ فِيهِ، وَمَاذَا تَشْهَدُ عَلَيْهِ؟ قَالَ: فَيَقُولُ: مُحَمَّدٌ أَشْهَدُ أَنَّهُ رَسُولُ اللَّهِ، وَأَنَّهُ جَاءَ بِالْحَقِّ مِنْ عِنْدِ اللَّهِ، فَيُقَالُ لَهُ: عَلَى ذَلِكَ حَيِيتَ وَعَلَى ذَلِكَ مِتَّ، وَعَلَى ذَلِكَ تُبْعَثُ إِنْ شَاءَ اللَّهُ، ثُمَّ يُفْتَحُ لَهُ بَابٌ مِنْ أَبْوَابِ الْجَنَّةِ، فَيُقَالُ

[1279] ən-Nəsəi, 1853, 1876, 1887. əl-Albani səhih olduğunu bildirmişdir.
[1280] əl-Buxari “Ədəbul-Mufrad” 146. əl-Albani həsən olduğunu bildirmişdir.
[1281] ən-Nəsəi, 1871, 1882. Albani hədisin həsən olduğunu bildirmişdir.

لَهُ: هَذَا مَقْعَدُكَ مِنْهَا، وَمَا أَعَدَّ اللَّهُ لَكَ فِيهَا، فَيَزْدَادُ غِبْطَةً وَسُرُورًا، ثُمَّ يُفْتَحُ لَهُ بَابٌ مِنْ أَبْوَابِ النَّارِ، فَيُقَالُ لَهُ: هَذَا مَقْعَدُكَ مِنْهَا وَمَا أَعَدَّ اللَّهُ لَكَ فِيهَا لَوْ عَصَيْتَهُ، فَيَزْدَادُ غِبْطَةً وَسُرُورًا، ثُمَّ يُفْسَحُ لَهُ فِي قَبْرِهِ سَبْعُونَ ذِرَاعًا، وَيُنَوَّرُ لَهُ فِيهِ، وَيُعَادُ الْجَسَدُ لِمَا بَدَأَ مِنْهُ، فَتَجْعَلُ نَسْمَتُهُ فِي النَّسَمِ الطَّيِّبِ وَهِيَ طَيْرٌ يَعْلُقُ فِي شَجَرِ الْجَنَّةِ، قَالَ: فَذَلِكَ قَوْلُهُ تَعَالَى ﴿**يُثَبِّتُ اللَّهُ الَّذِينَ آمَنُوا بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الْآخِرَةِ**﴾ (إبراهيم) إِلَى آخِرِ الْآيَةِ قَالَ: وَإِنَّ الْكَافِرَ إِذَا أُتِيَ مِنْ قِبَلِ رَأْسِهِ، لَمْ يُوجَدْ شَيْءٌ، ثُمَّ أُتِيَ عَنْ يَمِينِهِ، فَلاَ يُوجَدُ شَيْءٌ، ثُمَّ أُتِيَ عَنْ شِمَالِهِ، فَلاَ يُوجَدُ شَيْءٌ، ثُمَّ أُتِيَ مِنْ قِبَلِ رِجْلَيْهِ، فَلاَ يُوجَدُ شَيْءٌ، فَيُقَالُ لَهُ: اجْلِسْ، فَيَجْلِسُ خَائِفًا مَرْعُوبًا، فَيُقَالُ لَهُ: أَرَأَيْتَكَ هَذَا الرَّجُلَ الَّذِي كَانَ فِيكُمْ مَاذَا تَقُولُ فِيهِ؟ وَمَاذَا تَشْهَدُ بِهِ عَلَيْهِ؟ فَيَقُولُ: أَيُّ رَجُلٍ؟ فَيُقَالُ: الَّذِي كَانَ فِيكُمْ، فَلاَ يَهْتَدِي لِاسْمِهِ حَتَّى يُقَالَ لَهُ: مُحَمَّدٌ، فَيَقُولُ: مَا أَدْرِي، سَمِعْتُ النَّاسَ قَالُوا قَوْلًا، فَقُلْتُ كَمَا قَالَ النَّاسُ، فَيُقَالُ لَهُ: عَلَى ذَلِكَ حَيِيتَ، وَعَلَى ذَلِكَ مِتَّ، وَعَلَى ذَلِكَ تُبْعَثُ إِنْ شَاءَ اللَّهُ، ثُمَّ يُفْتَحُ لَهُ بَابٌ مِنْ أَبْوَابِ النَّارِ، فَيُقَالُ لَهُ: هَذَا مَقْعَدُكَ مِنَ النَّارِ، وَمَا أَعَدَّ اللَّهُ لَكَ فِيهَا، فَيَزْدَادُ حَسْرَةً وَثُبُورًا، ثُمَّ يُفْتَحُ لَهُ بَابٌ مِنْ أَبْوَابِ الْجَنَّةِ، فَيُقَالُ لَهُ: ذَلِكَ مَقْعَدُكَ مِنَ الْجَنَّةِ، وَمَا أَعَدَّ اللَّهُ لَكَ فِيهِ لَوْ أَطَعْتَهُ فَيَزْدَادُ حَسْرَةً وَثُبُورًا، ثُمَّ يُضَيَّقُ عَلَيْهِ قَبْرُهُ حَتَّى تَخْتَلِفَ فِيهِ أَضْلاَعُهُ، فَتِلْكَ الْمَعِيشَةُ الضَّنْكَةُ الَّتِي قَالَ اللَّهُ: ﴿**فَإِنَّ لَهُ مَعِيشَةً ضَنْكًا وَنَحْشُرُهُ يَوْمَ الْقِيَامَةِ أَعْمَى**﴾ (طه).

963. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Həqiqətən, meyit qəbrə qoyulduqda insanlar dönüb getdikləri zaman onların ayaqlarının səslərini eşidir. Əgər o, mömin olubsa, başının üstündə namaz, sağ tərəfində oruc, sol tərəfində zəkat və ayaqları tərəfində isə sədəqə, qohumluq əlaqələri, yaxşı işlər və insanlara edilən yaxşılıqlar kimi əməlləri olacaq. Baş tərəfindən (əzab) yaxınlaşdıqda namaz deyir: “Mən tərəfdən yol yoxdur”. Sonra sağından (əzab) yaxınlaşdıqda oruc deyir: “Mən tərəfdən yol yoxdur”. Sonra solundan (əzab) yaxınlaşdıqda zəkat deyir: “Mən tərəfdən yol yoxdur”. Sonra ayaqları tərəfdən (əzab) yaxınlaşdıqda sədəqə, qohumluq əlaqələrini möhkəmlətmək və insanlara xeyixahlıq etmək kimi yaxşı əməllər deyir: “Mən tərəfdən yol yoxdur”. Ona: “Otur”- deyiləcək, o da oturacaq. Ona günəşin batması göstəriləcək və deyiləcək: “Sizin aranızda olan o kişi haqqında nə deyirsən? Onun barəsində nəyə şahidlik edirsən ? O deyəcək: “Buraxın namazımı qılım”. Onlar deyəcəklər: “Sən edəcəksən, səndən soruşduğumuzu mənə xəbər ver. Sizin aranızda olan o kişi haqqında nə deyirsən? Onun barəsində nəyə şahidlik edirsən?” O deyəcək: “O Muhəmməddir, mən şahidlik edirəm ki, o, Allahın Elçisidir. O, Allahın dərgahından haqq ilə gəlmişdir”. Ona deyiləcək: “Sən bunun üzərində yaşadın, bunun üzərində də öldün və inşə-Allah bunun üzərində də diriləcəksən“. Sonra onun üçün Cənnət qapılarından biri açılacaq və ona deyiləcək: “Bu sənin Cənnətdəki yerindir və Allahın sənin üçün orada hazırladıqları (nemətlərdir)”. Bu anda onun

fərəhi və sevinci artacaq. Sonra onun üçün Cəhənnəm qapılarından biri açılacaq və ona deyiləcək: "Əgər sən asi olsaydın, bu sənin Cəhənnəmdəki yerin və Allahın sənin üçün orada hazırladıqları olardı". Bu anda onun fərəhi və sevinci artacaq. Sonra onun qəbri yetmiş dirsək genişlənəcək və nurlanacaq. Onun cəsədi əvvəlki halına qaytarılacaq və ruhu Cənnət ağacından asılan quşun daxilinə qoyulacaq. Bu haqda Uca Allahın ayəsində deyilir: ***"Allah iman gətirənləri dünya həyatında da, Axirətdə də möhkəm sözlə sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər"*** *(İbrahim, 27)*. Həqiqətən, kafirə baş tərəfindən əzab yaxınlaşdıqda, onun qarşısını ala biləcək bir şey tapılmır. Sonra sağından əzab yaxınlaşdıqda, onun qarşısını ala biləcək bir şey tapılmır. Sonra solundan əzab yaxınlaşdıqda, onun qarşısını ala biləcək bir şey tapılmır. Sonra ayaqlarından əzab yaxınlaşdıqda, onun qarşısını ala biləcək bir şey tapılmır. Ona: "Otur"- deyiləcək, o da qorxu içində oturacaq. Ona deyiləcək: "Sizin aranızda olan o kişi haqqında nə deyirsən? Onun barəsində nəyə şahidlik edirsən?" O deyəcək: "Hansı kişi?" Ona deyiləcək: "Aranızda olan kişi?" O bu adı söyləməyə hidayət olunmur, nəhayət ona deyiləcək: "O Muhəmməddir!" O deyəcək: "Bilmirəm, insanların nə isə dediyini eşitdim, mən də insanların söylədikləri kimi söyləyirəm". Ona deyiləcək: "Sən bunun üzərində yaşadın, bunun üzərində öldün və inşə-Allah bunun üzərində də diriləcəksən". Sonra onun üçün Cəhənnəm qapılarından biri açılacaq və ona deyiləcək: "Bu sənin Cəhənnəmdəki yerin və Allahın sənin üçün orada hazırladıqlarıdır". Bu an onun həsrəti və həlakı artacaq. Sonra onun üçün Cənnət qapılarından biri açılacaq və ona deyiləcək: "Əgər sən itaət etsəydin, bu sənin Cənnətdəki yerin və Allahın sənin üçün orada hazırladıqları (nemətlər) olardı". Bu an onun həsrəti və həlakı artacaq. Sonra onun qəbri o qədər daralacaq ki, onun qabırğaları bir-birinə keçəcək. Bu, Allahın ayəsində buyurduğu sıxıntılı güzərandır: ***"Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik"*** *(Taha, 124)*".[1282]

MAL, AİLƏ VƏ ƏMƏL

٩٦٤ - عَن أبي هُرَيرة ﷺ أَنَّ رَسُولَ اللهِ ﷺ قال: مثل ابن آدم وماله وأهله وعمله كرجل كان له ثلاثة إخوة، أو ثلاثة أصحاب فقال: أحدهم: أنا معك حياتك فإذا مت فلست منك ولست مني، وَقال الآخر: أنا معك فإذا بلغت تلك الشجرة فلست منك ولست مني، وَقال الآخر: أنا معك حيا وميتا.

[1282] İbn Hibban, 3113. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3561) həsən olduğunu bildirmişdir.

964. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Adəm oğlunun malının, ailəsinin və əməlinin məsəli üç qardaşı və ya üç dostu olan kişinin məsəli kimidir. Onlardan biri (malı) deyir: "Həyatında mən sənin-ləyəm. Sən öldükdə isə nə mən sənin-lə, nə də sən mənimləsən". O biri (ailəsi) deyir: "Mən sənin-ləyəm. Sən o ağaca çatdıqda, nə mən sənin-lə, nə də sən mənimləsən". Digəri isə (əməli) belə deyir: "Sən diri ikən də, ölü ikən də mən sənin-ləyəm".[1283]

MEYİTİ YUYAN, KƏFƏNLƏYƏN VƏ QƏBRİNİ QAZANIN FƏZİLƏTİ

٩٦٥ - عَنْ أَبِي رَافِعٍ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ غَسَّلَ مَيِّتاً فَكَتَمَ عَلَيْهِ غُفِرَ لَهُ أَرْبَعِيْنَ مَرَّةً، وَمَنْ كَفَّنَ مَيِّتاً كَسَاهُ اللهُ مِنْ سُنْدسِ وَإِسْتَبْرَقِ الْجَنَّة، وَمَنْ حَفَرَ لِمَيِّتٍ قَبْراً فَأَجَنَّهُ فِيهِ، أُجْرِى لَهُ مِنَ الأَجْرِ كَأَجْرِ مَسْكَنٍ أَسْكَنَهُ إِلَى يَوْمِ الْقِيَامَةِ».

965. Əbu Rafi ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demiş-dir: "Kim bir meyitə qüsl verib onun (eyiblərini) gizli saxlayarsa, qırx dəfə bağışlanar. (Digər rəvayətdə deyilir: "Allah onun günahlarını gizlədər").[1284] Kim bir meyiti kəfənləyərsə, Allah Cənnətdə onun əyninə taftadan və atlazdan paltar geyindirər. Kim bir meyit üçün qəbir qazıb onu dəfn edər-sə, Qiyamət gününədək onu məskun etdiyi yerə görə ona savab yazılar".[1285]

SON ƏMƏL YAXŞI ƏMƏL OLARSA

٩٦٦ - عَنْ حُذَيْفَةَ ﷺ قَالَ أَسْنَدْتُ النَّبِيَّ ﷺ إِلَى صَدْرِى فَقَالَ «مَنْ قَالَ لاَ إِلَهَ إِلاَّ اللَّهُ». قَالَ حَسَنٌ «ابْتِغَاءَ وَجْهِ اللَّهِ خُتِمَ لَهُ بِهَا دَخَلَ الْجَنَّةَ وَمَنْ صَامَ يَوْماً ابْتِغَاءَ وَجْهِ اللَّهِ خُتِمَ لَهُ بِهَا دَخَلَ الْجَنَّةَ وَمَنْ تَصَدَّقَ بِصَدَقَةٍ ابْتِغَاءَ وَجْهِ اللَّهِ خُتِمَ لَهُ بِهَا دَخَلَ الْجَنَّةَ».

966. Huzeyfə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyur-muşdur: "Kim Allahın rizası üçün "lə iləhə illəllah" deyər və həyatı onunla sona çatarsa, Cənnətə girər. Kim Allah rizası üçün oruc tutar və həyatı onunla sona çatarsa, Cənnətə girər. Kim Allah rizası üçün bir sədəqə verər və həyatı onunla sona çatarsa, Cənnətə girər".[1286]

[1283] əl-Bəzzar, 8356. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3232) həsən səhih olduğunu bildirib.
[1284] ət-Təbərani "Mucəmul-Kəbir" 8003. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6403) həsən olduğunu qeyd etmişdir.
[1285] əl-Hakim, 1307. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2492) səhih olduğunu bildirmişdir.
[1286] Əhməd, 23372, 24028. Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 985) səhih olduğunu bildirmişdir.

MÜSƏLMAN ÖLDÜKDƏN SONRA DA ONA SAVAB YAZILA BİLƏR

٩٦٧ - عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ ﵁ أَنَّ الْعَاصَ بْنَ وَائِلٍ أَوْصَى أَنْ يُعْتَقَ عَنْهُ مِائَةُ رَقَبَةٍ فَأَعْتَقَ ابْنُهُ هِشَامٌ خَمْسِينَ رَقَبَةً فَأَرَادَ ابْنُهُ عَمْرٌو ﵁ أَنْ يَعْتِقَ عَنْهُ الْخَمْسِينَ الْبَاقِيَةَ فَقَالَ حَتَّى أَسْأَلَ رَسُولَ اللَّهِ ﷺ فَأَتَى النَّبِيَّ ﷺ فَقَالَ يَا رَسُولَ اللَّهِ إِنَّ أَبِي أَوْصَى بِعِتْقِ مِائَةِ رَقَبَةٍ وَإِنَّ هِشَامًا أَعْتَقَ عَنْهُ خَمْسِينَ وَبَقِيَتْ عَلَيْهِ خَمْسُونَ رَقَبَةً أَفَأُعْتِقُ عَنْهُ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّهُ لَوْ كَانَ مُسْلِمًا فَأَعْتَقْتُمْ عَنْهُ أَوْ تَصَدَّقْتُمْ عَنْهُ أَوْ حَجَجْتُمْ عَنْهُ بَلَغَهُ ذَلِكَ».

967. Amr ibn Şueyb atası və babasından ﵁ rəvayət edir ki, əl-As ibn Vail ölümündən sonra yüz kölə azad edilməsini vəsiyyət etmişdi. Oğlu Hişam əlli kölə azad etdi. Qalan əlli köləni də diğər oğlu Amr ﵁ azad etmək istədi və dedi: "Mən Allah Elçisindən soruşacağam". O, Peyğəmbərin sallәllahu aleyhi və sәllәm yanına gəlib dedi: "Ey Allahın Elçisi! Atam öz adından yüz kölə azad edilməsini vəsiyyət etmişdi. (Qardaşım) Hişam əlli kölə azad etdi. İndi atamın üzərində borc olaraq əlli kölə qaldı. Bunu onun üçün azad edə bilərəmmi?" Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Əgər o, müsəlman olsaydı, onun adından kölə azad etsəydiniz, yaxud sədəqə versəydiniz, ya da həcc etsəydiniz, bu, ona çatardı".[1287]

٩٦٨ - عَنْ سَلْمَانَ ﵁ عَنِ النَّبِيِّ ﷺ قَالَ: أَرْبَعٌ مِنْ عَمَلِ الأَحْيَاءِ يَجْرِي لِلأَمْوَاتِ: رَجُلٌ تَرَكَ عَقِبًا صَالِحًا فيدعو، فيبلغه دُعَاؤُهُمْ. وَرَجُلٌ تَصَدَّقَ بِصَدَقَةٍ جَارِيَةٍ، لَهُ مِنْ بَعْدِهِ أَجْرُهَا مَا جَرَتْ وَرَجُلٌ عَلَّمَ عِلْمًا يُعمَلُ بِهِ مِنْ بَعْدِهِ، فله مِثْلُ أَجْرِ مَنْ عَمِلَ بِهِ؛ مِنْ غَيْرِ أَنْ ينتقص مِنْ [أَجْرِ] عمله شيئاً. وَرَجُلٌ مُرَابِط يُنمَى له عمله إلى يَوْم الْحِسَاب

968. Salman ﵁ rəvayət edir ki, Allahın Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Sağ olanların etdiyi dörd əməl vardır ki, bu əməllərin savabı ölənlərə də yazılır; arxasınca ona dua edən əməlisaleh övlad qoyub gedən şəxsə övladın duası yetişir. Özündən sonra ardı-arası kəsilməyən sədəqə[1288] qoyub gedənə, ondan istifadə edildiyi müddətdə savab yazılır. Elm öyrədənə onunla (həmin elmlə) əməl edildiyi müddətdə, əməl edənlərin savablarından azalmamaq şərti ilə savab yazılır. Sərhəddə keşik çəkən kişiyə Haqq-hesab gününədək əməli artırılaraq savab yazılır".[1289]

[1287] Əbu Davud, 2883, 2885. əl-Albani həsən olduğunu bildirmişdir.

[1288] Ardı-arası kəsilməyən sədəqə, qulun Allah rizası üçün məscid tikməsi, yol çəkməsi, quyu qazdırması və s. bu kimi faydası ümumi olan əməllər nəzərdə tutulur.

[1289] İbn Əbud-Dunyə "əl-İyal" 2/ 431, 613; ət-Təbərani "Mucəmul-Kəbir" 6058, 6181. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 890) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 3984) həsən li-ğeyrihi olduğunu qeyd etmişdir.

٩٦٩ - عَنْ عَبْدِ اللهِ بْنِ أَبِي قَتَادَةَ، عَنْ أَبِيهِ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «خَيْرُ مَا يُخَلِّفُ الرَّجُلُ بَعْدَهُ ثَلاَثٌ: وَلَدٌ صَالِحٌ يَدْعُو لَهُ، وَصَدَقَةٌ تَجْرِي يَبْلُغُهُ أَجْرُهَا، وَعِلْمٌ يُنْتَفَعُ بِهِ مِنْ بَعْدِهِ».

969. Abdullah ibn Əbu Qatədə atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Öləndən sonra kişiyə ən xeyirli olan bu üç şeydir; onun üçün dua edən əməlisaleh övlad, mükafatı kəsilməyən sədəqə və özündən sonra qoyub getdiyi faydalı elm".[1290]

٩٧٠ - عَنْ أَنَسٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: سَبْعٌ يَجْرِي لِلْعَبْدِ أَجْرَهُنَّ وَهُوَ فِي قَبْرِهِ بَعْدَ مَوْتِهِ مَنْ عَلَّمَ عِلْماً أَوْ أَجْرَى نَهْراً أَوْ حَفَرَ بِئْراً أَوْ غَرَسَ نَخْلاً أَوْ بَنَى مَسْجِداً أَوْ وَرَّثَ مُصْحَفاً أَوْ تَرَكَ وَلَداً يَسْتَغْفِرُ لَهُ بَعْدَ مَوْتِهِ

970. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Qulun yeddi əməli vardır ki, ölümündən sonra qəbirdə ikən ona yazılmağa davam edir; elm öyrədən, su kanalı çəkdirən, quyu qazan, xurma ağacı əkən, məscid tikdirən, Quran miras qoyan və ölümündən sonra onun üçün istiğfar edən bir övlad qoyub gedən".[1291]

ƏMƏLİSALEH ÖVLADIN FAYDASI

٩٧١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ ﷻ لَيَرْفَعُ الدَّرَجَةَ لِلْعَبْدِ الصَّالِحِ فِي الْجَنَّةِ فَيَقُولُ يَارَبِّ أَنَّى لِي هَذِهِ؟ فَيَقُولُ بِاسْتِغْفَارِ وَلَدِكَ لَكَ»

971. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Allah ﷻ əməlisaleh qulunun Cənnətdə dərəcəsini artırır. O deyir: "Ey Rəbbim! Bu mənə hardandır?" Allah buyurur: "Övladının sənin üçün bağışlanma diləməsinə görədir".[1292]

MALINI MÜDAFİƏ ETMƏK HAQLARDANDIR

٩٧٢ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ قُتِلَ دُونَ مَالِهِ مَظْلُومًا فَلَهُ الْجَنَّةُ».

972. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Kim malını müdafiə edərkən haqsız yerə

[1290] İbn Hibban, 93. əl-Albani səhih olduğunu bildirmişdir.

[1291] əl-Bəzzar, 7289. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3602) həsən və "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2600) həsən səhih olduğunu bildirmişdir.

[1292] Əhməd, 10611, 10618, 10890. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

öldürülərsə, ona Cənnət verilər".[1293]

CƏNAZƏDƏ İŞTİRAK ETMƏYİN FƏZİLƏTİ

٩٧٣ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: عُودُوا الْمَرْضَى، وَاتَّبِعُوا الْجَنَائِزَ تُذَكِّرُكُمُ الْآخِرَةَ.

973. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Xəstələrinizi ziyarət edin və cənazəni müşayiət edin ki, Axirəti xatırlayasınız".[1294]

٩٧٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنِ اتَّبَعَ جَنَازَةَ مُسْلِمٍ إِيمَانًا وَاحْتِسَابًا، وَكَانَ مَعَهُ حَتَّى يُصَلَّى عَلَيْهَا، وَيَفْرُغَ مِنْ دَفْنِهَا ، فَإِنَّهُ يَرْجِعُ مِنَ الأَجْرِ بِقِيرَاطَيْنِ، كُلُّ قِيرَاطٍ مِثْلُ أُحُدٍ، وَمَنْ صَلَّى عَلَيْهَا ثُمَّ رَجَعَ قَبْلَ أَنْ تُدْفَنَ فَإِنَّهُ يَرْجِعُ بِقِيرَاطٍ.

974. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Kim imanla, mükafatını (yalnız Allahdan) umaraq cənazənin ardınca getsə, namazını qılıb dəfn edilənədək yanında qalsa, iki qirat[1295] savabla geri qayıdar ki, qiratların hər biri Uhud dağı boyda olar. Kim cənazə namazı qılıb dəfn edilməmişdən əvvəl geri qayıtsa, bir qiratla geri qayıtmış olar".[1296]

CƏNAZƏ NAMAZININ FƏZİLƏTİ

٩٧٥ - عَنْ عَائِشَةَ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ مَا مِنْ مَيِّتٍ تُصَلِّي عَلَيْهِ أُمَّةٌ مِنْ الْمُسْلِمِينَ يَبْلُغُونَ مِائَةً كُلُّهُمْ يَشْفَعُونَ لَهُ إِلَّا شُفِّعُوا فِيهِ

975. Aişə ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Hər hansı bir ölünün cənazə namazını sayı yüzə qədər olan müsəlman camaat qılar və onların hamısı onun üçün şəfaət diləyərlərsə, şəfaətləri qəbul olunar".[1297]

٩٧٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «مَنْ صَلَّى عَلَيْهِ مِائَةٌ مِنَ الْمُسْلِمِينَ غُفِرَ لَهُ».

[1293] ən-Nəsəi, 4086, 4103. əl-Albani səhih olduğunu söyləmişdir.
[1294] İbn Hibban, 2955.əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3469) həsən səhih olduğunu bildirib.
[1295] Qirat ölçü vahididir.
[1296] əl-Buxari, 47; Muslim, 2186, 1570.
[1297] Muslim, 947, 2241.

976. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Kimin cənazə namazını yüz müsəlman qılarsa, o bağışlanar".[1298]

٩٧٧ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَبَّاسٍ ﷺ أَنَّهُ مَاتَ ابْنٌ لَهُ بِقُدَيْدٍ أَوْ بِعُسْفَانَ فَقَالَ يَا كُرَيْبُ انْظُرْ مَا اجْتَمَعَ لَهُ مِنْ النَّاسِ قَالَ فَخَرَجْتُ فَإِذَا نَاسٌ قَدْ اجْتَمَعُوا لَهُ فَأَخْبَرْتُهُ فَقَالَ تَقُولُ هُمْ أَرْبَعُونَ قَالَ نَعَمْ قَالَ أَخْرِجُوهُ فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ مَا مِنْ رَجُلٍ مُسْلِمٍ يَمُوتُ فَيَقُومُ عَلَى جَنَازَتِهِ أَرْبَعُونَ رَجُلًا لَا يُشْرِكُونَ بِاللَّهِ شَيْئًا إِلَّا شَفَّعَهُمْ اللَّهُ فِيهِ

977. Abdullah ibn Abbas ﷺ belə rəvayət edir: "Onun oğlu (Qudeyd və ya Usfan) öldüyü vaxt belə buyurdu: "Ey Kureyb, çıx bir bax, gör onun üçün nə qədər adam yığışıb?" Mən çıxıb baxdığım vaxt insanlar toplaşmışdı. Bunu gəlib ona xəbər verdiyim vaxt, məndən: "Onlar qırx nəfər olarmı?" deyə soruşdu. Mən: "Bəli"- deyə cavab verdim. O, belə buyurdu: "Onu çıxardın! Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: "Ölmüş hər hansı müsəlman bir kişinin cənazə namazını, Allaha şərik qoşmayan qırx kişi qılarsa, Uca Allah onları onun üçün şəfaətçi edər". [1299]

QƏBİR ZİYARƏTİ ÖLÜMÜ XATIRLADIR

٩٧٨ - عن أنس بن مالك ﷺ قال: قال رسول الله ﷺ: كُنْتُ نَهَيْتُكُمْ عَنِ زِيَارَةِ الْقُبُورِ أَلاَ فَزُورُوهَا فَإِنَّهَا تُرِقُّ الْقَلْبَ وَتُدْمِعُ الْعَيْنَ وَتُذَكِّرُ الآخِرَةَ وَلاَ تَقُولُوا هُجْراً

978. Ənəs ibn Mələk ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə onları ziyarət edin! Həqiqətən də, qəbirləri ziyarət etmək qəlbi yumşaldır, göz yaşı axıdır və Axirəti xatırladır. Orada pis söz söyləməyin!"[1300]

[1298] İbn Məcə, 1488, 1555. əl-Albani səhih olduğunu qeyd etmişdir.
[1299] Muslim, 948, 1577, 2242.
[1300] əl-Hakim, 1393. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4584) səhih olduğunu bildirmişdir.

İSLAM ÜMMƏTİ

ALLAHIN BU ÜMMƏTƏ OLAN LÜTFÜ

٩٧٩ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «إِنَّ اللَّهَ وَضَعَ عَنْ أُمَّتِى الْخَطَأَ وَالنِّسْيَانَ وَمَا اسْتُكْرِهُوا عَلَيْهِ».

979. İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurmuşdur: "Həqiqətən, Allah ümmətimə səhvən, unudaraq və məcburiyyət qarşısında edilənləri bağışlamışdır".[1301]

"...SƏNİ MƏYUS ETMƏYƏCƏYİK!" HƏDİSİ

٩٨٠ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ ﷺ أَنَّ النَّبِىَّ ﷺ تَلاَ قَوْلَ اللَّهِ ﷻ فِى إِبْرَاهِيمَ ﴿**رَبِّ إِنَّهُنَّ أَضْلَلْنَ كَثِيرًا مِنَ النَّاسِ فَمَنْ تَبِعَنِى فَإِنَّهُ مِنِّى**﴾ الآيَةَ. وَقَالَ عِيسَى ﷺ ﴿**إِنْ تُعَذِّبْهُمْ فَإِنَّهُمْ عِبَادُكَ وَإِنْ تَغْفِرْ لَهُمْ فَإِنَّكَ أَنْتَ الْعَزِيزُ الْحَكِيمُ**﴾ فَرَفَعَ يَدَيْهِ وَقَالَ «اللَّهُمَّ أُمَّتِى أُمَّتِى». وَبَكَى فَقَالَ اللَّهُ ﷻ يَا جِبْرِيلُ اذْهَبْ إِلَى مُحَمَّدٍ وَرَبُّكَ أَعْلَمُ فَسَلْهُ مَا يُبْكِيكَ فَأَتَاهُ جِبْرِيلُ – عَلَيْهِ الصَّلاَةُ وَالسَّلاَمُ – فَسَأَلَهُ فَأَخْبَرَهُ رَسُولُ اللَّهِ ﷺ بِمَا قَالَ. وَهُوَ أَعْلَمُ. فَقَالَ اللَّهُ «يَا جِبْرِيلُ اذْهَبْ إِلَى مُحَمَّدٍ فَقُلْ إِنَّا سَنُرْضِيكَ فِى أُمَّتِكَ وَلاَ نَسُوءُكَ»

980. Abdullah ibn Amr ibn əl-As ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm Allahın ﷻ İbrahim haqqında: ***"Ey Rəbbim! Həqiqətən də, onlar çox adamı azdırıblar. Kim mənə tabe olsa, o, məndəndir"*** *(İbrahim 36)* və İsa ﷺ haqqında: ***"Əgər onlara əzab versən, sözsüz ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, şübhəsiz ki, Sən Qüdrətlisən, Müdriksən!"*** *(əl-Maidə, 118)* - ayələrini oxuyarkən əllərini (göyə) qaldırdı və: "Allahım! Ümmətim, ümmətim!"- deyərək ağladı. Allah ﷻ buyurdu: "Ey Cəbrail! - Rəbbin daha yaxşı bildiyi halda - Muhəmmədin yanına get və ondan soruş: "Səni ağladan nədir?" Cəbrail ﷺ da onun yanına gəlib soruşdu. Allah Elçisi salləllahu aleyhi və səlləm də söylədiklərini - Allahın daha yaxşı bildiyi halda - ona xəbər verdi. Allah buyurdu: "Ey Cəbrail! Muhəmmədin yanına get və de: "Şübhəsiz ki, Biz səni ümmətindən razı edəcəyik və səni məyus etməyəcəyik".[1302]

MUHƏMMƏD SALLƏLLAHU ALEYHI VƏ SƏLLƏM ÜMMƏTİNİN DİGƏR ÜMMƏTLƏRDƏN ÜSTÜNLÜYÜ

٩٨١ - عَنْ عَبْدِ اللَّهِ ابْنِ عُمَرَ ﷺ أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «إِنَّمَا بَقَاؤُكُمْ فِيمَا سَلَفَ قَبْلَكُمْ مِنَ الأُمَمِ كَمَا بَيْنَ

[1301] İbn Məcə, 2045, 2123. əl-Albani səhih olduğunu bildirmişdir.
[1302] Muslim, 301, 499, 520.

صَلاَةِ الْعَصْرِ إِلَى غُرُوبِ الشَّمْسِ، أُوتِىَ أَهْلُ التَّوْرَاةِ التَّوْرَاةَ فَعَمِلُوا حَتَّى إِذَا انْتَصَفَ النَّهَارُ عَجَزُوا، فَأُعْطُوا قِيرَاطًا قِيرَاطًا، ثُمَّ أُوتِىَ أَهْلُ الإِنْجِيلِ الإِنْجِيلَ فَعَمِلُوا إِلَى صَلاَةِ الْعَصْرِ، ثُمَّ عَجَزُوا، فَأُعْطُوا قِيرَاطًا قِيرَاطًا، ثُمَّ أُوتِينَا الْقُرْآنَ فَعَمِلْنَا إِلَى غُرُوبِ الشَّمْسِ، فَأُعْطِينَا قِيرَاطَيْنِ قِيرَاطَيْنِ، فَقَالَ أَهْلُ الْكِتَابَيْنِ أَىْ رَبَّنَا أَعْطَيْتَ هَؤُلاَءِ قِيرَاطَيْنِ قِيرَاطَيْنِ، وَأَعْطَيْتَنَا قِيرَاطًا قِيرَاطًا، وَنَحْنُ كُنَّا أَكْثَرَ عَمَلاً، قَالَ قَالَ اللَّهُ ﷻ هَلْ ظَلَمْتُكُمْ مِنْ أَجْرِكُمْ مِنْ شَىْءٍ قَالُوا لاَ، قَالَ فَهْوَ فَضْلِى أُوتِيهِ مَنْ أَشَاءُ»

981. Abdullah ibn Ömər ﷺ demişdir: “Mən Allah Elçisinin sallәllahu aleyhi və sәlləm belə dediyini eşitdim: “Sizdən öncə gəlib-getmiş ümmətlərin (dünyada qaldığı müddətlə) müqayisədə sizin qaldığınız müddət əsr namazından günbatana qədər olan vaxt kimidir. Tövrat əhlinə Tövrat verilmişdi və onlar (Allahın hökmlərinə) riayət edirdilər. Nəhayət, günortaya yetişdikdə yorulub əldən düşdülər və buna görə də onlara bir qirat[1303] (mükafat) verildi. İncil əhlinə də İncil verilmişdi; onlar əsr namazınadək (Allahın hökmlərinə) riayət etdilər və axırda yorulub əldən düşdülər, buna görə də onlara bir qirat (mükafat) verildi. Daha sonra bizə Quran verildi və biz gün batanadək (Allahın hökmlərinə) riayət etdik, buna görə də bizə iki qirat (mükafat) verildi. Belə olduqda hər iki Kitab əhli deyəcək: “Ey Rəbbimiz! Sən onlara iki qirat, bizə isə bir qirat verdin. Halbuki biz onlardan daha çox əməl etmişik”. Allah ﷻ buyuracaq: “Məgər Mən sizə mükafat verdikdə sizə qarşı haqsızlıq etmişəm?” Onlar: “Xeyr!”- deyə cavab verəcəklər. Onda Allah buyuracaq: “Bu, Mənim lütfümdür, onu istədiyimə verirəm”.[1304]

٩٨٢ - سَمِعَ مُعَاذَ بْنَ جَبَلٍ ﷺ يَقُولُ ارْتَقَبْنَا النَّبِىَّ ﷺ فِى صَلاَةِ الْعَتَمَةِ فَأَخَّرَ حَتَّى ظَنَّ الظَّانُّ أَنَّهُ لَيْسَ بِخَارِجٍ وَالْقَائِلُ مِنَّا يَقُولُ صَلَّى فَإِنَّا لَكَذَلِكَ حَتَّى خَرَجَ النَّبِىُّ ﷺ فَقَالُوا لَهُ كَمَا قَالُوا فَقَالَ لَهُمْ «أَعْتِمُوا بِهَذِهِ الصَّلاَةِ فَإِنَّكُمْ قَدْ فُضِّلْتُمْ بِهَا عَلَى سَائِرِ الأُمَمِ وَلَمْ تُصَلِّهَا أُمَّةٌ قَبْلَكُمْ».

982. Rəvayət edilir ki, Muaz ibn Cəbəl ﷺ demişdir: “(Bir gün) biz İşa namazını qılmaq üçün Peyğəmbəri sallәllahu aleyhi və sәlləm gözləyirdik. O, namaza (o qədər) gecikdi ki, hətta bizdən kimisi onun gəlməyəcəyini zənn etdi. Kimisi də: “O, namazı artıq qılmışdır”- dedi. Biz bu halda ikən, nəhayət Peyğəmbər sallәllahu aleyhi və sәlləm gəldi. (Səhabələr) dedikləri sözü olduğu kimi ona söylədilər. Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: “Bu nama-

[1303] Qirat deyildikdə Qiyamət günü əməlisaleh möminlərin payına düşən mükafat nəzərdə tutulur.
[1304] əl-Buxari, 532, 557, 2268, 2269.

zı gecikdirin, çünki siz bununla digər ümmətlərdən üstün edildiniz. Sizdən öncə onu heç bir ümmət qılmayıb".[1305]

DİNİ BAŞA DÜŞMƏK XEYİRƏ APARAN YOLDUR

٩٨٣ - عَنْ مُعَاوِيَةَ ﷺ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: «مَنْ يُرِدِ اللَّهُ بِهِ خَيْرًا يُفَقِّهْهُ فِي الدِّينِ، وَإِنَّمَا أَنَا قَاسِمٌ وَاللَّهُ يُعْطِي، وَلَنْ تَزَالَ هَذِهِ الأُمَّةُ قَائِمَةً عَلَى أَمْرِ اللَّهِ لاَ يَضُرُّهُمْ مَنْ خَالَفَهُمْ حَتَّى يَأْتِيَ أَمْرُ اللَّهِ».

983. Müaviyə ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Allah kimə xeyir nəsib etmək istəsə, ona dini başa düşməyi müyəssər edər. Mən yalnız paylaşdırıram. Verən isə Allahdır. Bu ümmətin (bir qismi) Allahın əmri gəlincəyə qədər (Qiyamət qopanadək) Allahın dini üzərində sabit qalacaq və belələrinə müxalif olanlar onlara heç bir zərər verə bilməyəcəklər".[1306]

ÜMMƏTLƏRİN SONUNCUSU, CƏNNƏTƏ GİRƏNLƏRİN BİRİNCİSİ

٩٨٤ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «نَحْنُ آخِرُ الأُمَمِ، وَأَوَّلُ مَنْ يُحَاسَبُ يقالُ: أَيْنَ الأُمَّةُ الأُمِّيَّةُ وَنَبِيُّهَا، فَنَحْنُ الآخِرُونَ الأَوَّلُونَ».

984. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurmuşdur: "Biz ümmətlərin ən sonuncusu, haqq-hesab olunanların isə ən birincisiyik. (Qiyamət günü) deyiləcək: "Yazıb-oxuya bilməyən ümmət və onun peyğəmbəri hanı?" Beləliklə biz ən sonuncu (ümmə və Cənnətə daxil olanlardan) ən birinciyik".[1307]

٩٨٥ - عَنْ مُعَاوِيَةَ بْنِ حَيدَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «نُكْمِلُ يَوْمَ الْقِيَامَةِ سَبْعِينَ أُمَّةً، نَحْنُ آخِرُهَا وَخَيْرُهَا». ... «إِنَّكُمْ وَفَّيتُم سَبْعِينَ أُمَّةً، أَنْتُمْ خَيْرُهَا وَأَكْرَمُهَا عَلَى اللهِ».

985. Muaviyə ibn Heydə ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "Biz, Qiyamət günü yetmiş ümməti tamamlayacağıq. Biz (ümmətlərin) ən sonuncusu və ən xeyirlisiyik".[1308] Digər rəvayətdə

[1305] Əbu Davud, 421. əl-Albani səhih olduğunu bildirmişdir.
[1306] əl-Buxari, 71.
[1307] İbn Məcə, 4290, 4431. əl-Albani səhih olduğunu bildirmişdir.
[1308] İbn Məcə, 4287, 4428. əl-Albani həsən olduğunu bildirmişdir.

deyilir: “Siz yetmiş ümməti tamamladınız. Siz (ümmətlərin) ən xeyirlisi və Allah qatında ən hörmətlisiniz”.[1309]

ŞƏFAƏT ÜÇÜN SAXLANILAN DUA

٩٨٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لِكُلِّ نَبِيٍّ دَعْوَةٌ مُسْتَجَابَةٌ. فَتَعَجَّلَ كُلُّ نَبِيٍّ دَعْوَتَهُ، وَإِنِّي اخْتَبَأْتُ دَعْوَتِي شَفَاعَةً لأُمَّتِي يَوْمَ الْقِيَامَةِ، فَهِيَ نَائِلَةٌ إِنْ شَاءَ اللَّهُ، مَنْ مَاتَ مِنْ أُمَّتِي لاَ يُشْرِكُ بِاللَّهِ شَيْئًا».

986. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: “Hər peyğəmbərin qəbul edilmiş bir duası olmuşdur. Onların hər biri (artıq öz duasından) istifadə etmişdir. Mən isə öz duamı Qiyamət günü ümmətimə şəfaət etmək üçün saxlamışam. Ümmətimdən Allaha şərik qoşmadığı halda ölən kimsələr inşə-Allah bu şəfaətə nail olacaqlar”.[1310]

CƏNNƏT ƏHLİNİN ƏKSƏRİYYƏTİ BU ÜMMƏTDƏNDİR

٩٨٧ - عَنْ بُرَيدَةَ الأَسْلَمِي ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «أَهْلُ الْجَنَّةِ عِشْرُونَ وَمِئَة صَفّ، ثَمَانُونَ مِنْ هَذِهِ الأُمَّةِ، وَأَرْبَعُونَ مِنْ سَائِرِ الأُمَمِ».

987. Bureydə əl-Əsləmi atasından ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurmuşdur: “Cənnət əhli yüz iyirmi səfdir. Səksəni bu ümmətdən, qırxı isə digər ümmətlərdəndir”.[1311]

CƏNNƏTƏ KASIBLAR VARLILARDAN DAHA TEZ GİRƏCƏKLƏR

٩٨٨ - عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «إِنِّي لأَرْجُو أَنْ لاَ تَعْجَزَ أُمَّتِي عِنْدَ رَبِّهَا أَنْ يُؤَخِّرَهُمْ نِصْفَ يَوْمٍ». قِيلَ لِسَعْد وَكَمْ نِصفُ ذَلِكَ الْيَوم قَالَ: خَمْسُمِائَة سَنَة.

988. Səd ibn Əbu Vəqqas ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: “Mən ümid edirəm ki, ümmətimin (varlıları) Rəbblərinin dərgahında (sorğu-sual olunaraq Cənnətə girməyə) yarım gün gecikdirilmələrinə dözəcəklər”. Səddən ﷺ soruşdular: “Yarım gün nə qədərdir?” Səd ﷺ dedi: “Beş yüz ildir[1312]”.[1313]

[1309] İbn Məcə, 4288, 4429. əl-Albani həsən olduğunu bildirmişdir.

[1310] Muslim, 491.

[1311] İbn Məcə, 4289, 4430. əl-Albani səhih olduğunu bildirmişdir.

[1312] Allah dərgahında bir gün min ilə bərabərdir. Bu haqda Qurani-Kərimdə Allah buyurur: ***“O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da bu işlər sizin saydığınız illərdən min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir”*** *(əs-Səcdə 5).*

“SİZ ALLAHIN YER ÜZÜNDƏKİ ŞAHİDLƏRİSİNİZ!” HƏDİSİ

٩٨٩ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ يَقُولُ مَرُّوا بِجَنَازَةٍ فَأَثْنَوْا عَلَيْهَا خَيْرًا، فَقَالَ النَّبِيُّ ﷺ: «وَجَبَتْ». ثُمَّ مَرُّوا بِأُخْرَى فَأَثْنَوْا عَلَيْهَا شَرًّا فَقَالَ: «وَجَبَتْ». فَقَالَ عُمَرُ بْنُ الْخَطَّابِ ﷺ مَا وَجَبَتْ قَالَ: «هَذَا أَثْنَيْتُمْ عَلَيْهِ خَيْرًا فَوَجَبَتْ لَهُ الْجَنَّةُ، وَهَذَا أَثْنَيْتُمْ عَلَيْهِ شَرًّا فَوَجَبَتْ لَهُ النَّارُ، أَنْتُمْ شُهَدَاءُ اللَّهِ فِي الأَرْضِ».

989. Rəvayət edilir ki, Ənəs ibn Malik ﷺ demişdir: “(Bir dəfə) cənazə aparılarkən biz onu xoş sözlə yad edib tərifləndik. Peyğəmbər sallallahu aleyhi və səlləm: “Vacib oldu!”- deyə buyurdu. Sonra başqa bir cənazə aparılarkən biz onu xoşagəlməz sözlə yad edib pislədik. Peyğəmbər sallallahu aleyhi və səlləm (yenə): “Vacib oldu!”- deyə buyurdu. Ömər ibn Xəttab: “Nə vacib oldu?”- deyə soruşdu. Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: “Bunu xoş sözlərlə yad etdiniz, Cənnət buna vacib oldu. Onu da xoşagəlməz sözlərlə yad etdiniz, Cəhənnəm ona vacib oldu. Siz Allahın yer üzündəki şahidlərisiniz!”[1314]

YAĞIŞIN MİSALI KİMİ OLAN ÜMMƏT

٩٩٠ - عَنْ أَنَسٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَثَلُ أُمَّتِى مَثَلُ الْمَطَرِ لاَ يُدْرَى أَوَّلُهُ خَيْرٌ أَمْ آخِرُهُ».

990. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: “Ümmətimin misalı yağışın misalı kimidir, əvvəlinin, yoxsa axırının daha xeyirli olduğu bilinməz”.[1315]

BÜTÜNLÜKLƏ CƏNNƏTƏ DÜŞƏN ÜMMƏT

٩٩١ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَا مِنْ أُمَّةٍ إِلاَّ وَبَعْضُهَا فِي النَّارِ وَبَعْضُهَا فِي الْجَنَّةِ إِلاَّ أُمَّتِي فَإِنَّهَا كُلُّهَا فِي الْجَنَّةِ».

991. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: “Elə bir ümmət yoxdur ki, onun bir qismi Cəhənnəmə, bir qismi də Cənnətə düşməsin. Mənim ümmətim isə bütövlükdə Cənnətə düşəcəkdir”.[1316]

[1313] Əbu Davud, 4350, 4352. əl-Albani səhih olduğunu bildirmişdir.

[1314] əl-Buxari, 1367.

[1315] ət-Tirmizi, 2869, 3109; Əhməd, 11878. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[1316] Xatib əl-Bağdadi “Tarixu Bağdad” 3/ 322. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 5693) səhih olduğunu bildirmişdir.

CƏNNƏTƏ SORĞU-SUALSIZ GİRƏNLƏR KİMLƏRDİR?

٩٩٢ - عَنْ ابْنُ عَبَّاسٍ ﵄ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ عُرِضَتْ عَلَيَّ الأُمَمُ فَجَعَلَ النَّبِيُّ وَالنَّبِيَّانِ يَمُرُّونَ مَعَهُمْ الرَّهْطُ وَالنَّبِيُّ لَيْسَ مَعَهُ أَحَدٌ حَتَّى رُفِعَ لِي سَوَادٌ عَظِيمٌ قُلْتُ مَا هَذَا أُمَّتِي هَذِهِ قِيلَ بَلْ هَذَا مُوسَى وَقَوْمُهُ قِيلَ انْظُرْ إِلَى الأُفُقِ فَإِذَا سَوَادٌ يَمْلأُ الأُفُقَ ثُمَّ قِيلَ لِي انْظُرْ هَا هُنَا وَهَا هُنَا فِي آفَاقِ السَّمَاءِ فَإِذَا سَوَادٌ قَدْ مَلأَ الأُفُقَ قِيلَ هَذِهِ أُمَّتُكَ وَيَدْخُلُ الْجَنَّةَ مِنْ هَؤُلاَءِ سَبْعُونَ أَلْفًا بِغَيْرِ حِسَابٍ ثُمَّ دَخَلَ وَلَمْ يُبَيِّنْ لَهُمْ فَأَفَاضَ الْقَوْمُ وَقَالُوا نَحْنُ الَّذِينَ آمَنَّا بِاللَّهِ وَاتَّبَعْنَا رَسُولَهُ فَنَحْنُ هُمْ أَوْ أَوْلاَدُنَا الَّذِينَ وُلِدُوا فِي الإِسْلاَمِ فَإِنَّا وُلِدْنَا فِي الْجَاهِلِيَّةِ فَبَلَغَ النَّبِيَّ ﷺ فَخَرَجَ فَقَالَ هُمْ الَّذِينَ لاَ يَسْتَرْقُونَ وَلاَ يَتَطَيَّرُونَ وَلاَ يَكْتَوُونَ وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ فَقَالَ عُكَاشَةُ بْنُ مِحْصَنٍ أَمِنْهُمْ أَنَا يَا رَسُولَ اللَّهِ قَالَ نَعَمْ فَقَامَ آخَرُ فَقَالَ أَمِنْهُمْ أَنَا قَالَ سَبَقَكَ بِهَا عُكَّاشَةُ.

992. İbn Abbas ﵄ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Ümmətlər mənə göstərildi. Mən bir və ya iki peyğəmbər gördüm, yanlarında bir neçə adam var idi. Hətta elə bir peyğəmbər də gördüm ki, yanında heç kəs yox idi. (Həmin vaxt) mənə böyük bir toplum göstərildi. Mən soruşdum: "Bu nədir? Yoxsa bu mənim ümmətimdir?" (Mənə): "Bu, Musa və onun qövmüdür" - deyildi. Sonra da: "Üfüqə tərəf bax" - deyə əmr edildi. Mən orada bütün üfüqü tutmuş böyük bir toplum gördüm. (Yenə) dedilər: "Üfüqün burasına və burasına bax!" Mən orada bütün üfüqü tutmuş böyük bir toplum gördüm. Mənə: "Bu sənin ümmətindir. Onlardan yetmiş min nəfəri sorğu-sualsız Cənnətə girəcəkdir"- dedilər. (Bunu deyəndən) sonra Peyğəmbər sallәllahu aleyhi və sәlləm kimlərin (sorğu-sualsız Cənnətə girəcəklərinə dair) açıqlama verməyib (evinə) daxil oldu. (Bu səbəbdən) camaatın arasına ixtilaf düşdü və onlar dedilər: "Biz Allaha iman gətirmiş və Onun Elçisinin ardınca gedən kimsələrik. (Demək, o yetmiş min nəfər) bizik, yaxud bu, müsəlman olaraq doğulmuş övladlarımıza aiddir, çünki biz cahiliyyə dövründə dünyaya gəlmişik". Bu söhbət Peyğəmbərə sallәllahu aleyhi və sәlləm yetişdikdə o bayıra çıxıb dedi: "Bunlar özlərinə ovsun oxunmasını tələb etməyən[1317], (hər hansı bir hadisəni) uğursuzluq əlaməti hesab etməyən[1318], (müalicə məqsədilə) bədəninə dağ

[1317] Hərfi tərcümədə ovsun deməkdir. Lakin burada ovsun deyildikdə sehr, cadu, pitik deyil, əksinə, mübarək sözlərlə – Allahın Kəlamı və ya Peyğəmbərin ﷺ duaları vasitəsilə xəstəni müalicə etmək nəzərdə tutulur.

[1318] Cahiliyyət dövründə ərəblərdən kimsə bir işi görmək istədikdə, göyə baxar və göydə gördüyü quşun sağ tərəfə, yaxud sol tərəfə uçmasıyla, görmək istədiyi işin uğurlu və ya uğursuz olacağını təyin edərdi. Habelə xoşagəlməz bir səs eşitdikdə və ya arzu edilməyən bir adam gördükdə, bunu uğursuzluq əlaməti hesab edərdilər. Bəziləri Şəvval ayında evlənməyi uğursuzluq sayardılar. Aişə ﵂ bu cür etiqadın batil olduğunu bildirib demişdir: "Allahın Elçisi mənimlə Şəvval ayında nikah bağlamış, habelə məni şəvval ayında öz evinə gətirmişdir..." Bundan başqa o vaxt ərəblər çərşənbə gününü, habelə Səfər ayını da

basmayan və yalnız Rəbbinə təvəkkül edən kimsələrdir". Bu vaxt Ukkaşə ibn Mihsən dedi: "Mən onlardanammı, ey Allahın Elçisi?" Peyğəmbər sallәllahu aleyhi və sәlləm: "Bəli" - dedi. Sonra başqa bir adam ayağa qalxıb: "Mən də onlardanammı?"- deyə soruşdu. Peyğəmbər sallәllahu aleyhi və sәlləm dedi: "Ukkaşə səni qabaqladı".[1319]

٩٩٣ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «لَيَدْخُلَنَّ مِنْ أُمَّتِي سَبْعُونَ أَلْفًا – أَوْ سَبْعُمِائَةِ أَلْفٍ – لاَ يَدْخُلُ أَوَّلُهُمْ حَتَّى يَدْخُلَ آخِرُهُمْ، وَجُوهُهُمْ عَلَى صُورَةِ الْقَمَرِ لَيْلَةَ الْبَدْرِ».

993. Səhl ibn Səd ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Ümmətimdən yetmiş min, yaxud yeddi yüz min nəfər hamısı birdən (Cənnətə daxil olacaq). Onların üzü on dörd gecəlik ay kimi (gözəl və parlaq) olacaq".[1320]

٩٩٤ - عَنْ رِفَاعَةَ الْجُهَنِيِّ ﷺ قَالَ: صَدَرْنَا مَعَ رَسُوْلِ اللهِ ﷺ فَقَالَ: «وَالَّذِي نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ! مَا مِنْ عَبْدٍ يُؤْمِنُ ثُمَّ يُسَدِّدُ إِلاَّ سُلِكَ بِهِ فِي الْجَنَّةِ وَأَرْجُو أَلاَّ يَدْخُلُوهَا حَتَّى تَبوَّءوا أَنْتُمْ، وَمَنْ صَلَحَ مِنْ ذَرَارِيكُمْ مَسَاكِنَ فِي الْجَنَّةِ، وَلَقَدْ وَعَدَنِي رَبِّي ﷻ أَنْ يُدْخِلَ الْجَنَّةَ مِنْ أُمَّتِي ، سَبْعِينَ أَلفاً بِغَيرِ حِسَابٍ».

994. Rifaə əl-Cuhəni ﷺ belə rəvayət edir: "(Bir dəfə) biz Allah Elçisi sallәllahu aleyhi və sәlləm ilə yola düşdük. Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Muhəmmədin canı Əlində Olana and olsun! İman gətirərək doğru yoldan ayrılmayan elə bir qul yoxdur ki, Cənnətə daxil edilməsin. Ümid edirəm ki, siz və nəslinizdən əməlisaleh olanlar Cənnətdəki yerlərdə məskunlaşmayınca (bir kimsə Cənnətə) girməyəcək. Rəbbim ﷻ ümmətimdən yetmiş min nəfəri sorğu-sualsız Cənnətə daxil etməyi[1321] qəti olaraq mənə vəd etdi".[1322]

٩٩٥ - عَنْ أَبِي أُمَامَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: وَعَدَنِي رَبِّي أَنْ يُدْخِلَ الْجَنَّةَ مِنْ أُمَّتِي سَبْعِينَ أَلْفًا بِغَيْرِ حِسَابٍ، وَلاَ

---

uğuzsuz əlamət hesab edərdilər. Qeyd etmək lazımdır ki, bunların və bunlara bənzər inancların hamısı batildir..." ("əl-Qovlul-Mufid", 1/ 103-104).

[1319] əl-Buxari, 5705; Muslim, 220.

[1320] əl-Buxari, 3247.

[1321] Digər rəvayətdə bu məsələyə aydınlıq gətirilərək deyilir: "Əbu Bəkr əs-Siddiq ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən yetmiş min nəfər sorğu-sualsız Cənnətə girəcək. Onların üzü bədr gecəsindəki ay kimi nur saçacaq, qəlbləri də (mömin) bir adamın qəlbi kimi olacaq. Rəbbimdən bundan artığını istədim, O mənə (həmin yetmiş min nəfərdən) hər bir kəslə yetmiş min də əlavə Cənnətə sorğu-sualsız girəcəyini nəsib etdi". Əhməd, 22. əl-Albani "Sahihul-Camius-Sağir"də (№ 1057) səhih olduğunu bildirmişdir.

[1322] İbn Məcə, 4285, 4426. əl-Albani səhih olduğunu bildirmişdir.

عَذَابٍ مَعَ كُلِّ أَلْفٍ سَبْعُونَ أَلْفًا وَثَلاَثَ حَثَيَاتٍ مِنْ حَثَيَاتِ رَبِّي ﷻ.

995. Əbu Umamə ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Mənim Rəbbim ümmətimdən yetmiş min nəfəri sorğu-sualsız və cəzasız Cənnətə daxil edəcəyini mənə vəd etmişdir. Onlardan hər min nəfərlə bərabər yetmiş min nəfər və Rəbbimin üç ovcu qədər (Cənnətə daxil olacaqdır)".[1323]

[1323] Əhməd, 22357, 22659. əl-Albani "Mişkətul-Məsabih"də (№ 5556) səhih olduğunu bildirmişdir.

FƏZİLƏTLƏR

ALLAHA ƏN SEVİMLİ OLAN ƏMƏL

٩٩٦ - عَنْ عَائِشَةَ ﵂: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «اُكْلَفوا مِنَ الْعَمَلِ مَا تُطِيقُونَ، فَإِنَّ اللهَ لاَ يَمَلُّ حَتَّى تَمَلُّوا، وَإِنَّ أَحَبَّ الْعَمَلِ إِلَى اللهِ أَدْوَمُهُ وَإِنْ قَلَّ». وَكَانَ إِذَا عَمَلَ عَمَلاً أَثْبَتَهُ.

996. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Bacardığınız əməli boynunuza götürün. Çünki, siz usanmadıqca Allah usanmaz. Şübhəsiz ki, əməllərdən Allaha ən sevimli olanı, az olsa belə davamiyyətli olanıdır". Allah Elçisi sallәllahu aleyhi və sәlləm bir əməl etdisə, onda davamiyyətli olardı".[1324]

ƏN YAXŞI QAZANC

٩٩٧ - عَنْ رَافِعِ بْنِ خَدِيجٍ ﷺ قَالَ قِيلَ يَا رَسُولَ اللَّهِ أَىُّ الْكَسْبِ أَطْيَبُ قَالَ «عَمَلُ الرَّجُلِ بِيَدِهِ وَكُلُّ بَيْعٍ مَبْرُورٍ»

997. Rafi ibn Xədic ﷺ rəvayət edir ki, Allah Elçisindən sallәllahu aleyhi və sәlləm soruşdular: "Ən yaxşı qazanc hansıdır?" O: "Kişinin öz zəhməti və halal ticarət yolu ilə əldə etdiyi qazanc"- deyə cavab verdi".[1325]

٩٩٨ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ أَطْيَبَ مَا أَكَلْتُمْ مِنْ كَسْبِكُمْ وَإِنَّ أَوْلاَدَكُمْ مِنْ كَسْبِكُمْ»

998. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "İnsanın ən gözəl yeməyi onun öz qazancıdır. Həqiqətən, övladlarınız da sizin qazancınızdandır".[1326]

٩٩٩ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «وَالَّذِى نَفْسِى بِيَدِهِ لأَنْ يَأْخُذَ أَحَدُكُمْ حَبْلَهُ فَيَحْتَطِبَ عَلَى ظَهْرِهِ خَيْرٌ لَهُ مِنْ أَنْ يَأْتِىَ رَجُلاً، فَيَسْأَلَهُ، أَعْطَاهُ أَوْ مَنَعَهُ».

999. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Canım Əlində olan Allaha and olsun ki, birinizin ip götürüb bir şələ odun yığaraq, belində (bazara) aparması, onun üçün kiməsə ağız açmaqdan daha xeyirlidir. Həm də bilmək olmaz, (o adam) ona istədiyini

---

[1324] Əbu Davud, 1368, 1370. əl-Albani səhih olduğunu bildirmişdir.
[1325] Əhməd, 17304, 17728. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1688, 1691) səhih li-ğeyrihi olduğunu bildirmişdir.
[1326] ət-Tirmizi, 1358, 1409. əl-Albani səhih olduğunu bildirmişdir.

verəcək, yoxsa imtina edəcək".[1327]

ONLARI GÖRƏNDƏ ALLAH YADA DÜŞƏR

١٠٠٠ - عن أسماء بنت يزيد ﵂ قالت قال النبي ﷺ ألا أخبركم بخياركم قالوا بلى قال الذين إذا رءوا ذكر الله أفلا أخبركم بشراركم قالوا بلى قال المشاءون بالنميمة المفسدون بين الأحبة الباغون البرآء العنت

1000. Əsma bint Yəzid ﵂ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Sizə ən xeyirliniz barədə xəbər verimmi?" (Səhabələr): "Bəli!"- deyə cavab verdilər. O dedi: "O kəslər ki, onları görəndə Allah yada düşər! Sizə ən pisiniz barədə xəbər verimmi?" Onlar: "Bəli!"- deyə cavab verdilər. O dedi: "Söz gəzdirənlər, dostların arasını vuranlar, günahsız insanları çətinliyə salanlar".[1328]

١٠٠١ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: خَرَجَ النَّبِيُّ ﷺ عَلَى رَهْطٍ مِنْ أَصْحَابِهِ يَضْحَكُونَ وَيَتَحَدَّثُونَ، فَقَالَ: وَالَّذِي نَفْسِي بِيَدِهِ، لَوْ تَعْلَمُونَ مَا أَعْلَمُ لَضَحِكْتُمْ قَلِيلًا، وَلَبَكَيْتُمْ كَثِيرًا، ثُمَّ انْصَرَفَ وَأَبْكَى الْقَوْمَ، وَأَوْحَى اللَّهُ ﷻ إِلَيْهِ: يَا مُحَمَّدُ، لِمَ تُقَنِّطُ عِبَادِي؟، فَرَجَعَ النَّبِيُّ ﷺ فَقَالَ: أَبْشِرُوا، وَسَدِّدُوا، وَقَارِبُوا.

1001. Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm bir dəstə gülüb-danışan səhabələrinin yanına gəlib dedi: "Canım Əlində Olana and olsun ki, əgər mənim bildiklərimi bilsəydiniz, az gülüb çox ağlayardınız". O çıxıb getdikdən sonra səhabələr ağladı. Allah ﷻ isə ona belə vəhy etdi: "Ey Muhəmməd! Nə üçün qullarımı ruhdan salırsan?" Peyğəmbər salləllahu aleyhi və səlləm geri dönüb dedi: "Elə isə (qazandığınız savaba) sevinin, doğru yol tutun və (ən kamil olanı yerinə yetirə bilməsəniz, heç olmasa ona) yaxınlaşın".[1329]

ALLAH ONA GÖRƏ EDİLƏN YAXŞILIQLARI PUÇ ETMƏZ

١٠٠٢ - عَنْ حَكِيمِ بْنِ حِزَامٍ ﵁ أَعْتَقَ فِي الْجَاهِلِيَّةِ مِائَةَ رَقَبَةٍ، وَحَمَلَ عَلَى مِائَةِ بَعِيرٍ، فَلَمَّا أَسْلَمَ حَمَلَ عَلَى مِائَةِ بَعِيرٍ وَأَعْتَقَ مِائَةَ رَقَبَةٍ، قَالَ فَسَأَلْتُ رَسُولَ اللَّهِ ﷺ فَقُلْتُ يَا رَسُولَ اللَّهِ، أَرَأَيْتَ أَشْيَاءَ كُنْتُ أَصْنَعُهَا فِي الْجَاهِلِيَّةِ، كُنْتُ أَتَحَنَّثُ بِهَا، يَعْنِي أَتَبَرَّرُ بِهَا، (قُلْتُ يَا رَسُولَ اللَّهِ أَرَأَيْتَ أَشْيَاءَ كُنْتُ أَتَحَنَّثُ بِهَا فِي الْجَاهِلِيَّةِ مِنْ صَدَقَةٍ أَوْ عَتَاقَةٍ وَصِلَةِ رَحِمٍ فَهَلْ فِيهَا مِنْ أَجْرٍ) قَالَ: فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَسْلَمْتَ عَلَى مَا سَلَفَ لَكَ مِنْ خَيْرٍ».

[1327] əl-Buxari, 1470.

[1328] əl-Buxari "Ədəbul-Mufrad" 323. əl-Albani həsən olduğunu bildirmişdir.

[1329] əl-Buxari "Ədəbul-Mufrad" 254. əl-Albani səhih olduğunu bildirmişdir.

1002. Həkim ibn Hizam ﷺ cahiliyyət dövründə yüz kölə azad etmiş və yüz dəvə paylamışdı.[1330] Habelə müsəlman olduqdan sonra da yüz dəvə payladı və yüz kölə azad etdi. (Həkim) deyir: "Mən Peyğəmbərə sallallahu aleyhi və səlləm dedim: "Ey Allahın elçisi! Mənim cahiliyyət dövründə etdiyim yaxşılıqlar barədə nə deyə bilərsən?" (Digər rəvayətdə deyilir: "Ey Allahın Elçisi! De görüm, cahiliyyət dövründə sədəqə vermək, qul azad etmək və qohumluq əlaqələrini möhkəmləndirmək kimi gördüyüm yaxşı işlərə görə mənə savab yazılırmı?"[1331]). Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Sən olub-keçən yaxşılıqlarla bərabər müsəlman oldun!"[1332]

NUR SAÇAN AĞ SAÇLAR

١٠٠٣ - عَنْ عَمْرِو بْنِ عَبَسَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ شَابَ شَيْبَةً فِى سَبِيلِ اللَّهِ كَانَتْ لَهُ نُورًا يَوْمَ الْقِيَامَةِ».

1003. Amr ibn Abəsə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kim Allahın yolunda (çalışaraq saç-saqqalını) ağardarsa, bu, Qiyamət günü onun üçün nur olacaqdır".[1333]

١٠٠٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ: «لا تَنْتِفُوا الشَّيب، فَإِنَّهُ نُورٌ يَوْمَ الْقِيَامَةِ، وَمَنْ شَابَ شَيْبَةً فِي الإِسْلاَمِ، كُتِبَ لَهُ بِهَا حَسَنَةً، وَحُطَّ عَنْهُ بِهَا خَطِيئَةٌ، وَرُفِعَ لَهُ بِهَا دَرَجَةٌ».

1004. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Ağ saçları qoparmayın, çünki o, Qiyamət günü nur olacaq. Kimin saçları İslamda ağararsa, hər ağ saça görə ona bir savab yazılar, bir günahı silinər və bir dərəcə yüksəldilər".[1334]

١٠٠٥ - عَنْ فُضَالَةَ بْنِ عُبَيْدٍ ﷺ: أَنَّ النَّبِيَّ ﷺ قَالَ: «مَنْ شَابَ شَيْبَةً فِي الإِسْلامِ فِي سَبِيلِ اللهِ كَانَتْ لَهُ نُوراً يَوْمَ الْقِيَامَةِ». فَقَالَ رَجُلٌ عِنْدَ ذَلِكَ: فَإِنَّ رِجَالاً يَنْتِفُونَ الشَّيْبَ، فَقَالَ النَّبِيُّ ﷺ: «مَنْ شَاءَ فَلْيَنْتِفْ نُورَهُ».

1005. Fudalə ibn Ubeyd ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Kimin İslamda Allah yolunda saçları ağararsa, bu, Qiyamət günü onun üçün nur olacaq". Bu zaman bir kişi belə dedi: "Həqiqətən

---

[1330] Həkim ibn Hizam ﷺ bu dəvələri insanlara onların müvəqqəti istifadəsi üçün verərdi.
[1331] əl-Buxari, 1436.
[1332] əl-Buxari, 2538.
[1333] ət-Tirmizi, 1635, 1735. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.
[1334] İbn Hibban, 2974. əl-Albani həsən olduğunu bildirmişdir.

də, kişilər ağ saçı qoparırlar". Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "Kim istəyirsə, öz nurunu qoparsın".[1335]

XOŞBƏXTLİYİN ƏLAMƏTLƏRİ

١٠٠٦ - عن محمد بن سعد عن أبيه: أن ﷺ قال: ثلاثةٌ مِنَ السَّعادَةِ وثلاثةٌ مِنَ الشَّقاءِ فَمِنَ السَّعادَةِ المَرْأةُ الصَّالِحَةُ تَراها فَتُعْجِبُكَ وَتَغِيبُ عَنْها فَتَأْمَنُها على نَفْسِها ومالِكَ والدَّابَةُ تَكُونُ وَطِيئَةً فَتُلْحِقُكَ بأصْحابِكَ والدَّارُ تَكُونُ واسِعَةً كَثِيرةَ المَرافِقِ وَمِنَ الشَّقاءِ المَرأةُ تَراها فَتَسُوءُكَ وَتَحْمِلُ لِسانها عَلَيْكَ وإنْ غِبْتَ عنها لم تأمَنها على نَفْسِها ومالِكَ والدَّابَةُ تَكُون قَطُوفاً فإنْ ضَرَبْتَها أتْعَبَتْكَ وإنْ تَرَكْتَها لَم تُلْحِقْكَ بأصْحابِكَ والدَّارُ تَكُونُ ضَيِّقَةً قَلِيلَةَ المَرافِقِ

1006. Muhəmməd ibn Səd atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Üç şey xoşbəxtliyin, üç şey isə bədbəxtliyin əlamətləridir. Xoşbəxtliyin (birinci əlaməti odur ki,) həyat yoldaşın əməli-saleh qadın olsun, onu görərkən halın daha xoş olsun. Ondan ayrı düşdükdə isə həm ondan, həm də əmlakından arxayın ola biləsən. (İkinci əlamət odur ki,) səni dostlarına çatdıra biləcək yüngül miniyin olmasıdır. Üçüncü əlamət isə; geniş və çox xidmətli mənzilə sahib olmaqdır. Bədbəxtliyin əlamətlərinə gəldikdə onlardan birincisi odur ki, həyat yoldaşınla üz-üzə gəlməyin halının pisləşməsinə səbəb olsun, onun dilindən daim əziyyət çəkmiş olasan və ondan ayrıldığın zaman nə onun özündən, nə də öz əmlakından arxayın ola biləsən. İkinci əlamət; ağır tərpənən miniyin olmasıdır ki, onu vurduğun zaman səni yorar, buraxdığın zaman səni dostlarına yetişdirməz. Üçüncü əlamət isə; az xidmətli mənzilə sahib olmaqdır".[1336]

UZUNÖMÜRLÜ MÜSƏLMANIN FƏZİLƏTİ

١٠٠٧ - عَنْ طَلْحَةَ بْنِ عُبَيدِ اللهِ ﷺ: أَنَّ رَجُلَينِ مِنْ بَلِيٍّ قَدِمَا عَلَى رَسُوْلُ اللهِ ﷺ وَكَانَ إِسْلاَمُهُمَا جَمِيعاً، فَكَانَ أَحَدُهُمَا أَشَدَّ اجْتِهَاداً مِنَ الآخَرِ، فَغَزَا الْمُجْتَهِدُ مِنْهُمَا فَاسْتُشهِد ثُمَّ مَكَثَ الآخَرُ بَعْدَهُ سَنَةً ثُمَّ تُوُفِّيَ، قَالَ طَلْحَةُ ﷺ: فَرَأيتُ فِي الْمَنَامِ: بَينَا أَنَا عِندَ بَابِ الْجَنَّةِ إِذْا أَنَا بِهِمَا فَخَرَجَ خَارِجٌ مِنَ الْجَنَّةِ فَأَذِنَ لِلَّذِي تُوُفِّيَ الآخِرِ مِنْهُمَا، ثُمَّ خَرَجَ فَأَذِنَ لِلَّذِي اسْتُشْهِدَ ثُمَّ رَجَعَ إِلَيَّ فَقَالَ: ارْجِع فَإِنَّكَ لَمْ يَأْنِ لَكَ بَعْدُ، فَأَصْبَحَ طَلحَةُ يُحَدِّثُ بِهِ النَّاسَ، فَعَجِبُوا لِذَلِكَ، فَبَلَغَ ذَلِكَ رَسُوْلُ اللهِ ﷺ وَحَدَّثوهُ الْحَدِيثَ فَقَالَ: «مِنْ أَيِّ ذَلِكَ تَعْجَبُونَ؟» فَقَالُوا: يَا رَسُوْلَ اللهِ! هَذَا كَانَ أَشَدَّ الرَّجُلَينِ اجْتِهَاداً، ثُمَّ اسْتُشْهِدَ وَدَخَلَ هَذَا الآخِرُ الْجَنَّةَ قَبْلَهُ؟ فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَلَيسَ قَدْ مَكَثَ هَذَا بَعْدَهُ سَنَةً؟»

[1335] Əhməd, 23998; ət-Tabərani "Mucəmul-Kəbir" 783. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2092) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1244) həsən olduğunu bildirmişdir.

[1336] əl-Hakim, 2684. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3056) həsən olduğunu bildirmişdir.

قَالُوا: بَلَى، قَالَ: «وَأَدْرَكَ رَمَضَانَ فَصَامَ وَصَلَّى كَذَا وَكَذَا مِن سَجْدةٍ فِي السَّنَةِ؟» قَالُوا: بَلَى، قَالَ رَسُوْلُ اللهِ ﷺ: «فَمَا بَيْنَهُمَا أَبْعَدُ مِمَّا بَيْنَ السَّماءِ وَالأَرْضِ».

1007. Rəvayət edilir ki, Talhə ibn Ubeydullah ﷺ belə demişdir: "Bəli qəbiləsindən olan iki kişi Allah Elçisinin sallallahu aleyhi və səlləm yanına gəldi. İkisi də İslamı eyni vaxtda qəbul etmişdilər. Biri digərindən daha çox çalışqan idi. Çalışqan döyüşdü və şəhid oldu. Digəri ondan sonra bir il yaşayıb vəfat etdi". Talhə ﷺ dedi: "Mən yuxuda gördüm ki, Cənnətin qapısının yanında o iki adamla qarşılaşmışam. Sonra Cənnətdən bir nəfər çıxaraq bu iki adamdan axırıncı vəfat edənə (Cənnətə girməsi üçün) izn verdi. Daha sonra o çıxaraq şəhid olana (Cənnətə girməsi üçün) izn verdi və yanıma qayıdıb dedi: "Sən geri qayıt, çünki sənin (Cənnətə girmək) vaxtın hələ gəlməyib". Talhə ﷺ səhər yuxusunu insanlara danışdı və onlar buna təəccübləndilər. Bu, Allah Elçisinə sallallahu aleyhi və səlləm çatdı və ona hadisəni danışdılar. Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Nəyə təəccüblənirsiniz?" Dedilər: "Ey Allahın Elçisi! Bu, ikincisindən daha çalışqan idi. Sonra o şəhid oldu. Halbuki, digəri Cənnətə ondan əvvəl girdi". Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Məgər o, şəhiddən sonra bir il çox yaşamadımı?" Onlar: "Bəli" - dedilər. Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Məgər o, Ramazan ayına çataraq oruc tutmayıbmı, bir ildə bu qədər namaz qılıb, səcdə etməyibmi?" Onlar: "Bəli" - dedilər. Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Elə isə onlar arasında fərq yerlə göy arasında olan məsafədən daha çoxdur".[1337]

١٠٠٨ - عَنْ عُبَيدِ بْنِ خَالِدٍ السُّلَمي ﷺ قَالَ: آخَى رَسُوْلُ اللهِ ﷺ بَينَ رَجُلَينِ فَقُتِلَ أَحَدهُمَا، وَمَاتَ الآخَر بَعْدَهُ بِجُمُعَةٍ أَوْ نَحْوَهَا، فَصَلينَا عَلَيهِ فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَا قُلتُمْ؟». فقُلنَا: دَعَوْنَا لَهُ وَقُلنَا: اللَّهُمَّ اغْفِر لَهُ وَأَلْحِقْهُ بِصَاحِبِه فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «فَأَيْنَ صَلاَتُهُ بَعدَ صَلاَتِهِ، وَصَومُهُ بَعدَ صَومِهِ شَكَّ شُعبَة فِي صَومِهِ وَعَمَلِهِ بَعدَ عَمَلِهِ إِنَّ بَيْنَهُمَا كَمَا بَيْنَ السَّمَاءِ وَالأَرْضِ».

1008. Ubeyd ibn Xalid əs-Suləmi ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm iki kişinin arasında qardaşlıq təyin etmişdi. Onlardan biri öldürüldü. Ondan sonra bir həftə və ya bir həftəyə yaxın müddətdə digəri vəfat etdi. Biz onun cənazə namazını qıldıq. Allah Elçisi sallallahu aleyhi və səlləm soruşdu: "Nə dua etdiniz?" Biz dedik: "Onun üçün belə dua etdik: "Allahım, onu bağışla və dostuna qovuşdur!" Allah Elçisi sallallahu aleyhi və

[1337] İbn Məcə, 3925, 4059. əl-Albani səhih olduğunu bildirmişdir.

səlləm buyurdu: “Öldürülənin namazlarından sonra dostunun qıldığı namazlar bəs haradadır? Öldürülənin tutduğu oruclardan sonra dostunun tutduğu oruclar bəs haradadır?[1338] Onların arasında yerlə göy arasında olan məsafə qədər fərq vardır[1339]”.[1340]

١٠٠٩ - عَنْ عَبْدِ اللَّهِ بْنِ بُسْرٍ ﷺ أَنَّ أَعْرَابِيًّا قَالَ يَا رَسُولَ اللَّهِ مَنْ خَيْرُ النَّاسِ قَالَ «مَنْ طَالَ عُمُرُهُ وَحَسُنَ عَمَلُهُ».

1009. Abdullah bin Busr ﷺ rəvayət edir ki: “Bir bədəvi dedi: “Ey Allahın Elçisi, ən xeyirli insan kimdir?” Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: “Ömrü uzun və əməli gözəl olan kimsə”.[1341]

ADƏM OĞLUNDAN OLAN ƏMƏLİSALEHLƏRİN FƏZİLƏTİ

١٠١٠ - قد روينا عن عبد الله عن عمر وابن عمر ﷺ أيضا موقوفا ومرفوعا: أن الله تعالى لما خلق الجنة قَالَتِ الْمَلاَئِكَةُ: يَا رَبَّنَا اجعل لنا هذه فإنك خلقت لبني آدَمَ الدُّنْيَا يَأْكُلُونَ فيها ويشربون فقال الله تعالى: وَعِزَّتِي وَجَلَالِي لاَ أَجْعَلُ صَالِحَ ذُرِّيَّةِ مَنْ خَلَقْتُ بِيَدَيَّ كَمَنْ قُلْتُ لَهُ : كُنْ فَكَانَ.

1010. Abdullah ibn Amr və Abdullah ibn Ömər ﷺ mövquf[1342] və mərfu[1343] sənədlə rəvayət edirlər: “Uca Allah Cənnəti yaratdıqda mələklər dedilər: “Ey Rəbbimiz, bunu bizim üçün et, Adəm övladı üçün dünyanı yaratmısan. Onlar orada yeyir və içirlər”. Uca Allah buyurdu: “İzzətimə və Ucalığıma and olsun! Öz əllərimlə yaratdığım bəndənin əməlisaleh nəslini, “Ol!”-deməklə olan bir tayfaya bərabər tutmaram”.[1344]

[1338] Hədisi rəvayət edən Şöbə adlı ravi şəkk edərək Peyğəmbərin ﷺ orucla bərabər “Öldürülənin etdiyi xeyirli əməllərdən sonra, dostunun etdiyi xeyirli əməllər bəs haradadır?”- ifadəsini də işlətməsini bildirmişdir.

[1339] Yəni, bu adam dostundan bir həftə sonra vəfat etmiş, bu müddət ərzində yaxşı əməllər etmiş və əlavə savablar qazanmışdır. Bu o demək deyildir ki, ölən hər bir kəs ondan əvvəl ölən kəsdən daha fəzilətlidir. Lakin bu ona dəlalət edir ki, insan Allaha itaət edərək yaşadıqca, savablar qazanmış olur. Həmçinin bu, yataqda ölən və şəhiddən üstün sayılan kimsəyə də aid edilə bilər, məsələn, əgər o, siddiqlərdən olmuşdursa. Məlumdur ki, Əbu Bəkr əs-Siddiq ﷺ Peyğəmbərlərdən ﷺ sonra bütün insanlardan, hətta şəhidlərdən də üstündür. Ola bilsin ki, hədisdə qeyd olunan adam da siddiqlərdən sayılmış olsun.

[1340] Əbu Davud, 2524, 2526. əl-Albani səhih olduğunu bildirmişdir.

[1341] ət-Tirmizi, 2329, 2499; Əhməd, 17030. əl-Albani səhih olduğunu bildirmişdir.

[1342] Səhabələr və ya onların tələbələri olan tabiinlərin sözü olan, Peyğəmbərə ﷺ nisbət edilməyən rəvayətlər.

[1343] Peyğəmbərə ﷺ nisbət edilən hədislər.

[1344] əd-Dərimi “Radd alə Bişrul-Mərrisi” 1/ 256. Səlim ibn İyd əl-Hilali mövquf olduğunu bildirmişdir.

TƏVAZÖKARLIQ

١٠١١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ قَالَ :«مَا نَقَصَتْ صَدَقَةٌ مِنْ مَالٍ، وَمَا زَادَ اللهُ عَبْداً بِعَفْوٍ إِلاَّ عَزًّا، وَمَا تَوَاضَعَ أَحَدٌ للهِ إِلاَّ رَفَعَهُ اللهُ».

1011. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Sədəqə vermək malı əskiltməz. Bağışlayan olduğuna görə Allah qulunun izzətini artırar. Bir kimsə Allah üçün təvazökar olarsa, Allah onu ucaldar".[1345]

١٠١٢ - عَنْ عُمَرَ ﷺ – قَالَ لاَ أَعْلَمُهُ إِلاَّ رَفَعَهُ – قَالَ يَقُولُ اللَّهُ تَبَارَكَ وَتَعَالَى «مَنْ تَوَاضَعَ لِى هَكَذَا». وَجَعَلَ يَزِيدُ بَاطِنَ كَفِّهِ إِلَى الأَرْضِ وَأَدْنَاهَا إِلَى الأَرْضِ «رَفَعْتُهُ هَكَذَا». وَجَعَلَ بَاطِنَ كَفِّهِ إِلَى السَّمَاءِ وَرَفَعَهَا نَحْوَ السَّمَاءِ.

1012. Ömər ﷺ demişdir: "Peyğəmbər sallәllahu aleyhi və sәllәm ovcunu yerə tərəf yaxınlaşdıraraq dedi: "Uca Allah buyurur: "Mənim üçün bu cür təvazökar olanı Mən belə ucaldaram". Peyğəmbər sallәllahu aleyhi və sәllәm bunu deyərək ovcunu səmaya qaldırdı".[1346]

١٠١٣ - عَنْ سَهْلِ بْنِ مُعَاذِ بْنِ أَنَسٍ الْجُهَنِيِّ عَنْ أَبِيهِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ تَرَكَ اللِّبَاسِ تَوَاضُعًا لِلَّهِ وَهُوَ يَقْدِرُ عَلَيْهِ دَعَاهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ عَلَى رُءُوسِ الْخَلاَئِقِ حَتَّى يُخَيِّرَهُ مِنْ أَىِّ حُلَلِ الإِيمَانِ شَاءَ يَلْبَسُهَا».

1013. Səhl ibn Muaz ibn Ənəs əl-Cuhəni atasından ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Kim Allah üçün təvazökar olduğuna görə bir libası geyinmək iqtidarında ola-ola onu tərk edərsə, Qiyamət günü Allah iman libaslarından istədiyini seçməsi üçün onu məxluqlarının qarşısına çağıracaq".[1347]

ƏDALƏTLİ OLMAQ

١٠١٤ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﷺ قَالَ ابْنُ نُمَيْرٍ وَأَبُو بَكْرٍ يَبْلُغُ بِهِ النَّبِيَّ ﷺ وَفِي حَدِيثِ زُهَيْرٍ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ إِنَّ الْمُقْسِطِينَ عِنْدَ اللَّهِ عَلَى مَنَابِرَ مِنْ نُورٍ عَنْ يَمِينِ الرَّحْمَنِ ﷻ وَكِلْتَا يَدَيْهِ يَمِينٌ الَّذِينَ يَعْدِلُونَ فِي حُكْمِهِمْ وَأَهْلِيهِمْ وَمَا وَلُوا

[1345] Muslim, 2588, 4689.
[1346] Əhməd, 292, 309, 316. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2894) hədisin səhih olduğunu bildirmişdir.
[1347] ət-Tirmizi, 2481, 2669. əl-Albani həsən olduğunu bildirmişdir.

1014. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm belə söyləmişdir: "Ailələrinə və məsuliyyət daşıdıqlarına hökm verməkdə ədalətli olanlar (Qiyamət günü) nurdan olan minbərlərin üzərində ər-Rahmənin ﷻ sağ tərəfində olacaqlar. Onun hər iki Əli sağdır".[1348]

ALLAH BARƏSİNDƏ GÖZƏL ZƏNN

١٠١٥ - عَنْ جَابِرٍ ﷺ قَالَ سَمِعْتُ النَّبِيَّ ﷺ قَبْلَ وَفَاتِهِ بِثَلَاثٍ يَقُولُ لَا يَمُوتَنَّ أَحَدُكُمْ إِلَّا وَهُوَ يُحْسِنُ بِاللَّهِ الظَّنَّ

1015. Cabir ﷺ demişdir: "Allah Elçisinin sallallahu aleyhi və səlləm vəfatından üç gün əvvəl belə dediyini eşitdim: "Sizdən biriniz Allah barəsində gözəl zənn bəsləyərək ölsün".[1349]

MƏCLİSDƏ QİBLƏYƏ YÖNƏLMƏYİN FƏZİLƏTİ

١٠١٦ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ لِكُلِّ شَيءٍ سَيِّداً، وَإِنَّ سَيِّد الْمَجَالِسِ قُبَالَةُ الْقِبْلَة».

1016. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Şübhəsiz ki, hər bir şeyin şərəfi vardır. Məclisin şərəfi isə qibləyə yönəlməkdir".[1350]

ASANLAŞDIRIN

١٠١٧ - عن أنس بن مالك ﷺ قال قال النبي ﷺ يسروا ولا تعسروا وسكنوا ولا تنفروا

1017. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Asanlaşdırın, çətinləşdirməyin. Rahatlaşdırın, nifrət oyatmayın".[1351]

١٠١٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «مَنْ أَقَالَ مُسْلِماً أَقَالَ اللهُ عَثْرَتَهُ يَوْمَ الْقِيَامَةِ».

1018. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kim bir müsəlmana aldığı malı geri qaytararsa, Allah Qiyamət günü onun günahlarını bağışlayar".[1352]

[1348] Muslim, 1827, 3406, 4825.

[1349] Muslim, 2877, 5124, 7410.

[1350] ət-Tabərani "Mucəmul-Əvsat" 2354. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3085) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2645) həsən olduğunu bildirmişdir.

[1351] əl-Buxari "Ədəbul-Mufrad" 473. əl-Albani səhih olduğunu bildirmişdir.

١٠١٩ - عَنْ عُثْمَانَ بْنِ عَفَّانَ ﷺ قَالَ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ أَدْخَلَ اللَّهُ ﷻ الْجَنَّةَ رَجُلًا كَانَ سَهْلًا مُشْتَرِيًا وَبَائِعًا وَ قَاضِيًا وَمُقْتَضِيًا

1019. Osman ibn Əffan ﷺ demişdir: "Allah Elçisinin sallәllahu aleyhi və sәllәm belə buyurduğunu eşitdim: "Asanlaşdıran müştərini, satıcını, haqqı (borcunu) ödəyəni və haqqını (borcunu) mülayimliklə tələb edən kimsəni Allah ﷻ Cənnətə salar".[1353]

١٠٢٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: مَنْ كَانَ هَيِّنًا لَيِّنًا قَرِيبًا حَرَّمَهُ اللَّهُ عَلَى النَّارِ.

1020. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurdu: "Asanlaşdıran, xoş və mülayim olana Allah Cəhənnəmi haram edər".[1354]

NEMƏTLƏRƏ İTAƏT ETMƏKLƏ NAİL OLMAQ OLAR

١٠٢١ - عَنْ حُذَيْفَةَ ﷺ قَالَ: قَامَ النَّبِيُّ ﷺ فَدَعَا النَّاسَ، فَقَالَ: هَلُمُّوا إِلَيَّ، فَأَقْبَلُوا إِلَيْهِ فَجَلَسُوا فَقَالَ: هَذَا رَسُولُ رَبِّ الْعَالَمِينَ جِبْرِيلُ ﷺ نَفَثَ فِي رَوْعِي أَنَّهُ لاَ تَمُوتُ نَفْسٌ حَتَّى تَسْتَكْمِلَ رِزْقَهَا، وَإِنْ أَبْطَأَ عَلَيْهَا، فَاتَّقُوا اللَّهَ وَأَجْمِلُوا فِي الطَّلَبِ، وَلاَ يَحْمِلَنَّكُمُ اسْتِبْطَاءُ الرِّزْقِ أَنْ تَأْخُذُوهُ بِمَعْصِيَةِ اللهِ فَإِنَّ اللَّهَ لاَ يُنَالُ مَا عِنْدَهُ إِلاَّ بِطَاعَتِهِ.

1021. Huzeyfə ﷺ demişdir: "Peyğəmbər sallәllahu aleyhi və sәllәm ayağa qalxaraq insanları çağırıb dedi: "Mənə tərəf gəlin!" Onlar Peyğəmbərə sallәllahu aleyhi və sәllәm yaxınlaşıb oturdular. O buyurdu: "Bu, aləmlərin Rəbbinin elçisi Cəbraildir ﷺ, mənə vəhy etdi ki, heç bir kəs ruzisi tamamlanmamış ölməz, hətta geciksə belə. Allahdan qorxun və ruzi axtardıqda halalını axtarın. Ruzinin gecikməsi onu Allaha asiliklə əldə etməyə sizi vadar etməsin. Həqiqətən, Allah yanında olanı (Allahın nemətlərini) yalnız Ona itaət etməklə əldə etmək olar".[1355]

١٠٢٢ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ أَنَّهُ حَدَّثَ عَنْ رَسُولِ اللَّهِ ﷺ إِنَّ الْكَافِرَ إِذَا عَمِلَ حَسَنَةً أُطْعِمَ بِهَا طُعْمَةً مِنْ الدُّنْيَا وَأَمَّا الْمُؤْمِنُ فَإِنَّ اللَّهَ يَدَّخِرُ لَهُ حَسَنَاتِهِ فِي الْآخِرَةِ وَيُعْقِبُهُ رِزْقًا فِي الدُّنْيَا عَلَى طَاعَتِهِ

[1352] İbn Məcə, 2199, 2283. əl-Albani səhih olduğunu bildirmişdir.
[1353] ən-Nəsəi, 4696, 4713. əl-Albani həsən olduğunu bildirmişdir.
[1354] əl-Hakim, 435; əl-Beyhəqi "Şuabul-İman" 8122, 8123. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 6484) səhih olduğunu bildirmişdir.
[1355] əl-Bəzzar, 2914. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1702) həsən səhih olduğunu bildirib.

1022. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Kafir bir yaxşılıq etdikdə ona bir dünya neməti verilir. Möminə gəlincə Allah onun yaxşılıqlarını (yaxşı əməllərinin savabını) Axirətə saxlayır. Bununla yanaşı itaətinə görə ona dünyada da ruzi verir".[1356]

١٠٢٣ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ إِنَّ اللَّهَ لَا يَظْلِمُ مُؤْمِنًا حَسَنَةً يُعْطَى بِهَا فِي الدُّنْيَا وَيُجْزَى بِهَا فِي الْآخِرَةِ وَأَمَّا الْكَافِرُ فَيُطْعَمُ بِحَسَنَاتِ مَا عَمِلَ بِهَا لِلَّهِ فِي الدُّنْيَا حَتَّى إِذَا أَفْضَى إِلَى الْآخِرَةِ لَمْ تَكُنْ لَهُ حَسَنَةٌ يُجْزَى بِهَا

1023. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "Şübhəsiz ki, Allah möminə etdiyi yaxşılığa görə zülm etməz, ona həm dünyada, həm də Axirətdə əvəzini verər. Kafirə gəlincə isə Allah üçün etdiyi yaxşı əməllərə görə ona bu dünyada ruzi verilər. Axirətdə isə əvəzi veriləcək heç bir yaxşı əməli qalmayacaqdır".[1357]

QOHUMLARLA ƏLAQƏLƏRİ BİRLƏŞDİRƏN

١٠٢٤ - عن أبي هريرة ﷺ قال اتى رجل النبي ﷺ فقال يا رسول الله ان لي قرابة أصلهم ويقطعون وأحسن إليهم ويسيئون إلي ويجهلون على وأحلم عنهم قال لئن كان كما تقول كأنما تسفهم الل ولا يزال معك من الله ظهير عليهم ما دمت على ذلك

1024. Əbu Hureyra ﷺ rəvayət edir ki, bir kişi Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Allahın Elçisi! Mənim qohumlarım var. Mən onlarla əlaqələri birləşdirir, onlar isə mənimlə əlaqələri kəsirlər, mən onlara yaxşılıq edir, onlar isə mənə pislik edirlər, mən onlarla mülayim danışır, onlar isə mənimlə kobud rəftar edirlər". O dedi: "Əgər sən deyən kimidirsə, onda elə bil ki, sən onlara isti kül yedizdirirsən. Bu cür rəftarın davam edənədək Allah tərəfindən onlara qarşı sənin yanında (onların əziyyətlərini dəf edən) köməkçi olar".[1358]

١٠٢٥ - أنس بن مالك ﷺ أن رسول الله ﷺ قال من أحب أن يبسط له في رزقه وأن ينسأ له في أثره فليصل رحمه

1025. Ənəs ibn Mələk ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm

[1356] Muslim, 2808, 5023, 7268.
[1357] Muslim, 2808, 5022, 7267.
[1358] əl-Buxari "Ədəbul-Mufrad" 52. əl-Albani səhih olduğunu bildirmişdir.

belə buyurdu: “Qoy ruzisinin çoxalmasını və ömrünün uzadılmasını istəyən kimsə, qohumluq əlaqələrini möhkəmləndirsin”.[1359]

١٠٢٦ - عن بن عمر ﷺ من اتقى ربه ووصل رحمه أنسى له في عمره وثرى ماله وأحبه أهله

1026. İbn Ömər ﷺ dedi: “Rəbbindən qorxan və qohumluq əlaqələrini möhkəmləndirən kimsənin ömrü uzanar, var-dövləti artar və əhli onu sevər”.[1360]

١٠٢٧ - عَنْ عَمْرِو بْنِ سَهْلٍ ﷺ قَالَ: سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يَقُولُ: «صِلَةُ الْقَرَابَةِ مَثْرَاةٌ فِي الْمَالِ، مَحَبَّةٌ فِي الأَهْلِ، مَنْسَأَةٌ فِي الأَجَلِ».

1027. Amr ibn Səhl ﷺ demişdir: “Mən Allah Elçisinin sallәllahu aleyhi və sәllәm belə dediyini eşitdim: “Qohumluq əlaqələrini möhkəmlətmək malı çoxaldır, ailədə mehribanlıq yaradır və ömrü uzadır”.[1361]

KÜSÜLÜLƏRİ BARIŞDIRIN!

١٠٢٨ - عن أبي الدرداء ﷺ عن النبي ﷺ قال ألا أنبئكم بدرجة أفضل من الصلاة والصيام والصدقة قالوا بلى قال صلاح ذات البين وفساد ذات البين هى الحالقة

1028. Əbu Dərdə ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: “Sizə namazdan, orucdan və sədəqədən daha fəzilətli bir dərəcə barədə xəbər verimmi?” (Səhabələr): “Bəli!”- deyə cavab verdilər. O dedi: “Küsülüləri barışdırmaqdır! Dostların arasını vurmaq isə dəlləklikdir”.[1362]

QƏLB NƏ İLƏ YUMŞALIR?

١٠٢٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَجُلًا شَكَا إِلَى رَسُولِ اللَّهِ ﷺ قَسْوَةَ قَلْبِهِ فَقَالَ لَهُ إِنْ أَرَدْتَ تَلْيِينَ قَلْبِكَ فَأَطْعِمْ الْمِسْكِينَ وَامْسَحْ رَأْسَ الْيَتِيمِ

[1359] əl-Buxari “Ədəbul-Mufrad” 56. əl-Albani səhih olduğunu bildirmişdir.

[1360] əl-Buxari “Ədəbul-Mufrad” 58, 59. əl-Albani həsən olduğunu bildirmişdir.

[1361] ət-Təbərani “Mucəmul-Əvsat” 7810. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 3768) səhih olduğunu bildirmişdir.

[1362] Dəllək ülgüclə saçları qırxdığı kimi bu pis xislət də dinə xələl gətirir. əl-Buxari “Ədəbul-Mufrad” 391. əl-Albani səhih olduğunu bildirmişdir.

1029. Əbu Hureyra ﷺ rəvayət edir ki, bir kişi qəlbinin sərtliyindən Allah Elçisinə sallәllahu aleyhi və sәllәm şikayət etdi. Allah Elçisi sallәllahu aleyhi və sәllәm ona buyurdu: "Qəlbinin yumşalmasını istəyirsənsə, yoxsullara yemək yedirt və yetimin başına sığal çək!"[1363]

DUL QADINLARA, KASIBLARA VƏ YETİMLƏRƏ ƏL TUTUN!

١٠٣٠ - عن أبي هريرة ﷺ عن النبي ﷺ الساعي على الأرملة والمساكين كالمجاهدين في سبيل الله وكالذي يصوم النهار ويقوم الليل

1030. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm dedi: "Dul qadınlara və kasıblara əl tutan kimsə, Allah yolunda olan mücahid kimi, habelə, gündüz oruc tutub, gecə namaz qılan kimsə kimidir".[1364]

١٠٣١ - عن عائشة رضي الله عنها قالت سمعت رسول الله ﷺ يقول أنا وكافل اليتيم له او لغيره في الجنة والساعي على الأرملة والمسكين كالمجاهد في سبيل الله

1031. Aişə رضي الله عنها rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurdu: "Mən və özünün və ya başqasının yetiminə himayədarlıq edən Cənnətdə birlikdə olacağıq. Dullara və yoxsullara kömək edən isə Allah yolunda olan mücahid kimidir".[1365]

١٠٣٢ - عَنْ سَهْلٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ أَنَا وَكَافِلُ الْيَتِيمِ فِي الْجَنَّةِ هَكَذَا وَأَشَارَ بِالسَّبَّابَةِ وَالْوُسْطَى وَفَرَّجَ بَيْنَهُمَا شَيْئًا.

1032. Səhl ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm orta barmağıyla işarə barmağını yan-yana azacıq aralı tutub demişdir: "Mən və yetimin himayədarı Cənnətdə beləcə (bu iki barmaq kimi) olacağıq".[1366]

١٠٣٣ - حدثني هانئ بن يزيد ﷺ أنه لما وفد إلى النبي ﷺ مع قومه فسمعهم النبي ﷺ وهم يكنونه بأبي الحكم فدعاه النبي ﷺ فقال إن الله هو الحكم وإليه الحكم فلم تكنيت بأبي الحكم قال لا ولكن قومي إذا اختلفوا في شيء أتوني

[1363] Əhməd, 7576. əl-Albani "Slisilətil-Əhədisis-Sahiha"da (№ 854) həsən olduğunu bildirmişdir.
[1364] əl-Buxari "Ədəbul-Mufrad" 131. əl-Albani səhih olduğunu bildirmişdir.
[1365] ət-Təbərani "Mucəmul-Əvsat" 4742. əl-Albani "Sahihul-Cəmius Sağir"də (№ 1476) səhih olduğunu bildirmişdir.
[1366] əl-Buxari, 5304.

فحكمت بينهم فرضي كلا الفريقين قال ما أحسن هذا ثم قال مالك من الولد قلت لي شريح وعبد الله ومسلم بنو هانئ قال فمن أكبرهم قلت شريح قال فأنت أبو شريح ودعا له ولولده وسمع النبي ﷺ يسمون رجلا منهم عبد الحجر فقال النبي ﷺ ما اسمك قال عبد الحجر قال لا أنت عبد الله قال شريح وان هانئا لما حضر رجوعه إلى بلاده أتى النبي ﷺ فقال أخبرني بأي شيء يوجب لي الجنة قال عليك بحسن الكلام وبذل الطعام

1033. Hani ibn Yəzid ﷺ rəvayət edir ki, öz tayfamla birgə Peyğəmbərin sallәllahu aleyhi və səlləm yanına gəldim. Peyğəmbər sallәllahu aleyhi və səlləm həmtayfalarımın məni Əbul-Həkəm çağırdıqlarını eşitdi. Peyğəmbər sallәllahu aleyhi və səlləm məni çağırıb dedi: "Hakim Allahdır, hökm də yalnız Ona məxsusdur. Elə isə nə üçün özünə Əbul-Həkəm ləqəbi götürmüsən?" Mən dedim: "Xeyr, (elə deyil). Lakin tayfamın arasında ixtilaf düşdüyü zaman mənim yanıma gələr, mən də onların arasında hökm verərdim. Hər iki tərəf bu hökmdən razı qalardı". Peyğəmbər sallәllahu aleyhi və səlləm dedi: "Bu nə gözəldir!" Sonra (davam edib) dedi: "Övladın varmı?" Mən dedim: "Hanidə olan oğlanlarım Şureyh, Abdullah və Muslimdir". Peyğəmbər sallәllahu aleyhi və səlləm dedi: "Onların ən böyüyü hansıdır?" Mən dedim: "(Ən böyüyü) Şureyhdir". Peyğəmbər sallәllahu aleyhi və səlləm dedi: "Elə isə sən Əbu Şureyhsən". Sonra həm mənə, həm də övladıma dua etdi. Peyğəmbər sallәllahu aleyhi və səlləm eşitdi ki, bir tayfa bir kişini Abdulhəcər çağırır. Dedi: "Adın nədir?" Kişi: "(Adım) Abdulhəcərdir". Peyğəmbər sallәllahu aleyhi və səlləm dedi: "Xeyr, sən Abdullahsan". Şureyh deyir ki, atam Hani məmləkətinə qayıtmaq üçün hazırlıq gördükdə Peyğəmbərin sallәllahu aleyhi və səlləm yanına gəlib dedi: "Hansı şeyi etsəm, Cənnətin mənə vacib olacağını mənə xəbər ver". Peyğəmbər sallәllahu aleyhi və səlləm dedi: "Gözəl söz söyləməyə və (möhtac olanlara) çoxlu yemək verməyə çalış".[1367]

BİR GÜN ƏRZİNDƏ CƏM OLAN XİSLƏTLƏR

١٠٣٤ - عن أبي هريرة ﷺ قال قال رسول الله ﷺ من أصبح اليوم منكم صائما قال أبو بكر أنا قال من عاد منكم اليوم مريضا قال أبو بكر أنا قال من شهد منكم اليوم جنازة قال أبو بكر أنا قال من أطعم اليوم مسكينا قال أبو بكر انا قال مروان بلغني أن النبي ﷺ قال ما اجتمع هذه الخصال في رجل في يوم إلا دخل الجنة

1034. İbn Abbas ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və səlləm soruşdu: "Sizdən kim bu gün oruc tutub?" Əbu Bəkr ﷺ dedi: "Mən". Yenə soruşdu: "Sizdən kim bu gün xəstəyə baş çəkib?" Əbu Bəkr ﷺ dedi: "Mən".

[1367] əl-Buxari "Ədəbul-Mufrad" 811. əl-Albani səhih olduğunu bildirmişdir.

Yenə soruşdu: “Sizdən kim bu gün dəfndə iştirak edib?” Əbu Bəkr ﷺ dedi: “Mən”. Yenə soruşdu: “Kim bu gün kasıba yemək verib?” Əbu Bəkr ﷺ dedi: “Mən”. Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: “Bir gün ərzində bu xislətlər (hansı) adamda cəm olsa, o, Cənnətə girər”.[1368]

MÖMİNİN QƏLBİ NECƏ OLMALIDIR

١٠٣٥ - عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو ﷺ قَالَ: قِيلَ لِرَسُوْلِ اللهِ ﷺ: أَيُّ النَّاسِ أَفْضَلُ؟ قَالَ: «كُلُّ مَخْمُومِ الْقَلْبِ، صَدُوقِ اللِّسَانِ». قَالُوا: صَدُوقُ اللِّسَانِ نَعْرِفُهُ فَمَا مَخْمُومُ الْقَلْبِ؟ قَالَ: «هُوَ: التَّقِيُّ النَّقِيُّ، لاَ إِثْمَ فِيهِ وَلاَ بَغْيَ وَلاَ حَسَدَ».

1035. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Allah Elçisindən sallallahu aleyhi və səlləm soruşdular: “Hansı insanlar ən fəzilətlidir?” O buyurdu: “Məxmum qəlbli və düz danışan mömin”. Dedilər: “Düz danışanı bilirik, bəs “məxmum qəlbli” nədir?” Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Allahdan qorxan, tərtəmiz, içində nə günah, nə zülm, nə də həsəd olmayan qəlbdir”.[1369]

١٠٣٦ - عَنْ أَبِي عِنَبَةَ الْخَوْلاَنِي ﷺ: يَرْفَعُهُ إِلَى النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ للهِ تَعَالَى آنِيَةً مِنْ أَهْلِ الأَرْضِ، وَآنِيَةُ رَبِّكُمْ قُلُوبُ عِبَادِهِ الصَّالِحِينَ، وَأَحَبُّهَا أَلْيَنهَا وَأَرِقُّهَا».

1036. Əbu İnəbə əl-Xauləni ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Yer əhlindən Uca Allaha məxsus olan qablar vardır. Rəbbinizin qabları Onun əməlisaleh qullarının qəlbləridir. Onlardan Allaha ən sevimli olanı isə ən yumşaq və zərif olanıdır”.[1370]

MƏSCİD TİKMƏYİN FƏZİLƏTİ

١٠٣٧ - عَنْ عُثْمَانَ بْنَ عَفَّانَ ﷺ قَالَ عِنْدَ قَوْلِ النَّاسِ فِيهِ حِينَ بَنَى مَسْجِدَ الرَّسُولِ ﷺ: إِنَّكُمْ أَكْثَرْتُمْ، وَإِنِّي سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: «مَنْ بَنَى مَسْجِدًا يَبْتَغِي بِهِ وَجْهَ اللَّهِ، بَنَى اللَّهُ لَهُ مِثْلَهُ فِي الْجَنَّةِ».

1037. Rəvayət edilir ki, Osman ibn Əffan ﷺ Peyğəmbərin sallallahu aleyhi və səlləm məscidini yenidən tikdiyi zaman insanların onun haqqında söylədiklərinə (etiraz edib) demişdir: “Siz (mənim işimə) çox müdaxilə edirsiniz.

[1368] əl-Buxari “Ədəbul-Mufrad” 515. əl-Albani səhih olduğunu bildirmişdir.

[1369] İbn Məcə, 4216, 4356. əl-Albani səhih olduğunu bildirmişdir.

[1370] ət-Tabərani “Müsnəduş-Şəmiyyin” 480. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 2163) səhih olduğunu bildirmişdir.

Halbuki mən Peyğəmbərin sallәllahu aleyhi və sәllәm belə dediyini eşitmişəm: “Kim Allahın Üzünü diləyərək bir məscid tiksə, Allah onun üçün Cənnətdə buna bənzər (bir ev) tikər”.[1371]

MÜSƏLMANI KÖLƏLİKDƏN AZAD EDƏNİN MÜKAFATI

١٠٣٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ النَّبِيُّ ﷺ: «أَيُّمَا رَجُلٍ أَعْتَقَ امْرَأً مُسْلِمًا اسْتَنْقَذَ اللَّهُ بِكُلِّ عُضْوٍ مِنْهُ عُضْوًا مِنْهُ مِنَ النَّارِ».

1038. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: “Kim bir müsəlmanı kölәlikdən azad edərsə, onun (azad olanın) hər bir əzasına görə, Allah azad edən adamın bir əzasını Cəhənnəm odundan xilas edər”.[1372]

İNSANLARI İSLAMA DƏVƏT ET!

١٠٣٩ - عَنْ سَهْلِ بْنِ سَعْدٍ ﷺ أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ يَوْمَ خَيْبَرَ: «لأُعْطِيَنَّ الرَّايَةَ رَجُلاً يَفْتَحُ اللَّهُ عَلَى يَدَيْهِ». فَقَامُوا يَرْجُونَ لِذَلِكَ أَيُّهُمْ يُعْطَى، فَغَدَوْا وَكُلُّهُمْ يَرْجُو أَنْ يُعْطَى فَقَالَ: «أَيْنَ عَلِيٌّ؟» فَقِيلَ يَشْتَكِي عَيْنَيْهِ، فَأَمَرَ فَدُعِيَ لَهُ، فَبَصَقَ فِي عَيْنَيْهِ، فَبَرَأَ مَكَانَهُ حَتَّى كَأَنَّهُ لَمْ يَكُنْ بِهِ شَيْءٌ فَقَالَ نُقَاتِلُهُمْ حَتَّى يَكُونُوا مِثْلَنَا. فَقَالَ: «عَلَى رِسْلِكَ حَتَّى تَنْزِلَ بِسَاحَتِهِمْ، ثُمَّ ادْعُهُمْ إِلَى الإِسْلاَمِ، وَأَخْبِرْهُمْ بِمَا يَجِبُ عَلَيْهِمْ، فَوَاللَّهِ لأَنْ يُهْدَى بِكَ رَجُلٌ وَاحِدٌ خَيْرٌ لَكَ مِنْ حُمْرِ النَّعَمِ».

1039. Rəvayət edilir ki, Səhl ibn Səd ﷺ Peyğəmbərin sallәllahu aleyhi və sәllәm Xeybər döyüşündə belə dediyini eşitmişdir: “Mən bu bayrağı elə bir adama verəcəyəm ki, Allah onun əli ilə (müsəlmanlara) qələbə bəxş edəcək”. Əshabələrdən hər biri bayrağın ona veriləcəyinə ümid edərək qalxıb getdi. Səhəri gün (Peyğəmbərin sallәllahu aleyhi və sәllәm yanına) gəldikdə onlardan hər biri bayrağın ona veriləcəyinə ümid edirdi. Amma Peyğəmbər sallәllahu aleyhi və sәllәm: “Əli haradadır?”– deyə soruşdu. Ona dedilər ki, Əlinin gözləri ağrıyır. Onda Peyğəmbər sallәllahu aleyhi və sәllәm onun çağırılmasını əmr etdi. Peyğəmbər sallәllahu aleyhi və sәllәm Əlinin gözlərinə yüngülcə tüpürdü və onun gözləri sağaldı, elə bil heç ağrımırdı. Sonra Əli dedi: “(Xeybərlilər) bizim kimi (müsəlman) olanadək onlarla vuruşacağıq”. Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: “Onların yurduna gedib çatanadək tələsmə, sonra

[1371] əl-Buxari, 450; Muslim, 533.
[1372] əl-Buxari, 2517. Muslim, 2778.

onları İslama dəvət et və özlərinə vacib buyrulanı onlara bildir. Vallahi, əgər Allah sənin vasitənlə bir nəfəri doğru yola yönəltsə, bu sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar".[1373]

١٠٤٠ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَنْ دَعَا إِلَى هُدًى كَانَ لَهُ مِنَ الأَجْرِ مِثْلُ أُجُورِ مَنْ تَبِعَهُ لاَ يَنْقُصُ ذَلِكَ مِنْ أُجُورِهِمْ شَيْئًا وَمَنْ دَعَا إِلَى ضَلاَلَةٍ كَانَ عَلَيْهِ مِنَ الإِثْمِ مِثْلُ آثَامِ مَنْ تَبِعَهُ لاَ يَنْقُصُ ذَلِكَ مِنْ آثَامِهِمْ شَيْئًا».

1040. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Kim doğru bir yola dəvət edərsə, ona tabe olanların mükafatları qədər əcr verilər. Ona tabe olanların mükafatlarından bir şey əksilməz. Hər kim də bir zəlalətə dəvət edərsə, ona tabe olanların günahları qədər günahı olar. Ona tabe olanların günahlarından heç bir şey əksilməz".[1374]

XEYRİN YOLUNU GÖSTƏRƏNİN SAVABI

١٠٤١ - عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ رضي الله عنهما قَالَ جَاءَ نَاسٌ مِنَ الأَعْرَابِ إِلَى رَسُولِ اللَّهِ ﷺ عَلَيْهِمُ الصُّوفُ فَرَأَى سُوءَ حَالِهِمْ قَدْ أَصَابَتْهُمْ حَاجَةٌ فَحَثَّ النَّاسَ عَلَى الصَّدَقَةِ فَأَبْطَئُوا عَنْهُ حَتَّى رُئِىَ ذَلِكَ فِى وَجْهِهِ - قَالَ - ثُمَّ إِنَّ رَجُلاً مِنَ الأَنْصَارِ جَاءَ بِصُرَّةٍ مِنْ وَرِقٍ ثُمَّ جَاءَ آخَرُ ثُمَّ تَتَابَعُوا حَتَّى عُرِفَ السُّرُورُ فِى وَجْهِهِ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ سَنَّ فِى الإِسْلاَمِ سُنَّةً حَسَنَةً فَعُمِلَ بِهَا بَعْدَهُ كُتِبَ لَهُ مِثْلُ أَجْرِ مَنْ عَمِلَ بِهَا وَلاَ يَنْقُصُ مِنْ أُجُورِهِمْ شَىْءٌ وَمَنْ سَنَّ فِى الإِسْلاَمِ سُنَّةً سَيِّئَةً فَعُمِلَ بِهَا بَعْدَهُ كُتِبَ عَلَيْهِ مِثْلُ وِزْرِ مَنْ عَمِلَ بِهَا وَلاَ يَنْقُصُ مِنْ أَوْزَارِهِمْ شَىْءٌ».... «مَنْ دَلَّ عَلَى خَيْرٍ فَلَهُ مِثْلُ أَجْرِ فَاعِلِهِ».

1041. Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, bədəvi ərəblər Allah Elçisinin sallәllahu aleyhi və sәlləm yanına gəldilər. Onların əyinlərində yundan əba var idi və zahirdən ehtiyac içində olduqları hiss olunurdu. Allah Elçisi sallәllahu aleyhi və sәlləm onların acınacaqlı vəziyyətdə olduqlarını görəndə camaatı onlara köməklik etməyə çağırdı, lakin heç kəs yerindən tərpənmədi və Allah Elçisinin sallәllahu aleyhi və sәlləm əhvalı dəyişdi. Bu dəmdə ənsardan olan bir kişi balaca bir torbada gümüş pullar gətirdi. Onun ardınca digər səhabələr də əllərindən gələn köməkliyi göstərdilər. Allah Elçisinin sallәllahu aleyhi və sәlləm üzündə sevinc hissi oyandı və o dedi: "Kim İslam dinində gözəl bir sünnəni oyatsa (insanları buna təşviq etsə), ona bunun savabı və ona əməl edənlərin savabı qədər savab yazılar. Kim də İslam dinində yaramaz bir iş tutsa (insanları buna təhrik etsə), ona bunun günahı və ona

[1373] əl-Buxari, 2942, 4210; Muslim, 2406.
[1374] Muslim, 2674, 4831, 6980.

əməl edənlərin günahı qədər günah yazılar".[1375] Digər rəvayətdə deyilir: "Xeyiri göstərənin savabı onu edənin savabı ilə bərabərdir".[1376]

CƏNNƏT QAPILARINDAN ÇAĞIRILANLAR

١٠٤٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺأَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ مَنْ أَنْفَقَ زَوْجَيْنِ فِي سَبِيلِ اللَّهِ نُودِيَ مِنْ أَبْوَابِ الْجَنَّةِ يَا عَبْدَ اللَّهِ هَذَا خَيْرٌ فَمَنْ كَانَ مِنْ أَهْلِ الصَّلَاةِ دُعِيَ مِنْ بَابِ الصَّلَاةِ وَمَنْ كَانَ مِنْ أَهْلِ الْجِهَادِ دُعِيَ مِنْ بَابِ الْجِهَادِ وَمَنْ كَانَ مِنْ أَهْلِ الصِّيَامِ دُعِيَ مِنْ بَابِ الرَّيَّانِ وَمَنْ كَانَ مِنْ أَهْلِ الصَّدَقَةِ دُعِيَ مِنْ بَابِ الصَّدَقَةِ فَقَالَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ بِأَبِي أَنْتَ وَأُمِّي يَا رَسُولَ اللَّهِ مَا عَلَى مَنْ دُعِيَ مِنْ تِلْكَ الْأَبْوَابِ مِنْ ضَرُورَةٍ فَهَلْ يُدْعَى أَحَدٌ مِنْ تِلْكَ الْأَبْوَابِ كُلِّهَا قَالَ نَعَمْ وَأَرْجُو أَنْ تَكُونَ مِنْهُمْ

1042. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim Allah yolunda bir kişi və qadının ehtiyaclarını ödəyərsə, Cənnət qapılarından çağırılacaq: "Ey Allahın qulu, bu daha xeyirlidir!" Kim daha çox namaz qılanlardan idisə, (onu) namaz qapısından çağırarlar. Kim cihad əhli olubsa, (onu) cihad qapısından çağırarlar. Kim daha çox oruc tutanlardan idisə, (onu) Rəyyan qapısından çağırarlar. Kim sədəqə əhli olubsa, (onu) sədəqə qapısından çağırarlar".[1377]

DİLİNƏ HAKİM OL!

١٠٤٣ - عَنْ ثَوْبَانَ ﷺ مَوْلَى رَسُولِ اللهِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: طُوبَى لِمَنْ مَلَكَ لِسَانَهُ، وَوَسِعَهُ بَيْتُهُ، وَبَكَى عَلَى خَطِيئَتِهِ.

1043. Səubən ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Dilinə hakim olana, evi geniş olana[1378] və öz günahına görə ağlayana Tubə olsun!"[1379]

١٠٤٤ - عَنْ جَرِيرٍ ﷺ عَنْ النَّبِيِّ ﷺ قَالَ مَنْ يُحْرَمْ الرِّفْقَ يُحْرَمْ الْخَيْرَ

1044. Cərir ibn Abdullah ﷺ dedi ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Mülayimlikdən məhrum olan, xeyirdən məhrum olar!"[1380]

[1375] Muslim, 6975.
[1376] Muslim, 5007.
[1377] əl-Buxari, 1764, 1798.
[1378] İnsanların şərindən qorunmaq üçün evində qərar tutan şəxs nəzərdə tutulur.
[1379] ət-Təbərani "Mucəmul-Əvsat" 2340, "Mucəmus-Sağir" 212. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3929) hədisin həsən olduğunu bildirmişdir.

MÜSƏLMAN QARDAŞIN HAQQINI QORUMAĞIN FƏZİLƏTİ

١٠٤٥ - عَنْ أَبِي الدَّرْدَاءِ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «مَنْ رَدَّ عَنْ عِرْضِ أَخِيهِ رَدَّ اللَّهُ عَنْ وَجْهِهِ النَّارَ يَوْمَ الْقِيَامَةِ»....«مَنْ ذَبَّ عَنْ عَرْضَ أَخِيهِ بِالْغِيبَةِ كَانَ حَقًّا عَلَى اللَّهِ أَنْ يُعْتِقَهُ مِنَ النَّارِ».

1045. Əbud-Dərdə ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurmuşdur: "Kim qardaşının şərəfini qoruyarsa, Qiyamət günü Allah onun üzünü Cəhənnəm alovundan qoruyar".[1381] Digər rəvayətdə belə deyilir: "Kim qeybində qardaşının şərəfini qoruyarsa, onu Cəhənnəmdən azad etmək Allahın üzərinə bir haqq olar".[1382]

ALLAHIN ÖHDƏSİNDƏ OLANLAR

١٠٤٦ - عَنْ مُعَاذِ بن جَبَلٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: خَمْسٌ مَنْ فَعَلَ وَاحِدَةً مِنْهُنَّ كَانَ ضَامِنًا عَلَى اللَّهِ: مَنْ عَادَ مَرِيضًا، (أَوْ خَرَجَ مَعَ جَنَازَةٍ)[1383] أَوْ خَرَجَ غَازِيًا، أَوْ دَخَلَ عَلَى إِمَامِهِ يُرِيدُ تَعْزِيزَهُ وَتَوْقِيرَهُ، أَوْ قَعَدَ فِي بَيْتِهِ فَسَلِمَ النَّاسُ مِنْهُ وَسَلِمَ مِنَ النَّاسِ.

1046. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurdu: "Beş əməl vardır ki, kim onlardan birini yerinə yetirsə, Allahın öhdəsində olar. Xəstəni ziyarət edən və ya cənazəni müşayiət edən və ya (Allah yolunda) döyüşə çıxan və ya rəhbərin qəbuluna ona nəsihət etmək və ona hörmət göstərmək üçün daxil olan və ya insanlar ondan, o da insanlardan salamat olması üçün evində oturan".[1384]

١٠٤٧ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ قَالَ: «مَنْ جَاهَدَ فِي سَبِيلِ اللهِ كَانَ ضَامِناً عَلَى اللهِ، وَمَنْ عَادَ مَرِيْضاً كَانَ ضَامِناً عَلَى اللهِ، وَمَنْ غَدَا إِلَى مَسْجِدٍ أَوْ رَاحَ كَانَ ضَامِناً عَلَى اللهِ، وَمَنْ دَخَلَ عَلَى إِمَام يُعَزِّزُهُ كَانَ ضَامِناً عَلَى اللهِ، وَمَنْ جَلَسَ فِي بَيْتِهِ لَمْ يَغْتَبْ إِنْسَاناً كَانَ ضَامِناً عَلَى اللهِ».

1047. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Allah yolunda cihad edən Allahın himayəsindədir. Xəstəni

---

[1380] Muslim, 2592, 4694, 6763.

[1381] ət-Tirmizi, 1931, 2056. əl-Albani səhih olduğunu bildirmişdir.

[1382] Əhməd, 27650, 26327. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2847) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

[1383] ət-Tabərani "Mucəmul-Kəbir" 16475.

[1384] ət-Tabərani "Mucəmul-Kəbir" 16475; Əhməd 22746. əl-Albani "Ziləlul-Cənnə"də (№ 1021), "Sahihut-Tərğib vət-Tərhib"də (№ 2/ 166), "Sahihul-Cəmius-Sağir"də (№ 3253) səhih olduğunu bildirmişdir.

ziyarət edən Allahın himayəsindədir. Səhər-axşam məscidə gedən Allahın himayəsindədir. Rəhbərə nəsihət etmək üçün onun yanına daxil olan Allahın himayəsindədir. Evində oturub heç kəsin qeybətini etməyən Allahın himayəsindədir".[1385]

١٠٤٨ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «ثَلاَثَةٌ فِي ضَمَانِ اللهِ ﷻ، رَجُلٌ خَرَجَ مِنْ بَيْتِهِ إِلَى مَسْجِدٍ مِنْ مَسَاجِدِ اللهِ ﷻ، وَرَجُلٌ خَرَجَ غَازِياً فِي سَبِيلِ اللهِ ﷻ، وَرَجُلٌ خَرَجَ حَاجاً».

1048. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Üç nəfər Allahın ﷻ öhdəsindədir; evindən çıxaraq Allahın ﷻ məscidlərindən birinə gedən, Allah yolunda döyüşə çıxan və Həccə gedən kişi".[1386]

١٠٤٩ - عَنْ أَبِي أُمَامَةَ ﷺ: أَنَّ رَسُوْلَ اللهِ ﷺ قَالَ :«ثَلاَثَةٌ كُلُّهُمْ ضَامِنٌ عَلَى اللهِ إِنْ عَاشَ رُزِقَ وَكُفِي، وَإِنْ مَاتَ أَدْخَلَهُ اللهُ الْجَنَّة، مَنْ دَخَلَ بَيْتَهُ فَسَلَّمَ فَهُوَ ضَامِنٌ عَلَى اللهِ، وَمَنْ خَرَجَ إِلَى الْمَسْجِدِ فَهُوَ ضَامِنٌ عَلَى اللهِ، وَمَنْ خَرَجَ فِي سَبِيلِ اللهِ فَهُوَ ضَامِنٍ عَلَى اللهِ».

1049. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Üç nəfər yaşadığı müddətdə ruzilənmək və qorunmaqla, öldükdə isə Cənnətə daxil olmaqla Allahın öhdəsindədirlər; salam verərək evinə daxil olan Allahın öhdəsindədir, məscidə gedən Allahın öhdəsindədir, cihada çıxan Allahın öhdəsindədir".[1387]

١٠٥٠ - عن عبد الله بن عمر ﷺ عن رسول الله ﷺ قال ست مجالس المؤمن ضامن على الله تعالى ما كان في شيء منها في مسجد جماعة وعند مريض أو في جنازة أو في بيته أو عند إمام مقسط يعزره ويوقره أو في مشهد جهاد

1050. Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Möminin altı məclisi vardır ki, o, bunlardan hər hansı birində olarsa, Uca Allahın öhdəsində olar; camaatla məsciddə, xəstə yanında, cənazədə və ya evində olmaq, ədalətli rəhbərə nəsihət etmək və ona hörmətini göstərmək üçün qəbulunda olmaq və ya cihadda olmaq".[1388]

[1385] İbn Hibban, 373. əl-Albani səhih olduğunu bildirmişdir.

[1386] Əbu Nueym "Hilyətul-Əuliyə" 9/ 251; əl-Humeydi, 1090. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3051) və "Silsilətul-Əhədisis-Sahiha"da (№ 598) səhih olduğunu bildirmişdir.

[1387] İbn Hibban, 499. əl-Albani səhih olduğunu bildirmişdir.

[1388] Cəlaləddin əs-Suyuti "Cəmiul-Əhədis" 13026. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 328) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

١٠٥١ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ أَنَّهُ قَالَ: «تَقَبَّلُوا لِي بِستٍّ أَتَقَبَّلْ لَكُمْ بِالْجَنَّةِ». قَالُوا: وَمَا هِيَ؟ قَالَ: «إِذَا حَدَّثَ أَحَدُكُمْ فَلاَ يَكْذِبْ، وَإِذَا وَعَدَ فَلاَ يُخْلِفْ، وَإِذَا اؤْتُمِنَ فَلاَ يَخُنْ، غُضُّوا أَبْصَارَكُمْ، وَكُفُّوا أَيْدِيَكُم وَاحْفَظُوا فُرُوجَكُمْ».

1051. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Mənə altı şeyə zəmanət verin, mən də sizə Cənnəti zəmanət verim; biriniz danışanda yalan danışmasın, vəd verdikdə vədinə xilaf çıxmasın, etibar edildikdə xəyanət etməsin. Gözünüzü harama baxmaqdan çəkin, əllərinizi günahlardan saxlayın və övrət yerlərinizi qoruyun”.[1389]

BORCA AİD HƏDİSLƏR

١٠٥٢ - عَنْ مَيْمُونَة ﵂ قَالَتْ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: «مَنْ ادَّانَ دَيْناً يَنْوِي قَضَاءَهُ، أَدَّاى اللهُ عَنْهُ يَوْمَ الْقِيَامَةِ».

1052. Məymunə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Kim ödəmək niyyəti ilə borc alarsa, (onu ödəyə bilmədikdə) Qiyamət günü Allah onun borcunu ödəyər”.[1390]

١٠٥٣ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «مَنْ أَخَذَ أَمْوَالَ النَّاسِ يُرِيدُ أَدَاءَهَا أَدَّى اللَّهُ عَنْهُ، وَمَنْ أَخَذَ يُرِيدُ إِتْلاَفَهَا أَتْلَفَهُ اللَّهُ».

1053. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: “İnsanların malını qaytarmaq niyyəti ilə götürən kimsənin (borcunu) onun əvəzinə Allah qaytarar[1391], (onu) tələf etmək (və qaytarmamaq) niyyəti ilə götürən kimsəni isə Allah məhv edər”.[1392]

١٠٥٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: سُئِلَ رَسُوْلُ اللهِ ﷺ: أَيُّ الأَعْمَالِ أَفْضَلُ؟ قَالَ: «أَنْ تُدْخِلَ عَلَى أَخِيْكَ الْمُؤْمِنِ سُرُوراً، أَوْ تَقْضِي لَهُ دَيْناً، أَوْ تُطْعِمْهُ خبْزاً».

1054. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisindən sallәllahu aleyhi və sәllәm soruşdular: “Ən fəzilətli əməl hansıdır?” O buyurdu: “Mömin qarda-

---

[1389] əl-Hakim, 8067; əl-Beyhəqi “Şuabul-İman”4355. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 2978) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 1525) səhih olduğunu bildirmişdir.

[1390] ət-Təbərani “Mucəmul-Kəbir” 1049. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 5986) səhih olduğunu bildirmişdir.

[1391] Yəni götürdüyü borcu qaytarmağa kömək edər.

[1392] əl-Buxari, 2387.

şını sevindirmək və ya onun borcunu ödəmək, yaxud ona çörək yedirtmək”.[1393]

١٠٥٥ - عَنِ ابْنِ مَسْعُودٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ «مَا مِنْ مُسْلِمٍ يُقْرِضُ مُسْلِمًا قَرْضًا مَرَّتَيْنِ إِلاَّ كَانَ كَصَدَقَتِهَا مَرَّةً».

1055. İbn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: “Bir müsəlman digərinə iki dəfə borc verərsə, bir dəfə sədəqə vermiş kimi sayılır”.[1394]

١٠٥٦ - عَنْ أَبِي أُمَامَةَ ﷺ: عَنْ رَسُوْلِ اللهِ ﷺ قَالَ: «دَخَلَ رَجُلٌ الْجَنَّة، فَرَأَى عَلَى بَابِهَا مَكْتوباً: الصَّدَقَةُ بِعَشْرِ أَمْثَالِهَا، وَالْقَرْضُ بِثَمَانِيَةَ عَشَر».

1056. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: “Bir kişi Cənnətə daxil olur və onun qapısının üzərində belə bir yazı görür: “Sədəqənin (mükafatı) on, borc verməyin (mükafatı) isə on səkkiz mislində verilir”.[1395]

١٠٥٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ أَنْظَرَ مُعْسِرًا أَوْ وَضَعَ لَهُ أَظَلَّهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ تَحْتَ ظِلِّ عَرْشِهِ يَوْمَ لاَ ظِلَّ إِلاَّ ظِلُّهُ».

1057. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: “Kim borcu qaytarmaqda çətinlik çəkənə möhlət verərsə və ya borcunu keçərsə, Qiyamət günü heç bir kölgənin olmadığı gündə Allah onu Ərşinin kölgəsində kölgələndirər”.[1396]

١٠٥٨ - عَنْ أَبِي الْيَسَرِ ﷺ صَاحِبِ النَّبِيِّ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ أَحَبَّ أَنْ يُظِلَّهُ اللَّهُ فِي ظِلِّهِ – فَلْيُنْظِرْ مُعْسِرًا أَوْ لِيَضَعْ لَهُ».

1058. Peyğəmbərin salləllahu aleyhi və səlləm səhabəsi Əbul-Yəsər ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: “Kim Allahın kölgəsində kölgələnməsini sevirsə, borcu qaytarmaqda çətinlik çəkənə

[1393] İbn Əbud-Dunyə “Qadaul-Həvaic” 112. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 1096) və“Silsilətul-Əhədisis-Sahiha”da (№ 1494, 2715) həsən olduğunu bildirmişdir.

[1394] İbn Məcə, 2430, 2524. əl-Albani həsən olduğunu bildirmişdir.

[1395] ət-Tabərani “Mucəmul-Kəbir” 7976; əl-Beyhəqi “Şuabul-İman” 3564. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 900) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 3407) həsən olduğunu bildirmişdir.

[1396] ət-Tirmizi, 1306, 1354. əl-Albani səhih olduğunu bildirmişdir.

möhlət versin və ya borcundan silsin".[1397]

١٠٥٩ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنْ يَسَّرَ عَلَى مُعْسِرٍ يَسَّرَ اللَّهُ عَلَيْهِ فِى الدُّنْيَا وَالآخِرَةِ».

1059. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurdu: "Kim bir borcu olana asanlıq göstərərsə, Allah da ona dünyada və Axirətdə asanlıq bəxş edər".[1398]

١٠٦٠ - عَنْ بُرَيْدَةَ الأَسْلَمِىِّ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ «مَنْ أَنْظَرَ مُعْسِرًا كَانَ لَهُ بِكُلِّ يَوْمٍ صَدَقَةٌ وَمَنْ أَنْظَرَهُ بَعْدَ حِلِّهِ كَانَ لَهُ مِثْلُهُ فِى كُلِّ يَوْمٍ صَدَقَةٌ»

1060. Bureydə əl-Əsləmi ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm belə buyurdu: "Kim borcu qaytarmaqda çətinlik çəkənə möhlət verərsə, hər gününə görə ona bir sədəqə savabı verilər. Kim də borcun vədəsi gəldikdən sonra möhlət verərsə, hər gününə görə ona borcun misli qədər sədəqə savabı verilər".[1399]

١٠٦١ - عَنْ عَبْدِ اللَّهِ بْنِ جَعْفَرٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِنَّ اللَّهَ مَعَ الدَّائِنِ حَتَّى يَقْضِىَ دَيْنَهُ مَا لَمْ يَكُنْ فِيمَا يَكْرَهُ اللَّهُ». قَالَ فَكَانَ عَبْدُ اللَّهِ بْنُ جَعْفَرٍ يَقُولُ لِخَازِنِهِ اذْهَبْ فَخُذْ لِى بِدَيْنٍ فَإِنِّى أَكْرَهُ أَنْ أَبِيتَ لَيْلَةً إِلاَّ وَاللَّهُ مَعِى بَعْدَ الَّذِى سَمِعْتُ مِنْ رَسُولِ اللَّهِ ﷺ.

1061. Abdullah ibn Cəfər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə buyurdu: "Allahın sevmədiyi bir səbəbə görə[1400] borc almadığı təqdirdə, borcunu ödəyənə qədər, Allah borcu olanladır". Abdullah ibn Cəfər ﷺ öz xəzinədarına deyərdi: "Get mənim üçün borc al! Həqiqətən, mən bu hədisi Allah Elçisindən sallәllahu aleyhi və sәllәm eşidəndən sonra Allahın mənimlə olmadığı halda gecələmək istəmirəm".[1401]

١٠٦٢ - عَنْ أَبِى رَافِعٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ اسْتَسْلَفَ مِنْ رَجُلٍ بَكْرًا فَقَدِمَتْ عَلَيْهِ إِبِلٌ مِنْ إِبِلِ الصَّدَقَةِ فَأَمَرَ أَبَا رَافِعٍ أَنْ يَقْضِىَ الرَّجُلَ بَكْرَهُ فَرَجَعَ إِلَيْهِ أَبُو رَافِعٍ فَقَالَ لَمْ أَجِدْ فِيهَا إِلاَّ خِيَارًا رَبَاعِيًا. فَقَالَ «أَعْطِهِ إِيَّاهُ إِنَّ خِيَارَ النَّاسِ أَحْسَنُهُمْ قَضَاءً».

[1397] İbn Məcə, 2419, 2512. əl-Albani səhih olduğunu bildirmişdir.
[1398] İbn Məcə, 2417, 2510. əl-Albani səhih olduğunu bildirmişdir.
[1399] İbn Məcə, 2418, 2511. əl-Albani səhih olduğunu bildirmişdir.
[1400] Qaytarmamaq və ya haram işlərə sərf etmək məqsədilə borc almaq nəzərdə tutulur.
[1401] İbn Məcə, 2409, 2501. əl-Albani səhih olduğunu bildirmişdir.

1062. Əbu Rafi ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm bir kişidən cavan bir dəvəni borc aldı. Ona zəkat dəvələri gətirildikdə o, Əbu Rafiyə ﷺ əmr etdi ki, həmin kişinin borcunu qaytarsın. Əbu Rafi ﷺ də dedi: "Mən yalnız yeddi illik gözəl bir dəvə tapdım". Allahın Elçisi sallәllahu aleyhi və sәlləm isə belə dedi: "Həmin dəvəni apar o adama ver. Həqiqətən, insanların ən xeyirlisi borcunu ən yaxşı tərzdə qaytarandır".[1402]

١٠٦٣ - عَنْ ثَوْبَانَ ﷺ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ «مَنْ فَارَقَ الرُّوحُ الْجَسَدَ وَهُوَ بَرِيءٌ مِنْ ثَلاَثٍ دَخَلَ الْجَنَّةَ مِنَ الْكِبْرِ وَالْغُلُولِ وَالدَّيْنِ».

1063. Allah Elçisinin sallәllahu aleyhi və sәlləm azad etdiyi köləsi Səubən ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə buyurmuşdur: "Kimin ruhu cəsədindən bu üç şeydən - təkəbbürlük, qənimət malına xəyanət etmək və borcdan - uzaq olduğu halda ayrılarsa, Cənnətə girər".[1403]

BORCA DÜŞDÜKDƏ EDİLƏN DUA

١٠٦٤ - عَنْ عَلِيٍّ ﷺ أَنَّ مُكَاتَبًا جَاءَهُ فَقَالَ إِنِّى قَدْ عَجَزْتُ عَنْ كِتَابَتِى فَأَعِنِّى. قَالَ أَلاَ أُعَلِّمُكَ كَلِمَاتٍ عَلَّمَنِيهِنَّ رَسُولُ اللَّهِ ﷺ لَوْ كَانَ عَلَيْكَ مِثْلُ جَبَلِ صِيرٍ دَيْنًا أَدَّاهُ اللَّهُ عَنْكَ قَالَ «قُلِ اللَّهُمَّ اكْفِنِى بِحَلاَلِكَ عَنْ حَرَامِكَ وَأَغْنِنِى بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ».

1064. Əli ﷺ rəvayət edir ki, bir kölə onun yanına gəlib belə dedi: "Kölәlikdən azad olmaq üçün borcumu ödəməyə acizəm, mənə yardım et!" Əli ﷺ dedi: "Allah Elçisinin sallәllahu aleyhi və sәlləm mənə öyrətdiyi bəzi kəlmələri sənə öyrədim? Siyr dağı boyda borcun olsa belə Allah onu sənə ödətdirər. Belə dua et: "Allahummәkfini bi-hәlәlikә an hәramikә və әğnini bifәdlikә ammәn sivak[1404]".[1405]

١٠٦٥ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ لِمُعَاذِ بْنِ جَبَلٍ: أَلا أُعَلِّمُكَ دُعَاءً تَدْعُو بِهِ لَوْ كَانَ عَلَيْكَ مِثْلُ جَبَلٍ دَيْنًا لأَدَّى اللهُ عَنْكَ؟ قُلْ يَا مُعَاذُ: اللَّهُمَّ مَالِكُ الْمُلْكِ، تُؤْتِي الْمُلْكَ مَنْ تَشَاءُ، وَتَنْزِعُ الْمُلْكَ مِمَّنْ تَشَاءُ، وَتُعِزُّ مَنْ تَشَاءُ، وَتُذِلُّ مَنْ تَشَاءُ، بِيَدِكَ الْخَيْرِ إِنَّكَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَحْمَانُ الدُّنْيَا وَالآخِرَةِ، تُعْطِيهُمَا مَنْ تَشَاءُ، وَتَمْنَعُ مِنْهُمَا

[1402] Muslim, 4192.

[1403] İbn Məcə, 2412, 2505. əl-Albani səhih olduğunu bildirmişdir.

[1404] Tərcüməsi: Allahım, məni Öz halalınla kifayətləndirib haramına möhtac etmə, məni Öz lütfünlə Özündən başqasına möhtac etmə!

[1405] ət-Tirmizi, 3563, 3911. əl-Albani hədisin həsən olduğunu qeyd etmişdir.

مَنْ تَشَاءُ، ارْحَمْنِي رَحْمَةً تُغْنِينِي بِهَا عَنْ رَحْمَةِ مَنْ سِوَاكَ

1065. Ənəs ibn Məlik ﷺ rəvayət edir: "Allah Elçisi sallallahu aleyhi və səlləm Muaza ﷺ dedi: "Sənə elə bir dua öyrədim ki, onunla dua edəcəyin təqdirdə Uhud dağı boyda borcun olsa belə Allah onu qaytarar. Ey Muaz, de: "Allahummə məlikul-mulk, tutil-mulkə mən təşəu, və tənziul-mulkə mimmən təşəu, tuizzu mən təşəu, və tuzillu mən təşəu, biyədikəl-xayri innəkə alə kulli şeyin qadir, Rahmənud-dunyə vəl-əxira, tutihumə mən təşəu, və təmnəu minhumə mən təşəu, ərhəmni rahmətən tuğnini bihə an rahməti mən sivakə[1406]".[1407]

ŞABAN AYININ ON BEŞİNCİ GECƏSİ

١٠٦٦ - عَنْ أَبِي ثَعْلَبَةَ الخشنى ﷺ أَنّ النَّبِيَّ ﷺ قَالَ :إذا كان لَيْلَةَ النِّصْفِ مِنْ شَعْبَانَ اطَّلَع اللهُ إلى خلقِهِ فَيَغْفِرُ لِلْمُؤْمِنِينَ وَيُمْلِى الْكَافِرِينَ، وَيَدَعُ أَهْلَ الْحِقْدِ بِحِقْدِهِمْ حَتَّى يَدْعُوهُ

1066. Əbu Sələbə əl-Xuşəni ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurmuşdur: "Şaban ayının on beşinci gecəsi olduqda Allah məxluqatına baxır, möminləri bağışlayır, kafirlərə möhlət verir, kinliləri isə kin-küdurətlərini tərk edənədək başlı-başına buraxır".[1408]

QAN ALDIRMAĞIN FƏZİLƏTİ

١٠٦٧ - عَنْ عَائِشَةَ ﷺ قَالَتْ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: إِنَّ هَذِهِ الْحَبَّةَ السَّوْدَاءَ شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ إِلاَّ مِنَ السَّامِ قُلْتُ وَمَا السَّامُ قَالَ الْمَوْتُ.

1067. Rəvayət edilir ki, Aişə ﷺ demişdir: "Mən Peyğəmbərin sallallahu aleyhi və səlləm belə dediyini eşitmişəm: "Bu qara zirə samdan başqa hər bir xəstəliyin dərmanıdır". Mən: "Sam nədir?"- deyə soruşdum. O: "Ölümdür!"- dedi".[1409]

[1406] Tərcüməsi: Ey mülk sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir yalnız Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən. Sən dünya və Axirətin Rahmənisən, onları istədiyinə verir və istədiyindən məhrum edirsən. Səndən başqasının mərhəmətinə möhtac olmayacaq mərhəmətlə mənə rəhm et!"

[1407] ət-Tabərani "Mucəmus-Sağir" 558. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1821) həsən olduğunu bildirmişdir.

[1408] əl-Beyhəqi "Sunənus-Sağir" 1426; əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 771) həsən olduğunu bildirmişdir.

[1409] əl-Buxari, 5687; Muslim, 5896; ət-Tirmizi, 2041, 2070; İbn Məcə, 3447, 3457.

١٠٦٨ - عَنِ ابْنِ عُمَرَ ﵄ قَالَ يَا نَافِعُ قَدْ تَبِيَّغَ بِيَ الدَّمُ فَالْتَمِسْ لِي حَجَّامًا وَاجْعَلْهُ رَفِيقًا إِنِ اسْتَطَعْتَ وَلاَ تَجْعَلْهُ شَيْخًا كَبِيرًا وَلاَ صَبِيًّا صَغِيرًا فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ «الْحِجَامَةُ عَلَى الرِّيقِ أَمْثَلُ وَفِيهِ شِفَاءٌ وَبَرَكَةٌ وَتَزِيدُ فِي الْعَقْلِ وَفِي الْحِفْظِ فَاحْتَجِمُوا عَلَى بَرَكَةِ اللَّهِ يَوْمَ الْخَمِيسِ وَاحْتَنِبُوا الْحِجَامَةَ يَوْمَ الأَرْبِعَاءِ وَالْجُمُعَةِ وَالسَّبْتِ وَيَوْمَ الأَحَدِ تَحَرِّيًا وَاحْتَجِمُوا يَوْمَ الاِثْنَيْنِ وَالثُّلاَثَاءِ فَإِنَّهُ الْيَوْمُ الَّذِي عَافَى اللَّهُ فِيهِ أَيُّوبَ مِنَ الْبَلاَءِ وَضَرَبَهُ بِالْبَلاَءِ يَوْمَ الأَرْبِعَاءِ فَإِنَّهُ لاَ يَبْدُو جُذَامٌ وَلاَ بَرَصٌ إِلاَّ يَوْمَ الأَرْبِعَاءِ أَوْ لَيْلَةَ الأَرْبِعَاءِ».

1068. İbn Ömər ﵄ demişdir: “Ey Nafi, qanım qaynayır, mənim üçün qan alan tap və imkan varsa, onu mənim üçün yoldaş seç. Onu nə yaşlı qoca, nə də balaca uşaq arasından seçmə, çünki mən Allah Elçisinin sallәllahu aleyhi və sәllәm belə dediyini eşitdim: “Acqarına qan aldırmaq çox faydalıdır, onda şəfa və bərəkət vardır. Ağlı və hafizəni gücləndirir. Allahın bərəkəti üzrə Cümə axşamı qan aldırın, çərşənbə, Cümə, şənbə və bazar günləri qan aldırmaqdan çəkinin. Bazar ertəsi və çərşənbə axşamı qan aldırın, çünki həmin gün Allah Əyyubu xəstəlikdən sağaltmış, çərşənbə günü isə ona bəla vermişdir. Çünki, cüzam və albinos xəstəlikləri çərşənbə günü və ya onun gecəsi gəlir”.[1410]

١٠٦٩ - عَنِ ابْنِ عَبَّاسٍ ﵄ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «مَا مَرَرْتُ لَيْلَةَ أُسْرِيَ بِي بِمَلإٍ مِنَ الْمَلاَئِكَةِ إِلاَّ كُلُّهُمْ يَقُولُ لِي عَلَيْكَ يَا مُحَمَّدُ بِالْحِجَامَةِ». قَالُوا «يَا مُحَمَّدُ مُرْ أُمَّتَكَ بِالْحِجَامَةِ».

1069. İbn Abbas ﵄ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Merac gecəsi hansı mələk toplusunun yanından keçirdimsə, hamısı mənə belə deyirdilər: “Ey Muhəmməd, qan aldır!”[1411] Digər rəvayətdə deyilir: “Ümmətinə qan aldırmağı əmr et!”[1412]

١٠٧٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَنِ احْتَجَمَ لِسَبْعَ عَشْرَةَ وَتِسْعَ عَشْرَةَ وَإِحْدَى وَعِشْرِينَ كَانَ شِفَاءً مِنْ كُلِّ دَاءٍ».

1070. Əbu Hureyra ﵁ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: “Kim ayın on yeddisi, on doqquzu, iyirmi biri qan aldırarsa, bu, bütün xəstəliklərə şəfadır”.[1413]

[1410] İbn Məcə, 3487, 3616. əl-Albani “Sahihut-Tərğib vət-Tərhib”də (№ 3466) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 766) həsən olduğunu bildirmişdir.
[1411] İbn Məcə, 3606, 3477. əl-Albani səhih olduğunu bildirmişdir.
[1412] İbn Məcə, 3608, 3479. əl-Albani səhih olduğunu bildirmişdir.
[1413] Əbu Davud, 3863. əl-Albani həsən olduğunu bildirmişdir.

١٠٧١ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «إِنْ كَانَ فِى شَىْءٍ مِمَّا تَدَاوَيْتُمْ بِهِ خَيْرٌ فَالْحِجَامَةُ».

1071. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Əgər müalicə olunduğunuz bir şeydə xeyir varsa, o, qan almaqdır".[1414]

١٠٧٢ - عَنْ أُمِّ قَيْسٍ بِنْتِ مِحْصَنٍ ﷺ قَالَتْ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: عَلَيْكُمْ بِهَذَا الْعُودِ الْهِنْدِيِّ فَإِنَّ فِيهِ سَبْعَةَ أَشْفِيَةٍ يُسْتَعَطُ بِهِ مِنْ الْعُذْرَةِ وَيُلَدُّ بِهِ مِنْ ذَاتِ الْجَنْبِ.

1072. Rəvayət edilir ki, Ummu Qeys bint Mihsən ﷺ demişdir: "Mən Peyğəmbərin sallәllahu aleyhi və sәllәm belə dediyini eşitmişəm: "Bu Udul-Hinddən istifadə edin. Həqiqətən də, onda yeddi (xəstəliyin) şəfası vardır. Onun məlhəmindən boğazı xəstə olanın boğazına, plevritə tutulanın ağzına damızdırın" .[1415]

١٠٧٣ - عَنْ أَنَسٍ ﷺ أَنَّهُ سُئِلَ عَنْ أَجْرِ الْحَجَّامِ فَقَالَ: احْتَجَمَ رَسُولُ اللَّهِ ﷺ حَجَمَهُ أَبُو طَيْبَةَ وَأَعْطَاهُ صَاعَيْنِ مِنْ طَعَامٍ وَكَلَّمَ مَوَالِيَهُ فَخَفَّفُوا عَنْهُ وَقَالَ: إِنَّ أَمْثَلَ مَا تَدَاوَيْتُمْ بِهِ الْحِجَامَةُ وَالْقُسْطُ الْبَحْرِيُّ. وَقَالَ لاَ تُعَذِّبُوا صِبْيَانَكُمْ بِالْغَمْزِ مِنْ الْعُذْرَةِ وَعَلَيْكُمْ بِالْقُسْطِ...«عَلاَمَهْ تَدْغَرْنَ أَوْلاَدَكُنَّ بِهَذَا الإِعْلاَقِ عَلَيْكُمْ بِهَذَا الْعُودِ الْهِنْدِىِّ – يَعْنِى بِهِ الْكُسْتَ – فَإِنَّ فِيهِ سَبْعَةَ أَشْفِيَةٍ مِنْهَا ذَاتُ الْجَنْبِ».

1073. Rəvayət edilir ki, Ənəsdən ﷺ həcəmət[1416] qoyan adamın qazancı barədə soruşdular. Dedi: "(Bir vaxt) Əbu Teybə Peyğəmbərdən ﷺ qan aldı və Allah Elçisi sallәllahu aleyhi və sәllәm ona iki saa[1417] yemək verdi, üstəlik onun ağaları ilə danışdı və onlar (gündəlik olaraq ondan aldıqları xəracın miqdarını) bir qədər azaltdılar". Peyğəmbər: "Müalicə olunmağınız üçün istifadə etdiyiniz ən gözəl şey həcəmət və Qustdur". Həmçinin demişdir: "Uşaqlarınızın (boğazda şişmiş) badamcıq vəzilərini (barmaqla) basaraq onlara əzab-əziyyət verməyin. Onları qustla müalicə edin". [1418] Digər rəvayətdə deyilir: "Siz uşaqlarınızı nə üçün bu cür müalicə edirsiniz? Bunu Udul-Hind (yəni, əl-Qust) ilə müalicə edin. Həqiqətən, onda yeddi şəfa vardır. Ondan biri ağ ciyər iltihabı xəstəliyidir".[1419]

[1414] Əbu Davud, 3859. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3460) həsən səhih olduğunu bildirib.
[1415] əl-Buxari, 5692.
[1416] Müalicə məqsədilə baş, kürək və bədənin başqa nahiyələrindən qan almaq üçün işlədilən buynuz-şəkilli alət.
[1417] Saa – ölçü vahididir və dörd mudda bərabərdir. Bir mudd isə insanın iki ovucuna bərabərdir ki, bu da yeddi yüz qrama bərabərdir. (Səmərul-Müstətab, 1/28).
[1418] əl-Buxari, 5696.
[1419] Muslim, 5894; İbn Məcə, 3462; Əbu Davud, 3877, 3879.

١٠٧٤ - عَنْ عُمَرَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ائْتَدِمُوا بِالزَّيْتِ، وَادَّهِنُوا بِهِ، فَإِنَّهُ مِنْ شَجَرَةٍ مُبَارَكَةٍ.

1074. Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Zeytun və onun yağından istifadə etməyə davam edin. Çünki o, mübarək ağacdır".[1420]

١٠٧٥ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ: قَالَ رَسُولُ اللهِ ﷺ: اسْتَعِيذُوا بِاللَّهِ ، فَإِنَّ الْعَيْنَ حَقٌّ.

1075. Aişə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Bəd nəzərdən Allaha sığının! Çünki bəd nəzər haqdır".[1421]

QAYLULƏ

١٠٧٦ - عن أنس ﷺ مرفوعا لفظه قِيلُوا فَإِنَّ الشَّيَاطِينَ لاَ تَقِيلُ

1076. Ənəs ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm rəvayət edir: "Qaylulə[1422] edin, şübhəsiz ki, şeytan qaylulə etməz".[1423]

QADINLARLA ƏLAQƏLİ HƏDİSLƏR

١٠٧٧ - عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْفٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ إِذَا صَلَّتْ الْمَرْأَةُ خَمْسَهَا وَصَامَتْ شَهْرَهَا وَحَفِظَتْ فَرْجَهَا وَأَطَاعَتْ زَوْجَهَا قِيلَ لَهَا ادْخُلِي الْجَنَّةَ مِنْ أَيِّ أَبْوَابِ الْجَنَّةِ شِئْتِ

1077. Abdur-Rahmən ibn Auf[1424] ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm belə demişdir: "Əgər qadın beş vaxt namazını qılar, Ramazan orucunu tutar, ismətini qoruyar və ərinə itaət edərsə, ona belə deyilər: "Cənnətin hansı qapısından istəyirsənsə, Cənnətə daxil ol!"[1425]

[1420] İbn Məcə, 3319. əl-Albani səhih olduğunu bildirmişdir.

[1421] İbn Məcə, 3508. əl-Albani səhih olduğunu bildirmişdir.

[1422] Qaylulə - günün əvvəlində Duha vaxtı yatmağa deyilir. Həmçinin, günorta vaxtı yatmağa da qaylulə deyilir; belə ki, Səhl ﷺ belə demişdir: "Biz Allah Elçisi ﷺ ilə Cümə namazını qılardıq, qaylulə ondan sonra olardı". (əl-Buxari, Cümə 40).

[1423] Cəlaləddin əs-Suyuti "Cəmius-Sağir" 6168, 8526. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4431) həsən olduğunu bildirmişdir.

[1424] Əbu Muhəmməd Abdur-Rahmən ibn Auf ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Miladi 580-ci ildə anadan olmuş, hicrətin 31-ci ilində Mədinədə vəfat etmişdir.

[1425] Əhməd, 1661; İbn Hibban, 4163; əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 660) səhih olduğunu qeyd etmişdir.

١٠٧٨ - عَنْ أُمِّ سَلَمَةَ ﵂: عَنْ رَسُوْلِ ﷺ أَنَّهُ قَالَ: «خَيرُ مَسَاجِدِ النِّسَاءِ قَعرُ بُيُوتِهِنَّ».

1078. Ummu Sələmə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Qadınlar üçün ən yaxşı məscid evlərinin dərinlikləridir".[1426]

١٠٧٩ - عَنْ عَبْدِ اللَّهِ ﵁: عَنِ النَّبِيِّ ﷺ قَالَ: «صَلاَةُ الْمَرأَةِ فِي بَيْتِهَا، أَفْضَلُ مِنْ صَلاَتِهَا فِي حُجْرَتِهَا، وَصَلاَتُهَا فِي مَخْدَعِهَا أَفْضَلُ مِنْ صَلاَتِهَا فِي بَيْتِهَا».

1079. Abdullah (ibn Məsud) ﵁ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "Qadının evində qıldığı namaz, evinin həyətində qıldığı namazdan, evinin gizli guşəsində qıldığı namaz isə evinin digər yerlərində qıldığı namazdan daha fəzilətlidir".[1427]

١٠٨٠ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ عَنْ النَّبِيِّ ﷺ قَالَ: مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ فَلاَ يُؤْذِي جَارَهُ وَاسْتَوْصُوا بِالنِّسَاءِ خَيْرًا فَإِنَّهُنَّ خُلِقْنَ مِنْ ضِلَعٍ وَإِنَّ أَعْوَجَ شَيْءٍ فِي الضِّلَعِ أَعْلاَهُ فَإِنْ ذَهَبْتَ تُقِيمُهُ كَسَرْتَهُ وَإِنْ تَرَكْتَهُ لَمْ يَزَلْ أَعْوَجَ فَاسْتَوْصُوا بِالنِّسَاءِ خَيْرًا.

1080. Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: "Kim Allaha və Axirət gününə iman gətirirsə, qonşusuna əziyyət verməsin! Qadınlarla da yaxşı davranın! Çünki onlar qabırğadan xəlq edilmişlər. Qabırğanın əyri tərəfi isə yuxarı hissəsidir. Sən onu düzəltmək istəsən, sındıracaqsan, düzəltməsən, əyri qalacaq. Odur ki, qadınlarla yaxşı davranın!"[1428]

١٠٨١ - عَنْ أَبِي سَعِيدٍ وَأَبِي هُرَيْرَةَ ﵄ قَالاَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «إِذَا أَيْقَظَ الرَّجُلُ أَهْلَهُ مِنَ اللَّيْلِ فَصَلَّيَا أَوْ صَلَّى رَكْعَتَيْنِ جَمِيعًا كُتِبَا فِى الذَّاكِرِينَ وَالذَّاكِرَاتِ».

1081. Əbu Səid əl-Xudri və Əbu Hureyra ﵄ rəvayət edirlər ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm belə demişdir: "Kişi öz zövcəsini gecə oyadaraq, birlikdə və ya ayrılıqda iki rükət namaz qılarsa, Allahı çox zikr edən kişilərdən və Allahı çox zikr edən qadınlardan yazılmış olarlar".[1429]

[1426] Əhməd, 26584. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 3327) səhih olduğunu bildirmişdir.
[1427] Əbu Davud, 570. əl-Albani səhih olduğunu bildirmişdir.
[1428] əl-Buxari, 5186; Muslim 1468, 2671.
[1429] Əbu Davud, 1309, 1311. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

١٠٨٢ - عَنْ أُمِّ سَلَمَةَ ﵂ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: خَيْرُ صَلاةِ النِّسَاءِ فِي قَعْرِ بُيُوتِهِنَّ

1082. Ummu Sələmə ﵂ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: “Qadınların ən xeyirli namazı evlərinin dərinliyində qıldıqları namazdır”.[1430]

١٠٨٣ - عَنْ أَبِى هُرَيْرَةَ ﵁ قَالَ قِيلَ لِرَسُولِ اللَّهِ ﷺ أَىُّ النِّسَاءِ خَيْرٌ قَالَ «الَّتِى تَسُرُّهُ إِذَا نَظَرَ وَتُطِيعُهُ إِذَا أَمَرَ وَلاَ تُخَالِفُهُ فِى نَفْسِهَا وَمَالِهَا بِمَا يَكْرَهُ».

1083. Əbu Hureyra ﵁ rəvayət edir ki, Allah Elçisindən sallәllahu aleyhi və sәllәm soruşdular: “Hansı qadınlar daha xeyirlidir?” Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: “O qadın ki, əri ona baxdıqda sevinər, əmr etdikdə itaət edər, xoşuna gəlmədiyi bir şeyin özündə və malında olmasına yol verməz”.[1431]

١٠٨٤ - عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو ﵄ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «الدُّنْيَا مَتَاعٌ وَخَيْرُ مَتَاعِ الدُّنْيَا الْمَرْأَةُ الصَّالِحَةُ».

1084. Abdullah ibn Amr ﵄ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: “Dünya bütünlüklə nemətlərlə doludur. Bu nemətlərin ən xeyirlisi isə əməlisaleh qadındır”.[1432]

١٠٨٥ - عَنْ كَعْبِ بن عُجْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: "أَلا أُخْبِرُكُمْ بِرِجَالِكُمْ مِنْ أَهْلِ الْجَنَّةِ؟"، قَالُوا: بَلَى يَا رَسُولَ اللَّهِ، قَالَ: "النَّبِيُّ فِي الْجَنَّةِ، وَالشَّهِيدُ فِي الْجَنَّةِ، وَالصِّدِّيقُ فِي الْجَنَّةِ، وَالْمَوْلُودُ فِي الْجَنَّةِ، وَالرَّجُلُ يَزُورُ أَخَاهُ فِي جَانِبِ الْمِصْرِ فِي الْجَنَّةِ، أَلا أُخْبِرُكُمْ بنسَائِكُمْ مِنْ أَهْلِ الْجَنَّةِ؟"، قَالُوا: بَلَى يَا رَسُولَ اللَّهِ، قَالَ:"الْوَدُودُ الْوَلُودُ الَّتِي إِنْ ظَلَمَتْ أَوْ ظُلِمَتْ قَالَتْ: هَذِهِ نَاصِيَتِي بِيَدِكَ، لا أَذُوقُ غَمْضًا حَتَّى تَرْضَ.

1085. Kəb ibn Ucra ﵄ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurmuşdur: “Cənnət əhlindən olan kişiləriniz haqqında sizə xəbər verimmi?” Dedilər: “Bəli, ey Allahın Elçisi!” O buyurdu: “Peyğəmbər Cənnətdədir, şəhid Cənnətdədir, siddiq Cənnətdədir, uşaq Cənnətdədir və şəhərin başqa bir tərəfində olan qardaşını ziyarət edən kişi Cənnətdədir.

[1430] ət-Təbərani “Mucəmul-Kəbir” 709, 19186. əl-Albani “Sahihul-Cəmius-Sağirdə (№ 3311) səhih səhih olduğunu bildirmişdir.

[1431] ən-Nəsəi, 3231, 3244. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 1838) bu hədisin həsən səhih olduğunu bildirmişdir.

[1432] Muslim, 3716.

Cənnət əhli olan qadınlarınız haqqında sizə xəbər verimmi?" Dedilər: "Bəli, ey Allahın Elçisi!" O buyurdu: "Sevən və çoxuşaqlı qadın. O, haqsızlıq etdikdə və ya ona haqsızlıq olunduqda deyər: "Bu kəkilim (məni idarə etmək) sənin əlindədir, sən razı olmayanadək yuxuya getməyəcəm".[1433]

١٠٨٦ - عَنْ عَائِشَةَ أُمِّ الْمُؤْمِنِينَ ﵂ أَنَّهَا قَالَتْ يَا رَسُولَ اللَّهِ، نَرَى الْجِهَادَ أَفْضَلَ الْعَمَلِ، أَفَلاَ نُجَاهِدُ قَالَ: «لاَ، لَكِنَّ أَفْضَلَ الْجِهَادِ حَجٌّ مَبْرُورٌ».

1086. Rəvayət edilir ki, möminlərin anası Aişə ﵂ demişdir: "Ey Allahın Elçisi, biz cihadın ən əfzəl əməllərdən olduğunu güman edirik. Elə isə biz cihadda iştirak edə bilərikmi?" Peyğəmbər sallәllahu aleyhi və sәlləm buyurdu: "Xeyr! (Siz qadınlar üçün) ən əfzəl cihad qəbul olunmuş həccdir!"[1434]

١٠٨٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «خَيْرُ صُفُوفِ الرِّجَالِ أَوَّلُهَا وَشَرُّهَا آخِرُهَا وَخَيْرُ صُفُوفِ النِّسَاءِ آخِرُهَا وَشَرُّهَا أَوَّلُهَا».

1087. Əbu Hureyra ﵁ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurmuşdur: "Kişilərin ən xeyirli səfi birinci, ən pisi isə sonuncu səfdir. Qadınların ən xeyirli səfi sonuncu, ən pisi isə birinci səfdir".[1435]

١٠٨٨ - عن أبي هريرة ﵁ يقول قيل للنبي ﷺ يا رسول الله إن فلانة تقوم الليل وتصوم النهار وتفعل وتصدق وتؤذي جيرانها بلسانها فقال رسول الله ﷺ لا خير فيها هى من أهل النار وفلانة تصلى المكتوبة وتصدق بأثوار ولا تؤذي أحدا فقال رسول الله ﷺ هى من أهل الجنة

1088. Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbərə sallәllahu aleyhi və sәlləm dedilər: "Ey Allahın Elçisi! Filan qadın gecə namaz qılır, gündüz oruc tutur, yaxşı işlər görür, sədəqə verir, amma qonşularına dili ilə əziyyət verir". Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "Onda xeyir yoxdur. O, Cəhənnəm əhlindəndir!" Onlar dedilər: "Filan qadın yalnız vacib namazları qılır, yağsız pendirdən sədəqə verir, heç kəsə də əziyyət vermir". Allah Elçisi sallәllahu aleyhi və sәlləm dedi: "O, Cənnət əhlindəndir!"[1436]

[1433] ət-Təbərani "Mucəmus-Sağir" 118, "Mucəmul-Kəbir" 15637. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 2604) həsən olduğunu bildirmişdir.

[1434] əl-Buxari, 1521.

[1435] ət-Tirmizi, 224; İbn Məcə, 1000, 1001. əl-Albani hədisin səhih olduğunu bildirmişdir.

[1436] əl-Buxari "Ədəbul-Mufrad" 119. əl-Albani səhih olduğunu bildirmişdir.

١٠٨٩ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَكْمَلُ الْمُؤْمِنِينَ إِيمَانًا أَحْسَنُهُمْ خُلُقًا وَخِيَارُكُمْ خِيَارُكُمْ لِنِسَائِهِمْ خُلُقًا».

1089. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurmuşdur: "İmanı ən kamil olan möminlər əxlaqı gözəl olanlardır. Sizin ən xeyirlilәriniz isə qadınlarına (qarşı) əxlaqlı olanlardır".[1437]

١٠٩٠ - عَنْ أَبِي أُمَامَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ قَلْبٌ شَاكِرٌ وَلِسَانٌ ذَاكِرٌ وَزَوجَةٌ صَالِحَةٌ تُعْنِيكَ عَلَى أَمْرِ دُنْيَاكَ وَدِينِكَ خَيْرُ مَا اكْتَنَزَ النَّاسُ ...عَنْ ثَوْبَانَ ﷺ قَالَ لَمَّا نَزَلَتِ ﴿**الَّذِينَ يَكْنِزُونَ الذَّهَبَ وَالْفِضَّةَ**﴾ قَالَ كُنَّا مَعَ النَّبِيِّ ﷺ فِي بَعْضِ أَسْفَارِهِ فَقَالَ بَعْضُ أَصْحَابِهِ أُنْزِلَ فِي الذَّهَبِ وَالْفِضَّةِ مَا أُنْزِلَ. لَوْ عَلِمْنَا أَيُّ الْمَالِ خَيْرٌ فَنَتَّخِذَهُ فَقَالَ «أَفْضَلُهُ لِسَانٌ ذَاكِرٌ وَقَلْبٌ شَاكِرٌ وَزَوْجَةٌ مُؤْمِنَةٌ تُعِينُهُ عَلَى إِيمَانِهِ».

1090. Əbu Umamə ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Şükür edən qəlb, zikr edən dil, əməlisaleh zövcə dünya və dini işlərdə sənə kifayət edər və bu, insanların yığdıqlarından daha xeyirlidir".[1438]

Digər rəvayətdə deyilir: "Səuban ﷺ rəvayət edir ki, ***"Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ"*** *(ət-Tövbə, 34) ayəsi nazil olduqda, biz* Peyğəmbər sallallahu aleyhi və səlləm ilə səfərlərin birində idik. Bəzi səhabələr dedilər: "Bu ayə qızıl və gümüş haqda nazil edilmişdir. Biz hansı malın daha xeyirli olduğunu bilsək onu götürüb verərik?" Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Ən xeyirli mal zikr edən dil, şükr edən qəlb və imanı artırmağa yardımçı olan möminə zövcədir".[1439]

١٠٩١ - عَنْ عَائِشَةَ ﵂ قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا أَنْفَقَتِ الْمَرْأَةُ مِنْ طَعَامِ بَيْتِهَا غَيْرَ مُفْسِدَةٍ كَانَ لَهَا أَجْرُهَا بِمَا أَنْفَقَتْ وَلِزَوْجِهَا أَجْرُهُ بِمَا كَسَبَ، وَلِلْخَازِنِ مِثْلُ ذَلِكَ، لاَ يَنْقُصُ بَعْضُهُمْ أَجْرَ بَعْضٍ شَيْئًا».

1091. Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Qadın (ailə üzvlərinə) ziyan vurmadan evində olan yeməkdən sədəqə versə, verdiyinin savabını qazanar; əri də qazandığının savabını alar; həmçinin xidmətçiyə də bir o qədər savab çatar; birinin savabı digərinin savabından heç bir şey azaltmaz".[1440]

[1437] ət-Tirmizi, 1162, 1195. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[1438] ət-Tabərani "Mucəmul-Kəbir" 7734, 7828. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 4409) səhih olduğunu bildirmişdir.

[1439] ət-Tirmizi, 3377, 3994; İbn Macə, 1856. əl-Albani səhih olduğunu bildirmişdir.

[1440] əl-Buxari, 1425; ət-Tirmizi 672.

BƏRƏKƏT YAŞLILARINIZLADIR

١٠٩٢ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: "الْبَرَكَةُ مَعَ أَكَابِرِكُمِ"

1092. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Bərəkət yaşlılarınızla birlikdədir".[1441]

MÖMİN BİR YUVADAN İKİ DƏFƏ SANCILMAZ

١٠٩٣ - عن أبي هريرة رضي الله عنه أخبره أن رسول الله ﷺ قال لا يلدغ المؤمن من جحر مرتين

1093. Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm buyurdu: "Mömin bir yuvadan iki dəfə sancılmaz (bir işdə başına müsibət gəlsə, ikinci dəfə o işi görməz)".[1442]

١٠٩٤ - عن بن عمر رضي الله عنهما عن رسول الله ﷺ قال إن أبر البر أن يصل الرجل أهل ود أبيه

1094. İbn Ömər رضي الله عنه rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm dedi: "Həqiqətən də ən gözəl yaxşılıq adamın öz atası ilə dost olmuş insanlarla olan əlaqələrini möhkəmləndirməsidir".[1443]

ƏBU BƏKR VƏ ÖMƏRİN رضي الله عنهما CƏNNƏTDƏKİ ÜSTÜNLÜYÜ

١٠٩٥ - عَنْ عَوْنِ بن أَبِي جُحَيْفَةَ، عَنْ أَبِيهِ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ أبو بَكْرٍ وعمَرُ سَيِّدَا كُهُولِ أَهْلِ الجَنَّةِ مِنَ الأَوَّلِينَ والآخِرِينَ إِلاَّ النَّبِيِّينَ والمُرْسَلِينَ

1095. Aun ibn Əbu Cuheyfə atasından رضي الله عنه rəvayət edir ki, Alah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Əbu Bəkr və Ömər peyğəmbərlər və elçilər istisna olmaqla Cənnət əhlinin birinci və axırıncı nəsillərindən ən hörmətli olanlardır".[1444]

[1441] əl-Hakim, 210; ət-Tabərani "Mucəmul-Əvsat" 8991. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 99) və "Sahihul-Cəmius-Sağir"də (№ 2884) səhih olduğunu bildirmişdir.

[1442] əl-Buxari "Ədəbul-Mufrad" 1278. əl-Albani səhih olduğunu bildirmişdir.

[1443] əl-Buxari "Ədəbul-Mufrad" 41. əl-Albani səhih olduğunu bildirmişdir.

[1444] ət-Tabərani "Mucəmul-Kəbir" 257. əl-Albani "Sahihul-Cəmius-Sağir"də (№ 51) səhih olduğunu bildirmişdir.

١٠٩٦ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «إِنَّ أَهْلَ الدَّرَجَاتِ الْعُلى، يَرَاهُمْ مَنْ أَسْفَلَ مِنْهُمْ كَمَا يُرَى الْكَوْكَبُ الطَّالِعُ فِي الأُفُقِ مِنْ آفَاقِ السَّمَاءِ، وَإِنَّ أَبَا بَكْرٍ وَعُمَرَ مِنْهُمْ وَأَنْعَمَا».

1096. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Üstün dərəcədə olanlar üfüqdə olan ulduz kimi görünəcəklər. Şəkk yoxdur ki, Əbu Bəkr və Ömər onlardan daha üstün dərəcədə olacaqlar".[1445]

١٠٩٧ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ أَنْفَقَ زَوْجَيْنِ فِي سَبِيلِ اللَّهِ نُودِيَ مِنْ أَبْوَابِ الْجَنَّةِ يَا عَبْدَ اللَّهِ، هَذَا خَيْرٌ. فَمَنْ كَانَ مِنْ أَهْلِ الصَّلاَةِ دُعِيَ مِنْ بَابِ الصَّلاَةِ، وَمَنْ كَانَ مِنْ أَهْلِ الْجِهَادِ دُعِيَ مِنْ بَابِ الْجِهَادِ، وَمَنْ كَانَ مِنْ أَهْلِ الصِّيَامِ دُعِيَ مِنْ بَابِ الرَّيَّانِ، وَمَنْ كَانَ مِنْ أَهْلِ الصَّدَقَةِ دُعِيَ مِنْ بَابِ الصَّدَقَةِ». فَقَالَ أَبُو بَكْرٍ ﷺ بِأَبِي أَنْتَ وَأُمِّي يَا رَسُولَ اللَّهِ، مَا عَلَى مَنْ دُعِيَ مِنْ تِلْكَ الأَبْوَابِ مِنْ ضَرُورَةٍ، فَهَلْ يُدْعَى أَحَدٌ مِنْ تِلْكَ الأَبْوَابِ كُلِّهَا قَالَ: «نَعَمْ، وَأَرْجُو أَنْ تَكُونَ مِنْهُمْ»

1097. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Kim (malından) Allah yolunda iki şey xərcləsə, onu Cənnət qapılarının birindən çağırıb: "Ey Allahın qulu, bu bir xeyirdir"– deyəcəklər. Namaz qılanlar namaz qapısından, cihad edənlər cihad qapısından, oruc tutanlar Rəyyan adlı qapıdan, sədəqə verənlər də sədəqə qapısından (Cənnətə) çağırılacaqlar". (Bu vaxt) Əbu Bəkr ﷺ dedi: "Atam-anam sənə fəda olsun, ey Allahın Elçisi! Bu qapılardan çağırılanların heç bir sıxıntı keçirməyəcəkləri bəllidir. Bəs bu qapıların hamısından çağırılan bir kimsə olacaqmı?" Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Bəli və mən ümid edirəm ki, sən onlardan olacaqsan".[1446]

CƏNNƏTİN ƏN FƏZİLƏTLİ QADINLARI

١٠٩٨ - عَنِ ابْنِ عَبَّاسٍ ﷺ قَالَ خَطَّ رَسُولُ اللَّهِ ﷺ فِي الْأَرْضِ أَرْبَعَةَ خُطُوطٍ قَالَ أَتَدْرُونَ مَا هَذَا قَالُوا اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ أَفْضَلُ نِسَاءِ أَهْلِ الْجَنَّةِ خَدِيجَةُ بِنْتُ خُوَيْلِدٍ وَفَاطِمَةُ بِنْتُ مُحَمَّدٍ وَمَرْيَمُ بِنْتُ عِمْرَانَ وَآسِيَةُ بِنْتُ مُزَاحِمٍ امْرَأَةُ فِرْعَوْنَ

1098. İbn Abbas ﷺ demişdir: "Allah Elçisi sallallahu aleyhi və səlləm yerdə dörd xətt çəkdi və dedi: "Bunun nə olduğunu bilirsiniz?" Dedilər: "Allah

[1445] İbn Məcə, 96. əl-Albani səhih olduğunu bildirmişdir.
[1446] əl-Buxari, 1897.

və Onun Elçisi daha yaxşı bilir" Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Cənnət qadınlarının ən fəzilətlisi; Xuveylidin qızı Xədicə, Muhəmmədin qızı Fatimə, İmranın qızı Məryəm və Fironun zövcəsi Muzahimin qızı Asiyadır".[1447]

CƏNNƏTİN ƏN HÖRMƏTLİ CAVANLARI

١٠٩٩ - عَنِ ابْنِ عُمَرَ رضي الله عنهما قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: الْحَسَنُ وَالْحُسَيْنُ سَيِّدَا شَبَابِ أَهْلِ الْجَنَّةِ، وَأَبُوهُمَا خَيْرٌ مِنْهُمَا.

1099. İbn Ömər رضي الله عنهما Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Həsən və Hüseyn Cənnətdəki cavanlar arasında ən hörmətli olacaqlar. Ataları isə onlardan da xeyirlidir".[1448]

[1447] Əhməd, 2751, 2903. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1508) səhih olduğunu bildirmişdir.
[1448] əl-Hakim, 4779, 4780. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 796) və "Sahihul-Cəmius-Sağir"də (№ 47) səhih olduğunu bildirmişdir.

MÖMİNLƏRİN CAN ATDIĞI,
KAFİRLƏRİN İNKAR ETDİYİ,
CAHİLLƏRİN İSƏ ŞÜBHƏ İLƏ YANAŞARAQ
ƏHƏMİYYƏT VERMƏDİYİ

CƏNNƏTİN VƏSFİ

CƏNNƏTİN VƏSFİNƏ DAİR BƏZİ AYƏLƏR

﴿يُطَافُ عَلَيْهِمْ بِصِحَافٍ مِنْ ذَهَبٍ وَأَكْوَابٍ وَفِيهَا مَا تَشْتَهِيهِ الْأَنْفُسُ وَتَلَذُّ الْأَعْيُنُ وَأَنْتُمْ فِيهَا خَالِدُونَ﴾

"(Cənnətdə) ***onlar üçün qızıl teştlər və qədəhlər içində*** *(yemək-içmək)* ***olandırılacaqdır. Orada onların ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız!"*** *(əz-Zuxruf, 71).*

﴿وَيُطَافُ عَلَيْهِمْ بِآنِيَةٍ مِنْ فِضَّةٍ وَأَكْوَابٍ كَانَتْ قَوَارِيرَا﴾

"*(Cənnətdəki xidmətçilər)* ***onların ətrafında gümüş qablar və büllur qədəhlərlə dolanacaqlar"*** *(əl-İnsan, 15).*

﴿يَطُوفُ عَلَيْهِمْ وِلْدَانٌ مُخَلَّدُونَ ۞ بِأَكْوَابٍ وَأَبَارِيقَ وَكَأْسٍ مِنْ مَعِينٍ ۞ لَا يُصَدَّعُونَ عَنْهَا وَلَا يُنْزِفُونَ ۞ وَفَاكِهَةٍ مِمَّا يَتَخَيَّرُونَ ۞ وَلَحْمِ طَيْرٍ مِمَّا يَشْتَهُونَ﴾

"Onların dövrəsində həmişəcavan xidmətçi oğlanlar dolanacaqlar; *(Cənnət bulağından axan)* ***məin*** *(şərab)* ***dolu piyalələr, kuzələr və qədəhlərlə.*** *Dünyadakı şərabdan fərqli olaraq)* ***ondan başları ağrımaz və keflənməzlər.*** *(O cavan xidmətçilər Cənnətdə olanların)* ***bəyənib seçdikləri meyvələr və istədikləri hər cür quş əti ilə*** *(onların dövrəsində fırlanacaqlar)"* *(əl-Vaqiə, 17-21).*

﴿وَبَشِّرِ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أَنَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ كُلَّمَا رُزِقُوا مِنْهَا مِنْ ثَمَرَةٍ رِزْقًا قَالُوا هَذَا الَّذِي رُزِقْنَا مِنْ قَبْلُ وَأُتُوا بِهِ مُتَشَابِهًا وَلَهُمْ فِيهَا أَزْوَاجٌ مُطَهَّرَةٌ وَهُمْ فِيهَا خَالِدُونَ﴾

"*(Ya Peyğəmbər!)* ***İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün*** *(ağacları)* ***altından çaylar axan cənnətlər*** *(bağlar)* ***vardır.*** *(O cənnətlərin)* ***meyvələrindən bir ruzi yedikləri zaman: "Bu bizim əvvəlcə*** *(dünya evində)* ***yediyimiz ruzidir"- deyəcəklər. Əslində isə bu*** *(ruzi, meyvələr)* ***onlara*** *(dünyadakılara zahirən)* ***bənzər olaraq verilmişdir. Onlardan ötrü orada*** *(hər cəhətdən)* ***pak*** *(olan)* ***zövcələr də var. Onlar*** *(möminlər)* ***orada əbədi qalacaqlar"*** *(əl-Bəqərə, 25).*

﴿مَثَلُ الْجَنَّةِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ أُكُلُهَا دَائِمٌ وَظِلُّهَا تِلْكَ

﴿عُقْبَى الَّذِينَ اتَّقَوْا وَعُقْبَى الْكَافِرِينَ النَّارُ﴾

"Allahdan qorxub pis əməllərdən çəkinənlərə *(möminlərə)* ***vəd edilən Cənnətin vəsfi belədir:*** *(ağacları)* ***altından çaylar axar, yeməkləri də, kölgələri də daimidir. Bu, Allahdan qorxub pis əməllərdən çəkinənlərin aqibətidir. Kafirlərin aqibəti isə Cəhənnəmdir!"*** *(ər-Rəd, 35).*

﴿مَثَلُ الْجَنَّةِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ فِيهَا أَنْهَارٌ مِنْ مَاءٍ غَيْرِ آسِنٍ وَأَنْهَارٌ مِنْ لَبَنٍ لَمْ يَتَغَيَّرْ طَعْمُهُ وَأَنْهَارٌ مِنْ خَمْرٍ لَذَّةٍ لِلشَّارِبِينَ وَأَنْهَارٌ مِنْ عَسَلٍ مُصَفًّى وَلَهُمْ فِيهَا مِنْ كُلِّ الثَّمَرَاتِ وَمَغْفِرَةٌ مِنْ رَبِّهِمْ كَمَنْ هُوَ خَالِدٌ فِي النَّارِ وَسُقُوا مَاءً حَمِيمًا فَقَطَّعَ أَمْعَاءَهُمْ﴾

"Müttəqilərə *(qoxumayan)* ***vəd olunan Cənnətin vəsfi belədir: orada dadı dəyişməyən sudan irmaqlar, təmi çönməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan nəhrlər və təmiz baldan irmaqlar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən*** *(günahlardan)* ***bağışlanma gözləyir.*** *(Məgər bu cənnətdə olanlar)* ***cəhənnəm odunda əbədi qalıb bağırsaqları parça-parça edən qaynar su içirdiləcək kəslər kimi ola bilərlərmi?!"*** *(Muhəmməd, 15).*

﴿إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِنْ كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُورًا ۞ عَيْنًا يَشْرَبُ بِهَا عِبَادُ اللَّهِ يُفَجِّرُونَهَا تَفْجِيرًا﴾

"Şübhəsiz ki, yaxşı əməl və itaət sahibləri *(Cənnətdə)* ***kafur qatılmış*** *(şərabla dolu)* ***qədəhdən içəcəklər. O*** *(kafur)* ***elə bir çeşmədir ki, Allahın bəndələri ondan içəcək və onu*** *(istədikləri yerə)* ***asanlıqla axıdacaqlar"***
(əl-İnsan, 5-6).

﴿وَيُسْقَوْنَ فِيهَا كَأْسًا كَانَ مِزَاجُهَا زَنْجَبِيلًا ۞ عَيْنًا فِيهَا تُسَمَّى سَلْسَبِيلًا﴾

"Orada onlara zəncəfil qatılmış *(zəncəfil dadı verən cənnət şərabı ilə dolu)* ***badə də içirdiləcəkdir.*** *(Zəncəfil)* ***orada*** *(Cənnətdə)* ***bir çeşmədir ki,*** *(suyu boğazdan çox rahat keçdiyi üçün)* ***Səlsəbil adlanır"*** *(əl-İnsan, 17-18).*

﴿يُسْقَوْنَ مِنْ رَحِيقٍ مَخْتُومٍ ۞ خِتَامُهُ مِسْكٌ وَفِي ذَلِكَ فَلْيَتَنَافَسِ الْمُتَنَافِسُونَ ۞ وَمِزَاجُهُ مِنْ تَسْنِيمٍ ۞ عَيْنًا يَشْرَبُ بِهَا الْمُقَرَّبُونَ﴾

"Onlara *(gözəl ətirli, təmiz)* ***möhürlü*** *(qablarda olan)* ***şərab*** *(rəhiq)* ***içirdiləcəkdir. Onun*** *(içində rəhiq olan qabın)* ***möhürü müşkdür. Qoy yarışanlar onun üçün yarışsınlar! Ona təsnim*** *(suyu)* ***qatılmışdır. O***

(təsnim) ***elə bir çeşmədir ki, ondan*** *(təmiz halda)* ***yalnız*** *(Allaha)* ***yaxın olanlar içər*** *(qalanlara isə o rəhiq şərabına qatılıb verirlər)"* *(əl-Mutaffifin, 25-28).*

﴿إِنَّ الْمُتَّقِينَ فِي ظِلَالٍ وَعُيُونٍ ۞ وَفَوَاكِهَ مِمَّا يَشْتَهُونَ﴾

"Həqiqətən, *(o gün)* ***müttəqilər kölgəliklərdə və çeşmələr başında, istədikləri meyvə içində olacaqlar!"*** *(əl-Mursəlat, 41-42).*

﴿وَدَانِيَةً عَلَيْهِمْ ظِلَالُهَا ۞ وَذُلِّلَتْ قُطُوفُهَا تَذْلِيلًا﴾

"*(Cənnət ağaclarının)* ***kölgələri üstlərinə düşəcək, meyvələri də onların ixtiyarında olacaqdır*** *(istədikləri yerdə, istədikləri zaman onları dərib yeyə biləcəklər)"* *(əl-İnsan, 14).*

﴿لَكِنِ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ لَهُمْ غُرَفٌ مِنْ فَوْقِهَا غُرَفٌ مَبْنِيَّةٌ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ وَعْدَ اللَّهِ لَا يُخْلِفُ اللَّهُ الْمِيعَادَ﴾

"Lakin Rəbbindən qorxanları *(Cənnətdə)* ***bir-birinin üstündə tikilmiş otaqlar gözləyir. Onların altından çaylar axar. Bu, Allahın vədidir. Allah vədə xilaf çıxmaz!"*** *(əz-Zumər, 20).*

﴿هُمْ وَأَزْوَاجُهُمْ فِي ظِلَالٍ عَلَى الْأَرَائِكِ مُتَّكِئُونَ﴾

"Onlar *(mömin kişilər)* ***və zövcələri kölgəliklərdə*** *(yumşaq)* ***taxtlara söykənmişlər"*** *(Yasin, 56).*

﴿مُتَّكِئِينَ عَلَى سُرُرٍ مَصْفُوفَةٍ وَزَوَّجْنَاهُمْ بِحُورٍ عِينٍ﴾

"Səf-səf düzülmüş taxtlara söykəndiyiniz halda!" Biz onları iri *(ahu)* ***gözlü hurilərlə evləndirəcəyik"*** *(ət-Tur, 20).*

﴿إِنَّا أَنْشَأْنَاهُنَّ إِنْشَاءً ۞ فَجَعَلْنَاهُنَّ أَبْكَارًا ۞ عُرُبًا أَتْرَابًا﴾

"Biz Cənnətdəki qadınları yeni biçimdə yaradacağıq. Onları bakirə qızlar edəcəyik – ərlərini sevən, həmyaşıdlar" *(əl-Vaqiə, 35-37).*

﴿وَحُورٌ عِينٌ ۞ كَأَمْثَالِ اللُّؤْلُؤِ الْمَكْنُونِ﴾

"(Onlar üçün orada) ***iri*** *(ahu)* ***gözlü, qəşəng hurilər də vardır.*** *(O hurilər rəng və gözəllikcə)* ***sanki sədəf içində gizlənmiş*** *(qorunub-saxlanmış)* ***incidirlər"*** *(əl-Vaqiə, 22-23).*

﴿جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا يُحَلَّوْنَ فِيهَا مِنْ أَسَاوِرَ مِنْ ذَهَبٍ وَلُؤْلُؤًا وَلِبَاسُهُمْ فِيهَا حَرِيرٌ﴾

"Onlar Ədn cənnətlərinə daxil olacaq, orada altun bilərziklər və incilərlə bəzənəcəklər. Libasları da ipəkdən olacaqdır" *(Fatir, 33).*

﴿عَالِيَهُمْ ثِيَابُ سُنْدُسٍ خُضْرٌ وَإِسْتَبْرَقٌ وَحُلُّوا أَسَاوِرَ مِنْ فِضَّةٍ وَسَقَاهُمْ رَبُّهُمْ شَرَابًا طَهُورًا﴾

"(Cənnət əhlinin) ***əyinlərində taftadan və atlazdan*** *(nazik və qalın ipəkdən)* ***yaşıl libaslar olacaq, onlara gümüşdən bilərziklər taxılacaqdır. Rəbbi onlara çox pak bir şərab içirdəcəkdir"*** *(əl-İnsan, 21)*

﴿فِيهَا سُرُرٌ مَرْفُوعَةٌ ۞ وَأَكْوَابٌ مَوْضُوعَةٌ ۞ وَنَمَارِقُ مَصْفُوفَةٌ ۞ وَزَرَابِيُّ مَبْثُوثَةٌ﴾

"Orada uca taxtlar; *(Çeşmələr kənarında)* ***piyalələr; Bir-birinin yanına düzülmüş*** *(yumşaq)* ***balışlar və döşənmiş*** *(nəfis)* ***xalılar vardır!"*** *(əl-Ğaşıyə, 13-16).*

﴿عَلَى سُرُرٍ مَوْضُونَةٍ ۞ مُتَّكِئِينَ عَلَيْهَا مُتَقَابِلِينَ﴾

"(Onlar qızıl-gümüş, ləl-cavahiratla) ***bəzənmiş taxtlar üstündə qərar tutacaq, onlara*** *(o taxtlara)* ***söykənib bir-biri ilə qarşı-qarşıya əyləşəcəklər"*** *(əl-Vaqiə, 15-16).*

CƏNNƏTİN VƏSFİNƏ DAİR BƏZİ HƏDİS VƏ ƏSƏRLƏR

CƏNNƏT PADŞAHLARIN MƏSKƏNİDİR

١٠٨٤ - عَنْ أَبِي سَعِيدٍ ﷺ قَالَ: «خَلَقَ اللهُ تَبَارَكَ وَتَعَالَى الْجَنَّة، لَبِنَة مِنْ ذَهَب وَلَبِنَة مِنْ فِضَّة، وَغَرَسَهَا، وَقَالَ لَهَا: تَكَلَّمِي فَقَالَتْ: ﴿**قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ**﴾. فَدَخَلَتْهَا الْمَلَائِكَة، فَقَالَت طُوبَاكِ مَنْزِل الْمُلُوكِ».

1084. Əbu Səid ﷺ demişdir: "Uca Allah Cənnəti bir kərpic qızıldan, bir kərpic gümüşdən yaratdı, orada bitkilər saldı və ona buyurdu: "Danış!" Cənnət dedi: ***"Möminlər, həqiqətən də, nicat tapmışlar"*** *(əl-Muminun, 1).*

Mələklər də ora daxil olub dedilər: “Xoş olsun sənin halına, ey padşahların məskəni!”[1449]

İSTƏYƏNDƏ FİRDOVS CƏNNƏTİNİ İSTƏYİN

١٠٨٥ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «مَنْ آمَنَ بِاللَّهِ وَبِرَسُولِهِ وَأَقَامَ الصَّلاَةَ وَصَامَ رَمَضَانَ، كَانَ حَقًّا عَلَى اللَّهِ أَنْ يُدْخِلَهُ الْجَنَّةَ جَاهَدَ فِى سَبِيلِ اللَّهِ، أَوْ جَلَسَ فِى أَرْضِهِ الَّتِى وُلِدَ فِيهَا». فَقَالُوا يَا رَسُولَ اللَّهِ أَفَلاَ نُبَشِّرُ النَّاسَ. قَالَ: «إِنَّ فِى الْجَنَّةِ مِائَةَ دَرَجَةٍ أَعَدَّهَا اللَّهُ لِلْمُجَاهِدِينَ فِى سَبِيلِ اللَّهِ، مَا بَيْنَ الدَّرَجَتَيْنِ كَمَا بَيْنَ السَّمَاءِ وَالأَرْضِ، فَإِذَا سَأَلْتُمُ اللَّهَ فَاسْأَلُوهُ الْفِرْدَوْسَ، فَإِنَّهُ أَوْسَطُ الْجَنَّةِ وَأَعْلَى الْجَنَّةِ، فَوْقَهُ عَرْشُ الرَّحْمَنِ، وَمِنْهُ تَفَجَّرُ أَنْهَارُ الْجَنَّةِ».

1085. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Kim Allaha və Onun Elçisinə iman gətirir, namaz qılır və Ramazan orucunu tutursa, (bundan sonra) istər Allah yolunda cihad etsin, istərsə də doğulduğu diyarda qalsın, Allah onu Cənnətə daxil etməyi Özünə vacib bilmişdir”. (Səhabələr) dedilər: “Ey Allahın Elçisi, insanları müjdələməyəkmi?” Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: “Cənnətdə Allahın, Onun yolunda cihad edənlər üçün hazırladığı yüz mərtəbə vardır. (Bu mərtəbələrdən) hər iki mərtəbə arasındakı məsafə yerlə göy arasında olan məsafəyə bərabərdir. Allahdan (nə isə) dilədiyiniz zaman Firdovs cənnətini diləyin! Çünki Firdovs, Cənnətin tam ortası və ən yüksək mərtəbəsidir. Onun üstündə isə ər-Rahmənin Ərşi yerləşir. Cənnət çayları oradan qaynayıb axır”.[1450]

CƏNNƏTƏ DAXİL OLANLAR ARASINDA DƏRƏCƏ FƏRQİ VARDIR

١٠٨٦ - عَنْ أَبِى سَعِيدٍ الْخُدْرِىِّ ﷺ عَنِ النَّبِىِّ ﷺ قَالَ: «إِنَّ أَهْلَ الْجَنَّةِ يَتَرَاءَوْنَ أَهْلَ الْغُرَفِ مِنْ فَوْقِهِمْ كَمَا يَتَرَاءَوْنَ الْكَوْكَبَ الدُّرِّىَّ الْغَابِرَ فِى الأُفُقِ مِنَ الْمَشْرِقِ أَوِ الْمَغْرِبِ، لِتَفَاضُلِ مَا بَيْنَهُمْ». قَالُوا يَا رَسُولَ اللَّهِ، تِلْكَ مَنَازِلُ الأَنْبِيَاءِ لاَ يَبْلُغُهَا غَيْرُهُمْ قَالَ: «بَلَى وَالَّذِى نَفْسِى بِيَدِهِ، رِجَالٌ آمَنُوا بِاللَّهِ وَصَدَّقُوا الْمُرْسَلِينَ».

1086. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Cənnət sakinləri, bir-birilərindən üstün olduqları üçün (onların alt mərtəbədə olanları) üst mərtəbədəki otaqlarda yerləşmiş möminləri, şərq və ya qərb istiqamətində axıb gedən parlaq ulduzu seyr etdik-

[1449] əl-Heysəmi “Kəşful-Əstər an Zəvaidil-Bəzzar” 3507. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 2662) və “Sahihut-Tərğib vət-Tərhib”də (№ 3714) səhih olduğunu bildirmişdir.
[1450] əl-Buxari, 2790.

ləri kimi seyr edəcəklər". (Səhabələr) dedilər: "Ey Allahın Elçisi, yəqin ki, bu peyğəmbərlərə ayrılmış yerdir və onlardan başqa heç kəs orada sakin ola bilməyəcək". Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Xeyr, canım Əlində olan Allaha and olsun ki, (bu otaqlar) Allaha iman gətirmiş və peyğəmbərləri təsdiq edən kimsələr üçündür".[1451]

ALLAH ELÇİSİNİN SALLƏLLAHU ALEYHI VƏ SƏLLƏM HOVUZU

١٠٨٧ - حَدَّثَنَا سُوَيْدُ بْنُ سَعِيدٍ وَابْنُ أَبِي عُمَرَ، جَمِيعًا عَنْ مَرْوَانَ الْفَزَارِيِّ، قَالَ ابْنُ أَبِي عُمَرَ: حَدَّثَنَا مَرْوَانُ، عَنْ أَبِي مَالِكٍ الأَشْجَعِيِّ سَعْدِ بْنِ طَارِقٍ، عَنْ أَبِي حَازِمٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّ حَوْضِي أَبْعَدُ مِنْ أَيْلَةَ مِنْ عَدَنٍ، لَهُوَ أَشَدُّ بَيَاضًا مِنَ الثَّلْجِ، وَأَحْلَى مِنَ الْعَسَلِ بِاللَّبَنِ، وَلآنِيَتُهُ أَكْثَرُ مِنْ عَدَدِ النُّجُومِ، وَإِنِّي لأَصُدُّ النَّاسَ عَنْهُ كَمَا يَصُدُّ الرَّجُلُ إِبِلَ النَّاسِ عَنْ حَوْضِهِ» قَالُوا: يَا رَسُولَ اللَّهِ! أَتَعْرِفُنَا يَوْمَئِذٍ؟ قَالَ: «نَعَمْ، لَكُمْ سِيمَا لَيْسَتْ لأَحَدٍ مِنَ الأُمَمِ، تَرِدُونَ عَلَيَّ غُرًّا مُحَجَّلِينَ مِنْ أَثَرِ الْوُضُوءِ».

1087. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: "Mənim hovuzumun (iki tərəfi arasındakı məsafə) Əylə[1452] ilə Ədən[1453] arasındakı məsafədən daha uzaqdır. Onun suyu qardan ağ və südlə qatışdırılmış baldan daha şirindir. (Ətrafına düzülmüş) qədəhlər ulduzların sayından daha çoxdur. Bir adam insanların dəvələrini hovuzunun yanına buraxmadığı kimi, mən də (yad) adamları hovuzumun yanına buraxmayacağam". (Səhabələr) dedilər: "Ey Allahın Elçisi! O gün sən bizi tanıyacaqsan?" Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Bəli! Sizin başqa ümmətlərdən heç birində olmayan bir əlamətiniz vardır. Siz mənim yanıma dəstəmaz aldığınız əzalarınız nurlu olaraq gələcəksiniz".[1454]

CƏNNƏT ÇADIRLARI VƏ İKİ CƏNNƏT

١٠٨٨ - عَنْ عَبْدِ اللَّهِ بْنِ قَيْسٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: إِنَّ فِي الْجَنَّةِ خَيْمَةً مِنْ لُؤْلُؤَةٍ مُجَوَّفَةٍ عَرْضُهَا سِتُّونَ مِيلاً فِي كُلِّ زَاوِيَةٍ مِنْهَا أَهْلٌ مَا يَرَوْنَ الآخَرِينَ يَطُوفُ عَلَيْهِمْ الْمُؤْمِنُونَ وَجَنَّتَانِ مِنْ فِضَّةٍ آنِيَتُهُمَا وَمَا فِيهِمَا وَجَنَّتَانِ مِنْ كَذَا آنِيَتُهُمَا وَمَا فِيهِمَا وَمَا بَيْنَ الْقَوْمِ وَبَيْنَ أَنْ يَنْظُرُوا إِلَى رَبِّهِمْ إِلاَّ رِدَاءُ الْكِبْرِ عَلَى وَجْهِهِ فِي جَنَّةِ عَدْنٍ.

1088. Abdullah ibn Qeys ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və

1451 əl-Buxari, 3256; Muslim, 7322.

1452 Əylə - Şamda, dənizin sahilində yerləşən bir şəhərdir.

1453 Ədən - dəniz sahili ilə Yəmənin axırında Hindistana yaxın yerdə yerləşir.

1454 Muslim, 581.

səlləm demişdir: “Cənnətdə eni altmış milə bərabər, içi boş mirvarilərdən hazırlanmış çadırlar vardır. Onun hər küncündə bir-birilərini görməyən zövcələr vardır ki, möminlər vaxtaşırı onların yanına girəcəklər. İki Cənnət vardır ki, onların içindəki qab-qacaqlar və başqa əşyalar gümüşdəndir. Digər iki Cənnət də vardır ki, onların içindəki qab-qacaqlar və başqa əşyalar qızıldandır. Əzəmət pərdəsindən başqa heç bir şey Ədn Cənnətində olan kimsələrə Rəbbinin Üzünü görməyə maneə olmayacaq”.[1455]

İÇİ ÇÖLÜNDƏN, ÇÖLÜ İÇİNDƏN GÖRÜNƏN OTAQLAR

١٠٨٩ - عَنْ عَلِيٍّ ﷺ قَالَ قَالَ النَّبِيُّ ﷺ «إِنَّ فِى الْجَنَّةِ غُرَفًا تُرَى ظُهُورُهَا مِنْ بُطُونِهَا وَبُطُونُهَا مِنْ ظُهُورِهَا». فَقَامَ أَعْرَابِيٌّ فَقَالَ لِمَنْ هِىَ يَا رَسُولَ اللَّهِ قَالَ «لِمَنْ أَطَابَ الْكَلاَمَ وَأَطْعَمَ الطَّعَامَ وَأَدَامَ الصِّيَامَ وَصَلَّى لِلَّهِ بِاللَّيْلِ وَالنَّاسُ نِيَامٌ».

1089. Əli ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Cənnətdə içərisindən çölü, çölündən içərisi görünən otaqlar vardır”. Bir bədəvi ayağa durub dedi: “O otaqlar kimin üçündür, ey Allahın Elçisi?” Allah Elçisi ﷺ buyurdu: “Xoş söz söyləyən, yemək yedirdən, nafilə oruclara davam edən, insanlar yatarkən gecə namaz qılan kimsələr üçündür”.[1456]

CƏNNƏT ƏHLİ ÖLMƏYƏCƏK

١٠٩٠ - عن جابر بن عبد الله رضي الله عنهما قال: قال رسول الله ﷺ: النَّوْمُ أَخُو المَوْتِ، وَلاَ يَمُوتُ أَهْلُ الْجَنَّةِ

1090. Cabir ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Yuxu ölümün qardaşıdır, Cənnət əhli isə ölməyəcək”.[1457]

CƏNNƏT QAPILARI

١٠٩١ - عَنْ عَبْدِ اللهِ بْنِ سَلاَم ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَنْتُمْ مَوَفونَ سَبْعِينَ أُمَّة أَنْتُمْ خَيْرها وَأَكْرَمُهَا عَلَى اللهِ ﷻ، وَمَا بَينَ مُصْرَاعَينِ مِنْ مَصَارِيع الْجَنَّة مَسِيرَةُ أَرْبَعِينَ عَاماً، وَلَيَأْتِيَنَّ عَلَيْهِ يَومٌ وَإِنَّهُ لَكَظِيظٌ».

1091. Abdullah ibn Səlam ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: “Siz yetmiş ümməti tamamlayacaqsınız. Siz Allaha ﷻ

[1455] əl-Buxari, 4879.

[1456] ət-Tirmizi, 1984, 2112. əl-Albani bu hədisin həsən olduğunu bildirmişdir.

[1457] əl-Heysəmi “Məcməuz-Zəvaid” 10/410,415, İbn Kəsir 4/ 158. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 6808) səhih olduğunu bildirmişdir.

onlardan[1458] daha xeyirli və hörmətli olanlarsınız. Cənnət qapılarının iki tayı arasındakı məsafə qırx illik yola bərabərdir. Gün gələcək ki, (ora insanlarla) dolu olacaq".[1459]

CƏNƏTƏ DAXİL OLANLARA İLK TÖHFƏ

١٠٩٢ - أَنَّ ثَوْبَانَ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ حَدَّثَهُ قَالَ: كُنْتُ قَائِمًا عِنْدَ رَسُولِ اللَّهِ ﷺ، فَجَاءَ حِبْرٌ مِنْ أَحْبَارِ الْيَهُودِ فَقَالَ: السَّلاَمُ عَلَيْكَ يَا مُحَمَّدُ! فَدَفَعْتُهُ دَفْعَةً كَادَ يُصْرَعُ مِنْهَا. فَقَالَ: لِمَ تَدْفَعُنِي؟ فَقُلْتُ: أَلاَ تَقُولُ يَا رَسُولَ اللَّهِ؟ فَقَالَ الْيَهُودِيُّ: إِنَّمَا نَدْعُوهُ بِاسْمِهِ الَّذِي سَمَّاهُ بِهِ أَهْلُهُ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ اسْمِي مُحَمَّدٌ الَّذِي سَمَّانِي بِهِ أَهْلِي» فَقَالَ الْيَهُودِيُّ: جِئْتُ أَسْأَلُكَ، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ: «أَيَنْفَعُكَ شَيْءٌ إِنْ حَدَّثْتُكَ؟» قَالَ: أَسْمَعُ بِأُذُنَيَّ، فَنَكَتَ رَسُولُ اللَّهِ ﷺ بِعُودٍ مَعَهُ، فَقَالَ: «سَلْ» فَقَالَ الْيَهُودِيُّ: أَيْنَ يَكُونُ النَّاسُ يَوْمَ تُبَدَّلُ الأَرْضُ غَيْرَ الأَرْضِ وَالسَّمَوَاتُ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «هُمْ فِي الظُّلْمَةِ دُونَ الْجِسْرِ» قَالَ: فَمَنْ أَوَّلُ النَّاسِ إِجَازَةً؟ قَالَ: «فُقَرَاءُ الْمُهَاجِرِينَ» قَالَ الْيَهُودِيُّ: فَمَا تُحْفَتُهُمْ حِينَ يَدْخُلُونَ الْجَنَّةَ؟ قَالَ: «زِيَادَةُ كَبِدِ النُّونِ» قَالَ: فَمَا غِذَاؤُهُمْ عَلَى إِثْرِهَا؟ قَالَ: «يُنْحَرُ لَهُمْ ثَوْرُ الْجَنَّةِ الَّذِي كَانَ يَأْكُلُ مِنْ أَطْرَافِهَا» قَالَ: فَمَا شَرَابُهُمْ عَلَيْهِ؟ قَالَ: «مِنْ عَيْنٍ فِيهَا تُسَمَّى سَلْسَبِيلاً» قَالَ: صَدَقْتَ، قَالَ: وَجِئْتُ أَسْأَلُكَ عَنْ شَيْءٍ لاَ يَعْلَمُهُ أَحَدٌ مِنْ أَهْلِ الأَرْضِ، إِلاَّ نَبِيٌّ أَوْ رَجُلٌ أَوْ رَجُلاَنِ. قَالَ: «يَنْفَعُكَ إِنْ حَدَّثْتُكَ؟» قَالَ: أَسْمَعُ بِأُذُنَيَّ. قَالَ جِئْتُ أَسْأَلُكَ عَنْ الْوَلَدِ؟ قَالَ: «مَاءُ الرَّجُلِ أَبْيَضُ وَمَاءُ الْمَرْأَةِ أَصْفَرُ، فَإِذَا اجْتَمَعَا، فَعَلاَ مَنِيُّ الرَّجُلِ مَنِيَّ الْمَرْأَةِ، أَذْكَرَا بِإِذْنِ اللَّهِ، وَإِذَا عَلاَ مَنِيُّ الْمَرْأَةِ مَنِيَّ الرَّجُلِ، آنَثَا بِإِذْنِ اللَّهِ» قَالَ الْيَهُودِيُّ: لَقَدْ صَدَقْتَ، وَإِنَّكَ لَنَبِيٌّ، ثُمَّ انْصَرَفَ فَذَهَبَ. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «لَقَدْ سَأَلَنِي هَذَا عَنْ الَّذِي سَأَلَنِي عَنْهُ، وَمَا لِي عِلْمٌ بِشَيْءٍ مِنْهُ، حَتَّى أَتَانِيَ اللَّهُ بِهِ».

1092. Allah Elçisinin salləllahu aleyhi və səlləm azad etdiyi köləsi Səubən ﷺ demişdir: "Mən Allah Elçisinin salləllahu aleyhi və səlləm yanında durmuşdum. Bu vaxt yəhudilərin baş keşişlərindən biri gəlib dedi: "Sənə salam olsun, ey Muhəmməd!" Onda mən onu itələdim və o, az qaldı ki yıxıla. Yəhudi: "Niyə məni itələyirsən?"– dedi. Dedim: "Sən niyə "ey Allahın elçisi" demirsən?" Yəhudi: "Biz onu ancaq ailəsinin ona qoyduğu adla çağırırıq"– dedi. Peyğəmbər salləllahu aleyhi və səlləm buyurdu: "Şübhəsiz ki, mənim adım, ailəmin mənə verdiyi Muhəmməddir". Yəhudi dedi: "Sənə (bir neçə) sual vermək üçün gəlmişəm". Peyğəmbər salləllahu aleyhi və səlləm ona belə buyurdu: "Məgər mənim dediklərimin sənə bir faydası olacaqmı?" (Yəhudi) dedi: "Bu qulaqlarımla səni dinləyəcəyəm!" Peyğəmbər salləllahu aleyhi və səlləm əlindəki ağacı yerə vura-vura: "Soruş!"– deyə buyurdu. Yəhudi dedi: "Yer başqa bir yerlə, göylər də (başqa göylərlə) əvəz olunacağı gün insanlar harada olacaqlar?" Peyğəmbər salləllahu aleyhi və səlləm dedi: "Onlar (qıl)

[1458] Yəni, bu ümmətlərdən.

[1459] Abd ibn Humeyd, 411; Əhməd, 20037. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.

körpüsünün qarşısında, zülmət içində olacaqlar". (Yəhudi) soruşdu: "İnsanlardan onu ilk əvvəl kimlər keçəcək?" (Peyğəmbər sallәllahu aleyhi və səlləm): "Kasıb mühacirlər!"– deyə cavab verdi. Yəhudi soruşdu: "Cənnətə daxil olduqda onların ilk töhfəsi nə olacaq?" (Peyğəmbər sallәllahu aleyhi və səlləm) buyurdu: "Balinanın qaraciyərinin (ən dadlı) yeri". (Yəhudi) soruşdu: "Bəs bunun ardınca onların yeməyi nə olacaq?" (Peyğəmbər sallәllahu aleyhi və səlləm) buyurdu: "Onlar üçün Cənnətin ətrafında otlayan Cənnət öküzü kəsiləcəkdir". (Yəhudi) soruşdu: "Bunun üstündən nə içəcəklər?" Peyğəmbər sallәllahu aleyhi və səlləm buyurdu: "(Onlar) Cənnətdəki Səlsəbil[1460] adlanan bir bulaqdan (içəcəklər)". (Yəhudi): "Doğru söylədin!"– deyə (onun dediklərini təsdiqlədi, sonra da sözünə davam edib) dedi: "Səndən yer əhlindən heç kəsin bilmədiyi, yalnız peyğəmbərin, yaxud bir-iki kişinin də bildiyi bir şey haqqında soruşmağa gəlmişəm". (Peyğəmbər sallәllahu aleyhi və səlləm) buyurdu: "Əcəba, mənim dediklərimin sənə bir faydası olacaqmı?" (Yəhudi) dedi: "Bu qulaqlarımla səni dinləyəcəyəm! Səndən uşağın (yaranışı) barəsində soruşmağa gəlmişəm". (Peyğəmbər sallәllahu aleyhi və səlləm) buyurdu: "Kişinin mənisi ağ rəngdə, qadınınkı isə sarı rəngdə olur. Bunlar birləşdiyi zaman kişinin mənisi qadının mənisini üstələsə, Allahın izini ilə dünyaya oğlan uşağı gətirərlər. Və əgər qadının mənisi kişininkini üstələsə, Allahın izini ilə dünyaya qız uşağı gətirərlər". Yəhudi: "Doğru söylədin. Sən, həqiqətən də, peyğəmbərsən"– dedi və çıxıb getdi. (O getdikdən sonra) Peyğəmbər sallәllahu aleyhi və səlləm buyurdu: "Bu adam məndən soruşduğunu soruşdu. Halbuki buna dair mənim heç bir bilgim yox idi. Nəhayət, bu haqda bilgini Allah mənə vəhy etdi".[1461]

CƏNNƏT ƏHLİNİN XARİCİ GÖRÜNÜŞÜ VƏ YAŞLARI

١٠٩٣ - عَنْ مُعَاذِ بْنِ جَبَلٍ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ «يَدْخُلُ أَهْلُ الْجَنَّةِ الْجَنَّةَ جُرْدًا مُرْدًا مُكَحَّلِينَ أَبْنَاءَ ثَلاَثِينَ أَوْ ثَلاَثٍ وَثَلاَثِينَ سَنَةً».

1093. Muaz ibn Cəbəl ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və səlləm demişdir: "Cənnət əhli bədən və üzləri tüksüz (saqqalsız), gözləri sürməli, otuz üç yaşında Cənnətə daxil olacaqlar".[1462]

[1460] Uca Allah buyurur: ***"Orada onlara zəncəfil qatılmış şərab badəsi içirdiləcək.*** *(Bu elə)* ***bir bulaqdandır ki,*** *(o, Cənnətdə)* ***Səlsəbil adlanır"*** *(əl-İnsan, 17-18).*

[1461] Muslim, 716, 742.

[1462] ət-Tirmizi, 2545, 2742. əl-Albani həsən olduğunu bildirmişdir.

١٠٩٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «أَهْلُ الْجَنَّةِ جُرْدٌ مُرْدٌ كُحْلٌ لاَ يَفْنَى شَبَابُهُمْ وَلاَ تَبْلَى ثِيَابُهُمْ».

1094. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Cənnət əhli tüksüz[1463], saqqalsız və gözləri sürməli olacaqlar. Onlar daim cavan qalacaqlar, libasları da köhnəlməyəcək".[1464]

١٠٩٥ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «مَنْ يَدْخُلُ الْجَنَّةَ يَنْعَمُ لاَ يَبْأَسُ لاَ تَبْلَى ثِيَابُهُ وَلاَ يَفْنَى شَبَابُهُ».

1095. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "Cənnətə girən nemət görər, kasıblıq görməz, paltarı köhnəlməz və gəncliyi tükənməz".[1465]

١٠٩٦ - أن الْمِقْدَامَ بن مَعْدِي كَرِب ﷺ حَدَّثَهُمْ، أَنّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَا مِنْ أَحَدٍ يَمُوتُ سِقْطًا وَلا هَرِمًا وَإِنَّمَا النَّاسُ فِيمَا بَيْنَ ذَلِكَ إلا بُعِثَ ابْنَ ثَلاثِينَ سَنَةً، فَمَنْ كَانَ مِنْ أَهْلِ الْجَنَّةِ كَانَ عَلَى مَسْحَةِ آدَمَ، وصُورَةِ يُوسُفَ، وَقَلْبِ أَيُّوبَ، وَمَنْ كَانَ مِنْ أَهْلِ النَّارِ عُظِّمُوا وَفُخِّمُوا كَالْجِبَالِ».

1096. Miqdam ibn Mədi Kərib ﷺ demişdir: "Bir dəfə Allah Elçisi sallәllahu aleyhi və sәlləm buyurdu: "Elə bir ölən döl və ya qoca yoxdur ki, - insanlar ancaq bu iki yaş arasında olurlar – öldükdən sonra otuz yaşında dirilməsin. Kim Cənnət əhlindəndirsə, Cənnətə Adəm boyda[1466], Yusuf surətində, qəlbləri Əyyubun qəlbitək daxil olacaqlar. Kim Cəhənnəm əhlindəndirsə, Cəhənnəmə dağ boyda böyüdülərək daxil olacaqlar".[1467]

١٠٩٧ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ وَأَبِي هُرَيْرَةَ عَنِ النَّبِيِّ ﷺ قَالَ «يُنَادِي مُنَادٍ إِنَّ لَكُمْ أَنْ تَصِحُّوا فَلاَ تَسْقَمُوا أَبَدًا وَإِنَّ لَكُمْ أَنْ تَحْيَوْا فَلاَ تَمُوتُوا أَبَدًا وَإِنَّ لَكُمْ أَنْ تَشِبُّوا فَلاَ تَهْرَمُوا أَبَدًا وَإِنَّ لَكُمْ أَنْ تَنْعَمُوا فَلاَ تَبْتَئِسُوا أَبَدًا». فَذَلِكَ قَوْلُهُ ﷻ **﴿وَنُودُوا أَنْ تِلْكُمُ الْجَنَّةُ أُورِثْتُمُوهَا بِمَا كُنْتُمْ تَعْمَلُونَ﴾**

[1463] Yəni bədənləri və üzlərində tük olmayacaq, başlarında isə tük olacaq.

[1464] ət-Tirmizi, 2539, 2735. əl-Albani həsən olduğunu bildirmişdir.

[1465] Muslim, 7335.

[1466] Adəmin ﷺ boyu haqda başqa rəvayətdə deyilir: "Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah Adəmi boyu altmış ərəş (Dirsəkdən barmaqların ucuna qədər uzunluqda olan qədim ölçü) uzunluğunda yaratdı. Sonra buyurdu: "Get oradakı mələklərə salam ver və dinlə gör sənin salamını necə alacaqlar. Çünki bu həm sənin, həm də sənin zürriyyətinin salamıdır". Adəm onlara: "Sizə salam olsun! (Əssəlamu aleykum!)"– dedi. Onlar da: "Sənə salam olsun və Allahın rəhməti yetişsin! (Əssəlamu aleykə və rahmətullah!)"– deyib, buna "və Allahın rəhməti yetişsin" kəlməsini əlavə etdilər. Cənnətə girəcək hər kəs ora Adəmin surətində girəcəkdir. (Məlumunuz olsun ki,) indiyə qədər insanların xilqəti naqisləşməkdədir" (əl-Buxari, 3326).

[1467] ət-Tabərani "Mucəmul-Kəbir" 663, 17053. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2512) həsən olduğunu bildirmişdir.

1097. Əbu Səid əl-Xudri və Əbu Hureyra ﵄ rəvayət edirlər ki, Peyğəmbər sallәllahu aleyhi və sәlləm demişdir: "(Cənnətdəkilər Cənnətə girdikdə) bir çarçı belə car çəkəcəkdir: "Siz sağlam olub, heç vaxt xəstələnməyəcəksiniz. Siz yaşayıb, heç vaxt ölməyəcəksiniz. Siz gənc qalıb, heç vaxt qocalmayacaqsınız. Siz nemət içində olub, heç vaxt kədər çəkməyəcəksiniz". Bu haqda Allah ﷻ belə buyurur: ***"Etdiyiniz əməllərə görə varisi olduğunuz Cənnət budur!"*** *(əl-Əraf, 43)*".[1468]

CƏNNƏT ƏHLİ NATƏMİZLİKDƏN UZAQDIRLAR

١٠٩٨ - عَنْ أَبِى هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «أَوَّلُ زُمْرَةٍ تَلِجُ الْجَنَّةَ صُورَتُهُمْ عَلَى صُورَةِ الْقَمَرِ لَيْلَةَ الْبَدْرِ، لاَ يَبْصُقُونَ (لاَ يَسْقَمُونَ) فِيهَا وَلاَ يَمْتَخِطُونَ وَلاَ يَتَغَوَّطُونَ، آنِيَتُهُمْ فِيهَا الذَّهَبُ، أَمْشَاطُهُمْ مِنَ الذَّهَبِ وَالْفِضَّةِ، وَمَجَامِرُهُمُ الأُلُوَّةُ، وَرَشْحُهُمُ الْمِسْكُ، وَلِكُلِّ وَاحِدٍ مِنْهُمْ زَوْجَتَانِ، يُرَى مُخُّ سُوقِهِمَا مِنْ وَرَاءِ اللَّحْمِ، مِنَ الْحُسْنِ، لاَ اخْتِلاَفَ بَيْنَهُمْ وَلاَ تَبَاغُضَ، قُلُوبُهُمْ قَلْبٌ وَاحِدٌ، يُسَبِّحُونَ اللَّهَ بُكْرَةً وَعَشِيًّا».

1098. Əbu Hureyra ﵁ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәlləm demişdir: "Cənnətə girəcək ilk zümrədə olan kimsələrin siması on dörd gecəlik ay kimi (gözəl və parlaq) olacaq. Cənnətdə onlar nə tüpürəcək, (nə xəstələnəcək[1469]), nə (burunlarından) selik ifraz edəcək, nə də təbii ehtiyaclarını rəf edəcəklər. (İşlətdikləri) qabları qızıldan, daraqları isə həm qızıldan, həm də gümüşdən olacaq. Buxurdanlarında[1470] ud[1471] (yandırılacaq). Onların tərindən müşk qoxusu gələcək. Onlardan hər birinin iki zövcəsi olacaq. Bu qızlar elə gözəl və elə zərif olacaqlar ki, dərilərinin altından ayaq sümüyünün iliyi görünəcək. (Cənnət əhlinin) arasında nə bir ixtilaf, nə də kin-küdurət olacaq. Özləri də canbir qəlb olacaqlar. Onlar səhər-axşam Allahın şəninə təriflər deyəcəklər".[1472]

١٠٩٩ - عَنْ جَابِرٍ ﵁ قَالَ سَمِعْتُ النَّبِىَّ ﷺ يَقُولُ «إِنَّ أَهْلَ الْجَنَّةِ يَأْكُلُونَ فِيهَا وَيَشْرَبُونَ وَلاَ يَتْفُلُونَ وَلاَ يَبُولُونَ وَلاَ يَتَغَوَّطُونَ وَلاَ يَمْتَخِطُونَ». قَالُوا فَمَا بَالُ الطَّعَامِ قَالَ «جُشَاءٌ وَرَشْحٌ كَرَشْحِ الْمِسْكِ يُلْهَمُونَ التَّسْبِيحَ وَالتَّحْمِيدَ كَمَا يُلْهَمُونَ النَّفَسَ».

[1468] Muslim, 7336.
[1469] əl-Buxari, 3246.
[1470] Buxur - yandırıldıqda ətir saçan qatran, ağac qabığı və s. Buxurdan isə içində buxur yandırılan kiçik qabdır.
[1471] Vətəni Hindistan sayılan, yandırılanda xoş iy verən ağac. Təbii ki, Cənnət udu bizim bildiyimiz uddan fərqli olacaq.
[1472] əl-Buxari, 3245.

1099. Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm belə dedi: "Cənnətin sakinləri orada yeyib-içərlər, lakin sidik və nəcis ifraz etməz, tüpürməzlər". Soruşdular: "Bəs onların yedikləri necə çıxacaq?" Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: "Gəyirmək və müşk qoxusu olan tər ilə. Nəfəs aldıqları kimi onlara (rahatlıqla) təsbih (Subhanallah) və təhmid (Əlhəmdulilləh) etməyə ilham veriləcək".[1473]

CƏNNƏT ƏHLİ OLAN KİŞİYƏ VERİLƏN GÜC

١١٠٠ - عَنْ أَنَسٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «يُعْطَى الْمُؤْمِنُ فِى الْجَنَّةِ قُوَّةَ كَذَا وَكَذَا مِنَ الْجِمَاعِ». قِيلَ يَا رَسُولَ اللَّهِ أَوَيُطِيقُ ذَلِكَ قَالَ «يُعْطَى قُوَّةَ مِائَةٍ».

1100. Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm buyurdu: "Cənnətdə yaxınlıq etmək üçün möminə bu qədər kişi qüvvəsi veriləcəkdir". Soruşdular: "Ey Allahın Elçisi, onun buna gücü çatacaq?" O buyurdu: "Ona yüz kişinin gücü veriləcəkdir".[1474]

١١٠١ - عَنْ زَيدِ بْنِ الأَرْقَمِ ﷺ قَالَ: أَتَى النَّبِيّ ﷺ رَجُلٌ مِنَ الْيَهُودِ فَقَالَ: يَا أَبَا الْقَاسِمِ! أَلَسْتَ تَزْعُمُ أَنَّ أَهْلَ الْجَنَّةِ يَأْكُلُونَ وَيَشْرَبُونَ فِيهَا؟ فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «وَالَّذِي نَفْسِي بِيَدِهِ! إِنَّ أَحَدَهُمْ لَيُعْطَى قُوَّةَ مِئَةِ رَجُلٍ، فِي الْمَطْعَمِ وَالْمَشْرَبِ وَالشَّهْوَةِ وَالْجِمَاعِ». فَقَالَ لَهُ الْيَهُودِيُّ: فَإِنَّ الَّذِي يَأْكُلُ وَيَشْرَبُ تَكُونُ لَه الْحَاجَة؟ فَقَالَ رَسُوْلُ اللهِ ﷺ: «حَاجَتُهُمْ عَرَقٌ يَفِيضُ مِنْ جُلُودِهِمْ مِثْل الْمِسكِ فَإِذَا الْبَطْنُ قَدْ ضَمُر».

1101. Zeyd ibn Ərqam ﷺ demişdir: "Bir yəhudi kişi Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib dedi: "Ey Əbul-Qasim, sən iddia edirsən ki, Cənnət əhli orada yeyib-içir?" Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Canım Əlində Olana and olsun ki, həqiqətən, onların hər birinə yeyib-içmək, şəhvət və (qadınla) yaxınlıq etmək üçün yüz kişi qüvvəsi veriləcək". Yəhudi ona dedi: "Həqiqətən, yeyib-içənin zəruri ehtiyacı vardır". Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Onların ehtiyacları müşk kimi dərilərindən çıxan tər olacaq. Bununla da qarınlarındakı həzm olacaq".[1475]

[1473] Muslim, 7331.

[1474] Tirmizi, 2536, 2732, əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[1475] İbn Hibban, 7381; Əhməd, 19288, 19484. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3739) səhih olduğunu bildirmişdir.

HURİLƏRİN VƏSFİ

١١٠٢ - عَنْ عَبْدِ اللَّهِ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «أَوَّلُ زُمْرَةٍ يَدْخُلُونَ الْجَنَّةَ كَأَنَّ وُجُوهَهُمْ ضَوْءُ الْقَمَرِ لَيْلَةَ الْبَدْرِ، وَالزُّمْرَةُ الثَّانِيَةُ عَلَى لَوْنِ أَحْسَنِ كَوْكَبٍ دُرِّيٍّ فِي السَّمَاءِ، لِكُلِّ رَجُلٍ مِنْهُمْ زَوْجَتَانِ مِنَ الْحُورِ الْعَيْنِ، عَلَى كُلِّ زَوْجَةٍ سَبْعُونَ حُلَّةً، يُرَى مُخُّ سُوقِهِمَا مِنْ وَرَاءِ لُحُومِهِمَا، وَحُلَلِهِمَا كَمَا يُرَى الشَّرَابُ الأَحْمَرُ فِي الزُّجَاجَةِ الْبَيْضَاءِ

1102. Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: “Cənnətə girəcək ilk zümrədəkilərin simaları on dörd gecəlik ay kimi (parlaq) olacaqdır. İkinci zümrədəkilərin rəngi isə səmadakı parlaq ulduzun rəngindən daha gözəl olacaq. Onlardan hər kişinin hurilərdən olan iki zövcəsi olacaq. Hər bir zövcənin üzərində yetmiş libas olacaq. Onların baldırının iliyi ətlərindən, paltarları isə ağ şüşədə olan qırmızı şərab göründüyü kimi görünəcək”.[1476]

١١٠٣ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ: «لَرَوْحَةٌ فِي سَبِيلِ اللَّهِ أَوْ غَدْوَةٌ خَيْرٌ مِنَ الدُّنْيَا وَمَا فِيهَا، وَلَقَابُ قَوْسِ أَحَدِكُمْ مِنَ الْجَنَّةِ أَوْ مَوْضِعُ قِيدٍ - يَعْنِي سَوْطَهُ - خَيْرٌ مِنَ الدُّنْيَا وَمَا فِيهَا، وَلَوْ أَنَّ امْرَأَةً مِنْ أَهْلِ الْجَنَّةِ اطَّلَعَتْ إِلَى أَهْلِ الأَرْضِ لأَضَاءَتْ مَا بَيْنَهُمَا وَلَمَلأَتْهُ رِيحًا، وَلَنَصِيفُهَا عَلَى رَأْسِهَا خَيْرٌ مِنَ الدُّنْيَا وَمَا فِيهَا».

1103. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm demişdir: “Allah yolunda səhər və ya axşam (döyüşə) getmək dünya və onun içindəkilərdən xeyirlidir. Birinizin Cənnətdəki ox boyda yeri (və ya qamçısını qoyduğu yer), dünya və onun içindəkilərdən xeyirlidir. Əgər Cənnət qadınlarından biri yer sakinlərinə görünsəydi, göylə yer arasında olan hər tərəfi işıqlandırar və (onun gözəl) iyi hər yanı bürüyərdi. Onun baş örtüyü isə dünya və onun içindəkilərdən xeyirlidir”.[1477]

CƏNNƏT QADINLARININ ƏRLƏRİ ÜÇÜN OXUDUQLARI MAHNILAR

١١٠٤ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: «إِنَّ فِي الْجَنَّةِ نَهْرًا طُولَ الْجَنَّةِ حَافَتَاهُ الْعَذَارَى قِيَام مُتَقَابِلاَت وَيُغَنِّين بِأَحسن أَصْوَات يَسْمَعُهَا الْخَلاَئِق حَتَّى مَا يَرَوْنَ أَنَّ فِي الْجَنَّةِ لَذَّةً مِثْلَهَا. قُلْنَا: يَا أَبَا هُرَيْرَةَ! وَمَا ذَاكَ الْغِنَاء؟ قَالَ: إِنْ شَاءَ اللهُ، التَّسْبِيحُ وَالتَّحْمِيدُ وَالتَّقْدِيسُ وَثْنَاءُ عَلَى الرَّبِّ ﷻ».

[1476] ət-Təbərani “Mucəmul-Kəbir” 2522, 10168, 10321. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 1736) səhih olduğunu bildirmişdir.

[1477] əl-Buxari, 2796.

1104. Əbu Hureyra ﷺ demişdir: "Həqiqətən, Cənnətdə Cənnət boyu axan bir çay var. Onun hər iki kənarında qarşı-qarşıya dayanmış, məxluqatın eşidə biləcəyi ən gözəl səslə mahnı oxuyan bakirə qızlar dayanmışlar. Onlar üçün Cənnətdə bundan (oxumaqdan) daha ləzzətli bir şey yoxdur". Biz dedik: "Ey Əbu Hureyra, o mahnılar nədir?" O dedi: "İnşə-Allah təsbih, təhmid, təqdis və Rəbbi ﷻ sənа etməkdir".[1478]

CƏNNƏT XİDMƏTÇİLƏRİ

١١٠٥ - عَنْ عَبْدِ اللهِ بن عَمْرٍو ﷺ قَالَ: «إِنَّ أَدْنَى أَهْلِ الْجَنَّةِ مَنْزِلا مَنْ يَسْعَى إِلَيهِ أَلف خَادِمٍ كُل خَادِمٍ عَلَى عَمَلٍ لَيسَ عَلَيهِ صَاحِبهُ»، قَالَ: وَتَلاَ هَذِهِ الآيَة: ﴿**إِذَا رَأَيْتَهُم حَسِبتَهُم لُؤْلُؤا مَنْثُورا**﴾.

1105. Abdullah ibn Amr ﷺ demişdir: "Cənnət əhlindən ən aşağı mərtəbəyə sahib olanın, xidmətində durmaq üçün min xidmətçisi olacaq. Hər xidmətçi həmkarının etmədiyi fərqli bir iş görəcək. ***"Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını sanarsan"*** *(əl-İnsan, 19)".*[1479]

CƏNNƏTDƏ AT VARDIRMI?

١١٠٦ - عَنْ أَبِي أَيُّوبَ ﷺ قَالَ: أَتَى أَعْرَابِيٌّ النَّبِيَّ ﷺ فَقَالَ: إِنِّي أُحِبُّ الْخَيْلَ، وَ هَلْ فِي الْجَنَّةِ خَيْلٌ؟ فَقَالَ: إِذَا دَخَلْتَ الْجَنَّةَ أُتِيتَ بِفَرَسٍ مِنْ يَاقُوتٍ لَهُ جَنَاحَانِ، فَحُمِلْتَ عَلَيْهِ فَطَارَ بِكَ فِي الْجَنَّةِ حَيْثُ شِئْتَ.

1106. Əbu Əyyub ﷺ demişdir: "Bir bədəvi Peyğəmbərin salləllahu aleyhi və səlləm yanına gəlib dedi: "Mən atları sevirəm, Cənnətdə at varmı?" O buyurdu: "Cənnətə daxil olsan, sənə iki qanadlı, yaqutdan olan at veriləcək. Onun üzərinə oturacaqsan, o da səni Cənnətdə istədiyin yerə aparacaq".[1480]

CƏNNƏT QUŞLARI

١١٠٧ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ سُئِلَ رَسُولُ اللَّهِ ﷺ مَا الْكَوْثَرُ قَالَ «ذَاكَ نَهْرٌ أَعْطَانِيهِ اللَّهُ يَعْنِى فِى الْجَنَّةِ أَشَدُّ بَيَاضًا مِنَ اللَّبَنِ وَأَحْلَى مِنَ الْعَسَلِ فِيهَا طَيْرٌ أَعْنَاقُهَا كَأَعْنَاقِ الْجُزُرِ». قَالَ عُمَرُ ﷺ إِنَّ هَذِهِ لَنَاعِمَةٌ. قَالَ رَسُولُ اللَّهِ ﷺ

[1478] əl-Beyhəqi "əl-Bəas vən-Nuşur" 374. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3751) səhih məvquf olduğunu bildirmişdir.

[1479] əl-Beyhəqi "əl-Bəas vən-Nuşur" 362. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3705) səhih olduğunu bildirmişdir.

[1480] ət-Tabərani "Mucəmul-Kəbir" 3968, 4075. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3755) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

«أَكَلَتُهَا أَنْعَمُ مِنْهَا».

1107. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisindən sallallahu aleyhi və səlləm Kövsərin nə olduğu barədə soruşdular. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "O, Allahın mənə Cənnətdə bəxş etdiyi bir çaydır, onun suyu süddən ağ və baldan şirindir. Orada boyunları dəvə boyunları kimi quşlar vardır". Ömər ﷺ dedi: "Şübhəsiz ki, bunlar yaraşıqlı quşlardır". Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Onları yeyənlər onlardan daha yaraşıqlıdırlar".[1481]

CƏNNƏTİN EVLƏRİ VƏ TORPAĞI

١١٠٨ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قُلْنَا يَا رَسُولَ اللَّهِ مَا لَنَا إِذَا كُنَّا عِنْدَكَ رَقَّتْ قُلُوبُنَا وَزَهِدْنَا فِى الدُّنْيَا وَكُنَّا مِنْ أَهْلِ الآخِرَةِ فَإِذَا خَرَجْنَا مِنْ عِنْدِكَ فَآنَسْنَا أَهَالِينَا وَشَمَمْنَا أَوْلاَدَنَا أَنْكَرْنَا أَنْفُسَنَا. فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «لَوْ أَنَّكُمْ تَكُونُونَ إِذَا خَرَجْتُمْ مِنْ عِنْدِى كُنْتُمْ عَلَى حَالِكُمْ ذَلِكَ لَزَارَتْكُمُ الْمَلاَئِكَةُ فِى بُيُوتِكُمْ وَلَوْ لَمْ تُذْنِبُوا لَجَاءَ اللَّهُ بِخَلْقٍ جَدِيدٍ كَىْ يُذْنِبُوا فَيَغْفِرَ لَهُمْ». قَالَ قُلْتُ يَا رَسُولَ اللَّهِ مِمَّ خُلِقَ الْخَلْقُ قَالَ «مِنَ الْمَاءِ». قُلْنَا الْجَنَّةُ مَا بِنَاؤُهَا قَالَ «لَبِنَةٌ مِنْ فِضَّةٍ وَلَبِنَةٌ مِنْ ذَهَبٍ وَمِلاَطُهَا الْمِسْكُ الأَذْفَرُ وَحَصْبَاؤُهَا اللُّؤْلُؤُ وَالْيَاقُوتُ وَتُرْبَتُهَا الزَّعْفَرَانُ مَنْ يَدْخُلُهَا يَنْعَمْ وَلاَ يَبْأَسْ وَيُخَلَّدْ وَلاَ يَمُوتُ لاَ تَبْلَى ثِيَابُهُمْ وَلاَ يَفْنَى شَبَابُهُمْ». ثُمَّ قَالَ «ثَلاَثَةٌ لاَ تُرَدُّ دَعْوَتُهُمُ الإِمَامُ الْعَادِلُ وَالصَّائِمُ حِينَ يُفْطِرُ وَدَعْوَةُ الْمَظْلُومِ يَرْفَعُهَا فَوْقَ الْغَمَامِ وَتُفَتَّحُ لَهَا أَبْوَابُ السَّمَاءِ وَيَقُولُ الرَّبُّ ﷻ وَعِزَّتِى لأَنْصُرَنَّكِ وَلَوْ بَعْدَ حِينٍ»

1108. Əbu Hureyra ﷺ demişdir: "Biz dedik: "Ey Allahın Elçisi! Bizə nə olur ki, sənin yanında olanda qəlblərimiz riqqətə gəlir, dünyadan təcrid olaraq Axirət yurdunun sakinlərindən oluruq? Sənin yanından çıxanda isə, başımız ailəmizə qarışır və övladlarımıza meyl edirik, sanki özümüzü inkar edirik". Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Əgər siz mənim yanımdan çıxanda bu cür vəziyyətdə olsaydınız, mələklər sizi evinizdə ziyarət edərdilər. Əgər siz günah etməsəydiniz, Allah (yerinizə) yeni məxluq gətirər, onlar günah edər, Allah da onları bağışlayardı". Mən soruşdum: "Ey Allahın Elçisi! Xilqət nədən yaradılıb?" O: "Sudan"- deyə cavab verdi. Biz soruşduq: "Bəs Cənnətdə olan evlər nədən düzəldilib?" O cavab verdi: "Bir kərpic gümüşdən, bir kərpic qızıldan. Onun (divarlarının) malası xoş ətirli müşkdəndir. Onun çınqılları mirvaridən və yaqutdan, torpağı isə zəfərandandır. Ora daxil olan nemət içində olar və əziyyət görməz, (orada) əbədi qalar və ölməz, libası köhnəlməz və qocalmaz". Sonra dedi: "Üç adamın duası rədd olunmaz; ədalətli rəhbərin, oruc tutanın iftar vaxtı etdiyi dua və

[1481] Tirmizi, 2542, 2738. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

zülmə məruz qalanın duası. Allah o duanı buludların üzərinə yüksəldir, səma qapıları onun üçün açılır və Rəbb ﷻ buyurur: "İzzətimə and olsun ki, bir müddət keçsə belə, Mən sənə mütləq kömək edəcəyəm".[1482]

١١٠٩ - عَنْ سَمُرَةَ بْنِ جُنْدَبٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ لَنَا: أَتَانِي اللَّيْلَةَ آتِيَانِ فَابْتَعَثَانِي فَانْتَهَيْنَا إِلَى مَدِينَةٍ مَبْنِيَّةٍ بِلَبِنِ ذَهَبٍ وَلَبِنِ فِضَّةٍ فَتَلَقَّانَا رِجَالٌ شَطْرٌ مِنْ خَلْقِهِمْ كَأَحْسَنِ مَا أَنْتَ رَاءٍ وَشَطْرٌ كَأَقْبَحِ مَا أَنْتَ رَاءٍ قَالاَ لَهُمْ اذْهَبُوا فَقَعُوا فِي ذَلِكَ النَّهْرِ فَوَقَعُوا فِيهِ ثُمَّ رَجَعُوا إِلَيْنَا قَدْ ذَهَبَ ذَلِكَ السُّوءُ عَنْهُمْ فَصَارُوا فِي أَحْسَنِ صُورَةٍ قَالاَ لِي هَذِهِ جَنَّةُ عَدْنٍ وَهَذَاكَ مَنْزِلُكَ قَالاَ أَمَّا الْقَوْمُ الَّذِينَ كَانُوا شَطْرٌ مِنْهُمْ حَسَنٌ وَشَطْرٌ مِنْهُمْ قَبِيحٌ فَإِنَّهُمْ خَلَطُوا عَمَلاً صَالِحًا وَآخَرَ سَيِّئًا تَجَاوَزَ اللَّهُ عَنْهُمْ.

1109. Səmura ibn Cundəb ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm bizə demişdir: "Bu gecə iki nəfər yanıma gəlib məni (binaları) qızıl və gümüş kərpiclərdən tikilmiş şəhərə apardılar. Orada bizi bədənlərinin yarısı gördüyün ən gözəl şəkildə, o biri yarısı isə gördüyün ən eybəcər şəkildə olan insanlar qarşıladı. O iki nəfər onlara: "Gedin, o çaya girin!"– dedilər. Onlar gedib çaya girdilər, sonra bizim yanımıza qayıtdılar. Belə-liklə, bu insanların eybəcərliyi yox oldu və onlar ən gözəl surəti aldılar". O iki nəfər mənə dedi: "Bu, Ədn cənnətidir, bura da sənin (əbədi) qalacağın yerdir. O ki qaldı yarıgözəl, yarıeybəcər adamlara, onlar yaxşı işləri pis əməllərlə qarışdıranlar idi. (Lakin) Allah onları bağışladı".[1483]

CƏNNƏTDƏ OLAN BAZAR

١١١٠ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ «إِنَّ فِي الْجَنَّةِ لَسُوقًا يَأْتُونَهَا كُلَّ جُمُعَةٍ فَتَهُبُّ رِيحُ الشَّمَالِ فَتَحْثُو فِي وُجُوهِهِمْ وَثِيَابِهِمْ فَيَزْدَادُونَ حُسْنًا وَجَمَالاً فَيَرْجِعُونَ إِلَى أَهْلِيهِمْ وَقَدِ ازْدَادُوا حُسْنًا وَجَمَالاً فَيَقُولُ لَهُمْ أَهْلُوهُمْ وَاللَّهِ لَقَدِ ازْدَدْتُمْ بَعْدَنَا حُسْنًا وَجَمَالاً. فَيَقُولُونَ وَأَنْتُمْ وَاللَّهِ لَقَدِ ازْدَدْتُمْ بَعْدَنَا حُسْنًا وَجَمَالاً».

1110. Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm dedi: "Həqiqətən, Cənnətdə hər Cümə (günü) gəldiyi (vaxt) bazar vardır. Orada insanların sifətlərinə və libaslarına vuran, onları daha da gözəlləşdirən şimal küləyi əsir. Onlar gözəllikləri artmış halda öz ailələrinə dönərlər. Onların ailələri (evdə qalanlar) onlara deyirlər: "Allaha and olsun ki, biz sizinlə vidalaşdıqdan sonra siz daha da gözəlləşmisiniz". Onlar isə

[1482] ət-Tirmizi, 2526, 2717. əl-Albani مم خلق الخلق "xilqət nədən yaradılıb" kəlməsi istisna olmaqla hədisin səhih olduğunu bildirmişdir.

[1483] əl-Buxari, 4674.

belə deyəcəklər: “Biz də, Allaha and olsun ki, sizdən ayrılandan sonra siz daha da gözəl olmusunuz”.[1484]

CƏNNƏT ƏHLİNİN LİBASLARI

١١١١ - قَالَ عَبْدُ اللَّهِ بْنُ عَمْرٍو ﷺ ابْتِدَاءً مِنْ نَفْسِهِ جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ يَا رَسُولَ اللَّهِ أَخْبِرْنَا عَنْ ثِيَابِ أَهْلِ الْجَنَّةِ خَلْقًا تُخْلَقُ أَمْ نَسْجًا تُنْسَجُ فَضَحِكَ بَعْضُ الْقَوْمِ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ «مِمَّ تَضْحَكُونَ مِنْ جَاهِلٍ يَسْأَلُ عَالِمًا» ثُمَّ أَكَبَّ رَسُولُ اللَّهِ ﷺ ثُمَّ قَالَ «أَيْنَ السَّائِلُ» قَالَ هُوَ ذَا أَنَا يَا رَسُولَ اللَّهِ قَالَ «لَا بَلْ تَشَقَّقُ عَنْهَا ثَمَرُ الْجَنَّةِ ثَلَاثَ مَرَّاتٍ» «...وَمَا طُوبَى؟ قَالَ: «شَجَرَةٌ فِي الْجَنَّةِ، مَسِيرَةُ مِائَةِ عَامٍ، ثِيَابُ أَهْلِ الْجَنَّةِ تَخْرُجُ مِنْ أَكْمَامِهَا».

1111. Abdullah ibn Amr ﷺ rəvayət edir ki, bir kişi Peyğəmbərin sallallahu aleyhi və səlləm yanına gəlib soruşdu: “Ey Allahın Elçisi, bizə Cənnət əhlinin libasları haqqında xəbər ver, onlar hazır yaradılacaq, yoxsa onu tikəcəklər?” Bəziləri güldü. Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: “Nəyə gülürsünüz? Bilməyən kimsənin biləndən soruşmasına gülürsünüz?” Sonra o, başını aşağı saldı və buyurdu: “Sual verən hanı?” Kişi dedi: “Mən buradayam, ey Allahın Elçisi!” O buyurdu: “Cənnətin barı açılacaq və o (libas) oradan çıxacaq”. O bunu üç dəfə təkrarladı”.[1485] Digər rəvayətdə belə deyilir: “...“Tubə nədir?” Peyğəmbər sallallahu aleyhi və səlləm dedi: “Cənnətdə bir ağacdır, onun (kölgəsi) yüz illik yola bərabərdir. Onun kasacıqlarından Cənnət əhlinin libasları çıxır”.[1486]

TUBƏ NƏDİR?

١١١٢ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: «إِنَّ فِي الْجَنَّةِ لَشَجَرَةً يَسِيرُ الرَّاكِبُ فِي ظِلِّهَا مِائَةَ سَنَةٍ، وَاقْرَءُوا إِنْ شِئْتُمْ: ﴿**وَظِلٍّ مَمْدُودٍ**﴾.

1112. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm demişdir: “Cənnətdə elə bir ağac vardır ki, atlı onun kölgəsində yüz il yol gedəcək, (amma onu qət edə bilməyəcək). İstəyirsinizsə, bu ayəni oxuyun: ***“uzanmış kölgəliklərdə...”*** *(əl-Vaqiə 30)*”.[1487]

[1484] Muslim, 7324.

[1485] Əhməd, 6799, 7095. əl-Albani “Silsilətul-Əhədisis-Sahiha”da (№ 1985) səhih olduğunu bildirmişdir.

[1486] Əhməd, 11691. əl-Albani “Sahihul-Cəmius-Sağir”də (№ 3923) və “Silsilətul-Əhədisis-Sahiha”da (№ 1241) səhih olduğunu bildirmişdir.

[1487] əl-Buxari, 3252.

CƏNNƏT AĞACLARI

١١١٣ - عَنْ أَبِى هُرَيْرَةَ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «مَا فِى الْجَنَّةِ شَجَرَةٌ إِلاَّ وَسَاقُهَا مِنْ ذَهَبٍ».

1113. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurdu: "Cənnətdə elə bir ağac yoxdur ki, gövdəsi qızıldan olmasın".[1488]

CƏNNƏT BİTKİLƏRİ

١١١٤ - عبد الله بن عمرو بن العاص ﷺ: «سَيِّدُ رَيْحَانِ أَهْلِ الجَنَّة الْحِنَّاءُ»

1114. Abdullah ibn Amr ibn əl-As ﷺ buyurdu: "Cənnət əhlinin ətirli bitkilərinin ən üstünü xınadır".[1489]

١١١٥ - عَنِ ابْنِ عُمَرَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: أَكْثِرُوا مِنْ غَرْسِ الْجَنَّةِ, فَإِنَّهُ عَذْبٌ مَاؤُهَا طَيِّبٌ تُرَابُهَا, فَأَكْثِرُوا مِنْ غِرَاسِهَا, لا حَوْلَ وَلا قُوَّةَ إِلا بِاللَّهِ.

1115. İbn Ömər ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm demişdir: "Cənnət bitkilərini çoxaldın! Həqiqətən, onun suyu şirin, torpağı isə xoşdur. Onun bitkilərini çoxaldın! Lə həulə və lə quvvətə illə billəh".[1490]

١١١٦ - عَنِ ابْنِ مَسْعُودٍ ﷺ قَالَ قَالَ رَسُولُ اللَّهِ ﷺ «لَقِيتُ إِبْرَاهِيمَ لَيْلَةَ أُسْرِىَ بِى فَقَالَ يَا مُحَمَّدُ أَقْرِئْ أُمَّتَكَ مِنِّى السَّلاَمَ وَأَخْبِرْهُمْ أَنَّ الْجَنَّةَ طَيِّبَةُ التُّرْبَةِ عَذْبَةُ الْمَاءِ وَأَنَّهَا قِيعَانٌ وَأَنَّ غِرَاسَهَا سُبْحَانَ اللَّهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ وَاللَّهُ أَكْبَرُ».

1116. Abdullah bin Məsud ﷺ rəvayət edir ki, Allah Elçisi salləllahu aleyhi və səlləm buyurmuşdur: "İsra gecəsində İbrahimlə görüşdüm və o belə dedi: "Ey Muhəmməd, məndən ümmətinə salam söylə və onlara xəbər ver ki, Cənnətin torpağı xoş, suyu şirindir. Cənnətin ərazisi dümdüzdür, "Subhənallah, əlhəmdulilləh, lə iləhə illəllah, Allahu Əkbər" (kəlmələri) isə onun bitkiləridir".[1491]

[1488] ət-Tirmizi, 2525, 2716. əl-Albani səhih olduğunu bildirmişdir.
[1489] İbn Əbi Şeybə "Musannəf" 35123. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 1420) səhih olduğunu bildirmişdir.
[1490] ət-Tabərani "Mucəmul-Kəbir" 13173, 13354. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 1584) həsən li-ğeyrihi olduğunu bildirmişdir.
[1491] ət-Tirmizi, 3462, 3798. əl-Albani həsən olduğunu bildirmişdir.

CƏNNƏT MEYVƏLƏRİ

١١١٧ - عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ﷺ أَنَّ رَسُولَ اللهِ ﷺ قَالَ: عُرِضَتْ عَلَيَّ الْجَنَّةُ فَذَهَبْتُ أَتَنَاوَلُ مِنْهَا قِطْفًا أُرِيكُمُوهُ فَحِيلَ بَيْنِي وَبَيْنَهُ، فَقَالَ رَجُلٌ: يَا رَسُولَ اللهِ، مِثْلُ مَا الْحَبَّةُ مِنَ الْعِنَبِ؟ قَالَ: كَأَعْظَمِ دَلْوٍ فَرَتْ أُمُّكَ قَطُّ

1117. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Allah Elçisi sallallahu aleyhi və səlləm demişdir: "Cənnət mənə göstərildi. Sizə göstərmək üçün bir salxım dərməyə irəlilədim, lakin mənimlə onun arasında maneə yarandı". Bir kişi dedi: "Ey Allahın Elçisi, üzümün giləsi nə boydadır?" Allah Elçisi sallallahu aleyhi və səlləm buyurdu: "Sənin ananın heç vaxt daşıya bilməyəcəyi su qabı boydadır".[1492]

١١١٨ - عَنِ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: نَخْلُ الْجَنَّةِ جُذُوعُهَا زُمُرُّدٌ أَخْضَرُ، وَكَرَبُهَا ذَهَبٌ أَحْمَرُ، وَسَعَفُهَا كِسْوَةٌ لأَهْلِ الْجَنَّةِ، مِنْهَا مُقَطَّعَاتُهُمْ وَحُلَلُهُمْ، وَثَمَرُهَا أَمْثَالُ الْقِلالِ أَوِ الدِّلاءِ، أَشَدُّ بَيَاضًا مِنَ اللَّبَنِ، وَأَحْلَى مِنَ الْعَسَلِ وَأَلْيَنُ مِنَ الزُّبْدِ لَيْسَ لَهُ عَجْمٌ.

1118. İbn Abbas رضي الله عنهما demişdir: "Cənnətdəki xurma ağacı və onun gövdəsi yaşıl zümrüddən, onun lifləri qırmızı qızıldan, budaqları isə Cənnət əhlinin libasıdır. Onların köynəkləri və bütün geyimləri bundan olacaq. Meyvəsi iri səhəng və ya çəllək boyda, süddən ağ, baldan şirin, yağdan yumşaq və tumsuz olacaq".[1493]

"(CƏNNƏTİN) MEYVƏLƏRİ DƏ TAM ONLARIN İXTİYARINA VERİLƏCƏK"

١١١٩ - عن البراء بن عازب ﷺ في قوله ﴿**وَذُلِّلَتْ قُطُوفُهَا تَذْلِيلًا**﴾ قال: "إن أهل الجنة يأكل من ثمار الجنة قياما، وقعودا، ومضطجعين، على أي حال شاءوا".

1119. Bəra ibn Azib ﷺ Allahın bu ayəsi ***"(Cənnətin) meyvələri də tam onların ixtiyarına veriləcək"*** *(əl-İnsan, 14)* haqqında demişdir: "Həqiqətən, Cənnət əhli ayaq üstə, oturaraq və uzanaraq – istədikləri hər bir vəziyyətdə Cənnət meyvələrini yeyəcəklər".[1494]

[1492] Əbu Yəalə, 1147. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3731) həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[1493] əl-Hakim, 3776. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3735) səhih olduğunu bildirmişdir.

[1494] əl-Beyhəqi "əl-Bəas vən-Nuşur" 273. əl-Albani "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3734) səhih li-ğeyrihi olduğunu bildirmişdir.

CƏNNƏT ÇAYLARI

١١٢٠ - عَنْ أَنَسِ بْنِ مَالِكٍ ﷺ قَالَ: «لَعَلَّكُمْ تَظُنُّونَ أَنَّ أَنْهَار الْجَنَّةِ أُخْدُود فِي الأَرْضِ، لاَ وَاللهِ إِنَّهَا لَسَائِحَةٌ عَلَى وَجْهِ الأَرْضِ، أَحَد حَافَتَيهَا اللُّؤْلُؤ والأخْرَى اليَاقُوت وَطِيْنَه الْمِسْكُ الأذْفِر». قُلْتُ: مَا الأذْفِر؟ قَالَ: «الَّذِي لاَ خَلْط لَهُ».

1120. Ənəs ibn Məlik ﷺ demişdir: "Bəlkə, siz elə zənn edirsiniz ki, Cənnətin çayları yerdə olan çuxur ilə axır? Xeyr, Allaha and olsun! Həqiqətən, onlar yerin üstü ilə axır, onun bir tərəfi mirvari, digər tərəfi isə yaqutdur. Torpağı isə əzfirli müşkdəndir". Mən dedim: "Əzfir nədir?" O buyurdu: "Qarışığı olmayandır".[1495]

١١٢١ - عَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُوْلُ اللهِ ﷺ: «أَنْهَارُ الْجَنَّةِ تَخْرُجُ مِنْ تَحْتِ تِلاَلٍ أَوْ مِنْ تَحْتِ جِبَالِ الْمِسْكِ».

1121. Əbu Hureyra ﷺ rəvayət edir ki, Allah Elçisi sallәllahu aleyhi və sәllәm demişdir: "Cənnət çayları müşk dağının altından çıxır".[1496]

١١٢٢ - عَنْ حَكِيمِ بْنِ مُعَاوِيَةَ عَنْ أَبِيهِ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ «إِنَّ فِى الْجَنَّةِ بَحْرَ الْمَاءِ وَبَحْرَ الْعَسَلِ وَبَحْرَ اللَّبَنِ وَبَحْرَ الْخَمْرِ ثُمَّ تُشَقَّقُ الأَنْهَارُ بَعْدُ».

1122. Həkim ibn Muaviyə atasından ﷺ rəvayət edir ki, Peyğəmbər sallәllahu aleyhi və sәllәm buyurdu: "Həqiqətən, Cənnətdə su, bal, süd və içkidən olan iri çaylar vardır. (Cənnət əhli Cənnətə girdikdən) sonra əlavə çaylar da qaynayacaq".[1497]

CƏNNƏTƏ ƏN AXIRDA DAXİL OLANA VERİLƏN NEMƏTLƏR

١١٢٣ - عَنْ عَبْدِ اللهِ بْنِ مَسْعُودٍ ﷺ: عَنِ النَّبِيِّ ﷺ قَالَ : «يَجْمَعُ اللهُ الأَولِينَ وَالآخِرِينَ لِمِيقَاتِ يَومٍ مَعْلُومٍ، قِيَاماً أَرْبَعِينَ سَنَةً، شَاخِصَةً أَبْصَارُهُمْ (إِلَى السَّمَاءِ) يَنْتَظِرونَ فَصْلَ الْقَضَاءِ، قَالَ: وَيَنْزِلُ اللهُ ﷻ فِي ظُلَلٍ مِنَ الْغَمَامِ مِنَ الْعَرشِ إِلَى الْكُرسِيِّ، ثُمَّ يُنَادِي مُنَادٍ: أَيُّهَا النَّاسُ! أَلَمْ تَرْضَوْا مِنْ رَبِّكُمْ الَّذِي خَلَقَكُمْ، وَرَزَقَكُمْ، وَأَمَرَكُمْ أَنْ تَعْبُدُوه وَلاَ تُشْرِكُوا بِهِ شَيئاً أَنْ يولِيَ كُلَّ أَناسٍ مِنْكُمْ مَا كَانُوا (يَتَوَلَّونَ و) يَعْبُدُونَ فِي الدُّنْيَا، أَلَيْسَ ذَلِكَ عَدْلاً مِنْ رَبِّكُمْ؟ قَالُوا: بَلَى،

[1495] İbn Əbud-Dunyə "Sıfətul-Cənnə" 66. əl-Albani "Silsilətul-Əhədisis-Sahiha"da (№ 2513) və "Sahihut-Tərğib vət-Tərhib"də (№ 3723) səhih olduğunu bildirmişdir.

[1496] İbn Hibban, 7365. əl-Albani həsən səhih olduğunu bildirmişdir.

[1497] ət-Tirmizi, 2571, 2771.

فَلْيَنْطَلِقْ كُلُّ قَومٍ إِلَى مَا كَانُوا يَعْبُدُونَ وَيَتَوَلَّونَ فِي الدُّنْيَا، قَالَ: فَيَنْطَلِقُونَ وَيُمَثَّلُ لَهُمْ أَشْبَاهُ مَا كَانُوا يَعْبُدُونَ، فَمِنْهُمْ مَنْ يَنْطَلِقُ إِلَى الشَّمْسِ، وَمِنْهُمْ مَنْ يَنْطَلِقُ إِلَى الْقَمَرِ والأَوْثَانِ مِنَ الْحِجَارَةِ وَأَشْبَاهِ مَا كَانُوا يَعْبُدُونَ، قَالَ: وَيُمَثَّلُ لِمَنْ كَانَ يَعْبُدُ عِيسَى شَيْطَانُ عِيسَى، وَيُمَثَّلُ لِمَنْ كَانَ يَعْبُدُ عُزَيراً شَيْطَانُ عُزَيرٍ، وَيَبْقَى مُحَمَّدٌ ﷺ وَأُمَّتُهُ، قَالَ: فَيَتَمَثَّلُ الرَّبُّ تَبَارَكَ وَتَعَالَى، فَيَأْتِيهِمْ فَيَقُولُ: مَا لَكُمْ لا تَنْطَلِقُونَ كَمَا انْطَلَقَ النَّاسُ؟ قَالَ: فَيَقُولُونَ: إِنَّ لَنَا إِلَهاً مَا رَأَيْنَاهُ (بَعْدُ) فَيَقُولُ: هَلْ تَعْرِفُونَهُ إِنْ رَأَيْتُمُوهُ؟ فَيَقُولُونَ: إِنْ بَيْنَنَا وَبَيْنَهُ عَلامَةً إِذَا رَأَيْنَاهَا عَرَفْنَاهُ قَالَ: فَيَقُولُ: مَا هِيَ؟ فَيَقُولُونَ: يَكْشِفُ عَنْ سَاقِهِ (قَالَ) فَعِنْدَ ذَلِكَ يَكْشِفُ عَنْ سَاقِهِ فَيَخِرُّ كُلُّ مَنْ كَانَ لِظَهْرِهِ طَبَقٌ سَاجِداً، وَيَبْقَى قَومٌ ظُهُورُهُمْ كَصَيَاصِي الْبَقَرِ يُرِيدُونَ السُّجُودَ فَلاَ يَسْتَطِيعُونَ ﴿**وَقَدْ كَانُ يُدْعَونَ إِلَى السُّجُودِ وَهُمْ سَالِمُونَ**﴾ ثُمَّ يَقُولُ: ارْفَعُوا رُؤُوسَكُمْ، فَيَرفَعُونَ رُؤُوسَهُمْ، فَيُعْطِيهِمْ نُورَهُمْ عَلَى قَدْرِ أَعْمَالَهُمْ، فَمِنْهُمْ مَنْ يُعْطَى نُورَهُ مِثلَ الْجَبَلِ الْعَظِيمِ يَسْعَى بَيْنَ يَدَيْهِ، وَمِنْهُمْ مَنْ يُعْطَى نُورَهُ أَصْغَرَ مِنْ ذَلِكَ، وَمِنْهُمْ مَنْ يُعْطَى نُوراً مِثلَ النَّخْلَةِ بِيَمِينِهِ، وَمِنْهُمْ مَنْ يُعْطَى نُوراً أَصْغَرَ مِنْ ذَلِكَ حَتَّى يَكُونَ آخِرَهُمْ رَجُلاً يُعْطَى نُورَهُ عَلَى إِبْهَامِ قَدَمِهِ يُضِيءِ مَرَّةً، وَيُطْفَأُ مَرَّةً، فَإِذَا أَضَاءَ قَدمُه قَدِمَ (وَمشَى) وَإِذَا طَفئ قَامَ، قَالَ: وَالرَّبُّ تَبَارَكَ وَتَعَالَى أَمَامَهُمْ حَتَّى يُمَرَّ بِهِمْ إِلَى النَّارِ فَيَبْقَى أَثَرُه كَحَدِّ السَّيْفِ (دَحْض مَزَلة) قَالَ: فَيَقُولُ : مُرُّوا، فَيَمُرُّونَ عَلَى قَدْرِ نُورِهِم، مِنْهُمْ مَنْ يَمُرُّ كَطَرفِ الْعَينِ، وَمِنْهُمْ مَنْ يَمُرُّ كَالبَرقِ، وَمِنْهُمْ مَنْ يَمُرُّ كَالسَّحَابِ، وَمِنْهُمْ مَنْ يَمُرُّ كَانْقِضَاضِ الْكَوْكَبِ، وَمِنْهُمْ مَنْ يَمُرُّ كَالرِّيحِ، وَمِنْهُمْ مَنْ يَمُرُّ كَشَدِّ الْفَرَسِ، وَمِنْهُمْ مَنْ يَمُرُّ كَشَدِّ الرِّجْلِ، حَتَّى يَمُرُّ الَّذِي أُعْطِي نُورَهُ عَلَى ظَهْرِ (إِبْهَامِ) قَدَمِهِ يَحْبُوا عَلَى وَجْهِهِ وَيَدَيْهِ وَرِجْلَيْهِ، تَخِرُّ يَدٌ وَتَعْلَقُ يَدٌ، وَتَخِرُّ رِجْلٌ وَتَعْلَقُ رِجْلٌ، وَتُصِيبُ جَوَانِبَهُ النَّارُ، فَلاَ يَزَالُ كَذَلِكَ حَتَّى يَخْلُصَ، فَإِذَا خَلَصَ وَقَفَ عَلَيْهَا فَقَالَ: الْحَمدُ للهِ الَّذِيْ أَعْطَانِي مَا لَمْ يُعْطِ أَحَداً، إِذْ أَنْجَانِي مِنهَا بَعدَ إِذْ رَأَيْتُهَا، قَالَ: فَيُنْطَلَقُ بِهِ إِلَى غَدِيرٍ عِنْدَ بَابِ الْجَنَّةِ فَيَغْتَسِلُ، فَيَعُودُ إِلَيهِ رِيحُ أَهْلِ الْجَنَّةِ وَأَلْوَانُهُمْ فَيَرَى مَا فِي الْجَنَّةِ مِنْ خِلالِ الْبَابِ، فَيَقُولُ: رَبِّ أَدْخِلنِي الْجَنَّةَ ، فَيَقُولُ اللهُ (لَهُ) أَتَسأَلُ الْجَنَّةَ وَقَدْ نَجَّيْتُكَ مِنَ النَّارِ؟ فَيَقُولُ: رَبِّ اجْعَلْ بَينِي وَبَيْنَهَا حِجَاباً حَتَّى لا أَسْمَعُ حَسِيسَهَا، قَالَ: فَيَدخُلِ الْجَنَّةِ، فَيَرَى أَوْ يُرْفَعُ لَهُ مَنْزِلاً أَمَامَ ذَلِكَ كَأَنَّ ما هُوَ فِيهِ بالنسْبَةِ إِلَيهِ حُلُمٌ، فَيَقُولُ: رَبِّ أَعْطِنِي ذَلِكَ الْمَنزِلَ، فَيُقَولُ (لَهُ) لَعَلَّكَ إِنْ أَعْطَيْتُكَهُ تَسأَلُ غَيْرَهُ؟ فَيَقُولُ: لاَ وَعِزَّتِكَ لاَ أَسْأَلُكَ غَيْرَهُ، وَأَنَّى مَنْزِلٌ أَحسن مِنهُ؟ فَيُعْطَاهُ فَيترُله، وَيَرَى أَمَامَ ذَلِكَ مَنْزِلاً، كَأَنَّ مَا هُوَ إِلَيهِ حُلُمٌ قَالَ: رَبِّ أَعْطِنِي ذَلِكَ الْمَنْزِلَ، فَيَقُولُ اللهُ تَبَارَكَ وَتَعَالَى: لَعَلَّكَ إِنْ أَعْطَيْتُكَهُ تَسْأَلُ غَيْرَهُ؟ قَالَ: لاَ وَعِزَّتِكَ (لا أَسْأَلُك) وَأَنَّى مَنْزِلٌ أَحسن مِنهُ؟ قَالَ فَيُعْطَاهُ، فَيَنْزِلُهُ ثُمَّ يَسْكُتُ. فَيَقُولُ اللهُ جَلَّ ذِكْرُهُ: مَا لَكَ لاَ تَسأَلُ؟ فَيَقُولُ: رَبِّ قَدْ سَأَلْتُكَ حَتَّى اسْتَحْيَيْتُكَ (وَأَقْسَمْتُ لَكَ حَتَّى اسْتَحْيَيتك) فَيَقُولُ اللهُ جَلَّ ذِكْرُهُ: أَلَمْ تَرضَ أَنْ أُعْطِيَكَ مِثلَ الدُّنْيَا مُنْذُ خَلَقْتُهَا إِلَى يَوْمِ أَفْنَيْتُهَا وَعَشْرَةَ أَضْعَافِه؟ فَيَقُولُ: أَتَهْزَأُ بِي وَأَنْتَ رَبُّ الْعِزَّةِ؟ (فَضَحِكَ الرَّبُّ ﷻ مِنْ قَوْلِهِ) قَالَ: فَرَأَيْتُ عَبدَ اللهِ بْنِ مَسْعُودٍ إِذَا بَلَغَ هَذَا الْمَكَان مِنْ هَذَا الْحَدِيثِ ضَحِكَ، فَقَالَ لَهُ رَجُلٌ: يَا أَبَا عَبْدِ الرَّحْمَنِ! قَدْ سَمِعْتُكَ تُحَدِّثُ هَذَا الْحَدِيثِ مِرَاراً كُلَّمَا بَلَغْتَ هَذَا الْمَكَانَ ضَحِكْتَ؟ فَقَالَ: إِنِّي سَمِعْتُ رَسُوْلَ اللهِ ﷺ يُحَدِّثُ هَذَا الْحَدِيثِ مِرَاراً كُلَّمَا بَلَغَ هَذَا الْمَكَان مِنْ هَذَا الْحَدِيثِ ضَحِكَ، حَتَّى تَبْدوَ أَضْرَاسُه، قَالَ: فَيَقُولُ الرَّبُّ جَلَّ ذِكْرُهُ: لا وَلَكِنِّي عَلَى ذَلِكَ قَادِرٌ، فَيَقُولُ: أَلْحِقْنِي بِالنَّاسِ، فَيَقُولُ الْحَقْ بِالنَّاسِ، قَالَ: فَيَنْطَلِقُ يَرْمُلُ فِي الْجَنَّةِ حَتَّى إِذَا دَنَا مِنَ النَّاسِ، رُفِعَ لَهُ قَصرٌ مِنْ دُرَّةٍ، فَيَخِرُّ سَاجِداً، فَيُقَالُ لَهُ: ارْفَع رَأْسَكَ مَالَكَ؟ فَيَقُولُ: رَأَيْتُ رَبِّي أَوْ تَرَاءىَ لِي رَبِّي، فَيُقَالُ لَهُ: إِنَّمَا هُوَ مَنْزِلٌ مِنْ مَنَازِلِكَ، قَالَ: ثُمَّ يَلْقَى رَجُلاً فَيَتَهَيَّأُ لِلسجُودِ لَهُ، فَيُقَالُ لَهُ: مَهْ؟ مَالَكَ فَيَقُولُ: رَأَيْتُ أَنَّكَ مَلَكٌ مِنَ الْمَلاَئِكَةِ، فَيَقُولُ: إِنَّمَا أَنَا خَازِنٌ مِنْ خُزَّانِكَ، وَعَبْدٌ مِنْ عَبِيدِكَ تَحْتَ يَدِي أَلفُ فَهْرَمَانٍ عَلَى مِثْلِ مَا أَنَا عَلَيْهِ، قَالَ: فَيَنْطَلِقُ أَمَامَهُ

حَتَّى يَفْتَحُ لَهُ بَابَ الْقَصْر، قَالَ: وَهُوَ مِنْ دُرَّةٍ مُجَوَّفَةٍ سَقَائِفُهَا وَأَبْوَابُهَا وَأَغْلاَقُهَا وَمَفَاتِيحُهَا مِنْهَا تَسْتَقْبِلُه جَوْهَرَةٍ خَضْرَاءُ، مُبَطَّنَةٌ بِحَمْرَاء (فِيهَا سَبْعُونَ بَاباً، كُلُّ بَاب يُفْضِي إِلَى جَوْهَرَةٍ خَضْرَاءَ مُبَطَّنَةٍ) كُلُّ جَوْهَرَةٍ تُفْضِي إِلَى جَوْهَرَةٍ عَلَى غَيرِ لَوْنِ الأُخْرى، فِي كُلِّ جَوْهَرَةٍ سُرُرٌ وَأَزْوَاجٌ ووَصَائِفُ أَدْنَاهُنَّ حَوراءُ عَيْناءُ عَلَيْهَا سَبْعُونَ حُلَّةً يُرَى مُخُّ سَاقِهَا مِنْ وَرَاءِ حُلَلِهَا كَبِدُهَا مَرآتُهُ، وَكَبِدُه مِرآتُهَا إِذَا أَعْرَضَ عَنْهَا إِعْرَاضَةً اِزْدَادَتْ فِي عَيْنِهِ سَبْعِينَ ضِعْفاً (عَمَّا كَانَتْ قَبْلَ ذَلِكَ، وَإِذَا أَعْرَضَتْ عَنْهُ إِعْرَاضَةً ازْدَادَ فِي عَيْنِهَا سَبْعِينَ ضِعفاً عَمَّا كَانَتْ قَبلَ ذَلِكَ، فَيَقُولُ لَهَا: وَاللهِ لَقَدْ ازْدَدتِ فِي عَيْنِي سَبْعِينَ ضِعْفاً وَتَقُولُ لَهُ: وَأَنْتَ وَاللهِ لَقَدْ ازْدَدتَ فِي عَيْنِي سَبْعِينَ ضَعْفاً) فَيُقَالُ لَهُ: أَشْرِفْ، فَيُشْرِف، فَيُقَالُ لَهُ: مَلْكُكَ مَسِيرَةُ مِئَةِ عَامٍ يَنْفُذه بَصَرُكَ». قَالَ: فَقَالَ عُمَر: أَلاَ تَسْمَعُ مَا يُحَدِّثُنا ابْن أُمِّ عَبْدٍ يَا كَعْب! عَنْ أَدْنَى أَهْلِ الْجَنَّةِ مَنْزِلاً، فَكَيْفَ أَعْلاَهُمْ؟ قَالَ: يَا أَمْيرَ الْمُؤمِنِينَ! مَالاَ عَينٌ رَأَتْ وَلاَ أُذُنٌ سَمِعَتْ، إِنَّ اللهَ جَلَّ ذِكْرُهُ جَعَلَ دَاراً فَجَعَلَ فِيهَا مَا شَاءَ مِنَ الأَزْوَاجِ وَالثَمَرَاتِ وَالأَشْرِبَةِ، ثُمَّ أَطْبَقَهَا ثُمَّ لَمْ يَرَها أَحَدٌ مِنْ خَلْقِهِ لا جِبْرِيلُ وَلاَ غَيرُهُ مِنَ الْمَلاَئِكَةِ ثُمَّ قَرأَ كَعْب ﴿**فَلاَ تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ جَزَاءً بِمَا كَانُوا يَعْمَلُونَ**﴾ قَالَ: وَخَلَقَ دُونَ ذَلِكَ جَنَّتَيْنِ، وَزَيَّنَهُمَا بِمَا شَاءَ، وَأَرَاهُمَا مَنْ شَاءَ مِنْ خَلْقِهِ ثُمَّ قَالَ: فَمَنْ كَانَ كِتَابَهُ فِي عِلِّيِّين نَزَلَ تَلكَ الدَّارِ الَّتِي لَمْ يَرَهَا أَحَدٌ حَتَّى إِنَّ الرَّجُلَ مِنْ أَهْلِ عَلِّيِّين لَيَخْرُجُ فَيَسِيرُ فِي مُلْكِهِ، فَلاَ تَبْقَى خَيْمَةٌ مِنْ خِيَمِ الْجَنَّةِ إِلاَّ دَخَلَهَا مِنْ ضَوءِ وَجْهِهِ، فَيَسْتَبْشِرونَ بِرِيْحِهِ، فَيَقُولُونَ: وَاهاً لِهَذَا الرِّيحِ! هَذَا رَجُلٌ مِنْ أَهْلِ عَلِّيِّين قَدْ خَرَجَ يَسِيرُ فِي مُلْكِهِ، قَالَ: وَيْحَكَ يَا كَعْب! إِنَّ هَذِهِ الْقُلُوبَ قَدْ اسْتَرسَلَتْ فَاقْبِضْهَا، فَقَالَ كَعْب (وَالَّذِي نَفْسِي بِيَدِهِ) إِنَّ لَجَهَنَّمَ يَومَ الْقِيَامَةِ لَزَفْرَةً مَا مِنْ مَلَكٍ مُقَرَّب، وَلاَ نَبِيٍّ مُرْسَلٍ، إِلاَّ خَرَّ لِرُكْبَتَيهِ حَتَّى إِنَّ إِبْرَاهِيمَ خَلِيلَ اللهِ لَيَقُولُ: رَبِّ نَفْسِي نَفْسِي حَتَّى لَوْ كَانَ لَكَ عَمَلُ سَبْعِينَ نَبِيًّا إِلَى عَمَلِكَ لَظَنَنْتَ أَنْ لاَ تَنْجُو.

1123. Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər sallallahu aleyhi və səlləm belə buyurdu: “Allah bəlli bir günün müəyyən edilmiş vaxtı (insanlardan) birinciləri və axırıncıları bir yerə toplayacaq. Onlar qırx il ayaq üstə gözləri (göyə baxaraq) bərəlmiş halda (aralarında) hökm verilməsini gözləyəcəklər. Allah ﷻ bulud kölgəsində Ərşdən Kürsüyə enəcək. Sonra bir carçı belə səslənəcək: “Ey insanlar! Məgər sizi yaradan, sizə ruzi verən, Ona ibadət edib, heç bir şeyi şərik qoşmamağı və hər qəbiləyə (qövmə) dünyada (Allahdan başqa) dost tutub ibadət etdiyinin arxasınca getməyi əmr edən Rəbbinizdən razı deyilsinizmi? Məgər bu Rəbbiniz tərəfindən ədalətli deyilmi?” Onlar: “Bəli”- deyə cavab verəcəklər. Allah buyuracaq: “Elə isə hər bir qövm dünyada (Allahdan başqa) dost tutub ibadət etdiyinin yanına getsin”. Bu zaman onların qarşısında (dünyada ikən Allahdan başqa) ibadət etdikləri şeylərin bənzəri peydə olacaq və onlar da bu bənzərlərə tərəf gedəcəklər. Onlardan kimisi günəşə, kimisi aya, kimisi daşdan düzəldilən bütlərə və sair ibadət etdikləri bu kimi şeylərin bənzərlərinə doğru gedəcəklər. İsaya ibadət edənlərin qarşısında İsanın şeytanı, Üzeyrə ibadət edənlərin qarşısında isə Üzeyrin şeytanı peydə olacaq. (Axırda) Muhəmməd sallallahu aleyhi və səlləm və onun ümməti

qalacaq. Uca Rəbb onlara görünərək onların yanına gələcək və buyuracaq: "Nə üçün siz insanların (ibadət etdiklərinə doğru) getdikləri kimi getmirsiniz?" Onlar deyəcəklər: "Həqiqətən, bizim İlahımız var, lakin biz Onu indiyə kimi görməmişik". Allah buyuracaq: "Siz Onu görsəniz tanıyarsınızmı?" Onlar deyəcəklər: "Bizimlə Onun arasında bir əlamət vardır. Biz bu əlaməti görsək tanıyarıq". Allah buyuracaq: "O əlamət nədir?" Onlar deyəcəklər: "Allah baldırını açacaq!" Elə bu vaxt Allah baldırını açacaq və bu anda beli fəqərə-fəqərə olan hər kəs səcdəyə qapanacaq. Belləri öküzün buynuzları kimi olan[1498] bir qövm qalacaq, onlar səcdə etmək istəyəcəklər, lakin bunu bacarmayacaqlar. ***"Hərçənd ki, onlar dünyada ikən sağ-salamat halda səcdə qılmağa dəvət olunurdular"*** *(əl-Qələm, 43)*. Sonra Allah buyuracaq: "Başınızı qaldırın!" Onlar da başlarını qaldıracaqlar və Allah onlara etdikləri (xeyir) əməlləri ölçüsündə nur verəcəkdir. Onlardan kimisinə önünə yayılan böyük dağ boyda nur veriləcək. Kimisinə bundan daha kiçik, kimisinə sağına yayılan xurma ağacı boyda, kimisinə bundan daha kiçik nur veriləcək. Onların ən axırıncısı isə ayağının baş barmağında gah yanan, gah da sönən nur verilən bir kişi olacaqdır. Onun ayağı nur saçanda irəliləyəcək (yeriyəcək), sönəndə isə duracaq. Onlar Cəhənnəmin yanına gətirilənədək Uca Rəbb onlardan öndə olacaq. (Uca Allahın) nuru qılıncın tiyəsi kimi sürüşkən olan bir iz qoyacaq. Allah buyuracaq: "Keçin!" Onların (keçmə) sürəti nurları qədər olacaq. Kimisi göz qırpımında, kimisi ildırım kimi, kimisi bulud kimi, kimisi düşən ulduz kimi, kimisi külək kimi, kimisi bərk qaçan at kimi, kimisi bərk qaçan kişi kimi keçəcək. Nəhayət, ayağının baş barmağına nur verilən kimsə üzü, iki əli və iki ayağı üstə sürünərək, bir əl yapışıb, digəri şürüşərək, bir ayaq tutub, digəri şürüşərək keçəcək. Od onun böyürlərini qarsıdacaq.[1499] O, (oddan) xilas olanadək bu vəziyyətdə olmağa davam edəcək. Xilas olduqdan sonra isə onun üzərində dayanaraq belə deyəcək: "Heç kəsə vermədiyi neməti mənə bəxş edən, odu gördükdən sonra məni ondan qurtaran Allaha həmd olsun!" Onu Cənnətin qapısının yanında olan bir çeşməyə gətirəcəklər. Orada yuyunduqdan sonra Cənnət əhlinin ətri və rəngi ona qayıdacaq və o, qapıdan Cənnətdəki nemətləri görüb deyəcək: "Ey Rəbbim, məni Cənnətə daxil et!" Allah buyuracaq: "Səni oddan xilas etdiyim halda Cənnəti istəyirsən?" O deyəcək: "Ey Rəbbim, mənimlə onun

[1498] Yəni, fəqərələri birləşərək sümükləşən və sanki inəyin buynuzu kimi bir sümükdən ibarət olan kəslər.

[1499] Yəni, üzdən qabarlanacaq.

(odun) arasına elə bir pərdə çək ki, xışıltısını belə eşitməyim".[1500] Beləliklə o, Cənnətə girəcək və onun qarşısında bir ev görünəcək. Gördükləri sanki ona bir yuxu kimi gələcək və o deyəcək: "Ey Rəbbim, o evi mənə ver!" Allah buyuracaq: "Ola bilsin ki, Mən sənə onu versəm, başqasını istəyəcəksən". O deyəcək: "Xeyr, İzzətinə and olsun ki, başqasını istəməyəcəyəm. Hansı ev bundan daha gözəl ola bilər ki?!" Bu ev ona veriləcək və o, buraya yerləşəcək. O bu evin qabağında başqa bir ev görəcək. Gördükləri sanki ona bir yuxu kimi gələcək və o deyəcək: "Ey Rəbbim, o evi mənə ver!" Uca Allah buyuracaq: "Ola bilsin ki, Mən sənə onu versəm, başqasını istəyəcəksən". O deyəcək: "Xeyr, İzzətinə and olsun ki, başqasını istəməyəcəyəm. Hansı ev bundan daha gözəl ola bilər ki?!" Bu ev ona veriləcək və o, buraya yerləşərək bir müddət sükut edəcək. Uca Allah buyuracaq: "Sənə nə olub ki, bir şey istəmirsən?" O deyəcək: "Ey Rəbbim, Səndən çox şey istədiyim üçün artıq həya edirəm. (Sənə çox and içdiyim üçün həya edirəm).[1501] Uca Allah buyuracaq: "Sənə dünyanı yaradandan yox edənə qədər üzərində olan nemətlərin on qatını versəm razı qalmazsanmı?" O deyəcək: "Sən Qüdrət sahibi olan Rəbb ola-ola mənə istehza edirsən?" (Rəbb ﷻ onun bu sözlərinə güləcək)". Hədisi Abdullah ibn Məsuddan ﷺ rəvayət edən ravi[1502] dedi: "Abdullah ibn Məsudun ﷺ hədisin bu yerinə çatdıqda güldüyünü gördüm. Bir kişi ona dedi: "Ey Əbu Abdur-Rahmən, mən sənin bu hədisi dəfələrlə danışdığını eşitmişəm və hər dəfə də bu yerə çatdıqda gülmüsən". O dedi: "Həqiqətən, mən də Allah Elçisinin salləllahu aleyhi və səlləm bu hədisi dəfələrlə danışdığını eşitdim və o da hər dəfə hədisin bu yerinə çatdıqda elə gülərdi ki, hətta azı dişləri görünərdi. Uca Rəbb buyuracaq: "Xeyr, lakin Mən bunu etməyə qadirəm, (istə!)". O deyəcək: "Məni insanlara qovuşdur". Allah buyuracaq: "İnsanlara qovuş!" O da gedib Cənnətdə qaçmağa başlayacaq. İnsanlara yaxınlaşdıqda isə onun üçün mirvaridən qəsr yüksəldiləcək və o (bunu gördükdə) səcdəyə qapanacaq. Ona belə deyiləcək: "Başını qaldır, sənə nə olub!" O deyəcək: "Rəbbimi gördüm "və ya Rəbbim mənə göründü". Ona deyiləcək: "Bu yalnız sənin evlərindən biridir". Sonra o, bir kişi ilə rastlaşacaq və ona təzim etməyə hazırlaşacaq. Ona deyiləcək: "Sənə nə olub?" O deyəcək: "Görürəm, sən mələklərdən birisən". O deyəcək: "Mən yalnız sənin xəzinədarlarından və

[1500] əl-Ənbiya surəsi 101-102-ci ayələr buna dəlalət edir. "***Əzəlcədən ən gözəl aqibət yazılmış insanlara gəldikdə isə onlar Oddan uzaqlaşdırılmış olacaq, Onlar onun xışıltısını belə eşitməyəcəklər. Onlar ürəklərinin istədiyi şeylər arasında əbədi qalacaqlar***".

[1501] Mötərizədə olan hədisin başqa rəvayətinin mətnindəndir.

[1502] Ravinin adı: Əbu Aişə Məsruq ibn əl-Əcda ibn Malik əl-Kufidir ﷺ. Böyük tabiinlərdən olmuş, hicrətin 63-cü ilində vəfat etmişdir.

kölələrindən biriyəm, mənim tabeçiliyimdə mənim kimi min keşikçi var". Həmin kişi onun qabağında gedib qəsrin qapısını ona açacaq. Qəsr içiboş (oyuq) mirvaridən düzəlmişdir. Tavanları, qapıları, kilidləri və açarları isə üzü yaşıl, içi isə qırmızı cəvahirat olan mirvaridəndir. (Orada yetmiş qapı vardır. Hər bir qapı yaşıl içli cəvahiratdandır). Bu cəvahiratlardan hər biri digərində olmayan fərqli rənglərə çevrilir. Hər bir cəvahiratdan olan (qapının) içində taxtlar, zövcələr və gənc qızlar (hurilər) vardır. Qızlardan ən aşağı gözəlliyə malik olanının iri qara gözü və üzərində yetmiş cür gözəl libası olacaqdır. Zəriflikdən, paltarlarının altından ayaq sümüyünün iliyi görünəcək. Dəriləri o qədər incə və hamar olacaq ki, güzgü kimi öz əkslərini bir-birinin qarınlarında görəcəklər. Hər dəfə ayrıldıqdan sonra (yenidən görüşdükdə) biri-birinə əvvəl gördüyündən yetmiş dəfə daha gözəl görünəcəklər. O, zövcəsini görəndə: "Vallahi, sən mənə əvvəl göründüyündən yetmiş dəfə daha gözəl görünürsən"- deyəcək. (Zövcəsi də) ona deyəcək: "Sən də, vallahi mənə əvvəl göründüyündən yetmiş dəfə daha gözəl görünürsən". Ona deyiləcək: "Boylan!"- və o boylanacaq. Ona deyiləcək: "Sənin mülkün yüz il gedilən yol boyu gözünün əhatə etdiyi ərazi boydadır". Ömər ﷺ dedi: "Ey Kəb, məgər İbni Ummu Abdın[1503] bizə Cənnət əhlindən ən aşağı mərtəbəyə sahib olan kəs barədə nə danışdığını eşitmirsən? Elə olduqda, gör indi onlardan ən üstün mərtəbəyə sahib olanı necə olacaq?!" O dedi: "Ey möminlərin əmiri! Heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi nemətlər olacaq. Şübhəsiz ki, Uca Allah Axirət yurdunu yaradaraq orada istədiyi kimi qadınlar, meyvələr, içkilər yaratmış, sonra onu təbəqələrə bölmüşdür. Bundan sonra məxluqatdan heç kəs, nə Cəbrayıl, nə də ondan başqa bir mələk onu görməyib. Sonra Kəb ﷺ bu ayəni oxudu: ***"Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir"*** *(əs-Səcdə, 17)* və dedi: "Bundan başqa Allah iki Cənnət yaratmış və istədiyi (nemətlərlə) onları bəzəmiş və onları yaratdıqlarından istədiyinə göstərmişdir. Kimin əməl dəftəri İlliyyunda yazılmışsa, heç kəsin görmədiyi həmin yurdda məskunlaşacaq. Hətta İlliyyun əhlindən olan kişi öz mülkündə gəzməyə çıxacaq və Cənnət çadırlarından elə bir çadır qalmayacaq ki, üzünün işığı ora saçmasın və onun ətrindən xoşlanmasınlar. Onlar deyəcəklər: "Bu necə xoş ətirdir! Bu, İlliyyun əhlindən olan bir kişidir. O, öz mülkündə gəzintiyə çıxmışdır". Ömər ﷺ dedi: "Vay olsun sənə,[1504] ey Kəb! Qəlblərimiz yerindən çıxıb qaçdı, onları tutub saxla!" Kəb ﷺ dedi: "Nəfsim əlində olan Allaha

[1503] Abdullah ibn Məsudu ﷺ nəzərdə tutur. Bu adla onu Peyğəmbərimiz ﷺ adlandırmışdır.
[1504] Təəccüb üçün işlənən sözdür.

and olsun ki, həqiqətən də, Qiyamət günü Cəhənnəmin bir gurultusu var. Allaha yaxın olan elə bir mələk və göndərilmiş elə bir peyğəmbər olmayacaq ki, (bu gurultunun qorxusundan) dizi üstə yerə düşməsin, hətta Allahın sevimlisi İbrahim belə deyəcək: "Ey Rəbb! Ah canım, ah canım!" Kəb (Ömərə) رضي الله عنهما dedi: "Əgər sənin əməllərindən əlavə yetmiş peyğəmbərin əməlləri qədər əməlin olsaydı belə, yenə də xilas olmayacağını güman edərdin".[1505]

[1505] ət-Tabərani "Mucəmul-Kəbir" 9763. əl-Albani "Sahihut-Tarğib vət-Tərhib"də (№ 3591, 3704) səhih olduğunu bildirmişdir.

SÜNNƏ ŞƏRİƏT MƏNBƏYİDİR

Qurani-Kərimdən sonra şəriətin ikinci əsas mənbəyi Sünnə sayılır. Buna Qurani-Kərimdən bir çox dəlillər vardır;

1. Peyğəmbərə salləllahu aleyhi və səlləm itaət, öz aralarında onu hakim təyin etmək, ona asi olmaqdan çəkinmək. Məsələn; ***"Allaha və Peyğəmbərə itaət edin..."*** *(Ali-İmran, 132).* ***"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar"*** *(ən-Nisə, 65).* ***"Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar"*** *(ən-Nisə, 80).* ***"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin"*** *(əl-Həşr, 7).*

2. Quranla yanaşı hikmət sözü sadalanan ayələr. Bu ayələrdə, hikmət dedikdə, Peyğəmbərin salləllahu aleyhi və səlləm sünnəsi nəzərdə tutulur. Məsələn; ***"...Kitabı və hikməti onlara öyrətsin"*** *(əl-Bəqərə, 129).* ***"Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın"*** *(əl-Əhzab, 34).*

3. Şübhəsiz, "Muhəmməd Allahın Elçisidir" şəhadəti, Peyğəmbərə salləllahu aleyhi və səlləm itaət etməyi, onun dəvətinin həqiqiliyini, onun qadağan etdiyini və çəkindirdiyini özündə əks etdirir. Məsələn; ***"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir"*** *(əl-Əhzab, 40).* ***"Muhəmməd Allahın Elçisidir"*** *(əl-Fəth, 29).*

4. Quranın sünnəsiz başa düşülmədiyi; çünki, tək Quranla gedən insan namazın necə qılınmasını, zəkatın necə verilməsini, orucu pozan amilləri və s. bilmir.

Həmçinin, səhih mənbələrə əsaslanan sünnə, Quranın əmrləri kimi yerinə yetirilməlidir. Çünki, Peyğəmbər salləllahu aleyhi və səlləm demişdir: "Mənə Quranla birlikdə onun bənzəri verilmişdir".[1506]

İslam alimləri Peyğəmbərdən salləllahu aleyhi və səlləm rəvayət edilən hədisləri toplayaraq hədis kitabları tərtib etmişlər. Bu hədis kitablarından ən məşhurları "Altı Səhih" kimi tanınan kitablardır:

1. Muhəmməd ibn İsmail Əbu Abdullah əl-Buxari əl-Cufi **"Səhih əl-Buxari"** əsəri (h. 194 - 256).
2. Əbul-Hüseyn Muslim ibn Həccəc ibn Muslim əl-Quşayri ən-Nisaburi **"Səhih Muslim"** əsəri (h. 204 - 261).

[1506] Əhməd, 17174.

3. Suleyman ibn əl-Əşəs Əbu Davud əs-Sicistani əl-Əzdi **"Sunəni Əbi Davud"** əsəri (h. 202 - 275).
4. Muhəmməd ibn İsa Əbu İsa ət-Tirmizi əs-Suləmi **"Sunənut-Tirmizi"** əsəri (h. 209 - 279).
5. Əhməd ibn Şueyb Əbu Abdur-Rahmən ən-Nəsəi **"Sunənun-Nəsai"** əsəri (h. 225 - 303).
6. Muhəmməd ibn Yəzid Əbu Abdullah əl-Qəzvini **"Sunənu ibn Məcə"** əsəri (h. 209 - 273).

Bundan əlavə hədislərin cəm edildiyi bir çox kitablar da mövcuddur. Bunlar aşağıdakılardır: Əhməd ibn Hənbəl əş-Şeybani **"Müsnəd"** [1507], Muhəmməd ibn Hibban ibn Əhməd Əbu Hatim ət-Təmimi **"Səhih",** Əbu Davud ət-Tayəlisi **"Müsnəd"**, İshaq ibn İbrahim ibn Rahaveyh **"Müsnəd"**, Əhməd ibn Əli Əbu Yəalə ət-Təmimi **"Müsnəd"**, əl-Bəzzar **"Müsnəd"**, İbn Əbu Şeybə **"Müsnəd"**, ət-Tabərani **"Mucəmul-Kəbir"**, ət-Tabərani **"Mucəmul-Əvsat"**, ət-Tabərani **"Mucəmus-Sağir"**, Abdur-Razzaq **"Musannəf"**, İbn Əbu Şeybə **"Musannəf"**, Malik **"Muvatta"**, Əbu Avanə **"Müsnəd"**, əd-Dərimi **"Sunən"**, əd-Dəraqutni **"Sünən"**, ən-Nəsəi **"Sünənul-Kubra"**, əl-Beyhəqi **"Sunənul-Kubra"**, əl-Beyhəqi **"Sunənus-Suğra"**, əl-Hakim **"Müstədrək"** və s.

Sünnəni səhvlərdən və uydurma məlumatlardan qorumaq məqsədilə hədis alimləri bir neçə qaydadan istifadə etmişlər. Bunların içində ikisini qeyd edək:

1. İsnad: İstilahi mənada bu kəlmənin iki mənası var:
– Hədisi istinad edərək rəvayət edənə aid etmək;
– Hədisin mətninə gətirib çıxaran ravilərin silsiləsi. Bu mənada o, "sənəd"-in sinonimi hesab olunur.[1508]

Beləliklə, Peyğəmbərin sallallahu aleyhi və səlləm ölümündən nə qədər çox vaxt keçirdisə, hədisin isnadında olan rəvayətçilərin sayı bir o qədər çox olurdu. Nəticədə, hədis toplayan alimlər - əl-Buxari, Muslim, Əbu Davud və s. hədisləri toplamış və isnadın daha da uzun olmasının qarşısını almışlar. Hədis uydurmaq istəyən, hədisə yalançı isnad qoyduqda, bu sahədə ixtisaslaşmış hədis alimləri isnadı araşdırmaqla tez bir zamanda hədisin uydurma olduğunu müəyyənləşdirirlər. Beləliklə də, isnad, Allahın Qurandan sonra şəriətin ikinci mənbəsi sayılan sünnəni qoruduğu, etibarlı bir üsul hesab olunur. Bu səbəblə Abdullah ibn Mubarak ﵀ demişdir: "İsnad bir-başa dinə aiddir. Əgər isnad olmasaydı, hər kəs istədiyini danışardı".

[1507] Hər bir səhabənin rəvayətlərini ayrı-ayrılıqda özündə cəm edən kitab "müsnəd" adlanır.
[1508] Təhhanın "Təysirul-Mustaləhəl-Hədis" əsəri, səh. 16.

2. Cərh və tədil elmi. Bu elm mühəddislərə aid olduğu üçün onun haqda geniş danışmadıq. Yalnız bunu deyə bilərik ki, rəvayətçilər haqda, onların necə insan olmaları - bidətçi olmamaları, ədalətli olmaları, mötəbər alimlərin onlar hqda hansı fikirdə olmaları və ümumiyyətlə xüsusiyyətlərini öyrənməklə məşğul olan elmdir. Mühəddislər hədisin isnadında adları çəkilən insanlar haqqında ciddiyyətlə araşdırmalar aparır, onların etibarlı olduqlarını, hafizələrinin güclü olduğunu, hədis rəvayətçilərinin ədalətli olmaları və s. haqda məlumat toplayardılar. Bu rəvayətçilərdən hansında naqisliklər mövcud olurdusa, onların rəvayət etdikləri hədislər artıq zəif və başqa qəbul edilməyən hədis növlərindən sayılırdı. Bu elmi araşdırmalar vasitəsilə həmin ravinin yalançı və ya ədalətli, düzgün danışan və s. olub-olmaması müəyyən edilir. Bu haqda bir sıra alimlər kitablar yazmışlar. Bunlardan, İbn Surur əl-Məqdisinin "əl-Kamal fi Əsməur-Ricəl", Əbul-Həccəc əl-Məzzinin "Təhzib əl-Kamal", İbn Həcərin "Təhzib ət-Təhzib" və s. qeyd etmək olar. Bu araşdırmalar əsasında rəvayətçiləri müəyyən xüsusiyyətlərlə adlandırıblar. Məsələn; etibarlı, ədalətli, düz danışan, hafizəsi güclü və s.

Səhih, səhih li-ğeyrihi, həsən, həsən li-ğeyrihi hədisləri etibarlı hədislərdən sayılır.

Sonda isə Muhəmmədə, onun əhli-beytinə, səhabələrinə və Qiyamətə qədər onun doğru yolunda sabit olanların üzərinə Allahın salavatı və salamı olsun!

رضي الله عنه və ya ﷺ işarəsi "radıyallahu anhu" kimi oxunur və "Allah ondan razı olsun!" mənasını verir (kişi cinsinə aid edilir);

رضي الله عنها işarəsi "radıyallahu anhə" kimi oxunur və "Allah ondan razı olsun!" mənasını verir (qadın cinsinə aid edilir);

رضي الله عنهما işarəsi "radıyallahu anhumə" kimi oxunur və "Allah onların ikisindən də razı olsun!" mənasını verir;

رضي الله عنهم və ya ﷺ işarəsi "radıyallahu anhum" kimi oxunur və "Allah onlardan razı olsun!" mənasını verir;

عليه السلام işarəsi "aleyhissəlam" kimi oxunur və "ona Allahın salamı olsun!" mənasını verir (kişi cinsinə aid edilir);

رحمه الله işarəsi "rahiməhullah" kimi oxunur və "Allah ona rəhmət etsin!" mənasını verir.

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

"Qurani-Kərimin tərcüməsi" Ziya Bünyadov, Vasim Məmmədəliyev
"Səhih əl-Buxari" Muhəmməd ibn İsmail Əbu Abdullah əl-Buxari əl-Cufi *(Tərcümə: Əlixan Musayev) "Şərq-Qərb" mətbəəsi, 2009*
"Səhih Muslim" Əbul-Hüseyn Muslim ibn Həccəc ibn Muslim əl-Quşayri ən-Nisaburi *(Tərcümə: Əlixan Musayev) "Şərq-Qərb" mətbəəsi, 2010*
"Səhih Muslim" Əbul-Hüseyn Muslim ibn Həccəc ibn Muslim əl-Quşayri ən-Nisaburi *(Tərcümə: Anar İsrafilov, Arif Hacıyev) "Şərq-Qərb" mətbəəsi, 2010*
"Sünənut-Tirmizi" Muhəmməd ibn İsa Əbu İsa ət-Tirmizi əs-Suləmi, *Dəru İhyəit-Turasil-Arabi, Beyrut çapı. Muhəmməd Nəsirəddin əl-Albaninin təhqiqi ilə*
"Sünəni Əbi Davud" Suleyman ibn əl-Əşəs Əbu Davud əs-Sicistani əl-Əzdi, *Dərul-Kitəbil-Arabi, Beyrut çapı. Muhəmməd Nəsirəddin əl-Albaninin təhqiqi ilə*
"Sünənun-Nəsai" Əhməd ibn Şueyb Əbu Abdurrahmən ən-Nəsai, *Məktəbul-Mətbuatil-İsləmiyyəti, Hələb çapı, ikinci nəşr, M1986-H1406. Muhəmməd Nəsirəddin əl-Albaninin təhqiqi ilə*
"Sünəni ibn Macə" Muhəmməd ibn Yəzid Əbu Abdullah əl-Qəzvini, *Dərul-Fikr, Beyrut çapı, Muhəmməd Nəsirəddin əl-Albaninin təhqiqi ilə*
"Səhih ibn Hibban" Muhəmməd ibn Hibban ibn Əhməd Əbu Hatim ət-Təmimi, *Muəssəsətul-Risələ nəşriyyatı, ikinci nəşr, M1993-H1414, Şueyb əl-Arnavutun təhqiqi ilə*
"Müsnədi Əhməd" Əhməd ibn Hənbəl, *Muəssəsətu Qurtubə, Qahirə çapı, Şueyb əl-Arnavutun təhqiqi ilə*
"Silsilətul-Əhədisis-Sahiha" Muhəmməd Nəsirəddin əl-Albani, *Məktəbətul-Məarif, ər-Riyad*
"Sahih və Daif Cəmius-Sağir və Ziyədətuhu" Muhəmməd Nəsirəddin əl-Albani, *Məktəbətul-İsləmi*
"Sahihut-Tərğib vət-Tərhib" Muhəmməd Nəsirəddin əl-Albani, *Məktəbətul-Məarif, ər-Riyad, beşinci nəşr*
"Mişkətul-Məsabih" Muhəmməd ibn Abdullah əl-Xatib ət-Təbrizi, *Məktəbətul-İsləmi, ikinci nəşr, Beyrut, M1985-H1405. Muhəmməd Nəsirəddin əl-Albaninin təhqiqi ilə*
"İrvaul-Ğalil fi Təxric Əhədis Mənaras-Səbil" Muhəmməd Nəsirəddin əl-Albani, *Məktəbətul-İsləmi, ikinci nəşr, Beyrut, M1985-H1405*
"Ziləlul-Cənnə fi Təxrici Sunnəti li ibni Əbi Asim" Muhəmməd Nəsirəddin əl-Albani, *Məktəbətul-İsləmi, ikinci nəşr, Beyrut, M1993-H1413*

"Mucəmil-Kəbir" Süleyman ibn Əhməb ibn Əyyub ibn Muteyr əş-Şami ət-Tabərani *Məktəbətul-Ulum vəl-Hikəm, Mosul, M1983-H1404*
"Mucəmis-Sağir" Süleyman ibn Əhməb ibn Əyyub ibn Muteyr əş-Şami ət-Tabərani *Məktəbətul-İsləmi, Beyrut, M1485-H1405*
"Mucəmil-Əvsat" Süleyman ibn Əhməb ibn Əyyub ibn Muteyr əş-Şami ət-Tabərani *Dərul-Hərameyn, Qahirə, H1415*
"Musnədiş-Şəmiyeyn" Süleyman ibn Əhməb ibn Əyyub ibn Muteyr əş-Şami ət-Tabərani *Muəssəsətul-Risələ, Beyrut, M1984-H1405*
"Bilməməzliyin üzürlü olması və bidətçi təkfirçilərin tənqidi" Əhməd Fərid *(Tərcümə: Fərahim Sələfi) Gənclik nəşriyyatı, 2004*
"Peyğəmbərin sallәllahu aleyhi və sәllәm **əxlaqı" (Ədəbul-Mufrad)** Muhəmməd ibn İsmail Əbu Abdullah əl-Buxari əl-Cufi *(Tərcümə: Əlixan Musayev) "Şərq-Qərb" mətbəəsi, 2005*
"Səhih Müsnəd" Muqbil ibn Hadi əl-Vadii *(Tərcümə: Əlixan Musayev) "Adiloğlu" nəşriyyatı, 2003*
"Səbr edənlərin azuqəsi və şükr edənlərin tədarükü" İbn Qeyyum əl-Cəvziyyə *(Tərcümə: Fərahim Sələfi) "Adiloğlu" nəşriyyatı, 2004*
"Peyğəmbərlərin həyatı" İmadəddin ibn Kəsir *(Tərcümə: Abdur-Rahim Muradlı) "Şərq-Qərb" mətbəəsi, 2011*
"Dilimiz bizi hara aparır" Ramil Soltanov *"Şərq-Qərb" mətbəəsi, 2011*
"İslam Fiqhi" Abdul-Azim ibn Bədəvi *(Tərcümə: Abdur-Rahim Muradlı) "Şərq-Qərb" mətbəəsi, 2007*
"Salehlərin Bağçası" Yəhyə ibn Şərəf Əbu Zəkəriyyə ən-Nəvəvi *(Birinci cild. Tərcümə: Rəsul Ömərov) "Şərq-Qərb" mətbəəsi, 2010*
"Məqsədə çatma" ("Buluğul-Məram") İbn Həcər əl-Əsqalani *(Tərcümə: Rəsul Ömərov) "Adiloğlu" nəşriyyatı, 2006*
"Ray i Ad" Ömər Süleyman əl-Aşkar *(Tərcümə: Elmir Quliyev) "Şərq-Qərb" mətbəəsi, 2010*
"Bağışlanma Vesileleri" Seyyid Hüseyin əl-Affəni (türk dilində)

MÜNDƏRİCAT

Ön söz 4

ELM 7

- ♦ *Elmin fəziləti* 6
- ♦ *Elm məclisinin fəziləti* 10
- ♦ *Elmə öyrənməklə yiyələnmək olar* 12
- ♦ *Elm öyrənmək və öyrətmək niyyəti* 12
- ♦ *Elmi yaymağın fəziləti* 12

İMAN 14

- ♦ *İman, İslam və Yəqinlik* 15
- ♦ *Allaha iman gətirənlər* 15
- ♦ *İmanın şirinliyini dadanlar* 16
- ♦ *Kamil iman* 17
- ♦ *İman da köhnəlir* 17
- ♦ *Qəlbdə olan vəsvəsələr* 17
- ♦ *Doğru yolun misalı* 20
- ♦ *Cənnəti istəyən Allaha şərik qoşmayaraq ona ibadət etsin* 21
- ♦ *Lə iləhə illəllah kəlməsinin əzəməti* 26
- ♦ *Şəfaət* 38
- ♦ *Allahdan qorxaraq bir şeyi tərk edən* 41
- ♦ *Yaxşi əməli Allaha görə et!* 42
- ♦ *Dilin düz olması imanla bağlıdır* 43
- ♦ *Əmr edilənləri yerinə yetirən* 44
- ♦ *Peyğəmbəri ﷺ görmədən ona iman gətirənlər* 44
- ♦ *Qəriblər* 46
- ♦ *Sən sevdiklərinlə birlikdə olacaqsan* 47
- ♦ *Allah üçün sevmək və Allah üçün nifrət etmək* 48
- ♦ *Allaha və Axirət gününə inanan...* 48
- ♦ *Ənsarı sevmək imanın əlamətidir* 49
- ♦ *İkiqat əcr qazananlar* 49
- ♦ *Mömin murdar olmaz* 51
- ♦ *Allahla qarşılaşmaq istəyən* 51

♦ *Yeddi qism insan* 52
TƏMİZLİK 53
♦ *Təmizlik imanın yarısıdır* 54
♦ *Dəstəmaz almağın fəziləti* 55
♦ *Dəstəmazlı yatan* 59
♦ *Dəstəmaz əzaları Qiyamət günü nur saçacaq* 59
♦ *Gözəl şəkildə dəstəmaz alıb namaz qılan* 61
♦ *Cənabət qüslu əmanətdir* 66
CAMAAT VƏ FƏRZ NAMAZLARI 67
♦ *Sizin ən xeyirli əməliniz namazdır* 68
♦ *Fərz namazlarının fəziləti* 68
♦ *Camaat namazının adi namazdan üstünlüyü* 71
♦ *Camaata sarılmaq* 74
♦ *Camaat namazını qırx gün tərk etməmək* 75
♦ *Camaat namazını məsciddə qılmaq niyyəti* 76
♦ *Camaat namazlarına gedərək məscidləri ziyarət edənlər* 76
♦ *Hər kəs özü qaladığı odu söndürsün!* 81
♦ *Namazı gözləmək* 81
♦ *Sübh namazının fəziləti* 83
♦ *Sübh və Əsr namazlarını qılan Cənnətə girər* 83
♦ *Məğrib namazını vaxtında qılmaq* 84
♦ *İşa və Sübh namazlarını camaatla qılmaq* 84
♦ *İşa namazının fəziləti* 85
♦ *Kəffarələr* 86
♦ *Məscidə uzaq yerdən gəlmək* 88
♦ *İmamın qıldırdığı namaz* 89
♦ *Vaxtında qılınan namaz* 90
♦ *Çöllükdə qılınan namaz* 90
♦ *Namaz vacibdir* 91
♦ *Namazda olan səfin fəziləti* 91
♦ *Azan verməyin fəziləti* 93
♦ *Quba məscidinin fəziləti* 96
♦ *Peyğəmbər ﷺ məscidinin fəziləti* 96

♦ *Məscidul-Haramda (Kəbə olan məsciddə) qılınan namazın fəziləti* 96
♦ *Səhv səcdəsi* 97
NAFİLƏ NAMAZLAR 98
♦ *Nafilə namazının dəyəri* 99
♦ *On iki rükət nafilənin fəziləti* 99
♦ *Sübh namazının sünnəsi* 99
♦ *Zöhr namazından qabaq qılınan namaz* 100
♦ *Zöhr namazından əvvəlki və sonrakı nafilələr* 100
♦ *Əsr namazından əvvəl qılınan nafilə* 101
♦ *Vitr namazı* 101
♦ *Duha namazı* 102
♦ *Təravih namazı* 105
♦ *Qiyamı uzun olan namaz* 106
♦ *Davudun ﷺ namazı* 106
♦ *Təsabih namazı* 107
♦ *Evdən çıxdıqda və evə girdikdə qılınan namaz* 108
♦ *Sünnələri evdə qılmaq* 108
♦ *Çoxlu səcdə etmək* 109
♦ *Gecə vaxtı namaz qılmaq* 110
♦ *Dəstəmaz namazı* 111
♦ *Namazda on, yüz və min ayə oxuyanın savabı* 113
♦ *Təklikdə qılınan nafilə namazlarının fəziləti* 113
♦ *Beytul-Məqdisdə namaz qılmağın fəziləti* 114
♦ *Misvak və ondan istifadə edib namaz qılmaq* 115
CÜMƏ 117
♦ *Cümə gününün fəziləti* 118
♦ *Cümə namazının fəziləti* 120
♦ *Cümə namazında xütbəni dinləyin və imama yaxın olun!* 123
♦ *Cümə qüslu* 123
♦ *Cümə gününün ilk saatında məscidə gələn* 124
♦ *Cümə günü camaatla qılınan Sübh namazı* 124
♦ *Cümə günü və ya gecəsi ölən* 124
♦ *Cümə günü deyilən salavat* 125

♦ *Cümə günü cəm olunan əməllər* 125
SƏDƏQƏ 127
♦ *Hər bir yaxşılıq sədəqədir* 128
♦ *Kim bu gün borc verərsə, sabah əvəzi veriləcək* 129
♦ *Süd sədəqə edən* 130
♦ *Qırx yaxşılıq* 131
♦ *Birinci özündən başla* 131
♦ *Ailənə xərcləməyi unutma!* 132
♦ *Savabını Allahdan um!* 133
♦ *Zəkat məmuru* 134
♦ *Su sədəqəsi* 134
♦ *Hər bir müsəlman sədəqə verməlidir* 135
♦ *Sədəqə halal qazancdan verilməlidir* 135
♦ *Vaxtında verilən sədəqə* 136
♦ *Ağac əkmək savab qazandırır* 137
♦ *Yeddi yüz qat savab* 138
♦ *Qoşa sədəqə vermək* 138
♦ *Orta yol tutmaq* 138
♦ *Sədəqə aclığı aradan qaldırır* 139
♦ *Qohuma verilən sədəqə* 139
♦ *Gizli sədəqə* 139
♦ *Sədəqə verən kasıblıqdan qorxmaz* 140
♦ *Uca Allah simiclik etməyənə nemətini əsirgəməz* 140
♦ *Hədiyyə də sədəqədir* 141
♦ *Xəsislə əliaçığın misalı* 141
♦ *Bir dirhəm sədəqə edən* 141
♦ *Verən əl alan əldən üstündür* 142
♦ *Sədəqə qəbrin hərarətini söndürür* 143
♦ *İnsan ölməmiş onun ruzisi tükənməz* 143
♦ *Zəkat* 144
HƏCC VƏ ÜMRƏ 145
♦ *Həccin fəziləti* 146
♦ *Ərafa gününün fəziləti* 148

♦ *Həccə gedərək yolda ölən* 149
♦ *Qəbul olunmuş həccin mükafatı* 149
♦ *Təlbiyə həccin nişanələrindəndir* 150
♦ *Qurbanlıq qoyunun fəziləti* 151
♦ *Zül-Hiccənin ilk on günü* 151
♦ *Həccdə saçlarını qısaldanlar* 152
♦ *Kəbəni təvaf etməyin fəziləti* 152
♦ *Həcərul-Əsvədin fəziləti* 153
♦ *Zəm-zəm suyunun fəziləti* 154
♦ *Ramazan ayında edilən ümrə* 155
ORUC 156
♦ *Orucun fəziləti* 157
♦ *Ramazan orucunun fəziləti* 158
♦ *Nafilə oruclar* 159
♦ *Ərafa və Aşura oruclarının fəziləti* 160
♦ *Muhərrəm ayında tutulan oruc* 161
♦ *Bazar ertəsi və cümə axşamı tutulan orucların fəziləti* 161
♦ *Şaban ayı tutulan orucun fəziləti* 161
♦ *Şəvval ayında tutulan altı gün oruc* 162
♦ *Hicri ayların on üçü, on dördü və on beşi tutulan oruclar* 163
♦ *Qədr gecəsinin fəziləti* 164
♦ *Evlənməyə imkanı olmayan oruc tutsun!* 164
♦ *Son əməl orucla bitərsə* 164
♦ *Səhurda bərəkət vardır* 164
♦ *İftarı tezləşdirmək* 165
♦ *İftar verməyin fəziləti* 166
CİHAD 167
♦ *Cihadin fəziləti* 168
♦ *Ən fəzilətli cihad hansıdır?* 168
♦ *Şəhidlər* 168
♦ *Şəhidin başqalarında olmayan xüsusiyyətləri* 171
♦ *Allah yolunda öldürülən Cənnətdədir* 171
♦ *Şəhidlər haradadırlar?* 171

- *Allah yolunda olan toz* 172
- *Cənnətə qirx il əvvəl girənlər* 173
- *Dənizdə olan cihad* 173
- *Şəhid olmağı sidq ürəklə istəmək* 173
- *İnsanların ən xeyirli olanı* 175
- *Allah yolunda olan mücahidin misalı* 175
- *İki göz, iki damcı və iki iz* 176
- *Şəhidlər qəbir fitnəsinə məruz qalmırlar* 177
- *Cihad Cənnət qapılarındandır* 178
- *Allah yolunda olan bir saat* 178
- *Onlara yardım etmək Allah üçün bir haqdır* 178
- *Allahın sevdiyi üç qism insan* 179
- *Allahın nümayəndələri* 179
- *Düşmənə ox atmağın fəziləti* 180
- *Allah yolunda ata sərf edilənlər* 181
- *Mücahidi təchiz edənin savabı* 182
- *Keşik çəkənin fəziləti* 183
- *Şəhidlərin ağası* 185
- *Şəhidlik borcdan başqa bütün günahlara kəffarədir* 185
- *Şəhidlər təkcə döyüş meydanında öldürülənlər deyil* 185

QURAN 189

- *Allaha yaxın olanlar* 190
- *Qurana möhkəm sarılın* 190
- *Ümmətin ən şərəfliləri* 191
- *Quran hafizi* 191
- *Quranı səsiniz ilə bəzəyin* 191
- *Qurandan bacardığınızı əzbərləyin* 192
- *Hər hərfə görə on savab* 192
- *Quran oxuyan ilə oxumayanın misalı* 192
- *Övladı Quran oxuyan valideynlərin fəziləti* 193
- *Allahı ﷻ və Onun Elçisini ﷺ sevmək Quran oxumaqla bağlıdır* 194
- *Qiyamət günü Quran şəfaət edəcək* 194
- *Gizli sədəqə ilə aşkar olan sədəqə* 194

♦ *Quranı öyrənin və başqalarına öyrədin* 195
♦ *Bir dəridə cəm edilən Quran* 195
♦ *Kimlərə həsəd aparmaq olar* 195
♦ *Yatmazdan əvvəl Quran oxuya bilməyən* 196
♦ *İlk yeddi surə* 196
♦ *Qəbul olunan adla edilən dua* 196
♦ *Bütün səmavi kitabları əhatə edən kitab* 196
♦ *əl-Fatihə surəsinin fəziləti* 197
♦ *əl-Bəqərə surəsinin fəziləti* 199
♦ *Kürsü ayəsinin (əl-Bəqərə, 255) fəziləti* 200
♦ *əl-Bəqərə surəsinin son iki ayəsi* 203
♦ *əl-Kəhf surəsinin fəziləti* 204
♦ *əl-Mulk surəsinin fəziləti* 205
♦ *əl-Kəfirun surəsi* 207
♦ *əl-İxlas surəsi* 207
♦ *əl-Fələq və ən-Nəs surələri* 209
♦ *Bəzi ayələrin təfsiri* 211
♦ *ən-Nəcm surəsində olan səcdə ayəsi* 212
♦ *Səcdə ayəsini oxuyanda səcdə edin* 212
♦ *Adəm övladına əmr olunan səcdə* 213
♦ *Min ayədən xeyirli bir ayə* 213
♦ *Oxunan hər ayənin xeyri* 213
BƏLA, XƏSTƏLİK VƏ ZİYARƏT 215
♦ *Ən çox bəlaya məruz qalanlar* 216
♦ *Bəla və xəstəliklər günahlara kəffarədir* 217
♦ *Gözlərini itirərək buna səbr edən* 225
♦ *Taundan ölən müsəlman şəhiddir* 225
♦ *Allahdan salamatlıq diləyin!* 226
♦ *Xəstə ziyarətinin fəziləti* 228
ƏXLAQ 230
♦ *Ümmətin ən xeyirliləri* 231
♦ *Cəhənnəm odu kimə haramdır?* 231
♦ *Əxlaqı gözəl olan mömin* 231

♦ *Bağışlanma yolunu tut!* 233
♦ *İslama gözəl tərzdə əməl edən* 233
♦ *Mülayimlik* 234
♦ *Valideyn haqqları* 235
♦ *Anaya yaxşılıq etməyin mükafatı* 237
♦ *Həya imandandır* 237
♦ *Cahiliyyətdə xeyirli olanlar...* 238
♦ *Müsəlman, mömin, mücahid və mühacir* 239
♦ *Salamın fəziləti* 240
♦ *İnsanların arasını möhkəmlət* 244
♦ *Dilini saxla* 245
♦ *Qonşu haqda* 248
♦ *Maneəni yoldan kənar etmək* 248
♦ *Dünyadan itirdiyinin sənə zərəri olmaz* 250
♦ *Yaxşılıq edənin misalı* 250
♦ *Yaxşılıq gözəl əxlaqdır* 250
♦ *Allahın ipindən möhkəm yapışın!* 251
♦ *Sənə aid olmayan işə qarışma* 251
♦ *Təbəssüm* 251
♦ *Üzüyola olmaq* 252
♦ *Kim Allahın işçilərindən hesab olunur?* 252
♦ *Mötədil olmaq* 252
♦ *Yaxşı dostla pis dostun misalı* 253
♦ *Allahın şahidləri kimlərdir?* 253
♦ *Əhdlərinə vəfa edənlər* 254
ZÜHD 255
♦ *Zahid olmağın fəziləti* 256
♦ *Zülm edəni əfv et!* 257
♦ *Bu ümmətin kasıbları* 257
♦ *Əsas niyyətdir* 258
♦ *Axirət əməlləri* 258
♦ *Dünyada qərib kimi yaşa* 259
♦ *Allah ruzini qardaşına görə də verə bilər* 260

♦ *Qəlb zənginliyi* 261
♦ *Allah bir qula xeyir istəsə onu istifadə edər* 261
♦ *Allah Elçisinin ﷺ nəsihətləri* 262
♦ *Namazı vida edənin namazı kimi qıl!* 269
♦ *Yoxsulları sev!* 269
ZİKR VƏ DUA 270
♦ *Duanın fəziləti* 271
♦ *Dua ibadətdir* 272
♦ *Dua etdikdə tələsmə!* 272
♦ *Hansı dua tez qəbul olunur?* 272
♦ *Gecənin axırında edilən dua daha fəzilətlidir* 272
♦ *Dua etməyin qaydası* 273
♦ *Duada əllərini Allaha doğru qaldıran* 274
♦ *Allahın adlarını sadalayan* 274
♦ *Müsəlman qardaşına etdiyin duaya "Amin" deyən var* 274
♦ *Dua bəlanın qarşısını alır* 275
♦ *Rədd olunmayan dualar* 276
♦ *Möminlər üçün bağışlanma diləməyin fəziləti* 277
♦ *Duaları çoxaldın* 277
♦ *Peyğəmbərə ﷺ edilən salavatın fəziləti* 278
♦ *Cəhənnəmdən sığınıb, Cənnəti istəyən!* 279
♦ *Zikrin fəziləti* 280
♦ *Dilin Allahın zikrindən qurumasın* 284
♦ *Azanı eşidən zaman deyilən zikr* 285
♦ *əl-Vəsilə* 286
♦ *Dəstəmazdan sonra deyilən zikr* 287
♦ *Məscidə girərkən edilən zikr* 288
♦ *Namazda edilən duaların fəziləti* 288
♦ *İstiftahda deyilən zikrin fəziləti* 290
♦ *Namazdan sonra edilən zikrlər* 290
♦ *Sübh namazından sonra edilən zikrlər* 292
♦ *İstiğfarın ağası* 294
♦ *Səhər və axşam edilən zikrlər* 295

♦ *Evdən çıxarkən nə deyilir?* 296
♦ *Yemək yeyərkən və paltar geyinərkən edilən dua* 296
♦ *Qonaq qalınacaq yerdə oxunan dua* 297
♦ *Minikdə deyilən zikr* 297
♦ *Bazara girdikdə edilən zikr* 298
♦ *Döyüşdən qaçan da bağışlanar* 299
♦ *Qədr gecəsində edilən dua* 299
♦ *Məclisin kəffarəsi* 299
♦ *Xəstəliyə qarşı edilən dua* 300
♦ *Bəlaya düçar olanı görərkən edilən dua* 301
♦ *Yatağa girərkən edilən zikr* 302
♦ *Qorxuya qarşı edilən dua* 305
♦ *Gecə oyanarkən edilən zikr* 306
♦ *Çalış qısa və mənalı dualar edəsən* 306
♦ *Kimin sözü mələklərin sözü ilə üst-üstə düşərsə* 307
♦ *Yunusun ﷺ duası* 307
♦ *Ən fəzilətli zikr hansıdır?* 308
♦ *Dünya və Axirətdə salamatlıq* 308
♦ *Dinini və dünyanı cəm edən dua* 308
♦ *Əmirin zülmünə qarşı edilən dua* 309
♦ *Şirkin azından da, çoxundan da çəkinin!* 310
♦ *Allahın əzəmətli adları* 310
♦ *Cənnəti vacib edən zikr* 312
♦ *Bismillah kəlməsi* 312
♦ *Ən gözəl təşəkkür* 313
♦ *Hansı zikri etdikdə Allah insanı oddan azad edir* 313
♦ *Şeytanların ordularını darmadağın edən zikr* 314
♦ *Müsibət halında deyilən dua* 314
♦ *Yə Zəl-Cələli Vəl-İkram* 315
♦ *Lə ilahə illəllah kəlməsini deməyi çoxaldın* 315
♦ *Lə ilahə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir* 315
♦ *Lə ilahə illəllahu, vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-* 319

həmdu, yuhyi və yumit və huvə alə kulli şeyin qadir
♦ *Lə iləhə illəllahu vahdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu, yuhyi və yumit, biyədihil-xeyru və huvə alə kulli şeyin qadir* 320
♦ *Lə həulə və lə quvvətə illə billəh* 321
♦ *Subhənəllah, Əlhəmdulilləh, Lə iləhə illəllah və Allahu Əkbər* 322
♦ *Hansı kəlmələrə görə Cənnətdə ağac əkilir* 331
♦ *Yüz təsbihə min savab!* 332
♦ *Təsbih, təhlil və təhmid – Ərşin ətrafında* 332
♦ *Rahmənə sevimli olan kəlmələr* 333
♦ *Subhənallahi və bihəmdihi* 333
♦ *Rahatlıq kəlmələri* 336
♦ *Sıxıntı və kədər anında edilən dua* 336
♦ *Bu zikri deyənin günahları bağışlanar* 338
SƏBİR VƏ ŞÜKÜR 340
♦ *Ən üstün iman* 341
♦ *Sarsıntının ilk anında olan səbr* 341
♦ *Hövsələli ol!* 341
♦ *Övladlarına qarşı səbrli olanın fəziləti* 341
♦ *Xəstəliyə səbr et!* 342
♦ *Allahın nemətlərinə şükür et!* 343
♦ *Allah rizasına görə qəzəbi boğmaq* 345
♦ *Əlli nəfərin savabi* 347
♦ *Dininə görə səbr edənlər* 347
♦ *Allah səbir diləyənə səbr verər* 348
♦ *Mömin qardaşına təsəlli verən* 348
♦ *Düşən uşaq itgi deyil* 349
♦ *Qarışıqlıq zamanı ibadətini çoxalt!* 349
♦ *Hər bir səbirdən sonra zəfər gəlir* 349
♦ *Kasıblığa səbr edənlər* 350
♦ *Möminin halı* 350
TÖVBƏ VƏ MƏRHƏMƏT 351
♦ *Tövbə* 352

♦ *İstiğfar etməyin fəziləti* 353
♦ *Allahı razı salmaq istəyi* 359
♦ *Allah kimi sevərsə...* 359
♦ *Hər hansı bir canlıya edilən yaxşılıq bağışlanmağa səbəb ola bilər* 360
♦ *Allah sevgisi* 360
♦ *Allah rizası üçün sevən bunu bildirməlidir* 362
♦ *Rəhmli ol ki, Allah da sənə rəhm etsin* 363
♦ *Allah rizasının fəziləti* 365
♦ *Allahın verdiyi rüxsətlərdən istifadə edin!* 366
♦ *Allah rizasi üçün bir-birlərini sevənlər* 366
ÖLÜM 370
♦ *Ölən müsəlman haqda olan şahidliklər* 371
♦ *Ölüm ayağında möminin qəlbində olanlar* 372
♦ *Övladı ölən səbir edərsə* 372
♦ *Meyitin qəbirdəki halı* 375
♦ *Mal, ailə və əməl* 377
♦ *Meyiti yuyan, kəfənləyən və qəbrini qazanın fəziləti* 378
♦ *Son əməl yaxşı əməl olarsa* 378
♦ *Müsəlman öldükdən sonra da ona savab yazıla bilər* 379
♦ *Əməlisaleh övladın faydası* 380
♦ *Malını müdafiə etmək haqlardandır* 380
♦ *Cənazədə iştirak etməyin fəziləti* 381
♦ *Cənazə namazının fəziləti* 381
♦ *Qəbir ziyarəti ölümü xatırladır* 382
İSLAM ÜMMƏTİ 383
♦ *Allahın ümmətə olan lütfü* 384
♦ *"...Səni məyus etməyəcəyik!" hədisi* 384
♦ *Muhəmməd ﷺ ümmətinin digər ümmətlərdən üstünlüyü* 384
♦ *Dini başa düşmək xeyirə aparan yoldur* 386
♦ *Ümmətlərin sonuncusu, Cənnətə girənlərin birincisi* 386
♦ *Şəfaət üçün saxlanılan dua* 387
♦ *Cənnət əhlinin əksəriyyəti bu ümmətdəndir* 387
♦ *Cənnətə kasıblar varlılardan daha tez girəcəklər* 387

♦ *"Siz Allahın yer üzündəki şahidlərisiniz!" hədisi* 388
♦ *Yağışın misalı kimi olan ümmət* 388
♦ *Bütünlüklə Cənnətə düşən ümmət* 388
♦ *Cənnətə sorğu-sualsiz girənlər kimlərdir?* 389
FƏZİLƏTLƏR 392
♦ *Allaha ən sevimli olan əməl* 393
♦ *Ən yaxşı qazanc* 393
♦ *Onları görəndə Allah yada düşər* 394
♦ *Allah ona görə edilən yaxşılıqları puç etməz* 394
♦ *Nur saçan ağ saçlar* 395
♦ *Xoşbəxtliyin əlamətləri* 396
♦ *Uzunömürlü müsəlmanın fəziləti* 396
♦ *Adəm oğlundan olan əməlisalehlərin fəziləti* 398
♦ *Təvazökarlıq* 399
♦ *Ədalətli olmaq* 399
♦ *Allah barəsində gözəl zənn* 400
♦ *Məclisdə qibləyə yönəlməyin fəziləti* 400
♦ *Asanlaşdırın* 400
♦ *Nemətlərə itaət etməklə nail olmaq olar* 401
♦ *Qohumlarla əlaqələri birləşdirən* 402
♦ *Küsülüləri barışdırın!* 403
♦ *Qəlb nə ilə yumşalır?* 403
♦ *Dul qadınlara, kasıblara və yetimlərə əl tutun!* 404
♦ *Bir gün ərzində cəm olan xislətlər* 405
♦ *Möminin qəlbi necə olmalıdır* 406
♦ *Məscid tikməyin fəziləti* 406
♦ *Müsəlmanı köləlikdən azad edənin mükafatı* 407
♦ *İnsanları İslama dəvət et!* 407
♦ *Xeyrin yolunu göstərənin savabı* 408
♦ *Cənnət qapılarından çağırılanlar* 409
♦ *Dilinə hakim ol!* 409
♦ *Müsəlman qardaşın haqqını qorumağın fəziləti* 410
♦ *Allahın öhdəsində olanlar* 410

- *Borca aid hədislər* 412
- *Borca düşdükdə edilən dua* 415
- *Şaban ayının on beşinci gecəsi* 416
- *Qan aldırmağın fəziləti* 416
- *Qaylulə* 419
- *Qadınlarla əlaqəli hədislər* 419
- *Bərəkət yaşlılarınızladır* 424
- *Mömin bir yuvadan iki dəfə sancılmaz* 424
- *Əbu Bəkr və Ömərin رضي الله عنهما Cənnətdəki üstünlüyü* 424
- *Cənnətin ən fəzilətli qadınları* 425
- *Cənnətin ən hörmətli cavanları* 426

CƏNNƏTİN VƏSFİ 427

- *Cənnətin vəsfinə dair bəzi ayələr* 428
- *Cənnətin vəsfinə dair bəzi hədis və əsərlər* 431
- *Cənnət padşahların məskənidir* 431
- *İstəyəndə Firdovs Cənnətini istəyin* 432
- *Cənnətə daxil olanlar arasında dərəcə fərqi vardır* 432
- *Allah Elçisinin ﷺ hovuzu* 433
- *Cənnət çadırları və iki Cənnət* 433
- *İçi çölündən, çölü içindən görünən otaqlar* 434
- *Cənnət əhli ölməyəcək* 434
- *Cənnət qapıları* 434
- *Cənətə daxil olanlara ilk töhfə* 435
- *Cənnət əhlinin xarici görünüşü və yaşları* 436
- *Cənnət əhli natəmizlikdən uzaqdırlar* 438
- *Cənnət əhli olan kişiyə verilən güc* 439
- *Hurilərin vəsfi* 440
- *Cənnət qadınlarının ərləri üçün oxuduqları mahnılar* 440
- *Cənnət xidmətçiləri* 441
- *Cənnətdə at vardırmı?* 441
- *Cənnət quşları* 441
- *Cənnətin evləri və torpağı* 442
- *Cənnətdə olan bazar* 443

♦ *Cənnət əhlinin libasları* 444
♦ *Tubə nədir?* 444
♦ *Cənnət ağacları* 445
♦ *Cənnət bitkiləri* 445
♦ *Cənnət meyvələri* 446
♦ *"(Cənnətin) meyvələri də tam onların ixtiyarina veriləcək"* 446
♦ *Cənnət çayları* 447
♦ *Cənnətə ən axırda daxil olana verilən nemətlər* 447
♦ *Sünnə şəriət mənbəyidir* 454
İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT 457
MÜNDƏRİCAT 459

QEYD

QEYD

QEYD

QEYD

QEYD

QEYD